AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Mübariz Əmirov

İNSAN VƏ CƏMİYYƏT

(Ali məktəblər üçün dərs vəsaiti)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 fevral 2010-cu il tarixli 178 saylı əmri ilə təsdiq edilmişdir.

BAKI – 2010

Milli Kitabxana

Elmi redaktoru: ***O.Sultanov**, **tarix elmləri doktoru, professor***

Rəyçilər: ***İ.İsmayılov**, **hüquq elmləri doktoru, professor***

Ə.Allahverdiyev**, **iqtisad elmləri doktoru, professor

Y.Qaraməmmədli**, **fəlsəfə doktoru, dosent

Mübariz Əmirov. İnsan və cəmiyyət. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, ADPU-nun nəşriyyatı, 2010, 581 s.

Ali məktəblər üçün nəzərdə tutulmuş "İnsan və cəmiyyət" adlı dərs vəsaiti ilk dəfədir ki, nəşr edilir. M.M.Əmirov ADPU-də "İnsan və cəmiyyət" fənninin bir neçə illik tədrisi təcrübəsini ümumiləşdirərək yetərli bir dərs vəsaiti hazırlayıb. Dərs vəsaitində insan və təbiət, insan və cəmiyyət, insanin iqtisadi həyatı, əxlaq, siyasət, insan inkişafı, hüquq və dövlət, qanun və dövlət, demokratiya, cəmiyyətin mənəvi həyatı məsələlərinə geniş yer verib. Dərs vəsaiti müəllimlər, tələbələr, magistrlər, aspirant və elmi işçilər üçün nəzərdə tutulub.Vəsaitdən – orta ixtisas məktəblərində IX sinifdən təlimə başlayan tələbələr də istifadə edə bilər.

© $\frac{1947-6109010}{1957(T)092010}$ -2010 Qrifli nəşri

"Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixidir. Tarix onun ədəbiyyatının, mənəviyatının tarixidir. Bu indi bizim üçün xüsusilə lazımdır... Tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq, ömrünün sonuna qədər lazımdır. Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin".

Heydər Əliyev

Dərs vəsaitinin yazılmasını zəruri edən amillər

Birincisi, ulu öndərimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nda şagirdlərə milli tariximizin, mədəniyyətimizin, adət və ənənələrimizin dərindən öyrədilməsi, onların yüksək mənəviyyatlı, vətənpərvər, milli-bəşəri dəyərlərə sadiq vətəndaşlar kimi tərbiyə edilməsinin irəli sürülməsi.

İkincisi, Azərbaycan Respublikası Təhsil naziri Misir Mərdanovun 19 mart 2009-cu il 339 saylı əmrindən irəli gələn tələblər.

Üçüncüsü, İslahat Proqramının sosial-iqtisadi fənlərin məzmununun müasirləşdirilməsi əsasında yeni dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasını tələb etməsidir.

ÖN SÖZ

Bu dərs vəsaitində öyrənəcəksiniz.
"İnsan nədir, kimdir? Haradan gəlib, hara gedir?
İnsan necə yaşayir? Təbiət və onun mahiyyəti.
Cəmiyyət və onun mahiyyəti"

Ali məktəb tələbələri üçün hazırladığımız "İnsan və cəmiyyət" adlı dərs vəsaiti həm məzmunu, həm quruluşu, həm də tələbələrin zəruri ehtiyacını ödəmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlar müstəqillik yollarında inamlı addımlarını atan Azərbaycanımızda təhsil islahatlarının həyata keçirilməsinə verilən töhfələrdən biridir.

İctimai şüuru dəyişmək, insanları yeni ictimai münasibətlərə hazırlamaq üçün orta məktəblərdə yeni fənnin – "İnsan cəmiyyət"in tədrisi məqsədəuyğun hesab edilmişdir.

Orta məktəblər üçün keyfiyyətli müəllim kadrlarının hazırlanmasında "İnsan cəmiyyət" fənninin də xüsusi əhəmiyyəti var. Yeni fənnin məzmununda politologiya, sosiologiya, dövlət və hüquq nəzəriyyəsi, insan hüquqları, fəlsəfə və insan anatomiyasına aid yetərli faktlar var.

Dərs vəsaitində tələbələri düşündürən, onları narahat edən aşağıdakı problemlərə geniş yer verilmişdir:

1) insanın həyatda qarşılaşdığı çətinliklərə və onların həlli yollarının izahına;
2) müasir insanın intellektual şəxsiyyət və nümunəvi vətəndaş kimi formalaşmasına;
3) insan hüquqlarının və vətəndaş cəmiyyəti, hüquqi dövlət məsələlərinə;
4) insanın öz dəyərini dərk etməsinə və kainatın sirrlərinə bələd olmasına və s.

Dərs vəsaiti hazırlanarkən çoxsaylı müasir ədəbiyyatlardan ümumiləşdirmələr əsasında istifadə edilib. Dərs vəsaitinin dili sadə, aydın tələbələrin başa düşəcəyi tərzdədir. Vəsait fənnin proqramına uyğun hazırlanmaqla yanaşı, çoxsaylı dioqramlar, cədvəllər, şəkillər, sxemlər onun oxunaqlığını və metodik aparatının zənginliyini də xeyli yüksəltmişdir. Dərs vəsaitinin tipoqrafik

tərtibatına da xüsusi diqqət yetirilib. Belə ki, mövzular, yarım mövzular, izahlar, şərhlər oxucunun diqqətini özünə cəlb etmək üçün rəngarəng şiriftlərdən istifadə olunmuşdur.

Vəsaitdə tələbələr aşağıda sadalanan problemlərə cavab tapacaqlar:

1. İnsanın özünü tanıması. İnsanın kimliyini təyin edən keyfiyyətlər. İnsanın ikili aləti. İnsanın xarici əlamətləri. İnsanın daxili aləmi. Ailə münasibətləri. Ailə və cəmiyyət. İnsanın məktəb həyatı. İnsanın yaş mərhələləri. İnsanın tələbatları və istəkləri. Zaman və səmərəli həyat. Həyatda uğur qazanmağın sirri. İnsan və təbiət. canlı və cansız təbiət insan nə verir.

2. İnsan – insan münasibətləri. Cəmiyyət anlayışının mahiyyəti. Münaqişələr və onların həlli yolları. Qaçqınlar məcburi köçkünlər. Sülh və sülh mədəniyyəti. Vətənpərvərlik, himnimiz, bayrağımız, gerbimiz. Dini dözümlülük. Yoldaşlıq və dostluq.

Şəxsiyyət anlayışı. Əxlaq. Mənəviyyat. Əxlaqın insan həyatında rolu. ətraf aləm və xoşbəxtlik. İnsan təbiəti, doğruluq və dürstlük. Yalan, saxtakarlıq, iftira. Sadəlik və təvazökarlığın mahiyyəti. Alicənablıq və mərhəmətlilik.

4. Siyasət onun yaradıcıları və icraçıları. Cəmiyyətdə hakimiyyət. hakimiyyətin suverenliyi və legitimliyi. Lider anlayışı. Siyasi partiyaların əlamətləri və növləri. Lobbiçiliyin mahiyyəti və onun hakimiyyətə təsiri.

5. Dövlətin meydana gəlməsi. Dövlətin əlamətləri və funksiyaları. Dövlətin idarəetmə formaları. Siyasi rejimin mahiyyəti. Hüquqi dövlətin mahiyyəti və əlamətləri.

6. Vətəndaş və vətəndaşlıq anlayışları. Vətəndaşlığa dair beynəlxalq prinsiplər. Vətəndaşın cəmiyyət həyatında iştirakı formaları. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu.

İnsan və iqtisadi həyat. Fiziki və zehni əmək. Əmək bölgüsü və ixtisaslaşma. Təsərrüfat və mülkiyyət. Təsərrüfatın üç başlıca cəhəti. Mülkiyyətin formaları. Bazar iqtisadiyyatı və onun formaları. Bank-kredit sistemi, pul kredit, valyuta, iqtisadiyyatda bankların rolu. Biznes və sahibkarlıq. Dövlət və iqtisadiyyat. Dövlətin iqtisadiyyata təsiri. Dövlət sifarişi. Büdcə və vergi siyasəti.

İnsan inkişafı anlayışı. Təbiətin, insanın və cəmiyyətin inkişafı arasında əlaqə. İnsan inkişafını müəyyən edən amillər. Maddi istehsalı və insan inkişafı. İstehsal münasibətlərinin insan inkişafına təsiri. Fərd və cəmiyyət: sosiallaşma. Cəmiyyətin sosial

strukturu. Cəmiyyətin siyasi həyatı ilə insanın inkişafı arasında qarşılıqlı əlaqə. Şəxsin siyasi prosesində iştirakı – siyasi fəaliyyəti və onun siyasi mədəniyyəti. Avtoritar və totalitar rejimlər, milli münaqişələr.

İnsan və vətəndaşın hüquq və azadlıqları. İnsan ləyaqəti anlayışı. İnsan və vətəndaş hüquqlarının təsnifatı. İnsan hüquqlarına dair ilk təsnifat. Azərbaycanda insan və vətəndaşın hüquqları və azadlıqları. Uşaq Hüquqları Konvensiyası.

Sosial və iqtisadi hüquqlar. Qənaətbəxş hüquqlar. Xüsusi mülkiyyət, seçki hüquqi. Söz, fikir və vicdan azadlığı. Vətəndaşların konstitutsiya vəzifələri.

Hüquq və dövlət. Konstitutsiya quruluşu və onun tərkib hissələri. Insan hüquqlarının qorunmasında dövlətin rolu. Ombudsman - insan hüquqları üzrə müvəkkil. Beynəlxalq humanitar hüquq.

Qanun və dövlət. Qanunun mahiyyəti və əlamətləri. Konstitusiya ali qanundur. Milli Məclis qanunverici orqandır. Məhkəmə hakimiyyəti, İcraedici hakimiyyət, Qanunverici hakimiyyət. Yerli özünüidarəetmə orqanları.

Demokratiya və cəmiyyət. Demokratik cəmiyyətdə plüralizm və tolerantlıq. Demokratik cəmiyyətdə stereotiplərə qarşı mübarizə.

Demokratik cəmiyyətdə seçkilər. Vətəndaşın seçki hüququ. Referendum və parlamentli demokratiya. Bələddiyyə, parlament və prezident seçkiləri.

Cəmiyyətin mənəvi həyatı anlayışı. Cəmiyyət və elm. Müasir elmin xüsusiyyətləri. Təhsil, incəsənət din və etik tərbiyə. Etik tərbiyə anlayışı. Əxlaq və din. Əxlaq insan fəaliyyətini tənzimləyən sosial mexanizmdir. Bəşəriyyətin qlobal problemləri. Müharibə, nüvə silahının yaranması, "Sülh" anlayışı. Əhali artımı. Energetika. Terrorçuluq, QİÇS – mübarizə.

Əziz tələbələr siz yuxarıda sadaladığımız və sadalaya bilmədiyimiz çoxsaylı problemlərə və suallara cavab tapmaqla insan anlayışını, insanın kimliyini, haradan gəlib hara getdiyini öyrənəcəksiniz. Siz həmin suallara cavab tapmaqla həm həyata hazırlanacaqsınız, həm də XXI əsrin müəllimi kimi formalaşacaqsınız. Güman edirəm ki, çox ağır zəhmətin məhsulu kimi ərsəyə gəlmiş "İnsan və cəmiyyət" adlı dərs vəsaiti tələbələr və oxucular tərəfindən sevinclə qarşılanacaq.

Müəllifdən

I FƏSİL

İNSAN TƏBİƏTİN ÖVLADI, CƏMİYYƏTİN ÜZVÜDÜR

1. İnsan və cəmiyyət fənninin predmeti, məqsədi və vəzifələri

Bütün elmlər fəlsəfədən törəndiyi kimi insan və cəmiyyət də fəlsəfədən törənmişdir. İnsan və cəmiyyət fənnin də öz tədqiqat obyekti var, predmeti vardır. Onun obyekti varlıqdır, cəmiyyətdir, təbiətdir, insandır, real gerçəklikdir. Fəlsəfədən fərqli olaraq insan və cəmiyyət fənni insanın, təbiətin, cəmiyyətin əsas cəhətlərini tədqiq edir və öyrənir.

Elmlər bir-birindən təkcə obyektlərinə görə deyil, mövzularına, yəni predmetlərinə görə də fərqlənir. Elmin predmeti o deməkdir ki, o öz obyektinə aid etdiyi cəhətlərə hansı baxımdan, hansı nəzəri və praktik aspektdən yanaşır. Elmin predmeti onun öz obyektinə yanaşma tərzini, tədqiqat metodlarını müəyyən edir. Insan və cəmiyyət fənni insan-təbiət, insan-cəmiyyət, insan-insan münasibətlərini öyrənir. Bu yeni fənn cəmiyyətin ayrılmaz hissəsi olan əxlaq, siyasət, insan - vətəndaş, insanın iqtisadi həyatı, insan inkişafı, insan hüquqları, hüquq və dövlət, qanun və dövlət, demokratiya və cəmiyyətin mənəvi həyatı məsələlərini öyrənir.

İnsan və cəmiyyət fənnini öyrənməklə siz yeni milli və ümumbəşəri dəyərlərə yiyələnəcək, müstəqil Azərbaycanın geniş dünyagörüşlü, layiqli vətəndaşı kimi tərbiyə olunmaq imkanı əldə edəcəksiniz. Bu məqsədə çatmaq üçün fənnin tədris prosesində insanın cəmiyyət, təbiət və dövlətlə qarşılıqlı münasibətləri haqqında ətraflı bilik əldə edəcəksiniz. Yeni fənn layiqli vətəndaşın, XXI əsrin şəxsiyyətinin formalaşdırılmasına yönəldilib.

İnsan və cəmiyyət fənni siz tələbələrdə hər hansı bir fikrə müxtəlif baxışlar formalaşdırmaqda kömək edəcək, hər birinizdə müstəqil düşünmək bacarığı formalaşdıracaq, fikir müxtəlifliyinin

yaranmasına motiv yaradacaq, fərqli baxışların yaranmasına zəmin yaradacaq, yenilikçilik, novatorluq və dözümlülük kimi müsbət keyfiyyətlər yaradacaq. Bir sözlə milli və ümumbəşəri dəyərləri özündə əks etdirən şəxsiyyətin formalaşmasına motiv yaradacaq.

Hərtərəfli şəxsiyyətin formalaşmasına nail olmaq üçün bu fənn aşağıda sadalanan vəzifələri də yerinə yetirməlidir:

1) İnsanın mənşəyini, mahiyyətini, tələbatlarını və ünsiyyət məsələlərini mənimsəməklə insanın özü haqqında biliklər əldə edəcəklər; 2) Cəmiyyətin mahiyyətini, cəmiyyət həyatını, münaqişə, sülh və dini dözümlülük kimi anlayışların mənimsədilməsi ilə tələbələrdə cəmiyyət haqqındakı biliklər dərinləşir və möhkəmlənir ki, bu da onlarda elmi dünyagörüşün formalaşmasına motiv yaradacaq; 3) Əxlaq, siyasət, hakimiyyət, dövlət və dövlətin meydana gəlməsi kimi biliklər tələbələrdə dövlətçilik ənənələrinə hörmət hissini formalaşdıracaq; 4) İnsanın iqtisadi həyatı, bazar iqtisadiyyatı, bank, kredit, dövlət və iqtisadiyyat, sığorta kimi anlayışların formalaşdırılması tələbələrin iqtisadi şüurunun formalaşmasına motiv yaradacaq; 5) İnsan inkişafını, insan və vətəndaşın hüquq və vəzifələri, azadlıqları, hüquq və dövlət, qanun və dövlət, demokratiya cəmiyyətin mənəvi həyatı məsələlərini öyrənməklə cəmiyyətşünaslıq haqqında dərin və geniş biliyə malik olacaqsınız.

Təbiət və cəmiyyət haqqında ən ümumi qanun və qanunauyğunluqların mənimsədilməsi XXI əsrin şəxsiyyətini və vətəndaşının formalaşdırılmasına motiv yaradır.

2. İnsanın mənşəyi haqqında fikir müxtəlifliyi

Təbiət reallıq olmaqla yanaşı, həm də ciddi fəlsəfi düşüncələrin və elmi axtarışların obyektidir. Bu məsələni aydınlaşdırarkən əvvəlcə «təbiət» anlayışının məzmununu açmaq lazımdır. Hər bir adamın intuitiv olaraq özü üçün aydın hesab etdiyi bu anlayışı diqqətlə araşdırdıqda məlum olur ki, burada hələ də dəqiqləşdirilməyə ehtiyacı olan cəhətlər az deyil. Təbiətə definitiv yanaşmaq, yəni ona bir mənalı və qısa tərif vermək çox çətindir.

Təbiət anlayışı əvvəllər təsəvvür edildiyi kimi, yalnız bilavasitə insanı əhatə edən coğrafi mühitdən ibarət deyil, bu anlayışa həm də gələcəkdə insan fəaliyyətinin obyekti ola bilən maddi sistemlər daxildir. Bu anlayış dəyişməz bir şey olmayıb insanın texniki imkanlarının genişlənməsi ilə daha da zənginləşir, yeni-yeni komponentlər kəsb edir. Məsələn, insanın kosmosa uçması ilə əlaqədar olaraq buraya günəş sisteminin də müəyyən bir hissəsini aid edirlər.

Beləliklə, "təbiət" geniş mənada dünyanı, aləmi, kainatı, sonsuz forma müxtəlifliyinə malik olan bütün mövcudatı əhatə edir. Bu mənada o, materiya, varlıq anlayışlarına çox yaxındır.

Təbiət onun "yaradılması" və təkamülü məsələsi fəlsəfi təhlildən hələ xeyli əvvəl mifoloji təfəkkürün obyekti olmuşdur. İnsan cəmiyyətinin ibtidai dövrlərində hər bir xalqın öz əsatirləri, mifləri var idi. Belə ki, dünyanın və həyatın mənşəyi, təbiət və orada baş verən hadisələr, insanlar, allahlar, əfsanəvi qəhrəmanlar və ruhlar haqqında onların hər biri ən qədim təsəvvür və etiqadlardan ibarət çoxlu rəvayətlər yaratmışlar. Bu rəvayətlərin içərisində təbiətin və insanın yaranması haqqındakı miflər, fantastik ideyalar xüsusi yer tutur.

Bu məsələnin təfsilatına varmadan qeyd etmək olar ki, bu əsatirlərdə təbiət və onun "yaradılması" insanın və heyvanların mənşəyi təsvir edilir. Yəni bu miflər daha çox kosmoloji və etnoloji xarakter daşıyır. Bu qədim miflərin əksəriyyətində dünyanın yaradılması prosesi allahların və əfsanəvi qəhrəmanların şər qüvvələrə qarşı mübarizəsi nəticəsində xaosun, qarma-qarışıqlığın tədricən nizama salınması vasitəsilə kosmosa çevrilməsi şəklində təsvir edilir. Bu miflərdə kosmosun formalaşması əvvəlcə göyün Yerdən ayrılması ilə başlayır. Sonra Yerin quru hissəsi ilk okeandan ayrılır və təbiətin üç ayrılmaz hissəsi: göy, yer və okeanlar əmələ gəlir.

İbtidai dövrün miflərində dünyanın yaranması bəzən də əfsanəvi qəhrəmanlar tərəfindən təbiətin və mədəniyyətin ayrı-ayrı ünsürlərinin onların ilkin sahiblərinin əlindən alınaraq zəbt edilməsi yolu ilə baş verməsi şəklində təsvir edilir. Qədim yunan

əsatirlərindən birində təsvir edilən mifik qəhrəman Prometeyin odu Olimp dağındakı allahlardan alaraq insanlara bağışlaması buna misal ola bilər.

Antey, Prometey, Herakl, Hörmüz və Əhriman kimi mifik qəhrəmanlar bu gün də yaşayır, onlar ədəbiyyata və incəsənətə qovuşaraq əbədiləşmişlər.

Ətraf Aləm haqqında biliklər genişləndikcə təbiət tədricən onun qanunlarını öyrənən, onu tədqiq edən, sirlərini açan elmlərin, yəni təbiətşünaslığın obyektinə çevrilmişdir. Bu elmlər konkret dəlillər, faktlar əsasında sübut etmişlər ki, təbiətin böyük tarixi var, o, indiki inkişaf səviyyəsinə gəlib çatana qədər uzun və mürəkkəb bir təkamül yolu keçmişdir.

Təbiət hər şeydən əvvəl obyektiv reallıqdır, yəni o, insanların şüurundan, iradəsindən, istək və arzularından asılı olmayaraq mövcuddur. Hələ insanlar yox ikən təbiət mövcud olmuşdur. Bu cəhəti ona görə xüsusi qeyd etmək lazım gəlir ki, bunun əksini iddia edən fəlsəfi cərəyanlar da mövcuddur.

İnsan yalnız təbiətdə, müəyyən təbii şəraitdə yaşaya bilər. Odur ki, o daim təbiəti, oradakı predmetləri, proses və hadisələri öyrənməyə, dərk etməyə və onlardan öz xeyrinə istifadə etməyə can atmışdır. Hollandiya filosofu Spinoza yazırdı: "Təbiət həmişə və hər yerdə eynidir. Təbiətin hadisə və proseslərinin əsasında duran qanun və qaydalar da həmişə və hər yerdə eynidir. Odur ki, idrakın əsas vəzifəsi təbiətin bu universal qanunlarını dərk etməkdir".

Şərq mütəfəkkirləri hələ bundan xeyli əvvəl təbiəti elm vasitəsilə dərk etməyə çağırırdılar.

İnsan hələ qədim zamanlardan başlayaraq həm də təbiətin fəlsəfi izahını verməyə, onun ümumi mənzərəsini yaratmağa, mənşəyini aydınlaşdırlmağa, ona öz münasibətini formalaşdırmağa, orada öz yerini müəyyənləşdirməyə çalışmışdır. Yuxarıda qeyd edildiyi kimi, bu, əvvəllər təbiət haqqında çoxlu miflərin, əsatirlərin, dini rəvayətlərin meydana gəlməsinə səbəb olmuşdur. Sonralar insanlar bunun üçün elmi biliklərdən istifadə etməyə başlamışlar.

"Təbiət" anlayışı tarix boyu təkamülə, ciddi dəyişikliklərə məruz qalmışdır. Müxtəlif dövrlərdə bu anlayışa bir-birindən əsaslı surətdə fərqlənən məzmunlar verilmiş, bu haqda müxtiəlif fikirlər irəli sürülmüşdür. Fəlsəfə və təbiətşünaslıq tarixinə müxtəsər də olsa nəzər saldıqda təbitə olan baxışların, bu haqqındakı təsəvvürlərin zaman-zaman necə kəskin şəkildə dəyişilməsinin, bir-birini əvəz etməsinin, təbiətin müxtəlif fəlsəfi təhlilinin, inteqrasiyasının, yozumunun şahidi oluruq.

Müasir fəlsəfədə və elmdə təbiət haqqında formalaşmış təsəvvürlər qədim yunan naturfəlsəfəsində və elmində təbiət mənasında işlədilən "fyusis" məvhumundan (ehtimal edilir ki, fizika elminin adı da məhz bu sözdən götürülmüşdür), eləcə də latın dilindən götürülmüş və orta əsrlərdə geniş yayılmış "natura" ("təbiət") anlayışından xeyli fərqlidr.

Antik dövrün fəlsəfəsində də bütövlükdə təfəkkür tərzində təbiətin kortəbii, dağıdıcı, heç bir qanunauyğunluğa tabe olmayan qüvvələr səltənəti olması haqqındakı bəzi fikirlərə baxmayaraq, o, əsasən, hərəkətdə və inkişafda olan bütöv bir tam halında təsəvvür edilirdi. Bu zaman təbiətdə baş verən proses və hadisələrin müəyyən bir nizama, qanunauyğunluğa tabe olması haqqında fikirlər irəli sürülür və bu, təbiətin nizamsız hadisələr yığınından, xaosdan ibarət olduğunu iddia edən ideyalara qarşı qoyulurdu. Təbiət haqqında irəli sürülən sadəlövh fikirlərlə yanaşı, buradakı cisimlərin, proses və hadisələrin qarşılıqlı əlaqəsi, asılılığı, birinin digərindən törəməsi haqqında orijinal ideyalara da rast gəlirik. Təkcə bunu demək kifayətdir ki, qədim yunan filosofu Anaksimandr insanın başqa canlılardan əmələ gəldiyini iddia etdiyinə görə Darvinin sələfi hesab edilir.

Həqiqətən, bu zaman insan nəinki özünü təbiətin ağası hesab etmir, əksinə təbiəti özündən üstün hesab edirdi. Təbiətdən ciddi şəkildə asılı olan insan ondan mərhəmət gözləyirdi.

Qədim filosofların təbiət haqqındakı ontoloji təlimlərində də maraqlı fikirlərə rast gəlirik. Onların böyük bir qismi sadəlövh şəkildə olsa da, təbiətə ciddi başlanğıc kimi yanaşır, onun su, torpaq, od və hava kimi təbii ünsürlərdən, onların müəyyən nisbətdə

birləşməsindən və yaxud da «apeyron» adlandırılan, konkret forması və xassələri olmayan, qeyri-müəyyən maddədən əmələ gəldiyini iddia edirdilər. Bu fikirlər hələ eramızdan əvvəl VI əsrdə qədim Yunanıstanın Mileet şəhərindəki naturfəlsəfi məktəbin baniləri Fales, Anaksimandr və Anaksimen tərəfindən irəli sürüldü. Onlar təbiət haqqındakı mühakimələrini o zaman geniş yayılmış mifologiya, əsatir əsasında deyil, naturfəlsəfi ideyalarla, elmi biliklərlə əsaslandırmağa çalışırdılar. Əlbəttə, bu ideyaların kökü Krit-Miken mədəniyyətinə və onun vasitəsilə daha qədim olan Şərq mədəniyyətinə (Hindistan, Lidiya, Babilistan və Misir) gedib çıxırdı.

Bu dövrün əksər filosofları təbiətin yoxluqdan yaranması fikrini rədd edirdilər. Bu cəhətdən qədim Yunanıstandakı Eley fəlsəfi məktəbinin banisi Parmenidin "Təbiət haqqında" adlı əsərində irəli sürdüyü aşağıdakı fikir çox səciyyəvidir. O yazırdı: "Varlıq mövcuddur, qeyri-varlıq isə mövcud deyil. Yoxluqdan varlığa və varlıqdan yoxluğa keçid qeyri mümkündür". Bu fikir təbiətin heçlikdən yaranması və nə zamansa onun məhv olacağı, yox ola biləcəyi haqqındakı ideyalara qarşı yönəlmişdir.

Bu cür fikirlərə biz Empedoklun, Lukretsi Karın və digər qədim filosofların əsərlərində də rast gəlirik. Empedokl yuxarıda göstərilən dörd ünsürü "bütün cisimlərin kökü" adalandırmışdır. O, "Təbiət haqqında" adlı poemasında Parmenidin fikirlərinə tərəfdar çıxmışdır.

Lakin burada bəzən başlanğıc olan təbiətin əvvəlcə donub qalmış, hərəkətsiz, inert halda olduğu və "nus" adlandırılan zəkanın onu hərəkətə gətirməsi haqqında fikirlərə də rast gəlirik.

Orta əsrlərdə təbiət haqqında, onun mənşəyi, strukturu və inkişafı haqqında bunlardan köklü surətdə fərqlənən görüşlər sistemi formalaşmışdır. Bu dövrdə hökmran olan dini dünyagörüşü təbiət haqqındakı təsəvvürlərə də ciddi təsir göstərmişdir. Burada təbiətin su, torpaq, od və hava kimi təbii qüvvə və cisimlərdən yarandığını və daim hərəkətdə olduğunu iddia edən qədim materialist filosoflardan fərqli olaraq, onun yoxluqdan, heçlikdən Allah tərəfindən yaradılması və idarə olunması, əsasən inkişafsız

vəziyyətdə olması iqrar edilrdi. Bu zaman təbiət həm də şər qüvvələrin mənbəyi hesab edilərək insana qarşı qoyulurdu. Bu fikir xristianlıq aləmində daha geniş vüsət almışdı. Burada belə bir fikir hökmran idi ki, insanda təbii, cismani başlanğıc olan bədən ondakı ilahi başlanğıc olan ruhla ciddi ziddiyyət təşkil edir. Ruhun paklığa, müqəddəsliyə can atması və insanı bu yolla aparmaq cəhdi bədənin "çirkin işlərə" sürükləyən təbii meylləri, cismani tələbatları ilə bir yerə sığa bilmir. Xristianlıqda müvəqqəti mövcud olan bədənin əbədi olan ruhu özündə əsir edərək məhbus kimi qəfəsdə saxlaması ideyası təbiətin şər qüvvələrin mənbəyi olması, onun insana qarşı qoyulması üçün əsas götürülmüşdür. Belə bir fikir geniş təbliğ edilirdi ki, Allah insanlara dünyanı və onu yaradanı dərk etmək üçün iki bilik mənbəyi, iki "kitab" bəxş etmişdir. Bunlardan biri müqəddəs yazılar, digəri isə təbiətdir. Allah təbiəti ona görə xəlq etmişdir ki, insanlar bu "əsərə" baxıb onları yox yerdən yaradanın böyüklüyünü, hər şeyə qadir olmasını dərk etsinlər.

Orta əsrlərin təfəkküründə təbiət haqqındakı təsəvvürləri səciyyələndirən cəhətlərdən biri də bu idi ki, burada qədim dövrün fəlsəfəsindən gələn vahidlik, yaradılmazlıq və yox olmazlıq kimi ideyalar təbiətə deyil, onun yaradılmasına aid edilirdi. Qədim yunan fəlsəfəsində dünyanın dörd ünsürdən: su, od, torpaq və havadan yaranması ideyası dahi Nizami Gəncəviyə qədər gəlib çıxmışdır. Lakin Nizami qədim yunan filosoflardan fərqli olaraq, dünyanın əsasında duran dörd ünsürün Allah tərəfindən yaradıldığını göstərirdi. O, "İsgəndərnamə" poemasında bu fikri belə ifadə etmişdir:

Dörd ünsür yaratdı o pərvərdigar,
Hərə öz yerində oldu bərqərar,
Çatdı bir-birinə onları həyat,
Yaratdı bunlardan bitki, nəbatət,
Bitki də başqa cür artdı, dirçəldi,
Cürbəcür heyvanlar vücuda gəldi.

Polşa astronomu və mütəfəkkiri Nikolay Kopernikin kəşf etdiyi Heliosentrik sistem təbiət haqqındakı elmlərdə, təbiətə olan baxışlarda ciddi bir təbəddülat, böyük bir çevriliş yaratdı.

Heliosentrik sistem Aristotel-Ptolemey geosentrik sistemini tamamilə rədd etdi və onun əsasında qurulmuş dini dünyagörüşə sarsıdıcı zərbə endirdi. Kopernik "Səma sferalarının dolanması" adlı əsərində əslində hələ eramızdan əvvəl III əsrdə yaşamış Samoslu Aristraxın heliosentrik sistem haqqındakı çoxdan unudulmuş ideyasını dirçəldərək elmi cəhətdən əsaslandırılmış və daha da inkişaf etdirmişdir. Odur ki, F.Engels "Təbiətin dialektikası" adlı əsərində çox haqlı olaraq Aristraxı qədim dünyanın Koperniki adlandırmışdır.

Bu kəşf astronomiya ilə yanaşı, digər təbiət elmlərinin də inkişafına ciddi təkan vurdu, onlar Nəsrəddin Tusi, Qaliley, Kepler, Dekart və Nyuton kimi dahi alimlər tərəfindən daha da dərinləşdirildi. Kopernikin bu kəşfi həm də müəyyən idraki-qnoseoloji əhəmiyyət kəsb edirdi. Bu kəşfi ilə o həm də sübut etdi ki, təbiətdəki proses və hadisələr heç də həmişə gözlə göründüyü kimi deyil, bəzən hətta onun tam əksinə olur. Odur ki, elmin başlıca vəzifəsi "görünənlərin arxasındakı görünməyənləri üzə çıxarmaqdır". Göründüyü kimi, bu kəşf mahiyyət və təzahür kateqoriyalarının qarşılıqlı əlaqəsi haqqındakı təsəvvürləri də xeyli zənginləşdirdi.

Kopernikin ideyalarından təsirlənən italyan filosofu və sairi Cordano Bruno təbiətin inkişafına dair orijinal fikirlər irəli sürmüşdür. "Sonsuzluq, Kainat və dünyalar haqqında" adlı əsərində o, təbiətin sonsuzluğu, Kainatın hüdudsuzluğu ideyasını əsaslandırmağa çalışmışdır. Mütərəqqi təbii-elmi görüşlərinə görə o, kilsə tərəfindən təqiblərə məruz qaldığı üçün ölkəni tərk edərək uzun müddət Fransa, İngiltərə və Almaniyada yaşamışdır. Yenidən İtaliyaya qayıdarkən bidətçilikdə təqsirləndirilərək 8 il həbsxanada saxlanıldıqdan sonra diri-diri tonqalda yandırılmışdır.

Orta əsrlərdə Şərqdə, o cümlədən də Azərbaycanda azad fikirliliyin ortodoksal islama zidd ideyaların təqib olunması geniş vüsət almışdır. Məşhur filosof və alim Eynəlqüzət Miyanicinin, Fəzlullah Nəiminin, Nəsrəddin Tusinin və digər mütəfəkkirlərin aqibəti buna parlaq misaldır. E.Miyanəçi panteist ideyalarına görə uzun müddət Bağdad həbsxanasında saxlanıldıqdan sonra 32

yaşında edam edilmiş, "Mənəm haqq!" deyən İmadəddin Nəsiminin dərisi diri-diri soyulmuşdur.

Maraqlıdır ki, nə E.Miyanəçi, nə İ.Nəsimi, nə F.Nəimi, nə də C.Bruno ateist olmamış, Allahın varlığını inkar etməmişlər. Onlar Panteist naturfəlsəfə mövqeyindən çıxış edərək belə hesab edirdilər ki, Allah təbiətdən kənarda, onun fövqündə deyil, onun içərisindədir, orada mövcud olan sonsuz cisim və proseslərin özlərindədir. Onlar qeyd edirdi ki, insan təbiəti, oradakı cisimləri, proses və hadisələri dərk etməklə, həm də onların daxtilindəki Allahı dərk etmiş olur.

Geologiya, paleontologiya, arxeologiya və antropologiya sahəsində öz tədqiqatları ilə dünya şöhrəti qazanmış fransız alimi və filosofu Teyyar De Şarden təbiətin və insanın təkamülü və inkişafı haqqında çox qiymətli fikirlər söyləmişdir. Onun təbirincə, təbiət daim inkişaf edir, insan təbiətdəki tarixi təkamül prosesinin ən kamil məhsuludur. O, bu prosesi 3 dövrə bölür:

1) həyatdan (canlıdan) əvvəlki dövr – litosfera;

2) həyatın yaranması dövrü – biosfera; və nəhayət;

3) Insan fenomeni dövrü – noosfera.

O, təbiətin sonrakı təkamülündə insanın xüsusi rolunu qeyd edirdi. Doğrudan da, insan təbiətin inkişafında elə bir iz qoymuşdur ki, o yalnız təbiətin özü ilə birlikdə yox ola bilər.

Görkəmli alim və mütəfəkkirin bu ideyaları ortodoksal xristianlığın təbiət və insan haqqındakı ehkamlarını rədd etdiyinə görə o, əvvəl müəlliflik öz fəlsəfi əsərlərini çap etdirmək hüququndan məhrum edilmiş, sonralar isə ölkədən qovulmuşdur. 20 ildən çox Çində yaşadıqdan sonra Fransaya qayıtmış və ikinci dəfə ölkədən çıxarıldıqdan sonra ABŞ-da ömrünü başa vurmuşdur. Bu onu göstərir ki, Orta əsrlərdə tərəqqipərvər alim və mütəfəkkirlərin bidətçilikdə təqsirləndirərək amansızcasına təqib edən inkivizasiya məhkəmələri aradan götürülsə də, onun ruhu bizim əsrin əvvəllərinə qədər yaşamışdır.

Təbiətdə əbədi, aramsız dəyişmə və inkişaf baş verir. Bu prosesin səbəbi, hərəkətverici qüvvələri və istiqaməti də elmdə və fəlsəfədə diqqəti cəlb edən məsələlərdəndir. Bu haqda çox

rəngarəng fikirlərə rast gəlirik. Hələ qədim zamanlarda Aristotel "Ruh haqqında" adlı əsərində yazmışdır ki, "təbiət heç nəyi əbəs yerə etmir". Bununla o, təbiətdəki cisimlərin daxilində onların hərəkət və inkişafına təkan verən, bu inkişafın istiqamətini müəyyən edən fəal immanent bir qüvvənin olduğunu irəli sürürdü. Görkəmli filosof belə hesab edirdi ki, bu prosesi izah etmək üçün adi determinizm, mexaniki səbəb-nəticə əlaqələri kifayət etmir, hər bir insan həyatda öz qarşısına məqsəd qoyduğu kimi, hər bir cisim və bütövlükdə təbəiət də öz inkişafında müəyyən məqsədə can atır. Qədim yunan fəlsəfəsində bu qüvvə "telos" adlandırılırdı. Aristotelin fikrincə, bunlar hamısı ən ali məqsədə çatmaq üçündür. O, bunu entelexiya adlandırırdı. Aristotelə görə, bu, aşağıdan yuxarıya doğru yüksələn xətt üzrə baş verən inkişafın əsas məqsədidir. Cansız təbiətin canlıya çevrilməsinə olan meyli, ibtidai canlıların isə öz inkişafında şüura malik olmaq səviyyəsinə çatmağa can atması məhz bu səbəb üzündən baş verir. Bu fikirlər cansız təbiətdəki cisimlərin və hadisələrin inkişaf prosesində İnsana xas olan psixi xüsusiyyətlər kəsb etməsini iddia edən antropomorfizm konsepsiyasının, sonralar isə inkişafın məqsədi haqqında teleologiya adlı xüsusi təlimin yaranmasına gətirib çıxarmışdır.

Müasir elmdə və fəlsəfədə ayrı-ayrı canlı orqanizmlərin və bütövlükdə üzvi aləmin təkamül və inkişafında onları müəyyən məqsədə doğru aparan daxili bir qüvvənin olmasını iddia edən ortogenez adlanan təlim mövcuddur.

Təbiəti əvvəlcə cansız və canlı təbiətə, üzvi və qeyri-üzvi aləmə bölmək olar. Bunlar təbiətin inkişaf səviyyələridir. Canlılar hamısı cansız təbiətdən törəmişdir, odur ki, qeyri-üzvi aləmdə mövcud olan maddələrin demək olar ki, hamısını canlı orqanizmlərdə tapmaq olar. Lakin üzvi aləmlə qeyri-üzvi aləmi heç bir vəchlə eyniləşdirmək olmaz. Yer üzərində canlının yaranması, üzvi aləmin, həyatın əmələ gəlməsi xüsusi problem olub ayrıca araşdırmaların obyektidir. Lakin yeri gəlmişkən qeyd etməliyik ki, canlını cansızdan, üzvi aləmi qeyri-üzvi aləmdən fərqləndirən bir sıra mühüm əlamətlər var. Maddələr mübadiləsi, törəmə, çoxalma

və artma, böyümə və inkişaf, qocalma və ölmə həyatın çox mühüm atributlarıdır.

Nəticədə təbii tarazlıq pozulur, ciddi ekoloji böhran baş verir, həyatın mövcudluğu təhlükə qarşısında qalır. Yalnız düşünülmüş, şüurlu surətdə, böyük uzaqgörənliklə həyata keçirilən insan fəaliyyəti bəşəriyyəti bu fəlakətdən xilas edə bilər. Odur ki, təbiətdən, onun sərvətlərindən səmərəli istifadə etmək ictimai-tarixi prosesin obyektiv qanununa çevrilir. Müasir dövrdə insanın təbiətdən asılılığı tamamilə başqa istiqamətdə baş verir və son dərəcə dramatik xarakter kəsb edir. Belə ki, insanın tələbatlarının artması, istehsalın həcminin durmadan genişlənməsilə əlaqədar buraya daha çox təbiət maddələri, xammal, enerji ehtiyatları cəlb edilir. Nəticədə planetimizdəki enerji daşıyıcılarının, qara və əlvan metalların, mineral ehtiyatlarının sürətlə artması imkanı yaranır, bu isə bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır.

İnsan təbiəti, onun füsünkar gözəlliklərini qoruyub saxlamalı və onları gələcək nəsillərə verməlidir. Göründüyü kimi, insanın təbiətə olan münasibəti yalnız istehsal sahəsi ilə məhdudlaşmır, o həm də mənəvi-estetik məzmun kəsb edir.

İnsan cəmiyyətin inkişafının və bəşəriyyətin fikir tarixinin uzunsürən təkamülü nəticəsində formalaşmışdır.

Bu anlayış öz nəzəri ifadəsini J.J.Russonun "ictimai müqaviləsində", hüquqi ifadəsini isə 1776-cı il ABŞ-ın müstəqilliyi haqqında bəyannamədə və 1789-cu ildə Fransada qəbul edilmiş «insan və vətəndaş hüquqları haqqında» bəyannamədə tapmışdır.

Qədim yunan filosoflarından Diogen "əlimdə fanar insan axtarıram" deyirdi. Pifaqor isə iddia edirdi ki, insan bütün şeylərin ölçüsüdür. Onlar insanı təbiətin ayrılmaz hissəsi hesab edirdilər.

Quldarlıq quruluşunda yalnız azad adamlar insan hesab edilirdi. Burada qul Insan sayılmırdı, odur ki, Platon qulu heyvan cinsi adlandırır, Aristotel isə "insan siyasi heyvandır", "qul danışan alətdir" deyirdi.

Epikür belə hesab edirdi ki, fəlsəfənin əsas məqsədi insanın xoşbəxtliyə çatması üçün təlim yaratmaqdır. Bu təlim insanı ölüm qorxusundan azad edərək xoşbəxtliyə çatdırmalıdır.

Qeyd etmək lazımdır ki, qədim yunan filosoflarının insan haqqındakı fikirləri konkret – tarixi dövrlə, cəmiyyətin tələbləri ilə bağlı olaraq yaranmış və inkişaf etmişdir.

Orta əsrlərin islam fəlsəfəsində insan bütün hadisələrin şərhində başlıca yer tuturdu. İslam filosofları göstərir ki, insanın mənəvi simasını müəyyən edən iki başlıca xətt var.

1) Özünüdərketmə;

2) Cəmiyyəti dərketmə.

İslam fəlsəfəsi insanı bir cisim kimi maddiyyatla, bir ruh kimi isə mənəviyyatla əlaqələndirir. Maddiyat (bədən) muvəqqəti, mənəviyyat (ruh) isə əbədirir.

İslam fəlsəfəsi ilə yanaşı, orta əsrlərdə Qərbdə ilahiyyat fəlsəfəsinin nümayəndələri də insan probleminə xüsusi diqqət yetirirdilər.

Orta əsrlərdə nisbətən yeni dövrdə insanin dünyadakı rolu xeyli dəyişmişdir. Bu dövrün filosofları Bekon, Hobbs və Spinoza insanı təbiət münasibətləri sisteminə daxil edir və onu idrakın predmeti hesab edirdilər. Onlar insanı bioloji və sosial – etik aspektdə tədqiq etməyi vacib hesab edirdilər.

Dekart isə insanın mahiyyətini onun ağıl və zəkasında görərək yazırdı: «Düşünürəmsə – deməli mövcudam».

XVIII əsr Fransız maarifçilərindən Russo, Holbax, Helvetsi, Didro, Lamerti və başqaları insan və cəmiyyət problemlərinə daha çox diqqət yetirmişlər. Onlar göstərirdilər ki, insan azad doğulur, lakin azad olmur. Insanın azad olması «ictimai müqavilə» əsasında mümkündür. Onlar insanı naturalist və mexanistik mövqedən izah edirdilər.

Orta əsrlərdə təhkimli kəndlilər o dövrün təsəvvürlərinə və qanunlarına görə tamhüquqlu Insan sayılmırdılar.

Yeni dövrün bəzi ideoloqları isə yalnız xüsusi mülkiyyətin sahibi olanları əsl insan hesab edirdilər. XIX əsrdə yaşamış ingilis sosioloqu Bentam yazırdı ki, insanı insan edən xüsusi mülkiyyət olmuşdur. Çünki xüsusi mülkiyyətin yaranması ilə insan köçəri həyatdan imtina etmişdir. Torpaq üzərində öz mülkiyyətini yaratmaqla insan öz nəslinə və Vətənə məhəbbət hissi yaratmışdır.

İnsanın konkret varlıq kimi öyrənilməsi, onun mahiyyətinin həm idealist, həm də materialist mövqedən izah olunması daha çox XIX əsrə təsadüf edir. Ona görə də fəlsəfə tarixində bu dövr xüsusi əhəmiyyət kəsb edir. Klassik alman fəlsəfəsinin nümayəndələri G.Hegel insan problemini idealizm, L.Feyerbax isə antropologizm mövqeyindən şərh etmişlər. Hegelin fəlsəfəsində insanın mahiyyəti "substansiya – subyekt" kimi mücərrəd şəkildə formulə edilmişdir. Onun fikrincə, substansiya insanın daxili mahiyyətidir. Substansiya hərəkət edən subyektdir.

L.Feyerbax isə öz fəlsəfəsində insanı təbiətdən ayırmır və onu konkret varlıq kimi götürürdü.

XIX əsrin ortalarında Danimarka mütəfəkkiri S.Kyerkoqor Hegelin mücərrəd insan ideyasına qarşı insanın «konkret» varlıgı haqqında təlimi yaratmışdır. Bu təlimin mərkəzi kateqoriyası ekzistensiya (mövcud olma) yeganə fəal başlanğıcdır. Lakin «mövcud olma» dedikdə heç də insanın sosial fəallıgını deyil, cəmiyyətdən təcrid olunmuş ayrıca insanın dini-etik aləmini nəzərdə tuturdu.

O, ekzintensiyaya fərdin keçirdiyi həyacanlara, duyğulara şüurun nəzarətinə tabe olmayan sahə kimi baxırdı.

Alman filosofu F.Nitsşe də insan haqqında bütöv bir təlim yaratmışdır. O, Insan iradəsini onun bütün fəaliyyətinin və hərəkətlərinin başlanğıcı hesab edirdi. Bu, hakimiyyətə doğru can atan instinktiv, irrasional başlanğıcıdır, insanın bütün hərəkətləri, hissləri və fikirləri bu instinktə tabedir. Onun fikrincə, təbiətdə və cəmiyyətdə heç bir obyektiv qanun, heç bir qanunauyğunluq yoxdur. Bu dünyanın yeğanə prinsipi iradənin hakimiyyətə doğru can atmasıdır. Nitsşenin "fəlsəfəsindən" çıxarılan başlıca nəticə budur ki, "İnsan vəhşi heyvana çevrilməli və özünü instinktlərin iradəsinə verməlidir".

Şopenhauer də Nitsşe kimi iradəni və instinkti əsas şərt, başlanğıc kimi qəbul edirdi. O göstərirdi ki, insan vəhşi heyvan kimidir, heyvanların həyatı əzab – əziyyət içərisində keçdiyi kimi, insanın da həyatı əzablarla doludur, çox zaman o, təsadüflərdən asılı olur.

Psixoloji cərəyanın nümayəndələri Q.Cilbert, B.Skinner, E.Fromm isə bundan fərqli olaraq, belə hesab edirlər ki, bütün bunlar insanın psixoloji keyfiyyətləri ilə bağlıdır.

İnsan probleminin hərtərəfli izahı onun sosial mahiyyətinin aşkar edilməsini, şüur və fəaliyyətini müəyyən edən motivlərin təhlil olunmasını, həyat tərzinin müxtəlif tarixi formalarının ətraflı öyrənilməsini, ondakı bioloji meyllərin meydana çıxmasının səbəblərini dərindən araşdırmağı tələb edir.

İnsanın əsl mahiyyətini öyrənmək üçün onu cəmiyyətdə götürmək lazımdır. Çünki insan cəmiyyətin məhsuludur, cəmiyyət isə fərdlərin əlaqə və münasibətlərinin məcmusunu ifadə edir. Bu əlaqə və münasibətlər – ictimai münasibətlər xaricində insanı təsəvvür etmək mümkün deyil. Insanın mahiyyəti ayrıca fərdə məxsus mücərrəd bir şey deyil, o, ictimai münasibətlərin məcmusudur.

3. İnsanın mahiyyəti

İnsanın mahiyyətini, onun mənşəyini, cəmiyyətin yaranmasını dərindən öyrənmək üçün antropososiogenezisi bilmək lazımdır. Insana ictimai münasibətlərin məcmusu kimi verilən tərifdən belə bir nəticə çıxarmaq olmaz ki, o yalnız sosial varlıqdır. Antropososiogenezis sözü üç sözün birləşməsindən əmələ gəlmişdir. **Antropo** yunan sözü olub – insan, **sosio** fransız sözü olub – cəmiyyət, **genezis** sözü isə – mənşə deməkdir. Antropososiogenezis dedikdə insanın və cəmiyyətin mənşəyi nəzərdə tutulur. Antropososiogenezis insanın fiziki tipinin əmələ gəlməsini, onun əmək fəaliyyətini və eləcə də cəmiyyətin inkişaf mərhələlərini, onların təkamül prosesini, bu prosesin amillərini və qanunauyğunluqlarını öyrənir. Antropososiogenezisin əsas problemlərinə ən qədim insanların yaranma yeri və dövrü, insanın bilavasitə əcdadı, onun fiziki tipinin təkamülü, mədəniyyətinin tarixi tərəqqisi, ibtidai cəmiyyətin və nitqin yaranması və inkişafı məsələləri daxildir. Antropoloji prosesdə: insanın təkamülündə və tarixi inkişafında əsas amil əmək fəaliyyəti olmuşdur.

Əmək alətlərinin hazırlanması və işlədilməsi getdikcə insanın təbiətə fəal təsirini artırmaq imkanı vermiş, bioloji amillərin təkamülə təsirini tədricən aradan qaldırmışdır. Insanın mənşəyi haqqında materialist nəzəriyyəsinin yaradıcısı Ç.Darvin onun insanabənzər meymundan əmələ gəlməsini sübut etməklə, insanın növ vahidliyini, eyni mənşəli olmasını əsaslandırmışdır. Darvinə görə, ən qədim insanlar Afrikada əmələ gəlmişdir. Lakin insanın ilk əmələgəlmə yeri hələ də mübahisələr doğurur. Bəzi tədqiqatçılara görə, ilk insan Mərkəzi və Cənub-Şərqi Asiyada yaşamışdır. Halbuki son 10-15 il ərzində Cənub-Şərqi Afrikada insanın ən uzaq əcdadının qalıqlarının tapılması və onun inkişaf ardıcıllığını sübuta yetirən başqa tapıntıların aşkar edilməsi insanın Afrikada əmələ gəlməsi haqqındakı fərziyyəni əsaslandırdı. Insanın əmələ gəlməsi, təkamülü və cəmiyyətin tarixi inkişafı ilə əlaqədar olaraq o, bir-birini əvəz edən aşağıdakı mərhələlərə bölünür: birinci, Insanın antropoid əcdadı – müntəzəm surətdə təbii əşyalardan (ağac və daşlardan, heyvan sümüyü qırıqlarından) istifadə edən, iki ayağı üzərində gəzən ali primatlardan; ikinci, ən qədim insanlar (arxantroplar və paleontroplar) – süni surətdə hazırlanmış və müəyyən həddə qədər mürəkkəbləşdirilmiş əmək alətlərinin meydana gəlməsi (cəmiyyətin təşkilinin ibtidai forması onlarla əlaqədardır); üçüncü, müasir fiziki quruluşlu insanlar (neoantroplar) – bu mərhələnin başlanğıcı son paleolit dövrünə aiddir.

Birinci mərhələni təmsil edən primatlar avstralopiteklərə aid edilir ki, onların sümük qalıqları Cənubi və Şərqi Afrikada aşkar edilmişdir. Onlara insanın ən yaxın əcdadının "modeli" kimi baxmaq olar. Insanın əcdadı avstralopitekə yaxın, nisbətən daha inkişaf etmiş beyinə malik və iki ayağı üzərində hərəkətli daha təkmilləşmiş primatlar olmuşdur. Onlar artıq təbii əşyalar (ağac və daş) üzərində bir qədər işləyib, onlardan alət düzəltməyi bacarırdılar. Onların qalıqları Afrikada aşkar edilmişdir. İkinci mərhələnin nümayəndələri – ən qədim Insanların (arxantropların) qalıqları isə Asiyada, Şərqi və Şimali Afrikada və Avropada aşkar edilmişdir. Arxantropların nəsli - qədim insanlar olan paleonatroplar (neandertallar) ikinci mərhələnin son dövrünə aid edilir. Onların

müasir insana oxşar xüsusiyyətləri daha çoxdur. Beyinləri həcminə və quruluşuna görə müasir beynindən demək olar ki, fərqlənmirlər. Paleontropların hazırladığı alətlər forma və vəzifələrinə görə çox müxtəlifdir. Bu dövrdə primitiv süni yaşayış yerləri meydana çıxır. Təsərrüfat fəaliyyətinin əsasını, xüsusilə iri heyvanları ovlayan kollektiv ovçiluq təşkil edirdi. Paleantropların təkamülü hələ də təbii amillərin, təbii seçmənin təsirinə məruz qalırdı. Xarici mühitin aşağı səviyyəsində olması ilə əlaqədar paleantropların bəzi qruplarının inkişafı ləngisə də, onların müasir insana – peoantropa (kamil insana) transformasiya yolu ilə getmişdir.

Üçüncü mərhələdə, yeni müasir insanlara – neoantroplara keçiddə əsas amil ictimai quruluşun və istehsal fəaliyyətinin təkmilləşməsi olmuşdur. Bunların sayəsində kollektiv irəliləyiş baş vermiş, həmin qrupların sayının tezliklə artmasına və geniş yayılmasına imkan yaranmışdır. Burada insanların ünsiyyət vasitələrinin, xüsusilə nitqin inkişafının çox böyük əhəmiyyəti qeyd edilmişdir. Nitq insan birliklərinin, əldə etdikləri konkret biliklərin, müşahidələrin, istehsal təcrübəsinin və əmək vərdişlərinin həmin kollektivlərin ayrı-ayrı üzvləri tərəfindən mənimsənilməsinə, toplanılmasına və onların nəsildən-nəsilə verilməsinə imkan yaratmışdır. Insanın təbiətdən asılılığının azalması, cəmiyyətin yaranması nəticəsində təbii seçmə təkamül amili kimi öz əhəmiyyətini təmamilə itirir, bununla da insanın növ və bioloji təkamülü bitmiş olur.

4. İnsanda biolojilik və sosiallığın vəhdəti. Təhtəlşüur və şüurluluq

İnsan fiziki və mənəvi, təbii və sosial, irsən keçən və həyatda əldə edilənləri bir vəhdət halında özündə birləşdirən canlı varlıqdır. Uşaq dünyaya gələrkən insan vücudunun spesefik quruluşunu, beyin strukturunu, genetik məlumat ehtiyatını irsən toplayır. Təbii istedad əlamətləri uşağın ancaq yaşlılarla ünsiyyət prosesində, sosial

həyat tərzi şəraitində yaranır və inkişaf edir. Insanda anadangəlmə qabiliyyət, bacarıq və ideyaların olması idealist təsəvvürdür. Insanın hərəkətləri, onun düşüncələri və həyat tərzi yaşadığı ictimai-siyasi şəraitdən, onu təmsil edən sosial qrupun xüsusiyyətlərindən və bir səra digər amillərdən asılıdır. Insanın mənəvi həyatı, davranış tərzi qabaqcadan proqramlaşdırılmır. Həyata qədəm qoyarkən insan əvvəlki nəsillərin fəaliyyətinin təcəssümü olan hadisə və proseslərlə qarşılaşır. Fəaliyyətin tarixən yaranmış sosial formaları insanın fərdi təşəkkülünün başlıca şərtidir. XIX əsrin II yarısından etibarən insanın bioloji təkamülün məhsulu olması ideyası geniş yayılmağa başladı. Bu vaxtdan etibarən insanı yüksək təşəkküllü heyvanlardan fərqləndirən cəhətlərin müəyyən edilməsi qarşıya çıxmışdır. Insanın sosial və bioloji mahiyyətinin araşdırılması onun heyvandan fərqli cəhətlərini öyrənməyə imkan verir.

İnsanın bioloji meyllərə malik olmasına baxmayaraq, o, tam başqa təbiətli varlıqdır. Heyvan kimi insanın da instinktləri var, lakin heyvanlardan fərqli olaraq, onun anadangəlmə davranışları instinktlərlə müəyyən olunmur.

"Anadangəlmə proqram" ifadəsi insana tətbiq olunduqda təmamilə başqa məna kəsb edir. Heyvanların instinkti davranışını müəyyən edən "genetik proqram" onların daxilindəki molekullardan, insanların hərəkət və davranışlarını tənzimləyən bu proqram isə onların dilində cəmlənmişdir. Artıq bir çox alimlər belə qənaətə gəlmişlər ki, insanın uşaq yaşlarından etibarən yaşlı nəsildən qəbul etdiyi dil onun davranışını tənzimləyən başlıca amildir. Insanı heyvandan fərqləndirən ən mühüm əlamət də məhz bu dil mədəniyyətidir. Buradan belə bir nəticə çıxarmaq olar ki, heyvan ona ana bətnində verilmiş "genetik proqramla" doğulduğu halda insan belə bir proqramı sonradan, həm də əsasən, dil vasitəsilə qazanır.

Əgər cəmiyyətə sadəcə olaraq öz aralarında qarşılıqlı təsirdə olan fərdlərin məcmusu kimi baxılarsa, onda sözsüz ki, «Heyvan cəmiyyətindən» də danışmaq lazım gələr. Halbuki heyvan birlikləri heç də cəmiyyət olmayıb "təbii instinktləri" "sosial instinktlərindən" çox-çox yüksəkdə duran sürüdü. Yalnız insanlar

cəmiyyət yaratmağa qadirdirlər. Bununla əlaqədar belə bir sual qarşıya çıxır: Insan cəmiyyətini heyvanların təbii birliyindən fərqləndirən nədir? Bu fərq hər şeydən əvvəl, onda özünü göstərir ki, insan cəmiyyəti birlik forması olmaq etibarı ilə adi bioloji ümumilikdən çox yüksəkdə durur. Insanların birliyi orqanizmlərin funksional ümumiliyi üzərində deyil, mədəniyyət normalarının vəhdəti üzərində yüksəlir. Mədəniyyətin olmadığı yerdə cəmiyyət də ola bilməz. Buradan isə aydın olur ki, mədəniyyət insan cəmiyyətini istənilən heyvan birliklərindən fərqləndirən başlıca amildir. Lakin öz-özlüyündə mədəniyyət cəmiyyətinin yaranmasını, mövcud olmasını izah edə bilməz. Mədəniyyət insanların qarşılıqlı əlaqəsinin, yaratdıqları maddi və mənəvi sərvətlərin nəsildən-nəslə verilməsi formasıdır.

İnsanı heyvandan həm şüuruna, həm nitqinə, həm də başqa əlamətlərinə görə fərqləndirmək olar. Insanlar heyvanlardan başlıca olaraq özləri üçün zəruri olan həyat vasitələri istehsal etməklə fərqlənirlər. Insanların sosial-mədəni birləşməsi olan cəmiyyət yalnız istehsal olan yerdə mövcud olur. İstehsal insanı yalnız heyvandan fərqləndirən əlamət deyil, həmçinin onun mayasını təşkil edən cəhətdir. İnsanın inkişafına sosial amilin həlledici təsiri heç də insanda bioloji amillərin aradan çıxması demək deyildir. Insanda bioloji və sosial cəhətlər dialektik cəhətdə mövcuddurlar.

Məlum olduğu kimi, insan son dərəcə mürəkkəb varlıqdır, o, təbiətin törəməsi, onun yüksək məhsuludur. Insan cəmiyyətdə yaşayır, o burada digər adamlarla müxtəlif sosial əlaqələrlə – iqtisadi, ideoloji və siyasi münasibətlərlə bağlanır. Buna görə də insan yalnız bioloji amillərin deyil, həm də sosial amillərin daşıyıcısı rolunu oynayır. Deməli, insan eyni zamanda həm təbiətlə, həm də cəmiyyətlə təmasdadır. Bu qarşılıqlı münasibət prosesində insan həm təbiətin, həm də cəmiyyətin təsiri altında formalaşır.

Təbiətin insanda yaratdığı tərəflərin məcmusu onun bioloji cəhətini, cəmiyyətin, yəni ictimai münasibətlər sisteminin formalaşdırdığı keyfiyyətlərin məcmusu isə sosial cəhətini təşkil edir.

İstehsal fəaliyyəti nəticəsində insandakı bioloji amillər əhəmiyyətli dərəcədə modifikasiyaya uğrayaraq heyvanlarla müqayisədə daha yüksək səviyyəyə qalxmışdır. Başqa sözlə, o, sosial amillərin təsiri altında bir növ "insanlaşmışdır".

Insan orqanizmi öz anatomik quruluşuna və fizeoloji funksiyalarına görə ali heyvanlarla bir sıra ümumi cəhətlərə malik olsa da, insanda əmək fəaliyyəti ilə şərtlənən bəzi yeni cəhətlər də vardır. Bu cəhətdən insanın heyvanla müqayisədə üstünlüyü ondan ibarətdir ki, onun bütün həyatı və fəaliyyəti özünün şüur və iradəsi altındadır. O yalnız özünün deyil, həm də başqalarının həyati tələbatlarını ödəmək üçün maddi nemətlər istehsal edir. Buna görə də Insanın istehsal elədiyi şeylər ictimai mahiyyət kəsb edir.

İnsanı nadir varlığa çevirən cəhət bir də odur ki, o, öz zəngin təcrübəsini şüurlu surətdə gələcək nəsillərə vermək qabiliyyətinə malikdir.

İnsanın sosial – bioloji mahiyyətinin izahında müxtəlif fikirlər olmuşdur. Uzun müddət fəlsəfədə insandakı bioloji amillərin rolunu mütləqləşdirmək meyli geniş yayılmışdır. Belə bir fikir hökm sürürdü ki, insan öz təbiəti etibari ilə bioloji varlıq olduğuna görə onu dəyişmək olmaz, onun formalaşmasına və tərbiyə edilməsinə xidmət edən sosial proqramların heç bir praktiki əhəmiyyəti yoxdur. Ümumi genetikanın nailiyyətlərinə əsaslanaraq bəzi alimlər belə güman edirlər ki, genetik üsullarla insanın fiziki və mənəvi keyfiyyətlərini yaxşılaşdırmaq mümkündür. Bu konsepsiyanın tərəfdarları genetik üsullarla bütün bəşəriyyətin mənəvi keyfiyyətlərini yüksəltməyi, digər qismi isə ancaq dahilər yetişdirməyi təklif edirlər. Insanın genetik strukturunu dəyişmək məqsədilə irsiyyət mexanizminə müdaxilə edilməsi sözsüz ki, mühüm elmi əhəmiyyət kəsb edir. Bu proses irsi xarakter daşıyan bir sıra xəstəliklərin aradan qaldırılmasına imkan verdi. Lakin nəzərə almaq lazımdır ki, insan irsiyyətinə yerli-yersiz müdaxilə məqsədəuyğun sayıla bilməz, o, arzuedilməz nəticələr də verə bilər.

Bütün bu deyilənlər göstərir ki, insan öz şəxsində həm bioloji, həm də sosial cəhətləri bir vəhdət halında birləşdirir. Lakin o,

başlıca olaraq sosial varlıqdır, öz insanlıq mahiyyətini yalnız cəmiyyətdə, başqa Insanlarla ünsiyyətdə kəsb edir.

Təhtəlşüur və şüurluluq

Biolojilik və sosiallıq məsələsi ilə fəlsəfi antropologiyada təhtəlşüur (şüur altı) və şüurluluq problemi də sıx əlaqədardır. Təhtəlşüur və şüurluluq insanın mövcudluğunun psixik və bioloji tərəflərini əks etdirir.

Uzun illər ərzində fəlsəfədə antropoloji rasionalizm prinsipi hökm sürmüşdür. Yəni insan, onun davranışının motivləri və varlığının özü ancaq şüurlu həyatın təzahürü kimi araşdırılmışdır. Bu bazış özünün parlaq təcəssümünü məşhur kartezian tezisində "cogito ergo sum" ("düşünürəm, deməli mövcudam") tapmışdır. Həmin planda insan da yalnız "ağıllı insan" kimi çıxış etmişdir. Lakin yeni dövrdən başlayaraq fəlsəfi antropologiyada getdikcə daha çox təhtəlhüur problemi diqqət mərkəzinə keçir. Leybnits, Kant, Kyerkeqor, Hartman, Şopenhauer, Nitşe kimi müəlliflər müxtəlif tərəf və mövqeləri hələ dərk etməyən insanın, psixik proseslərin rol və əhəmiyyətini təhlil etməyə başlamışdır.

Bu problemin işlənməsində fəlsəfi antropologiyada bütöv bir istiqamət yaradan Z.Freyd olmuşdur. O, təhtəlşüuru insanın mövcudluğunun mühüm amili, şüura qarşı dura bilən qüdrətli bir qüvvə kimi təqdim etmişdir. Onun konsepsiyasına görə insanın psixikası üç təbəqədən ibarətdir. Üçüncü təbəqə hesab etdiyi şüurun hüdudlarından kənardadır. Öz həcminə görə o, aysberqin su altında qalan hissəsi ilə müqayisə edilə bilər. Orada müxtəlif, hər şeydən əvvəl, seksual xarakterli bioloji ehtiras, meyl və şüurdan çıxarılmış ideyalar cəmlənmişdir. Sonra şüurluğun nisbətən böyük olmayan hissəsi – insanın "Mən"i (Ego) gəlir. Insan ruhunun yüksək təbəqəsi "Fövqəl–Mən" ("Super – Mən") gəlir. Bu, cəmiyyətin ideal və normalarıdır, borc və əxlaqi senzuradır. Freydə görə, şəxsiyyət bəşəri "Mən", daim dərk edilməmiş mühakimə olunan güclü təbəqə dediyimizlə "Fövqəl – Mən" əxlaqi – mədəni senzurası arasında mübarizədir.

Beləliklə, aydın olur ki, xüsusi "Mən – insanın şüuru" öz şəxsi evində sahib deyildir. Əslində ən qüdrətli üçüncü təbəqə, tamamilə zövq və ləzzət prinsipinə tabe olaraq insanın fikir, hiss və əməllərinə həlledici təsir göstərir. İnsan, hər şeydən əvvəl, seksual cəhd və seksual enerji (libido) ilə hərəkət edən və idarə olunan varlıqdır.

Freyddə insanın mövcudluğunun dramatizmi o vaxt güclənir ki, təhtəlşüur həvəsləri, istəkləri içərisində anadangəlmə dağıtmağa meylli qüvvələr fəaliyyətə başlayır. Burada «həyat instinkti»nə qarşı «ölüm instinkti» durur. İnsanın daxili aləmi bu iki qüvvənin meydanına çevrilir. Nəticədə Eros[1] və Tanatos[2] iki qüdrətli qüvvələr kimi insanın davranışını müəyyən edirlər.

Beləliklə, Freydin təsvir etdiyi insan bioloji istəklərlə, şüurlu sosial normalarla, zidiyyətlərlə birlikdə toxunulmuşdur (düzəlmişdir). Nəticədə bioloji təhtəlşüur Freyddə həlledici olur. Freydə görə, insan hər şeydən əvvəl erotik varlıq olub şüuraltı instiktlərlə idarə olunur. Təhətəlşüur problemi isveçrəli psixiatr K.Q.Yunqu da (1875-1961) maraqlandırmışdır. Lakin o, insanın erotik varlıq olması traktovkasına qarşı çıxmışdır. Artıq qeyd etdiyimiz kimi, "şəxsi təhtəlşüuru" fərdi təcrübə psixikasında inikas kimi ayırmış, daha dərin təbəqə kimi "kollektiv təhtəlşüuru irəli sürmüşdür". Onun fikrincə, "kollektiv təhtəlşüur" keçmiş nəsillərin təcrübəsinin inikasıdır. Kollektiv təhtəlşüurun məzmunu ümumbəşəri ilk obrazlar – arxetirlər (məsələn, ana – vətən obrazı, xalq qəhrəmanı, bahadır və s.) təşkil edir. Arxetiplərin məcmusini nəsillərin irs aldığı əvvəlki nəsillərin təcrübəsi yaradır. Arxetiplər miflərin, yuxugörmənin, bədii yaradıcılığın simvolikasının əsasında durur. Şəxsiyyətin mahiyyət nüvəsi fərdi və kollektiv təhtəlşüurun vəhdətini təşkil edir. Lakin burada da əsas yer kollektiv təhtəlşüura məxsusdur. Beləliklə, insan hər şeydən əvvəl, arxetip varlıqdar. Təhtəlşüur və şüurluluq problemi psixoanalizin digər tərəfdarları,

[1] ***Eros*** *(erot) – «məhəbbət». Yunan mifologiyasında məhəbbət allahı. 4 kosmoqonik başlanğıcdan biri. Xaos, Geya və Tərtərlə birlikdə. Parmenid Erosu ən qədim allahlardan biri, Afroditanı yaradan kimi təsvir edir.*

[2] ***Tanatos*** *- yunan mifologiyasında ölümün təcəssümü.*

Freydin şagirdləri tərəfindən inkişaf etdirilmişdir. Onlar Freydin təlimini dəqiqləşdirmiş və öz əlavələri ilə zənginləşdirib inkişaf etdirmişlər. Məsələn, A.Adler insanın bioloji və erotik determinasiyasını şişirdən Freydin təliminin həmin cəhətlərini tənqid etmişdir. Ona görə də insan nəinki bioloji, həm də sosial varlıqdır, həyat fəaliyyəti şüurlu maraqlarla əlaqədardır. Freydin əksinə olaraq, A.Adlerdə "təhtəlşüur şüura zidd gəlmir". Beləliklə, A.Adler müəyyən dərəcədə təhtəlşüuru sosiolojiləşdirir, insana baxışda təhtəlşüur ilə şüur arasında ziddiyəti aradan götürməyə çalışır.

İnsanın mövcudluq üsulunun və xarakterinin dəyişməsi cəmiyyətin dəyişməsi ilə əlaqələndirilir. Burada insanın mövcudluğunun əsas prinsipi «malik olmaq» deyil, "olmaq" yaxud "olum"dur. Beləliklə, təhtəlşüur probleminin işlənməsinə yeni-yeni əlavələr edilməsi fərdi və ictimai şüurun strukturunun tənqidində insan psixologiyasının sahəsini şüurluluq və təhtəlşüur dairələri ilə məhdudlaşdırmışdır. Bununla əlaqədar hazırda geniş yayılmış mentalitet (mentallıq) anlayışına diqqət yetirmək vacibdir. Mentalitet – **mens** – latınca – **ağıl, təfəkkür, fikir obrazı ruhi vəziyyət, fikirlərin, əqidələrin, ruhi vərdişlərin nisbətən bütöv məcmuudur**. Bunun sayəsində dünyanın mənzərəsi yaranır və mədəni ənənələri, yaxud da ictimai birlikləri möhkəmləndirir. Mentalitet kollektiv şüurun işini səciyyələndirir. Bu mənada o təfəkkürün spesifik tipi kimi başa düşülür. Lakin belə bir şübhə doğurur ki, insanın sosial davranışı fasiləsiz analitik fəaliyyətindən qətiyyən yaranmır. Ümumiyyətlə, konkret fərdin bu və ya digər dərəcədə onun əvvəlki sosial təcrübəsi, maraqları, sağlam düşüncəsi təsir edə bilər. Deməli, mentalitet insanlarda onların təbiətindən və sosial cəhətdən şərtlənmiş komponentlərindən doğan ən ümumi olandır ki, bu da öz növbəsində insanın həyatı və dünya haqqında təsəvvürləri aşkar edir. Insanları əhatə edənlərin dərk edilməsi, fikir sxemləri, obraz kompleksləri mentalitetdə öz mədəni təzahürünü tapır. Mentaliteti ictimai əhvali-ruhiyyədən dəyər oriyentasiyalardan və fenomen kimi ideologiyadan fərqlənlirmək lazımdır. O vərdişləri meyl, həvəs, kollektiv emosional şablonları ifadə edir. İctimai əhvali-ruhiyyə dəyişkəndir, qeyri-müəyyəndir, mentalitet isə daha

sabit xarakterlə seçilir. Mentalitet dəyər oriyentasiyalarını özünə daxil edir, lakin onunla da tükənmir. Dəyərlər dərk ediləndir, onlar həyati ustanovkaları, müqəddəslərin müstəqil seçimini ifadə edir. Lakin mentalitet eyni zamanda psixikanın şüursuz layı ilə əlaqədar olandır. Bu mənada o heç də həmişə onun daşıyıcıları ilə artikulyasiya əmələ gətirmir. Daha tez-tez mentalitet digər mentalitetlərə müqayisə yolu ilə tədqiqatçılar tərəfindən rekonstruksiya olunur. Təhtəlşüuru ələ keçirian mentalitet insanların həyatı və praktiki ustanovkasını, dünyanın sabit obrazlarını mövcud birliyə və mədəni ənənələrə xas olan emosional üstünlüyü ifadə edir. Mentalitet və ideologiya arasındakı fərqləri izah etmək mümkündür. O ideologiya kimi hərəkət obrazını motivləşdirir, lakin heç də həmişə dəqiq, refleksiya edilmiş dövran sxemi təklif etmr. İdeologiya təfəkkür formalarının və dəyər təsəvvürlərinin məcmuu kimi mentalitetə nisbətən daha analitikdir. Mentalitet anlayış kimi analitik təfəkkürü, yarımdərkedilmiş, mədəni şifrələrlə şüurun inkişaf formalarını birləşməyə imkan verir. Bu mənada mentalitet daxilində müxtəlif oppozisiyalar-təbii və mədəni, emosional və məntiqi prosesional və rasional, fərdi və ictimai olan nə varsa özünü tapa bilir.

Mentalitet tarixi ən ümumi tarixin daha geniş planına daxildir və cəmiyyətdə insanların həyatını formalaşdıran mədəni aspektin iqtisadi aspektdən az rol oynamadığını göstərir.

5. İnsan, fərd, fərdiyyət və şəxsiyyət

İnsan problemi ilə əlaqədar olaraq "insan", "fərd", "fərdiyyət" və "şəxsiyyət" anlayışların ümumi cəhətlərinin və fərqinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

İnsan – bütün "homo sariens"-lərə məxsus ümumi cəhətləri əks etdirən, yəni onları bütün heyvanlardan fərqləndirən növ anlayışıdır. Bir qədər əvvəl qeyd edildiiyi kimi, Insan anlayışı sosial və bioloji xarakteristikaları ehtiva edir, lakin bioloji cəhət sosial amillər tərəfindən "insaniləşdirərək" ciddi dəyişikliyə məruz qalır. "İnsan – əmək alətləri hazırlayan heyvandır". Bu tərif insanın bütün heyvanlardan olan fərqini ifadə edir, onun sosial mahiyyətini açmağa imkan yaradır. İnsan öz təbiəti etibarilə bioloji olduğu

halda, öz mahiyyəti etibarilə sosialdır. O, ictimai – tarixi fəaliyyətin və mədəniyyətin subyekti, dəqiq desək, mövcud ictimai münasibətlərin, ümumdünya tarixi-mədəni prosesin məhsuludur. Fərd – insan nəslinin, özünəməxsus ümumi və spesifik cəhətlərini özündə birləşdirən ayrıca nümayəndəsidir. Deməli, fərd cəmiyyəti və ya sosial qrupu təşkil edən nümayəndələrdən biri kimi özünü göstərir. Fərd həm bioloji, həm sosial, həm də psixi tərəflərə malikdir. Fərddə bu tərəflər bir-birinə culğalaşmış şəkildə mövcud olur. Beləliklə, fərd özünün antropoloji (bioloji) və ictimai (sosial) tərəflərinə nəzərən etinasızdır. Fərd bizim qarşımıza canlı orqanizmin malik olduğu fiziki və ruhi qabiliyyətlərin məcmusu kimi çıxır. Fərd dedikdə ayrıca, bir insan nəzərdə tutulur. Onun ümumi cəhətləri ilə yanaşı, fərdi cəhətləri də vardır.

"Şəxsiyyət" anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir və ondakı bu sosial tərəfin inkişaf dərəcəsini göstərir. Şəxsiyyət - yüksək zəkalılığı, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən şəxsdir. Şəxsiyyət müstəqil, sosial cəhətdən çox fəal olan adamdır. Şəxsiyyətin başlıca cəhəti onun ictimai fəaliyyətidir.

Insan anadan fərd kimi doğulur, şəxsiyyət kimi isə sonralar formalaşır. Əgər fərd anlayışı insanın ictimai münasibətlərin məhsulu olduğunu göstərirsə, şəxsiyyət alayışı onu daha çox bu münasibətlərin subyekti kimi səciyyələndirir.

Şəxsiyyət öz mahiyyətinə görə sosialdır, mövcudluq üsuluna görə fərddir. Fərd şəxsiyyətə çevrildikdə, həm də fərdiyyət xüsusiyyətini kəsb edir. Fərdiyyət hər bir fərdi başqalarından fərqləndirən spesefik, özünəməxsus konkret bioloji və sosial cəhətlərin məcmusudur. Hər bir adamın fərdiliyi bir tərəfdən bioloji amillərlə, digər tərəfdən isə sosial mühitlə, ictimai münasibətlər sistemi ilə şərtlənir. Beləliklə, "fərdiyyət" və "şəxsiyyət" anlayışları məzmunca qismən yaxındır. Bu yaxınlıq onda təzahür edir ki, bir tərəfdən bütün şəxsiyyətlər özünəməxsus keyfiyyətlərə malikdir, fərddir, təkrarolunmazdır, digər tərəfdən, məhz fərdilik şəxsiyyətin spesefikliyini ifadə edir. Lakin həmin anlayışları tam eyniləşdirmək

olmaz. Belə ki, əgər fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərini, orijinallığını ifadə edirsə, şəxsiyyət anlayışı dah çox insanın müstəqilliyini, əqidə möhkəmliyini, şəxsi simasını, prinsipiallığını, çətin vəziyyətlərdə müstəqil qərar qəbul etmək qabiliyyətini göstərir.

Fərdiyyət öz ifadəsini insanın təbii əlamətlərində, psixi xassələrində – hafizə, təxəyyül, temperament və xarakterində, onun simasının həyat fəaliyyətinin xüsusiyyətlərində tapır. İnsanın şüurunun bütün məzmunu: fikirləri də, mühakimələri də fərdi rəng alır. Hətta bunlar müxtəlif adamlarda da ümumi olduqda belə, haradasa müəyyən "özünəməxsusluqla" fərqlənir. Hər bir adam gördüyü işlərdə, irəli sürdüyü mühakimələrdə, insanlara münasibətdə öz xüsusiyyətlərini həkk etdirir. Şəxsiyyət isə yalnız öz xüsusiyyətləri cəhətindən deyil, həmçinin öz sosial – mənəvi keyfiyyətləri cəhətindən nəzərdən keçirilən bir insandır. Bu keyfiyyətlər həm müsbət, həm də mənfi ola bilər. Lakin çox zaman onlar müxtəlif nisbətlərdə insanın həm ləyaqətini, həm də çatışmazlıqlarını özündə birləşdirmiş olur.

Əməyin sayəsində heyvanlar cəmiyyətdə inkişaf edən, dilin köməyi ilə başqa adamlarla ünsiyyətə girən insan öz əməlləri sayəsində həyatın fəal dəyişdiricisinə çevrilir.

Şəxsiyyəti sosial mühitin passiv məhsulu kimi şərh etmək və şəxsiyyətdə fəal ictimai xadimi görməmək düzgün olmazdı. Şəxsiyyətin sosial təcrübəni mənimsəməsi prosesi onun daxili aləmi, istedadı vasitəsilə həyata keçirilir.

Şəxsiyyət fərdin sosail keyfiyyətlərinin ifadəsi, onların obyektiv və subyektiv xarakteristikalarının vəhdətidir. Lakin bu heç də bioloji və psixoloji amillərə laqeydlik göstərmək üçün əsas vermir.

Müasir fəlsəfi ədəbiyyatda şəxsiyyətin sosial strukturu haqqında qızğın mübahisələr gedir. Bu struktur insanın davranışının başlıca istiqamətini müəyyən edən obyektiv və subyektiv amillərin, habelə onların tərkib ünsürlərinin məcmusu olub, təkcə şəxsiyyət problemini öyrənmək üçün yox, həm də ona təsir göstərmək baxımından əhəmiyyətlidir. Fərdin sosial keyfiyyətləri onun

obyektiv surətdə daxil olduğu birliyin təsiri altında onun fəaliyyəti prosesində təşkil tapıb inkişaf edir. Şəxsiyyətin sosial strukturunda aşağıdakı ünsürləri qeyd etmək olar:

a) fəaliyyətin müxtəlif növlətində sosial keyfiyyətlərin reallaşması üsulu;

b) şəxsiyyətin obyektiv tələbatı və mənafei;

v) cəmiyyətin mənəvi sərvətlərə yiyələnmə dərəcəsi, yəni şəxsiyyətin mənəvi aləmi;

q) şəxsiyyətin rəhbər tutduğu əxlaqi normalapr və prinsiplər;

d) əqidə və əqidəyə sədaqət.

Hər bir şəxsiyyətdə bu struktur ünsürlərini müşahidə etmək olar. İnkişaf prosesində şəxsiyyətin sosial strukturu daim dəyişilir, təkmilləşir. Şəxsiyyət sosial mühitlə qarşılıqlı təsir prosesində formalaşır.

Şəxsiyyətin fəallığının mənbəyini onun tələbatı təşkil edir. Məhz tələbat insanı müəyyən surətdə və müəyyən istiqamətdə iş görməyə təhrik edir. Tələbat şəxsiyyətin fəallığının mənbəyi kimi meydana çıxır.

Hər bir şəxsiyyət təkrarolunmaz ünsiyyətlərə malikdir. Çünki o, tipik olanla fərdi olanın dialektik vəhdətidir. Ayrı-ayrı adamların fəaliyyətində, davranışında uyğun cəhətlər də vardır. Ona görə də insanları uyğun, oxşar sosial əlamətlərinə görə müxtəlif qruplara ayırmaq olar ki, bunları da, adətən, şəxsiyyətin sosial tipləri adlandırırlar. Şəxsiyyətin sosial tipi insanın öz fəaliyyət növlərini həyata keçirmək üsulları ilə bağlıdır.

Həyatın mənası, ölüm və "ölməzlik"

Hər bir normal insanın həyatında tez və ya gec elə bir an gəlib çatır ki, o öz varlığının sonu olması haqqında düşünməyə başlayır. İnsan öz ölümünü dərk edən və onu düşüncə predmetinə çevirməyi bacaran yeganə varlıqdır. Ölümün labüdlüyü haqqında düşüncələrin insanda yaratdığı güclü emosional sarsıntılar onun daxili aləminin ən dərin guşələrnə belə təsir edə bilir.

Ölümün labüdlüyünü dərk edən insanda bəzən ümidsizlik və çaşqınlıq hiss olunur. İnsan bu hissə qalib gəldikdə belə ömrünün sonrakı günlərini gec-tez baş verə biləcək ölüm haqqında fikirlə yaşayır. Bir çox hallarda insan şüurunun dərinliklərində kök salan bu fikir insanın sonrakı mənəvi inkişafında mühüm rol oynayır. İnsanın qarşısında duran həyatın mənası və məqsədi məsələsinin kəskinliyi bir çox cəhətdən insanın mənəvi təcrübəsində belə bir fikrin olması ilə izah edilir. Həyatının sonu olduğunu dərk edən insan özünün həyata və ölümə münasibətini aydınlaşdırmağa çalışır. Hər bir insan üçün əhəmiyyətli olan bu məsələ bütün insanların fikrində mərkəzi yer tutur. Bəşər mədəniyyəti tarixi insan həyatının mənası ilə ölümün sirrinin açılması arasındakı əlaqənin araşdırılması, habelə ölümü fiziki olmasa da, mənəvi qələbə kimi qiymətləndirilməyin sirləri üzərində qurulan fikirlərlə zəngindir. Bu suallara cavabların axtarılması ilə mifologiya müxtəlif dini təlimlərdən fərqli olaraq, fəlsəfə məsələnin izahında bunu əsas götürür ki, insan bu sualın cavabını müstəqil axtarmalı və bunun üçün özünün məxsusi mənəvi səylərindən istifadə etməlidir.

İnsanın ölməsi və "ölməzliyi" haqqında müxtəlif fikirlər mövcuddur. Ölüm və "ölməzlik" insanın mənəvi aləminə çox güclü təsir edən məsələdir. Insanın fiziki cəhətdən ölməməsi mümkün deyil. İnsan yalnız mənəvi cəhətdən ölməyə bilər.

Ekzistensialistlər belə hesab edirlər ki, həyata məna verən ölümdür. Çünki həyatın mənası ölüm qorxusu qarşısında doğulur. Əlbəttə, bununla tam razılaşmaq olmaz.

Ölüm haqqında fikirləşən insanda qorxu hissi ilə yanaşı, ruhi düşkünlük də yaranır. Qədimdə ölüm şər kimi qiymətləndirilirdi. Doğrudur, ölümün şər olması haqqındakı fikir də mübahisəlidir. Belə ki, insan ömrünün əbədiliyi, bəlkə də mənasızlığa, laqeyidliyə səbəb olardı.

Ölümdən qorxmamaq üçün insanın öləndən sonra da yaşaması fikri irəli sürülür. Belə təsəvvür etdikdə ki, insan öləndən sonra da yaşayır, onda müəyyən qədər təskinlik yaranır.

Qədim yunan fəlsəfəsində ölümün şər qüvvə kimi qiymətləndirilməsinə baxmayaraq, Lukretsi Kar bu fikri qəbul

etmirdi. O yazırdı ki, ölüm heç vaxt şər qüvvə hesab edilə bilməz. Belə ki, heç bir insan ölümdən xilas ola bilməz, deməli gec-tez hər bir adam ölümlə rastlaşmalıdır.

Epikür isə qeyd edirdi ki, ölüm olanda biz yoxuq, biz olanda isə ölüm yoxdur. Birincisi, ölüm insanın təmamilə məhv olması deməkdirsə, onda insan heç bir şeydən qorxmamalıdır. İkincisi isə, insanın nə vaxt ölməsindən asılı olmayaraq ölüm gələn vaxt o ölür, deməli, onun gec və ya tez ölməsi heç bir əhəmiyyət kəsb etmir. Lakin qeyd edək ki, hər bir insan çox yaşamaq istəyir, ona görə də gec ölmək arzusunda olur.

Bəzi hallarda biologiya və tibb elminin köməyi ilə klinik ölüm halında olan insanları həyata qaytarmaq olur. Deməli xəstəlik və cürbəcür xəsarətlər nəticəsində ölüm vəziyyətində olan adamları ölümdən xilas etmək mümkün olur. Burada filosoflar göstərirlər ki, "ölmək haqqı" varmı? Bəzi filosoflar göstərirlər ki, "ölmək haqqı" insana məxsus olmalıdır, əgər bu olmazsa şəxsiyyətin azadlığı məhdudlaşar, digərləri isə göstərirlər ki, insanın "ölmək haqqı" ictimaiyyətin və dövlətin mənafeyinə tabe olmalıdır.

Keçmişdə intihar etmək, yəni özünü öldürmək din tərəfindən qadağan edilmişdi. Odur ki, özünü öldürən adamların qəbiristanda dəfn edilməsinə icazə verilmirdi.

Hazırda evtanaziya problemi ilə əlaqədar ciddi mübahisələr doğur. Evtanaziya yunan sözü olub ağrısız, əzabsız ölüm deməkdir. Evtanaziya, ölümünün yaxınlarında labüd olduğu, həyatı süni yolla uzadılan adamlara tətbiq edilir. Bir sıra mütəfəkkirlər evtanaziyanı yol verilməz hesab edirlər. Bəzi filosof, hüquqşünas, həkim və ilahiyyatçılar isə deyirlər ki, evtanaziya əxlaqi əsasa malikdirsə, onda o, qanuniləşdirilməlidir. Digərləri isə buna etiraz edərək göstərirlər ki, belə qanunun qəbul edilməsi Insanın fəaliyyət azadlığına mane olar. Evtanaziya başqalarına zərər vurmursa, o, heç bir qanunla tənzim olunmamalıdır. Əks tərəfin fikrincə isə müasir tibb elmi o dərəcədə inkişaf edib ki, ölümü yaxınlaşan insanın həyatını müəyyən qədər uzada bilir, lakin bu zaman insan özünün əzab çəkməsi ilə yanaşı, öz adamlarına da mənəvi əzab verir, belə halda Insanın ölməsinin qarşısını almaq düzgün sayıla bilməz.

Deməli, evtanaziya əxlaqi və mənəvi cəhətdən düzgün deyil. Birincisi, insan həyatı toxunulmazdır, heç bir şəraitdə evtanaziyaya yol vermək olmaz. İkincisi, evtanaziya ailənin hər hansı bir üzvünün və ya digər maraqlı olan şəxsin mənafeyinə görə istifadə edilir. Üçüncüsü, evtanaziya «həyat var, ümid də var» prinsipinə ziddir. Ola bilər ki, həkim düzgün diaqnoz qoymamışdır. Bundan başqa, evtanaziya tətbiq edib insanı öldürdükdən sonra sağalması mümkün olmayan həmin xəstəliyi müalicə etmək üçün dərman tapıla bilər. Ona görə də evtanaziya qəbul edilməməlidir. Insanın həyatı ölənə qədər qorunmalıdır. Insanın ölməməsi qeyri-mümkündür. Bu fiziki cəhətdən nəzərdə tutulr. Mənəvi cəhətdən isə onun ölməməsi mümkündür. İnsan fiziki cəhətdən öldükdən sonra onun ideyaları, adı, yaxşı əməlləri və s. uzun müddət yaşayır. Deməli, insan özünün ölməzliyini öz sağlığında qazanmalıdır. İnsan necə yaşamalı və işləməlidir ki, onun həyatı mənalı keçsin? Hər bir adam bu sualı özünə verməli və cavab axtarmalıdır.

Bunun üçün, birinci növbədə, hər bir adam Insanlara, xalqa xidmət etməli, dünyada yaxşı iz qoyub getməlidir. O, son dərəcə xeyirxah olmalıdır. Lakin "şər qüvvələrə" qarşı etiraz etmədən, mübarizə aparmadan xeyirxah olmaq mümkün deyil. Deməli, Insan mübariz olmalıdır.

Fəlsəfə insanın fiziki ölməzliyi imkanını rədd edir, çünki o, ölümü həyatın atributlarından biri hesab edir, ölümsüz həyat mövcud ola bilməz. Bununla da fəlsəfə nəinki həyat, ölüm və "ölməzliyin" mənası haqqında məsələni aradan qaldırmır, əksinə, onu daha kəskin, daha dramatik formada irəli sürür. Həm də bu məsələnin həllində insan həyatının dəyərli və məqsədli olması zərurətindən çıxış edir. Insanın özünü reallaşdırma cəhdi onun öz qabiliyyətini daim inkişaf etdirməyə, cəmiyyətin tərəqqisinə, onun mədəniyyətinə öz töhfəsini verməyə həvəsləndirir. Hər bir adamın cəmiyyət vasitəsilə reallaşdırdığı şəxsi həyatının mənası bundan ibarət olmalıdır. İnsan həyatını dəyərləndirən məhz şəxsi həyatı ilə ictimai həyatın, şəxsi mənafe ilə ictimai mənafein düzgün əlaqələndirilməsidir. Insan həyatının məna və dəyərinin bu cür anlaşılması insanın mahiyyəti haqqında sosial təlimə əsaslanır.

Həyatın mənasını bioloji tələbatların ödənilməsində görməyə çağıran hedonizm kökündən səhvdir, belə ki, şəxsiyyətin davranışı onu tənzimləyən sosial-etik və mənəvi – humanist amillərlə şərtlənir.

İnsan nə qədər ömür sürə bilər? O, necə və nəyin naminə, hansı amallarla yaşamalıdır?

Nostradamus axirət günü və ölüm haqqında

Mişel Nostradamus 1503-cü ilin 14 dekabrında Fransanın kiçik əyalət şəhəri Remidə xristian dinini qəbul etmiş yəhudi ailəsində anadan olub. O, Avinyon şəhərində ali təhsil alıb. Elə buradaca 26 yaşlı Nostradamusa tibb və fəlsəfə doktoru adı verilib.

Çox sevdiyi arvadının və iki uşağının gözlənilməz ölümündən sarsılmış Nostradamus bir neçə il Belçikanın monastırlarından birinə çəkilib və dünyanın aqibətindən bəhs edən ilk katrinlərini (dördlüklərini) və adına «senturiya» deyilən – hər biri yüz kamrindən ibarət – ölçüçü də məzmunu da yeni olan orijinal əsərlərini yazıb.

Dahi münəccim - özünə qabaqcadan xəbər verdiyi bir tarixdə – 1566-cı ildə vəfat edib.

Nostradamus gələcəyin hadisələrini necə görə bilib? Bu suala Fransa kralı II Henriyə yazdığı məktubunda o, özü belə cavab verir: Həqiqət – tanrıdan gələn bir saydır və məni bu həqiqətdən hali etdiyinə görə, mən ona – Ulu Tanrıya çox minnətdaram. Tanrının bu sirli həqiqətlərinin çoxunu mən səma cisimlərinin hərəkətindən oxuyuram.

II Henriyə göndərdiyi məktubunda dünyanın gələcəyindən xəbər verən dahi Nostradamusun belə bir etirafı da var idi: «Mən öz katrinlərimdə gələcəkdə baş verəcək hadisələrin dəqiq tarixini də göstərə bilirdim, ancaq, hadisələrə verdiyim təfsirlər kimi, bu da çoxlarının xoşuna gəlməyəcəkdir».

Nostradamus axirət günü barədə

… Bir az sonra xeyirxahlıq dövrü başalanacaq. Saturun hakimiyyəti və qızıl əsr təzələnəcəkdir. Tanrı buyuracaqdır:

“Mənim yaratdığım bu gündən belə dərd və əzab-əziyyət çəkməsin”. Əl-ayağı bağlanmış İblis cəhənnəm quyusuna atılacaqdır.

Beləliklə, dünyada Allahla insan arasında xeyir-dualı barışığın təməli qoyulacaqdır. Bir daha qeyd edirəm ki, mənim bütün fikirlərimə müqəddəs yazının (İncilin) ruhu hopmuşdur (II Henriyə məktubdan XII abzas).

2055 ilin üstünə 1000 il də gələk 3055. Nostradamusun qabaqcadan verdiyi xəbərlər 3797-ci ili əhatə edir. Demək ömür 3797-ci ilə kimi davam edir. Bəs sonra nə olacaq? Bəlkə də dini kitabların göstərdiyi axirət günü (son axirət günü) məhz 3797-ci ildə baş verəcəkdir. Kim bilir?!. Hər halda Nostradamusun münəccimliyi, gələcək barədə verdiyi xəbərlər 3797-ci ildən o yana getmir.

Nostradamus ölüm və ruh haqqında

Ölümqabağı, o dünyadan gələn səsləri eşidirik.
Qoy can günəşi
Köhnə bədəni tərk etsin
Ölüm ruhun bayramıdır.

Nostradamus ölümü can günəşinin bədəni tərk etməsini bayram adlandırır. Buna bənzər fikri əsrimizin dahi görücüsü Vanqa da söyləmişdir: «insanlar ölüm prosesini necə ləzzətli olduğunu bilsələr, hamı ölüm istəyər».

Elmi ədəbiyyatdan məlum olduğu kimi, kliniki ölüm barədəki məlumatlarla (ölümdən qaytarılmışların» söylədikləriylə) Nostradamusun fikirləri üst-üstə düşür və biz bir daha inanırıq ki, ruh əbədidir.

Hörmətli oxucu! Həyatın mənası ölüm və ölməzlik, axirət günü, ölüm və ruh haqqında fikirləri verməkdə məqsədimiz cəmiyyətşünaslıqda bu vaxta qədər formalaşmış fikir, mülahizə və təklifləri diqqətinizə çatdırmaqdır. Güman edirik ki, müxtəlif fikir və mülahizələr sizə bu barədə analitik təhlillər aparmağa, fikirləşməyə, düşünməyə motiv yaradacaq.

İnsanın həyatının sürəkliyinə üç əsasdan: sosial, mənəvi və bioloji baxımdan yanaşmaq olar. Sırf humanist baxımdan Insan həyatının sürəklik dəyəri kafidir, sosial baxımdan həyatın normal sosial sürəkliyinin uzadılması təmamilə zəruridir. Insanın həyatının bioloji sürəkliyinə gəldikdə hazırda xüsusi metodların köməkliyi ilə onu maksimum uzatmağa çalışırlar.

Bu baxımdan insan yeni eranın ərəfəsindədir. Hazırda tibb elmi ifrat uzun ömürlüyə çalışır. Alimlər zənn edirlər ki, bu elə proses olacaqdır ki, insanlar bütün yaşlarında özlərinin mənəvi və fiziki gümrahlığını qoruyub saxlaya biləcəklər.

Bizim zəmanədə ölüm probleminin sosial-etik və mənəvi-humanist aspektlərinə olan maraq durmadan artır. Artıq alimlər belə bir məsələ irəli sürürlər: həyat haqqında elm olan biologiya ölümün biologiyası haqqında təlimlə tamamlanmalıdır.

6. Materialist dünyagörüşü və onun mahiyyəti. Mütləq maddə inancı

Materialistlər eynilə Qədim Misirdəki fironlar, rahiblər və digər zümrələr kimi maddənin əzəli və əbədi olduğuna, sonsuzluğuna, yaradılmadığına və canlıların təsadüflər nəticəsində cansız maddədən törədiyinə inanırlar. Materialist qaynaqlarında bu yanaşmalarla təfərrüatlarına qədər tanış olmaq mümkündür. Ədəbiyyatlarda materialist fəlsəfə belə açıqlanır: "Bütün fəza, atmosfer, ulduzlar, təbiət, canlı və cansız nə varsa, hamısı atomlardan əmələ gəlib. Insan da təbiətdəki müxtəlif atomların cəmindən başqa bir şey deyil. Canlıların həyatı atomlar arasında elektrik cərəyanının müəyyən tarazlığı nəticəsində mümkün olur. Bu tarazlıq pozulanda ölüb, torpağa dönür, yenidən atomlara parçalanırıq. Yəni enerjidən yaranmışıq, enerjiyə də dönürük. Atomlarımızdan bitkilər, digər canlılar və yenə də bizlər yaranırıq. Demək, hər şey bərabər xəmirdən yapılıb. Ancaq ən yüksək təkamül etmiş heyvan olan bizlərin beyni xeyli inkişaf etdiyindən, şüur əmələ gətirir. Təcrübələr zamanı alınan nəticələri yada salsaq, beynin sinir hüceyrələri və hormonların həyata keçirdiyi funksiyaların sayəsində işləyir. Kamil ağıl və elm heç nəyin yoxdan var edilmədiyini və yoxa çıxmadığını dərk edib. Buna görə də Insan heç bir gücə minnətdar və borclu deyil. Kainat bir total enerjidir, başlanğıcı və sonu bilinmir. Hər şey bu total enerjidən yaranır, təkamül edir, ölür, amma bütövlükdə yoxa çıxmır. Dəyişir və çevrilir. Həqiqi ölüm və yoxluq mövcud deyil. Daimi dəyişmə və çevrilmə var. Amma bu nəhəng sirri elmi qanunlarla çözmək mümkün deyil. Elmdən xaric açıqlamalar isə ehkamdır, boş inancdır. Kamil ağla və elmə görə, bədəndən xaric ruh yoxdur və ola bilməz".

Eyni fikirləri Marks, Engels, Lenin, Pulitser, Saqan və başqa materialist filosofların əsərlərində də oxumaq mümkündür. Onlar kainatın sonsuzluqdan bəri var olduqunu, maddənin vahidliyini və mütləqliyini, insanın yalnız maddədən ibarət olduğunu və heç bir ruh daşımadığını, maddənin öz-özünə təkamül edərək, canlandığını

bildirirlər. Bütün bunlar xurafatdan başqa heç nə deyil, çünki "kamil ağıl və elm", materialistlərin dediyinin tamamilə əksinə olaraq, sübut edir ki, materialist fikirlər başdan-ayağa çürükdür. XX əsrin ikinci yarısında bu sübutların sayı xüsusilə artdı. Məsələn, bu gün elmi dairələrdə birmənalı olaraq qəbul edilən "Biq Banq" nəzəriyyəsi kainatın milyardlarla il öncə yoxdan var edildiyini sübuta yetirib. Termodinamika qanunları maddənin öz-özünü nizamlamaq qabiliyyətinin olmadığını göstərir, bu isə dolayısıyla o deməkdir ki, materialistlərin nəzəriyyəsi elmə əsaslanmır. (Məsələnin incəliklərinə varmaq üçün Harun Yəhyanın "Kainatın yaradılışı", "Materializmin sonu", "Həyatın əsl mənşəyi", "Təkamül yalanı" kitablarına baxın).

Materialistlərə görə həyat tək hüceyrədən başlayır, təkamül yoluyla insana qədər gəlir. Başlanğıcdan özü, mahiyyəti, səbəbi və məqsədi bilinmir. Həyat maddə və enerjidən başlayıb, ona da dönəcək. Kainatın Ulu Memarı ancaq uca bir prinsip, yaxşılıq və gözəlliklərin sonsuz üfüqü, təkamülün ustadı, ən yüksək pilləsi olaraq qəbul edilərsə, şəxsləndirilməzsə, doqmatizmdən qurtulmaq mümkündür.

Materialist fəlsəfəsində maddədən gəlib, maddəyə dönmək ən əsas prinsiplərdən biridir. Özü də materialistlər bu ideologiyanı təkcə özləri üçün yaşatmırlar, onu bütün cəmiyyətə qəbul etdirmək istəyirlər.

Materialistlərin cəmiyyətlə bağlı iki planı var:

1) Materialist fəlsəfəni (başqa sözlə desək, Qədim Misir xurafatını) "kamil elm və ağıl" adıyla cəmiyyətə təlqin etməyə çalışır.

2) Bunu "hətta xalq istəməsə belə", etməyə niyyətlidir. Yəni bir cəmiyyət Allaha inansa, materialist fəlsəfəni qəbul etmək istəməsə, materialist bu məsələdə israrlı davranacaq, xalqın iradəsinə rəğmən, onun dünyagörüşünü dəyişdirmək üçün çalışacaq.

Onlar bu adla sadəcə, öz fəlsəfələrini cəmiyyətə sırımaq istəyirlər. Bunu "xalq istəməsə belə" etmək məqsədləri isə onu göstərir ki, niyyətləri qətiyyən xoş deyil, onlar totalitar bir dünya görüşünə malikdirlər.

7. Materialistlər ruhu və axirəti inkar edirlər

Materializm inancına uyğun olaraq, insan ruhunun və axirətin varlığını da qəti şəkildə rədd ediblər. Hərçənd, baxmayaraq ki, bəzən materialist qaynaqlarında ölülər üçün "əbədiyyətə qovuşmadan" söz edilir və ya buna bənzər mənəvi anlayışlar işlədilir. Əslində burada heç bir ziddiyyət yoxdur, çünki materialistlərin ruhun ölümsüzlüyünə dair bütün fikirləri simvolik məna daşıyır. Materializm bədəndən ayrı bir ruhun mövcud olduğunu qəbul etmir.

Enerjini, maddəni hər şeyin cövhəri qəbul edən materializm varlığın pillə-pillə dəyişikliklərə uğrayaraq inkişaf edəcəyini söyləyir ki, bu da elmi mənada ölümü tanımamaqdır. Bu halda materializm ruhun bədəndən ayrı olduğunu, heç vaxt ölmədiyini, ruhlar aləminə köçdüyünü, orada yaşadığını qəbul etmir. Materializmə görə, ölümünüzdən sonra sizdən ancaq xatirələr və əməlləriniz qalacaq. Bu fikir elmə və məntiqə əsaslanır, ruhun ölümsüzlüyü haqda deyilənlər isə elm və məntiq prinsiplərilə bir araya sığmır.

Ölümdən sonra dirilməni rəd etmək, ölümsüzlüyü ancaq "qoyub getdiyin əməllərdə görmək"… Bu düşüncə materialistlər tərəfindən "müasir elmin iddiası" kimi göstərilsə də, əslində qədim və mənasız xürafatdan başqa bir şey deyil. Quranda Allahı inkar edənlərin "əbədi yaşamaq ümidilə tikib-qurmaları" haqqında bilgi verilir. Müqəddəs kitaba görə, Hud peyğəmbər kafir Ad qövmünün bu cahil düşüncəsinə qarşı belə deyib:

- O zaman ki qardaşları Hud onlara dedi: "Məgər [küfr etməyinizə, peyğəmbərləri yalançı saymağınıza görə Allahın əzabından] qorxmursunuz? Şübhəsiz ki, mən sizi üçün etibar olunası, bel bağlanılası bir peyğəmbərəm! Allahdan qorxun və mənə itaət edin! Mən bunun [dini, risaləti təbliğ etməyin] müqabilində sizdən heç bir muzd, əvəz istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir.

Doğurdanmı, hər təpədə bir köşk qurub [gəlib-gedənləri məsxərəyə qoyaraq], əylənirsiniz? Sanki [dünyada] əbədi qalacaqsınız deyə, qəsrlər[qalalar, yaxud yeraltı su hövzələri] tikirsiniz! Və [birini] yaxaladıqda da zalimlər kımı yaxalayırsınız! [Onu vəhşicəsinə döüb öldürürsünüz!] Artıq Allahdan qorxun və mənə itaət edin!"(Şüəra /124-131)

Burada inkarçıların yanıldığı nöqtə sənət əsərləri yaratmaq deyil. Müsəlmanlar da sənətə önəm verir və bu yolla dünyanı gözəlləşdirməyə çalışırlar. Aradakı fərq – niyyətdədir. Müsəlman Allahın insana verdiyi gözəllik və eststik duyğuları ifadə etmək üçün sənətlə maraqlanır. İnkarçılar isə sənəti "ölümsüzlük yolu" zənn edir və yanılırıar.

8. Ruhu inkarin elmi ziddiyyəti

Çağdaş alımlərə görə, insanın düşünmək qabılıyyəti beyindəki neytronlarla, onları əmələ gətirən molekul və atomlarla deyil, tamam kənar, anlaşılmaz bir substansiya ilə, qaynaqla bağlıdır. Məsələn, məşhur araşdırmaçı Uilder Penfild (Wilder Penfield) uzun illər apardığı təhqiqatlardan sonra ruhun varlığının inkaredilməz həqiqət olduğunun bildirir: "Demək, varlığımız iki ünsürdən – maddə və ruhdan ibarətdir". Elm adamlarını bu qənatə gətirən səbəb şüurun heç bir halda maddi amillərlə izah olunmamasıdır. Insan beyni 5 duyğumuzun toladığı və analiz edildiyi möhtəşəm kompyüter kimidir. Amma bu kompyüterin "mənlik" duyğusuna sahib olması, hiss etməsi, düsünməsi mümkün deyil. Ünlü ingilis fiziki Rocer Penrouz (Roger Penrose) "The Emreror`s New Mind" (İmperatorun yeni fikri) adlı kitabında bununla bağlı yazır:

- Konkret Insana onun şəxsiyyət duyğusunu verən nədir? Vücudu kimliyi atomları əmələ gətirən elektron, proton və digər hissəciklərin seçimindənmi asılıdır? Bunun belə olmadığını göstərən azı iki səbəb var. Birincisi, hər bir canlının bədəni durmadan dəyişir. Doğulduğumuz andan bəri vücudumuzun bütün hüceyrələri dəfələrlə dəyişilib, yenilərlə əvəz olunub. İkinci səbəb kvant fizikasıyla bağlıdır. Əgər bir kimsənin beynindəki hansısa elektron başqa maddədə olan elektronla əvəzlənsəydi, heç bir fərq

ortaya çıxmazdı. Sistem eynilə əvvəlki kimi çalışardı. Eyni fikir protonlara və digər bütün hissəciklərə də aiddir. Əgər bir insanın bədənindəki bütün maddə bir evin uyğun maddəsilə dəyişdirilsəydi, sözün həqiqi mənasında heç bir fərq ortaya çıxmazdı.

Penrouz kitabının nəticə bölməsində bununla bağlı bildirir: "…Şüur elə bir varlıqdır ki, onun hansısa təsadüflər nəticəsində yarandığına heç vaxt inana bilmərəm. Biz bütün kainatı, onun əmələ gəlməsini şüur nəticəsində anlaya bilirik". Professor Penrouz materializmin insan zehnini heç vaxt açıqlaya bilməyəcəyi qənaətindədir. Yaxşı, bəs bunun qarşılığında materializm nə deyir? Materialistlər insanın sadəcə maddədən ibarət olduğunu, cansız atomların təsadüfən yan-yana gəlib, insan kimi ağlı, duyğuları, düşüncələri, xatirələri olan bir varlığı əmələ gətirdiyini bildirirlər. Bəs bu zaman nəyə əsaslanır?

Bu sual bütün materialistləri maraqlandırır, amma materializm qaynaqlarında onunla bağlı daha maraqlı fikirlər var. Həmin qaynaqlara baxanda materialist düşüncəsinin arxasındakı xurafat daha aşkar şəkildə ortaya çıxır.

9. Maddənin ilahiləşdirilməsi

Materialist fəlsəfəsinin nə olduğunu daha yaxşı başa düşmək üçün təsəvvür edin ki, onu qəbul edənlər kainatdakı möhtəşəm sistem və tarazlığın, dünyadakı minlərlə fərqli canlı növünün və biz insanların yalnız və yalnız atomların təsadüfən birləşməsi nəticəsində ortaya çıxdığına inanırlar. Başqa cür desək, cansız və şüursuz atomların "yaradıcı" olduğunu düşünürlər. Bu fikir nə qədər madern göstərilməyə çalışılsa da, əslində qədim dövrlərdən bəri mövcud olan bütpərəstliyin təkrarından başqa heç nə deyil. Bütlərə tapınanlar sitayiş etdikləri heykəllərin, totemlərin bir ruhu, qüdrəti olduğuna inanıblar, yəni cansız və şüursuz maddəyə yüksək xüsusiyyətlər qazandırıblar. Bu, şübhəsiz ki, son dərəcə səfeh bir inancdır.

Materialistlər isə dövrümüzün bütpərəstləridir. Onlar daşdan, taxtadan heykəllərə olmasa da, bunları və bütün digər cisimləri əmələ gətirən "maddə" məfhumuna inanır, bu maddənin sonsuz

güc, ağıl və elm sahibi ola biləcəyini düşünürlər. Materialist qaynaqlarında bununla bağlı çox maraqlı fikirlər var. Çünki materialistlər materializmdəki bütpərəst inancı açıq etiraf edirlər. Atomlar hansısa maddəni əmələ gətirmək üçün öz-özünə müəyyən bir sistemlə təşkilatlanırlar. Bunu həyata keçirən güc hər bir atomun malik olduğu ruhdur. Hər bir ruh elm olduğuna görə, hər bir məxluq dahidir. Özü də bərabər səviyyədə - bir insan, bir heyvan, bir bakteriya, bir molekul eyni dərəcədə dahidirlər.

Göründüyü kimi, burada hər bir atomun ağla və elmə sahib olduğu iddia edilir. Bunu yazan materialist müəllif hər varlığın ibarət olduğu atomlar sayəsində şüura sahib olduğunu bildirdiyinə və insan ruhunun varlığını rədd etdiyinə görə, insanı da heyvanlar və ya cansız molekullar kimi bir atom yığını hesab edir. Əslində isə gerçək budur: cansız maddənin (yəni atomların) bir ruhu, şüuru, aglı yoxdur. Bu, sübut olunmuş faktdır. Şüur ancaq canlılarda var ki, bunu da onlara Allah verib. Insan isə canlılar arasında ən üstün şüura sahibdir, çünki Allahın verdiyi ruhu daşımaqdadır. Başqa sözlərlə desək, şüur cansız maddədə deyil, ancaq ruhu olan varlıqlardadır. Materialistlər isə Allahın varlığını qəbul etməmək üçün atomlara ruh "yapışdıracaq" səviyyədə səfeh bir inanca üz tuturlar.

Materialistlərin qəbul və müdafiə etdikləri bu inanc, əslində "animizm" adlanan və təbiətdəki bütün varlıqların (dağların, daşların, küləyin, suyun) ruhu və şüuru olduğunu hesab edən əski paqan (bütpərəst) etiqadın yeni ifadəsidir. Bu inanc materializmə antik yunan filosofu Aristotel tərəfindən gətirilib və sonradan ayrıca cərəyan kimi formalaşıb.

Aydındır ki, heç bir hüceyrənin plan qurub, tətbiq edəcək qədər şüuru yoxdur. Buna inanmaq yumşaq desək, səfehlikdir. Buradan da göründüyü kimi, materialistlər Allahm varlığını və yaratma sifətini qəbul etməmək üçün atomlara, molekullara, hüceyrələrə ağıl, fədakarlıq və s. gülünc sifətlər yapışdırırlar". Təsəvvür edin ki, bir tablonun necə çəkildiyini sizə belə izah edirlər: boyalar planlı şəkildə bir-birinə xəbər yollayaraq, birgə çalışıblar, hamısı kətandakı yerini alıb və şəkil yaranıb. İnanarsınızmı? Əlbəttə,

yox. Bax, materialistlərin dedikləri də elə buna bənzəyir. Materializm cansız və şüursuz maddəni "yaradıcı" kimi qəbul edir. Başqa cür desək, maddəni bütləşdirir. Atomlarda ruh olduğuna inanan materialistlər bu inancı açıq ifadə edirlər.

Materializmin öz ideologiyasını yeritmək üçün əl atdığı vasitələrin ən önəmlisi isə materializmin və humanizmin "elmi dayağı" olan təkamül nəzəriyyəsidir. XX əsrin sonu, XXI əsrin əvvəllərində elm sübut etdi ki, Darvinizmin heç bir elmi əsası yoxdur. Bu nəzəriyyə böyük elmi yalandır.

10. İnsan həyatının yaş mərhələləri.

Uşaqlıq – sehrli aləm. İnsan öz fiziki və əqli inkişafında bir neçə mərhələdən keçir. Bu mərhələlər belə təsnif olunur: uşaqlıq; yeniyetməlik; gənclik; yaşlı dövr; qocalıq. Bu dövrləşdirmə şərti səciyyə daşıyır. Alimlər sadalanan bu dövrlərin özlərini də bir neçə yarımdövrlərə bölürlər. Hər bir yaş dövrünün özünəməxsus xüsusiyyətləri vardır.

Doğulan andan insan *uşaqlıq dövrünü* yaşayır və bu dövr 11-12 yaşlarına qədər davam edir. Bu dövrdə Insan üçün dünya açılır, o, şəxsiyyət kimi formalaşmağa başlayır, öz ideallarını müəyyənləşdirir. Bir yaşından üç yaşınadək olan müddətdə uşaq danışmağı öyrənir, yaxınlarını və əzizlərini tanıyır, öz cinsini dərk edir.

Uşaq müxtəlif əşyalarla oynamağı öyrənir, onda digər insanlara qarşı maraq oyanır, ünsiyyətçilik, özünü böyüklərə oxşatma cəhdləri, özünüdərkin ilkin formaları yaranır. Bu dövrdə böyüklər uşağı oynatmalı, onunla sıx ünsiyyətdə olmalı, danışdırmalı və tək qoymamalıdırlar.

Dörd yaşından altı yaşınadək olan dövr məktəbəqədər yaş dövrü hesab olunur. Bu dövrdə uşaq bağçada, qrupda ünsiyyət qurmağı, bir çox oyunları öyrənir, dostlarındakı yaxşı xüsusiyyətləri görməyə başlayır. Xəbərçilik, zəiflərə qarşı kobudluq və s. kimi hərəkətlərin pisliyini başa düşür. Bu yaşda uşaqların xüsusi qabiliyyətləri (xoreoqrafik, musiqi, incəsənət) də üzə çıxır, formalaşır.

Məktəb yaş dövrünün mürəkkəbliyi. *Məktəb yaş dövrü* ilk növbədə biliklərin əldə edilməsi ilə bağlıdır. Burada uşaq dünya və özü haqqında bir çox şeyləri, yazmağı oxumağı, saymağı öyrənir. O, valideynlərin daimi himayəsindən uzaqlaşır, sərbəstliyə alışır. Yəqin ki, birinci və ikinci sinif şagirdini nənəsinin geyindirib-soyundurması qəribə görünər. Məktəb uşağı böyükləşdirir. Kiçik məktəbli qürurla deyir: «Mən artıq böyümüşəm, məktəbdə oxuyuram».

Məktəb yaşının ən mürəkkəb dövrünü 11 yaşdan 16 yaşadək olan dövr təşkil edir. Bu yaş dövrünü çox vaxt uşaqlıqdan gəncliyə, kamilliyə doğru keçid dövrü də adlandırırlar. Bu illərdə insan fiziki, mənəvi və əqli cəhətdən çox dəyişir. Onun bütün orqanizmində sıçrayış baş verir, əhvali-ruhiyyəsi də dəyişir, başı ağrıyır, gah gülür, gah da ağlayır. Yeniyetmələrin şüurunda əsaslı dəyişiklik baş verir. Burada məktəbin çox rolu vardır. Yeniyetmə dostlarının və sinif yoldaşlarının yanında hörmət, nüfuz qazanmağa, eyni zamanda, müstəqil, sərbəst olmağa çalışır. Bu dövrdə insan gələcək peşə meyllərini müəyyənləşdirir, seçimini edir. Oğlanların əksəriyyəti kosmonavt, təyyarəçi, konstruktor, mühəndis olmaq istəyir. İri biznes, şəxsi şirkət sahibi, hüquqşünas, gömrük məmuru olmaq barəsində düşünənlər də vardır.

Respublikamızda sahibkarlıq peşələrinə meyil, xüsusilə güclənmişdir. Biznes, marketinq, menecment, gömrük – bu sahələr bu gün gəncləri daha çox cəlb edir. Hüquqşünaslıq, tibb, şərqşünaslıq, jurnalistika ixtisaslarına maraq hələ də güclüdür. Mühəndis ixtisasları, elektronika, robot texnikası və s. ixtisaslara münasibət istənilən səviyyədə deyildir.

Gəncliyin romantizmi. Artıq on yeddi yaşından *gənclik dövrü* başlayır. Insan həddi buluğa çatır, o, ya təhsilini davam etdirir, ya işləməyə başlayır, oğlanlar isə hərbi xidmətə yollanırlar.

On səkkiz yaşında gənclər seçki hüququ qazanırlar. Gənclik dövrü böyük ümidlərlə bağlıdır.

Yeniyetmə dövründə insan başqalarının səhvlərinə, yalanlara, xəyanətlərə dözülməz mövqedə olur. Yeniyetmələrin bu xüsusiyyətlərini bilərək böyüklər onlara qarşı həssas olmalı, münaqişələrə rol verməməlidirlər. Onlar mürəkkəb vəziyyətlərdə

çıxış yolu axtarmalı, müzakirə etməli, qarşılıqlı güzəştə getməyi bacarmalıdırlar.

Yaşlı dövr. Növbəti dövr yaşa dolmuş, yəni 21 yaşdan 55-60 yaşa qədərki dövrdür. Bu, Insanın fiziki, əqli, yaradıcı imkanlarının çiçəklənən dövrüdür. Psixoloqların dediyinə görə, elmdə ən görkəmli nailiyyətlər məhz 35-40 yaşlarına təsadüf edir. Maraqlıdır ki, bu dövrdə insanların bacarıq və imkanları xüsusi bir əyri xətt üzrə inkişaf edir. Bu əyri xətdə enmə və qalxmalar bir-birini əvəzləyir və bu xəttin görünüşü insanın fəaliyyət növündən birbaşa asılıdır. Gəlin yaşlı dövrə çatmış adamlara xas olan əlamətləri müəyyənləşdirək. Bu əlamətlərə müəyyən peşənin mənimsənilməsi, bu sahədə uğurların qazanılması, ailə qurulması, uşaqların tərbiyəsi, dünyagörüşünün tam formalaşması, özünüdərk kimi əlamətləri aid etmək olar. Yaşa dolmuş adamlar, adətən müəyyən bir ünsiyyət, geyim və davranış tərzi seçirlər.

Qocalıq-müdriklikdir. İnsan ömrünün sonunu *qocalıq dövrü* təşkil edir. Bu dövr insanın təqaüdə çıxması vaxtından başlayır. Qocalıq dövrünün sərhədlərini müəyyənləşdirmək çətindir. Adətən, adamların çoxu təqaüdə çıxdıqdan sonra da işləməkdə davam edir, ictimai işlərlə maraqlanırlar.

Doxsan yaşdan sonra uzunömürlülük başlayır. İnsan nə qədər yaşayır və nə qədər yaşaya bilər? Elə adamlar var ki, onlar 100, hətta 150 yaş həddinə çatırlar. Hər şey insanın həyat tərzindən, mühitindən və qidalanmadan asılıdır. Ən uzunömürlü insanlar Qafqazda, o cümlədən, Azərbaycanda, Çində, Yaponiyada yaşayırlar. Ölkəmizin Lerik, Lənkəran, Kəlbəcər, Laçın və Quba – Xaçmaz, Dəvəçi bölgələrində uzunömürlü Insanların yaşadığı məlumdur. Cənub bölgəsinin sakini **Şirəli Müslümov** düz 168 il ömür sürmüşdür. Xaçmaz rayonunun sakini **T.Pirmuradovanın** 115 yaşı və 109 nəvə-nəticəsi vardır.

Belə bir fikir yürütmək səhv olardı ki, insan qocalıq dövründə heç nəyə qadir deyildir. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunurlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşır, fikirləri ilə hesablaşırlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onları dinləmək,

dediklərinə əməl etməklə bu dəyərlərə sahib olmaq mümükündür. **Çalışın bu dəyərlərə siz də sahib olasınız.** Qocalar özləri də çox şeyə malikdirlər.

Böyük Britaniyanın baş naziri **U.Çörçill,** Almaniyanın federal kansleri **K.Adenauer,** fransa prezidenti **Şarl de Qoll,** Çin islahatçılığının atası **Den Syaopin** və nəhayət, ümummilli liderimiz **Heydər Əliyev** kimi yaşa dolmuş görkəmli siyasətçi və dövlət xadimləri öz ölkələrini müvəffəqiyyətlə idarə etmişlər. Bu fakt bir daha sübut edir ki, yaşlı, ahıl insanların təcrübəsi əvəzolunmazdır. Siz də çalışın uzunömürlülüyün sirlərini öyrəinin, çox yaşayın, müdriklik zirvəsinə çatın. Görkəmli şairimiz **Osman Sarıvəlli** belə demişdir:

Hər kim yüz il yaşamasa,
Günah onun özündədir.

Çox zaman uşaqlar qayğı və nəvazişi valideynlərindən daha çox, baba və nənələrindən görürlər. İnsan hər zaman öz yaşı ilə ahəngdar olmalıdır, süni şəkildə yaşından qaçmağa çalışmamalıdır. Azərbaycanda belə hallara yaxşı baxılmır. Hər bir yaşın öz mənfi və müsbət cəhətləri vardır. Gəncləri irəlidə gələcək gözləyir, yaşlılar isə arxada qalmış illərdə müdriklik, təcrübə və keçmişi qoyub gedirlər. Nəhayət, əsas olan nə qədər yaşamaq deyil, necə yaşamaqdır. Hər bir yaşın öz gözəlliyi vardır. Çalışın mənalı, gözəl yaşayın. Cavan, yaraşıqlı olmaq nə qədər xoşdursa, nurani, ağsaqqal, ağbirçək olmaq da o qədər ürəkaçandır. Müdrik qocalar cəmiyyətə həmişə lazımdır.

11. İnsan tələbatları və istəkləri

İnsanın davranışı, başqa insanlarla münasibətləri nədən asılıdır? Bu suala cavab vermək çox çətindir. Ona görə ki, insan təbiəti özü mürəkkəb və ziddiyyətlidir. Ancaq bir məsələ şübhəsizdir ki, insanı onun maraq və tələbatı hərəkətə gətirir. Məhz onlar insanın fəaliyyət və davranışının özünəməxsus özülünü yaradır. Insanın doğulduğu gündən ömrünün axırınadək müxtəlif tələbatı olur. Tələbat insan marağının əsasını təşkil edir. Tələbat azaldıqca insanın maraq dairəsi də daralır, marağı söndükcə onun həyatı da sönür. Arzu və istəkləri tükəndikcə özü də tükənir. Tələbatın sönməsi insanın ölməsi deməkdir. Psixoloqlar saysız-hesabsız insan tələbatını bir neçə qrupda sistemləşdirməyə çalışmışlar. Son olaraq, bu tələbat qrupları belə müəyyənləşdirilmişdir: **aşağı və yuxarı, maddi və mənəvi tələbat**.

Tələbatın *aşağı səviyyəsi* onun bioloji təbiəti ilə bağlıdır. Bu tələbatların əsasında aclığı və susuzluğu söndürmək, soyuqdan müdafiə olunmaq, təmiz hava ilə nəfəs almaq – ümumiyyətlə, mövcudluğumuza lazım olan digər bioloji tələbatlar durur. *Təhlükəsizliyə olan tələbat* özünüqoruma, sağlamlıq, həyatı risklərin azaldılmasının təmin olunması və yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Tələbatların yuxarı səviyyəsi insanın sosial təbiəti – onun cəmiyyətdəki həyatı və başqa insanlarla ünsiyyətə girmək istəyi ilə bağlıdır. Alimlər bu tələbatlar qrupuna hakimiyyətə cəhd, özü kimi adamlarla ünsiyyəti, müvəffəqiyyət qazanmaq və qarşılıqlı kömək kimi tələbatları aid edirlər.

Mənəvi tələbatlar – özünüifadə, özünütəsdiq, dostluq, sevgi və yaradıcılıq tələbatları – xüsusi qrup təşkil edir. *Maddi tələbatlar* qrupuna isə məişət, iş, ev, ev əşyaları ilə bağlı olanlar daxildir. Insanlar öz həyatlarını bunlarsız təsəvvür edə bilmirlər. *Gündəlik tələbatlar* anlayışına gündəlik qəzet mütaliəsi və musiqili televiziya proqramlarına baxılması, qidalanmaq, geyinmək, gəzintiyə çıxmaq və s. tələbatlar aid olunur.

Hər bir insan çoxsaylı tələbatlara malikdir. Onların təmin edilməsi isə heç də həmişə mümkün deyildir. Insan ancaq əldə edə

biləcəyi, ödənilməsi mümkün olacaq şeyləri arzu etməlidir. Ödənilməsi mümkün olmayan arzular Insanı üzür, onu ruhdan salır.

Qabiliyyətlər necə üzə çıxır? Alimlər "**qabiliyyət**" dedikdə Insanın hər hansı bir işlə uğurla məşğul olmasına imkan verən xüsusiyyətləri başa düşürlər. Qabiliyyətlər, istedad nişanəsi adlanan müəyyən təbii, anadangəlmə əsasa malikdir. Ancaq bu heç də «insanın hər hansı bir istedadı varsa, bu istedad məhv olmayacaq, əksinə, inkişaf edəcəkdir» fikrini təsdiqləmir. Tənbəllik, öz üzərində işləməmək, yaxın adamlarımızın və müəllimlərinizin məsləhətlərinə qulaq asmamaq son nəticədə sizdəki istedad nişanəsini məhv edə bilər. Yəqin ki, böyüklərin başqaları haqqında tez-tez belə sözlər işlətdiklərinin şahidi olmuşsunuz: «Uşaqlıqda onun istedad nişanəsi var idi! Ona necə ümidlər bəslənilirdi! Ancaq gör onun axırı necə oldu!» Beləliklə, tənbəllik, pis mühit, mənfi nümunələr, yad təsir insanda yaxşı olan hər şeyi məhv edə bilər.

Uşaqdakı istedad nişanəsinin inkişafına daha çox böyüklər təsir edə bilər. Uşaqlara təsir göstərmək, onları sevmədiyi işlə məşğul olmağa məcbur etmək olmaz. Əla futbol oynayan, yaxud radioqəbuledici yığmaq bacarığı olan uşaq zorla qarmon çalmağa və yaxud kompyuterdə proqram tərtib etməyə məcbur edilməməlidir. Bəzən də rəssamlıqla məşğul olan gənc qıza "Bəsdir boş şeylərlə məşğul olduğun!" - deyə təzyiq göstərməklə ondakı istedadı öldürə bilərsiniz.

İnsanın ən mühüm qabiliyyətlərindən biri *əqli qabiliyyətlərdir*. ***Əqli qabiliyyətlərin məcmusu və onlardan müxtəlif səviyyələrdə bacarıqla istifadə edilməsi intellekt adlanır.*** Əqli qabiliyyətlər – intellekt daim inkişafda olmağı tələb edir. Ona görə də, hər bir insan öz əqlini daim müxtəlif məsələlərin həlli ilə yükləməli, yaddaşını, diqqətini, yazılı və şifahi nitqini inkişaf etdirməlidir.

Bu və ya başqa dərəcədə əqli qabiliyyətlər bütün insanlara xasdır. Ancaq elə qabiliyyətlər də vardır ki, onlar nadir insanlara məxsusdur. Məsələn, musiqi, pedaqoji, xoreqrofi, bədii və təşkilatçılıq qabiliyyətləri heç də hamıya nəsib olmur. Psixoloji testlərin köməyi ilə bu qabiliyyətləri hələ uşaqlıqdan üzə çıxarmaq

mümkündür. Ancaq onu inkişaf etdirmək və ya etdirməmək insanın özündən asılıdır.

İstedadlı adamlar. **Kimləri dahi adlandırmaq olar?** Qabiliyyətlərdən başqa, Insanlara istedad da məxsusdur. ***İstedad*** **– insanın fəaliyyəti nəticəsində üzə çıxan fərdi qabiliyyətlərinin ən yüksək inkişaf səviyyəsidir.** İstedadlı alimlər, rəssamlar, bəstəkarlar, müğənnilər, idmançılar vardır. Onların hər biri öz işində böyük uğurlar qazanmışlar. Yəqin ki, siz ətrafınızda onlardan belə bir söz eşitmisiniz ki, "istedadı boğmaq lazım deyil". Bu nə deməkdir?! Əgər birisində rəssamlıq və aktyorluq istedadı varsa, bu istedadın qarşısına süni olaraq «çəpər çəkən», onun inkişafına mane olan ixtiyar sahibləri varsa, onda istedadı boğmaq mümkündür. Yaxud istedadlı adam öz istedadını həqiqi yolla inkişaf etdirməyə çalışmırsa, yüngül və ucuz şöhrət arxasınca qaçırsa, pis əməllərlə məşğul olursa, onda onun özü öz istedadını boğur. Bu işdə tamahkarlığın rolu daha mənfidir. Necə deyərlər "çox istəyən, azdan da olar". Qədim yunanlar deyirdilər ki, istedad torpaq altındakı mərmər kimidir. Onu üzə çıxarmasan, yatıb qalacaqdır.

Uşaqlarda qabiliyyət və istedadın inkişafında ailənin rolu əvəzsizdir. Lakin valideynlərlə bu sahədə sistemli iş aparılmalıdır.

Bir dəfə adamlar görürlər ki, böyük Sokrat günün günortaçağı əlində fanar nə isə axtarır. Heyrətlə ondan nə axtardığını soruşurlar. Sokrat qısa və mənalı cavab verir: "İnsan axtarıram". Bu, əslində məktəbin devizi olmalıdır. Müəllimlər Sokrat əzmi ilə istedadlı uşaqları axtarmalı və kəşf etməlidirlər. Belə olarsa, Vətən və xalq çox şey qazanar.

Elə insanlar var ki, onlar istedadları ilə başqa insanların taleyinə böyük təsir göstərməklə bəşəriyyət tarixində öz izlərini qoymuşlar. Onlar dahilərdir: **Dahi xüsusi istedada malik olan insanlardır.** Onların adları, demək olar ki, hamıya məlumdur. Leonardo da Vinçi, M.V.Lomonosov, Y.Məmmədəliyev, V.Motsart, Ü.Hacıbəyov, A.Eynşteyn, Lütfi-zadə və başqa **dahilər – başqalarının yoluna işıq salan, yol göstərən ulduzlardır.**

Dahilər istedadlı uşaqlara qayğı göstərəndə istedad üçün yol açılır.Onlar həyatda öz yerlərini tapa bilirlər. Azərbaycan

bəstəkarlarının böyük bir nəslinin Üzeyir bəyin atalıq qayğısı ilə sənətin şan-şöhrət zirvəsinə yüksəlməsi buna ən yaxşı sübutdur. Üzeyir bəy kənddən gəlmiş istedadlı «uşaqlar» üçün yataqxanası olmayan konservatoriyanın korpusunda, hətta heç kəsdən icazə almadan yataqxana düzəltdirmişdi. Onlara maddi yardım göstərir, onlarla dərsdən sonra da məşğul olmağa vaxt tapırdı.

İstedad və dahilik haqqında fikir söylərkən bir anlığa düşünmək olar ki, istedad xeyirxah və ya qəddar ola bilərmi? Yəqin ki, qabiliyyətli adamlar zalım hətta şərəfsiz də ola bilərlər. Ancaq inanmaq istərdik ki, həqiqi istedad və dahilər xeyirxahdırlar. İstedadlı insanlar, adətən çox həssas olurlar. Onların xətrinə dəymək də çox asandır. Ona görə də belə bir ifadə var: *"İstedadlı adamlara kömək etmək lazımdır. İstedadsız insanlar necə olsa da, özlərinə yol tapacaqlar"*.

12. Zaman və səmərəli həyat

Zaman dedikdə nəyi nəzərdə tuturuq? İnsan üçün ən zəruri olan anlayışlardan biri də ***zamandır***. Biz deyirik: bu, dünən baş vermişdir., o sabah olacaq. Hadisələrin ardıcıllığı, onların əvəzlənməsi, bizim üçün zamanda əks olunur. **Zaman – hər şeyi çəkib aparan axındır**.

İ.Hötenin "Faust" faciəsində *"dayan, ey anım, sən gözəlsən!"* - deyə çağıran qəhrəman kimi digər insanlar da zamanın axarını kəsmək, onu saxlamaq, arxaya döndərmək gücündə deyillər. Bizim dünyamızda zaman dönməz, birölçülü olub, keçmişdən gələcəyə doğru istiqamətlənmişdir. Lakin çox inanmaq istəyirəm ki, Kainatda dünyalar var ki, orada zaman bizdəki kimi axmır. Zamanın dönməzliyi problemi müxtəlif dövr mütəffəkirlərini maraqlandıran ciddi məsələdir. Məsələn, qədim yunan filosofu **Fales** demişdir: *"Zaman hər şeydən müdrikdir, çünki o hər şeyi aşkarlayır"*. Həqiqətən də biz zamanla yalan və yanlışlığı aydınlaşdırır, maskalar arxasında gizlənmiş rəzalət və şöhrət düşkünlüyünü dərk edirik. Bütün sirlər gec-tez aydınlaşır. Zaman dostluğu, etibarı, həqiqəti, anda sadiqliyi sınaqdan keçirir, itkilərin yarasını sağaldır. Tez-tez belə sözlər işlədirik: *"Hər şeyin zamana ehtiyacı var"*.

Zaman biristiqamətli, dönməz bir varlıqdır. Zaman bir daha təkrarlanmır. Lakin biristiqamətli zaman daxilində hadisələr təkrarlana bilər. Ona görə də **Nizami** yazırdı:

Ən uca nöqtəni aşarsa bir xətt,
Öz əski halına meyl edər, fəqət
Fikir nə zaman ki, son xəttə çatar,
Dayana bilməyib geri qayıdar.
Təkrar dolansa da öz dövrəsinə,
Birinci nöqtədə dayanar yenə.

İnsanlar zamanı Allah bilib ona səcdə edirdilər. "Hər şeyin öz vaxtı var" – deyib müdriklər. Zaman haqqında ilk təsəvvürləri yaradanın, onu ölçməyə başlayanın kimi olduğu bizə məlum deyildir. Qədim yunanlar hər şeyə qadir və allahların ulu babası sayılan **Kronos** allahı zamanın atası hesab edirdilər. O, bir əlində əsa, o biri əlində qum saatı tutmuş qoca obrazında təsvir edilmişdi.

Zaman keçdikcə cəmiyyət inkişaf edir. **S.Vurğun** demişkən: *"Zaman yaşa dolur, insan ağıla".*

Zaman ölçüsü. Təqvim. İlk təqvimlər uzaq keçmişdə meydana gəlmişdir. Onların vətəni qədim İkiçayarası (Mesopotamiya) və Misirdir. Əvvəlki təqvimlər yöndəmsiz və təqribi idi. Çünki yaddaş və müşahidələrə əsaslanırdı. Onları ***fenoloji təqvim*** adlandırırdılar. Bu təqvimlər təbiət hadisələri əsasında qurulmuşdu.

İlk təqvim ***Ay təqvimi*** olmuşdur. O, Günəş sutkasından daha böyük zaman kəsiklərini ölçməyə imkan verirdi. Başqa sözlə, yeni Aydan o biri yeni Ayın başlanmasınadək bir ay vaxt ölçmək – "otuz Günəş" ölçməkdən daha asan idi. Qədim Şumer ölkəsində kahinlərin astronomik müşahidələri nəticəsində ilk Ay təqvimi yarandı. Bu təqvim üzrə ilin uzunluğu 354 gündür. Çatışmayan 11 gün ilin sonuna 13-cü ay kimi əlavə olunurdu. Bu təqvim çox mürəkkəb idi. Çünki təkcə Günəş və Ay hərəkətlərinə əsaslanmırdı. Başqa planetlərin hərəkəti haqqında bilikləri də əks etdirirdi. Şumer kahinlərinə beş planetin adı məlum idi. Ona görə də həftənin beş günü bu planetlərin adı ilə adlanırdı. Bir çox xalqların dillərində həftənin günlərini ifadə edən qədim planet adları indiyədək

qalmaqdadır. Qədim yunanlar və romalılar Ay təqvimindən istifadə etsələr də, onlarda həftə yox idi. Çox sonralar onlar bunu şumerlərdən öyrənmişdilər. Şumerlərin Şabatı romalılarda Saturna çevrilmişdi. Bu planet iş görmək üçün yaxşı əlamət hesab olunmadığından romalılar şənbə günü istirahət edirdilər.

İlk ***Günəş təqvimini*** Misir kahinləri tərtib etmişdilər. Bu təqvimə əsasən il 365 gün, hər dörd ildən bir isə 366 gün hesablanırdı. İl dörd fəslə və 12 aya bölünmüşdü. Təqvimdə artıq qalan 4 günü isə misirlilər allahların şərəfinə bayramlar keçirirdilər.

Ayın Yer, Yerinsə Günəş ətrafında dolanma vaxtı tam ədədlə ifadə olunmadığından təqvimlərdə həmişə dolaşıqlıq olurdu. Romada Qay Yuli Sezarın əmri ilə ***Yuli təqvimi*** adlanan təqvim tərtib olundu. Bu təqvim Misir təqvimi əsasında tərtib olunmuşdu. 1582-ci ildə isə Roma papası XIII Qriqori tərəfindən ***Qriqori təqvimi*** tərtib edildi. İndi ilin ümumi uzunluğu Yerin Günəş ətrafında dolanma müddətinə daha dəqiq uyğunlaşdırılmışdır. Dörd ildən bir uzun ilin tətbiqi yanlışlığı aradan qaldırır. İlin başlanğıc tarixi isə şərtidir. Bu şərtilik bəzi adamlarda çaşqınlıq yaradır. Çoxları bilmir ki, niyə 2000-ci il üçüncü minilliyin başlanğıcı olmadı. Çünki onlar hər şeyin başlanğıcını sıfırdan götürməyə meyillidirlər. Biz indi təqvimdə öz dəqiqliyimizlə öyünürük. Ancaq hələ qədim şumerlər Ayın dolanma dövrünü yarım saniyə dəqiqliklə hesablamışlar. Mayya kahinləri isə Günəş ilinin uzunluğunu heyrətamiz dəqiqliklə müəyyən etmişdilər. Onlar yalnız 18 saniyə xətaya yol vermişdilər.

Təqvim bizim gündəlik həyatımızdır. Bu təqvim vasitəsi ilə günlərin, həftələrin, ayların və illərin bir-birini əvəzləməsini izləyə bilirik. Təqvimə nəzər salsaq, orada qırmızı və qara rənglə verilmiş günləri görə bilərik, təqvimdə qırmızı rənglə verilən günlər bizim dövlətçilik və milli-mənəvi dəyərlərimizjən irəli gələn bayramlar və istirahət günləridir. Bayramlar xalqımızın və dövlətimizin taleyində çox böyük rol oynamış hadisələri göstərir. Məsələn: 28 may – Respublika günü, 15 iyun-Qurtuluş günü, 26 iyun-Milli Ordu günü , 20-21 mart – Novruz bayramı və s.

Lakin elə günlər də vardır ki, onlar təqvimdə qara çərçivəyə alınmışdır. Bu **20 yanvar** günüdür. Həmin gün dünyada özünü «sülhüncarçısı» elan etmiş bir dövlətin ordusu Bakı şəhərinə təcavüz etmiş, öz vətəndaşlarına misilsiz qəddarlıqla divan tutmuşdur.

Məktəblinin iş günü. Asudə vaxt. Vaxtı qızıla bənzədirlər. Lakin vaxt hətta qızıldan da qiymətlidir. Ona görə də vaxtdan səmərəli istifadə etmək lazımdır. Hər bir insan yəqin ki, öz iş gününüzün rejimini tərtib edir, ona da əməl etməyə çalışır. Əlbəttə, məktəblinin də iş günü səhər saat 7^{00} –da yuxudan oyanmaqla başlayır. Bu rejimin təqribən 6-8 saatı məktəbdə dərs məşğələlərinə sərf olunur. Hər bir məktəbli evə qayıtdıqdan sonra dərslərini hazırlamalıdır.

Belə bir zaman anlayışı var: **asudə vaxt**. Bu elə bir andır ki, insanlar öz vəzifə borclarını (işləmək, oxumaq) vicdanla yerinə yetirmişlər və zamanın büdcəsində artıq vaxt qalmışdır. Buna asudə vaxt deyilir. Bəs bu vaxtdan necə istifadə etməli? Boş-boşuna veyillənmək, mənasız işlərlə məşğul olmaq, yatmaq, yoxsa təbiətin qoynunda gəzməyə çıxmaq, filmə tamaşa etmək, idmanla məşğul olmaq, teatra getmək, dostlarla işgüzar söhbətlər aparmaq, bostanda və bağda işləmək. Bunların hansı səmərəlidir? Əlbəttə, ikinci qrupda sadalanlar. Ümummilli liderimiz Heydər Əliyev asudə vaxt haqqında demişdir: *"Asudə vaxt məsuliyyətdən azad bir vaxt deyil. Asudə vaxt sosial sərvətdir və ondan ehtiyyatla qənaətcil istifadə etmək lazımdır"*.

Ulu babalarımız zamana dəyər verməyi öyrənmiş, ona var-dövlətdən hər şeydən daha artıq diqqət və həssaslıqla yanaşmış, onu israf etməməyə çalışmışlar. Zamanı israf etməmək, ondan mümkün olduğu qədər faydalanmaq vərdişlərinə yiyələnmək səmərəli həyat tərzi deməkdir. Ata-babalarımız həmişə deyiblər: *"Vaxt israfı əvəzsiz itkidir"*. Görkəmli Azərbaycan yazıçısı **Mir Cəlalın** tez-tez təkrar etdiyi bir kəlam var idi: *"Dünyada ən qiymətli şey vaxtdır"*. Böyük ədib özü bütün həyatı boyu bu müdrik fikrə sadiq qalmış, yaşadığı zamandan səmərəli istifadə edərək bir-birindən gözəl əsərlər yaratmışdır.

Yaxşı oxumağın sirri. Yaxşı oxumağın sirri də müəyyən dərəcədə vaxtla bağlıdır. Dost və yoldaşlarla keçirilən vaxt nə qədər qiymətli olsa da, dərs oxumaq üçün ayrılan vaxtdan qiymətli ola bilməz. Siz özünüzü elə bir həyat tərzinə alışdırmalısınız ki, 24 saatlıq bir gündə həm məktəbə, həm yeməyə, həm istirahətə, həm yatmağa vaxtınız olsun. Əğər vaxtı bölsəniz, ondan səmərəli istifadə etsəniz, onda dərslərinizi də yaxşı oxuyarsınız. Deməli, yaxşı oxumağın sirri vaxtı düzğün bölməkdə və ondan səmərəli istifadə etməkdədir.

13. Həyatda uğur qazanmağın yolları. Ünsiyyət

"Tək əldən səs çıxmaz". İnsan qrupları. Yəqin ki, siz məşhur ingilis yazıçısı Daniel Defonun "Robinzon Kruzo" romanını oxumusunuz. İngilis dənizçisi Robinzon Kruzo gəmi qəzasına uğradıqdan sonra insan yaşamayan bir adaya düşür. Çox böyük çətinliklər və məhrumiyyətlər hesabına özünün yaşaması üçün zəruri olan vasitələrin bir hissəsini əldə edir: koma tikir, taxıl əkir, heyvanları əhliləşdirir, özünü müdafiə üçün tikinti işləri aparır. Lakin o, özünü çox bədbəxt hiss edir. Çünki o, bütün bu işləri təkbaşına görür. Onunla söhbətləşən, hisslərinə şərik çıxan bir yoldaşı yoxdur. Nəhayət, tale onun üzünə gülür: vəhşi Cümə ilə rastlaşır və o, Kruzonun sadiq dostuna çevrilir. İndi Kruzonun günləri tənha və kədərli keçmir. Yəqin gördünüz ki, insan fiziki cəhətdən ayrılıqda yaşaya bilər. Lakin mənəvi cəhətdən onun belə yaşaması mümkün deyildir. Artıq göründüyü kimi, Robinzon və Cümə kiçik bir qrup təşkil etmişdilər.

İnsanın əhatəsi çox genişdir. İnsan həmişə insanlar içində, ailə üzvləri, iş yoldaşları, qohum-qonşuları, dost və yoldaşlarının əhatəsindədir. Biz daim bu İnsanlarla qarşılaşır, ünsiyyətdə oluruq. Bizi bir-birimizə müxtəlif tellər bağlayır. Münasibətin, ünsiyyətin xarakterinə görə də insanlar müxtəlif qruplar təşkil edirdilər. Insanlar ailə, qohumlar, qonşular, dostlar qruplarında ona görə birləşirlər ki, tək qalmasınlar, hər cür bədbəxtliklərdən qorunsunlar, çünki atalar demişkən, *"Tək əldən səs çıxmaz!"*

İnsan münasibətləri. İnsan hər şeyin ölçüsüdür – bu sözlər yunan fəlsəfəsinin bəlkə də amalı idi. İnsanın şəninə, şərəfinə dünya ədəbiyyatında nə qədər əzəmətli sözlər deyilmişdir.

XX əsrin qlobal problemləri içərisində insan münasibətləri xüsusi yer tutur. Bu münasibətlər isə, doğrudan da, kövrəkdir, zərifdir və bəzən adi bir yersiz baxış, təsadüfi sayğısızlıq onlarda dərhal əks olunur, adamların bir-birinə hörmət-izzətini azaldır, qarşılıqlı münasibətlərinə soyuqluq gətirir.

Cəmiyyətdə hər bir insan başqaları ilə qarşılıqlı fəaliyyətdə olmalı və kollektivdə yaşamalıdır. ***Kollektiv daimi birgə işlə məşğul olan, ümumi məqsədə malik, təhsil və yaxud yaradıcı fəaliyyətlə bağlı olan insanlar birliyidir.*** Bununla belə, hər bir Insanda fərdilik, şəxsilik olduğu kimi, ümumilik və kollektivçilik də vardır. Təəssüf ki, fərdilik və ümumilik həmişə üst-üstə düşmür. Belə olduqda Insan seçim qarşısında qalır – güzəştə getsin, yoxsa iddia irəli sürsün. Bəziləri münaqişə yolunu – ətrafdakılarla mübarizə, öz maraqları üçün müharibə yolunu seçirlər. Belələrini çox vaxt *münaqişəli insanlar* da adlandırırlar.

Münaqişə (konflikt) – əks maraqların, baxışların və ya fikirlərin toqquşmasıdır. Sosial münaqişələrin bir çox növləri vardır: ailə, peşə istiqamətli, şəxslərarası, millətlərarası, dövlətlərarası və siyasi münaqişələr.

Rəqabət münaqişəyə yaxındır. İnsan öz rəqibini hər şeydə – məvacibdə, cəmiyyətdəki vəziyyətində, şöhrətdə, tərifləndə və s. hallarda üstələməyə çalışır. Rəqabət özünü başqasına qarşı qoymağı, fərdiliyin son həddini, Insanlara münasibətdə təkəbbürlülüyü, yaxınlara kömək arzusunun olmamasını nəzərdə tutur. Əgər cəmiyyət rəqabət üzərində qurulmuşdursa, onda hər kəs, ilk növbədə rəqiblərini məhv etməyə və hər şeyə yalnız özü nail olmağa çalışır.

İnsanların qarşılıqlı fəaliyyət formalarından biri əl-ələ verib çalışmasıdır, yəni ***həmrəylikdir.*** Həmrəylik dedikdə könüllülük əsasında hər kəsin ətrafdakı İnsanların nailiyyətləri ilə maraqlanmağı, bir-birinə qarşılıqlı kömək və yardım göstərməsi, bir güc, etimad, bərabərhüquqlu tərəfdaşlıq nəzərdə tutulur. Bu halda

ümumi və fərdi maraqlar vəhdət təşkil edir. Təbii ki, belə olduqda kollektivçilik ayrıca insanın şəxsiyyətini kölgədə qoymamalı, hamının rifahı, meyil və maraqları nəzərə alınmalıdır.

Nəyə görə insanlar müəyyən qruplarda birləşirlər? Təsəvvür edin ki, Yer kürəsində hər şey eynidir; İnsanlar, heyvanlar və bitkilər. İl boyu yalnız isti, günəşli hava hökm sürür. Bəs bütün şagirdlər, ətrafda olan digər insanlar? Təsəvvür edin ki, onlar bir-birindən heç nə ilə fərqlənmirlər. Onların hamısı eyni xasiyyətli, eyni rəngli və eyni boyludurlar. Bizim heç birimiz onları tanıya bilmirik. Bilmirik ki, qarşımızda duran kimdir. Ancaq, göründüyü kimi, belə deyildir. Valideynlər öz övladlarını, qohum qohumu, qonşu qonşunu və s. bir-birindən fərqləndirir.

Hər birimiz təkrarsızıq. Hamımız müxtəlifik, eyni zamanda bizi birləşdirən ümumi cəhətlər vardır. Məhz bu cəhətlər bizə müəyyən qruplarda birləşməyə imkan verir. Məsələn, sizin hamınızı şagird olmağınız və ya hansısa bir sinifdə oxumağınız birləşdirir. Bu və ya digər başqa insan qrupları da belə yaranır. Yuxarıda deyildiyi kimi, belə insan qrupları kollektiv adlanır.

Biz bilirik ki, insanı digər canlılardan fərqləndirən başlıca amil onun şüurlu olmasıdır. Hisslərə malik olmaq da insana xas olan mühüm keyfiyyətlərdən biridir. Bəs insana xas olan hisslər hansılardır? Elm sübut eldir ki, insanda orta hesabla mindən çox duyğu hissi vardır. Bu qədər hisslər içərisində *istək, sevgi və səadət* mühüm yer tutur.

İstək və sevgi həm anadangəlmə, həm də sonradan qazanılmış olur. Məsələn, valideynin övlada olan sevgisi anadangəlmədir. Diqqət yetirsək, heyvanlarda və bitkilərdə də istək, sevgi və səadət hisslərinin olduğunu görürük. Hər hansı bitki öz həyatını davam etdirməsi, yaşaması və boy atması üçün təbiətdən müəyyən şeylər istəyir; heyvanların da qidaya və nəvazişə ehtiyacları vardır. Heyvanlarda da öz balalarına qayğı və mərhəmət dolu ürək vardır.

İnsanın istəkləri maddi və mənəvi istəklərə bölünür. Maddi istəklərə misal olaraq qidalanma, təmiz hava, paltar və s. aiddir. Düşünmək, sevinmək, şənləmək, hətta kədərlənmək, lovğalanmaq və s. isə mənəvi istəklərə aiddir. İstəyin daha güclü forması sevgi

adlanır. Insan çox istədiyi şeylərə aludə olursa, istək sevgiyə çevrilir.

Sevgi hissi sayəsində ana balası üçün özünü hər cür təhlükəyə atır. Sevgi sayəsində övlad valideynləri üçün hər cür fədakarlıq edir. Insan müəlliminə, dostlarına, qohum-qonşusuna olan sevgisi sayəsində onlarla rahat həyat sürür. Insanların qəlbində torpağına, dövlətinə, bayrağına sevgi hissi olmasaydı, üzərində gəzdiyimiz bu torpağa Vətən deyib onun uğrunda qan tökməz, can verməzdilər. Sevgisiz həyat mümkün deyildir. Sevgi Insanlar arasında, Insanla ətraf aləm arasında bir əlaqə vasitəsidir. Sevgi ilə dostluq, qardaşlıq əlaqələri güclənir, sevgi ilə qəlblər birləşir, könüllər qovuşur. Millətlər və xalqlar arasında bir-birlərinə etimad əldə olunur.

Xeyirxahlıq və dözümlülük. Dözümlü olmaq nə deməkdir? Insana xas olan hisslər içərisində **xeyirxahlıq** və **dözümlülük** daha çox əhəmiyyət kəsb edir. Xeyirxah iş, xeyirxah əməl insanı mənən ucaldır, onu yaşadığı cəmiyyətin ən ləyaqətli üzvünə çevirir.

Tarix özü də xeyirxah əməlləri unutmur. Xeyirxahlığı ilə insanların qəlbində əbədi yer tutmuş **Hacı Zeynalabddin Tağıyevi** unutmaq mümkündürmü? Əlbəttə, yox. Xalqımızın maariflənməsi, milli şüurunun inkişafı, bir çox insanın həyatının qorunub saxlanması üçün Hacı heç nəyini əsirgəməmişdi.

Xeyirxahlıq bizə ulu babalarımızdan əmanət qalmış çox böyük sərvətdir. Məsələn, keçmiş dövrlərdə hər bir adam evinin qapısı önündə tut ağacı əkərmiş. Yol kənarlarında meyvə bağları salarmış. Bulaq çəkmək, körpü salmaq, məscid, hamam, karvansara, mədrəsə tikməyi imkanlı adamlar özlərinə borc bilərlərmiş. İndiki kimi nəqliyyat vasitələrinin olmadığı o zamanlarda uzaq səfərə çıxan adamlar sərin bulaq suyundan içər, ağacların meyvələrindən yeyər, kölgəsində dincələr, bu bulağı çəkən, bu ağacları əkən xeyirxah insanlara dua edərdilər. Siz də xeyirxah olun, Allah bunun əvəzini verər.

İnsanlar müxtəlif sosial-mədəni köklərə, dini əqidələrə malikdirlər. Həyatın istənilən problemi və ya hadisəsi haqqında, sözsüz ki, onların həmişə müxtəlif fikir və ideyaları olacaqdır. Insanın baxış müxtəlifliyinə dözümlü münasibəti və öz mövqeyini

ətrafdakılara hörmətlə ifadə etməsi mühüm əhəmiyyət kəsb edir. Bu cür dünyagörüşə malik şəxsi **dözümlü (tolerant) insan** adlandırırlar.

Tolerant olmaq – digər insanların ideyalarını, fəaliyyətini və həyat tərzini həyatın rəngərəngliyi kimi qəbul etmək, əks baxışlara səbirlə yanaşmaq deməkdir. Tolerant insan fikir ayrılıqlarını diolaq prosesində aydınlaşdırır aə istənilən mübahisəni müzakirə və inandırma yolu ilə həll edir.

Tolerantlıq[1], insan hüquqlarının həyata keçirilməsinin, sülhə nail olmağın ayrılmaz və mühüm ünsürüdür. Tolerantlıq güclü əlaqələr yaradır, daha sıx əməkdaşlığa yol açır, Insanların həmrəyliyini möhkəmləndirir. Totlerantlıq ədavəti və fikir ayrılığını aradan qaldırmağa kömək edir, zorakılığa və hədə-qorxuya qalib gəlir, cəmiyyətdə təhlükəsizlik hissini təmin edir. Tolerant insan öz rəqiblərinə hörmətlə yanaşır. Sizin başqalarını bağışlamağa gücünüz çatırsa, deməli, lazım gəldikdə onlar da sizi bağışlaya biləcəklər.

Ünsiyyət

Ünsiyyət nə deməkdir? Bəlkə də bir-biri ilə ünsiyyət saxlamayan heç bir cəmiyyət və insan qrupunu təsəvvür etmək mümkün deyil. Ailədə və küçədə, işdə və nəqliyyatda, şənlikdə və naharda da insanlar bu və ya digər münasibətdə olurlar. **Ünsiyyət insanlar arasında informasiya mübadiləsi, qarşılıqlı təsir, onların bir-birini qavraması və anlaması prosesidir.**

Ünsiyyətsiz yaşamaq mümkündürmü? Bu suala birmənalı şəkildə yox cavabı vermək olar. Çünki cəmiyyətdə yaşayıb heç kimlə ünsiyyət saxlamamaq qeyri-mümkündür. Ancaq elə adamlar var ki, onlar adamla ünsiyyətdən qaçırlar. Belələri haqqında adətən deyirlər: "Filankəslə ünsiyyət yaratmaq çox çətindir». Yaxud daha çox adamla ünsiyyət qurmaq bacarığı olanlar haqqında isə belə deyirlər: «O, çox ünsiyyətcil adamdır".

İnsanların uğurlu ünsiyyət yaratmasına bir sıra amillər kömək edir: salamlaşmaq, şirinsözlü və qılıqlı olmaq, hal-əhval tutmaq,

[1] *Tolerantlıq (latınca – səbir, dözüm) – başqasının fikrinə, dini etiqadına, adət-ənənəsinə, davranışına dözümlükdür, xoş münasibətdir.*

qonaq getmək, qonaq qəbul etmək, xoşrəftar olmaq, doğruçu və gülərüz olmaq, səxavətli olmaq və s.

Gəlin onların bir neçəsini nəzərdən keçirək.

Nitq, ilk növbədə insanların öz aralarındakı ünsiyyətlərə kömək edir, əlbəttə, bu prosesdə mimika, jestlər, işarələr də müəyyən rol oynayır. Lakin insan qapalı və nəzakətsizdirsə, başqalarını dinləmək mədəniyyəti yoxdursa, onda heç bir dil və mimika ona kömək göstərməyəcək. Odur ki, hər kəs ünsiyyətin müəyyən qaydalarına söykənməlidir. Bu qaydaları aşağıdakı kimi formalaşdırmaq olar. Siz həmsöhbətinizin maraqlandığı mövzuda danışın; həmsöhbətinizlə onun sizə münasibətinə uyğun münasibət qurun; danışığınızda əmr intonasiyasından qaçın; həmsöhbətinizi diqqətlə dinləyin, onun sözünü kəsməyin; çərənçi olmayın; yüksəkdən danışmayın və əl-qol hərəkəti etməyin. Müsahibiniz sizin ona səmimi hörmət etdiyinizi duysun.

Beləliklə, danışıq, nitq insanın əxlaqını, elmini, dünyagörüşünü, xasiyyətini, mədəni səviyyəsini əks etdirən bir güzgüdür.

Adamların aralarındakı münasibətdən asılı olmayaraq, bir-birinə *salam vermələri* ünsiyyətin əsas əlamətlərindən biridir. Etiketə müvafiq olaraq salamı birinci daxil olan adam verir və əgər buna qədər onların arasında müəyyən inciklik vardırsa, bu salamlaşma mərasimi hər iki tərəfdə könül xoşluğu yaradacaqdır. Xidməti etiketin belə bir tələbi vardır: «Ünsiyyət, nəzakət və ədəb özünə və başqalarına hörmətin əsasıdır».

Başqaları ilə ünsiyyət yaratmağa nə mane olur? Ünsiyyət elə də asan iş deyil. Ondan istifadə etmək qaydasından çox şey asılıdır. Yəni, sizin fikirləriniz, baxışlarınız, qərarlarınız, informasiyanız başqa insanlar tərəfindən qəbul olunacaqmı? Qarşılıqlı birgə iş uğurlu alınacaqmı? Yeni nə əldə edə biləcəksiniz? Sizin aid olduğunuz kollektivin qazancı nə olacaqdır və s. Böyük yunan şairi Homeri yada salaq. O, yazırdı: *"Nə cür söz desən, o cür də cavab eşidərsən"*. Bizdə isə belə deyilir: *"Nə əkərsən, onu da biçərsən"*.

Bəzən görürsən ki, bir məclisdə hamı danışır, deyib-gülür. Lakin bir neçə nəfər bu ünsiyyətdən kənarda qalmışdır. Bunu nə ilə izah etmək olar? Tutaq ki, siz yaşlı adamlarla ünsiyyətdəsiniz. Əlbəttə, burada ədəb-ərkan gözlənilməlidir. Yaşlıların söhbətinə müdaxilə etmək, onların zarafatlarına qoşulmaq yaxşı iş deyildir. Lakin əgər müzakirə olunan məsələ barəsində sənin də fikrini, rəyini soruşarlarsa, bu ünsiyyətdən kənarda qalmaq olmaz.

Şair Sədi yazırdı:

Ədəb sayılsa da, məclisdə susmaq,
Məsləhət zamanı danışmaq gərək.
İki şey ağıla nöqsan sayılar:
Yersiz susmaq ilə, yersiz söz demək.

Son vaxtlar tez-tez belə fikirlər səslənir ki, kompyuter tezliklə insanlararası ünsiyyəti əvəz edəcəkdir: yeni informasiyalar əldə etmək, öyrənmək, dostluq etmək, hətta sevgili seçmək belə internet vasitəsi ilə əldə ediləcəkdir. Lakin inanmaq istərdik ki, belə hal baş verməyəcək. Çünki heç bir maşın, mexanizm və rabitə canlı Insanı əvəz etməyə qadir deyildir. Heç bir yazı birbaşa Insani ünsiyyətdən alınan təəssüratı verə bilməz.

Biz ünsiyyət yaratmağın yollarını və formalarını, ümumi olsa da, nəzərdən keçirdik. Buradan belə bir nəticə çıxarmaq olar ki, insanlar arasında ünsiyyət yaratmağın ən təsirli vasitəsi **sözdür.** Təsadüfi deyildir ki, böyük türk mütəfəkkiri **Cəlaləddin Rumi** sözü yüksək qiymətləndirərək deyirdi: *"Söz var qılınca bənzər, bostanı, əkini qış kimi kəsib biçər, söz var ilk bahara bənzər, hər tərəfdə saysız-hesabsız meyvələr bitər"*. Dahi şairlərimiz Nizami və Füzuli həmişə sözə yüksək qiymət vermiş, onun qədrini bilməyi, yersiz söz işlətməkdən uzaq olmağı məsləhət görmüşlər. Nizami Gəncəvi deyirdi ki, çalış ki, danışığında inci tək sözlərdən istifadə edəsən. Az danış, lakin məzmunlu, kəsərli danış, qoy sənin az sözlərinlə dünya bəzənsiz. Məhəmməd Füzuli isə sözü bir pəhləvana bənzədir, onu ölkələr tutan, işğalçı müharibələr aparan hökmdarların qoşunu ilə müqayisə edir. Bu qoşunlar nahaq qanlar tökür, insanlara zülm edir, qətl və qarətlər törədir.Şairin söz pəhləvanı isə qılıncsız, döyüşsüz min bir könülləri fəth edir. Odur ki, onun söz pəhləvanı

heç vaxt məğlub olmur. Bax budur doğru və şirin sözün qüdrəti! Ona görə də atalarımız haqlı olaraq demişlər: "Doğru söz qılıncdan itidir", yaxud "Qılınc yarası sağalar, söz yarası sağalmaz". Çalışın şirindilli, doğru sözlü olasınız. Sözünüzün qədir-qiymətini biləsiniz. Nitqinizdə son dərəcə diqqətli və dəqiq ölçülü olun. Sözü deməzdən əvvəl düşünün, "Yüz ölç, bir biç" atalar sözünə əməl edin. Heç zaman yanlış ola biləcək, qarşınızdakının xətrinə dəyəcək söz işlətməyin. Yadda saxlayın ki, danışanda xəta etməmək özü də bir elmdir.

14. İnsan və təbiət

İnkaredilməz elmi dəlillərlə sübut edilmişdir ki, insanı təbiətdən ayırmaq mümkün deyil, o, təbiətin övladı, onun uzunsürən tarixi təkamülünün məhsuludur. Lakin təbiətin özündən yaranmış insanı təbiətlə eyniləşdirmək olmaz, çünki o həm də şüura və iradəyə malik bir varlıqdır. Başqa canlılar kimi Insanın da həyatı və fəaliyyəti yalnız təbiətdə, müəyyən təbii şəraitdə mümkündür. İnsanı əhatə edən təbii şərait çox vaxt ətraf mühit adlandırılır. Balıq sudan kənarda yaşaya bilmədiyi kimi insan da müvafiq təbii şərait olmadan yaşaya bilməz. Bu mühitdə Insan arasında sıx qarşılıqlı əlaqə və təsir mövcuddur. Mühit Insana təsir etdiyi kimi Insan da mühitə təsir göstərir, onu dəyişdirir. Başqa canlılardan fərqli olaraq, Insan sadəcə olaraq mühitə uyğunlaşmır, əksinə mühiti, təbiəti özünə uyğunlaşdırmağa çalışır. O özü üçün müvafiq temperatur rejimi yaradır, süni dəryaçalar və göllər güzəldir, çayların istiqamətini dəyişdirir, yollar çəkir, körpülər salır, nəhəng elektrik stansiyaları tikir, yaşıllıq zonaları düzəldir, şəhərlər, qəsəbələr, kəndlər və böyük kommunikasiya xətləri inşa edir. Odur ki, insanı əhatə edən mühiti iki yerə – təbii və süni mühitə bölmək olar.

Təbii mühit Insanın durmadan artan tələbatını tam ödəyə bilmədiyinə görə Insan öz təsərrüfat fəaliyyətilə onu zənginləşdirməyə çalışır və «ikinci təbiət» adlandırılan süni mühit yaradır. Süni mühit anlayışı, yuxarıda göstərildiyi kimi, Insanın tikdiyi şəhərləri, qəsəbələri, kəndləri, çəkdiyi yolları, kanalları,

saldığı bağları, yaratdığı elektrik stansiyalarını, bir sözlə, öz ehtiyaclarını ödəmək üçün inşa etdiyi bütün obyektləri əhatə edir. Təbii və süni mühit bir-birini tamamlayır, Insanın həyatı və fəaliyyəti üçün lazımi şərait yaradır.

Cəmiyyət inkişaf etdikcə onun həyatında süni mühitin rolu da tədricən artır. insanın yaratdığı bu mühit verdiyindən qat-qat çox məhsul verir, Insanın ehtiyaclarını daha dolğun ödəyir. Beləliklə də, insan tərəfindən süni mühit təbii mühiti üstələyir, ona qarşı hücuma keçir, onu sıxışdırır və məhdudlaşdırır. Insanın yaratdığı "ikinci təbiət" onun bu sahədəki imkanlarını daha da genişləndirir, həyatının təminatını və təhlükəsizliyini xeyli artırır. Məişət və istehsalat binaları, qızdırıcı və soyuducu cihazlar istehsal etməklə, zəlzələyə qarşı seysmik cəhətdən davamlı tikililər inşa etməklə, sellərin qarşısını almaq üçün nəhəng bəndlər basmaqla o özü üçün nisbətən təhlükəsiz və rahat yaşayış şəraiti yaradır, təbiətin şıltaqlığından qismən də olsa özünü qoruyur. İnsan təbiətlə daim ünsiyyətdə, təmasda bulunur. Təbiətlə sıx əlaqəyə jirmədən o yaşaya bilməz. Belə ki, insanın yaşaması və nəslini davam etdirməsi üçün, birinci növbədə, ona maddi nemətlər: ərzaq, geyim, ev, mebel və digər məişət əşyaları lazımdır. Bu nemətlərin hamısı təbiətdə var. Təbiət insanın bütün ehtiyaclarını ödəməyə qadirdir. İnsanın həyatı üçün zəruri olan bir nemət, elə bir sərvət yoxdur ki, o, təbiətdə olmasın. Bu da çox qanunauyğundur. Belə ki, insanın ehtiyacları, onun müxtəlif məhsullara olan tələbatı tarix boyu təbiətdə mövcud olan sərvətlərə müvafiq olaraq yaranmış və inkişaf etmişdir. Təbiətdə olmayan şeyə insanda ehtiyac yaranmır. Lakin təbiət Insana lazım olan bu nemətləri ona hazır şəkildə bəxş etmir. Insanın həyatı üçün zəruri olan nemətləri əldə etmək üçün əvvəlcə onları hasil etmək, sonra isə insanın tələbatını ödəyə biləcək formaya salmaq məqsədilə emal etmək, onlardan müvafiq məhsullar almaq lazım gəlir. Məsələn, yerin dərnliklərindəki neft ilkin halında demək olar ki, insanın heç bir ehtiyacını ödəyə bilmir. Lakin emal edildikdən sonra ondan insan həyatı üçün zəruri olan müxtəlif qiymətli məhsullar alınır.

İnsan öz yaşayışı üçün zəruri olan məhsulları əldə etmək üçün daim təbiətlə əlaqəyə girməli, ona təsir göstərməli olur. Insanla təbiət arasındakı bu qarşılıqdı əlaqə və təsir uzun bir tarixə malikdir. Cəmiyyətin ibtidai dövrlərində Insanlar istehsalla məşğul ola bilməmiş, təbiətdə mövcud olan hazır məhsullardan, təbiətin onlara hazır şəkildə bəxş etdiyi sərvətlərdən istifadə etməli olmuşlar. Buraya qidalanmaq üçün yararlı olan yabanı meyvələri, bitkiləri, bitki köklərni, balıq və heyvan ovunu, daş, ağac və sümük alətləri, mağaraları, çayları, gölləri, dənizləri və sairəni aid etmək olar. Aydındır ki, bu dövrdə təbiətdəki neft və qaz yataqları, dəmir, kömür ehtiyyatları, müxtəlif metal filizləri, böyük enerji mənbəyi olan günəş, külək və şəlalələr insanların və bütövlükdə cəmiyyətin həyatı, yaşaması üçün demək olar ki, heç bir əhəmiyyət kəsb etmirdi. İnsanların bu sərvətlər haqqında təsəvvürləri belə yox idi, daha doğrusu, onlar bu qiymətli nemətləri əldə etməyin, onlardan istifadə etməyin yollarını hələlik bilmirdilər. Lakin tədricən insan idrakı inkişaf etdikcə, ətraf alm haqqında onun bilikləri, təsəvvürləri genişləndikcə, həyat təcrübəsi artdıqca bu təbii sərvətlərdən istifadə etməyə başlayır. Yerin altında və üstündə olan bu sərvətlər cəmiyyətin həyatında tədricən öz yerini tutur və yüksək qiymətini alır. Bu sərvətlərdən istifadə edilməsinin Insan idrakından, elmin və texnikanın tərəqqisindən asılı olduğunu aydın təsəvvür etmək üçün aşağıdakı misal çox səciyyəvidir. Bakıda keçən əsrin ikinci yarısında nefti yenicə emal etməyə başlayarkən bu prosesdə labüd olaraq, yəni istehsalçıdan asılı olmayaraq əvvəlcə, birinci olaraq ayrılan benzin sahibkarlar üçün böyük bəlaya çevrilmişdi. Belə ki, o zaman bu neft məhsulunun çox qiymətli yanacaq növü olması hələ kəşf edilməmişdi, bu mayenin mühərrikləri hərəkətə gətirə bilməsi insana məlum deyildi. Odur ki, sahibkarlar böyük xərc çəkərək təhlükəli yanğın mənbəyi olan benzini xüsusi barjlarla daşıtdırıb Xəzər dənizindəki adalarda yandırtdırırdılar.

Dünyanın bir çox ölkələrinin ciddi energetika böhranı məngənəsində boğulduğu, dünya bazarında benzinin çox baha qiymətə satıldığı bir şəraitdə şübhəsiz ki, bu fakt daha dərin məna kəsb edir.

İnsanla təbiət arasındakı münasibət Insanın istehsal fəaliyyəti nəticəsində həyata keçirilir. Bu fəaliyyət təbiətdə, onun sərvətləri, materialları zəminində baş verir. Nəticədə insanla təbiət arasında geniş əlaqə və mübadilə yaranır. Bu, cəmiyyətin mövcud olmasının, həyat və fəaliyyətini davam etdirməsinin zəruri şərtidir.

Təbiət insanın istehsal fəaliyyətinə ciddi təsir edir, müəyyən mənada istehsalın istiqamətlərini təyn edir. Şübhəsizdir ki, münbit torpaqların, əkin yerlərinin, kifayət qədər şirin suyun olmadığı şəraitdə əkinçilik, əhliləşdirmək üçün müvafiq heyvanların və onları saxlamaq üçün otlaqların olmadığı yerdə maldarlıq inkişaf edə bilməz. Odur ki, insanlar özünə daimi yaşayış yeri seçərkən dənizlərin və göllərin kənarında, çayların vadilərində, meşələrin, münbit torpaqların olduğu yerlərdə məskən salmağa üstünlük vermişlər.

Bu deyilənlər göstərir ki, insanların məskunlaşması, istehsal sahələri yaratması və bütövlükdə cəmiyyətin inkişafı xeyli dərəcədə təbii şəraitdən, coğrafi mühitdən asılıdır. Belə ki, əlverişli təbii şərait, zəngin sərvətləri olan coğrafi mühit Insanları özünə cəlb edir, əkinçiliyin, maldarlığın, bağçılığın və sənayenin müxtəlif sahələrinin yaradılmasına və inkişafına təkan verir. Lakin buna əsaslanaraq iddia etmək düzgün olmaz ki, təbii şərait, coğrafi mühit cəmiyyətin inkişafının həlledici şərti, təyinedici amildir. Burada bir sıra iqtisadi, ictimai və sosial amillər rol oynayır. Onların araşdırılması və təhlili cəmiyyətin həyatından, onun inkişafından və hərəkətverici qüvvələrindən bəhs edən sosial fəlsəfənin vəzifəsidir. Lakin burada bu məsələyə ötəri də olsa toxunmamaq düzgün olmaz.

Sosial tərəqqidə coğrafi mühitin rolu məsələsinə münasibət birmənalı olmamışdır. Bəzi sosioloqlar, mütəfəkkirlər bu sahədə coğrafi mühitin rolunu tamamilə inkar etmiş, bəziləri isə bunun əksinə olaraq, sosial proseslərin səbəbini yalnız təbii şəraitlə, coğrafi mühitlə izah etmişlər. Bu sonuncu fikir coğrafi determinizmə gətirib çıxarmışdır. Onun nümayəndələri cəmiyyətin həyatında baş verən bütün sosial tərəqqinin səbəbini coğrafi mühitdə görürdülər. Bu cərəyanın əsasını XVIII əsr fransız maarifçi-mütəfəkkiri Ş.Monteskye qoymuşdur. O iddia edirdi ki,

hətta xalqların əxlaqi, mənəviyyatı, xarakteri, adət və ənənələri belə onların yaşadıqları təbii şəraitdən, onları əhatə edən coğrafi mühitdən asılı olaraq formalaşır. Bu fikirlə yalnız qismən razılaşmaq olar. Buna baxmayaraq, bu qəbildən olan ideyalara sonralar bəzi mütəfəkkirlərin əsərlərndə rast gəlmək olur.

Bu ideyalar son dərəcə mürtəce olan geopolitika nəzəriyyəsinin yaranmasına səbəb olumuşdur. Bu nəzəriyyəyə görə nəinki cəmiyyətin həyatı, hətta ayrı-ayrı dövlətlərin siyasəti də onların coğrafi ərazisi ilə müəyyən olunur. Hitler faşizmi geopolitikadan öz qəsbkar, istilaçı siyasətinə haqq qazandırmaq üçün bir vasitə kimi istifadə etmişdir.

İnsanın və cəmiyyətin həyatında coğrafi mühitin rolu məsələsinə ingilis tarixçisi T.Bokl və rus coğrafiyaşünası L.İ.Meçnikov öz əsərlərində daha geniş yer vermişlər.

Boklun fikrincə, coğrafi mühitin mühüm tərkib hissəsi olan iqlim, torpaqların münbitliyi, relyef, su ehtiyatları, flora və fauna, yeraltı sərvətlər insanın və cəmiyyətin inkişafına həlledici təsir edir. L.İ.Meçnikov isə vulqar coğrafi determinizmdən fərqli olaraq, təbii şəraitin insan cəmiyyətinin inkişafına təsirinin bir sıra sosial-iqtisadi amilərdən asılı olduğunu qeyd etmişdir. O, sivilizasiyanın ilk formalarının yaranmasında və inkişafında coğrafi mühitin roluna dair ciddi tədqiqatlar aparmışdır. Cəmiyyətin inkişafında təbii amilərin rolunu öyrənərkən ölkədə çay nəqliyyatının, dənizə çıxışın olub-olmamasına, ölkənin adada, dəniz sahilində və ya düzəngahda, dağlıq yerdə yerləşməsinə, qonşu ölkələrlə iqtisadi əlaqələrin yaradılmasına və inkişafına maneə olan ammilərin - dağların, bataqlıqların, səhraların, çöllərin mövcud olub-olmamasına xüsusi diqqət yetirmişdir. L.İ.Meçnikov "Sivilizasiya və böyük tarixi çaylar. Müasir cəmiyyətlərin inkişafının coğrafi nəzəriyyəsi" adlı əsərində Insan cəmiyyətinin həyatında çayların, göllərin, dənizlərin rolunu yüksək qiymətləndirmişdir. Lakin o, coğrafi mühitin bu mühüm komponentlərinin ictimai tərəqqiyə göstərdiyi təsirin iqtisadi və texniki amillərdən asılı olaraq müxtəlif dövrlərdə müxtəlif olduğunu qeyd etmişdir. Bununla əlaqədar o, sivilizasiyanın tarixini 3 dövrə ayırmışdır:

1. **Çaylar dövrü.** Bu dövr Nil, Fərat. Dəclə, Hind, Qanq, Xuanxe, Yanszı çaylarının vadilərində qüdrətli quldar dövlətlərinin yaranması ilə səciyyələnir.
2. **Dəniz dövrü.** Bu dövr Aralıq dənizi hövzəsində Karfagen dövlətinin yaranması ilə başlanır.
3. **Okean dövrü.** Bu dövr Amerikanın kəşfindən sonra başlanmışdır.

Sosiologiyada coğrafi cərəyan tərəfdarlarının nöqsanı bir də bundan ibarət idi ki, onlar insanla təbiət arasındakı münasibətlərin zaman, məkan və şəraitdən asılı olaraq dəyişildiyini nəzərə almırdılar. Halbuki bu münasibətlər tarix boyu Insan idrakından, istehsalın inkişaf səviyyəsindən, elmin və texnikanın tərəqqisindən asılı olaraq müxtəlif formalarda təzahür etmişdir. Şübhəsiz ki, cəmiyyətin inkişafının ibtidai pillələrində elmin və texniki vasitələrin olmadığı və yaxud zəif inkişaf etdiyi bir şəraitdə insan təbiətdən daha çox asılı idi. Bu zaman quraqlıq, zəlzələ, sel, vulkan, qasırğa kimi kortəbii qüvvələrdən qorunmaq üçün onun imkanları son dərəcə məhdud idi. İnsan idrakının inkişafı ilə yerin təkində olan metal filizlərinin, birinci növbədə dəmirin əldə edilməsi, onun lazımi alətlərin düzəldilməsi insanın təbiət üzərindəki hökmranlığını bir qədər artırdı, onun təbiətdən asılığını müəyyən dərəcədə azaltdı.

Müasir elmi-texniki tərəqqi insanla təbiət arasındakı münasibətlərdə ciddi təbəddülat yaratdı. Bu vaxta qədər təbii sərvətlərdən həm intensiv, həm də ekstensiv şəkildə istifadə edilirdi. İnsan təbiətdən nə qədər istəyrdisə, məhsuldar qüvvələrin inkişafı nə qədər imkan verirdis o qədər də götürürdü. Çünki bu zaman belə bir təsəvvür hökm sürürdü ki, guya təbiətin sərvətləri saysız-hesabsız, ucsuz-bucaqsız, insan onlardan istənilən qədər, qeyri-məhdud həcmdə istifadə edə bilər. Lakin XX əsrin ortalarından başlayaraq aydın olur ki, təbəiətə tükənməz sərvətlər ambarı kimi baxmaq və onlardan maksimum dərəcədə istifadə etmək cəhdi özünü doğrultmur. Alimlər təbii sərvətlərdən istifadə etməyin mövcud miqyasını bu sərvətlərin ehtiyatı ilə müqayisə edərək bu fikrin düzgünlüyünü əyani şəkildə sübut etdilər. Aparılan konkret elmi-tədqiqatlar göstərdi ki, təbii sərvətlərdən böyük həcmdə və

yüksək templə, israfçılıqla istifadə edilərsə, onların ehtiyatı yaxın gələcəkdə tükənəcəkdir. İctimai şüurda bu fikir formalaşdıqdan sonra təbiətə bəslənən utilitar-praqmatik münasibət tədricən öz aparıcı mövqeyini itirir, təbii sərvətlərə yeni akseoloji baxış, onları qiymətləndirməyin yeni meyarı yaranır. İndi insan təbiəti bəşərin yaratdığı sivilizasiyanı öz qoynunda yaşadan unikal məskən hesab etməyə başlayır. Təbiətin Insandan asılı olması fikri özünə yol açır, vaxtı ilə təbiət üzərində hökmran olmağı qarşısına məqsəd qoyuan Insan indi onun tərəf-müqabili olmağa, onunla həmahəng yaşamağa çalışır. Çünki mütəxəssislərin hesablamalarına görə bu sərvətlər 50-60 ildən sonra tükənə bilər. Bu, onu göstərir ki, insan təbiətdən asılı olduğu kimi, təbiət də xeyli dərəcədə Insandan, onun istehsal, təsərrüfat fəaliyyətindən asılıdır.

Beləliklə, insanla təbiət, cəmiyyətlə ətraf mühit arasındakı münasibətlər çox ziddiyyətlidir. Bir tərəfdən Insanların tələbatı durmadan artır, onları ödəmək üçün istehsalın həcmini genişləndirmək, bu prosesə daha çox təbiət materialları, enerji ehtiyatları cəlb etmək lazım gəlir, digər tərəfdən isə bu, təbii sərvətlərin tükənməsinə və zəhərli istehsal tullantıları ilə insanı əhatə edən ətraf mühitin təhlükəli dərəcədə çirklənməsinə gətirib çıxarır. Müasir ekologiya problemlərinin kökü də məhz bu ziddiyyətdədir.

Bunlar göstərir ki, təbii sərvətlərdən ölçülüb-biçilmiş, düşünülmüş şəkildə istifadə etmək lazımdır, təbiəti "qarət etmək" bütün bəşəriyyətin həyatını təhlükə altına ala bilər. Belə ki, istehsalın durmadan genişləndirilməsi, ətraf mühitə atılan istehsalat tullantılarının həcminin artması, onların tərkibindəki zəhərli komponentlərin sayını xeyli dərəcədə artırmışdır. Alimlərin hesablamalarına görə bu tullantılar içərisində insanın sağlamlığı üçün son dərəcə zərərli olan külli miqdarda zəhərli maddələr vardır. Bunlar günəş şüalarının təsiri altında buxarlanıb atmosfer havasına daxil olaraq orada konserogen, allergen birləşmələr əmələ gətirirlər; onlar yağışların vasitəsilə torpağa, su hövzələrinə enir və müxtəlif yollarla insan orqanizminə daxil olaraq çox təhlükəli xəstəliklər törədir, anormal uşaqların doğulmasına səbəb olur. Bu kimyəvi

birləşmələr bəzən mutagen xarakter kəsb edərək həm insanlar arasında, həm də heyvanlar içərisində mutasiyalar törədərək onları normal inkişaf istiqamətindən sapdırırlar. Bu proses bəşəriyyətin genetik fondunu korlayaraq gələcək nəsillərə də mənfi təsir edir, onların cırlaşmasına səbəb olur. Bundan əlavə, ətraf mühitin təhlükəli dərəcədə çirklənməsi elə ciddi xarakter kəsb edir ki, təbiətin özünütənzimetmə mexanizmi pozulur.

Yuxarıda qeyd edildiyi kimi, bütün bunlar bir də ona görə baş verir ki, bir çox hallarda insanlar təbiətə və onun sərvətlərinə son dərəcə utilitar-praqmatik mövqedən yanaşır, onlara yalnız gündəlik mənafe prizmasından baxır və intensiv şəkildə, amansızcasına istismar edirlər. Doğrudur, təbiətə bu cür münasibət heç də hamı tərəfindən qəbul edilmirdi. Tərəqqipərvər alim və mütəfəkkirlər, təbii sərvətlərdən israfçılıqla, düşünülməmiş şəkildə istifaldə etməyin əleyhinə çıxırdılar. Lakin insanın elmi-texniki qüdrətinin artması ilə təbii sərvətlərdən daha acgözlüklə istifadə edilməsi yaranmış istehsal praktikasına uyğun gəlirdi. Bu, bəzi təbii sərvətlərin, o cümlədən cəmiyyətin yaşaması üçün son dərəcə zəruri olan neft, qaz və daş kömür kimi enerji daşıyıcılarının yaxın gələcəkdə tükənmə təhlükəsi yaradır. Bütün bunların nəticəsində təbiətin insandan asılılığı getdikcə artır. Odur ki, təbii sərvətlərdən səmərəli istifadə etmək üçün insanın təbiətə təsirinin mümkün həddi müəyyən olunmalıdır. Bunun üçün elmin nailiyyətlərindən istifadə edilməlidir. Elm təbiətin təkrar istehsalını həyata keçirməkdə, onu qoruyub saxlamaqda, təbii sərvətlərdən səmərəli istifadə etməkdə Insana yaxından kömək edir, bunun yollarını ona göstərir. Nəticədə təbiət getdikcə daha çox sosial orqanizmin idarə olunan ünsürünə çevrilir. Insan təbiətə öz evi, daimi yaşayış yeri, sivilizasiya beşiyi kimi yanaşmalıdır. Kosmonavtlar düzgün qeyd ediblər: İnsan kosmosa qalxarkən özünü hər hansı bir ölkənin sakini deyil, daha çox Yer kürəsinin sakini hesab edir.

Maksimum mənfəət əldə etməyə çalışan ayrı-ayrı adamlar və istehsal birlikləri hələ indi də təbiətdən amansızcasına, böyük acgözlüklə istifadə etməyə çalışırlar. Onların şüuru gündəlik mənafelərinin çərçivəsindən kənara çıxa bilmir, onlar uzağı görə

bilmirlər, bəşəriyyətin gələcəyini öz şəxsi mənafelərinə qurban verirlər. Nəticədə təbii tarazlıq pozulur, ciddi ekoloji böhran baş verir, həyatın mövcudlugu təhlükə qarşısında qalır. Yalnız düşünülmüş, şüurlu surətdə, böyük uzaqgörənliklə həyata keçirilən insan fəaliyyəti bəşəriyyəti bu fəlakətdən xilas edə bilər. Odur ki, təbiətdən, onun sərvətlərindən səmərəli istifadə edilməsi ictimai-tarixi prosesin obyektiv qanuna çevrilir. Müasir dövrdə insanın təbiətdən asılılığı tamamilə başqa istiqamətdə baş verir və son dərəcə dramatik xarakter kəsb edir. Belə ki, insanın tələbatlarının artması, istehsalın həcminin durmadan genişlənməsilə əlaqədar buraya daha çox təbiət maddələri, xammal, enerji ehtiyatları cəlb edilir. Nəticədə planetimizin enerji daşıyıcıları, qara və əlvan materialların, mineral ehtiyatlarının tükənməsi, meşələrin və şirin su ehtiyatlarının sürətlə azalması təhlükəsi yaranır, bu isə bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır.

İnsan təbiəti, onun füsünkar gözəlliklərini qoruyub saxlamalı və onları gələcək nəsillərə verməlidir. Göründüyü kimi, insanın təbiətə olan münasibəti yalnız istehsal sahəsi ilə məhdudlaşmır, o həm də mənəvi-estetik münasibətlər obyektidir.

Milli Kitabxana

II FƏSIL
İNSAN İNSANLAR ARASINDA

1. Cəmiyyətin mahiyyəti və cəmiyyət həyatı, cəmiyyət həyatının dəyişməsi

Bəşəriyyətin fəlsəfi fikir tarixində cəmiyyətin inkişafının gedişini təhlil edərkən onu dövrlərə bölmək cəhdləri çox olmuşdur. Xüsusilə də yaşadıqları dövrü tənqid edən və gələcək ideal cəmiyyət yaratmaq arzusu ilə çıxış edən mütəfəkkirlər cəmiyyət tarixinin üç mərhələdən

a) təbii, yəni tarixə qədərki dövrdən;

b) nöqsanlı ictimai quruluşdan;

v) gələcək ideal cəmiyyət mərhələlərindən ibarət olduğunu irəli sürürdülər.

Fəlsəfi fikirdə tarixi prosesi elmi meyarlar üzrə dövrləşdirmək sahəsində Hegelin xidməti xüsusi qeyd edilməlidir. O, ilk dəfə olaraq tarixi prosesin obyektiv məntiqi gedişi ideyasını irəli sürmüş və göstərmişdir ki, tarixi mərhələlər dünya ruhunun öz-özünü dərk etməsi, azadlığın başa düşülməsi pillələridir. Hegelin metodologiyası ona görə əhəmiyyətlidir ki, o, mistik idealist pərdə arxasında da olsa, tarixi dövrləşdirərkən empirizm və subyektivizmi aradan qaldırmağa səy göstərmişdir. Onun təlimində tarix üç dövrə bölünür: Şərq dünyası, antik cəmiyyət və alman cəmiyyəti. Hegelin bu fikirləri sonralar bəzi filosoflar tərəfindən inkar edilmişdir. Onların bir çoxu tarixə yalnız subyektiv əsasda, yəni insanın tarixi prosesə qiymət verməsi səpgisində yanaşırdılar.

Cəmiyyət tarixinin dərk olunması metodologiyasının işlənib hazırlanması sahəsində alman filosofu M.Veber mühüm rol oynamışdır. Onun «ideal tiplər» nəzəriyyəsində müəyyən səmərəli fikirlər var. Belə ki, o, empirizmə qarşı çıxaraq tarixi faktları sistemləşdirmək məqsədi güdürdü. Lakin onun kəşf etdiyi ideal tip subyektiv model olub reallığı əks etdirmir. Buna görə də nəticə etibarilə Veberin baxışları tarixi prosesi subyektivizm mövqeyindən izah etməyə gətirib çıxırırdı.

Tarixin izahında subyektiv metod rus liberal xalqçılarının, xüsusilə də N.Mixaylovskinin əsərlərində mühüm yer tutmuşdur.

Cəmiyyətin inkişafını müxtəlif mərhələlərdən keçən obyektiv qanunauyğun proses kimi tədqiq etməyin elmi metodologiyası ilk dəfə dialektik materializm fəlsəfəsində işlənib hazırlanmışdır. Buradakı ictimai-iqtisadi formasiya anlayışı bötövlükdə cəmiyyət tarixini ümumiləşdirmiş nəzəri təfəkkür səviyyəsində izah etməyə imkan verir. Bu anlayış böyük sosial-fəlsəfi məna daşıyır. Bu anlayış tarixi prosesin obyektiv gedişini, onu dövrlərə bölməyin elmi meyarlarını əsaslandırdı.

«İctimai-iqtisadi formasiya» anlayışı tarixi realistcəsinə anlamaq, cəmiyyətin ümumi strukturunu və inkişaf qanunauyğunluqlarını izah etmək üçün böyük imkan yaratdı. Bu anlayış cəmiyyətə müəyyən bir sistem kimi baxılması və tarixi inkişafın müəyyən zəruri pillələrdən keçməsinin aşkar edilməsində, real tarixi prosesin təhlilində mühüm rol oynayır.

İctimai-iqtisadi formasiya dedikdə tarixi inkişafın müəyyən mərhələsində duran konkret cəmiyyət tipi nəzərdə tutulur. Bu cəmiyyət məhsuldar qüvvələrin inkişaf səviyyəsi və ona uyğun istehsal münasibətləri sistemi və bu iki tərəfin bilavasitə təsiri altında formalaşan müxtəlif ideya və təsisatlar sistemi ilə səciyyələnir. Göründüyü kimi, ictimai-iqtisadi formasiya cəmiyyət həyatının bütün tərəflərini, (istehsal üsulunu, iqtisadi quruluşu və onun üzərində yüksələn təsisatları) ehtiva edir. Bu anlayış ictimai quruluşu, onun yaranmasının, fəaliyyət mexanizminin və özündən yüksək formaya keçməsinin qanunlarını əhatə edir.

Beləliklə, ictimai-iqtisadi formasiya cəmiyyətin konkret tarixi tipi və ümumdünya tarixinin mərhələsi olmaqla müəyyən istehsal üsulu ilə şərtlənən bütöv bir sosial sistemdir.

İctimai-iqtisadi formasiya anlayışı ictimai elmlər üçün müstəsna əhəmiyyətə malikdir. Bu anlayış cəmiyyəti ayrı-ayrı fərdlərin mexaniki birləşməsindən ibarət sistem hesab edən və buradakı dəyişiklikləri təsadüfi olaraq, ayrı-ayrı şəxslərin arzusu ilə baş verməsi haqqındakı baxışları rədd edir. O, cəmiyyət haqqında ümumi və mücərrəd təsəvvürləri birdəfəlik kənara atmağın və

konkret-tarixi inkişaf mərhələsində duran cəmiyyəti təhlil etməyin zəruriliyini əsaslandırır, onun elmi əhəmiyyətini göstərir. Formasiya anlayışının əsas tələbi budur ki, ictimai quruluşun əsasında maddi istehsal münasibətləri durur. Bu anlayış həm də cəmiyyətin inkişaf tarixini dövrlərə bölməyin elmi meyarını verir. Beləliklə də, bəşər tarixi müxtəlif mərhələləri əhatə edən vahid, tam qanunauyğun bir proses kimi izah edilir.

İctimai-iqtisadi formasiya anlayışı, cəmiyyətdə baş verən, bir-birinə zidd müxtəlif hadisələr və proseslər arasındakı qarşılıqlı əlaqələri tapmağa imkan verir. Həmin əlaqələr cəmiyətin bu və ya digər inkişaf mərhələsində onun nisbi sabitliyini, bütövlükdə götürüldükdə inkişaf mərhələsində onun nisbi sabitliyini, bütövlükdə götürüldükdə inkişafının mahiyyətini açmağa kömək edir. O, müxtəlif cəmiyyətləri bir-birindən fərqləndirən, həm də onlar arasında ümumilik yaradan əsasən mahiyyət etibarilə maddi nemətlərin istehsalı üsuldu, xüsusən də Insanlar arasında obyektiv şəkildə yaranan istehsal münasibətlərinin olduğunu aşkar edir.

İctimai-iqtisadi formasiya daxilindəki münasibətlər sistemində istehsal münasibətləri müəyyənedici rol oynayır. Hər hansı bir cəmiyyətin, formasiyasının tarixi tipi məhz onunla müəyyən edilir.

İctimai-iqtisadi formasiyaların strukturu eyni olmur. Belə ki, cəmiyyət inkişaf etdikcə ictimai həyatın strukturu dəyişir və zənginləşir. Bu mənada nəinki müxtəlif formasiyaların, hətta eyni formasiyanın müxtəlif inkişaf mərhələlərində onun strukturu eyni ola bilməz.

İctimai-iqtisadi formasiya anlayışının mahiyyətini aydın təsəvvür etmək üçün onu **«cəmiyyət», «ictimai – iqtisadi uklad», «dövr» və «sivilizasiya»** anlayışları ilə müqayisə etmək vacibdir.

> *«Cəmiyyət» anlayışı ümumi xarakter daşıyır, bütövlükdə ictimai həyatı, onun inkişaf qanunlarını, keçmişini, müasir vəziyyətini və gələcəyini ifadə edir. Bundan fərqli olaraq, ictimai-iqtisadi formasiya anlayışı konkret məna kəsb edir, yəni ümumiyyətlə, cəmiyyəti deyil, onun müəyyən inkişaf mərhələsini göstərir.*

İctimai-iqtisadi formasiya anlayışı cəmiyyətin inkişafına tarixi səpgidə yanaşmaq və təhlil etmək imkanı verir. Bu isə konkret formasiya ilə cəmiyyət arasındakı fərqin açılmasına şərait yaradır.

«İctimai-iqtisadi uklad» anlayışı müəyyən ictimai-iqtisadi formasiya daxilində istehsal münasibətlərinin bu və ya digər formasına əsaslanın təsərrüfat növünü ifadə edir. İctimai-iqtisadi uklad anlayışı cəmiyyətin iqtisadi quruluşunu öyrənmək üçün mühüm vasitədir.

İctimai-iqtisadi formasiyadan ukladın fərqi bundadır ki, o, formasiyaya nisbətən həcmcə məhduddur. İctimai-iqtisadi uklad müəyyən istehsal münasibətlərinə əsaslandığına görə o da cəmiyyətin iqtisadi quruluşuna daxildir. İctimai-iqtisadi formasiya cəmiyyətin strukturunu göstərirsə, ictimai-iqtisadi uklad anlayışı müəyyən konkret istehsal münasibətlərini ifadə edir. Uklad anlayışının işlədilməsinin mühüm əhəmiyyəti bundadır ki, o, istehsal münasibətləri sistem səviyyəsinə yüksəlmədən də bu və ya digər mövcud istehsal münasibətləri sisteminə əlavə, tabe vəziyyətdə çıxış edə bilər. Belə halda cəmiyyətdəki istehsal münasibətləri ictimai-iqtisadi uklad şəklində deyil, qeyri-uklad və ya yarımuklad formasında çıxış edir.

İstehsal münasibətlərinin uklad səviyyəsi ilə yarımuklad formasını fərqləndirmək metodoloji cəhətdən vacibdir. Məsələn, Qədim Babilistanda və Romada muzdlu əmək mövcud olmuşdur. Lakin bu ölkələrdə həmin iqtisadi münasibətlər sistem səviyyəsinə yüksələ bilməmiş, yəni uklad təşkil edə bilməmişdir. Öz mahiyyəti etibarilə onlar başqa tipli istehsal münasibətlərinin əlavəsi kimi çıxış etmişlər. Muzdlu əmək yalnız kapitalizm şəraitində uklad kimi özünə yer tutur. Buna məhəl qoymamaq, bəzi tarixçilərin iddia etdikləri kimi, kapitalizmin guya lap qədimdə mövcud olduğu haqqındakı fikirlərə haqq qazandıra bilər.

«İctimai-iqtisadi formasiya» və «dövr» anlayışları da bir-biri ilə sıx şəkildə əlaqədədir. Formasiya anlayışı tarixi inkişafın müəyyən mərhələsinin mahiyyətini açıb göstərirsə, dövr anlayışı

onun konkret tarixi məzmununu ifadə edir. Birinci anlayış cəmiyyətin inkişafının konkret mərhələsində əsas aparıcı meylləri göstərirsə, dövr anlayışı tarixin həmin mərhələsində baş verən proseslərin rəngarəngliyini, faktlar və hadisələrin zənginliyini əhatə edir. **Cəmiyyətin dövrlərə bölünməsi iqtisadi uklad əsasında deyil, ictimai-iqtisadi formasiya əsasında aparılır.**

> ***Dövr anlayışı*** *müxtəlif mənalarda işlənir. Bir tərəfdən o, dünya hadisələrinin inkişafına həlledici təsir göstərən ictimai həyatın təşkili forması mənasında götürülür. Bu mənada dövr formasiya anlayışına çox yaxındır. Digər tərəfdən dövr anlayışı konkret formasiyaların inkişaf mərhələləri kimi işlənir.* (Məsələn, «kapitalizmin inhisara qədərki dövrü», «imperializm dövrü» və s.).

Dövr anlayışından cəmiyyətin keçid vəziyyətini ifadə etmək üçün də istifadə olunur. Bu zaman ictimai həyatın təşkilində dərin dəyişikliklər, əsaslı dönüş baş verir, cəmiyyətdə köhnə ilə yeni arasında varislik əlaqələri dialektik inkar vasitəsilə özünə yol açır.

Dövr anlayışı həm də tarixi şəraitin sosial-sinfi təhlili baxımından işlənir. Bu mənada həmin dövrdə hansı sinfin ictimai həyatda gedən proseslərin mərkəzində durduğu, ictimai inkişafın hansı sinfin mənafelərinə uyğun gəldiyi nəzərdə tutulur.

> ***İctimai-iqtisadi formasiya»*** *anlayışı* ***«sivilizasiya»*** *anlayışı ilə də əlaqədardır. Sivilizasiya anlayışı müxtəlif mənalarda işlənir. Sivilizasiya anlayışı sosial tərəqqinin, bu və ya digər cəmiyyətdə əldə edilən maddi və mənəvi mədəniyyətin səviyyəsini, sosial-mədəni fəaliyyətin nəticələrini və bu nəticələrin ümumbəşəri sərvətlərlə nisbətini göstərir.*

Sivilizasiya və formasiya anlayışları bəzi ümumi cəhətlərə malikdir. Sivilizasiyanın konkret tipini yalnız hökmran istehsal münasibətlərini və mövcud istehsal üsulunu nəzərə almaq əsasında düzgün müəyyənləşdirmək olar. Bu onunla izah edilir ki, ictimai-

iqtisadi formasiya və onun əsasında duran maddi istehsal üsulu nəticə etibarilə insan fəaliyyətinin bütün digər formalarını, o cümlədən mənəvi mədəniyyətin yaranması və inkişafını şərtləndirir. Odur ki, hər bir sivilizasiyanın mahiyyətini, yaranmasının, inkişafının və məhv olmasının səbəblərini öyrənmək üçün onun mövcud istehsal üsulu və ictimai-iqtisadi formasiya ilə əlaqəsini açmaq zəruridir.

> ***Sivilizasiya*** *sosial-mədəni birlik formaları sistemidir. Bu sistemdə sosial-iqtisadi, mədəni-mənəvi, psixoloji, təşkilati keyfiyyətlər vəhdət halında götürülür.* Müxtəlif formasiyalarda bu sistemin tipi tarixən dəyişir.

Lakin bu anlayışları eyniləşdirmək olmaz. Onlar arasında müəyyən fərqlər mövcuddur. Hər şeydən əvvəl sivilizasiya anlayışı insan zəkasının nailiyyətlərini təkcə istehsalda deyil, həm də məişətdə, nəqliyyatda, memarlıqda və bütövlükdə maddi mədəniyyətdə tətbiq edilmə dərəcəsini ifadə edir. Sivilizasiya bu əlamətinə görə formasiyadan fərqlənir.

Sivilizasiya anlayışı özündə müqayisəli qiymətləndirmə anını da ehtiva edir; bu qiymətləndirmədə həm tənqidi münasibət, inkar, həm də müsbət cəhətlərin qəbul edilməsi, varislik vardır. Sivilizasiya bu və ya digər sosial-mədəni birlik formasının ümumbəşəri dəyərlərə verdiyi töhfəni əhatə edir.

Formasiya anlayışı vahid dünya tarixi prosesinin fasiləli xarakterini, cəmiyyətin inkişafının bir-birindən keyfiyyətcə fərqlənən müxtəlif pillələrini təşkil edir. Sivilizasiya anlayışında isə ümumdünya tarixi prosesin fasiləsizliyinə, ümumbəşəri məsələlərinə daha çox diqqət yetirilir.

Formasiya ilə sivilizasiyanı bir də ona görə eyniləşdirmək olmaz ki, bu və ya digər sivilizasiyaya xas olna cəhətlər (mədəniyyətin xüsusiyyətləri, insanların təbiətə münasibəti və s.) müəyyən qədər sabitdir. Hətta həmin formasiya başqası ilə əvəz olunduqdan sonra da sivilizasiya yaşamaqda davam edir. Deməli formasiya və sivilizasiya zaman əhatəsi etibarilə də eyni deiyldir.

Belə ki, müəyyən sivilizasiya tiplərinin xeyli dərəcədə dəyişikliyə uğramalarına baxmayaraq, onlar bir neçə formasiya boyu yaşaya bilmişlər. Digər tərəfdən isə eyni bir formasiyanın mövcudluğu dövründə, məsələn, feodalizmdə müxtəlif sivilizasiyalar meydana gəlmiş və yaşamışdır. Bu hal həm reqionun mədəni inkişaf xüsusyyətləri, həm də müxtəlif ölkələrdə bu və ya digər formasiyanın təşəkkül tapması xüsusiyyətləri izah edilir. Deməli, formasiya ilə sivilizasiyanın mövcudluğu nə vaxt, nə də ərazi etibarilə üst-üstə düşmür.

2. Elm, onun cəmiyyətdə rolu və funksiyalari. Elmin inkişaf qanunauyğunluqları

Elm spesefik sosial hadisə olub, dünya və onun inkişaf qanunları haqqında biliklərin sistemi kimi meydana gəlmişdir. Elmin başlıca xüsusiyyəti öyrəndiyi obyekti adekvat əks etdirməsidir. Bu o deməkdir ki, elmin məzmununu insandan və bəşəriyyətdən asılı olmayaraq mövcud olan obyektiv həqiqət təşkil edir.

Elm təbiət və cəmiyyətdəki hadisələri, prosesləri, onlar arasındakı əlaqə və münasibətləri anlayış, kateqoriya və qanunlar vasitəsilə sistemə salaraq nəzəriyyələr yaradır. Adi şüur, empirik təcrübə və vərdişlər bir qayda olaraq hadisələrin zahiri tərəflərini əks etdirir, elm isə onların daxili mahiyyətini, mühüm əlaqələrini və qanunauyğunluqlarını öyrənir.

Elm idrak gerçəkliyini sadəcə olarq passiv şəkildə əks etdirmir, o həm də fəal xarakter daşıyır. Təbiət və cəmiyyət qanunları öz-özünə deyil, subyektiv fəal yaradıcı fəaliyyəti nəticəsində aşkar edilir, öyrənilir, kəşf edilir.

Bəşəriyyətin tarixi inkişafı gedişində elmi biliklər daim dəyişilir, yeni kəşflərlə tamamlanır və zənginləşir. Dünya və onun inkişafı çox müxtəlif və rəngarəng olduğu kimi,onu əks etdirən insan idrakı da sonsuz prosesdir. İctimai inkişafın hər bir konkret mərhələsində əldə edilmiş bilklərin səviyyəsindəki məhdudluq elmin inkişafının əsas mənbəyini təşkil edir.

Elmin təhlili, onun yaranmasına və inkişafına sosial baxımdan yanaşılması göstərir ki, o, mənəvi fəaliyyətin xüsusi bir növüdür. Mənəvi istehsal növü kimi götürüldükdə elm elmi biliklərdən daha çox onların əldə edilməsi, toplanması və nəsildən nəsilə ötürülməsi sahəsindəki əmək fəaliyyətini ifadə edir. Bu fəaliyyət növünün xüsusiyyəti ixtisaslaşdırılmış yaradıcı əmək olmasındadır. Elmi problemlərin həlli yüksək peşə hazırlığı və yaradıcılıq istedadı tələb edir. Əqli əmək cəmiyyətdə baş verdiyinə, sosial təbiətə malik olduğuna görə o, ümumi əmək prosesinin ayrılmaz hissəsi hesab edilir. Fiziki əməkdən fərqli olaraq, elmi əməyi ictimai zəruri iş vaxtı ilə ölçmək mümkün deyildir. Cəmiyyət bu və ya digər ixtira və ya kəşf üçün ictimai zəruri ictimai iş vaxtı müəyyən edə bilməz. Elmi əməyin təşkili bir tərəfdən əvvəlki nəsillərin əməyindən istifadə edilməsi ilə, digər tərəfdən isə yeni biliklərin əldə edilməsi sahəsində müasir alimlərin axtarışları ilə bağlıdır.

Öz təbiəti etibarilə elmi fəaliyyət əqli əmək sferasına aiddir. Doğrudur, müasir dövrdə maddi istehsal ilə mənəvi istehsal arasında yaxınlıq durmadan artır və onlar qarşılıqlı suratdə bir-birinə nüfuz edir. Bu yaxınlığa, əlaqəyə baxmayaraq, elm daha çox mənəvi istehsalın məhsuludur.

Əqli əməyin fiziki əməkdən ayrılması elmin inkişayını daha da sürətləndirmişdir. Elmi fəaliyyətin məzmunu, strukturu, sosial təşkili və digər cəhətləri maddi istehsaldan asılıdır və nəticə etibarilə onunla müəyyən olunur.

Maddi istehsal sahəsində olduğu kimi, mənəvi istehsal prosesinin də texnoloji, təşkilati və sosial tərəfləri vardır. Bu elmə də aiddir. Elmdə texnoloji münasibətlər dedikdə yeni biliklərin yaranması prosesində əmələ gələn konkret fəaliyyətin tələbatı nəzərdə tutulur. Onun məzmununu isə elmi informasiyanın mübadiləsi təşkil edir.

Elmin yaranması və inkişafına elmi əməyin təşkil edilməsi sistemi kimi baxmaq lazımdır. Elmin bu tərəfi mənəvi istehsal prosesində yeni biliklərin toplanmasını öz qarşısına məqsəd qoyur və onu təmin etməyə yönəlir. Elmi fəaliyyətin təşkilati formaları

sosial münasibətlər sistemindən, ictimai quruluşun xarakterindən və elmi əməyin təşkili prinsiplərindən asılıdır.

Elmə sosial proses kimi baxdıqda o, müxtəlif ictimai münasibətləri (iqtisadi, sosial-təşkilati, sosial-psixoloji, ideoloji və s.) əks etdirir.lakin bunlar təcrid olunmuş halda deyil, bir-birilə və sosial münasibətlərlə çulğalaşmış şəkildə mövcud olur. Elm sahəsində əməyin səmərəliliyi sosial münasibətlərin xarakteri və inkişaf səviyyəsindən çox asılıdır.

Elmi biliklər məntiqi anlayışlar vasitəsilə ifadə olunur. Hər bir konkret elm sahəsində toplanan biliklər məntiqi cəhətdən ardıcıl ideyalar sistemi olub, həmin elmin əsas məzmununu ifadə edir. Hər bir elm sahəsi və elmi nəzəriyyə yaranarkən bir sıra əsas dayaq nöqtəsi rolunu oynayan ideyalara, prinsiplərə arxalanır. Sonra həmin ideya və prinsiplər genişləndirilərək bir çox şaxələrə ayrılır və yeni bilik sahələrinin, yeni elmlərin yaranmasına təkan verir. Elmin nəzəri məzmununu təşkil edən ideyalar sistemində özünəməxsus yer tutan bu və ya digər ideya həm özündən əvvəlki, həm də sonrakı ideyalarla üzvi surətdə bağlı olur.

Elmin nəzəri məzmunu ilə yanaşı, onun tətbiqi də böyük əhəmiyyət kəsb edir. Bu, elmi biliklərin praktiki təcəssümü, onun nəzəri məzmununun reallaşdırılması işinə xidmət edir. Elmi tədqiqatları düzgün təşkil etmədən təbiət və cəmiyyətin sirlərini açmaq, praktikada onlardan geniş istifadə etmək məqsədinə lazımi səviyyədə nail olmaq olmaz. Ona görə elmin səmərəli təşkili, praktikaya tətbiqi onun inkişafının mühüm sürətləndirici amillərindən biridir.

Elm həm də mədəniyyətin çox mühüm tərkib hissəsi, feno-menlərindən biridir. Elmin əldə etdiyi nailiyyətlər mədəniyyətin digər komponentləri ilə birlikdə çıxış edərək cəmiyyətin ümumi inkişafına xidmət edir, insanın fəallığının yüksəlməsinə, yaradıcılı-ğının genişlənməsinə köməklik göstərir. Elm ilə mədəniyyətin qarşılıqlı nisbəti konkret-tarixi məzmuna malikdir. İctimai inkişafın hər bir mərhələsində bu nisbətin məzmununu bir tərəfdən elmin və mədəniyyətin inkişaf səviyyəsi ilə, digər tərəfdən sosial şəraitlə, ictimai quruluşun xarakteri ilə müəyyən edilir.

Elmin mahiyyəti və cəmiyyətin həyatında rolu onun maddi istehsalla qarşılıqlı əlaqəsində daha aydın görünür. Əslində elmin yaranması və inkişafının başlıca mənbəyi və hərəkətverici qüvvəsini insanların praktiki ehtiyacları, birinci növbədə, maddi istehsalın tələbatı təşkil edir. Elmi biliklərin Insanların istehsal fəaliyyətində maddiləşir, onların əsas məqsədinə – öz tələbatlarına uyğun olaraq təbiətə məqsədyönlü şəkildə təsir göstərmək, öz əməyini yüngülləşdirmək, maddi nemətlərin istehsalını artırmaq məqsədinə xidmət edir. Elm ilə istehsalın münasibəti qarşılıqlı xarakter daşıyır. Elmin tətbiqi maddi istehsalı inkişaf etdirdiyi kimi, istehsalın tələbatı da öz növbəsində elmin inkişafına təkan verir. Elmlə istehsalın qarşılıqlı münasibəti mürəkkəbdir, onun xarakteri mövcud ictimai-iqtisadi münasibətlər sistemindən asılıdır. Əlbəttə, təbiət elmləri ilə ictimai elmlərin maddi istehsalla qarşılıqlı əlaqəsi fərqlidir. Təbiət elmləri maddi istehsalla bilavasitə qarşılıqlı təsir və əlaqədə olduğu halda, humanitar və ictimai elmlərin maddi istehsalla əlaqəsi mürəkkəb və vasitəli xarakter daşıyır. İctimai elmlər və maddi istehsal arasındakı əlaqələrin müəyyən edilməsində də sosial-iqtisadi münasibətlər və mənafelər böyük rol oynayır.

Elmin sosial təbiəti onun cəmiyyətdə yerinə yetirdiyi funksiyalardan biri də idraki funksiyadır. Bu funksiya elmi biliklərin istehsalında, yəni cəmiyyət inkişaf etdikcə, yeni-yeni biliklərin əldə edilməsində və inkişafında ifadə edilir. Hər bir elmi fəaliyyət, birinci növbədə, qarşıya çıxan elmi və praktiki problemləri həll etməklə bu və ya digər idraki məqsədin həyata keçirilməsinə xidmət edir.

İdraki məqsədin müəyyənləşdirilməsi hər bir yaradıcı elmi fəaliyyətin zərurui momentidir. İdrakın məqsəd və vəzifələri elmin daxili məntiqi və onun ictimai praktika ilə qarşılıqlı əlaqəsi əsasında müəyyən edilir. Elm inkişaf etdikcə, idrakın genişlənməsi üçün onun açdığı imkanlar da çoxalır. Beləliklə, elmi fəaliyyətin **məqsədi** praktiki vəzifələri həll etmək üçün vasitələr axtarıb tapmaqdan ibarətdir.

Elmin yerinə yetirdiyi mühüm **vəzifələrdən** biri proqnozlaşdırma funksiyasıdır. ***Proqnozlaşdırma*** elm tərəfindən güman edilən,

təcrübədə hələ sübut olunmayan, mövcud olmayan, lakin nəzəriyyənin fərz etdiyi şəraitdə labüd olaraq yaranmalı olan, gələcəkdə gerçəkləşə bilən hadisələr haqqında mötəbər fikirlər irəli sürülməsində ifadə olunur. Proqnozlaşdırıcı funksiyanın obyektiv əsasını indi mövcud olan ilə gələcəkdə olacaq arasındakı varislik əlaqələri təşkil edir. Bu əlaqələr müəyyən qanunauyğunluqlara əsaslanır və imkanlar, meyllər şəklində təzahür edir.

Elmi biliklər ümumbəşəri xarakterə malikdir. Bu o deməklir ki, elmi biliklər heç zaman milli sərhədlər tanımamışdır. Elmi konkret bir cəmiyyətə, bir ölkəyə, bir xalqa aid etmək, onu məhdudlaşdırmaq mümkün deyil. O yarandığı milli çərçivədən kənara çıxaraq bütün bəşəriyyətə mənsub olur. Elm bir tərəfdən keçmiş dövrlərdəki elmi idrakın nəticələrini, digər tərəfdən isə gələcəyin müəyyən rüşeymlərini əhatə edir.

Elmin mühüm funksiyalarından biri fəal praktiki rola malik olmasıdır. Elmi naliyyətlərin praktikada tətbiqi idrakın son məqsədidir. Elmin bu funksiyası çox mürəkkəb struktura malikdir. O öz ifadəsini bir neçə funksiyada (istehsal-texnoloji, sosial-idarə-etmə və mədəni dünyagörüşü funksiyalarında) tapır. Bütövlükdə bu funksiya elmin, istehsalın, cəmiyyətin və insanın özünün inkişaf səviyyəsini göstərir. Elmi biliklərin fəal praktiki rolu hər şeydən əvvəl onun istehsal-texniki funksiyayası vasitəsilə yerinə yetirirlir. Bu funksiya istehsalın texniki və texnoloji səviyyəsinin inkişafına elmin göstərdiyi təsirdə ifadə olunur. Bu funksiyanın reallaşması fundamental elmi kəşflərin texnika və texnoloji proseslərdə təcəssüm etməsi, habelə onların istehsalda bilavasitə tətbiqi üçün zəruri olan vasitələrin bütöv bir sistemini əhatə edir. Buraya texniki elmlərdəki ideyalardan tutmuş, layihələşdirmə-konstruktor işi, habelə elmi istehsalla əlaqələndirməyin konkret üsul və formaları daxildir. Elmin sosial-idarəetmə funksiyası ictimai proseslərin idarə olunmasında onun fəal iştirakından ibarətdir. Nəhayət, elmin fəal praktiki rolu, həm də mədəni-dünyagörüşü funksiyasında təzahür edir. Bu funksiya spesefik fəaliyyət sahəsi olmaq etibarilə mədəniyyət və dünyagörüşü məsələlərində elmin rolunu ifadə edir. Buraya aşağıdakılar daxildir: elmi biliklərin yayılması və əhalinin

maariflənməsi, elmi kəşflərin dünyagörüşü əhəmiyyəti fəlsəfi ümumiləşdirmələr və s.

Tətbiqi elmlər sahəsindəki bu əlaqə özünü daha aydın göstərir. Elmin ictimai istehsalın tələbatı ilə şərtlənməsi qanunauyğunluğu indiki şəraitdə də fəaliyyət göstərir. Deməli, elmin inkişafı bütün dövrlərdə maddi istehsaldan asılı olur, lakin bu asılılığın xarakteri müxtəlif dövrlərdə müxtəlif olur.

Elmin inkişafını səciyyələndirən ümumelmi qanunauyğunluqlar dah mürəkkəbdir. Onu üç dərəcəyə ayırmaq olar:

a) elmi biliklərin və elmi fəaliyyətin inkişafının kəmiyyət tərəfini göstərən qanunauyğunluqlar (elmi işlərin nəşri, elmi kadrlar, elmin maliyyələşdirilməsi və s.);

b) elmin daxili ziddiyyətlərini, elmi biliklərin inkişafının kəmiyyət və keyfiyyət tərəfinin qarşılıqlı əlaqəsini, elmi inqilabları səciyyələndirən qanunauyğunluqlar;

c) elmi biliklərin inkişaf istiqamətini, elmin tərəqqisini göstərən qanunauyğunluqlar (nisbi və mütləq həqiqətlərin dialektikası).

Elmin inkişafının mühüm qanunauyğunluqlarından biri də differensiasiya və inteqrasiyanın yaranmasıdır. Birinci meyl elmi biliklərin dərinləşməsi və ixtisaslaşması, onların fəaliyyət sahələrinin genişlənməsi nəticəsində yeni-yeni elm sahələrinin yaranmasını, elmdə yeni əmək bölgüsünün baş verməsini ifadə edir. Bu meyl şübhəsiz mütərəqqi olub, elmin inkişafı üçün zəruri şərtdir. Lakin elmlərdəki həddən artıq dərin və dar ixtisaslaşma onarın ümumi əlaqəsinin zəifləməsi, əhatə dairəsinin məhdudlaşması təhlükəsi yaradır. Elmin inkişafındakı bu meyl qanunauyğun surətdə əks olan digər meyli – inteqrasiyanı yaradır. İnteqrasiya müxtəlif elm sahələri arasında ümumi əlaqə və qanunauyğunluğu aşkara çıxarmaqda ifadə olunur.

Differensiasiya və inteqrasiya meylləri bir-birilə qarşılıqlı təsir və vəhdətdə çıxış edir. Əgər differensiasiya yeni elm sahələrinin yaradılmasını şərtləndirirsə, inteqrasiya elmlərin qarşılıqlı surətdə bir-birinə nüfuz etməsini, müxtəlif elmlər arasında müştərək tədqiqatların aparılmasını, elmlərin qovuşağında yeni elm

sahələrinin yaranmasını, müxtəlif elmlərin tədqiqat metodlarının qarşılıqlı surətdə bir-birini zənginləşdirməsini təmin edir. Bu proses müasir dövrdə daha aydın görünür. Elmlərin inteqrasiyasının mühüm bir xüsusiyyəti də onların riyaziləşməsində ifadə olunur. Hazırda fiziki tədqiqat metodları kimyaya daha geniş nüfuz edir, fiziki-kimyəvi metodlar isə biologiya sahəsində tətbiq olunur. Təkcə təbiət elmləri arasında deyil, habelə onlar ilə ictimai elmlər arasındakı əlaqələr də genişlənir. Müasir şəraitdə ekoloji məsələlərin tədqiqi, insanın özünün kompleks tədqiqi zərurəti ilə əlaqədar təbiətşünaslıqla, ictimai elmlərin inteqrasiyası daha da güclənməkdədir. Getdikcə aydın görünür ki, həm təbiət elmlərinin, həm də ictimai elmlərin birgə səyi sayəsində bu və digər mürəkkəb obyektləri dərindən və hərtərəfli öyrənmək olar. Bu işdə idrakın metodoloji əsası olan fəlsəfənin rolu durmadan artır.

3. Münaqişələr və onların həlli

Elmi ədəbiyyatda münaqişələr bir neçə tipə bölünür: 1) **Şəxsdaxili münaqişə** – bu zaman münaqişə və toqquşma halları insanın daxilində baş verir. Hər bir kəsdə elə maqam olur ki, o, həyatının mənası haqqında düşünür, öz uğurlarını başqalarının uğurları ilə qarşılaşdırır, öz məqsəd və maraqları ilə əlaqədar təssüf hissi keçirir. Belə münaqişəyə insanın özünün özü ilə münaqişəsi kimi də baxılır. 2) **Şəxslərarası münaqişə** – anlaşılmazlıq iki və ya daha artıq tərəf arasında yaranır. 3) **Qrupdaxili münaqişələr** hər hansı kiçik qrupların daxilində baş verən qarşıdurmadır. İşçi qruplarında, ailə və ya komanda üzvləri arasında, əmək kollektivlərində və s. baş verən münaqişələr buna misal ola bilər. 4) **Qruplararası münaqişə.** Hər birinin öz maraq və məqsədi olan insan qrupları mübarizəyə cəlb olunurlar.

Münaqişələrin səbəbləri

1) **İdeoloji səbəblər** – siyasi, yaxud dini səbəblər ola bilir; 2) **İqtisadi səbəblər** – münaqişə edən tərəflər zəngin sərvətlərə nəzarət etmək istəyirlər; 3) **Etnik səbəblər** – müharibə edən tərəflər

– sosial və etnik amallardan istifadə edirlər; 4) **Psixoloji səbəblər** – «zorakılıq mədəniyyəti olan» silahlanmış şovinizmi tərənnüm edən bir ölkə, humanizm ideyalarına əsaslanan cəmiyyətə nisbətən silahlı münaqişələrə daha tez cəlb oluna bilir.

Münaqişələrin həll edilməsi yolları

1) Münaqişə edən tərəflər başa düşməlidirlər ki, daimi olaraq münaqişədə yaşamaq olmaz; 2) Ümumi maraqlar tapılmalıdır; 3) Mübahisə zamanı qarşıdakı təhqir edilməməlidir; 4) Münaqişə zamanı ifrata varmamaq; 5)Sülhə görə ilk addım atmağdan çəkinməmək; 6) Qarşıdurmanın mümkün nəticələri haqqında düşünmək; 7) Həllolunmaz problem yoxdur; 8) Hər iki tərəfi qəbul edən qərar qəbul edilməlidir; 9) Münaqişə mövqe baxımından deyil, maraqlar baxımından həll edilməlidir; 10) Münaqişə qarşılıqlı olmalıdır; 11) Problemin həlli yolu konkret vəzifəyə uyğun seçilməlidir.

Xarakterinə görə siyasi və dövlətlərarası münaqişələr də var ki, bu münaqişələr daha çətin və mürəkkəbdir. Bunların həllinin özünəməxsus cəhətləri var.

Siyasi münaqişə-hakimiyyət səlahiyyətlərinin və resurslarının bölünməsi ilə bağlı bir-birləri ilə mübahisə edən fərdlərin, qrupların, tərəflərin məsələlərə fərqli baxışları, fərqli nəticə çıxarmaları, öz aralarında rəqabətidir. Siyasi münaqişənin mühüm cəhəti budur ki, onun iştirakçılarının maraqları və məqsədləri siyasi sahə ilə sıx bağlı olur. Qərb konfliktoloqları hakimiyyət və onunla bağlı münaqişələrin mahiyyətinə və xarakterinə xüsusi önəm verir. Fransız filosofu Emil Şartye yazır ki, hakimiyyəti izah etmək olmur, elə onun gücü də məhz bundadır. Münaqişələr fərdlər, qruplar, cəmiyyətdəki yarımsistemlər arasında və regional, qlobal səviyyədə baş verir. Münaqişələrin funksiyalarını iki qismə bölmək olar: pozitiv və neqativ.

Pozitiv funksiyalar:

- cəmiyyəti və hakimiyyəti ziddiyyətlərin və fikir ayrılıqlarının olmasından xəbərdar edir, stabilliyin, inteqrasiyanın

bərqərar olmasına rəvac verir, fəaliyyəti stimullaşdırır, situasiyanın nəzarətə götürülməsinə imkan yaradır;

- cəmiyyətin yeniləşməsinə, ziddiyyətlərin həllinə şəraityaradır, dəyərlərin yenidən qiymətləndirilməsini stimullaşdırır;
- yəni strukturların yaradılmasını sürətləndirir;
- münaqişə edən tərəflər üçün problemin hərtərəfli öyrənilməsinə şərait yaranır və s.

Neqativ funksiyalar:

- münaqişələr cəmiyyətin dezinteqrasiyasına, parçalanmasına səbəb olur;
- sosial partlayışa, hətta insan tələbatına səbəb olan hadisələrin törənməsinə gətirib çıxara bilər;
- dövlətlərarası münaqişələrə, beynəlxalq münasibətlərin korlanmasına gətirib çıxara bilər;
- nəhayət, hər hansı bir məsələnin hərbi yolla həll olunması ilə nəticələnər.

Siyasi münaqişənin obyekti spesefik sosial resurs sayılan dövlət hakimiyyəti, sosial qrupların statusu (cəmiyyət üçün vacib qərarların qəbuluna təsir gücü) və siyasi dəyərlərdir (patriotizm, vətəndaş təəssübkeşliyi, azadlığı və s.)

Subyekt isə ya sosial qruplar, ya da onları təmsil edən siyasi institutlardır. Sual olunur bunlardan hansı real, hansı nominal subyektdir? Şübhəsiz ki, fəaliyyət göstərən siyasi institutların (hökümət, parlament, məhkəmə hakimiyyəti) arxasında sosial qrupların maraqları dayanır. Ancaq həlledici siyasi qərarları qəbul edən siyasi təsisatlardır. Çünki qrup maraqlarından başqa, suverenlik, təhlükəsizlik, stabillik, iri miqyaslı iqtisadi layihələrin həyata keçirilməsi kimi ümummilli maraqlar da var. Buna görə də dövlət təsisatları toqquşan, rəqabətdə olan qrup maraqlarının tənzimləyicisi, münaqişə situasiyalarının arbitrajı kimi də çıxış edir. Nəzərə almaq lazımdır ki, bəzən dövlət strukturlarının daxilində də ziddiyyətlər, münaqişələr baş qaldırır. Bütün bunlar onu deməyə əsas verir ki, siyasi münaqişənin real subyekti siyasi institutlardır.

Siyasi münaqişələr hansı xüsusiyyətləri ilə seçilir?

Birincisi, maraqların toqquşması açıq və qabarıq şəkildə özünü büruzə verir. Bu zaman sosial gərginliyin azaldılması, cəmiyyətdaxili münasibətlərin tənzimlənməsi üçün siyasətə ehtiyac yaranır.

İkincisi, siyasət ictimailəşmiş hadisədir. Cəmiyyətdəki istənilən münaqişənin həll üçün ictimai rəyə, ictimaiyyətin köməyinə istinad olunmalıdır.

Üçüncüsü, siyəsət sahəsində olan münaqişələrin, başqa sahələrə nisbətən çoxluğudur. Çünki cəmiyyət həyatının digər sahələrində öz həllini tapmayan münaqişələr də çox zaman siyasi müstəviyə transformasiya olunur.

Dördüncüsü, siyasi münaqişənin ümumiliyi, yəni bütün cəmiyyət üçün əhəmiyyət kəsb etməsi, hər bir vətəndaşa toxunmasıdır. Siyasi münaqişə nə qədər lokal xarakter daşısa da o, nəticədə dövlət səviyyəsində qəbul olunan qərarla öz həllini tapır.

Beşincisi, «hökmranlıq və tabeçiliyin» mövcudluğudur. Siyasi hakimiyyətin əsas məqsədi öz hökmranlığını bərqərar etməkdir. Müasir politologiyada hökmranlıq istismar, zülm etmək deyil, sadəcə müəyyən nizamın yaradılması, göstəriş verən və ona əməl edən tərəflərin mövcudluğudur. Bu tərəflər arasındakı münasibətlər mahiyyət etibarilə münaqişə situasiyasının var olması deməkdir.

Altıncısı, siyasi münaqişənin həllində gücdən istifadə imkanlarının mövcudluğudur. Cəmiyyətdəki hakimiyyətlərdən ancaq dövlət hakimiyyəti ideal güc tətbiq etmək hüququna malikdir.dövlətin siyasi institut kimi bütün siyasi münaqişələrin iştirakçısı olmasına baxmayaraq, o güc tətbiq etməyə meyllidir və bunun üçün həmişə qanuni əsaslar tapa bilir. Lakin o da bir həqiqətdir ki, belə vəziyyət münaqişəni daha təhlükəli və dağıdıcı həddə çatdıra bilir.

Siyasi münaqişələrin tipologiyaları aşağıdakılardır:

- münaqişələr yayılma sferalarına görə bir-birlərindən fərqlənir (dövlətlərarası, sivilizasiyalararası münaqişələr);
- siyasi sistemlərin (totalitar, demokratik, avtoritar və s.) xarakterinə görə bir-birlərindən fərqlənir;

- münaqişələr predmetinin xarakterinə (maraqların münaqişəsi, dəyərlərin, ideologiyaların, identifikasiyaların münaqişəsi, status – rollu münaqişələr və s.) görə bir-birlərindən fərqlənirlər.

Bir çox hallarda bu münaqişə növləri bir-birləri ilə sıx əlaqədə olur. Məsələn, rejimlərin və yaxud da dəyərlərin, ideologiyaların arasındakı fərqlər, ziddiyyətlər dövlətlər, sivilizasiyalararası ziddiyyətlərə, münaqişələrə rəvac verir.

4. Dövlətlər və sivilizasiyalararasi münaqişələr

Dövlətlər arasında bitib-tükənməyən rəqabət var. Bu rəqabəti yaradan dövlət maraqları, milli maraqlardır ki, mövcud maraqlar münaqişələrin yaranması üçün təbii əsas sayılır. Müasir dövrdə dünya bazarının qloballaşması, ekoloji fəsadların artması tendensiyası, texnologiyanın, əlaqələrin inkişafı, informasiya axınlarının güclənməsi milli maraqların sərhədlərini laxladıb. Bəzən bir dövlətin «həyati maraqlar» adlandırdığı sərhəd, həmin dövlətin milli sərhəddindən min km.-lərlə uzaqda yerləşir. Əlbəttə, belə vəziyyət özü də münaqişələrin yeni formalarını, yeni xarakterini meydana gətirir və qloballaşmanın məntiqinə uyğun daha mükəmməl beynəlxalq nizamın yaranmasını tələb edir.

Müasir dünyada beynəlxalq nizamın formalaşmasına aşağıdakı amillər pozitiv təsir göstərir:

- iqtisadiyyatın inteqrasiyası və onun tədricən siyasi müstəviyə keçməsi, siyasi inteqrasiya prosesinə pozitiv təsir göstərməsi;
- BMT, ATƏT, Avropa Birliyi, Avropa Şurası, NATO, Amerika Dövlətlərinin Liqası, Afrika Birliyi Təşkilatı, İslam Konfransı Təşkilatı, GÜAM və s. kimi beynəlxalq və reqional təşkilatların sülhyaradıcı rolunun artması;
- qarşılıqlı nəzarət şəraitində hərbi qarşıdurmaların zəifləməsi;
- beynəlxalq hüquqa hörmət vərdişlərinin artması;
- milli dövlətlərdə demokratikləşmə tempinin yüksəlməsi və s.

Dövlətlərarası iqtisadi, siyasi münaqişələrlə yanaşı XX-XXI yüzilliklərdə yeni, yəni mədəniyyətlər-sivilizvsiyalar arası münaqişə

forması da gündəmə gəlib. Sovetlər Birliyinin çökməsindən sonra kapitalizm və sosializm sistemləri arasındakı münaqişə ortadan qalxdı, «soyuq müharibə» başa çatdı. Lakin dünyada qlobal münaqişə bitmədi. Bu S.Hantinqtonun 1996-cı ildə nəşr olunan «Mədəniyyətlərin çalışması» kitabı ilə aktuallaşan sivilizasiyalararası münaqişədir. S.Hantinqtona görə sivilizasiyaların qarşılıqlı əlaqəsi sayəsində müasir dünyada qlobal siyasət birinci dəfədir ki, çoxqütblü xarakter kəsb edir. İndi dünya siyasətində əsas hərəkətverici qüvvə milli dövlətlərarası qruplardır. Üç böyük hərbi blok arasında qarşıdurma bitəndən sonra, yeddi-səkkiz sivilizasiya arasında rəqabət yaranıb (ABŞ, Avropa, Çin, Yaponiya, Rusiya, Hindistan, Yaxın Şərq və Şərqi Asiyanın bir sıra dövlətləri öz iqtisadi qüdrətini artıra bildi. S.Hanqtiqton öz mülahizələrində və proqnozlarında yanılmayıb. Gerçəkdən də bu İslam və Xristian dünyası arasında münasibətlər ürəkaçan deyil.

Totalitar və demokratik rejimlərdə münaqişələr

Siyasi münaqişələr mahiyyətini müəyyənləşdirən əsas amil siyasi rejimin xarakteridir. İqtisadi inkişafda tarazlığın pozulduğu, siyasi-mədəni sahələrdə problemlərin mövcud olduğu totalitar sistemlərdə siyasi münaqişələr aşağıdakı xarakterik xüsusiyyətləri ilə fərqlənir:

1. Siyasi hakimiyyətə yaxınlıq və uzaqlıq məsələsi ilə əlaqəli olan status-rollu münaqişələr.

2. Münaqişələrin gizlədilməsi və boğulması. Məhz bu səbəbdən totalitar rejimlər çox vaxt vətəndaş müharibələri, inqilablar, vasitəsiylə, zor tətbiq olunmaqla dağılır.

3. Totalitar rejimlərdə siyasi münaqişələr aşırı dərəcədə ideologiyalaşır. İdeologiya tənqiddən uzaq, toxunulması yasaq olan bir sahəyə çevrilir. Fərqli düşüncə daşıyıcıları düşmən kimi qarşılanır. Totalitar rejimlər elm, mədəniyyət, ilahiyyat sahələrini də çərçivəyə salmaqla münaqişə üçün əlavə qaynaqlar yaradır.

4. Məişət səviyyəsində olan ən xırda münaqişələr belə siyasiləşdirilir, hər şeyə siyasi rəng verilir. Hətta qadağan olunmuş

ədəbiyyatın saxlanması və oxunması belə dövlətlə vətəndaş arasında münaqişəyə səbəb olur.

5. Totalitar rejimlər münaqişələrin beynəlmiləşməsidə, sahib olduqları ideologiya ilə fərqli ideologiyaların toqquşmasında maraqlıdır. İnqilab ixracı fikri də buradan doğur və nəticədə daxili münaqişələr beynəlxalq münaqişələrə çevrilir.

Demokratik rejimdəki siyasi münaqişələrin xarakterik xüsusiyyətləri isə aşağıdakılardır:

1. Demokratik rejimdəki münaqişələr açıq, cəmiyyətə məlum olan münaqişələrdir. Onalr cəmiyyət həyatının əksər sahələrində bərqərar oaln rəqabət prinsiplərindən qaynaqlanır.

2. Siyasi münaqişələr özünün siyasi sferası ilə çərçivələnir. O vətəndaşların şəxsi həyatına yayılmır, iqtisadi inkişafa təsir göstərmir.

3. Vətəndaşların siyasi hakimiyyətə təsir göstərmək imkanlarına malik olmasına baxmayaraq, demokratik cəmiyyətlərdəki siyasi münaqişələr gərginlik yaratmır. Onların partlayışla nəticələnməsi və zorla həlli ehtimalı azdır.

4. Demokratiya fikir, ideya plüralizmi əsasında formalaşdığına görə, münaqişələrin həlli üçün daha çox siyasi vasitələrin tapılmasına şərait və imkan yaradır.

5. Demokratik rejimlərdə status-rollu siyasi münaqişələr, maraqların və dəyərlərin münaqişəsinə nisbətən az əhəmiyyət kəsb edir.

6. Hakimiyyət bölgüsü prinsipi imkan verir ki, hər bir sosial qrup öz maraqlarını müdafiə edə bilsin. Münaqişələrin rəngarəng və müxtəlif miqyaslı olması demokratiyanın gücüdür. Elə buna görə də rəqabətdə olan sosial qruplar və onların maraqları arasında tarazlıq yaratmaq, uzlaşma nöqtələri tapmaq asanlaşır.

7. Demokratiyanın güclü tərəflərindən biri də, münaqişələrin həlli üçün dəqiq prosedurlar, qaydalar, tənzimləyici vasitələrin işlənib hazırlanmasıdır.

Lakin bu deyilənlərə baxmayaraq, demokratiyanın da problemləri yox deyil.

Etnosiyasi münaqişələr

Etnosiyasi münaqişə zamanı qarşıdurmanın sərhəddi etnik xətt üzrə müəyyənləşir. Onalrın əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Bütün etnosiyasi münaqişələr tərkib mürəkkəbliyi ilə seçilir. Belə münaqişələrin tərkib mahiyyəti etnosun öz dövlətçiliyini yaratmağa cəhd göstərməsi ilə bağlıdır. Məhz bu səbəbdən də münaqişə siyasi xarakter kəsb edir. Münaqişənin yaranması üçün konkret bir dövlət tərkibindəki etnosun iqtisadi, sosial, siyasi, kulturoloji, dini planda ayrıseçkiliyə məruz qalması əsas şərtdir. Münaqişənin mürəkkəbliyi deyiləndə bu məhz sözügedən istiqamətlərin münaqişəyə ya kompleks şəkildə, ya da onlardan bir neçəsinin sintezdə rəvac verməsi nəzərdə tutulur.

2. Belə münaqişələr yüksək emosional gərinliklə müşaiyət olunur.

3. Etnosiyasi münaqişələrin əksəriyyəti dərin tarixi köklərə malik olur. Əgər onlar olmasa belə münaqişə yaratmaq istəyən tərəf tarixdən hansısa faktları, dəlilləri "tapa" bilir. Buna görə də etnosiyasi münaqişələrdə bir qayda olaraq ərazi iddiaları məsələsi ortaya çıxır.

4. Etnosiyasi münaqişələr yüksək səfərbərliklə müşaiət olunur. Öz haqları uğrunda mübarizə aparan etnosun bütün üzvləri prosesə qoşulur və onu kütləviləşdirir.

5. Bu münaqişələr əksər hallarda kütləvi xarakter daşıyır. Etnosiyasi münasibətlər özü münaqişəli münasibətlərdir.

6. Etnosiyasi münasibətlər kövrək və həssas olduğuna görə belə münaqişələr bir çox hallarda maraqlı xarici qüvvələrin təsiri və gizli dəstəyi ilə baş verir və münaqişəyə girən tərəf iddialarını yuxarıda göstərilən amillərlə əsaslandırmağa çalışır.

Məsələn, Sovetlər Birliyinin çökməsi ilə Azərbaycanda erməni separatçılığı baş qaldırdı. Bu münaqişədə yüksək emosional gərginlik özünü büruzə versə də, "tarixi dəlillərin" və onun nəticəsi kimi ortaya çıxan torpaq, sosial-siyasi, kulturoloji diskriminasiya iddialarının heç bir əsası yox idi. Ermənilərin XIX əsrdə Axərbaycana kütləvi köçürülmələri və sovet dönəmlərində muxtar qurum tərkibində heç bir ayrıseçkiliyə məruz qalmamaları, əksinə

Dağlıq Qarabağ Muxtar Vilayətində həyat səviyyəsinin Azərbaycanın digər bölgələrinə nisbətən yüksək olması tarixi gerçəklik olsa da, xarici qüvvələr bu həssas məsələdən sui-istifadə edərək, sonralar qaynar hərbi əməliyyatlara çevrilən münaqişə törədə bildi.

Siyasi münaqişənin mərhələləri

Birinci mərhələ, münaqişələrin yaranmasıdır.

Bu mərhələ üçün xas olan xüsusiyyətlər aşağıdakılardır:

- mübahisə və münaqişə üçün əsas meydana gəlir;
- müxalif tərəflər formalaşır;
- siyasi maraqlar aktuallaşır;
- prioritet dəyərlər seçilib ayrılır;
- münaqişədə qalib gəlmək üçün strategiya və taktika işlənib hazırlanır;
- müttəfiq axtarışlarına başlanır.

İkinci mərhələ, münaqişənin inkişafıdır.

Bu mərhələyə xas olan xüsusiyyətlər aşağıdakılardır;

- koalisiya yaradılır;
- KİV vasitəsiylə siyasi rəqibə təzyiq kampaniyası aparılır;
- güc tətbiqi ilə bağlı hədələr səsləndirilir;
- güc tətbiq edilir.

Üçüncü mərhələ, münaqişənin başa çatmasıdır.

Bu mərhələ üçün xas olan xüsusiyyətlər aşağıdakılardır:

- münaqişə həll olunur;
- tərəflər arasında kompromiss yaranır;

Tərəflər barışmır, münaqişə həll olunmamış qalır.

Siyasi münaqişələrin tənzimlənməsi və danişiqlarin aparılması texnologiyasi

Münaqişələrin tənzimlənməsi deyildikdə, onun yayılmasının məhdudlaşdırılmasına yönəldilmiş tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi başa düşülür. Müxtəlif xarakterli münaqişələrin tənzimlənməsi üçün çoxsaylı texnologiyalardan istifadə edilir. BMT praktikasında münaqişələr Təhlükəsizlik

Şurasının müvafiq qətnamələri ilə tənzimlənir. Dünyada böyük münaqişələrin baş verməməsi üçün dövlətlər və beynəlxalq təşkilatlar preventiv (önləyici) diplomatiyadan istifadə edirlər. Siyasi texnologiyalar da münaqişənin həllində münaqişənin idarə olunması önəmli məsələdir. Münaqişənin idarə olunması aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb edir:

- proseslərin idarə olunmasını asnlaşdırmaq, qəfil hadisələrdən qaçmaq üçün kölgədə, xəlvətdə olan latent (yatmış, çökmüş) məsələləri aşkara çıxarmaq;
- daha böyük hadisələrin törənməsindən qaçmaq üçün sosial-siyasi gərginlikləri minimuma endirmək;
- münaqişənin daha çox zəhmət və enerji sərfi tələb edən gərgin fazaya daxil olmasını əngəlləmək.

Siyasi münaqişəyə və onun tənzimlənməsinə təsir göstərən amillər:

- siyasi sistemin açıqlıq dərəcəsi;
- münaqişə edən qrupların mütəşşəkilliyinin və daxili qarşılıqlı əlaqələrinin keyfiyyət dərəcəsi;
- mübahisə edən tərəflərə qoşulmuş sosial təbəqələrin kəmiyyət və keyfiyyəti, qrupların emosional davranış dərəcəsi.

Münaqişəni tənzimləyən amillərdən biri də cəmiyyətdə demokratiyanın mövcudluğudur. Demokratik cəmiyyətlər azad, açıq və şəffav, eyni zamanda rəqabət üçün hərtərəfli şərait yaratdığından münaqişələrə meydan verən cəmiyyətlər hesab olunur. Bununla yanaşı, müasir demokratik dövlətlər hüquq dövlətləri olduğuna görə münaqişələrin hüquq normaları ilə tənzimlənməsinə imkan yaranır və rəqabətin məcrasını dəyişməklə, onun düşmənçiliyə çevrilməsinin qarşısı alır.

Danışıqların aparılması zamanı tələb olunan əsas maraqlı subyektlərdən ayrılsın. Əks təqdirdə hansısa uğurun qazanılması çətinləşəcək.

Digər bir məsələ, münaqişə edən tərəflərin prinsiplərinə deyil, real ziddiyyətlərə diqqət yetirməsi, onun önə çəkilməsidir.

Münaqişənin həlli üçün bir neçə variantın hazırlanması da vacib məsələdir.

Təcrübə göstərir ki, bir varinat, adətən, münaqişənin həllinə kömək etmir və alternativ variantların ortaya qoyulmasına zərurət yaranır.

Qüvvələr nisbətinin obyektiv qiymətləndirilməsi də əhəmiyyətli məsələlərdəndir. Bəzən danışıqları aparanlar, tərəflərin subyektiv mülahizələrinə üstünlük verir və münaqişənin həllini düyünə salırlar.

Münaqişənin həllində vacib məsələlərdən biri də güzəştə getməyi bacarmaqdır. Güzəşt qarşı tərəfin maraqlarını nəzərə almaq və ona diqqət yetirmək deməkdir.

5. Qaçqınlar və məcburi köçkünlər

Kimlər qaçqın hesab olunurlar? Hər il müharibələr və təqiblər nəticəsində on minlərlə on minlərlə ev-eşiyini, bəzi hallarda isə öz ölkəsini tərk etməyə məcbur olur, qaçqına çevrilir. Onlar çox vaxt öz doğma ocaqlarından və yaxınlarından qəflətən ayrılmalı, evlərini və digər əmlaklarını atıb getməli olurlar. Qaçqınların böyük bir hissəsi bir daha vətənə qayıda bilmirlər.

Qaçqınların əksəriyyəti qonşu ölkələrdə sığınacaq axtarırlar. Digərləri isə məskunlaşmaq üçün təhlükəsiz yer tapmaq ümidi ilə xeyli uzaqlara gedib çıxırlar. Onlar uzaq ölkələrin hava və dəniz limanlarına gələrək, sığınacaq verilməsi xahişi ilə yerli hökumətlərə müraciət edirlər.

İkinci Dünya müharibəsindən sonra Avropa məkanında milyonlarla insanın qaçqın vəziyyətinə düşməsi və ölkə daxilində köçürülmülər beynəlxalq birliyi müharibədən əvvəlki dövr ilə müqayisədə qat-qat kəskin və mürəkkəb problem qarşısında qoydu. Bu insanlara yardım etmək və onların ağır vəziyyətinin uzun müddətli tənzimləmə yollarını axtarıb tapmaq üçün 1945-ci il dekabrın 14-də BMT Baş Məclisində BMT-nin Qaçqınlar üzrə Ali Kommisarlığının (BMTQAK) yaradılması haqqında qərar qəbul edildi.

BMT QAK öz işinə 1951-ci il yanvarın 1-də başladı. İlk dövrdə o, üçillik mandata malik idi. O vaxtdan bir sıra nailiyyətlərə baxmaya-raq qaçqınlar axını tükənmirdi. Buna görə idarənin mandatının müd-dəti dönə-dönə uzadılırdı və bu mandat hazırda da qüvvədədir.

QAK sığınacaq almağa çalışan şəxslər, öz vətənlərinə qayıdan qaçqınlar və məcburi köçkünlərin işləri ilə məşğul olur. QAK-nın vəzifəsi ilk əvvəl qaçqınları müdafiə etmək və onların adından hökumətlərlə danışıqlar aparmaqdır. Ali komissarlığın əsas vəzifəsi isə dövlətlərin qaçqın və sığınacaq axtaran şəxslərin müdafiəsi üzrə öz öhdəliklərinə əməl etməsini təmin etməkdən, habelə mövcud məsələnin həllində bu ölkələrə mümkün köməyi göstərməkdən ibarətdir.

BMT 1951-ci ildə qaçqınların statusu üzrə Konvensiyanı qəbul etdi. Dünya dövlətlərinin çoxu bu konvensiyanı dərhal ratifikasiya[1] etdi. Bununla onlar qaçqınları öz himayələri altına alır və onları təqib və ölüm təhlükəsinin gözlədiyi ölkələrə qaytarmamağa razılıq verirlər. Konvensiyanın 33-cü maddəsində deyilir: «Razılığa gələn dövlətlər heç bir halda qaçqınları onların irqinə, dilinə, vətəndaşlığına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidələrinə görə həyatlarının, yaxud azadlıqlarının təhlükədə olduğu ölkəyə sürgün etməyəcək, yaxud qaytarmayacaqlar».

Bu prinsip, habelə hökumətin hər hansı qaçqını başqa ölkəyə – oradan onun evə göndərilə biləcəyi ölkəyə sürgün etmək niyyəti olduğu hallarda da tətbiq edilə bilər. Hökumətlər həmçinin onların ölkəsində təhlükəsizlik əldə etmək (sığınacaq tapmaq) istəyən qaçqınların vəsatətlərinə baxmağa borcludur və bu prinsip, 1951-ci il Konvensiyasına qoşulub-qoşulmamasından asılı olmayaraq bütün ölkələr üçün qüvvədədir.

Bəs kimlərə «qaçqın» deyilir? Bu barədə Konvensiyada dəqiq tərif vardır: **qaçqın** – *irqi, dini, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubluğa və siyasi əlamətlərə görə təqiblərin qurbanı olmaq barədə tam əsaslı qorxuya görə öz ölkəsini tərk etmiş və bu səbəbdən də oraya qayıda bilməyən, yaxud qayıtmaq istəməyən şəxsdir.*

Bizim ölkəmizdə qaçqınlar 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların Sovet ordusunun köməyi ilə ermənilər tərəfindən zorakılıqla qovulması nəticəsində meydana gəlmişdir.

[1] *Ratifikasiya – ali dövlət orqanlarının razılaşan tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış beynəlxalq müqavilə və ya sazişi təsdiq etməsi.*

Ermənistanda öz dədə-baba torpaqlarında yaşayan azərbaycanlıların həyatı təhlükə altına düşdüyündən, onlar xilas üçün Azərbaycana pənah gətirdilər. Onların sayı təqribən 200 minə çatırdı.

Hökumətlər çox vaxt iddia edirlər ki, qaçqınların qorxuları şişirdilib, ya da uydurmadır. Bu cür "canqurtaran" izah və dəlillərdən qaçqınları müvafiq təşkilatlar müdafiə edirlər. Onlar qaçqınların tərk etdikləri ölkələrdə insan hüquqlarının pozulmasına dair sübutlar göstərməklə, hökumətləri qaçqınların vəziyyəti ilə yaxından məşğul olmağa, onların sığınacaq verilməsi haqqında vəsatətlərinə qayğı ilə yanaşmağa sövq edirlər. Amma təəssüf ki, bəzən müvəqqəti çətinliyə düşmüş vətənini, el-obasını ataraq təmin olunmuş, xoşbəxt həyat xülyası ilə xarici ölkələrdən sığınacaq istəyənlər, qaçqın statusu almaq üçün hətta Vətəninə qara yaxmaqdan belə çəkinməyənlər də olur. Belələri anlamır ki, doğma Vətəninin müqəddəsliyinə xor baxan, onun qədrini btlməyən adamın özünün qədir-qiyməti olmaz.

Məcburi köçkünlər. Qaçqınlardan əlavə, təxminən oxşar vəziyyətdə olan və sayca onları üstələyən insanlar kateqoriyası mövcuddur. Bu, ölkə daxilində bir yerdən başqa yerə köçürülmüş şəxslər, daha doğrusu, ***məcburi köçkünlərdir***. Silahlı münaqişə, kütləvi zorakılıq halları, insan hüquqlarının pozulması və ya insan fəaliyyətinin törətdiyi fəlakətlər nəticəsində öz evlərini, yurd-yuvalarını tərk etməyə məcbur edilmiş, lakin beynəlxalq qanunlarla tanınan dövlət sərhədlərini keçməmiş insanlar və ya insan qruplar məcburi köçkün sayılırlar.

QAK-ın statistikasına əsasən hazırda 22 milyon insan ölkənin bir hissəsindən digərinə qaçmışdır. Onun 1 milyonu Azərbaycanın payına düşür. Belə ki, Ermənistanın ölkəmizə qarşı başladığı müharibə nəticəsində (1988-1994) Qarabağın dağlıq hissəsində və ətraf rayonlarda yaşayan əhali bütün daşınar və daşınmaz əmlakını qoyaraq ölkənin digər ərazilərinə köçməyə məcbur olmuşdur.

BMT Baş Katibinin xüsusi nümayəndəsi köçkünlərin müdafiəsi ilə məşğul olur. 1998-ci ildə QAK-da köçkünlər haqqında məsələlər üzrə rəhbər prinsiplər işlənib hazırlanmışdır. Bu prinsiplərdə bütün dünyada köçkünlərin xüsusi tələbat-ları əks

olunur: şəxslərin zorakılıqla başqa yerə köçürülməkdən müdafiəsinə, yer-dəyişmə zamanı, köçmə, habelə qayıtma və ***reinteqrasiya***[1] zamanı onlara yardım göstərilməsinə və onların müdafiəsinə aid hüquqlar və təminatlar müəyyən edilir.

Ölkəmizdəki qaçqınlar və məcburi köçkünlər erməni təcavüzkarları tərəfindən ağır fiziki və mənəvi zorakılığa məruz qalıblar. Onlar doğma yurd-yuvalarından, ata-babalarının uyuduqları qəbiristanlıqlardan əmlaklarından məhrum olublar. Azərbaycan hökuməti qaçqınları ölkə ərazisində yerləşdirmiş, onlara qaçqın statusu vermiş, ölkə vətənbaşlığına qəbul etmişdir. Qaçqınların və məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yaradılmışdır. Çətin şəraitdə yaşayan, respublikanın müxtəlif rayonlarına səpələnmiş məcburi köçkünlərə bir sıra imtiyazlar verilmişdir. Azərbaycan dövlətinin yeritdiyi siyasətin nəticəsində məcburi köçkünlərin yaşadıqları çadır şəhərciklərinin əksəriyyəti ləğv edilmiş, onlar müasir tipli mənzillərə köçürülmüşlər.

Ölkə qanunvericiliyində bütün vətəndaşlar üçün nəzərdə tütülmüş iqtisadi və sosial hüquqlar qaçqınlara da şamil edilmişdir. Onlar bir sıra müavinətlər və yardımlar alır, uşaqlarını ali məktəblərdə pulsuz oxudurlar.

Lakin beynəlxalq humanitar yardımlar və hər cür imtiyazlar qaçqınvə məcburi köçkünlərin keçirdiyi mənəvi-psixoloji sarsıntıları sağalda bilməz. Hər bir qaçqın və məcburi köçkünün ürəyi doğma el-obasına qovuşmaq üçün döyünür. Yalnız Vətən həsrətinin onu onların qəlbinə vurulmuş yaraları sağalda bilər. Əminik ki, tezliklə torpaqlarımız işğaldan azad olacaq, məcburi köçkünlər öz doğma ocaqlarına qayıdacaqlar.

6. Sülh. Sülh mədəniyyəti

Sülh məsələsi bəşəriyyətin ən vacib problemi kimi. «Sülh» *sözü bizə yaxşı tanışdır.* ***Sülh dedikdə, biz əmin-***

[1] ***Reinteqrasiya*** *– qayıtdıqdan sonra yaşayış üçün zəruri şərait yaratmaq.*

amanlıq, sakitlik, müharibə və münaqişənin olmadığı bir həyat başa düşürük.

Tarixdən bəllidir ki, insanların əksər çoxluğu təhlükəsiz həyat arzulamış, sülhlə birgəyaşayışa can atmışlar. Lakin, bəzən bilərəkdən, bəzən də qəsdən münaqişəyə cəlb olunmuş, müharibələr törətmişlər. Münaqişənin çox vaxt müharibə ilə nəticələndiyini də bilirik. Münaqişə insanların təbiəti ilə bağlıdır. Lakin söhbət kamil insandan, sivilizasiyalı cəmiyyətdən gedirsə, onda sülh yolu seçilməli, hər cür zorakılıqdan imtina edilməlidir.

Bəşər övladının əsas vəzifələrindən biri sülhpərvər olmaq, sülh uğrunda mübarizə aparmaq, kin, nifrət və düşmənçilikdən uzaq olmaqdır. Tanınmış bir İslam alimi kin və nifrət haqqında belə demişdi: *«Kin, nifrət Insana verilməyib ki, o başqa insanlara kin və ya nifrət bəsləsin. Bəlkə, ona görə verilmişdir ki, özündə olan kinə, nifrətə kin bəsləsin, nifrət etsin».*

Sülhsevər insanların digər vəzifəsi isə sülhdən, əmin-amanlıqdan məhrum olmuş insanlara kömək etməkdir. Dünyada zorakılığın qarşısı yalnız bütün bəşəriyyətin sülh naminə birliyi ilə alına bilər.

«Sülh» sözünü «müharibə», «münaqişə» sözlərinin əksi kimi qəbul etmək olar. Münaqişələrin həlli təcrübəsi göstərir ki, münaqişədə olan tərflər arasında razılığın olmamasında onların sülh haqqında danışdıqları zaman nəyi nəzərdə tutduqlarının aydın olmaması mühüm rol oynayır. Ona görə də sülhün tərəflərə hansı dəyərləri gətirdiyini, hansı arzuları reallaşdırdığını aydınlaşdırmaq lazımdır.

Məsələn, Azərbaycan Respublikası dövləti, Azərbaycan xalqı Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsini istəyir və bu yolda da mübarizə aparır. Lakin bizim hamımızın istəyi – tələbi ədalətli sülhə nail olmaqdır. Bu tələb ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü pozulmamalı, erməni separatizminə son qoyulmalıdır. Bunun müqabilində Azərbaycan Respublikası Dağlıq Qarabağa ən yüksək muxtariyyət verməyi və onun erməni mənşəli əhalisinin təhlükəsizliyini təmin etməyi öhdəsinə götürür.

Belə bir sülh Cənubi Qafqazda uzunmüddətli dincliyə və sabitliyə səbəb ola bilər. Təəssüf ki, münaqişənin həlli ilə məşğul olan beynəlxalq təşkilatların və böyük dövlətlərin yeritdiyi ikili siyasət belə bir sülhün əldə edilməsinə mane olur, işğalçının həyasız iddialarına şərait yaradır.

Hər bir insan sülh uğrunda mübarizə aparmağa borcludur. Müharibələrə münasibətdə alman mütəfəkkiri İ.Kantın qiymətli fikirləri vardır. Kant **"Əbədi sülhə doğru"** əsərində belə hesab edirdi ki, müharibənin qarşısı alınmasa, bizim sivilizasiyanı "bəşəriyyətin nəhəng qəbiristanlığında" ədəbi sülh gözləyir.

Xalqımız sülhsevər xalqdır. Heç kəsin torpağına göz dikmir, heç bir xalq və dövlət üçün təhlükə yaratmır. Buna görə də bizim mütəfəkkirlərimiz də müharibəyə nifrət etmişlər. Böyük Nizami yazırdı:

Nahaq qanlar zalımı qərq edər göz yaşına,
Yaxşılığı əzəldən, adət et sən özünə.
Yaxşılıq gəlməsə əllərinizdən,
İntiqam alamayın qılıncla bizdən.

Füzuli müharibələri, fitnə-fəsadı pisləyir, bunlardan çəkinməyi məsləhət bilir:

Nə tağafül, nə də cəng qıl nişə,
Bu işə qıl özgə əndişə.

«Quran»ın müxtəlif ayələrində müharibələrdən çəkinmək, sülhə meyil etmək dəfələrlə vurğulanmışdır.

Bəşəriyyət tarixi boyu bir çox müharibələr baş vermişdir. Bu müharibələr lap qədim zamanlardan bu günədək tayfa ittifaqları, xalqlar və dövlətlər arasında getmişdir. Bu müharibələr ədalətli və ədalətsiz xarakter daşımış və daşıyacaqdır.

Bizim ölkəmiz və xalqımız da tarix boyu qanlı və ədalətsiz müharibələrin şahidi olmuşdur. Ölkəmizin əlverişli təbii-coğrafi şəraiti, zəngin sərvətləri daim özgələrin diqqətində olmuş, saysız-hesabsız işğalçı müharibələrə səbəb olmuşdur. Onların içərisində xalqımız üçün uğurlu olanları da, məğlubiyyətlə nəticələnənləri də olmuşdur. Tarix fənnindən sizə çoxlu belə müharibələr məlumdur. Lakin bir həqiqət aydındır ki, xalqımız tarixən sülhsevər bir xalq olmuş, zərurət olmadan silaha əl atmamışdır. Doğma Vətən

torpaqları işğalçı hücumlara məruz qaldıqda müharibə aparmağa məcbur olmuşdur. Tariximizdə elə hökmdarlar olmuşdur ki, hakimiyyətləri dövründə daim sülhü qoruyub saxlamağa çalışmış, sülhsevər xarici siyasət yeritmişlər.

İkinci Dünya müharibəsi xalqımız üçün daha çox fəlakətli olmuşdur. Elə bir ev, elə bir ailə olmamışdır ki, bu dəhşəti və qanlı müharibənin amansızlığının qurbanı olmasın. Ermənistanın ölkəmizə qarşı apardığı təcavüzkar müharibədə təkcə hərbçilər deyil, minlərlə dinc əhali də məhv olmuşdur.

Müxtəlif dövrlərdə müharibələrə münasibət də müxtəlif olmuşdur. Ədalətsiz müharibələrə işğalçı dövlətin tarixçiləri, salnaməçiləri haqq qazandırır, şairləri və yazıçıları mədhiyyələr yazır. Tərəqqipərvər mütəfəkkirlər müharibələrə mənfi münasibət bəsləmiş, tarixdə belə müharibələri törədənlər tənqid atəşinə tutulmuşlar. Onların fikirlərini böyük mütəfəkkir şair H.Cavidin aşağıdakı misraları ilə ümumiləşdirmək olar:

Kəssə hər kəs tökülən qan izini,
Qurtaran dahi odur Yer üzünü.

Münaqişələrdən sülh mədəniyyətinə doğru. Müharibə və sülh! Bu iki söz daim ictimai və siyasi hərəkatların diqqət mərkəzində olmuşdur. İkinci Dünya müharibəsindən sonra **Sülh tərəfdarlarının Beynəlxalq hərəkatı** sürətlə artmışdı. Həmin hərəkatın simvolu təmiz səma üzərində uçan ağ göyərçindir. 1995-ci ildə BMT *güc tətbiq etməmək, sülh mədəniyyəti* adlı proqram da işləyib hazırladı. Bu proqrpama görə, müasir bəşəriyyət döyüşkən əhvali-ruhiyyədən imtina etməli, tolerant, hövsələli, başqa cür düşüncə sahibi olmalıdır. Bu proqrama görə, müasir bəşəriyyət döyüşkən əhvali-ruhiyyədən imtina etməli, tolerant, hövsələli, başqa cür düşüncə sahibi olmalıdır. Bu rpoqramda millətçiliyin, irqçiliəin, şovinizmin, dini qarşıdurmaların, faşizmin, ekstremizmin təzahür formaları kəskin tənqid edilir, bunlar insanlığa zidd hərəkətlər kimi qiymətləndirilir və bəşəriyyətin bütün sülhsevər insanları, siyasi mənsubiyyətdən asılı olmayaraq, aktual əməkdaşlığa dəvət olunur. Bu əməkdaşlığın bəşər sivilizasiyasının saxlanmasına, bütün dünyada sülhün və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət

edəcəyinə inam bəslənir. ***Sülh ümumbəşəri dəyərdir. Onu yalnız Yer üzündəki bütün xalqların birgə səyi ilə qorumaq mümkündür.***

Müharibə haqqında fikir bəzi insanların şüurunda yaranır, buna görə də insanların şüurunda sülhü müdafiə etmək ideyasını da möhkəmləndirmək lazımdır.

Sülh şəraiti kimi yalnız müharibənin olmamasını, münaqişəsiz həyatı, yaxud atəşkəsi göstərmək olmaz. Sülh insanların hüquqlarının qorunması, ehtiyaclarının ödənilməsi şəraitində rahat, dinc birgəyaşayışdır**.** Uşaqların sevinclə dolu oyununu, ailənin sakit dəqiqələrini, qonşularla dostluğunu, məktəbə getmək imkanını, sağlam mühit və keyfiyyətli ərzağın olmasını – böyük və ya kiçik sülh nümunələri kimi qəbul etmək mümkündür.

Sülh dedikdə üç əsas ehtiyac ödənilməlidir: 1) firavan yaşayış (yoxsulluğa, aclığa sülh demək olmaz); 2) azadlıq (əsarətdə olan insan özünü sülh vəziyyətində hiss etməz); 3) özünü dəyərləndirmə (şəxsi inkişaf, həyatda məqsəd, yeniliklər).

Sülh şəraitində insanlar arasında dostluq, qardaşlıq, birgə əməkdaşlıq əlaqələri yaranır. Insanların, xalqların bir-biri ilə ünsiyyəti prosesində müsbət keyfiyyətlər mübadiləsi baş verir. İnsanlar getdikcə təkmilləşərək – bilik və bacarığını artıraraq, daha savadlı və mədəni olurlar. Dövlətlər isə elmi-texniki yenilikləri bir-birinə ötürərək, cəmiyyəti inkişaf etdirirlər. Heç bir dövlət, xalq, Insan ayrı-ayrılıqda, tənha yaşayıb inkişaf edə bilməz. İnsanların ünsiyyətə ehtiyacı vardır və bu, insan hüququdur.

Sülh mədəniyyəti

a) Başqalarının həyatına hörmətlə, zor işlədilməsinə son qoyulmasına, bunda maraqlı olmağa və təhsil, dialoq və əməkdaşlıq vasitəsilə zordan əməli olaraq imtina edilməsinə;

b) Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə, beynəlxalq hüquqa uyğun olaraq dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyi, öz mahiyyətinə görə hər hansı dövlətin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq prinsiplərinə tam hörmətlə yanaşılması;

c) bütün insan hüquqlarına və əsas azadlıqlarına tam hörmətlə edilməsi;

d) inkişaf və ətraf mühit sahəsində indiki və gələcək nəsillərin tələbatının təmin edilməsinə yönəldilmiş səylərə rəvac verilməsi;

e) qadınlarla kişilərin hüquq və imkan bərabərliyinə hörmət edilməsi və s.

7. Dini dözümlülük

Dini etiqad. Biz hər gün müxtəlif dinlərə etiqad edən Insanlarla rastlaşırıq. Müsəlmanlar məsciddə namaz qılmaqla, xristianlar kilsədə, yəhudilər sinaqoqda dua etməklə öz dini ayinlərini icra edirlər. Xristianlar bazar gününü, müsəlmanlar cümə gününü müqəddəs gün hesab edirlər. Bütün bunlar dini etiqad formalarının müxtəlif olmasını göstərir. Tarixdən bizə qədim xalqların sitayiş etdikləri müxtəlif dinlər məlumdur.

Bəs görəsən, din nədir? ***Din – insanları hiss üzvləri ilə dərk edilən dünya gerçəkliyi arxasındakı daha əhəmiyyətli gerçəkliklə bağlayan yoldur. Bu yol insanlara gözəl əxlaq sahibi olmağı, yaxşılıq etməyi, pislikdən çəkinməyi öyrədən Allah yoludur.***

Dinin yolu böyük yoldur, qolları, cığırları çoxdur. Tanıyıb-bildiyimiz və bilmədiyimiz dinlər bu yolların qollarıdır. Bu dinlərin bəzilərinin öz müqəddəs kitabları, peyğəmbərləri, tarixi ənənələri vardır. Bəziləri isə dəqiq müəyyən edilmiş dini mənsubiyyət göstəricilərinə malik olmasa da, öz dualarını və ayinləri ilə seçilirlər.

İnsanın etiqad etməsinin səbəbləri. Bəşər cəmiyyəti ilə birlikdə dini təsəvvürlər də yaranmışdır. Ən ibtidai insanların belə, ölüləri dəfn etmək üçün xüsusi yerləri olmuşdur. Halbuki insandan başqa heç bir məxluq öz ölənlərini dəfn etmir.

Din ibtidai insanların təbiət qarşısında acizliyinin deyil, onları əhatə edən aləmin sirlərini dərk etmək cəhdinin nəticəsi kimi meydana gəlmişdir. Təbiətin insana sirli olan hadisələri ilə bağlı yaranmış suallara cavab vermək üçün Insanın kifayət qədər ağlı və şüuru olmadığından o, bunların səbəbini gözəgörünməz, ruhi qüvvələrlə bağlamışdır. Nəticədə din meydana gəlmişdir.

Dinin mənşəyi haqqında iki əsas fikir mövcuddur. Birinci fikrə görə, din ilahi təbiətə malikdir, insan yaradıldığı gündən onun

dini olmuşdur, bütün mədəniyyətlər gözəgörünməz gerçəkliyin mövcudluğunu qəbul etmişlər. İkinci fikrə görə, maddi aləmdən başqa gerçəklik yoxdur, dini insanlar yaratmışlar. Əvvəlcə "ibtidai dinlər" təşəkkül tapmış, sonra isə dini təsəvvürlərin təkamülü nəticəsində mütəşəkkil təkallahlılıq dinləri yaranmışdır.

Ərəb dilindəki *"dinin"* sözündən yaranan "din" termininin mənası «inam», «etimad» deməkdir. "Din" termini dilimizə Azərbaycanda İslamın yaranması ilə əlaqədar keçmişdir.

Son zamanlar alimlər dinin lap əzəldən təkallahlılıq səciyyəsi daşadığını sübuta yetirməyə çalışırlar. Onlar iddia edirlər ki, bütün ibtidai cəmiyyətdə, müxtəlif şəkillərdə təsəvvür edilsə də, bir Ulu Tanrı ideyası mövcud olmuşdur.

Etiqadsız yaşamaq mümkündürmü? Mənəvi mədəniyyətin mühüm tərkib hissəsələrindən biri də dindir. Din təbiət-cəmiyyət hadisələrinin baş verməsini, inkişafını, bütün dəyişiklikləri fövqəladə qüvvələrin təsiri ilə əlaqələndirir, onların fəaliyyətinin nəticələri kimi izah edir.

Din – *İnsanın dünyanı dərk etmək istəyindən yaranmış dünyagörüşü formasıdır.*

İnsan kamilliyə can atır. Lakin bu dünyada kamilliyə qovuşmaq mümkün deyildir. Bu dünyada hər hansı bir şey nə qədər gözəl olsa da, ondan yaxşısını təsəvvürə gətirmək mümkündür. Əsl kamillik nümunəsini din göstərir. Dini təcrübə kamil Allah sevgisinə, kamil əzəli həqiqətə yol açır.

Insan gözə görünməyən ruhani gerçəkliyə yaxınlıq axtarır. Onun yerinə yetirdiyi ayin və ibadətlər, oxuduğu dualar, kəsdiyi qurbanlar, verdiyi nəzirlər, etdiyi yaxşılıqlar yalnız özünü Allaha yaxınlaşdırmaq məqsədi güdürsə, o mənən saflaşır, paklaşır, kamilləşir.

Din sürətli dəyişikliklər, ciddi ekoloji problemlər, təbiətdə müşahidə olunan kataklizmlər şəraitində insana əmin-amanlıq, yəqinlik gətirir, onun həyatına və əməllərinə məna verir. Beləliklə, din bütün bu tələbatlara cavab verdiyi üçün mövcuddur.

Son olaraq, dünyada dərk olunmamış şeylər çoxdur. Insan bütün bu müəmmaları açmağa cəhd göstərir. Ancaq bu mümkün olmur. Nə vaxta qədər ki, qoyulan suallara elmi cavablar yoxdur, o zaman bu suallara cavab dində axtarılacaqdır.

Qurani-Kərim İslamın müqəddəs kitabıdır. *Qurani-Kərim* bir milyarddan artıq insanın etiqad etdiyi İslam dininin müqəddəs kitabı və səmavi kitabların ən sonuncusudur. Bu müqəddəs kitab *114 surədən* və *6236 ayədən* ibarətdir. Məhəmməd peyğəmbər (s.ə.s.) İlahidən ayələri aldıqca əzbərləmiş, katiblərinə yazdırmışdır. Peyğəmbərin vəfatından sonra Quran kitab şəklində yazıya alınmışdır.

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan Qurani-Kərim müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də bir çox məsələlərin elmi izahını verən qiymətli mənbədir. Qurani-Kərim Yerin, Günəşin, Ayin, ulduzların hərəkət etməsini heyrətli bir şəkildə şərh etmiş, sonradan baş verəcək bir çox hadisələr, elmi kəşflər barəsində düzgün məlumat vermişdir. Quranın hələ lazımınca açılmamış, dərk edilməmiş ayələri isə bu gün Insan idrakına sığmayan gələcək elmi kəşflərdən xəbər verir. Həmin elmi kəşflər, ixtiralar bir-bir yerinə yetdikcə Quran ayələrinin də əsl məzmunu, mahiyyəti tədriclə anlaşır. Eyni zamanda, həyat cəmiyyət inkişaf etdikcə, elmi kəşflər, müasir kosmik tədqiqatlar artdıqca həmin ayələrin indiyə kimi dərk olunmamış əsl mahiyyəti, məzmunu açılır, yeni məzmun, yeni mahiyyət kəsb edir.

İslam müasir dünyada. İslam bu gün dünyada ən sürətlə və ən geniş yayılan dindir. Bu gün öz dəyərləri, əxlaq və hüquq normaları, mədəni potensialı sayəsində güclənir, öz ardıcıllarının sayını artırır. Hazırda müsəlmanların sayı 1 mlrd. 250 min nəfərdir ki, bu da dünya əhalisinin 1/5-ni təşkil edir.

İslam təkcə ənənəvi müsəlman ölkələrində deyil, Avropa və Amerikada da özünə yeni ardıcıllar tapır. Manhettenin mərkəzində tikilmiş **İslam Mədəniyyət** Mərkəzi fəal iş aparır. Qərbdə və Amerikada zəka sahibləri İslama daha çox maraq göstərirlər. Bu gün İslam yeni bir dirçəliş dövrü yaşayır. Dirçəliş özünü müxtəlif formalarda göstərir. Məscidlərin və dini təhsil ocaqlarının sayının artması dinin elmi mahiyyətini dərk etməyə imkan verir. **Məkkə, Mədinə, Kərbəla** və

Məşhəd şəhərlərini ziyarət edənlərin, oruc tutanların, namaz qılanların sayı gündən-günə artır. Bundan əlavə, neftlə zəngin ərəb ölkələri İslamın təbliği ilə bağlı iş aparırlar. Maarif genişlənməsi, informasiya mübadiləsi imkanlarının artması da İslama marağı gücləndirir.

Beynəlxalq İslam təşkilatları – **İslam Konfransı Təşkilatı, İslam Bankı, İslam Aləmi Liqası,** müxtəlif İslam xeyriyyə cəmiyyətləri, İslam irsinin təbliği mərkəzləri İslamın təbliği ilə bağlı fəaliyyətlərini genişləndirirlər. İslam inteqrasiya proseslərini, qloballaşmanı prinsip etibarilə qəbul edir, amma öz əxlaq normaları və meyarlarına uyğun gəlməyən standartları qətiyyətlə rədd edir.

Yəhudilər hansı dinə inanırlar? Xristianlar. Ən qədim təkallahlı din təqribən e.ə. I minillikdə Fələstində meydana gəlmiş *iudaizm dinidir*. İudaizm dininə yəhudilər etiqad edirlər.

Digər təkallahlı din olan *xristianlıq* da eramızın I əsrində Fələstində meydana gəlmişdir. İsa peyğəmbərin dini təliminin tərəfdarları özlərini *xristian* adlandırırlar.

Müasir dünyada dini dözümlülük. Biz müxtəlif dinlərlə tanış olduq. Bu dinlərdən hər biri hansısa bir ölkənin, bir xalqın dini olmaqdan çıxmış, ayrı-ayrı ölkələrə yayılmışdır.

Bu gün miqrasiya prosesləri güclənir, cəmiyyətlər bir-birinin üzünə açılır. Şübhəsiz, bu hal dinləri də coğrafiyasını genişləndirir. Belə bir şəraitdə dinlərin yanaşı yaşaması, *dini dözümlülük problemi* ortaya çıxır.

Hər ölkədə bir din başqa dinlərə nisbətən daha qədim köklərə, daha geniş sosial bazaya malik olur. Məsələn, Azərbaycan müsəlman ölkəsidir. Burada əhalinin 95%-dən çoxu müsəlmandır. Lakin burada yəhudilər və xristianlar da yaşayır. Bundan əlavə, son vaxtlar Azərbaycanda qeyri-ənənəvi dinlər – xristian sektaları, İslam təriqətləri və cərəyanları da yayılmaqdadır. Əgər biz dini etiqad azadlığını bir prinsip kimi, Insan haqqı kimi qəbul ediriksə, hər bir şəxsin özünə azad din seçmək haqqını da qəbul etməliyik.

Bu o deməkdir ki, dinlər və bu dinlərin ardıcılları bir-birinə dözməli, dözümlülük göstərməlidirlər. Bu baxımdan, Azərbaycan həqiqətən nümunə ola bilər. **ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Bakı konfransında (10-11 oktyabr 2002)**

deyilmişdir: *"Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər"*.

Azərbaycanda dini dözümlülüynü tərbiyə edilməsində islamın da rolu az olmamışdır. Bu din *"Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik"* (Quran, "əl-Maidə" surəsi, ayə 48) deməklə, dini plüralizmi prinsip etibarilə məqbul saymışdır. İslamın *"Dində məcburiyyət yoxdur"* (Quran, əl-Bəqərə surəsi, ayə 256), *"Sizin öz dininiz var, mənim də öz denim"*(Quran, əl-Kafirun surəsi, ayə 6) prinsipləri isə dini dözümlülüyü müsəlmanlar üçün hökm səviyyəsinə qaldırmışdır. Məşhur Avropa tarixçisi **Adam Mets "İslam İntibahı"** kitabında İslamın başqa dinlərə münasibətdə daha dözümlü olduğuna dair çoxlu nümunələr göstərir.

III FƏSIL
ƏXLAQ

1. ƏXLAQ

Əxlaq nədir? Hər bir şəxs cəmiyyətdə insanlar arasında davranır, fəaliyyət göstərir. Bəs insan cəmiyyətə, insanlara necə yanaşmalıdır, onlarla necə davranmalıdır? Fərz edək ki, sən ailədə istədiyin hərəkətləri edirsən. Ata-ananın, bacı-qardaşının, böyük-kiçiyin vəziyyətini, onların arzu və istəklərini nəzərə almırsan. Onlar da sənin kimi hərəkət edir, heç kimin arzu və istəyini nəzərə almırlar. Əgər ailədəki adamlar bir-birinə, başqasına (məsələn, oğul ataya, bacıya) məhəl qoymazsa, biri digərinin qarşısında öz borcunu, vəzifəsini yerinə yetirməzsə, belə ailədə vəziyyət necə olar? Cəmiyyətdə də hər bir insanın həm cəmiyyət, həm də başqa adamlar qarşısında borcu, vəzifəsi vardır. Məsələn, Vətəni müdafiə etmək hər bir şəxsin borcudur. İndi təsəvvür edək ki, ölkəmizdə heç kim bu borcunu yerinə yetirmək istəsmir. Onda nə olar? Deməli, hər kəs cəmiyyətdə, ailədə, insanlar arasında öz vəzifələrini yerinə yetirmək üçün məsuliyyət daşıyır. Bəs bu vəzifələri müəyyənləşdirən nədir? İnsanın cəmiyyətdə, ailədə, başqa insanlar arasında davranış qaydaları əxlaqda ifadə olunur. ***Əxlaq nədir?***

> **Əxlaq** *cəmiyyətə və başqa insanlara münasibətdə insanın vəzifələrini müəyyən edən normalar sistemi, mənəvi davranış qaydalarıdır.*

Əxlaq konkret tarixi xarakter daşıyır. Müharibə şəraitində snayper çoxlu düşmən öldürdüyünə görə mükafatlandırılır. Müharibə olmadığı vaxtda isə o, bir nəfəri belə öldürsə, ən ağır cəza alacaqdır. Çünki müharibə şəraitinin ona «icazə verdiyini» sülh şəraiti ağır cinayət hesab edir.

Mənəviyyat nədir? Müxtəlif cəmiyyətlərin əxlaqı bir-birindən fərqlənir. Eyni cəmiyyətdəki insanların da əxlaqı bir-birindən fərqlənir. Səbəb nədir? İnsandan başlayaq.

Hər bir insanın özünə görə ağlı, şüur səviyyəsi, vicdanı, iradəsi, hissiyatı, arzu və istəkləri, baxış, əqidə və ideyaları vardır. Bütün bunlar birlikdə insanın **mənəviyyatını** *təşkil edir.*

İnsanın mənəviyyatının necə olması tək ondan asılı deyildir. Heyvanlar içərisində tək yaşayan Mauqlinin mənəviyyatından söhbət gedə bilərmi? İnsan cəmiyyətdə başqa insanlar arasında yaşayaraq onların hərəsindən bir şey öyrənir. Cəmiyyətdəki həyat şəraiti ilə əlaqədar onda arzu və istəklər yaranır. Məktəbdən, insanlardan və s. öyrəndikləri əsasında şüur səviyyəsi inkişaf edir, ona uyğun əqidə və ideyalar formalaşır. İnsanlar kimi cəmiyyətlər də mənəviyyatca bir-birindən fərqlənirlər. Çünki bu cəmiyyətlərin sosial, iqtisadi və siyasi həyat şəraiti fərqlidir. O biri tərəfdən, hər bir cəmiyyət özündən əvvəlki cəmiyyətlərin sosial, iqtisadi, siyasi və mənəvi həyatının nailiyyətlərindən bəhrələnmişdir. Bütün bunlar sübut edir ki, istər insanın, istərsə də cəmiyyətin mənəviyyatı ictimai (sosial) xarakter daşıyır.

Soruşa bilərsiniz ki, cəmiyyətlərin, insanların əxlaqının bir-birindən fərqlənməsinin səbəbindən biz niyə mənəviyyatlar arasındakı fərqlərə diqqət veririk? **Cavabı budur:**

Əxlaq özü də mənəviyyata daxildir. Buradan aydın olur ki, mənəviyyat əxlaqa nisbətən daha geniş anlayışdır. Hər bir Insanın əxlaqı onun mənəviyyatından asılıdır.

Ancaq bu o demək deyildir ki, insanın mənəviyyatını təşkil edən hər bir komponentlə (elementlə) əxlaq eynidir. Məsələn, ağılla əxlaq eyni deyildir. Çox ağıllı adam əxlaqsız, fırıldaqçı ola bilər.

Ümumbəşəri dəyərlər. Hər bir cəmiyyətin öz əxlaq qaydaları, əxlaqi görüşləri vardır. Buna baxmayaraq, bütün cəmiyyətlər üçün ümumi olan qaydalar da vardır. Bunlara ***ümumbəşəri əxlaqi dəyərlər*** də deyilir. ***"Dəyər"*** deyəndə nə başa düşülür? Dəyər həyat üçün mühüm, zəruri, faydalı olan şeylər, ideyalar və s. kimi başa

düşülür. Əxlaqi dəyərlər xüsusi, daimi mənəvi dəyərlərdir. Bunlar bütün insanlara aid olduğundan onları "ümumbəşəri", yaxud "bəşəri" dəyərlər adlandırırlar. Qədim Roma tarixini yadımıza salaq. Dövlət sirkdə insanların bir-birini öldürməsinə icazə verir, xalq qladiatorların döyüşündən həzz alır, qalibdən məğlub olanı öldürməyi tələb edir. Quldarların öz dəyərəri, feodalların öz dəyərləri vardı. Qulun həyat şəraiti kəndlininkindən fərqli idi. Hərəsinin öz dəyərləri vardı. Zaman keçdikcə və bu sosial təbəqələr aradan çıxdıqca, onların bir çox dəyərləri də yox oldu. Amma elə dəyərlər də var ki, insanlar bu dəyərləri min illər boyunca qoruyub saxlamış, nəsildən-nəslə ötürmüşlər. Çünki onların hamısı əməklə məşğul olmaq, sülh, qayda-qanun şəraitində, ədalətli cəmiyyətdə yaşamaq istəmişlər. Bu istəklərə nail olmaq üçün müəyyən davranış qaydalarına əməl etmək vacib sayılmışdır. Odur ki, həmin əxlaq qaydaları nəsildən-nəsilə keçərək min illərlə yaşamışdır. Ümumbəşəri əxlaqi dəyərlər bu cür yaranmışdır. Bu dəyərlərdən aşağıdakıları göstərmək olar: mərd ol, sədaqətli ol, böyüklərə hörmət et, yalan danışma, haram mal yemə, paxıl olma, oğurluq etmə və s.

Bütün cəmiyyətlərdə insanlar kinliliyi, ədalətsizliyi, satqınlığı, böhtançılığı yalançılığı pisləmişlər. Min illər bundan qabaq insanlar sülh və qardaşlığın, xoşrəftarlılıq və alicənablılığın, sadəlik və təcavüzkarlığın, qədrini bilmiş və yüksək qiymətləndirmişlər. Nəsillərdən bizə gəlib çatan bu müsbət əxlaq qaydaları hazırda bütün dünyada yaşayan insanlar üçün qiymətli və dəyərlidir. Bu dəyərlər getdikcə daha çox insanın həyat normasına çevrilir. Yeni nəsillər həyatlarını bu dəyərlər əsasında qurur və yaşayırlar.

İnsanın həyatda, cəmiyyətdə hərəkətini tənzim edən müxtəlif norma tipləri vardır. Bunlardan hüququ (qanunu), adət və ənənələri göstərmək olar. Əxlaq bunların hər birindən fərqlənir. Əxlaq qaydaları insanların şüurunda, yaddaşında yaşayır. Hüquq isə qanunla yazılı şəkildə möhkəmlənir. Qanunu pozan şəxs inzibati qaydada, təqsirinin böyüklüyü nəzərə alınmaqla cəzalandırılırsa, əxlaq qaydalarının gözlənilməsi başqalarının qınağına, insanın özünün gec-tez vicdanı qarşısında cavab verməsinə səbəb olur.

Əxlaqi məsuliyyət. Necə etmək lazımdır ki, hər bir insan cəmiyyət qarşısındakı borcuna könüllü əməl etsin? Bizim hər birimiz cəmiyyət qarşısındakı borcuna əxlaqi borc kimi yanaşmalıdır. Vətəni müdafiə etmək hər bir gəncin cəmiyyət qarşısında borcudur. Əxlaq bu borcu unutmağa qoymur. ***Əxlaqi borc*** tələb edir ki, hər bir gənc ordu sıralarında əsgəri xidmətə getsin. Bu borcu yerinə yetirmək təhlükəli ola bilər. Odur ki, ondan yayınmaq istəyi meydana gəlirsə, əxlaqi məsuliyyət bu istəyə qarşı durur, gənci həmin istəyinin dalınca getməyə qoymur. Bu, gəncin əxlaqi borcu hər şeydən, o cümlədən öz həyatından da üstün tutduğunu göstərir. Deməli, hər bir insanın cəmiyyət qarşısındakı borcuna əməl etməsi üçün elə etmək lazımdır ki, o insan bu borca əxlaqi borc kimi yanaşsın.

Bəs əxlaqi borcun yerinə yetirməsinə kim nəzarət edir? Buna həm cəmiyyət, həm də insanın özü nəzarət edir. Cəmiyyət ictimai rəy vasitəsi ilə buna nail olur. İctimai rəy insanların əxlaqi borcu yerinə yetirməsinə nəzarət edir. Borcunu yerinə yetirməyən adam haqqında ictimai rəy də mənfi olur, o pislənir. Tanışları, dostları, qohumları arasında, yaşadığı məhəllədə, oxuduğu məktəbdə, işlədiyi yerdə onun daxilində hər bir hərəkətinə nəzarət edən ***vicdanı*** var. Vicdan öz şəxsi borcunu başa düşmək, daxili əxlaqi nəzarət və qiymətləndirmədir. Vicdan borcun başa düşülməsidir. Vicdan həm də borcun yerinə yetirilməsinə insanı məcbur edən hissiyyatdır. Bu hissiyyat ikixassəlidir. Əgər borc yerinə yetirilirsə, mənəvi razılıq hissi keçirik. Əgər borcumuzu yerinə yetirə bilmiriksə, onda biz xəcalət hissi keçirik.

Ədalət. Biz tez-tez *"ədalət"* və *"insaf"* sözlərini işlədirik. Əslində onların hər ikisi eyni məna daşıyır, daha doğrusu, "insaf"ın lüğəti mənası "ədalət" deməkdir. Ədalət insana xas olan nəcib əxlaqi keyfiyyətlərdən biridir. Ədalətli insan heç vaxt başqalarının haqqını tapdalamaz, həmişə tabeliyində olan insanlarla ədalətlə davranar. Ədalətli olmaq insanı bütün pisliklərin mənbəyi olan zülmdən çəkindirir. Ədalətli qanun insanları hər cür özbaşınalıqlardan və qanunsuzluqlardan qoyulur. Ədalətli rəhbər idarə etdiyi müəssisədə qayda-qanunun gözlənilməsinə, bütün əməkdaşlara eyni münasibət bəslənməsinə nail olur. Ədalətli dövlət başçısı ölkənin ədalətlə idarə olunmasını, qanunların aliliyini təmin edir. Ədalətli hakim idman yarışlarını obyektiv idarə edir, məhkəmə iclaslarını ədalətlə aparır, haqqı nahaqdan vermir. Gördüyünüz kimi, biz çoxlu ədalət subyektlərinin adını çəkdik. Deməli, biz insanların cəmiyyətdə, gündəlik həyatımızda rastlaşdığımız əxlaqi anlayışlardan biri ədalətdir.

Ədalət insanlarla və insan qrupları ilə bərabər şəkildə, qərəzsiz rəftar deməkdir. Bundan başqa, ədalət insanlarla və insan qrupları ilə əxlaq baxımından özünü doğruldan rəftar – insaflı rəftar deməkdir.

Təsəvvür edin ki, siz bir qrup insan arasında ərzaq bölməlisiniz. Bu insanlara qərəzsiz yanaşsanız, onda hərəyə eyni miqdarda çörək parçası verməlisiniz. Lakin bu insan qrupunda zəif və xəstələr, azyaşlı uşaqlar varsa, onda ehtiyacı çox olan insanlara çörəyin daha böyük parçasını vermək insaflı olardı.

İnsanlar ömür boyu ədalətli cəmiyyətdə yaşamağı, ədalətli dövlət qurmağı arzu etmişlər. Tarix göstərir ki, öz vətəndaşlarının hüquqlarını saya salmayan dövlətlər inkişaf etmir və son nəticədə məhv olur. Bunu biz faşist və kommunist rejimlərinin timsalında görmüşük. Bəs hansı cəmiyyəti ədalətli cəmiyyət hesab etmək olar? Hər bir fərdin ləyaqətinin müdafiə olunduğu, hər bir insana hərtərəfli inkişaf imkanı verildiyi, qanunun aliliyinin, hamının

bərabər şəkildə hüquq və azadlıqlarının təmin olunduğu, aztəminatlı üzvlərinə yardım göstərildiyi cəmiyyəti ədalətli saymaq olar.

Cəmiyyətdə həmişə ***sosial ədalət prinsipi*** hakim rol oynamalıdır. Sosial ədaləti – avara və işgüzarın, axmaqla ağıllının sosial bərabərliyi kimi başa düşmək olmaz. Əksinə, ədalət cəmiyyətdə ağlın, istedadın, sağlamlıqla cismani inkişafın, fiziki və sosial mövqelərin qeyri-bərabərliklərinin hökmən nəzərə alınması və qiymətləndirilməsi kimi başa düşülməlidir. Bütün bunlarla yanaşı böyük yunan filosofu Aristotel ədalət anlayışını belə izah edib: "...Ədalət heç kəsin layiq olduğu haqqın ona verilməsidir".

İnsana xas olan nəcib əxlaqi keyfiyyətlərdən biri də ***yaxşılıqdır.*** İnsan canlı və şüurlu varlıq olduğundan həm yaxşı, həm də pis işlər görməyə qadirdir. Ləyaqətli və vicdanlı, ədalətli insan yaxşılıq edir, yaxşılığı həyat tərzinə çevirir.

Yaxşılıq çoxşaxəlidir. İnsanın həyata keçirdiyi bütün xeyirxah işləri yaxşılıq kimi qiymətləndirmək olar. İnsan elədiyi yaxşılıqları yadına saldıqca mənən yüksəlir, bu əməllərindən zövq alır.

Ancaq unutmaq olmaz ki, bəzən birinə yaxşılıq məqsədi ilə edilən əməl başqalarına pislik etməklə nəticələnə bilər. Bu ona bənzəyir ki, soyuq dəymiş bir adamı isindirmək üçün böyük tonqal qalayırlar. Nəticədə kəndin yarısı yanğından məhv olur. Yaxud başqa birisi qanunla cəzaya layiq olan adamın halına acıyaraq onu xilas edir və deyir ki, bu gün mən bir yaxşı iş görmüşəm, daha dərk etmir ki, bu yolla o həmin cinayətkarın zərər vurduğu adamlara ikiqat pislik etmişdir.

Ata-babalarımız həmişə yaxşılıq etməiy özlərinin başlıca vəzifəsi hesab etmiş və demişlər: *"Yaxşılığa yaxşılıq hər kişinin işidir. Yamanlığa yaxşılıq ər kişinin işidir"*.

Qəddarlıq da insana xas olan keyfiyyətdir. Lakin mənfi əxlaqi keyfiyyətdir. Qəddar adamlar heç vaxt rəhmli, ədalətli olmurlar. Onlar başqalarına zülm, əzab və əziyyət verməkdən zövq alırlar. Belə adamlar addımbaşı pislik etməyə qadirdilər. Qəddarlıq pisliyin ən ifrat formasıdır.

Yaxşılıq və qəddarlıq özünün təzahürünü ***Xeyir*** və ***Şərdə*** tapır. Insanların tarix boyu etdikləri yaxşı işlər və əməllər xeyir, pis,

iyrənc, insanlığa yaraşmayan əmllər isə şər adlandırılmışdır. Yəqin ki, Siz Zərdüştilik dinində Xeyir və Şər allahları haqqında müəyyən məlumatlara maliksiniz. Dünya yarananda Xeyir allahı bütün xeyirxah canlıları və onların xeyirxah əməllərini yaradıb. Şər allahı isə əksinə. Xeyir istini, faydalı bitkiləri, çəmənlikləri, çayları, Şər isə ölümü, yırtıcı heyvanları, zəhərli böcəkləri, tufanı, soyuğu, xəstəlikləri yaratmışdır. Guya bu iki qüdrətli yaradıcı arasında mübarizə uzun çəkir və ən nəhayət, Xeyir allahının qələbəsi ilə bitir. Lakin Şər allahı da tam məğlub olmur. Zaman-zaman öz bəd əməlləri ilə insanlara ziyan vurur. Eləcə də Nizami Gəncəvinin "Xeyir və Şər" əsəri sizə yaxşı məlumdur. İnsanın təbiəti müxtəlif olduğu üçün əməlləri də müxtəlifdir. Pis mühitdə tərbiyə alan, ədalətsiz ictimai quruluşun yetirməsi olan Insanın meyli daim bəd əməllər törətməyə, başqalarına pislik etməyə, başqasının kədərindən nəşələnməyə yönəldilir. O insan, Şərdir. Təsadüfi deyil ki, biz insanın vəfat etməsini də Şər adlandırırıq. Əksinə, qonaqlıqlar, toy etmək kimi işlərə Xeyir iş deyirlər.

Xoşbəxtlik. İnsanı ətraf aləmdə ədalət, yaxşılıq əhatə edirsə, onda biz çox mühüm olan xəşbəxtlik anlayışının adını çəkməli oluruq.

Xoşbəxtlik – mənalı həyat uğrunda inadlı mübarizədir.

Həqiqətdə, hər bir inqsan aşkar və ya güzli şəkildə xoşbəxtlik haqqında düşünərək, ona çatmağa cəhd göstərir. *Xoşbəxtlik nədir?* Hərə onu bir gür başa düşür. Bəziləri üçün bu, var-dövlət, bəziləri üçün yüksək vəzifəyə çatmaq vasitəsi, hakimiyyətin əldə edilməsidir. Üçüncülər üçün xoşbəxtlik işığıdır.

Xoşbəxtlik – arzu və istəklərin təmin olunması, özünü reallaşdırma imkanı, sənin varlığının başqa Insanlar üçün vacibliyinin dərk edilməsindən alınan sevincdir. Bu baxımdan Nəsiraddin Tusi xoşbəxtliyə belə tərif verib: ***"... xoşbəxtlik insan həyatında təriflərin vərdiş halına keçməsidir".***

Azərbaycan mütəfəkkirləri Bəhmənyar, Nizami, Füzuli, Nəsirəddin Tusi və b. bu barədə dəyərli fikirlər söyləmişlər.

Xalqımızın qoruyub saxladığı deyimlərindən birini yada salaq: ***"Xoşbəxtlik – taleyin özünü ram etməkdir"***. Pedaqoqlar da düşünmüşlər ki, "*Biz elə adam tərbiyə etməliyik ki, o, xoşbəxt olmağa borclu olsun"*. Xoşbəxtliyə çatmaq üçün Insan iradəli olmalı, çətinliklərdən qorxmamalıdır.

3. Əxlaqın insan həyatında rolu

Əxlaqın vəzifəsi. *Biz "əxlaq" anlayışı haqqında əvvəlki mövzularda müəyyən məsələlərə aydınlıq gətirmişik. Bəs əxlaqın qarşısında* hansı vəzifələr durur: "Əxlaq" sözünü çox vaxt "mədəniyyət", "mədəni" sözlərilə əvəz etməyə çalışırlar. Lakin mədəniyyət və əxlaq bir-birlərini əvəz edən deyil, əksinə, biri digərini tamamlayan anlayışlardır. Əxlaq insana mədəniyyət qazandırır, mədəni dairəsini genişləndirməklə də insan əxlaqını zənginləşdirmiş olur. Əxlaq həm də insanın həyat anlayışı, yaşayış qaydalarına yiyələnmək dərəcəsini göstərən mənəvi dəyərlər məcmusudur. İnsan insan olduğunu anlamadıqca, insanlığın vəzifə və məsuliyyətini dərk etmədikcə əxlaqa yiyələnə bilməz. Deməli, əxlaqın birinci dərəcəli vəzifəsi insana özünü tanıtmaqdır.

Əxlaq şəxslərdə təşəkkül tapır, sonra isə ailə əxlaqına, cəmiyyət əxlaqına doğru genişlənir. Sonrakı genişlənmədə, yayılmada ümumbəşəri əhəmiyyət qazanır. Əxlaqın milli və ya coğrafi bölgüsü, sərhədi yoxdur. Əxlaqı öz ideyasına, dünyagörüşünə, siyasətinə alət etmək arzusu və istəyi vardır ki, buna artıq əxlaq yox, siyasət demək lazımdır.

Fikrimizi əsaslandırmaq üçün belə bir sadə suala cavab verməyə çalışaq: dünyada hansı xalq, hansı millət valideynə ehtiram, böyüklərə hörmət, kiçiklərə qayğı, xəstə və kimsəsizlərə, əlillərə mərhəmət, dövlətə və onun atributlarına məhəbbət göstərməyi, qohum-əqraba, dost-tanış, qonşu ilə yaxın əlaqə saxlamağı, ədəbli oturub durmağı, danışmağı, yeməyi, içməyi təqdir etmir? Bu keyfiyyətlərdən hər hzansı birini ayrı bir millətə, aid edib digərlərini istisna etmək mümkündürmü? Əlbəttə yox!

Deməli, əxlaqın vəzifəsi Vətənimizi, dövlətimizi canımızdan artıq sevdirməkdir. Biz valideynlərimizi sevirik, onlara ehtiram

göstəririk, qonşumuz, qohumlarımız, dostumuz qarşısında vəzifələrimizi bilirik və onları yerinə yetirməkdən zövq alırıq. Dövlətimizi, onun qanunlarını, atributlarını sevir və hörmət edirik, çünki o bizim dövlətimizdir. Oturanda, duranda, yeyib-içəndə, yatanda belə biz ədəb qaydalarını gözləməyə çalışırıq, çünki tək və nəzarətsiz olmadığımızı bilirik, özümüz qədər başqalarını da düşünməyə, onların rahatlığını pozmamağa çalışırıq.

Əxlaq insanın fəaliyyətinə necə təsir edir? Bizim hər birimizin əxlaqı davranış və hərəkətlərimizlə ölçülür. Yəni deyirlər ki, o çox əxlaqlı oğlandır və ya qızdır. Hər birimiz bu qiymətə nail olmaq üçün hərəkət və davranışlarımıza xüsusi diqqət yetirməliyik. Əgər bu diqqət ölçülü-biçili olsa, əxlaq qaydalarına uyğun gəlsə, onda bizim haqqımızda həmişə yaxşı sözlər deyiləcək, məktəbdə, ailədə, küçədə, dostlar, qohumlar arasında hörmət və etimada layiq görüləcəyik.

Əxlaq insanların fəaliyyəti ilə sıx bağlıdır. Yaxşı tərbiyə görmüş, yüksək əxlaqi keyfiyyətlərə malik insanların fəaliyyəti faydalı olur. Belə insanlar cəmiyyətə və başqalarına fayda verirlər, eyni zamanda özləri də faydalanırlar. Əxlaqlı adam heç vaxt yol verməz ki, onun təqsiri üzündən başqalarına ziyan dəysin. Əxlaqlı adamların gördüyü bütün işlər dəyərli və xeyirxah olur.

Əxlaq tərbiyəsi uşaq yaşlarından başlamalıdır. Insanın tərcümeyi-halı hələ uşaq bağçasında ikən yaranır. Özündə ancaq uşaqlıqdan əxlaqi keyfiyyətlər tərbiyə edən adam alicənab və ləyaqətli şəxsə çevrilə bilər. Düzgün tərbiyə yüksək əxlaqa malik insan yetişdirməyə kömək edir. Yanlış tərbiyə əxlaqi qüsurlara səbəb olur. Sonradan bu qüsurları düzəltmək çox çətin olur. Bir müsəlman əxlaqşünasına görə, Insanlar dünyaya cələndə bərabər olurlar. Lakin ətraf mühitin, tərbiyənin təsirilə bəziləri mərdiməzarlıq, bəziləri isə xeyirxahlıq yolu ilə gedirlər.

Deyirlər bir gənc hər səhər evdən çıxıb işə gedərkən yolda əfi ilanla qarşılaşırmış. İlan dimdik qalxıb, haça dilini çıxarıb oğlanın üstünə atılacaqmış kimi dayanır, oğlan isə qorxudan bir addım da ata bilməyib geri dönürmüş. Nəhayət, oğlan təngə gəlib ilana tərəf yeriyir:

- Öldürəcəksən, vur ölüm, canım qurtarsın, - deyir.

İlan oğlanın qarşısında şərt qoyur:

- Get dilən, mənə bir manat gətir, çəkilib gedim, sənin lə işim olmasın.

Oğlan bir neçə gün küçələri dolaşır, əl açmağa üzü gəlmir, nəhayət, bir tərəfdən aclıq, o biri tərəfdən qorxu onu üstələyir, güclə bir manat dilənib sevinə-sevinə ilana gətirirn. Əlini uzatcaq ilan sıçrayıb onu çalır.

Oğlan fəryad edir, ilanı söyür:

- Namərd! Sən söz vermişdin. Çalacaqdın, o gün çalaydın, daha məni dilənməyə niyə məcbur etdin?

İlan isə ona belə deyir:

- Sənin üzündə həya, abır var idi və o həya sənə yaxınlaşmağıma mane olurdu. Ona görə də səni dilənməyə göndərdim. Bir nəfərə əl açıb dilənməyin o həyanı üzündən sildi.

Bu rəvayət olsa da, onda bir həqiqət vardır. Pis mühitdə alınan tərbiyə insandakı nəcib əxlaqi keyfiyyətləri öldürər, onu əyri yola salar.

Əxlaq və özünütərbiyə. Hər bir adam özünə nəzər salmalı, nöqsanlarını yaxşı görməli, onları aradan qaldırmağı bacarmalıdır. Buna *özünütərbiyə* deyirlər. Bunun üçün isə insanlarda müsbət iradi keyfiyyətlər olmalıdır. Vaxtında görülən, hiss edilən qüsur dərhal aradan qaldırılsa, gələcəkdə daha pis nəticələrlə rastlaşmazsan.

Böyük Nizaminin "Xosrov və Şirin" poemasını yada salaq. Vaxtını eyş-işrətdə, pozğun əyləncələrdə keçirən Xosrov Şirinin vasitəsilə tərbiyə olunur, ədalətli, xoşəxlaqlı olur, ölkənin və xalqın qayğısına qalan müdrik hökmdara çevrilir. İnsanı yenidən tərbiyə etmək mümkündür. Bu, eyni zamanda çox çətindir.

Tələbə əxlaqı və mədəniyyəti dedikdə nəyi başa düşürük? Valideynlərinə, müəllimlərə hörmət etmək, kiçiklərin qayğısma qalmaq, yaşlı adamların qulluğunda durmaq, onlara ehtiramla yanaşmaq. Danışıqda və davranışda nəzakətli olmaq, dostlarla və yoldaşlarla mehribançılıq şəraitində yaşamaq. Dərsləri yaxşı oxumaqla yanaşı, milli dəyərlərimizə hörmətlə yanaşmaq, dövlət rəmzlərimizə sevgi bəsləmək. Vətəni sevmək, onu qorumağa hazır

olmaq. Tənbəl olmamaq, elm və bilik əldə etməyi hər şeydən üstün tutmaq. Bunların siyahısını artırmaq olar. Ancaq siz çalışmalısınız ki, doğulduğunuz ailənin, mənsub olduğunuz nəslin şərəfini qoruyasınız, oxuduğunuz məktəb sizinlə fəxr etsin, Vətənin layiqli övladı olasınız.

Mərifətli olmaq, xeyirxah və gülərüz olmağa çalışmaq — *lütfkarlığın* əsas şərtlərindəndir. Yumşaqlıq və incəlik *mərifətlə* birləşdikdə kənardan baxanların nəzərində *nəzakətlilikdir*. Qədim el məsəllərindən birində deyilir: *"Mərifət – gənclərin imtiyazıdır"*. Mərifətli olmaq ancaq başqasına hörmət etmək deyil, həm də insanın öz ləyaqətinə hörmət hissidir.

Böyük alim və tərbiyəçi A.Bakıxanov üzünü uşaqlara tutub deyirdi:

"Ey mənim əzizim! Sən Insansan. insan dünyada hər şeydən üstün yaranmışdır. Görmürsənmi ki, heyvanlar o qədər bədən və güc ilə insanın əlində əsirdirlər. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında hər kəs çox bilikli və işbilən olsa, həmişə hörmətli olar. Deməli, iş bilmək və yaxşılıq qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir".

4. İnsanın təbiəti: doğruluq, dürüstlük, sadəlik, təvazökarlıq, alicənablıq və mərhəmətlilik

Doğruluq nədir? Doğruluq insan əxläqının çox mühüm əhəmiyyət kəsb edən dəyərlərindən biridir. Bu dəyər insan ləyaqətini ifadə edən keyfiyyətlər içərisində xüsusi yer tutur. Görkəmli mütəfəkkirlər, əxlaq nəzəriyyəçiləri, filosoflar doğruluğun əhəmiyyətini yüksək qiymətləndirmiş, ona dəyərli tərifl ər vermişlər. Azərbaycanın məşhur fikir adamları doğruluğu insan mənəviyyatına xas olan nəcib əxlaqi keyfiyyət kimi qiymətləndirmiş, onu insanın kamilləşməsində başlıca şərt hesab etmişlər.

Doğruluq insanın bütün düşüncə və fəaliyyətində dürüst olması deməkdir. İnsan əxlaqi dəyərlər baxımından düzgün düşünürsə və düşündüyü kimi danışırsa, düşündüyü kimi fəaliyyət göstərirsə, deməli, doğru həyat sürür.

Əxlaqi kamilliyin zirvəsini fəth etmiş böyük Nizami insanları sevdiyi üçün onları doğruçuluğa, düzlüyə çağırır, öz şərəf və ləyaqətlərini bu yolla qorumağa səsləyir:

Nə qədər ki dünyada alıb-verirsən nəfəs,
Sən düzlük qapısını döyməyə göstər həvəs.
Doğruluq yaxşıdır uymayın yada,
Bircə düzlükdədir nicat dünyada.

Doğruluğun əxlaqi köməklik olduğu müqəddəs kitabımız Qurani-Kərimdə də öz əksini tapmışdır: *"Allah doğru olanları sevər", "Siz doğrularla bərabər olun"*. Ata-babalarımız öz ulu deyimlərində doğruluğu yüksək qiymətləndirmişlər: *"Doğruya zaval yoxdur", "Düz söz qılıncdan itidir"*. Görkəmli filosof-tarixçi A.Bakıxanov yazır: *"Adam təşviş və qorxudan həmişə arxayın olar, doğruluğunun məlum olacağı ümidi ilə təsəlli tapar"*. Biz də əcdadlarımızın bu mühüm keyfiyyətini özümüzə həyat şərti qəbul etməli, çox böyük zərərə düşsək belə, yalan danışmamalıyıq.

İctimai mənafe – xalqın, dövlətin mənafeyi xatirinə yalan danışmaq insanın ***əxlaqına*** xələl gətirmir. Oxuduğunuz kitablarda, baxdığımız tamaşa və filmlərdə qəhrəmanlar öz dövlətinin hərbi sirrini verməmək üçün yalan danışır. "Uzaq sahillərdə" filmini yada salın. Əgər Mixaylo faşist zabitinə yalan danışıb, sadə bir fransız rəssamı olduğunu deməsəydi, nə olardı? Bu yalan Mixaylonu bizim nəzərimizdə daha da ucaldır. Çünki biz başa düşürük ki, o, bu yalanı ölümdən qorxduğu üçün deyil, bütün dünyadakı insanlar üçün bəla olan faşizm üzərində qələbəni yaxmlaşdırmaq naminə demişdir.

Özümüz doğru olduğumuz kimi, çalışmalıyıq ki, ətrafımız da doğru insanlardan ibarət olsun. Çünki doğru insanları hamı sevər, bələləri heç kəsə qarşı ədalətsizlik etməzlər. Doğruluğun hökm sürdüyü cəmiyyət də firavan, azad olar. Çünki bu cəmiyyətdə insanlar arasında qarşılıqlı inam, etibar və etimad var. Heç kəs bir-birinə şübhə ilə baxmaz. Bu da cəmiyyətdə birliyə, bərabərliyə gətirib çıxarar.

Dürüstlük nədir? Düşüncədə başlayan doğruluq davranışlarda özünü göstərir ki, buna da *dürüstlük* deyilir. Dürüst insanın sözü həmişə əməli ilə üst-üstə düşür, bir-birini təsdiq edir.

Dürüst adam əmindir ki, heç kəs onu yalançılıqda, saxtakarlıqda ittiham edə bilməz. Hamı ona inanır, etibar edir. Tez-tez bu sözü eşidirik: *"Filankəs çox dürüst adamdır"*. Burada vaxta dürüstlük, sözə dürüstlük, işə dürüstlük və s. başa düşülür. Əgər kiminləsə görüşməyə vədə vermisənsə, onda vəd etdiyin vaxtda görüşə get. Kimsəyə nə isə verməyi boyun olmusansa, vədinə əməl et. Sənə tapşırılmış işi dəqiq və vaxtmda yerinə yetirsən, işinə verilən qiymət də dürüst olar.

Yalan və saxtakarlıq. Doğruluğun əksi yalandır. ***Doğru*** *bildiyini əksinə söyləməyə, yaxud olmayan işi* ***olan*** *kimi qələmə verməyə yalan deyilir.* Yalan ruhi xəstəlikdir. Ondan bir çox pisliklər törəyər. İnsanlar arasında nifaq səpər, onları bir-birinə düşmən edər.

Yalan da bir vərdişdir. Bu pis və zərərli adət uşaqlıqdan yaransa, əgər qarşısı alınmasa, dönüb sağalmaz xəstəliyə çevrilər. Siz yəqin fikir vermisiniz ki, kimlər yalançıdırlar. Belələri adətən zəhmətdən qaçır, vaxtmı boş-boşuna keçirir, necə deyərlər, "başını yalanla girləyir". Yalan, qorxaqlıqdan, tamahkarlıqdan, tənbəllikdən, yaltaqlıqdan başlayır və insanı səhv yola çəkir.

Yalançı adamlar əvvəlcə kimləri isə aldatmağa nail olurlar. Ən çox da onların toruna sadəlövh adamlar düşürlər. Zaman keçdikcə yalançının iç üzü açılır, o, cəmiyyətdə ifşa olunur. Yəqin ki, yalançı çobanın nağılı yadınızdadır. Ona görə də haqlı deyiblər ki, *"Yalançının evi yandı, heç kəs inanmadı"*.

Yalan çox təhlükəli xəstəlikdir. Ondan digər bəlalar, fəsadlar törəyir. Yalançı adam saxtakarlığa, hiyləgərliyə, böhtana, iftiraya yönəlir. Bu xəstəliklər insanı məhv edir, cəmiyyət üçün böyük fəlakətlərə gətirib çıxarır.

Əlbəttə, yalançı adam çalışır ki, yalanının üstü açılmasın. Bu mümkün olmadıqda isə daha pis *xəstəliyə - hiyləgərlik* və *saxtakarlığa* yoluxur. Hiyləgər isə daha təhlükəli düşməndir. O, başqalarını aldadıb həm maddi, həm də mənəvi zərər vurur. Amma

atalarımız yaxşı deyib: *"Gen qaz, dərin qaz, axırda özün düşəcəksən"*. Belələrinin aqibəti çox vaxt faciəli olur, necə deyərlər, öz qurduqları tələyə düşüb məhv olurlar.

Saxtakarlıq yalanın ifrat formalarındandır. Yalançı adam öz yalanının üstünün açılmaması üçün doğrunu saxtalaşdırır. Ermənistan öz işğalçılıq, təcavüzkarlıq hərəkətlərinə haqq qazandırmaq üçün yalanlar uydurur. Bu yalanların üstünün açılmaması üçün tarixi saxtalaşdıraraq Vətənimizə qarşı əsassız ərazi iddialarmı "əsaslandırır". Hələ keçən əsrin 20-ci illərində yalan və saxtakarlıq üzərində "Sovet İttifaqı" adlanan bir dövlət qurulmuşdu. Bu dövləti quran Lenin və onun silahdaşları xalqı aldatmaq üçün olmazın yalanlar uydururdular. Az sonra Sovet İttifaqının əsl mahiyyəti aşkar olduqda, onlar saxtakarlığa əl atdılar. Xalqımızm tarixi, dilimiz, mənəviyyatımız saxtalaşdırıldı.

İftira yalanın ən qorxulu təzahürüdür. Bu yalan və saxtakarlığın üstünün açılmaması üçün yalanın ən qorxulu təzahürü olan *iftira və böhtan* maşını işə salındı. Yüz minlərlə düşünən beyin bu iftiranın qurbanı oldu. İş o yerə gəlib çatdı ki, hamı bir-birindən qorxmağa, şübhələnməyə başladı. Yalanın, saxtakarlığın hökm sürdüyü Sovet İttifaqı çox yaşaya bilmədi və əsrin sonlarında tarixin zibilliyinə atıldı.

Nəyə görə iftiradan söz düşəndə bütün Insanlar diksinir və ehtiyatlı olmağa çalışırlar? Çünki iftira Insanın şərəf və ləyaqəti ilə oynamaqdır. İftiraya məruz qalan şəxs kollektivdə və ailədə, dostlar arasında nüfuzdan düşür, nahaq yerdən pis adla tanınır. Ona görə də iftira ən mənfi əxlaqi keyfiyyət olub, Insana qarşı böyük bir haqsızlıq, zülm sayılır.

İftiranın təhlükəliliyi onun geniş yayılmasıdır. Çünki onun doğru olub-olmadığını anlamaq çətinləşir. Qeybətcil adamlar isə iftiranı daha da genişləndirir, ətrafa yayırlar. Neçə-neçə namuslu adamlar belə iftiraların qurbanı olurlar. Böhtançı isə bu əməlindən həzz alır, özünün yeni qurbanını hədəfə alır.

Ədalətsiz cəmiyyətdə və dövlətdə yalan, saxtakarlıq və iftira tez kök atır, insanların həyatını, mənəviyyatını korlayır. Belə dövlətin və cəmiyyətin dünyada heç bir hörməti olmur, etibardan

düşür. Tarixin sərt dönüşlərindən birində isə tamamilə məhv olur. Çünki atalar yaxşı deyiblər: *"Yalan ayaq tutar, ancaq yeriməz"*. Siz də çalışın doğrucul və dürüst, yalandan, saxtakarlıqdan, iftiradan uzaq olun. Dilinizə yalan söz gətirməyin, hər cür iftira və saxtakarlığı qəlbinizə yaxın buraxmayın.

Sadəlik və təvazökarliq

Sadəlik və təvazökarlıq nədir? Təvazökarlıq – başqalarına xoş münasibət bəsləmək, onlara xor baxmamaq, heç kəsi təhqir etməmək, özünü başqalarından üstün tutmamaq deməkdir. Bəzən birisi haqqında deyirik: "Filankəs yaman iddialıdır", "Özünü yaman dartır", yaxud "Mənəm-mənəm deyir" və s. Belə adamlar təvazökar və sadə ola bilməzlər, çünki onlar özünüçəkən, iddialı, mənəm-mənəmlik azarına tutulanlardır.

Sadə və təvazökar adamlar heç vaxt lovğalanmırlar.

Ata-babalarımızın yüksək əxlaqi keyfiyyətlərindən biri də *sadəlik* və *təvazökarlıqdır.* Insanın mövqeyi nə qədər yüksək olsa da, o, adi insan olduğunu heç vaxt unutmamalıdır. Burada Həzrəti Əlinin təvazökarlıq haqqında bir kəlamı yada düşür: *"Özüm də insan olduğum üçün heç kəsi özümdən kiçik görmək istəmirəm"*.

"Kitabi-Dədə Qorqud" dastanında göstərilir ki, oğuzlar olduqca təvazökar olmuşlar. Onlar heç vaxt özlərindən kiçiklə təkəbbürlə rəftar etməz, taytuşları arasında sadə dolanar, hünərləri ilə lovğalanmaz, ağsaqqallar qarşısında ədəb-ərkan və təvazökarlıq göstərərdilər.

İnsan özündə olan və başqalarında olmayan nəsə başqa fərqli şeylə heç vaxt qürur hissi keçirməməlidir. Bu keyfiyyətləri daha da möhkəmləndirmək və başqaları tərəfindən rəğbətləndirilmək üçün yalnız təvazökar və sadə olmaq lazımdır.

Sadə və təvazökar insan davranış və hərəkətlərini ölçüb-biçməyi bacarır, təmkinli hərəkət edir, özünü başqalarından üstün tutmur. Təvazökar insan heç vaxt şöhrət düşkünü olmaz, özünü öyməkdən, lovğalıqdan, ədəbazlıqdan azad olar. Belə olduqda ətrafındakılar onun əsl dəyərinin hünərində və əxlaqında olduğunu dərk edərlər.

Namuslu tacir heç də bazarda hay-küy salıb öz malını tərifləməz. Belələri xarab mal satmağa, halalı harama qarışdırmağa adət etmiş saxtakar alverçilərdir. Bax, özlərindən deyənlər, onlarda olmayan keyfiyyətlərə malik olduqlarmı iddia edənlər belə saxta alverçilərə bənzəyirlər. Təvazökar insanlar isə necə sərvətə malik olduqlarını bildiklərindən onu səylə qoruyurlar. Təvazökar insan dolu sünbüllü taxılı xatırladır. Onun məhsulu bol olduqca başını aşağı dikdiyi kimi, təvazökar insanlar da həmişə başıaşağı olurlar.

Təvazökar insan həmişə özündə, rəftar və hərəkətlərində nöqsan axtarır, əgər varsa onu düzəltməyə çalışır. Ona görə də belə insanın başqalarında qüsur tapmağa, necə deyərlər, "hər şeyə bir qulp qoymağa" vaxtı yoxdur.

Görkəmli alim Nəsirəddin Tusi özündənrazı olanlara həmişə belə bir rəvayəti xatırladırdı:

Birisi özündənrazı, qürurlu olana belə deyirmiş:

- Əgər mindiyin ata görə qürurlanırsansa, bu keyfiyyətlər sənə deyil, ata aiddir. Əgər geydiyin paltarlara görə qürurlanırsansa, o da onu tikən dərzinin məharətini göstərir, sənin yox. Əgər belindəki qılınca qürurlanırsansa, yenə də bunda sənin bir əməyin yoxdur. Sənə qalan bir tək canındır ki, o da sənin deyildir. Heç bu barədə düşünürsənmi?

Abbasqulu ağa Bakıxanov təvazökarlığa yüksək qiymət verirdi. O, göstərirdi ki, insan öz nöqsanını bildikdə qürur və təkəbbürdən əl çəkər və bu zaman başqasının eyib və nöqsanları onun nəzərində boyük görünməz. Bu səbəbdən də sadəliyi artar, lovğalığı azalar.

Böyük mütəfəkkir eyni zamanda xəbərdarlıq edirdi ki, həddindən artıq sadəlik acizliyə, təvazökarlıq isə alçalmağa gətirib çıxara bilər. Yəni sən başqaları qarşısında o dərəcədə təvazökarlıq edərsən ki, o bundan sənə qarşı alçaldıcı hərəkətlərə yol vermək üçün istifadə etmiş olar. Insan sadə və təvazökar olmaqla yanaşı, öz şəxsiyyətini də qorumalıdır.

Mehribanlıq insan əxlaqının keyfiyyətlərindən biri kimi. Təvazökar və sadə Insana xas olan əxlaqi keyfiyyətlərdən biri də ***mehribanlıqdır.*** Mehribanlıq Insanlar arasındakı münasibətləri

qaydaya salır. ***Mehribanlıq*** – insanın əxlaqlılığını büruzə verən müsbət və yüksək keyfiyyətlərdən biri olmaqla insanın digər insanlara, bütün canlılara və onu əhatə edən nə varsa, hamısına qarşı qayğı və hörmətini, sevgisini və dəyər verdiyini göstərir.

Mehribanlıq cəmiyyətin bütün sahələrində - ailədə, kollektivdə, məktəbdə, müəssisə və idarələrdə, küçədə, istirahət yerlərində zəruridir. Mehriban insanlar bir-biri ilə səmimi rəftar edir, bir-birlərinin problemlərilə maraqlanır və qarşılıqlı kömək edirlər.

Mehribanlıq olmayan yerdə din-bərəkət olmaz. Götürək ailə münasibətlərini. Əgər ailə üzvləri bir-birinə qarşı mehriban deyillərsə, belə ailədə xoşbəxtlik və səadət ola bilməz.

Ata ağır işdən sonra evə gəldikdə həyat yoldaşının xoş və səmimi siması, uşaqlarının mehribanlığı ilə qarşılaşırsa, bütün yorğunluğu canından çrxmnş olur. Kimi onun paltosunu götürür, kimi ayaqqabılarını çıxarmağa çalışır. Şam yeməyindən sonra bütün ailə çay süfrəsi başına toplaşır. Ata işdə baş vermiş yeniliklərdən danışır. Ana uşaqların dərslərinə hazırlığı haqqında, uşaqlar məktəb həyatı ilə bağlı məlumatlar verirlər. Sonra isə babadan xahiş edirlər ki, Qərbi Azərbaycanda (indiki Ermənistanda) qoyub gəlməyə məcbur olduqları yurd yerləri haqqında danışsın. Babanın titrək, mülayim səsi onlarda o yerlərin həsrəti ilə bağlı kədər hissi yaradır, doğma torpağa nə vaxtsa qayıtmaq arzusunu gücləndirir. Lakin bu kədər ailə mehribançılığa mane ola biləcək bir kədər deyil, mənəviyyatı zənginləşdirən, onları daha da yaxınlaşdırıb mehriban edən bir kədərdir.

Mehribanlıq və təvazökarlıq bir-birləri ilə sıx əlaqədədirlər. Ürəyində mehribanlıq hissi olmayan, başqalarına sevgi bəsləməyən, səadət duyğularından məhrum olan insanı heç vaxt təvazökar insan hesab etmək olmaz. Çünki mehribanlıq özü də təvazökarlıq doğurur.

Mehribanlıq təkcə insanın başqa insana olan münasibəti ilə məhdudlaşmır. Belə insanlar heyvanlara, quşlara, bitki və ağaclara qarşı həssasdırlar, onlara eyni mehribanlıqla yanışırlar.

Qəlbində kin-küdurət olan, başqasının problemləri ilə maraqlanmayan, özündən başqa kimsəni saymayan insanlar süni məhəbbət göstərsələr də, bu axıradək davam etmir, onların saxtakarlığı aşkar olunur.

Yaxşı adamla pis adamın, ədalətli ilə zülmkarın arasında məhəbbət əlaqəsi ola bilməz. Habelə insaflı ilə insafsızın dostluğu baş tutmaz.

Mehribanlıq elə bir əxlaqi keyfiyyətdir ki, o Insanı mənəvi cəhətdən ucaldır, başqalarına sevdirir və hörmət qazandırır.

Alicənablıq və mərhəmətlilik

Alicənablıq nədir? Bəzən insanların daha yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olan hissəsini digərlərindən fərqləndirmək üçün *"alicənab"* ifadəsini də işlədirik. Bəs alicənablıq nədir? Alicənab insan hər şeydən əvvəl, mənəvi, o cümlədən əxlaqi cəhətdən olduqca saf bir insandır. Onun zahiri görünüşü ilə daxili aləmi bir vəhdət təşkil edir. Alicənab insan geyimində, üst-başının səliqə-sahmanında və başqalarına münasibətdə yüksək tələbkarlıqda, mərhəmətlilik və təvazökarlıqda, cəsarət və qürurda başqalarından kəskin surətdə fərqlənir. Belə adamlar haqqmda adətən belə deyirlər: ***"Filankəs çox alicənab insandır".*** Belə insanların əsas amalını yaxşılıq, xeyirxahlıq təşkil edir. Onlar başqalarma yaxşılıq, xeyirxahlıq edərkən heç vaxt mükafat gözləmirlər.

Bütün insanların ən şərafətlisi olan Məhəmməd peyğəmbər (s.ə.s.) alicənablığın böyük timsalı idi. Onun həyat yoldaşının bildirdiyi kimi, peyğəmbərin əxlaqı ən böyük əxlaq – Quran əxlaqı idi. Başqa sözlə:

- Onun mənəvi və xarici gözəlliyi indiyədək gəlib getmiş Insanların heç birində görünmədi.
- Onun təmizliyi və gözəlliyi üzündən bəlli olurdu.
- Gülərüzlü idi. Onu bir dəfə görənlər bir daha hüzurundan ayrılmaq istəməzdilər.

- Hər halı təmkinli, vüqarlı və düşüncəli idi. Saxta, gözə çarpdırılan işdən xoşlanmazdı.

- Onun söhbətindən doymaq olmazdı. Sözlərində açıqlığa və sadəliyə, işlərində səmimiliyə çalışardı. Dünya işlərində və bir çox məsələlərdə ətrafındakı Insanlarla məsləhətləşərdi. Insanlara dəyər verər və özünü onlardan üstün tutmazdı.

- Comərdlik timsalı idi. Kasıblıqdan qorxmadan əlində olanı ehtiyacı olanlara paylayardı.

- Hər kəslə gözəl rəftar edərdi. İnsanlar arasındakı münasibətlərə bir asanlıq gətirmək, onu yoluna qoymaq uğrunda çalışardı.

Göründüyü kimi, alicənablıq özündə insansevərliyi, qayğıkeşliyi, mərhəmətliliyi, başqalarının problemlərinə öz problemi kimi yanaşmağı, söz, hərəkət və davranışlarında ölçülü-biçili hərəkət etmək, qorxmazlıq və cəsurluq kimi keyfiyyətləri birləşdirir.

Hacı Zeynalabdin Tağıyev də alicənab insan idi, ona görə ki, onda insana olan münasibət ağıl və zəka ilə birləşmişdi. Şəxsi ləyaqəti ilə Hacı hamının nəzərində yüksəlmişdi. O dövrün qəzetlərindən biri belə yazırdı: "Tağıyev bütün Qafqaz müsəlmanlarının fəxridir. Müsəlmanlar arasında Tağıyevdən başqa xeyli varlı müsəlmanlar da vardır. Lakin onlar deyil, məhz Tağıyev Qafqaz müsəlmanlarının mərkəz dayağı oldu. Şübhəsiz, onda elə bir cəhət vardır ki, xalq kütləsini özünə tərəf çəkə bilir, öz ləyaqəti ilə onları zəbt edə bilirdi. Bu cəhət alicənablıq idi".

Mərhəmət anlayışı. Mərhəmətlilik. Bütün insanlar eyni cür deyillər. Sağlam, gümrah, zəngin, yaxşı yaşayan Insanlar olduğu kimi, xəstə, zəif, kasıb, pis yaşayan insanlar da vardır. Onların sırasına valideyn himayəsindən məhrum olmuş uşaqları, kimsəsiz qocaları, əlilləri, şikəstləri, qaçqın və məcburi köçkünləri də əlavə etsək, onda yardıma, qayğıya möhtac insanların sayının nə qədər çox olduğunu görərik. Belə insanlara qayğı göstərmək, maddi və mənəvi yardımlar etmək, onlara baş çəkmək, xoş ünsiyyətdə olmaq *mərhəmət* deməkdir. Mərhəmətli insan dedikdə, biz həm səxavətli, həm də ürəyiyumşaq insanı nəzərdə tuturuq.

Yəqin ki, siz C.Məmmədquluzadənin "İki alma" hekayəsini oxumusunuz. Bu kiçik hekayədə yazıçı qəlbisınıqların könlünü almağı, maddi yardıma ehtiyacı olan Insanlara köməklik göstərməyi insanlıq borcu hesab edir.

Sizin ətrafınızda yəqin ki, tənha qocalar, fiziki cəhətdən zəif, şikəst adamlar yox deyildir. Əgər tez-tez onlara baş çəksəniz, tutaq ki, evi səliqəyə salmaqda, aptekdən dərman almaqda, bazarlıq etməkdə onlara köməklik göstərsəniz, onda xeyirxah iş görməklə yanaşı, mərhəmət də etmiş olursunuz.

Əgər hər kəs ona məxsus olan şeyin üstə əssə, kimsə başqasına yardım, qayğı göstərməsə, həyatın ləzzəti, mənası olarmı? Əgər güclü zəifə, gözü olan kora, tox olan aca yardım etməyəcəksə, o zaman bizə Insan deməyin bir mənası vardırmı?

Mərhəmətli olmaq heç də təkcə yardım etmək, əl tutmaq kimi başa düşülmür. Mərhəmətli olmaq başqalarmı incitməmək, səhv hərəkətlərinə görə ağır cəza verməmək, sınıq, kədərli könülləri ovundurmaq, xəstələrə ürək-dirək vermək, şəfa diləmək, başqasının dərdinə şərik olmaq və s. kimi keyfiyyətlər də tələb edir.

Təkcə insanların deyil, bitkilərin, heyvanların və quşların da mərhəmətə ehtiyacı vardır. Quşlar üçün yuva tikmək, onlara dən tökmək, heyvanları incitməmək, onları qidalandırmaq, bitkilərə qayğı göstərmək, onları alaq otlarından təmizləmək, sulamaq qayğı ilə yanaşı, mərhəmətli olmaqdan da xəbər verir.

Ata-babalarımız həmişə mərhəmətli olublar. Onlar kasıblara yardım göstərməyi, kimsəsizləri, yetimləri himayə etməyi özlərinin mənəvi borcu hesab ediblər. *"Əl tutmaq Əlidən qalıb"* deyiblər.

Mərhəmətlilik anlayışına təkcə yardım etməyin daxil olmadığını qeyd etmişik. Bu sözün sinonimi kimi çox vaxt *rəhmdillik* ifadəsi də işlədirik. N.Tusi rəhmdilliyə belə tərif verir: *"Rəhmdillik ona deyilir ki, dünyadakı xeyir işlərdə vətəndaşlarına, qohum-qardaşlarına, dost-aşnalarına əl tutasan"*.

Mərhəmət anlayışına hətta düşmənlə rəftarda da mərhəmətli olmaq daxildir. Bu, xüsusilə müharibələr zamanı zoruridir. Qarabağ müharibəsini götürək. Erməni faşistlərinin işğalına məruz qalan ərazilərin əhalisi düşməndən mərhəmət gözləyə bilməzdi. Onlar

heç kimə - qadına, uşağa, qocaya mərhəmət etmir, onları amansız işgəncələrlə qətlə yetirirdilər. Halbuki beynəlxalq qanunlarda müharibə qurbanlarının bu kateqoriyası ilə, eləcə də yaralanmış, şikəst olmuş hərbçilərlə mərhəmətli davranmaq öz əksini tapmışdır. Deməli, mənəviyyatı olmayan bu cəlladlar beynəlxalq qanunlarla da hesablaşmamışdılar. Kiçik yaşlı azərbaycanlı uşağın qolundan oynaq sümüyünü çıxarıb, xəstə erməni uşağına köçürən və bununla da azərbaycanlı körpəni şikəst edən erməni həkimini mərhəmətli peşə sahibi adlandırmaq olarmı? 70-dən çox yetim uşağı məhz azərbaycanlı olduğu üçün diri-diri qaz borusuna salıb ağzını qaynaqlayan separatçı ermənilər minlərlə insanı krematorilərdə diri-diri yandıran faşistlərdən nə ilə fərqlənirlər?

Qarabağ müharibəsindən bəhs edən “Fəryad" filmini yada salaq. Ermənilərə əsir düşmüş azərbaycanlı döyüşçünün od tutub yanan evi söndürərək kiçik yaşlı erməni uşağını xilas etməsi bu cəlladları heyrətə gətirir. Onlar başa düşmürlər ki, azərbaycanlı hərbi əsir İsmayılı bu işə sövq edən onun mənsub olduğu xalqdakı mərhəmət, nəciblik hissidir. Azərbaycan xalqının böyüklüyü ondadır ki, ən çətin, ən dözülməz vəziyyətlərdə belə bu hisslərini, bu nəcib duyğularnı itirmir.

IV FƏSIL
SIYASƏT, ONUN ICRAÇILARI VƏ YARADICILARI

1. Siyasi hakimiyyət anlayışı, hakimiyyət bölgüsü, hakimiyyət və onun formaları, siyasi rejimlər, hakimiyyətin legitimliyi

Hakimiyyət bir insanın qrupunun müxtəlif vasitələrlə (hüquq, nüfuz, iradə, məcburiyyət) başqalarının davranış və fəaliyyətlərinə həledici təsir göstərmək hüququ və bacarığıdır.

Belə ki, hakimiyyət:

1) başqalarına təsir göstərməkdir; 2) müəyyən məqsədlərə, nəticələrə nail olmaqdır; 3) güc də daxil olmaqla mümkün vasitələrdən istifadə etməkdir; 4) başqalarının davranışını dəyişən və nizamlayan xüsusi tip fəaliyyətdir; 5) idarə edən və idarə olunan arasında münasibətlərin xüsusi növüdür və s.

Elmi ədəbiyyatlarda hakimiyyətin dörd növü var: sinfi hakimiyyət, zümrə hakimiyyəti, qrup hakimiyyəti, fərdi hakimiyyət. Mahiyyətinə görə isə hakimiyyət – ailə, ruhani, iqtisadi, siyasi, informasiya və s. hakimiyyətlər kimi xarakterizə olunur.

Məntiq qanunlarına əsaslansaq deyə bilərik ki, cəmiyyət olan yerdə hakimiyyət olur. Eyni zamanda, hakimiyyət tabeçilik olan yerdə meydana gəlir. Tabeçilik olmayan yerdə hakimiyyət yoxdur. Tabeçilik anlayışı isə bir sıra mənalar verir: məcburi, könüllü, şüurlu, fanatik tabeçilik və s.

Siyasət hakimiyyətə, insan haqlarına və azadlıqlarına, ideyalara, dəyərlərə hər hansı bir münasibətə, siyasi hakimiyyət isə onun daşıyıcılarına və subyektlərinə diqqəti cəlb edir.

Siyasi hakimiyyət – sinfin, qrupun, fərdin siyasətlə, siyasi, hüquqi normalarla öz iradəsini həyata keçirmə vasitəsidir.

Dövlət hakimiyyəti – xüsusi məcburiyyət aparatına söykənən və cəmiyyətin bütün vətəndaşlarına yayılan ictimai hakimiyyət formasıdır. Siyasi hakimiyyətsiz dövlət hakimiyyəti olmur. Dövlət

hakimiyyətini, aparatını yaradan, onu idarə edən, istiqamətləndirən siyasi hakimiyyətdir.

Hakimiyyət bölgüsü

Dövlət və hüquq tarixi elmindən məlumdur ki, hakimiyyətin bölgüsü ideyası nəzəriyyə şəklində XVII əsrdə formalaşdı. Bu problem C.Lokkun ictimai müqaviləsində, "qanunverici hakimiyyət alidir, qalanları isə cəmiyyətin hansısa üzvlərinin şəxsində bu hakimiyyətdən yaranmalı və ona tabe olmalıdır" şəklində ifadə olunur. Bu ideyanı Ş.Monteskyö bir qədər də təkmilləşdirərək, hakimiyyət qanadlarının bir siyasi orqanda birləşməsinin azadlıq üçün təhlükəli olduğunu və belə vəziyyətin hakimiyyətdən sui-istifadəyə gətirib çıxardığını göstərdi. Ş.Monteskyö bildirirdi ki, hakimiyyət qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməli və biri digərinə nəzarət etməlidir.

Müasir, demokratik hüquqi dövlətdə hakimiyyətin üç qanadı bir-birindən asılı olmadan fəaliyyət göstərməli, aralarında qarşılıqlı tarazlıq bərqərar olmalı, tərəflərdən hansınınsa monopoliyasına imkan verilməməlidir.

Konstitusiyaya görə Azərbaycan Respublikasında hakimiyyət bölgüsü aşağıdakı qaydada təsbit olunmuşdur:

İcra hakimiyyəti

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur (fəsil-6, maddə-99). Azərbaycan Respublkiasının Prezidenti icra səlahiyyətlərinin təşkili məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır (maddə-114). Azərbaycan Pespublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır (maddə-114, bənd-2).

Qanunverici hakimiyyət

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir (fəsil-5, maddə-81)

Məhkəmə hakimiyyəti

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər (fəsil-7, maddə-125).

Yerli özünüidarəetmə

Yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir (fəsil-9, maddə-142).

Bələdiyyələr seçkilər əsasında yaradılır. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir. Con dövrlərdə bələdiyyələrin səlahiyyətləri xeyli ğenişləndirilib.

Dördüncü hakimiyyət adlandırılan media hakimiyyəti, bütün yuxarıda təsbit olunan hakimiyyət qanadları üzərində ictimai nəzarəti təmin edir.

Hakimiyyət və onun formaları

Hakimiyyətlərin əlamətləri bunlardır:

1) idarəedən qrupun və ya liderin seçilmə prosedurlarına, dövlət orqanlarının fəaliyyət qabiliyyətinə görə; 2) hakimiyyətin real bölüşdürülməsinə görə; 3) hakimiyyət bölgüsünə əməl olunub-olunmamasına, siyasi hakimiyyətinə kimin və necə nəzarət etməsinə görə; 4) siyasi hakimiyyətin tətbiqi metodlarına görə (icazəli, yoxsa yasaqlı; inandıran, yoxsa məcbur edən); 5) siyasi iştiraka əhalinin münasibətinə, bu münasibətin formalarına görə (aktiv, yoxsa passiv; mütəşəkkil yoxsa stixiyalı); 6) cəmiyyətdə hüquq və azadlıqların durumuna görə; 7) sosial və siyasi münaqişələrin həlli üsullarına görə; 8) siyasi mədəniyyətin siyasi proseslərə təsir gücünə görə; 9) cəmiyyətdə siyasi partiyaların mövcudluğuna, onların dövlətlə münasibətlərinin məzmun və xarakterinə, eləcə də müxalifətin statusuna görə; 10) ordunun cəmiyyətdə status və roluna görə; 11) mətbuatın hüquqi və siyasi statusuna görə müəyyənləşir.

Siyasi rejimlərin növlərnə görə təsnifatı:

A) Totalitar siyasi rejim

Totalitar rejimlər, inqilablar, hərbi çevrilişlər, cəmiyyətdaxili kəskin qarşıdurmalar, siyasi hakimiyyət böhranları, xarici təsirlər və təcavüzlər əsasında yaranır.

Belə rejimlərdə insanların şüuruna "biz və onlar", "doğma və yad", "dost və düşmən", "ağ və qırmızı", "bizimlə olmayan bizə düşməndir", "təslim olmayanı məhv etməli", "İnsan yoxdursa, problem də yoxdur" düşüncələri hakim kəsilir, toplum "parlaq gələcək", "ən yaxşı ölkə" və s. yalançı vədlərlə insanlar aldadılır.

Totalitarizmin meydana gəlməsinə sənaye kapitalizminin inkişaf motiv yaradıb.

B) Avtoritar siyasi rejim

Avtoritarizm totalitarizmlə demokratiya arasında keçid rolunu oynayır. Ona bəzən totalitarizmin «yüngül» forması kimi də baxılır. Belə rejimlər siyasi hakimiyyətin tək əldə cəmləşdirildiyi, başqa institutların rolunun azaldıldığı, siyasi müxalifətin sıxışdırıldığı üsul idarədir. Cəmiyyətin siyasi sferadan kənar muxtariyyati saxlanır. Rejimin əsas xarakterik cizgiləri aşağıdakılardır:

- hakimiyyət bir şəxsin və yaxud qrupun əlində cəmləşir;
- hakimiyyətin bölüşdürülməsi prinsipinə etinasız yanaşılır;
- əsas təsir imkanları dövlətin əlində cəmləşdirilir;
- böyük repressiya apparatı olmur;
- fərdin və toplumun siyasi fəaliyyəti ciddi şəkildə reqlamentləşdirilir, məhdudlaşdırılır;
- vətəndaşlara dövlətin yasaq etmədikləri qaydalara uyğun davranmağa icazə verilmir;
- demokratiyanın bəzi elementləri saxlanılır (seçki, parlament uğrunda mübarizə, kütləvi aksiyalara məhdudiyyət qoyulmaqla icazə və s.);
- media nisbətən azaddır, ancaq senzura dövlətin sosial institutu kimi saxlanıla da bilər;
- vətəndaş davranışının tipik forması konformizmdir, siyasi mühitə biganəlik, bir sıra hallarda isə ikrah formalaşır;
- siyasi elita elektorat tərəfindən deyil, «yuxarı» tərəfindən, onun iradəsinə uyğun formalaşdırılır.

1991-cı il dekabrın 8-dən sonar totalitarizmin ən böyük gəmisi olan SSRİ çökdü.

C) Demokratik siyasi rejim

Demokratik cəmiyyətdə xalq olan hakimiyyəti xalq formalaşdırır. Belə rejimlərdə insan geniş hüquq və azadlıqlara sahibdir, dövlət və cəmiyyət işlərində aktiv iştirak edirlər.

Demokratik rejim insanların ardıcıl maariflənməsini, onların mədəni səviyyəsnin, siyasi şüurunun və siyasi mədəniyyətinin inkişafını, cəmiyyətdə birgəyaşayış normaları ilə bağlı mütərəqqi qaydalara və vərdişlərə yiyələnməsini zəruri edir.

Demokratik insanın düsturu belədir:

1) polifonik təfəkkür tərzinə malik olan; 2) tolerant; 3)kompromisə və konsessusa meylli; 4) konstruktiv və qurucu; 5) öz yolunu dəqiq müəyyənləşdirən; 6) özünütəsdiqə tələbat hiss edən insan.

Hakimiyyətin legitimliyi

Legitimlik latınca "legis" sözündən götürülüb, "qanun" deməkdir. Legitimlik – hər hansı bir hərəkətin, şəxsin, hadisə və faktın, hakimiyyətin ictimaiyyət tərəfindən tanınması, qəbul edilməsi prosedurudur; siyasətdə legitimlik hakimiyyətin tanınmasıdır. Legitimlik hakimiyyəti təsdiqləyir, siyasi qərarları, siyasi strukturların yaranmasını, dəyişməsini, yeniləşməsini izah və müdafiə edir. Legitimlik razılaşmanı, bu razılaşmaya əməl etməyi, məcburiyyətsiz siyasi iştirakı müəyyənləşdirir, əgər bu alınmırsa mənsub olduğu gücə və digər vasitələrdən istifadəyə bəraət qazandırır.

Legitimliyin tipləri:

1. Ənənəvi cəmiyyətin normalarına əsaslanan irsi hakimiyyət tipi. Buna missal olaraq, İspaniya, Norveç, Böyük Britaniya, Yaponiya, Səudiyyə Ərəbistanı.

2. Şaxələnmiş bürokratik aparata malik legitimlik. Monarxın mütləq hakimiyyətinin məhdudlaşdırılmasından başlayır, seçkili orqanların nümunəsində ona qarşı yaradılır və fəaliyyət göstərir.

3. Xarizmalı legitimlik. Xarizma yünanca «allah vergisi» deməkdir. Bu cür rejimlər bir şəxsin harizması, yəni istedadı, gücü, qüdrəti və rəhmdilliyi əsasında qurulur.

4. Xalq hakimiyyətinin bütün mərkəzi orqanlarının seçilməsi ilə formalaşan liberal-demokratik, yeni konstitusion legitimlik. M.Veber belə hakimiyyətləri rasional-hüquqi legitim hakimiyyətlər adlandırır.

5. Etnik legitimlik. Keçmiş SSRİ bu idarəçilik tipinin nümunəsi idi.

2. Siyasi lider və liderlik, siyasi partiyalar

Sosioloji ədəbiyyatlarda lider (aparıcı) başqasına təsir göstərmək, müştərək fəaliyyəti təşkil etmək qabiliyyətinə malik olan və toplum maraqlarını istiqamətləndirməyi bacaran şəxs hesab olunur. Elmdə liderliyə 350-dən çox tərif verilib. Liderlik nüfuz, hakimiyyət və başqaları üzərində nəzarət demək olsa da, istənilən təsir və ya nüfuz liderliyi təmin etmir. Nüfuz və təsirə sahibi olmaq üçün lider, ən azı üç xüsusiyyətə malik olmalıdır. Birinci, təsir ardıcıl və daimi olmalıdır. Birdəfəlik təsir göstərən adam, təkcə bu əlamətə görə lider hesab oluna bilməz. İkinci, liderin rəhbərlik təsiri bütün qrupa, təşkilata, cəmiyyətə sirayət etməlidir. Siyasi liderliyin mühüm xüsusiyyəti onun təsirinin irimiqyaslı və əhatəli olması ilə bağlıdır. Üçüncüsü, siyasi lider nüfuz üstünlüyü ilə fərqlənməlidir.

Siyasi liderliyin təbiəti

1950-ci illərdə Amerika psixoloqu K.Bird belə keyfiyyətlərin 79-nun siyahısını tutdu. Onun təsnifatında təşəbbüskarlıq, yumor hissi, özünə inam, dostluq, həmkarlıq və s. xüsusiyyətlər mühüm yer tuturdu. Siyasi lider təşkilatın, qrupun, cəmiyyətin ən nüfuzlu üzvüdür. O, siyasi proseslərə və situasiyalara xüsusi təsir göstərmək qabiliyyətinə malikdir.

Siyasi liderliyin mahiyyətində Insanın psixoloji təbiəti də dayanır. Bəzən insanda ayrı-ayrı natamamlıq kompleksləri özünü büruzə verir və fərd bu kompleksləri, başqa sözlə zəif cəhətlərini tamamlamaq, əlavə güc qazanmaq üçün siyasi hakimiyyətə can atır.

Liderlik seçicilər, tərəfdarlar, fəallıq və liderlər arasında münasibətlərin xüsusi tipidir.

Siyasi liderlərin təsnifatı

1. Ənənəvi liderlər.
2. Rasional-leqal liderlər.
3. Xarizmalı liderlər.

Liderlər öz miqyaslarına görə dörd qrupa bölünürlər: ümumilli lider; hər hansı bir sinfin, zümrənin lideri; ayrıca bir etnosun lideri; təşkilatın, hərəkatın lideri.

Siyasi liderlərin funksiyaları

Hələlik siyasi liderlərinin 6 vacib funksiyası var:

A) Analitik funksiya.
B) Təşkilatçılıq funksiyası.
C) İnteqrativ funksiya.
D) Yenilikçilik (novatorluq) funksiyası.
E) Kommunikativ funksiya.
Ə) Ədalətin, qanunun, nizamın təminatçısı olmaq funksiyası.

Siyasi elita

"*Elita*" latınca seçmək mənasını verir. Ümumilikdə isə bu termin cəmiyyətdə yüksək mənsəb, nüfuz, sərvət sahibi olanlara şamil edilir. Elita insan fəaliyyətinin bütün sferalarında, o cümlədən siyasətdə mövcuddur.

Siyasi partiyalarin yaranma tarixinə bir nəzər

Partiya latınca "partis" sözündən götürülüb hissə, qrup deməkdir. Siyasi partiya – xalqın müəyyən bir hissəsinin maraqlarını ifadə edən və hakimiyyətə yiyələnməklə onun

gerçəkləşməsini özünün əsas məqsədi sayan həmfikirlərin. eyni dəyərləri, ideyaları bölüşənlərin təşkilatıdır.

Elmi ədəbiyyatlarda siyasi partiyaların formalaşma tarixini təxminən aşağıdakı mərhələlərə bölürlər.

Birinci mərhələ, XVI-XVII əsrləri əhatə edir. Bu mərhələdə partiyalar azsaylı elitadan formalaşır və aristokratik qrup şəklində fəaliyyət göstərirdi. Qərbi Avropanın və Amerikanın ilkin burjua dövlətlərinin siyasi sistemləri, aristokratiya ilə burjuaziya arasında mübarizə dövrünün xarakterik xüsusiyyətlərini müəyyənləşdirir.

İkinci mərhələ, XVIII-XIX əsrləri əhatə edir. Bu dövrdə partiyalar təkcə siyasi mühitə təsir etməklə kifayətlənməyərək, cəmiyyət həyatının başqa vacib sferalarına da diqqət yetirməklə insanları aktiv siyasi fəaliyyətə cəlb edən siyasi klublar şəklində fəaliyyət göstərir.

Üçüncü mərhələ, XIX-XXI əsrləri əhatə edir.

Siyasi partiyaların səciyyəvi cəhətləri

- sosial bazanın olması;
- sənədləşdirilmiş üzvlərin olması;
- partiya orqanlarını və təşkilatlarını birləşdirən daxili strukturun mövcudluğu;
- üzvlərin və ona rəğbət bəsləyənlərin öz hərəkət və tələblərinin müdafiəsinə səfərbər etmək imkanlarının olması;
- partiyanı milli regional və yerli səviyyədə təmsil edən siyasi liderlər, dövlət xadimləri qrupunun olması;
- proqram sənədlərində və seçkiqabağı platformalarda partiya ideologiyasının və siyasi xəttin əks olunması;
- nizamnamə ilə tənzimlənən daxili intizam normalarının mövcudluğu;
- xüsusi maliyyə və material bazasının olması.

Siyasi partiyalar vətəndaşların çoxsaylı ictimai birliklərindən onunla fərqlənir ki, onlar bilavasitə siyasi maraqları ifadə edir və fəaliyyətləri hakimiyyətin əldə edilməsinə, idarə olunmasına və ona nəzarətə yönəldilib.

Siyasi partiyaların fəaliyyəti hüquqla tənzimlənir. Onların statuslarını, qeydiyyatlarını, funksiyalarını, müəyyənləşdirən, eləcə də seçkiləri, parlament fəaliyyətini tənzimləyən qanunlar mövcuddur.

Siyasi partiyaların funksiyaları və quruluşu

Siyasi partiyaların funksiyalarını aşağıdakı kimi

- cəmiyyətdəki müəyyən sosial qrupun siyasi maraq və mənafelərinin ifadə olunması.
- siyasi hakimiyyət uğrunda mübarizə, onun idarə olunması və nəzarət;
- böyük sosial qrupların aktivləşməsi və inteqrasiyası;
- partiya ideologiyasının işlənməsi, təbliğatın qurulması və aparılması, ictimai rəyin formalaşması, yönləndirilməsi;
- vətəndaşların siyasi maarifləndirilməsi;
- siyasi elitanın hazırlanması və partiya, cəmiyyət, dövlət işlərinə səfərbər olunması;
- partiyaya yeni üzvlərin cəlb olunması;
- partiyaların özünümaliyyələşdirmə işinin təşkili, maliyyə vəsaitlərinin və mənbələrinin tapılması;
- informasiya və kommunikasiya işinin təşkili.

Siyasi partiyaların quruluşu:

1. Partiya aparatı.
2. Pariya fəalları
3.Partiyanın sıravi üzvləri.
4. Partiya tərəfdarları və təəssübkeşləri.

Siyasi partiyaların tipologiyaları.

1. Sosial dəyişmələrə münasibətin xarakterinə görə.
2. İdeoloji platformaya görə
3. Siyasi hakimiyyətdə iştirakına görə.
4. Sosial bazaya görə
5. Spesifik xüsusiyyətlərinə görə.

Çoxpartiyalılıq

Araşdırmalar cəmiyyətdə partiyalaşmanın üç növünün olduğunu müəyyən edib: ***təkpartiyalılıq, ikipartiyalılıq, coxpartiyalılıq***.

Təkpartiyalılıq, adətən totalitar cəmiyyətlərdə mövcud olur. Hazırda Kuba və Çində təkpartiyalı sistem qalır.

İkipartiyalılıq eyni sosial, mədəni həyatın, ənənəvi dəyərlərin bərqərar olduğu və Insanların əksər hissəsinin by dəyərləri bölüşdüyü cəmiyyətlərdə mövcuddur. Hazırda dünyanın iki böyük ölkəsində – İngiltərə və ABŞ-da iki partiyalı dayanıqlı sistem var. Avropada ikipartiyalılığın yaranmasına liberal dəyərlər və sosial demokratiya görüşləri rəvac verir.

Çoxpartiyalılığın yetərincə əsasları var. Cəmiyyətin sosial differensiyası, siniflərin, etnosların, müxtəlif səpkili birliklərin və başqa sosial ümumillik, maraq əsasında qruplaşmaların mövcudluğu, onların siyasi hakimiyyət uğrunda mübarizləri çoxpartiyalılıq üçün obyektiv təminat yaradır. Bütün hadisələr, proseslər daxilində ziddiyyətlər yaşayır.

Azərbaycan Respublikasında siyasi partiyalar

Azərbaycanda 1992-ci ildə siyasi partiyalar haqqında qanun qəbul ediləndə məlum oldu ki, ölkədə 60-dan artıq siyasi partiya mövcuddur. Hazırda 52 partiyanın hüquqi statusu var. Azərbaycanda fəallığı ilə seçilən partiyalar bunlardır:

1) Yeni Azərbaycan Partiyası;
2) Müsavavt Partiyası;
3) Azərbaycan Xalq Cəbhəsi Partiyası;
4) Milli İstiqlal Partiyası;
5) Azərbaycan Demokratik Partiyası;
6) Azərbaycan Liberal Partiyası;
7) Sosial Demokratlar Partiyası;
8) Ədalət Partiyası;
9) Vətəndaş Həmrəyliyi Partiyası;
10) Demokratik İslahatlar Partiyası və başqaları

3. Lobbiçilik

Lobbiçilik (ingiliscə lobbi – dəhliz, kuluar deməkdir) leqal qaydada, qanun çərçivəsində müəyyən dövlət, hökümət qərarlarının qəbul olunmasına, ayrı-ayrı dövlət qrumlarına, vəzifəli şəxslərə təsir göstərmək məqsədiylə aparılan məqsədyönlü fəaliyyətdir.

Əvvəla, lobbiçiliyin subyekti kimi qurum deyildikdə, adətən, hansısa qərarın qəbulunun ondan asılı olduğu konkret vəzifəli şəxs nəzərdə tutulur. Qurum deyildikdə bir neçə şəxs də nəzərdə tutulur. Məsələn, deputatlar qrupu və sairə. İkincisi, lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Məsələn, ABŞ-dakı erməni lobbisi vaxtilə Konqres tərəfindən məlum 907-ci düzəlişin qəbul edilməsinə nail olmuş, hazırda isə Azərbaycana qarşı ədalətsiz və diskriminasiya xarakterli bu qərarın aradan qaldırılmaması üçün palata üzvlərinə bütün istiqamətlərdə təzyiq göstərir. Yəni lobbiçilik eyni dərəcədə həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər. Üçüncüsü, lobbiçilik fəaliyyəti vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanır. Bu fəaliyyət növü hazırda geniş yayılmış və təsirli amil hesab olunur.

Bütün bunlar belə deməyə əsas verir ki, geniş mənada lobbiçilik hökumət nümayəndələrinə onların qərarlarına təsir göstərmək məqsədiylə iş görülməsi, xəbərlər göndərilməsidir. ABŞ-da bu fəaliyyət sahəsi "ictimaiyyətlə əlaqələr" adlanır. ABŞ-da lobbiçiliklə məşğul olan xüsusi şirkətlər mövcuddur və orada çalışanların böyük əksəriyyəti yüksək ixtisaslı hüquqşünaslardır. Bu ölkədə minlərlə hüquq şirkətləri ictimaiyyətlə əlaqələr müqaviləsi bağlayır. Lobbiçi şirkətlər həm xarici dövlətlərin, həm də öz ölkələrinin vətəndaşlarının maraq və mənafelərinin müdafiəsi ilə məşğul olurlar. Xətti ilə bağlanan bütün müqavilələr ABŞ Ədliyyə Nazirliyində qeydiyyatdan keçməlidir. Xarici hökumətlərin maraqlarını müdafiə edən ABŞ lobbiçi şirkətlərinin işini tənzimləyən əsas qanunvericilik aktı 1938-cı ildə qüvvəyə minmiş və 1942-ci ildə "Əcnəbi agentlərin qeydiyyatı haqqında akt" kimi yenidən nəzərdən keçirilib, xeyli təkmilləşdirilmişdi. Bu qanun o zaman ölkədə faşist və kommunist təbliğatının qarşısını almaq məqsədiylə qəbul edilsə də, sonrakı dövrlərdə lobbiçilik fəaliyyətinin hüquqi baxımdan tənzimlənməsində əsas sənədə

çevrilmişdi. ABŞ-la münasibətləri yaxşılaşdırmaq istəyən dövlətlər, bir qayda olaraq çalışırlar ki, öz maraq və mənafelərinin müdafiəsi üçün lobbiçi şirkətlərlə əməkdaşlıq etsin. Azərbaycanın maraqlarını müdafiə edən lobbiçi şirkət, uzun illərdir ki, Türkiyənin maraq və mənafelərini müdafiə edən "Kapitalayn"dır. Ermənistanın maraqlarını isə nüfuzlu, həm də güclü "Amerika Erməni Milli Komitəsi" və "Devid Kin ənd Assoşieyts" lobbiçi şirkəti müdafiə edir. Birinci şirkət adından da məlum olduğu kimi ermənilərin öz şirkətidir və uzun illərdir Amerikada fəaliyyət göstərir. İkinci şirkətlə isə ermənilər hələ sovet dönəmlərindən bağlamışdır.

Lobbiçilik sistemində mətbuatın xüsusi yeri var. Mətbuat təkcə ölkə ictimai rəyinə, beynəlxalq rəyə deyil, BMT kimi böyük təşkilatların fəaliyyətinə də təsir göstərir. Lobbiçilik fəaliyyətinin bütün ölkələrdə qanunvericiliklə tənzimlənməsinə baxmayaraq, siyasi sistemin təkmilləşməsində müsbət rolu var.

4. Dövlətin meydana gəlməsi və əlamətləri, dövlətin mahiyyəti və sosial təyinati. Dövlət anlayişının tərifi

Dövlət ictimai həyatın təşkilinin elə bir formasıdır ki, o, ayrı-ayrı fərdlərin pərakəndə cəhdləri ilə yaradıla bilməz. Cəmiyyət ötəri məqsədlər əsasında mövcud ola bilməz. Onu ümumi, obyektiv məqsəd birləşdir. Belə məqsədsiz cəmiyyət nə yarana, nə də inkişaf edə bilməz. Belə məqsəd insanları cəmiyyət üzvlərinin müxtəlif maraqlarını əlaqləndirən vahid hakimiyyət altında birləşdirməkdir.

Dövlət cəmiyyətdən ayrılaraq onun hakim siyasi təşkilatına çevrilir. Dövlət hakimiyyəti – cəmiyyəti birləşdirən, təşkil edən və məcbur edən başlıca qüvvədir. Dövlət öz ərazisində yaşayan bütün insanları əhatə edir.

Cəmiyyətdə dövlətlə yanaşı insanları müxtəlif siyasi, iqtisadi, mənəvi, peşəkarlıq maraqlarına görə birləşdirən digər təşkilatlar da yaranır və fəaliyyət göstərir. Bu, siyasi partiyalar, həmkarlar təşkilatları, yaradıcılıq birlikləri, gənclər və qadınlar təşkilatları, dini təşkilatlar, ictimai özfəaliyyət, ictimai yardım orqanları, istehsal kooperativləri və assosiasiyaları, səhmdar cəmiyyətləri,

xüsusi müəssisə və təşkilatlardır. Onlar hamısı bu və ya başqa səviyyədə ölkənin siyasi həyatında iştirak edir və beləliklə də cəmiyyətin siyasi sisteminə üzvi surətdə daxil olurlar.

İctimai birləşmələr sistemində dövlətin xüsusi yeri aşağıdakı amrllərlə şərtlənir:

Əvvələn dövlət bütün ölkə miqyasında yeganə tam hakimiyyətli təşkilatdır.

İkincisi, dövlət cəmiyyətin işkişafının əsas istiqamətlərini hamının və hər kəsin mənafeyinə uyğun olaraq müəyyən edir.

Üçüncüsü, dövlət ölkə daxilində və beynəlxalq aləmdə rəsmi təşkilatdır.

Qeyri-dövlət təşkilatlarına belə əlamət və xüsusiyyətlər məxsus deyil, onlar ictimai həyatın dəqiq müəyyən olunmuş sahəsində öz məzmun və həcminə görə məhdud vəzifələri həll edirlər.

Siyasi sistem – ölkənin siyasi həyatında iştirak edən dövlət təşkilatlarının və ictimai təşkilatların, o cümlədən əmək kollektivlərinin məcmusunun təşkilati ifadəsidir.

Cəmiyyətin siyasi sisteminin bütün tərkib hissələri sıx, üzvi vəhdətdə olur. Bu onunla şərtlənmişdir ki, onların qarşısında ümumi vahid məqsəd-Insanın rifahı durur. Dövlətin, ictimai təşkilatların və əmək kollektivlərinin qarşılıqlı münasibətlərinin əsasını əməkdaşlıq və qarşılıqlı yardım prinsipləri təşkil edir. Bu prinsiplər ictimai inkişafın müxtəlif vəzifələrini daha səmərəli və məqsədyönlü həll etməyə, siyasi sistemin hər bir həlqəsini bir-birini əvəz etmədən öz konkret vəzifələrini yerinə yetirir.

Dövlət və ictimai təşkilatlar – siyasi sistemin müstəqil hissələridir. Onların hər biri öz quruluşuna, təşkilat və fəaliyyət prinsiplərinə malikdir. Onlar həmçinin öz daxili və xarici işlərinə dair məsələlərn həllində daxili müstəqilliyə və sərbəstliyə malikdir.

Siyasi sistemin muxtar həlqələri olan dövlət və ictimai təşkilatlar bir-birilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Dövlət hər vasitə ilə ictimai təşkilatların sərbəstliyini müdafiə edir. İctimai təşkilatlar da öz növbəsində dövlətə iqtisadi, sosial və mədəni quruculuq, ictimai qaydanın qorunması vəzifələrinin yerinə

yetirilməsində hər cür kömək göstərir, dövlət orqanlarının formalaşmasında iştirak edirlər.

Dövlət cəmiyyətin başlıca hakimiyyət daşıyıcısı və təşkiledici qüvvəsi kimi bütün qeyri-dövlət təşkilatlarının öz nizamnamə vəzifələri çərçivəsində normal fəaliyətini təmin etməyə, onların inkişaf və təkmilləşməsinə yardım göstərməlidir. Konkret olaraq bu, aşağıdakılarda əks olunur:

1. Dövlət insanlara ictimai təşkilatlarda birləşmək kimi konstitusiya hüququ verir və onların uğurlu fəaliyyəti üçün lazımi şərait yaradır. İctimai təşkilatlar geniş siyasi azadlıqlardan, söz, mətbuat, yığıncaq, mitinq, küçə yürüşləri və nümayişlər keçirmək azadlıqlarından istifadə edirlər. Dövlət lazım olduqda onlara maddi yardım göstərir, onların mülkiyyətini qoruyur.

2. Dövlət bəzi ictimai təşkilatların hüquqi vəziyyətini müəyyən edir. İctimai təşkilatların fəaliyyətinin dövlət tərəfindən hüquqi tənzimlənməsi yalnız onların nizamnamələrinin təsdiqi ilə məhdudlaşır. Təəşkilat üzvlərinin daxili münasibətləri isə hüquqla deyil, ictimai təşkilatın normaları ilə tənzimlənir.

3. İctimai təşkilatların fəaliyyəti dövlət tərəfndən mühafizə edilir. İctimai təşkilatların hüquq və mənafelərini məhkəmə, prokurorluq və başqa dövlət orqanları qoruyur. Məhz onlar ictimai təşkilatların bəzi qərarlarının həyata keçirilməsinə yardım edirlər. Məsələn, kooperativ və ya xüsusi təşkilatların qərarları könüllü surətdə icra edilmirsə. Eyni zamanda, dövlət ictimai təşkilatlar tərəfindən qanunlara ciddi əməl olunmasına nəzarət edir.

Dövlət və ictimai təşkilatlar (o cümlədən, xüsusi təşkilatlar) arasında belə əməkdaşlıq və qarşılıqlı əlaqə ictimai həyatını sabitliyinə, cəmiyyətdə həqiqi rejiminin müəyyən olunmasına xidmət edir.

Cəmiyyətin siyasi sisteminin öz funksiyalarını həyata keçirməsi hüquq normaları əsasında baş verir. Siyasi sistemin bütün təşkilati qurumları – dövlət təşkilatları, ictimai təşkilatlar, əmək kollektivləri – dövlət həyatının və ictimai həyatın hüquqi əsasını təşkil edən qanunlar çərçivəsində və əsasında fəaliyyət göstərirlər.

Dövlətin tərifinin müxtəlifliyi

Dövlət ictimai inkişafın məhsuludur. İqtisadi, sosial, mənəvi, psixoloji və başqa qanunauyğunluqlar nəticəsində insan cəmiyyətinin müəyyən yetkinlik mərhələsində yaranan dövlət cəmiyyətin əsas idarəçilik sisteminə çevrilir. Dövlət kimi mütəşəkkilləşmiş cəmiyyət öz mövcudluğu üçün yeni imkanlar: məhsuldar qüvvələrin, sosial münasibətlərin, mənəvi əsasların, mədəniyyətin, elmin, beynəlxalq əlaqələrin inkişafı imkanlarını qazandı.

Dövlət *– tarixən inkişafda olan hadisədir*. Cəmiyyətin irəliyə doğru inkişafı ilə dövlət də, onun məqsəd və vəzifələri idarəetmə qurumları və funksiyaları da dəyişir. Buna müvafiq surətdə dövlət anlayışına baxışlar da, ictimai həyatda dövlətin rolu və təyinatına münasibət də dəyişir. Müxtəlif tarixi mərhələlərdə elmi fikir, əsasən, həmin dövrdə mövcud olmuş və ya başqa konkret dövlətin xüsusiyyətlərini əks edən obyektiv amillərdən istifadə etməklə dövlətin tərifini verməyə cəhd etmişlər.

Məsələn, antik dünyada dövlət ictimai həyatın istisnasız olaraq bütün sahələrini əhatə etdiyinə görə bu dövlətdə insan bütövlükdə dövlət vətəndaşlığı ilə ehtiva olunurdu. Aristotel dövləti müxtəlif qəbilə və kəndlərin daha yaxşı, təkmil həyat naminə birləşməsi kimi müəyyən edir. Qədim yunanlarda dövlət insanların bütün əqli və mənəvi maraqlarının cəmi hesab olunurdu. Romada bu vəzifə bir qədər daralır. Sitseron dövlətdə insan həyatının yüksək təkmilləşməsinin təcəssümünü deyil, hüququn ümumi əsasları və ümumi fayda ilə birləşmiş insanların ittifaqını görür.

Rus hüquqşünaslarının dövlət anlayışına verdikləri tərif də maraqlıdır. Verilən tərifin çoxu təkcə tarix elmi nöqteyi-nəzərindən maraq doğurmur. Uzun müddət üzə çıxarılmayan həmin baxışlar indi də real elmi dəyərə malikdir. Məsələn, "*Korkunov* dövləti azad insanlar üzərində müstəqil məcburi hesab edilən hakimiyyəti özündə təcəssüm etdirən ictimai ittifaq" kimi müəyyən edir. *Trubetskoy* hesab edir ki, "dövlət insanların müstəqil və müstəsna olaraq müəyyən ərazi həddində hakimiyyət yeridən ittifaqıdır". *Şerşeneviç* və *Kokoşkin* dövləti bir ərazi çərçivəsində və

vahid hakimiyyət altında insanların birləşməsi kimi şərh edirlər. *Xvostov* yazırdı ki, dövlət – "müəyyən ərazidə yaşayan və məcburi, müstəqil ali hakimiyyətə tabe olan azad insanların ittifaqıdır". *Qumploviç* dövləti "müəyyən hüquq qaydasının mühafizəsi üçün təyin olunmuş hakimiyyətin təbii yaranmış təşkilatı" kimi müəyyən edir.

Beləliklə, keçmiş dövrün mütəfəkkirlərinin çoxu dövlətə, əsasən, sosioloji nöqteyi-nəzərdən yanaşmışlar. Ancaq dövlət haqqında təlimdə dövlət anlayışının sosioloji cəhətdən müəyyən edilməsi ilə yanaşı, ona hüquqi tərif verilməsi cəhdləri də olmuşdur. Belə ki, *Ellinek* hesab edirdi ki, dövlət xüsusi ictimai birləşmə və xüsusi hüquqi hadisədir. Onun təlimi müvafiq olaraq «sosial» və «hüquqi» nəzəriyyələrə bölünür. «Hüquq dövlətin əhəmiyyətli elementi olduğuna görə – deyə Ellinek yazır, dövlətin dərk edilməsi onun hüquqi təbiətini öyrənmədən mümkün deyil. Hüquqla qaydaya salınmış dövlət… hüququn özündə müəyyən yer tutmalıdır, - dövlət haqqında hüquqi anlayış mövcud olmalıdır». (Ellinek Q., Obşee uçenie o qosudarstve, SPb, 1908, s.117-118) Dövləti o, hüquqi subyektin keyfiyyətlərinə, iradəyə malik və hüquq daşıyıcıları olan fərdlərin məqsədyönlü birliyi kimi müəyyən edir. Müəyyən mənada dövlətə bu cür baxışa rus dövlətşünası N.M.Korkunov da şərik çıxırdı. (Korkunov N.M., Russkoe qosudarstvennoe pravo, t.1, SPb, 1908, s.51)

Hegelin dövlət anlamı onun ümumi fəlsəfi sisteminə əsaslanır. Bu sistem isə dövləti Insan varlığının xüsusi ruhi əsaslarının məhsulu kimi izah edir: Dövlət mənəvi ideyanın gerçəkliyidir, mənəvi ruh göründüyü kimi özü-özünə aydın olan, düşünən və özünü bilən və bildiyinə görə icra edən substansional iradədir. (Qeqel. Filosofiə, prava, M., 1990, s.279)

Marksist-leninçi elm dövləti onun dəyişməz sinfi təbiətindən çıxış edərək müəyyən edir. Dövlət cəmiyyətin barışmaz siniflərə bölündüyünə görə sinfi cəmiyyətin məhsulu kimi yarandığına görə, «o, ümumi qaydaya görə iqtisadi cəhətdən qüdrətli, hakimi siniflərin dövlətidir, həmin sinif dövlətin köməyi ilə siyasi cəhətdən də hakim sinfə çevrilir və beləliklə, istismar edilən sinfi əzmək və

əsarətdə saxlamaq üçün yeni vasitələr əldə edir». (Marks K.,Gnqelğs F., Soç. t.21, s.171-172) Diqqəti, əsasən, dövlətin yaranmasını və mövcudluğunu şərtləndirən sosial-iqtisadi amillərdə cəmləşdirərək, marksizm-leninizm dövləti iqtisadi cəhətdən hakim sinfin siyasi hakimiyyətinin təşkilatı kimi müəyyən edir. «Dövlət, - Lenin yazır, - bir sinfin başqa sinfə zülm etməsi maşınıdır, bir sinfin tabelikdə olan başqa sinifləri itaətdə saxlamaq üçün manışndır». (Lenin V.İ., Poln.sobr. soç.,t.39, s.75)

XIX əsrin ortalarının burjua dövlətini təhlil edərək Marks və Engels qeyd edirdilər ki, «dövlət öz mahiyyətinə görə kapitalist maşınıdır, kapitalistlərin dövləti, ideal məcmulu kapitalistdir». (Marks K., Gnqelğs F., Soç. t.4, s.436) Dövlət haqqında marksist-leninçi nəzəriyyənin sonrakı inkişafı, əsasən, dövlətin istənilən təzahüründə, o cümlədən «sosialist» (Bax: Stuçka P.İ., Leninizm i qosudarstvo, M., 1924; Steükiy V.V., V borğbe za leninskuö teoriö. M., 1993; Stalin İ.V.. Voprosı leninizma, M., 1952) formasında onun sinfi xarakterinin daha dərin açılmasına yönəlmişdi. Oktyabrdan sonrakı dövrdə dövlət haqqında sovet fəlsəfi – hüquqi fikri dəyişməz qalmışdı. «Dövlət – iqtisadi cəhətdən hakim sinfin siyasi təşkilatıdır, məqsədi mövcud iqtisadi qaydanı qorumaq və başqa siniflərin müqavimətini qırmaq olan siyasi təşkilatdır. (Kratkiy filosofskiy slovarğ, M.,1941, s.47)

Tədris vəsaitlərində dövlətə baxış, onun anlayışı və mahiyyəti müstəsna olaraq sinfi baxımdvn şərh olunurdu, bu cür şərhlə üst-üstə düşməyən istənilən başqa baxışlar inkar edilirdi. S.A.Qolunskiy və M.S.Stroqoviç yazırdılar: «dövlətin mahiyyəti ondan ibarətdir ki, hakim sinif xüsusi məcburiyyət aparatının köməyi ilə öz iradəsini bütün cəmiyyətə zorla qəbul etdirir: dövlət həmişə hakim sinfin diktaturasıdır». (Qolukskiy S.A., Storoqoviç M.S., Konspekt po teorii qosudarstva i prava. M., 1940, s.53) A.İ.Denisov marsizm-leninizm klassiklərinə əsaslanaraq hesab edirdi ki, «dövlət elə xüsusi təşkilatdır ki, onun vasitəsilə sinif özünün heç bir qanunla məhdudlaşdırılmayan hakimiyyətini – diktaturasını həyata keçirir». (Denisov A.İ., Göstərilən əsəri, s. 53)

Sinfilik istənilən dövlətin ən mühüm əlaməti kimi sovet hüquqşünaslarının əksəriyyəti tərəfindən qəbul edilirdi. Belə ki, V.S.Petrov hesab edir ki, «bütövlükdə dövlətə və ya o cümlədən, onun müəyyən tarixi tiplərinə tərif verilməsi yalnız dövlətin sinfi mahiyyətini açan marksist dialektik dövlət anlayışını nəzərə almaqla mümkündür». (Petrov V.S., Suşnostğ, soderjanie i forma qosudartva. L., 1971, s.61)

Dövlətə baxışların müxtəlifliyi ilk növbədə onun çox mürəkkəb, çoxcəhətli və tarixən dəyişən hadisə olması ilə bağlıdır. Bu baxışların elmiliyi cəmiyyətin bu və ya başqa inkişaf mərhələsində Insan təfəkkürünün yetkinlik dərəcəsi, dövlətin öyrənilməsinə metodoloji yanaşmaların obyektivliyi ilə müəyyən olunur.

Ümumilikdə dövlətin qanunauyğun xüsusiyyət və əlamətlərinin dərk edilməsi dövlət təşkilatlı cəmiyyətin məzmun və quruluşunu müəyyən edən daim dəyişməkdə olan iqtisadi, sosial, mənəvi, milli, ekoloji, dini və başqa amillərlə görə, görünür, müəyyən tarixi perspektiv üçün mümkündür. Bundan başqa dövlət haqqında anlayış çox vaxt onun tarixi gerçəkliyində deyil, ideal təsəvvürdə verilir. Dövlətin nə olduğunu müəyyən etmək əvəzinə tez-tez onun necə olmalı olacağını təsvir edirlər.

Dövlət anlayışının müəyyən edilməsi zamanı metodoloji vəzifə, Şerheneviçin qeyd etdiyi kimi, «dövlət» adı daşıyan tarixi hadisənin əlamətlərinin verilməsindədir. Buradan belə çıxır ki, gerçəklik əsasında anlayışı müəyyən edərkən biz ona həqiqətdə olmayan nəyisə artırmamalı, digər tərəfdən bu qəbildən olan gerçəkliyi bütövlükdə götütməliyik. Dövlətin nə olması sualının cavabı dövlətin tarixi gerçəklikdə nə olmasını və onun bütün tarixi təzahür formalarını əhatə etməlidir. (Bax: Şerşeneviç Q.F., Göstərilən əsəri, s.201)

Dövlətin əsas əlamətləri

Elmi baxımdan dövlətin əsas ümumi əlamətlərini əks etdirən anlayış hər şeydən əvvəl cəmiyyətin hər hansı dövlət təşkilatlarının onun qeyri-dövlət təşkilatlarından, cəmiyyətin siyasi sisteminin digər hissələrindən fərqlərini açmağa imkan verir. Bu cür əlamətlər

cəmiyyətin dövlət təşkilatının müəyyən, nisbətən dəyişməz skeletini təşkil ki, bu da ictimai inkişafa uyğun olaraq yeni məzmunla zənginləşir, dövrü keçmiş struktur və funksiyvları itirir, yeni struktur və funksiyalar əldə edir.

Dövlət anlayışına sosioloji tərif verənlər onun üç əlamətini ayırırlar: *1) Insanların birliyi – xalq; 2) onların üzərində hökmranlıq edən hakimiyyət; 3)bu hakimiyyətin fəaliyyət həddi kimi ərazi.* Qarşılıqlı əlaqədə bu əlamətlər dövlət haqqında anlayışı müəyyən ərazi həddində bir hakimiyyət altında Insanların birləşməsi kimi yaradır. Şerşeneviç və Kokoşkin qeyd edirdilər ki, eyni zamanda dövlətin xarakterik əlamətlərindən hər biri özlüyündə mürəkkəb anlayışdır və ona görə də ayrıca tədqiqat tələb edir. (Bax: Şerşeneviç Q.F. Göstərilən əsəri., s.202-212; Kokoşkin F.F. Leküi po obşemu qosudarstvennomu pravu. M., 1912, s.181-190)

Dövlətin əlamətlərinə marksist baxış Engels tərəfindən «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində şərh edilib. Burada həmin əlamətlər dövləti qəbilə quruluşundakı ictimai hakimiyyətin təşkilindən fərqləndirir. «Barbarlıq və mədəniyyət» fəslində müəllif dövlət təşkilatı cəmiyyətə xas olan aşağıdakı ümumi əsas əlamətləri ayırır:

1. Dövlət təbəələrinin ərazi vahidləri üzrə bölünməsi.

2. Bilavasitə əhali ilə artıq uyğunlaşmayan xüsusi kütləvi hakimiyyətin yaranması.

3. Dövlət hakimiyyəti aparatının saxlanması üçün əhalidən verjgilərin toplanması.

Dövlətin müxtəlif cərəyanların nümayəndələri tərəfindən əsaslandırılmış ümumi əlamətlərini təhlil edərək demək olar ki, həmin əlamətlər ümumən formal cəhətdən bir-birinə zidd deyil. Qabaqcıl ictimai fikir bu nəticəyə gəlib ki, dövlət, hakimiyyətin dövlətəqədərki təşkilindən fərqli olaraq vahid ərazisi, həmin ərazidə yaşayan əhali və həmin əhaliyə aid olan hakimiyyət ilə xarakterizə olunur. Cəmiyyətdə dövlətlə bir vaxtda başqa, qeyri-dövlət siyasi təşkilatları da (partiyalar, ittifaqlar, müxtəlif növ ictimai hgərəkatlar) yaranır ki, ictimai həyatın mənzərəsinə bunlar da əhəmiyyətli təsir göstərirlər. Bununla əlaqədar dövlətin onu həm

keçmişdə, həm indiki dövrdə qeyri-dövlət təşkilatlarından fərqləndirən daha xarakterik əlamətlərini ayırmaq vacibdir.

Əvvəla, dövlət bütün ölkə miqyasında hakimiyyətin müəyyən ərazi hüdudlarında bütün əhaliyə şamil edilir.

Dövlət öz sərhədləri hüdudlarında ərazi aliliyinə malikdir. Bu, xarici hakimiyyətin müdaxiləsini istisna edən, dövlətin əhali üzərində qanunverici, icra və məhkəmə hakimiyyətinin vahidliyi və tamlığı deməkdir.

Ərazi dövlətin mövcudluğunun ictimai deyil, təbii şərtidir. Özlüyündə ərazi dövləti yaratmır. O, yalnız məkan əmələ gətirir ki, həmin məkan hüdudlarında dövlət öz hakimiyyətini tətbiq edir.

Beləliklə, həm əhali, həm də ərazi dövlətin yaranması və mövcudluğunun zəruri maddi şərtləridir. Ərazisiz dövlət olmadığı kimi, əhalisiz də dövlət ola bilməz.

İkincisi, dövlət – siyasi hakimiyyətin elə xüsusi təşkilatıdır ki, cəmiyyətin normal həyat fəaliyyətini təmin etmək üçün onun xüsusi idarəetmə aparatı (mexanizmi) vardır. Dövlət mexanizmi dövlət hakimiyyətinin maddi ifadəsidir. Özünün orqanları və idarələrinin bütöv sistemi vasitəsilə dövlət cəmiyyətə bilavasitə rəhbərliyi həyata keçirir, siyasi hakimiyyətin müəyyən rejimini təsbit və realizə edir, öz sərhədlərinin toxunulmazlığını mühafizə edir.

Dövlətin bütün tarixi tiplərinə və növlərinə qanunvericilik, icra və məhkəmə orqanları kimi orqanlar bu və ya digər dərəcədə xas olmuşdur. Dövlətin mexanizmində həmişə məcburetmə, o cümlədən cəza funksiyalarını həyata keçirən orqanlar: ordu, polis, jandarm, həbsxanalar və islah-əmək müəssisələri ayrıca yer tutmuşlar.

Dövlətin mexanizmi daimi kəmiyyət deyil. İctimai inkişafın müxtəlif mərhələlərində dövlətin orqanları quruluş cəhətdən dəyişir və konkret məzmununa görə müxtəlif olan vəzifələr yerinə yetirir. Lakin bu dəyişmələr və müxtəliflik, hər bir dövlətin mexanizminə xas olan ümumi elementləri istisna etmir.

Üçüncüsü, dövlət ictimai həyatı hüquqi əsaslarla təşkil edir. Cəmiyyət həyatının təşkilinin hüquqi formaları məhz dövlətə məxsusdur. Hüquq, qanunvericilik olmadan dövlət cəmiyyətə

səmərəli rəhbərlik etmək, qəbul etdiyi qərarların həyata keçirilməsini təmin etmək iqtidarında deyil. Siyasi təşkilatların içində yalnız dövlət öz səlahiyyətli orqanlarının simasında bütün ölkə əhalisi üçün məcburi qüvvəyə malik olan göstərişlər verir. Bütün cəmiyyətin rəsmi nümayəndəsi olmaqla, dövlət zəruri hallarda hüquq normalarının tələbələrinin öz xüsusi orqanlarının (məhkəmələrinin, inzibati və b. orqanların) köməyi ilə həyata keçirir.

Dördüncüçü, dövlət hakimiyyətin suveren təşkilatıdır. Bununla, o cəmiyyətin digər siyasi qurumlarından fərqlənir. Dövlətin suverenliyi – dövlət hakimiyyətinin elə xassəsidir ki, bu zaman hər hansı başqa hakimiyyətə münasibətdə ölkə daxilində, habelə ümumi qəbul edilmiş beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına riayət etməklə dövlətlərarası münasibətlər sahəsində həmin dövlətin aliliyi və müstəqilliyində ifadə olunur.

Beşincisi, dövlətin suverenliyində onun iqtisadi müstəqilliyi mühüm rol oynayır.

Suverenlik – cəmiyyətin dövlət təşkilatının bütün, nisbətən mühüm cəhətlərini özündə cəmləşdirir. Dövlət hakimiyyətinin müstəqilliyi və aliliyi öz ifadəsini konkret olaraq aşağıdakılarda tapır:

- universallıqda – yalnız dövlət hakimiyyətinin qərarları həmin ölkənin bütün əhalisinə və ictimai təşkilatlarına aid edilir;
- üstünlükdə – digər ictimai hakimiyyətin istənilən qeyri-qanuni hərəkətlərinin qarşısının alınmasının mümkünlüyü;
- heç bir digər ictimai təşkilatın malik olmadığı xüsusi təsir vasitələrinin olması.

Dövlət hakimiyyətinin aliliyi dövlətin və ictimai həyatın müxtəlif məsələlərinin həllində qeyri-dövlət siyasi təşkilatlarla dövlət arasındakı qarşılıqlı əlaqəni heç də istisna etmir. Dövlətin suverenliyində xalqın tam hakimiyyəti özünün siyasi və hüquqi ifadəsini tapır.

Müəyyən şəraitlərdə dövlətin suverenliyi xalqın suverenliyi ilə üst-üstə düşür. Xalqın suverenliyi xalqın aliliyini, öz taleyini, dövlət və ictimai inkişafın köklü məsələlərini özünün həll etməsi, öz

dövlətinin siyasətinin istiqamətini, orqanlarının tərkibini formalaşdırmaq, dövlət hakimiyyətinin fəaliyyətinə nəzarət etmək hüququnu bildirir.

Dövlət suverenliyi anlayışı milli suverenlik anlayışı ilə sıx bağlıdır. Milli suverenlik millətin ayrılmasına və müstəqil dövlət yaratmasına qədər öz müqəddəratını təyin etmək hüququdur. Millətlərin könüllü birləşməsi ilə yaradılmış çoxmillətli dövlətlərdə, bu mürəkkəb dövlət tərəfindən yata keçirilən suverenlik təbii ki, yalnız bir millətin suverenliyi ola bilməz. Birləşdirilmiş millətlərin öz müqəddəratını təyin etmək hüququnun hansı üsulla – ittifaq dövlətində birləşmə yolu ilə, yoxsa muxtariyyət və ya konfederasiya bazasında federasiya yolu ilə – həyata keçirilməsindən asılı olaraq, həmin çoxmillətli dövlət tərəfindən həyata keçirilən dövlət suverenliyi, birləşdirilmiş millətlərdən hər birinin suverenliyinə təminat verməlidir.

Birinci halda bu, hüquqlarının bir hissəsini çoxmillətli dövlətə həvalə etmiş (məsələn, ümumi dövlət sərhədlərinin mühafizəsi, ümumi maliyyə, vergi və müdafiə siyasətinin həyata keçirilməsi) ittifaq subyektinin suveren hüquqlarını təmin edilməsi yolu ilə əldə edilir. İkinci halda millətin suverenliyi milli dövlətlərin muxtariyyətinin mühafizəsi yolu ilə təmin edilir. Hər iki halda isə çoxmillətli dövlət öz ali orqanlarının simasında hər hansı ayrıca millətin suverenliyinin deyil, məhz həmin çoxmillətli dövlətə məxsus olan bütün birləşdirilmiş millətlərin ümumi mənafelərini eləcə də onlardan hər birinin özünəməxsus maraqlarını ifadə edən suverenliyinin daşıyıcısı olur. Başlıcası odur ki, hər bir növündə çoxmillətli dövlət, onun tərkibinə daxil olan millətlərdən hər birinin real suverenliyini təmin etsin.

Dövlətin, onu cəmiyyətin özünəməxsus təşkilatı kimi xarakterizə edən ümumi əlamətləri bunlardır. Özü özlüyündə əlamətlər dövlətin tarixi inkişafında onun sosial təyinatı və mahiyyəti barədə hələ tam təsəvvür yaratmır. Insanın özünün ictimai həyatının təkmilləşməsi ilə, onun sosial, siyasi və əxlaqi yetkinliyinin yüksəlməsi ilə dövlət də dəyişir. Onun ümumi əlamətləri əsasən dəyişməz qalmaqla yeni, daha məqsədəuyğun

məzmunla zənginləşir; onun fəaliyyətinin vaxtı keçmiş forma və funksiyaları aradan qalxır, daha mütərəqqiləri yaranır.

Dövlətin mahiyyəti və sosial təyinatı. Dövlət anlayışının tərifi

İctimai hadisə kimi dövlətin mədəniyyəti, obrazlı desək qarşılıqlı əlaqələri olan çoxsaylı daxili və xarici tərəflərdən ibarət olan çoxcəhətli özəkdir. Bu da ona universal idarəetmə sisteminin keyfiyyət müəyyənliyini gətirir. Dövlətin mahiyyətini açmaq – onun cəmiyyətdə obyektiv zəruriliyini şərtləndirən başlıca müəyyənedici olanı aydınlaşdırmaq nə üçün cəmiyyətin dövlət olmadan mövcud ola və inkişaf edə bilməməsini aşkar etmək deməkdir.

Dövlətin daha mühüm, keyfiyyətcə daimi əlaməti ondan ibarətdir ki, o, özünün müxtəlif növlərində həmişə bütün cəmiyyəti idarə edən siyasi hakimiyyətin yeganə təşkilatı kimi çıxış edir. Elmi və təcrübi mənada hər cür hakimiyyət idarəetmədir. Dövlət hakimiyyəti nəhəng təşkilati imkanları ilə yanaşı, dövlətin göstərişlərini icra etmək üçün məcburetmə tətbiqi hüququna malik olması ilə xarakterizə olunan xüsusi növ idarəetmədir.

Dövlət siyasi hakimiyyətin sinfi təşkilatı kimi yaranır. Bu müddəa dünya elmi və tarixi praktikası ilə düzünə və ya dolayı yolla sübut olunub. Doğrudan da, quldarlıq quruluşu öz mahiyyətinə görə, quldarların siyasi təşkilatı idi. Hərçənd, müəyyən dərəcədə o, bütün azad vətəndaşların da mənafeyini mühafizə edirdi. Feodal dövləti – hər şeydən əvvəl, feodalların, habelə başqa varlı silklərin (tacirlərin, sənətkarların, din xadimlərinin) əsas siyasi hakimiyyət orqanı idi. Kapitalist dövləti öz inkişafının ilk (klassik) mərhələlərində burjuaziyanın mənafeyini ifadə edən orqan kimi çıxış edirdi.

Əgər sadalanan dövlətlərin fəaliyyətlərinin ümumsosial təyinatları ifadə olunan tərəflərini nəzərə almasaq; onlar hər şeydən əvvəl, əsas istehsal vasitələri mülkiyyətçilərinin siyasi təşkilatı idi. Bununla əlaqədar Marks yazırdı ki, kapitalist dövləti «yalnız kapitalist istehsal üsulunun ümumi xarici şərtlərini həm fəhlələrin, həm də ayrı-ayrı kapitalistlərin qəsdlərindən qorumaq üçün özünə

burjua cəmiyyəti yaradan təşkilatdır». (Marks K., Gnqelğs F. Soç. t.1. s.254-255)

Dövlətin yaranması və fəaliyyətinin müəyyən iqtisadi və sosial qanunauyğunluğunun əsasən sinfi mövqedən təhlili marsizm-leninizm banilərinin hesab etdikləri kimi, dövlətin mahiyyətinə, onun bütün tarixi tiplərinin, o cümlədən müasir dövlət tiplərini əhatə edən «universal» tərif verməyə imkan verir.

Lakin cəmiyyətin həyatında obyektiv baş verən keyfiyyət dəyişiklikləri, labüd surətdə dövlətin mahiyyətinin dəyişilməsinə apardı. Sovet dövlətinin, sonra isə ikinci dünya müharibəsindən sonra Avropa və Asiyada bir sıra eyni tipli dövlətlərin yaranması artıq dövlətin mahiyyətinin «hökmran sinfin təşkilatı» kimi klassik formuluna uyğun gəlmirdi. Əsas istehsal vasitələri mülkiyyətçilərinin siyasi təşkilatı kimi «sosialist dövlətinin» tərifi də real həqiqətə uyğun gəlmirdi, çünki bu vasitələrin mülkiyyətçiləri nə fəhlə, nə kəndli, nə ziyalılar sinfi deyil, həm cəmiyyəti, həm dövləti bütöv bir şey kimi, real və rəsmi təcəssüm etdirən partiya-dövlət aparatıdır. Belə dövlətdə ictimai inkişafa uyğun olaraq toplanmış və başqa müasir dövlətlərə xas olan müsbət əlamətlər yox idi. O, siyasi hakimiyyətin totalitar təşkilatına çevrilmişdi ki, orada da məcburiyyət cəmiyyəti idarə edən əsas vasitə idi.

Dövlətin inkişafı – mürəkkəb dialektik – məntiqi prosesdir. Bu proses çoxlu ziddiyyətli meyllərlə xarakterizə edilir ki, nəticə etibarı ilə onların arasında mütərəqqi meyllər üstünlük təşkil edir.

Müasir dövlətlərin sələfləri olan tarixi dövlət tiplərinin xüsusiyyətləri ondan idarətdir ki, onlar əsasən azlığın (quldarların, feodalların, kapitalistlərin) iqtisadi mənafelərini ifadə edirdilər. Lakin cəmiyyətin humanistləşməsi prosesində onun təkmilləşməsi ilə. Insanın siyasi və əxlaqi cəhətdən «yüksəlməsi» ilə dövlətin iqtisadi və sosial bazası genişlənir. Onun hakimiyyətinin məcburetmə elementi isə məhdudlaşır.

Beləliklə, obyektiv səbəblər üzündən dövlət onun üzvlərinin şəxsi və ümumi mənafelərini ifadə və mühafizə edən cəmiyyətin əsas təşkiledici qüvvəsinə çevrilir.

Dövlətin yaranmasının obyektiv amili olan xüsusi mülkiyyət, həm də onun inkişaf prosesində daim onu müşahidə edir. İctimai həyat təkmilləşdikcə mülkiyyəti tədricən çoxluğun mülkiyyətinə çevrilir. Mülkiyyət münasibətlərinin inqilabi və təkamül dəyişməsi nəticəsində dövlətin sosial-iqtisadi mahiyyəti, onun məqsəd və vəzifələri də dəyişir. Dövlət, kollektiv,səhmdar, kooperativ, fermer, fərdi və başqa mülkiyyət formalarının yaranması ilə xüsusi mülkiyyət, yəni fərdin mülkiyyəti də yeni keyfiyyət əlamətləri qazanmağa başladı.

Tarix hadisə kimi dövlət ikili təbiətə malikdir. İqtisadi cəhətdən hakim sinfin siyasi hakimiyyətinin təşkilatı olmaqla, o, eyni zamanda, «hər cür cəmiyyətin təbiətindən irəli» gələn «ümumi işlərin təşkilatçısıdır». (Marks K., Gnqelğs F. Soç. t.25, ç.1, s.422) Bu nəticənin obyektivliyi şübhə doğurmur. Dövlətin adı çəkilən xüsusiyyətlərdən hansı daha üstün olmalıdır. Dövlətin mahiyyəti haqqında marksist təlim dövlətin bütün inkişaf mərhələlərində birmənalı surətdə sinfi əsasları üstün hesab edir. Lakin inkişafının daha yetkin mərhələlərində Insan həyatının reallığı dövlətin «sinfi» və «ümumi» vəzifələrinin nisbətinə mühüm düzəliş verdi.

Cəmiyyətin həyat şəraitinin əhəmiyyətli dərəcədə dəyişməsi ilə, bir tərəfdən sinfi hökmranlıq təşkilatı kimi dövlətin mahiyyəti daralır, digər tərəfdən – dövləti bütün cəmiyyətin təşkilatı kimi xarakterizə edən obyektiv xüsusiyyətlər genişlənir və zənginləşir. Mütərəqqi ictimai inkişaf prosesinin təsiri altında dövlətin xalqdan «ayrılması» azalır, onun cəmiyyət və şəxsiyyətin köklü inkişafına və tələbatına «yaxınlaşması» baş verir. Beləliklə, dövlət cəmiyyətin üzərində duran orqandan, cəmiyyətə xidmət göstərən bir orqana çevrilir.

Dövlətin bütün keçmiş, indiki və gələcək dövrləri üçün xarakterik olan, onun istisnasız əlamət və xüsusiyyətlərini əks etdirən ümumi anlayışını müəyyən etmək mümkün deyil. Öz inkişafının müxtəlif mərhələlərində mövcud olmuş, mövcud olan və mövcud olacaq dövlətin şəraitinin müxtəlifliyi başqa dövlətlərə xas olmayan çoxlu xüsusiyyətlər və spesifik əlamətlər aşkar edir. Bununla birlikdə, dünya elmi və ictimai praktika sübut edib ki,

istənilən dövlət elə inkişafının mərhələlərində üzv çıxan üniversal əlamətlər dəstinə malik olur. Bu əlamətlərin məcmusu və qarşılıqlı əlaqəsi dövlətə aşağıdakı tərifi verməyə imkan verir:

> **Dövlət** – *cəmiyyətin elə vahid siyasi təşkilatıdır ki, öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə şamil edir, bunun üçün xüsusi idarəetmə aparatı üzrə, hamı üçün məcburi göstərişlər verir və suverenliyə malikdir.*

5. Hüquqi dövlətin səciyyəvi xüsusiyyətləri. Dövlətin tipləri, idarəçilik formaları, dövlət quruluşu forması, dövlət rejimi formaları

Öz fəaliyyətini qanun əsasında həyata keçirən təşkilat kimi dövlət haqqında təsəvvürlər Insan sivilizasiyası inkişafının artıq ilk mərhələlərində yaranmağa başlamışdı. Hüquqi dövlət ideyası ilə ictimai həyatın daha təkmil və ədalətli forması axtarışları əlaqələndirilirdi. Qədim mütəfəkkirlər (Sokrat, Demokrit, Platon, Aristotel, Polibiy, Sitseron) hüquq və dövlət hakimiyyəti arasında o dövr cəmiyyətinin ahəngdar fəaliyyətini təmin edə biləcək əlaqələri aydınlaşdırmağa cəhd göstərirdilər. Qədim alimlər hesab edirdilər ki, Insanların o siyasi birgəyaşayış forması nisbətən səmərəli və ədalətlidir ki, orada qanun vətəndaşlar üçün olduğu kimi, dövlətin özü üçün də ümumi məcburi qüvvəyə malikdir.

Qədim mütəffəkirlərin fikrincə, hüququ qəbul edən və eyni zamanda onunla məhdudlaşdırılan dövlət hakimiyyəti ədalətli dövlət hesab edilir. Aristotel yazırdı: «harada qanunun hakimiyyəti yoxdur, orada hər hansı dövlət quruluşu formasına da yer yoxdur» (Aristotelğ. Politika. M., 1911, s.165)

Qrotsi – təbii hüquq məktəbinin ilk görkəmli nəzəriyyəçisi idi. Onun nəzəriyyəsinə görə təbii hüquq və iradəvi hüquq mövcuddur. Təbii hüququn mənbəyi Insanın təbiəti, Insanın zəkasıdır. Təbii hüququn tələblərinə o, özgə əmlakından çəkinməni, vədə əməl etmək vəzifəsini, təqsirkarın zərəri ödəməsini, habelə cəzaya layiq adamların cəzalandırılmasını aid edir. Dövlətn məhsulu olan iradəvi hüquq bütövlükdə təbii hüququn prinsiplərinə uyğun gəlməlidir.

Spinoza qanunlarla bağlı olan, inkişafın həqiqi hüquq və azadlıqlarını təmin edən demokratik dövlətin nəzəri əsaslarını ilk dəfə verənlərdən biri idi. O, təsdiq edirdi ki, dövlət o vaxt güclü olur ki, o, hər bir vətəndaşa təkcə həyatının deyil, həm də onun mənafeyinin təmin olunmasına təminat versin və hökmdarları mülkiyyətə, təhlükəsizliyə, şərəfə, azadlığa və təbəələrin digər nemətlərinə qəsdlərdən qorusun (Bax: Spinoza B. İzbr. soçinenie T. II., M. 1957, s. 207-209, 261).

İngiltərədə mütləq monarxiyanın müdafiəçisi olub, həm də ictimai həyatda hüququn hökmranlığı haqqında, sonradan inqilabi burjua mütəfəkkirləri tərəfindən inkişaf etdirilmiş bir sıra mütərəqqi müddəalar hazırlamışlar. Onlara müqavilələrin pozulmazlığını, qanun qarşısında formal bərabərliyin əsaslandırılmasını aid etmək olar. Hobbo Insan azadlığını qanunla qadağan olunmayan hər şeyi etmək olar kimi başa düşməyi müdafiə etmiş və bununla da ictimai münasibətlərin nisbətən səmərəli hüquqi nizamasalma prinsipinin nəzəri əsaslarını qoymuşdu.

Lokk yazırdı ki, hüquqi dövlət şəraitində adamların azadlığı qanunvericilik hakimiyyəti tərəfindən müəyyən olunan, hamı üçün möhkəm qaydalardan ibarətdir. Bunun da mahiyyəti qanunun qadağan etmədiyi bütün hallarda öz arzusu ilə hərəkət etmək azadlığında, başqa insanın daimi, qeyri-müəyyən, naməlum özbaşına iradəsindən asılı olmamaqda ifadə olunur (Lokk D. İzbr. filosovskie proizvedeniə T. 2. M., 1960. s. 16-17).

Monteskye hüquqi dövlətin qurulmasını vətəndaş cəmiyyətində siyasi azadlığın zəruriliyi ilə izah edirdi. Onun siyasi azadlıq ideyası dövlət vətəndaşlarının təhlükəsizliyindən ibarət olan vətəndaş azadlığı ideyası ilə əlaqədardır. Hakimiyyətdən sui-istifadə edilməsini aradan qaldırmaq üçün hamı tərəfindən qanunlara ciddi əməl olunması zəruridir. «Azadlıq odur ki, qanunlarla icazə verilən hər şeyi edə biləsən. Əgər vətəndaş bu qanunlarla qadağan olunan şeyi edə bilərsə, onda onun azadlığı olmazdı. Belə ki, həmin şeyi başqa vətəndaşlar da edə bilər». (Monteskğe Ş. İzbr. proizvedeniə, M. 1955. s. 289).

Didro dövlət hakimiyyətinin hüquqi əsaslarını onun ictimai müqavilə üstündə qurulmuş suverenliyi ilə əsaslandırırdı. Onun fikrinə görə, dövlət hakimiyyəti cəmiyyətə mütəşəkkil forma verən ictimai müqavilənin məhsulu kimi yaranır. Adamlar mənafelərinin təmin edilməsi və hamının iradə və qüvvələrinin birləşdirilməsi məqsədilə dövlətə, yalnız qismən öz təbii müstəqilliyini verirlər. Dövlət hakimiyyəti suveren xalq iradəsinə saslanır. «Yalnız millət həqiqi suverendir. Əsl qanunverici yalnız xal qola bilər, yalnız xalqın iradəsi siyasi hakimiyyətin mənbəyidir (İstoriə politiçeskix uçeniy Ç. 1. M., 1971, s. 181). Dövlətin başlıca məqsədi vətəndaşların ayrılmaz hüquqlarını və onların xoşbəxtliklərini təmin etməkdir. Didronun bu ideyaları Kantın hüquqi dövlət nəzəriyyəsində fəlsəfi cəhətdən əsaslandırılmış və başa çatdırılmışdır.

«Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Bəyannaməsi»nin müəllifi Cefferson Amerika qitəsində hüquqi dövlət ideyalarını praktiki olaraq həyata keçirir. İctimai müqavilə nəzəriyyəsi və təbii ayrılmaz Insan huquqları nəzəriyyəsi mövqeyindən o, sonarxiya idarəçilik formasını tənqid edir və xalq suverenliyi prinsipini müdafiə edir. Ceffersonun Bəyannaməsi təntənəli surətdə elan edir ki, ayrılmaz Insan hüquqları mövcuddur və onların təbii hüquqları dövlətə münasibətdə ayrı-ayrı fərdlərin subyektiv hüquqlarına çevrildi. Rəsmi dövlət doktrinası üçün bu, tamam yeni müddəa idi, belə ki, əvvəllər hesab edilirdi ki, Insana hüquqları dövlət verir.

Bu dövrdə hüquqi dövlətin əsasını təşkil edən ideyaları, habelə Volter, Helvetsi, Russo, Peyn və b. görkəmli mütəfəkkirlər əhəmiyyətli dərəcədə zənginləşdirmişlər.

Kant mərkəzində Insan, şəxsiyyət duran hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını müfəssəl işləyib hazırlamış və əsaslandırmışdır. Filosof xalqın iradəsini ifadə edən konstitusiyanın qəbul etmək yolu ilə hüquq qaydası yaradılmasında onun öz iştirakını tələb etməsi müstəsna hüququnu ümumi hüququn mühüm prinsipi hesab edirdi. Xalqın aliliyi hüquqi qanunlara tabe olan çoxlu insanlar birliyi» (Kant İ. soç. T. 4. ç. II. s. 233) kimi çıxış edən dövlətdə bütün vətəndaşların azadlığı, bərabərliyi və müstəqilliyini şərtləndirir. Dövlətin konstitusiya hüququ əsasında fəaliyyət göstər-

diyi, xalqın ümumi iradəsinə cavab verdiyi yerdə dövlət hüquqidir, orada vətəndaşların şəxsi azadlığı və vicdanı, fikri, təsərrüfat fəaliyyəti sahəsində hüquqları məhdudlaşdırıla bilməz.

Hüquqi dövlətdə hakimiyyətdə olanların vətəndaşa münasibətdə qanunun icrasına məcburetmə imkanı nə qədərdirsə, vətəndaş da hakimiyyətdə olanlara münasibətdə o qədər imkana malik olmalıdır. Hüquqi təşkilatın imkanını, Kant hakimiyyətin parlamentə məxsus qanunverici, hökumətə məxsus – icra və xalq tərəfindən seçilən andlı iclasçılar məhkəməsi tərəfindən həyata keçirilən məhkəmə hakimiyyətlərinə bölgüsü ilə bilavasitə əlaqələndirir.

Kantın hüquqi dövlət fəlsəfi konsepsiyası sivilizasiyalı cəmiyyətin siyasi – hüquq fikrinin və dövlət – hüquq quruculuğu praktikasının sonrakı inkişafına əhəmiyyətli təsir göstərmişdi.

Hegel dövlətə, mühüm hissəsi hüquq fəlsəfəsi olan dünya haqqında fundamental fəlsəfəsi təsəvvürlərinin ümumi sistemi kontekstində baxır. Hegelin izahında dövlət də hüquqdur, lakin daha inkişaf etmiş və məzmunca zəngin hüquqdur. Belə ki, o, özündə bütün digər hüquqların şaxsiyyət, ailə və cəmiyyət hüquqlarının tanınmasını əks etdirir. Şəxsiyyət və cəmiyyət üzərində dayanan dövləti mütləqə yüksəltməklə, Hegel sübut edir ki, dövlətin varlığı vətəndaş cəmiyyətinin inkişafından əvvəl gəlir. Bu təsdiqdə, Marks dövlətin Hegel konsepsiyasının başlıca nöqsanını görürdü, belə ki, real həqiqətdə cəmiyyət dövlətdən əvvəl yaranır, axırıncı isə inkişaf etmiş cəmiyyətin məhsulu və nəticəsidir.

Hegelə görə, dövlət reallaşdırılmış azadlıqların hökmranlığını irəli sürən, hər şeyin hüquqi əsasldarla qurulduğu ictimai həyatın nisbətən təkmilləşdirilmiş təşkilatıdır. (Bax: Qeqelğ. Filosofiə prava M., 1990. s.95). məhz dövlətdə və dövlət vasitəsi ilə Insanın ali əxlaqi dəyərləri reallaşır. Ona görə də dövlət «əxlaqi ideyaların gerçəkliyi»dir. Vətəndaş cəmiyyəti hüquqi təsisatlar vasitəsi ilə ayrı-ayrı şəxslərin mənafeyini müdafiə edir və onların mülkiyyətini mühafizə edir, müəyyən ictimai qaydanı qoruyur.

Dövlətə Hegel baxışının dəyəri ondan ibarətdir ki, həmin baxışlarda dövlətin məcburetmə, zor funksiyaları o qədər də vacib rol oynamır. Başlıcası dövlət fəaliyyətinin dəqiq sosial və hüquqi

istiqaməti, onun dərin əxlaqi məzmunu, cəmiyyət və fərd üçün səmərəli və faydalı olmasıdır.

Marks dövlət və hüquqa ictimai inkişafın sinfi nəzəriyyəsindən çıxış edərək baxırdı. Həmin nəzəriyyəyə uyğun olaraq sinifsiz cəmiyyətə keçid prosesində proletariat diktaturasının yaranması nəticəsində siniflərin yox olması ilə dövlət və hüquq da yox olur (Bax: Marks K., Gnqelğs F., Soç. t.28, s.427).

Hüquqi dövlət ideyaları rus siyasi-hüquqi fikrində də özünün geniş əksini tapmışdır. Bu ideyalar D.İ.Pisaryevin, A.İ.Gertsenin, N.Q.Çernışevskinin, A.İ.Radişevin, P.İ.Pestelin, N.M.Muravyovun və feodalizmin qanunsuzluqlarını əsaslı tənqidə məruz qoyan başqa mütəfəkkirlərin əsərlərində şərh olunmuşdur.

Hüquqi dövlətin rus konsepsiyası nəzəri sonluğunu oktyabraqədərki dövrün görkəmli hüquqşünas və filosoflarının – N.M.Korkunovun, S.A.Kotlyarevskinin, P.İ.Novqorodtsevin, S.A.Muromtsovun, V.M.Gessenin, Q.F.Şerşeneviçin, B.N. Çeçerinin, N.A.Berdyayevin və başqalarının əsərlərində tapdı. Onların dövlət və hüquqa dair baxışları siyasi və hüquqi nəzəriyyələr tarixinin öyrənmə predmetidir.

Son illər ölkədə gedən islahatlar prosesi istiqamətində, dövlət və hüquqa elmi baxışlarda ciddi dəyişikliklər baş verdi, cəmiyyətin siyasi sistemində onların rolunun qiymətləndirilməsinə yeni yanaşma aydın göründü. Müasir inkişaf etmiş ölkələrdə hüquqi dövlətçiliyin qurulması və fəaliyyəti təcrübəsindən, keçmişin və indinin elmi biliklərindən istifadə edərək, ölkəmizin hüquqşünaslığı, fəlsəfi, iqtisadi və siyasi cəmiyyətimizdə gələcək hüquqi dövlətin real cizgilərini çəkdilər.

Hüquqi dövlətin əsas səciyyəvi xüsusiyyətləri

Hüquqi dövlət – *çoxölçülü, inkişafda olan hadisədir. İctimai tərəqqi gedişində o, cəmiyyətin konkret mövcudolma şərtlərinə və inkişaf səviyyəsinə uyğun yeni xüsusiyyətlər əldə edir, yeni məzmunla zənginləşir*. İstənilən hüquqi dövlətin daimi ümumi əsası, onun hüquqla bağlılığıdır.

Hüquqi dövlət – dövlət hakimiyyətinin təşkili və fəaliyyətinin fərdlərlə və onların müxtəlif birlikləri ilə qarşılıqlı münasibətlərdə hüquq norması əsasında qurulan formasıdır. Bu zaman hüquq yalnız o halda üstün rol oynayır ki, o, hamının və hər kəsin azadlıq ölçüsü kimi çıxış etsin, qüvvədə olan qanunlar real olaraq xalqın və dövlətin mənafeyinə xidmət etsin və onların realizəsi ədalətin təcəssümü olsun. Qanunvericiliyin inkişafı, hələ cəmiyyətdə hüquqi dövlətin olması demək deyil. Yaxın illərin təcrübəsi göstərir ki, totalitar dövlətlərdə müntəzəm olaraq hüquqi aktlar verilir, onların sərt realizəsi təmin olunur, lakin belə hüquqi nizamasalma hüquqi dövlətin əksidir.

HÜQUQİ DÖVLƏTİN İQTİSADİ ƏSASI – bərabərhüquqlu və hüquqi cəhətdən eyni cür müdafiə olunan müxtəlif mülkiyyət formalarına (dövlət, kollektiv, icarə, səhmdar, kooperativ və b.), çoxukladlılığa əsaslanan istehsal münasibətləridir. Hüquqi dövlətdə mülkiyyət bilavvasitə maddi nemətlərin istehsalçılarına və istehlakçılarına məxsus olur: fərdi istehsalçı öz şəxsi əməyinin məhsulunun mülkiyyətçisi kimi çıxış edir. Dövlətçiliyin hüquqi əsasları yalnız hüququn hökmranlığını, istehsal münasibətləri iştirakçılarının bərabərliyini, cəmiyyətin inkişafının və onun rifahının daim yüksəlməsini iqtisadi cəhətdən təmin edən müstəqil və azad mülkiyyət olan yerdə həyata keçirilir.

HÜQUQİ DÖVLƏTİN SOSİAL ƏSASININI AZAD VƏTƏNDAŞLAR – ictimai tərəqqinin təmsilçilərini birləşdirən .zünü tənzimləyən vətəndaş cəmiyyəti təşkil edir. Bu dövlətin diqqət mərkəzində Insan, onun müxtəlif maraqları durur. Sosial institutular, ictimai əlaqələr sistemi vasitəsi ilə hər bir vətəndaşın öz yaradıcılıq, əmək imkanlarını realizə etmək üçün zəruri imkanlar yaradılır. Fikir plüralizmi, şəxsi hüquq və azadlıqlar təmin olunur. Totalitar idarəetmə metodlarından hüquqi dövlətə keçid dövlətin sosial fəaliyyətinin istiqamətinin kəskin dəyişməsi ilə vətəndaşların sosial-iqtisadi, siyasi və mənəvi mənafeləri üzərində «sahibsizləşdirilmiş» istehsalın üstünlüyündən imtina ilə bağlıdır. Dövlətin möhkəm sosial əsası onun hüquqi dayaqlarının sabitliyini

müəyyən edir. Hüquqi dövlət – eyni zamanda həm də sosial dövlətdir.

HÜQUQİ DÖVLƏTİN ƏXLAQİ ƏSASINI humanizm və ədalət, bərabərlik və şəxsiyyətin azadlığı, onun şərəf və ləyaqəti kimi ümumbəşəri prinsiplər təşkil edir. Hüquqi dövlət rejimi Insanın ali əxlaqi dəyərlərini real təsdiq edir, ictimai həyatda onların müəyyənedici rolunu təmin edir, şəxsiyyət üzərində zülm və zorakılığı istisna edir. Bu konkret olaraq demokratik dövlət idarəetmə metodlarında, mühakimənin ədalətliliyində, dövlətlə qarşılıqlı münasibətlərdə şəxsiyyətin hüquq və azadlıqlarının üstünlüyündə, azlıqların hüquqlarının müdafiəsində, müxtəlif dini baxışlara yol verilməsində və ifadə olunur. Dövlət həyatının mənəvi dolğunluğu – əhəmiyyətli dərəcədə cəmiyyətin bütövlükdə əxlaqi yetkinliyini, onun mədəni səviyyəsini, sosial-iqtisadi siyasi münasibətlərdə humanizm müəyyənləşdirir.

Hüquqi dövlət – ölkədə məskunlaşmış xalqların, millətlərin suverenliyini özündə cəmləşdirən suveren dövlətdir. Hakimiyyətin aliliyini, ümumiliyini büt.vlüyünü və müstəsnalığını həyata keçirərək, bu dövlət bütün vətəndaşlar üçün ədalətli əsaslarla ictimai münasibətlər azadlığını təmin edir. Hüquqi dövlətdə məcburetmə hüquq əsasında həyata keçirilir. Dövlət suverenliyini mühüm göstəricisi olmaqla məcburetmə hüquqla məhdudlaşır, qanunsuzluğu və özbaşınalığı istisna edir. Dövlət gücü məntiqə uyğun (hüquqi) hədlərdə və yalnız o hallarda tətbiq edir ki, onun suverenliyinə, vətəndaşlarının mənafelərinə toxunmamış olsun. Əgər hər hansı Insanın davranışı başqa Insanların azadlığını təhlükəyə məruz qoyursa, onda o (dövlət) həmin adamın azadlığını məhdudlaşdırır.

DÖVLƏTİN SİYASİ TƏBİƏTİ onun suverenliyində daha dəqiq təzahür edir. Cəmiyyətin siyasi sisteminin müxtəlif həlqələrinin tələbat maraqlarının bütün qammaları məhz suverenlikdə cəmləşir. Suverenlik sayəsində dövlət və qeyri-dövlət təşkilatlarının mənafeləri əlaqələndirilir, onların ədalətli hüquqi tarazlığı və azad inkişafı təmin olunur.

İndi isə hüquqi dövlətin əsas əlamətlərini nəzərdən keçirək.

1. İctimai həyatın bütün sahələrində qanunun aliliyi. Hüquqi dəyərlər sistemində Insan azadlığının təşkili və müdafiəsinin ali ifadə forması qanundur. Qanunlarda dövlət bərabərlik və ədalətlilik əsasında ictimai inkişafın obyektiv tələblərini maksimal dərəcədə nəzərə almalı olan ümumməcburi davranış qaydaları müəyyən edir. Məhz buna görə də qanun ali hüquqi qüvvəyə malikdir. Bütün digər hüquqi aktlar qanuna uyğun olmalıdır. Qanunlar ictimai həyatın daha vacib əsas tərəflərini nizama salır. Onlar həyatın mühüm sahələrində azadlıq ölçüsü müəyyən edir, cəmiyyətin əxlaqi dəyərlərini mühafizə edir (məsələn, mülkiyyət haqqında, sahibkarlıq fəaliyyəti haqqında, səhmdarlar cəmiyyəti haqqında, ictimai birliklər haqqında, vicdan azadlığı haqqında, mətbuat haqqında və s. qanunlar). Qanun qüvvəli aktlar, xüsusən idarə aktları zəruri hallarda, qanunların bəzi müddəalarını yalnız konkretləşdirə bilər; lakin heç bir halda qanunu «təkmilləşdirə», «düzəldə», «dəyişdirə» bilməz.

Eyni zamanda, hüquqi qanun qanunvericinin özbaşınalığına yol vermr. Qanunlarda obyektiv təşəkkül tapmış ictimai münasibətlər, onların inkişaf və özünü yeniləşdirmə meyli ifadə olunmalıdır. Müxtəlif növlü qanunvericilik və subyektiv xarakterli qadağanlar hüquqi dövlətin əsaslarını sarsıdır, ictimai tərəqqini ləngidir.

Hüquqi dövlətin əsas qanunu – konstitusiyadır, onda dövlət həyatının və ictimai həyatın hüquqi prinsipləri ifadəsini tapıb. Konstitusiya cəmiyyətin ümumi hüquq modelidir ki, buna da bütün cari qanunvericilik uyğun olmalıdır. Dövlətin heç bir hüquqi aktı konstitusiyaya zidd olmamalıdır. Konstitusiyanın üstünlüyü hüquqi dövlətin ayrımaz əlamətidir. Buna görə də hüquqi dövlət – konstitusiyalı dövlətdir.

Qanunun, hər şeydən əvvəl, konstitusiyanın aliliyi möhkəm hüquqi qanunçuluq rejimi, cəmiyyətdə ədalətli hüquq qaydasının sabitliyini yaradır.

2. Şəxsiyyət hüquqlarının reallığı, onun azad inkişafının təmin edilməsi.

Sosial-siyasi həyatda Insan azadlığı onun hüququ kimi çıxış edir. Hüquqi dövlət fərd üçün müəyyən azadlıq sahəsi təsdiq edir ki, bura da dövlətin müdaxiləsi yolverilməzdir. Dövlət hakimiyyətinin "qarışmamaq" vəzifəsi fərdin bunu tələb etmək hüququna uyğundur. Həmin hüququn pozulması zamanı o məhkəmə müdafiəsi ilə təmin olunur. Belə şəraitdə faktiki azadlıq, azadlıq hüququna çevrilir. Hüquq azadlığın ümumi miqyası və bərabər ölçüsü olur. Onun real təzahürü aşağıdakı formulada ifadə olunur: "Fərdə qadağan edilməyən hər şeyi etməyə ona icazə verilir" və əksinə "hakimiyyətə icazə verilməyən hər şey, ona qadağandır".

Fərdin azadlığının hüquqi xarakteri ictimai həyatın müxtəlif sahələrində təzahür edir. Müasir demokratik dövlətdə obyektiv azadlıq hüququ öz konkret məzmununa görə müxtəlif olan subyektiv şəxsiyyət hüquqlarında həyata keçirilir. Onlardan başlıcası isə dövlətin fərdin mənafeyi üçün müsbət hərəkətlərinə fərdin hüququdur: şəxsiyyətin toxunulmazlığı hüququ, təhsil hüququ, sosial təminat həququ, məhkəmə müdafiəsi, dövlət ərazisində sərbəst hərəkət və i.a.

Şəxsiyyət azadlığının təminat və inkişaf dərəcəsi dövlətin hüquqi əsaslarının yetkinliyi ilə, obyektiv sosial-tarixi, iqtisadi və mənəvi zəminlə şərtləndirilir.

3. Dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti. Siyasi hakimiyyətin daşıyıcısı kimi dövlət və onun formalaşması və həyata keçirilməsinin iştirakçısı kimi vətəndaş arasındakı qarşılıqlı münasibətlər bərabər və ədalətli əsaslarla qurulmalıdır. Şəxsiyyət azadlığı həddini qanunlarda müəyyən edərək dövlət elə həmin həddə də öz qərar və hərəkətlərində özünü məhdudlaşdırır. O, hər bir vətəndaşa münasibətdə ədaləti təmin etmək öhdəliyini götürür. Dövlət orqanları hüquqa tabe olaraq onun göstərişlərini poza bilmir və bu vəzifələrin pozulmasına və yerinə yetirilməsinə görə məsuliyyət daşıyır. Dövlət hakimiyyəti üçün qanunun məcburiliyi inzibati özbaşınalığı istisna edən təminatlar sistemi ilə qorunur. Onlara deputatların seçicilər qarşısında məsuliyyəti (deputatın geri çağırılması); hökumətin nümayəndəli orqan qarşısında məsuliyyəti; dövlətin istənilən səviyyəli vəzifəli şəxslərinin hüququn konkret

subyektləri qarşısında öz vəzifələrini yerinə yetirməməyə görə intizam, mülki-hüquqi və ya cinayət məsuliyyəti aid edilir..

Elə həmin hüquqi əsaslar da şəxsiyyətin dövlət qarşısında məsuliyyəti müəyyən edilir. Dövlət məcburetməsinin tətbiqi hüquqi xarakter daşımalı, şəxsiyyət azadlığının həddini pozmamalı, baş vermiş hüquq pozuntusunun ağırlığına müvafiq olmalıdır.

Dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyətinin hüquqi xarakteri – dövlətin iradə ifadəsinin məhsulu olmayıb cəmiyyətdə obyektiv təşəkkül tapmış hüququn mühüm tərkib hissəsidir. Hüquqi tələblərə riayət etmək – hamının hər şeydən əvvəl dövlətin hüquqi vəzifəsidir. Bununla da hüquqi dövlətdə ayrılmaz təbii nsan hüquqları xüsusi olaraq nəzərə çarpdırılır.

Hüquqi dövlətin təşkili və fəaliyyətinin əsas prinsipi hakimiyyətlərin bölgüsüdür. Bu prinsip, bir tərəfdən, qanunverici hakimiyyətin aliliyini, digər tərəfdən isə icra və məhkəmə hakimiyyətinin qanuna tabe olmasını müəyyən edir. Vahid dövlət hakimiyyətinin üç nisbətə sərbəst və müstəqil sahələrə ayrılması hakimiyyətdən sui-istifadəni və dövlət tərəfindən hüquqla əlaqəsi olmayan totalitar idarəçiliyin yaranmasının qarşısını alır, hakimiyyətlərdən hər birinin dövlət hakimiyyətinin ümumi sistemində öz yeri var və yalnız onlara xas vəzifə və funksiyaları yerinə yetirirlər. Hakimiyyətlərin tarazlığı xüsusi təşkilati-hüquqi vasitələrlə saxlanılır ki, bu da təkcə qarşılıqlı fəaliyyəti deyil, həm də müəyyən edilmiş həddə səlahiyyətlərin qarşılıqlı məhdudlaşdırılmasını təmin edir. Eyni zamanda onlar elə həmin səlahiyyətlər həddində bir hakimiyyətin başqa birindən qeyri-asılılığına təminat verir.

Qanunverici hakimiyyət – dövlət həyatının və ictimai hüquqi əsaslarını, ölkənin daxili və xarici siyasətinin əsaslarını, müəyyən etdiyinə görə, deməli, həm də nəticə etibarilə icra və məhkəmə hakimiyyətlərinin fəaliyyətlərinin hüquqi təşkilini və formasını müəyyən etdiyinə görə aliliyə malikdir. Hüquqi dövlət mexanizmində qanunverici orqanların üstün mövqeyi onların qəbul etdikləri qanunların ali hüquqi qüvvəsini şərtləndirir. Onlarda ifadə olunan hüquq normalarına ümumməcburi xarakter verir.

Lakin qanunverici hakimiyyətin ililiyi mütləq xarakter daşımır. Onun fəaliyyət hədləri hüququn prinsipləri ilə, təbii Insan hüquqları ilə, azadlıq və ədalətlilik ideyaları ilə məhdudlaşdırılır. O, xalqın və xüsusi konstitusiyon orqanların nəzarəti altında olur. Bu orqanların köməyi ilə qanunların qüvvədə olan konstitusiyaya uyğunluğu təmin olunur.

İcraəedici hakimiyyət öz orqanları vasitəsi ilə qanunverici tərəfindən qəbul edilmiş hüquq normalarının bilavasitə realizəsi ilə məşğul olur. Onun fəaliyyəti qanuna əsaslanmalı, qanun çərçivəsində həyata keçirilməlidir. İcra orqanları və dövlətin vəzifəli şəxsləri vətəndaşların və təşkilatların qanunda nəzərdə tutulmayan, yeni hüquq və ya vəzifələrini müəyyən edən ümumməcburi aktlar verə bilməzlər. İcra hakimiyyəti o halda hüquqi xarakter daşıyır ki, o, qanuna tabe olsun, qanunçuluq əsasında fəaliyyət göstərsin. İcra hakimiyyətinin məhdudlaşdırılmasına, habelə onun nümayəndəli dövlət hakimiyyət orqanları qarşısında məsuliyyəti və hesabat verməsi vasitəsi ilə nail olunur. Hüquqi dövlətdə hər bir vətəndaş icra orqanlarının və vəzifəli şəxslərin hər hansı qeyri-qanuni hərəkətlərindən məhkəmə qaydasında şikayət edə bilər.

Məhkəmə hakimiyyəti hüququ, dövlət həyatının və ictimai həyatın hüquqi əsaslarını, kimin törətməsindən asılı olmayaraq, hər hansı pozuntudan mühafizə etmək səlahiyyətinə malikdir. Hüquqi dövlətdə ədalət mühakiməsi yalnız məhkəmə orqanları vasitəsi ilə həyata keçirilir. Heç kəs özünə məhkəmə funksiyası mənimsəyə bilməz. Öz hüquq mühafizə fəaliyyətində məhkəmə yalnız qanunu hüququ rəhbər tutu rvə qanunverici və icra hakimiyyətlərinin subyekti təsirindən asılı deyildir. Ədalət mühakiməsinin müstəqilliyi və qanuna tabe olması vətəndaşların hüquq və azadlıqlarının, bütövlükdə hüquqi dövlətçiliyin mühüm təminatıdır.

Bir tərəfdən, məhkəmə qanunverici və ya icraedici hakimiyyət funksiyası mənimsəyə bilməz, digər tərəfdən, bu hakimiyyətlərin normativ aktlarına təşkilati-hüquqi nəzarət onun mühüm vəzifəsidir. Beləliklə, məhkəmə hakimiyyəti istər dövlət hakimiyyətinin qanunverici, istərsə də icra orqanları tərəfindən hüquqi və hər

şeydən əvvəl, konstitusion qaydaların pozulmasının qarşısını alan, bununla da real hakimiyyətlər bölgüsünü təmin edən məhdudlaşdırıcı amil kimi çıxış edir.

Bir sıra ölkələrdə konstitusiya-hüquq nəzarəti funksiyasını konstitusiya məhkəmələri yerinə yetirir. Öz fəaliyyəti ilə onlar qanunvericinin hüquq yaradıcılığı işində konstitusiyanın aliliyini təmin edirlər. Rusiyada bu funksiyanı Rusiya Federasiyasının Konstitusiya məhkəməsi yerinə yetirir. ABŞ-da bu funksiya iki əsrdən artıq ABŞ Konstitusiyasının toxunulmazlığını və onun konstruktiv inkişafını təmin edən Ali Məhkəməyə həvalə edilmişdir.

Hüquqi dövlətin əsas səciyyəvi xüsusiyyətləri bunlardır. Bunlarda dövlət təşkilatlı cəmiyyətin uzunmüddətli inkişaf prosesində formalaşmış ümumbəşəri dəyərlər cəmlənmişdir. Insan həyatının təbii tərəqqisi hüquqi dövlət quruculuğu nəzəriyyəsinə və praktikasına yeni elementlər daxil edir və edəcəkdir.

Dövlətin tipləri

Konkret tarixi dövrün xüsusiyyətləri cəmiyyətin inkişafının vəziyyəti və səviyyəsi ilə müəyyən edilir. Formal əlamətlərin (ərazi, kütləvi hakimiyyət, suverenlik) dəyişmədiyi halda dövlət ictimai inkişafa uyğun olaraq ciddi dəyişikliyə uğrayır. Məzmun və idarəetmə metodu, məqsədlər, vəzifələr və sosial meyl dəyişir. Dövlətçiliyin və dövlət quruluşunun xarakterinə əhalinin milli tərkibi, onun özünəməxsus mədəniyyəti, ərazi ölçüsü, coğrafi vəziyyəti, xalqın kök salmış adət və ənənələri, dini baxışları və başqa amillər təsir göstərir.

Dövlətin marksist tipologiyası əsasında duran **formasiya** meyarı istismarçı dövlətin üç əsas tipini ayırır: quldarlıq, feodal, burjuaziya. Axırıncı tarixi tip – sosialist dövlətidir ki, bu da yaxın tarixi perspektivdə nəzəri olaraq ictimai kommunist özünüidarəsinə çevrilməli idi.

Bu konsepsiya əsasında bölünmüş müxtəlif dövlət tiplərinin əsas səciyyəsini göstərək.

Quldarlıq dövlət tipi – cəmiyyətin ilk tarixi dövlət – sinifli təşkilatı. Mahiyyətinə görə quldarlıq dövləti – quldarlıq ictimai

iqtisadi formasiyasında hakim sinfin siyasi hakimiyyət təşkilatıdır. Bu dövlətlərin mühüm funksiyası quldarların istehsal vasitələrinə, o cümlədən qullara olan mülkiyyətinin müdafiəsidir.

Feodal dövlət tipi – quldarlıq quruluşunun dağılmasının və feodal ictimai-iqtisadi formasiyasının yaranmasının nəticəsidir. Feodal dövlət tipinə istehsal münasibətlərinin müəyyən tipi uyğundur. Bu cür dövlət marksist nəzəriyyəyə uyğun olaraq, təhkimçi – mülkədar sinfi hökmranlıq aləti, feodalların silki üstünlüyünün müdafiəsi vasitəsi, asılı kəndliləri əzmək və istismar etmək vasitəsidir. Dövlət hakim sinfin torpağa təhkimli kənlilərə və onların əməyinin əsas hissəsini mənimsəməyə hüququnu təmin edir.

Burjua dövlət tipi – feodal dövlətini əvəz edir. Dövlətin bu tipi istehzsal vasitələri üzərində kapitalist xüsusi mülkiyyətinə və fəhlələrin istismarçılardan hüquqi müstəqilliyinə əsaslanın istehsal münasibətləri bazasında fəaliyyət göstərir. Marksizm sübut edirdi ki, inkişafının bütün mərhələlərində burjua dövləti burjuaziyanın istismar olunan proletariat və başqa zəhmətkeşlər üzərində sinfi hökmranlıq alətidir. Burjuaziya sinfinin iqtisadi, siyasi və ideoloji hökmranlığına həm də burjuaziyanın sinfi iradəsini ifadə edən, kapitalist ictimai münasibətlər sistemini mühafizə edən burjua hüquq tipi uyğundur.

Sosialist dövlət tipi – xüsusi mülkiyyət münasibətlərini və həmin münasibətlərə əsaslanan dövlət maşınını devirən sosialist inqilabı nəticəsində yaranır. Özündən əvvəlkiləri istismarçı istehsal münasibətləri tipi kimi inkar edərək, yeni dövlət elə iqtisadi münasibətlər sistemi yaradır ki, bu sistem istismardan azad Insanların əməkdaşlığını nəzərdə tutan istehsal alət və vasitələri üzərində ictimai mülkiyyətə əsaslanır. Sosialist dövləti zəhmətkeşlər sinfinin siyasi hakimiyyət alətidir. Marksist-leninçi təsəvvürə görə, o, əməkçi xalqın maraqlarını ifadə edir, sosialist cəmiyyətinin müdafiəsini və inkişafını təmin edir.

Sosialist hüquq tipi – cəmiyyətin ali hüquq sistemi tipi olub butun istismarçı hüquq tiplərinə tamailə ziddir. Sosialist hüququ zəhmətkeşlər sinfinin iradəsini qanun qüvvəsinə qaldırır, ictimai münasibətlərin sinfi tənzimləyicisi kimi çıxış edir. Sosialist

cəmiyyətinin yüksək fazaya, kommunizmə keçməsilə, dövlət və hüquq özünün bütün element və əlamətlərində tədricən ictimai kommunist özünüidarəsinə və kommunist həyatının sosial normalarına çevrilir.

Dünya siyasi-hüquqi fikri dövlətlərin tipologiyasının digər meyarlarını işləyib hazırlamışdı.

Dövlətlərin tiplər üzrə təsnifatının ən çox yayılmış və xarici elm tərəfindən geniş tanınmış olan əsaslarından biri «sivilizasiya» anlayışıdır. Belə ki, Q.Ellinek yazırdı ki, «daimi inkişafına və dəyişməsinə baxmayaraq, müəyyən dövlətə və ya dövlətlər qrupuna onların bütün tarixi boyu müəyyən tipin xassələrini verən bəzi möhkəm əlamətlər tapmaq olar». O, bütün dövlətləri iki tipə bölür: İdeal və emprik. İdeal tip – fikirdə olan dövlətdir ki, real həyatda mövcud deyil. İdeal tipə qarşı ayrı-ayrı real mövcud olan dövlətlərin bir-biri ilə müqayisəsi nəticəsində əmələ gələn emprik tip qoyulur. Ellinek empirik tip çərçivəsində dövlət ittifaqının xarakteri və fərdin bu ittifaqda tutduğu vəziyyət nöqteyi-nəzərindən aşağıdakı əsas tarixi dövlət tiplərini fərqləndirir: qədim şərq, yunan, roma, orta əsrlər və muasir.

İngilis tarixçisi A.Toynbi «sivilizasiya» anlayışını inkişaf etdirdi və konkretləşdirdi. Bu termin altında o, cəmiyyətin mədəni, iqtisadi, coğrafi, dini, psixoloji və başqa faktların ümumiliyi ilə fərqlənən nisbətən qapalı vəl okal vəziyyətini başa dühürdü. Hər bir sivilizasiya onun çərçivəsində mövcud olan bütün dövlətlərə sabit ümumilik verir.

İnsan cəmiyyəti tarixinə və onun dövlətçiliyinə sivilizasiyalı yanaşma müasir elmimizdə də getdikcə daha çox qəbul edilir. Ümumdünya tarixinin ən yeni tədqiqatları göstərdilər ki, cəmiyyətin strukturu, fəaliyyəti və inkişafının formasion izahı birtərəflidir. Ona görə də qlobal və hərtərəfli xarakter daşımır. Cəmiyyətin və onun dövlət təşkilatının xüsusiyyətlərini və dərin mahiyyətini təşkil edən çoxlu tarixi hadisələr onun hüdudlarından kənarda qalır.

Birincisi, iqtisadi bazisin təhlili zamanı, cəmiyyətin sivilizasiyaya keçidi məqamından onu bütün tarix boyu müşaiət edən çoxukladlılıq kimi mühüm faktı nəzərdən qaçırılırdı. Bu əsaslı

faktın nəzərə alınması iqtisadi bazisin inkişafı qanunauyğunluğuna dair ənənəvi təsəvvürləri əhəmiyyətli dərəcədə dəyişir. Müxtəlif təsərrüfat ukladlarının xarakteri və xüsusi çəkisi əhəmiyyətli dərəcədə, təkcə bazisin özünü deyil, həm də köhnə təsərrüfat formalarının dağılması və yeni prinsipial iqtisadi formaların yaradılmasının özünəməxsusluğunu şərtləndirir.

İkincisi, sinifli cəmiyyətlərin strukturuna formasion baxış zamanı onların sosial tərkibi əhəmiyyətli dərəcədə daralır. Belə ki, əsasən yalnız antoqonist siniflər nəzərə alınır, yerdə qalan sosial təbəqələr tədqiqatdan kənarda qalır: onlar sinfi qarşıdurmanın ənənəvi modelinə daxil edilmir. Bununla da xalqların ictimai, o cümlədən dövlət-hüquqi həyatının sosial mənzərəsi birləşir.

Üçüncüsü, formasion yanaşma cəmiyyətin mədəni-ənənəvi həyatının təhlilini o ideyalar, təsəvvürlər və dəyərlər dairəsi ilə məhdudlaşdırır ki, onlar əsas antaqonist siniflərin maraqlarını əks etdirir. Nə antiqonist siniflərin maraqlarına, nə də, ümumiyyətlə hansısa sinfi mənşəyə aid edilməyən, Insanın əxlaqi dəyərlərinin, ideya və təsəvvürlərinin böyük hissəsi baxış dairəsindən kənarda qalır. Hər hansı xalqın mədəni-mənəvi aləminin özəyini onun ətraf adəm haqqında, həmin xalqın və onun fərdlərinin bu aləmdə hansı yeri tutması haqqında təsəvvürlərinin məcmusu təşkil edir. Bu təsəvvürlər kompleksi xalqın tarixi birliyini möhkəmlədən, müəyyən edən və müdafiə edən, onun inkişaf mənbəyi olan fundamental mədəni və əxlaqi sərvətlərinin yaradılmasının əsasında durur. Sosial ziddiyyətlər, şübhəsiz ki, bu sərvətləri dəyişikliyə məruz qoyur və zəiflədir, lakin ondar bu zaman başlıca şeyi – öz ümumxalq xarakterini itirmir.

Sivilizasiya konsepsiyası ictimai həyatın öyrənilməsində formasion yanaşmaya nisbətən daha geniş və zəngindir. O, siniflərin və sosial qrupların təkcə qarşı-qarşıya durmasını deyil, həm də ümumbəşəri dəyərlər bazasında onların qarşılıqlı əlaqə sahəsini, təkcə sinfi ziddiyyətlərin təzahürünü deyil, həm də Insan həyatının müxtəlif sahələrində onun bütün davranışına nüfuz edən mənəvi prinsiplərin ümumiliyini ayırmağa imkan verir. Sivilizasiya elə birgəyaşayış normaları yaradır ki, onların müxtəlif olmasına

baxmayaraq, bütün sosial və mədəni qruplar üçün, onları vahid bütöv çərçivədə saxlamaqla, mühüm əhəmiyyətə malik olur.

Sivilizasiyalı yanaşma, beləliklə, nəinki dövləti istismar edənlərin istismar olunanlar üzərində siyasi hakimiyyət aləti kimi görməyə imkan verir. Cəmiyyətin siyasi sistemində dövlət cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafının, Insanların müxtəlif tələbatının təmin edilməsinin mühüm amili kimi çıxış edir.

Qərbi Avropa elmi, bir qayda olaraq, dövləti dövlət hakimiyyəti və fərd arasında qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq təsnif edir. Bu əlamətə görə, dövlətçiliyin iki tipi ayrılır: demokratiya və avtokratiya (Avtokratiya – yunan sözündən, (auto - kratos) – qeyri-məhdud hüquqa malik, hakimi-mütləq). Q.Kelzen hesab edirdi ki, müasir dövlətləri tiplərə ayırmanın əsasında siyasi azadlıq ideyası durur. Fərdin hüquq qaydası yaradılmasında hansı yeri tutmasından asılı olaraq iki dövlət tipi fərqləndirilir. Əgər fərd hüquq qaydası yaradılmasında fəal iştirak edirsə – demokratiya, əgər iştirak etmirsə – avtokratiya mövcuddur. Dövlətin digər tipoloji əlamətlərini nəzərə almayaraq, Kelzen diqqəti əsasən dövlət hakimiyyətinin demokratizmini müəyyən edən Insan amilində cəmləşdirir (Bax: Kelğzen Q. Obhaə teoriə qosudarstva i prava. Kembridj, 1946).

Dövlətlərin tipologiyasının buna bənzər izahını amerikalı professor R.Makayver verir. O, bütün dövlətləri iki tipə bölür: 1) sülaləvi (dinastik, antidemokratik) – burada ümumi iradə (dövlət iradəsi) əhalinin əksəriyyətinin iradəsini ifadə etmir; 2) demokratik – burada dövlət hakimiyyəti bütün cəmiyyətin və ya onun əksər üzvlərinin iradəsini əks etdirir və xalq ya bilavasitə idarə edir, ya da hökuməti fəal surətdə müdafiə edir. Birinci qrupa Makayver «sinfi – nəzarət edilən dövlətlər»i (imperiyaları), habelə hökuməti cəmiyyətin imtiyazlı hissəsindən yaradılan yalançı demokratik (psevdodemokratik) dövlətləri daxil edir. İkinci qrupa o müasir dövlətləri aid edir ki, burada hakimiyyət və vətəndaş arasındakı münasibətlər ədalətli əsaslar və qarşılıqlı cavabdehlik əsasında qurulur, habelə, dövlət Insanı minimum azadlıq və inkişafla təmin edir (Bax: Makayver R. Sovremennoe qosudarstvo, Oksford, 1954).

Alman politoloqu R.Darendorf bütün dövlətləri antidemokratik və demokratik deyə iki qrupa bölərək belə nəticəyə gəlir ki, tədricən demokratikləşmə nəticəsində sinfi mübarizə cəmiyyəti vətəndaş cəmiyyətinə çevrilir.

Beləliklə, dövlət və hüquq tipi anlayışı çoxölçülü və çoxvariantlıdır. O, bu və ya başqa tarixi dövlətlər qrupu və hüquq sistemləri üçün xarakterik olan daha ümumi xüsusiyyətləri və əlamətləri ayırmağa imkan verən müxtəlif elmi əsaslar üzərində qurulur.

Dövlət və hüquq hadisələri tipologiyasının daha universal elmi meyarı indiki vaxtda bütün ictimai amillərin məcmusunu nəzərə almağa imkan verən, bu və ya digər konkret dövlətə müəyyən tip keyfiyyəti verən sivilizasiyalı yanaşma hesab olunur.

DÖVLƏTİN FORMALARI:
idarəçilik forması, dövlət quruluşu forması, dövlət rejimi forması

Dövlətlərin tipologiyası dövlətin forması anlayışı ilə sıx əlaqədardır. Hər bir konkret dövlət tipinin xüsusiyyətləri onun təşkilati quruluşunun dövlət hakimiyyətinin həyata keçirilməsi metodlarının təhlili əsasında müəyyən edilir.

Dövlətin tip və forması arasında dəqiq nisbət yoxdur. Bir tərəfdən, eyni bir dövlət tipi hüdudlarında dövlət hakimiyyətinin təşkili və fəaliyyətinin müxtəlif formaları mövcud ola bilər, digər tərəfdən isə müxtəlif tipli dövlətlər eyni formada təcəssüm edə bilər. İstənilən tarixi dövrün konkret dövlət formasının xüsusiyyəti, hər şeydən əvvəl, ictimai və dövlət həyatının yetkinlik dərəcəsi ilə, dövlətin qarşıya qoyduğu vəzifə və məqsədlərlə müəyyən olunur. Başqa sözlə, döələtin forması kateqoriyası bilavasitə onun məzmunundan asılıdır və onunla müəyyən olunur.

Dövlətin formasına xalqın mədəni səviyyəsi, onun tarixi ənənələri, dini görüşlərinin xarakteri, milli xüsusiyyətləri, məskunlaşmasının təbii şəraiti və başqa amillər mühüm təsir göstərir. Dövlətin formasının özünəməxsus xüsusiyyətlərini, habelə, dövlətin və onun orqanlarının qeyri-dövlət təşkilatları ilə

(partiyalarla, həmkarlar ittifaqları ilə ictimai hərəkatlarla, dini və digər təşkilatlarla) qarşılıqlı münasibətlərinin xarakteri də müəyyən edir.

Dövlətin forması – özündə qarşılıqlı əlaqədə olan üç ünsürü: idarəçilik formasını, dövlət quruluşu formasını və dövlət rejimi formasını birləşdirən mürəkkəb ictimai hadisədir.

Müxtəlif ölkələrdə dövlət formalarının ictimai inkişafla bağlı yeni məzmunla tamamlanan, qarşılıqlı əlaqədə və təsirdə zənginləşən öz xüsusiyyətləri, səciyyəvi əlamətləri vardır. Bununla bərabər, bütün mövcud dövlətlərin, xüsusilə də müasir dövlətlərin formaları ümumi əlamətlərə malikdir. Bu da dövlətin formasının hər bir ünsürünə tərif verməyə imkan verir.

1. İdarəçilik forması ali dövlət hakimiyyəti orqanlarının strukturunu, onların təşkili və onlar arasında səlahiyyətlər bölgüsü qaydasını özündə təcəssüm etdirir.

Dövlətin idarəçilik forması:

- ali dövlət orqanlarının necə yaradılmasını və onların hanıs quruluşa malik olmasını;
- ali və digər dövlət orqanları arasında qarşılıqlı münasibətlərin əsasında hansı prinsipin durduğunu;
- ali dövlət hakimiyyəti və ölkənin əhalisi arasında qarşılıqlı münasibətlərin necə qurulduğunu;
- ali dövlət orqanlarının təşkili vətəndaşların hüquq və azadlıqlarını nə dərəcədə təmin etməyə imkan verdiyini aydınlaşdımağa imkan verir.

Göstərilən əlamətlərə görə dövlətin idarəçilik formaları monarxiya (təkbaşına, irsi) və respublikaya (kollegial, seçkili) bölünür.

Monarxiya – ali dövlət hakimiyyətinin təkbaşına həyata keçirildiyi və bir qayda olaraq, irsən keçdiyi idarəçilik formasıdır.

Klassik monarxiya idarəçilik formasının əsas əlamətləri:

- öz hakimiyyətindən ömürlük istifadə edən təkbaşına dövlət başçısının (çar, kral, imperator, şah) mövcud olması;
- ali hakimiyyətin varisliyinin irsi qaydası;

- monarx tərəfindən dövlətin öz mülahizəsinə görə təmsil edilməsi;

- monarxın hüquq məsuliyyətsizliyi.

Monarxiya quldarlıq cəmiyyəti şəraitində yaranmışdır. Feodalizm dövründə o, dövlət idarəçiliyinin əsas forması olur. Burjuaziya cəmiyyətində isə monarxiya idarəçiliyinin yalnız ənənəvi, əsasən formal cəhətləri saxlamışdır.

Dövlət idarəçiliyinin monarxiya formasının müxtəlif növlərinin səciyyəsi üzərində təfsilatı ilə dayanaq.

Qədim Şərq monarxiyası. Bəşəriyyət tarixində ilk dövlət idarəçilik forması kimi, o, nadir, yalnız ona xas olan cəhətlərə malik idi. Şərq dövlətlərinin ictimai həyatında icma quruluşu, patriarxal məişət münasibətləri mühüm rol oynamışdır. Burada quldarlıq kollektiv və ya ailəvi xarakter daşımışdır və yalnız dövlət qulları bütünlüklə monarxa məxsus idi.

Qədim Şərq ölkələrində (Misirdə, Babilistanda, Çində, Hindistanda və s.) dövlət hakimiyyətinin təşkili şərq despotiyası (Despotiya – yun. Despot`eia – qeyri-məhdud hakimiyyət) (şərq istibdadı – tərcüməçidən) adlandırılır. Despotiya dedikdə, elə idarəçilik forması başa düşülür ki, burada despot öz təbəələrinə münasibətdə hərbi-bürokratik apparata arxalanaraq qeyri-məhdud irsi hakimiyyətdən istifadə edir.

Bununla bərabər, tarixi-hüququ abidələr despotik idarəçiliyin xalis formada Qədim Şərqin heç də bütün ölkələrində və onların uzun inkişafının bütün mərhələlərində mövcud olmadığını göstərir. Qədim Şumer dövlətlərində hökmdarın hakimiyyəti respublika idarəçiliyinin ünsürləri ilə əhəmiyyətli dərcədə məhdudlaşmışdı. Hökmdarlar ağsaqqallar şurası tərəfindən seçilirdi. Hökmdarların fəaliyyətinə əyanlar şurası və ya xalq yığıncaqları nəzarət edirdi. Beləliklə, hakimiyyət seçkili və məhdud xarakter daşıyırdı.

Qədim Hindistanda, hətta mərkəzi hakimiyyətin daha çox möhkəmlənməsi dövründə çar məmurları şurası əhəmiyyətli rol oynamışdır ki, bu da ali monarx hakimiyyətinin məhdudluğunu sübut edir. Bundan əlavə, qədim Hindistanda monarxiyalarla yanaşı

respublika idarəçilik formasında da dövlətlər (demokratik – «qanlar» və aristokratik – «sinqxlər») mövcud olmuşdur.

Tarixi-hüquq elminin bəzi görkəmli nümayəndələri belə nəticə hasil edirlər ki, Şərq despotiyası dedikdə, təbəələrin hakimiyyət özbaşınalığından tam asılı olduğu idarəçilik forması başa düşülməlidir. Həqiqətən də, belə quruluş qədim Asiya dövlətlərinin əksəriyyətində mövcud olmuşdur, lakin həmin dövlətlərdə hakimiyyət, bir qayda olaraq, təkbaşına hökmdara deyil, çoxsaylı hökmran qruplara məxsus idi. Həqiqi despotiya tarixdə uzun müddət davam edən sabit quruluş kimi deyil, zaman etibarilə çox qısa nadir hal kimi mövcud olmuşdur. Qədim Şərq ölkələrini despotik dövlət idarəçilik forması deyil, onların bəşəriyyət tarixində silinməz iz qoyan təkraredilməz sivilizasiyası birləşdirir.

Qədim Roma monarxiyası imperiya formasında (eramızın I-III əsrləri) mövcud olmuşdur. Roma imperiyasının tarixi iki dövrə bölünür: prinsipat (Prinsipat – lat. principatus – sezarlar hakimiyyəti, imperator hakimiyyəti (panceps – başçı sözündən)) dövrü və dominat (Dominat – lat. dominatio – təkhakimiyyətlilik, ali hakimiyyət) dövrü.

Prinsipat zamanı hələ formal olaraq respublika idarəçilik formasının ünsürləri və respublikanın əsas orqanları saxlanılır. Xalq yığıncaqlarında senat fəaliyyət göstərir. Konsullar pretorlar və xalq tribunaları seçilir, lakin onlar dövlət işlərinin həllində mühüm rol oynamırlar. Bütün əsas funksiyalar imperatorun əlində cəmləşir. Konkret şəraitdən asılı olaraq, o istənilən vəzifəli şəxsin səlahiyyətlərini icra; orduya komandanlıq edir, mülki işlər üzrə mühakimə edir, öz mülahizəsinə görə senatı dəstələşdirir, istənilən hakimiyyət orqanının qərarlarını ləğv edir, vətəndaşları həbs edir və o, İmperator qanunvericilik hakimiyyətinin əsas mənbəyidir, senat isə yalnız məşvərətçi rol oynayır.

Eramızın III əsrində Romada qeyri-məhdud monarxiya (dominat) bərqərar olur. Bu dövrdə respublika təsisatları tamamilə yox olur. Dövlətin idarə edilməsi müstəsna olaraq imperatorun əlində cəmləşir. İmperator özünün ilahi mənşəyə malik olduğunu

açıq elan etdi. Roma imperiyasında nizam-intizam çoxsaylı inzibati-məhkəmə və hərbi aparatın köməyi ilə mühafizə edilirdi.

Roma imperiyasına, xüsusilə də onun son mərhələlərində xas olan dövlət formaları orta əsrlərdə təqlid üçün nümunə oldu. Onlar Fransanın, Almaniyanın, İspaniyanın və İtaliyanın özünün dövlətçiliyində əhəmiyyətli dərəcədə real əks olundu.

Roma imperiyası – Roma sivilizasiyasının tərkibi hissəsidir. Bu dövr bəşəriyyət tarixinə yalnız Kaliqul və Neronu deyil, həm də Seneka və Pliniy, Mark Avreliy və Apuley, Korneliy Tasit və Appian, Petroniy və Flakk, Ovidiy və Marsial kimi görkəmli mütəfəkkirləri, alimləri, ədəbiyyatçıları, arxitektorları, hüquqşünasları, tarixçiləri vermişdir. Qədim Romanın misilsiz arxitektura əsərləri olan Kolizey və Panteon Insan təxəyyülünü bugünkü günə qədər heyran edir.

Feodal (orta əsrlər) monarxiyası öz inkişafında ardıcıl olaraq üç dövr keçir: ilk feodal silki nümayəndəli və mütləq monarxiya.

İlk feodal monarxiyası dövlət idarəçilik forması kimi Avropa xalqlarının quldarlığı tanımayan əksər hissəsində (Frank, Alman, İngilis-sakson dövlətlərində, Kiyev Rus dövlətində) bilavasitə qəbilə icma münasibətlərindən törəmişdir. İlk feodal dövləti ərazinin pərakəndəliyi və zəif mərkəzi hakimiyyətlə xarakterizə olunur. Feodal hərbi və məmur əyanları bu dövrdə qəbilə özünüidarəsinin qalıqları ilə yaşamağa məcbur idi. Feodal münasibətləri inkişaf etdikcə icma torpaqları özününküləşdirməyə məruz qaldı və əvvəllər azad olan kəndlilər feodallardan asılı vəziyyətə düşdülər.

İlk feodal monarxiyası mərkəzləşdirilmiş xarakter daşıyırdı: praktiki olaraq mərkəzi hakimiyyətlə bağlı deyildir. Feodal öz təsərrüfatını həm torpaq sahibi kimi, həm də öz ərazisində ali hakimiyyətin daşıyıcısı kimi idarə edirdi. Feodalın idarəsinin konkret icraçıları onun mülahizəsinə görə təyin edilən və dəyişdirilən xidmətçilər idi. Feodalın öz məhkəməsi, polisi, qoşunu, vergi toplayanları var idi və onların vasitəsilə o öz ərazisində şəxsi

hakimiyyətini həyata keçirir və xarici hücumlardan müdafiə olunurdu.

Eyni zamanda mərkəzi hakimiyyət aparatı formalaşırdı. Həmin aparatın, xüsusiyyəti ondan ibarət idi ki, ümumi dövlət hakimiyyəti orqanları iri feodalların xüsusi hakimiyyət aparatı ilə qovuşmuşdu. Bu orqanlar kral mülklərinin, knyaz votçinalarının idarəçilik orqanlarından hələ tamamilə ayrılmırdı. Kralın, knyazın həm hərbi, həm də təsərrüfat xidmətçiləri tabeçilikdəki əhaliyə münasibətdə məhkəmə funksiyalarını yerinə yetirirdilər. Dövlət aparatının belə strukturu, spesefik feodal prinsipi olan siyasi hakimiyyətin torpaq mülkiyyətçisinə bilavasitə və ayrılmaz məxsusluğunu təmin edirdi.

Hərbçi feodal dövlət qurumlarının çoxsaylı, zəif təşkil olunmuş, aralarında möhkəm iqtisadi, hərbi və mədəni əlaqələr olmayan xalqların istilası nəticəsində yaranan ilk feodal imeriyası (məsələn, Böyük Karl, Çingiz xan imperiyaları belə yaranmışdır) ilk feodal dövlətinin bir variantıdır. İmperiyalara vahid hökmdar – kral, böyük knyaz, xəlif və ya xan başçılıq edirdi. Mərkəzdə hərbi drujina və xalq könüllülərinin qüvvəsinə arxalanan güclü mərkəzi hakimiyyət yaradılır.

Zahiri gücünə baxmayaraq, ilk feodal monarxiyaları keçici dövlət birlikləri idi. Yeni-yeni torpaqların işğalı və torpaqlarda məskunlaşan kəndlilərin kölə halına salınması ictimai həyatda feodalizmin formalaşmasına obyektiv imkan yaratdı. Mərkəzi hakimiyyətin rəqibinə çevrilən iri torpaq sahibliyi yaranır. Feodallar dövlət hakimiyyətindən öz iqtisadi mənafeləri üçün istifadə etməkdə daha çox maraqlı idilər. Onlar tədricən kral bayrağı altında hərbi yürüşlərdən kənar edilirlər, belə ki, onlara öz təsərrüfatlarında məşğul olmaq və öz kəndlilərindən alınan sabit gəlirləri hökmdarla bölməmək daha sərfəli idi.

Beləcə, iri torpaq sahibliyinin inkişafı ilə ilk feodal imperiyasının dayaqları tədricən sarsıyır, o ayrı-ayrı təcrid olunmuş dövlətlərdə parçalanır.

Silki-nümayəndəli monarxiya – bu, dövlət idarəçiliyinin elə bir mərkəzləşmiş formasıdır ki, bu zaman monarxın hakimiyyəti silki-

nümayəndəli orqanla (məclislə) məhdud edilir. Belə siliki-nümayəndəli məclislər əmtəə-pul münasibətlərinin inkişafı və mərkəzləşmiş monarxiyanın yaranması ilə əlaqədar feodal pərakəndəliyinin aradan qalxması nəticəsində yaranır. Bu, Fransada Baş ştatlar, İngiltərədə parlament, İspaniyada korteslər, Rusiyada Zemstvo məclis idi.

Silki-nümayəndəli məclislər ruhanilərdən, zadəganlardan və üçüncü təbəqə adlanan təbəqənin (tacirlərin, sənətkarların, orta torpaq sahiblərinin) nümayəndələrindən ibarət idi. Bu orqanlar, bir qayda olaraq, qanunvericilik fəaliyyəti ilə və maliyyə nəzarətilə məşğul olan məşvərətçi orqanlar idi. Silki-nümayəndəliyin mərkəzi orqanları ilə yanaşı, yerli silki-nümayəndəli orqanlar da yaradılırdı (Fransada əyalət ştatları, Almaniyada ayrı-ayrı torpaqların landtaqları, Rusiyada qub və zem divanxanaları).

Silki-nümayəndəli orqanlarla yanaşı, ciddi mərkəzləşmiş, geniş şaxələnmiş bütünlüklə monarxa tabe olan mərkəzi və yerli icra hakimiyyəti aparatı fəaliyyət göstərirdi.

Kəndli çıxışları və başqa feodal dövlətlərilə tez-tez baş verən müharibə şəraitində təhkimli kəndlilərin çıxışlarını əzmək və xarici hücumlardan ölkənin müdafiə məsələsini həll etmək üçün monarxın sərəncamında daimi ordu var idi.

Mütləq monarxiya elə idarəçilik formasıdır ki, bu zaman ali dövlət hakimiyyəti qanununa görə bütünlüklə bir şəxsə-çara, krala, imperatora məxsusdur. Pyotrun hərbi nizamnaməsinin ifadəsilə «monarx dünyada öz işləri haqqında heç kimə hesabat verməyən müstəbiddir». Mütləq monarxiya idarəçilik formasının əsas əlaməti monarxın səlahiyyətlərini məhdudlaşdıran heç bir dövlət orqanının olmamasıdır.

Mütləqiyyətin yaranması burjua münasibətlərinin əmələ gəlməsi və feodalizmin və köhnə feodal silklərinin dağılmağa başlaması prosesi ilə əlaqədar olmuşdur. Mütləq monarxiyanın daha mühüm cəhətlərinə silki-nümayəndəli təsisatların tam tənəzzülü, monarx hakimiyyətinin hüquqi cəhətdən qeyri-məhdudluğu, onun birbaşa tabeçiliyində və sərəncamında daimi ordunun, polisin və geniş bürokratik aparatın olması daxildir.

Mütləqiyyət zamanı hakimiyyət mərkəzdə və yerlərdə artıq iri feodallara deyil, monarx tərəfindən təyin edilən və azad edilən məmurlara məxsus olur. Məsələn, İngiltərədə bu dövrdə feodal kuriyaları, tərkibinə ali dövlət məmurları daxil olan Gizli Şura ilə əvəz edilir. Mərkəzi bürokratiya feodalları yerlərdə də hakimiyyətin bilavasitə həyata keçirilməsində sıxışdırır.

Mütləqiyyət dövründə şəxsi həyata dövlət müdaxiləsi əvvəlki kimi məcburiyyəti yönümünə malik olsa da daha sivilizasiyalı forma alır, hüquqi cəhətdən təsbit olunur.

Müəyyən dövr ərzində dünya tarixi prosesində müsbət rol oynayaraq, mütləq monarxiya öz yerini çox tez daha mütərəqqi dövlətçilik formalarına verdi.

Bununla belə, orta əsrlər monarxiyası dövrü yalnız kəndli müharibələri və sinfi qarşıdurma dövrü deyildir. Bu həm də elmin, texnikanın, incəsənətin Insanın intellektual imkanlarının çiçəklənməsi dövrüdür. Dante Aligeri, Corcona, Leonardo da Vinçi, Kolumb, Kopernik, Mikelancelo, Titsian, Qaliley, Qassendi, Kampanella, Rubens, Şekspir, Rembrandt və bəşər mədəniyyətinin digər görkəmli şəxsləri həmin dövrdə yaşamış və yaratmışlar.

– ***Konstitusiyalı monarxiya*** – monarx hakimiyyətinin nümayəndəli orqanlarla əhəmiyyətli dərəcədə məhdud edildiyi idarəçilik formasıdır. Adətən, bu məhdudiyyət parlament tərəfindən təsdiq edilən konstitusiya ilə müəyyən edilir. Monarxın isə konstitusiyanı dəyişdirmək hüququ yoxdur.

Konstitusiyalı monarxiya idarəçilik forması kimi burjua cəmiyyətinin təşəkkül tapdığı dövrdə yaranır. Hazırkı vaxta kimi, Avropa və Asiyanın bir sıra ölkələrində o öz əhəmiyyətini formal olaraq itirməmişdir. (İngiltərə, Danimarka, İspaniya, Norveç, İsveç, Yaponiya və b.)

Konstitusiyalı monarxiya parlamentin monarxiyaya və dualist monarxiyaya ayrılır. Sonuncunun dövlət idarəçilik forması kimi praktiki olaraq dövrü keçmişdir.

– ***Parlamentli monarxiya*** aşağıdakı əsas ədamətlərlə xarakterizə olunur:

- Hökumət parlamentə seçkilərdə səslərin əksəriyyətini toplayan müəyyən partiyanın (və yaxud partiyaların) nümayəndələrindən təşkil olunur;

- daha çox deputat yerinə malik partiyanın lideri dövlət başçısı olur;

- qanunvericilik, icra və məhkəmə sahələrində monarxın hakimiyyəti faktiki surətdə olmur, o, rəmzi xarakter daşıyır;

- hökumət konstitusiyaya uyğun olaraq monarx qarşısında deyil, parlament qarşısında məsuliyyət daşıyır.

– ***Duolist monarxiya*** zamanı dövlət hakimiyyəti ikili xarakter daşıyır. Hüquqi və faktiki cəhətdən hakimiyyət monarx tərəfindən təşkil edilən hökumətli parlament arasında bölünür. Dualist monarxiyalarda hökumət parlamentin partiya tərkibindən asılı olmayaraq formalaşdırılır və parlament qarşısında məsul deyildir. Monarx bu zaman başlıca olaraq feodalların mənafeyini parlaement isə burjuaziyanın və əhalinin digər təbəqələrinin mənafeyini təmsil edir. Belə idarəçilik forması Kayzer Almaniyasında (1871-1918) mövcud olmuşdur.

– ***Respublika*** – ictimai iş – ali dövlət hakimiyyətini əhali tərəfindən müəyyən müddətə seçilən seçkili orqanların həyata keçirdiyi idarəçilik formasıdır. Respublika idarəçilik formasının ümumi əlamətləri:

- təkbaşına və kollegial dövlət başçısının mövcud olması;

- dövlət başçısının və ali dövlət hakimiyyətinin digər oraqnlarının müəyyən dövlətə seçkililiyi;

- dövlət hakimiyyətinin şəxsi hüquqla deyil, xalqın tapşırığı üzrə həyata keçirilməsi;

- dövlət başçısının qanunla nəzərdə tutulan hallarda hüquqi məsuliyyəti;

- ali dövlət hakimiyyəti qərarlarının bütün digər dövlət orqanları üçün məcburiliyi;

- dövlət vətəndaşlarının mənafelərinin üstün tutulan daha çox müdafiəsi, dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti.

Respublika idarəçilik forması qəti şəkildə Afina dövlətində formalaşmışdı. İctimai həyat inkişaf etdikcə o dəyişilmiş, yeni cəhətlər qazanmış, ictimai demokratik məzmunla tamamlanmışdır. Cəmiyyətin,

onun xalqlarının dövlət tarixi respublika idarəçilik formasının bir neçə əsas növlərini tanıyır.

Afina demokratik respublikası (e.ə.V-IV əsrlər). Onun xüsusiyyətləri və əhəmiyyətli dərəcədə demokratizmi afina cəmiyyətinin sosial strukturu, azad afinalıları qula çevirməyi tanımayan qul sahibliyinin xarakteri, habelə kollektiv qul sahibliyinin mövcud olması ilə şərtlənmişdi.

Roma aristokratik respublikası (e.ə.V-II əsrlər). Roma respublikasında ali dövlət hakimiyyəti senat idi. Senatın üzvləri xüsusi səlahiyyətli şəxslər (senzorlar) trəfindən, senzorlar da öz növbəsində xalq yığıncağı tərəfindən təiyn edilirdilər. Yerli hakimiyyət orqanlarında (senturiyalarda) həll edilən bütün məsələlər əvvəlcədən senatda müzakirə edilirdi. Senat formal olaraq xalq yığıncağının qərarlarına tabe olurdu, lakin sonuncunun qərarları «Romanın mənafelərinə» uyğun gəlmədikdə, onları etibarsız elan edir və ya bu qərarlara görə məsul olan vəzifəli şəxslərə öz vəzifələrindən imtina etməyi təklif edirdi. Diktatura tətbiq etmək senatın müstəsna hüququ idi. Diktatura tətbiq edildikdə respublikanın bütün vəzifəli şəxsləri səlahiyyət müddəti altı ay olan diktatorun tabeçiliyinə keçirdilər. Senat digər mühüm səlahiyyətlərə də malik idi: o xəzinəyə və dövlət əmlakına sərəncam verirdi, müharibə və sülh məsələlərini həll edirdi, qoşun komandanlarını və məhkəmə kollegiyalarını təiyn edirdi.

Şəhər respublikaları (feodal respublikaları). Dövlət idarəçiliyinin belə forması feodal monarxiyaları ilə yanaşı, orta əsrlərdə yaranır. Feodal respublikaları iri şəhərlərin qüdrətinin və müstəqilliyinin möhkəmlənməsi nəticəsində formalaşmışdı. Şəhərlərin öz idarəçilik orqanlarını seçmək, qanunlar vermək, vətəndaşlar üzərində mühakimə həyata keçirmək hüquqları var idi. Mərkəzi hakimiyyətə (senyora) münasibətdə şəhər müəyyən haqq ödəməli və hərbi xidmətə vətəndaşlar ayırmalı idi.

Parlamentli respublika – dövlət idarəçiliyi formasının dövlət həyatının təşkilində ali rolun parlamentə məxsus olduğu müasir növlərindən biridir. Belə respublikada hökumət parlament üsulu ilə parlamentdə əksər səsə malik partiyaların deputatlarından formalaşdırılır. Hökumət öz fəaliyyətinə görə parlament qarşısında

kollektiv məsuliyyət daşıyır. O, parlament çoxluğu tərəfindən dəstəkləndikcə hakimiyyətdə qalır. Parlament üzvləri əksəriyyətinin etibarını itirdikdə hökumət ya istefaya çıxır, ya da dövlət başçısı vasitəsilə parlamentin buraxılmasına və vaxtından əvvəl parlament seçkilərinin təyin olunmasına müvəffəq olur.

Belə respublikalarda, bir qayda olaraq, dövlət başçısı parlament və yaxud xüsusi olaraq yaradılan parlament kollegiyası tərəfindən seçilir. Dövlət başçısının parlament tərəfindən seçilməsi icra hakimiyyəti üzərində parlament nəzarətinin başlıca növüdür.

Prezidentli respublika – dövlət idarəçiliyi formasının parlamentirizmlə yanaşı, prezidentin əlində dövlət ğaşçısı və zökumət başçısı səlahiyyətlərinin birləşdirilməsini nəzərdə tutan müasir növlərindən biridir.

Prezidentli respublikanın ən səciyyəvi cəhətləri:

- prezidentin seçilməsinin və hökumətin təşkilininin parlementdənkənar metodu;
- hökumətin parlament qarşısında deyil, prezident qarşısında məsuliyyəti;
- dövlət başçısının parlamentli respublikadakından daha geniş səlahiyyətə malik olması.

Klassik prezidentli respublika Amerika Birləşmiş Ştatlarıdır. Əsasında hakimiyyətlər bölgüsü duran ABŞ Konstitusiyasına müvafiq olaraq dəqiq müəyyən olunmuşdur ki, qanunverici hakimiyyət parlamentə, icra hakimiyyəti – prezidentə məhkəmə hakimiyyəti Ali məhkəməyə məxsusdur. ABŞ prezidenti ölkə əhalisi tərəfindən dolayı seçkilər yolu ilə seçicilər kollegiyası vasitəsilə seçilir. Seçicilərin sayı parlamentdə hər ştatın nümayəndələrinin sayına uyğun olmalıdır. Hökumət prezident tərəfindən onun partiyasına mənsub şəxslərdə təşkil olunur.

Prezidentli idarəçilik formasının müxtəlif ölkələrdə öz xüsusiyyətləri vardır. Fransada prezident ümumi səsvermə ilə seçilir. Səslərin mütləq çoxluğunu qazanan namizəd seçilmiş hesab edilir. Prezident seçkisinin belə qaydası 1991-ci ildən Rusiya Federasiyasında da müəyyən olunmuşdur.

Prezidentli respublikaların müxtəlifliyinə baxmayaraq, onların hamısı üçün səciyyəvi olan budur ki, ya dövlət başçısı və hökumət başçısı bir şəxsin prezidentin əlində cmlənir, ya da prezident bilavasitə özü hökumət başçısını təyin edir və kabinetin və ya nazirlər şurasının təşkilində iştirak edir (Fransa, Hindistan). Prezidentə digər mühüm səlahiyyətlər də verilmişdir; bir qayda olaraq, o ali baş komandan olur, fövqəladə vəziyyət elan edir, qanunlar imza etmək yolu ilə təsdiq edir, bəzən hökumətdə sədrlik edir. Ali məhkəmə üzvlərini təyin edir, bağışlama hüququnu həyata keçirir.

2. Dövlət quruluşu forması *– dövlətin onun tərkib hissələri arasında, dövlət hakimiyyətinin mərkəzi və yerli orqanları arasında qarşılıqlı münasibətlərin xarakterini aşkar edən milli və inzibati-ərazi quruluşudur. İdarəçilik formasından fərqli olaraq, dövlətin təşkili burada dövlət hakimiyyətinin və dövlət suverenliyinin mərkəzdə və yerlərdə, dövlətin tərkib hissələri arasında bölgüsü nöqteyi-nəzərindən təhlil edilir.*

Dövlət quruluşu forması

- dövlətin daxili strukturunun ansı hissələrdən ibarət olduğunu
- bu hissələrin hüquqi vəziyyətlərinin və onların orqanlarının qarşılıqlı münasibətlərinin necə olduğunu;
- mərkəzi və yerli dövlət orqanları arasında münasibətlərin necə qurulduğunu
- həmin dövlətin ərazisində yaşayan hər bir millətin mənafeyinin hansı dövlət formasında ifadə olunduğunu göstərir.

Dövlət quruluşu formasına görə bütün dövlətləri üç əsas qruppa bölmək olar. *Unitar, federativ* və *konfederativ* dövlətlər.

Unitar dövlət – mərkəzi hakimiyyət orqanlarına tabe olan və dövlət suverenliyi əlamətlərinə malik olmayan inzibati-ərazi vahidlərindən ibarət vahid bütöv dövlət birliyidir.

Unitar dövlət aşağıdakı əlamətlərlə səciyyələnir.

Əvvələn, unitar quruluş bütün ölkə üçün müvafiq yerli orqanlar üzərində ali rəhbərliyi həyata keçirən vahid ümumi nümayəndəli, icra və məhkəmə orqanlarının olmasını nəzərdə tutur.

İkincisi, unitar dövlətin ərazisində bir konstitusiya,vahid qanunvericilik sistemi, vahid vətəndaşlıq, vahid pul sistemi fəaliyyət

göstərir, bütün inzibati-ərazi vahidləri üçün məcburi ümumi vergi və kredit siyasəti yeridilir.

Üçüncüsü, unitar dövlətin tərkib hissələri (vilayətlər, deportamentlər, mahallar, əyalətlər, qraflıqlar) dövlət suverenliyinə malik olmur. Onların qanunvericilik orqanları, müstəqil hərbi birləşmələri, xarici siyastə orqanları və digər dövlətçilik atributları olmur. Eyni zamanda unitar dövlətdə yerli orqanlar müəyyən bəzən isə əhəmiyyətli dərəcədə müstəqilliyyə malik olur. Onların mərkəzi orqanlardan asılılıq dərəcəsinə görə unitar dövlət qruluşu mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş ola bilər. Əgər dövlət hakimiyyətinin yerli orqanlarının başında mərkəzdən təyin edilən məmur dururs yerli özünüidarə orqanları ona tabedirsə, belə dövlət mərkəzləşdirilmiş hesab edilir. Məsələn, Finlandiyada yerli özünüidarə (lyan) prezident tərəfindən təyin edilən qubernator başçılıq edir. Mərkəzləşdirilməmiş unitar dövlətlərdə yerli dövlət hakimiyyəti orqanları əhali tərəfindən seçilir yerli həyat məsələlərinin həllində müstəqillikdən istifadə edirlər.

Yerli dövlət quruluşunun mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş dövlətlərin əlamətlərinə malik olan etdikləri qarışıq sistemləri də ola bilər. Yaponiyada yerli özünüidarə mərkəzi orqanlardan praktiki olaraq asılı deyildir. Prefekturalarda idarəçiliyi seçkili prefaktura yığıncaqları həyata keçirilir. Belə yığıncaqlar şəhərlərdə, qəsəbələrdə və kəndlərdə də olur. Özünüidarə orqanlarının baş vəzifəli şəxsləri də həmçinin (prefekturalarda – qubernatorlar, şəhərlərdə – merlər, qəsəbə və kəndlərdə - ağsaqqallar) seçkili olur. Yerli dövlət idarəçiliyinin qarışıq sisteminə Türkiyə respublikası nümunə ola bilər. Türkiyənin əsas inzibati-ərazi vahidlərində (il) yerli özünüidarə mərkəzi hakimiyyətin nümayəndələri (vali) həyata keçirirlər, bununla belə, seçkili Baş şuralar və onların icra orqanları – Encomenlər də mövcuddur.

Dördüncüsü, ərazisində sayına görə çox olmayan millətlər yaşayan unitar dövlətlər milli və qanunverici muxtariyyətə geniş yol verirlər. Məsələn, Monqolustanda Bayan-Ulegey aymakı muxtar dövlət qurumudur, ərazisində isə əsasən qazax millətindən olan şəxslər yaşayır. Sudanda Cənubi əyalətlərin özünüidarəsi haqqında 1972-ci il Qanununa

uyğun olaraq, Cənub bölgəsinə muxtariyyət hüququ verilmişdir. Orada seçkili bölgə xalq şurası yaradılmışdır. Həmin şura icra orqanını – Ali icra şurasını formalaşdırır. Azərbaycanın, Tacikistanın, Gürcüstanın və başqa unitar dövlətlərin tərkibində də müstəqil muxtar qurumlar vardır.

Beşincisi, unitar dövlətdə bütün xarici dövlətlərarası əlaqələri ölkəni beynəlxalq aləmdə rəsmi təmsil edən mərkəzi orqanlar həyata keçirir.

Altıncısı, unitar dövlət rəhbərliyi mərkəzi dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilən vahid silahlı qüvvələrə malikdir.

Federasiya əvvəllər müstəqil olan dövlət qurumlarının bir ittifaq dövlətində könüllü birliyindən ibarətdir.

Federativ dövlət quruluşu yekcins deyildir. Müxtəlif ölkələrdə o, konkret federasiyanın yaranmasının tarixi şəraiti və hər şeydən əvvəl, ölkə əhalisinin milli özünə məxsusluqları ilə müəyyən edilən nadir xüsusiyyətlərə malikdir. Bununla belə federativ dövlətlərin əksəriyyəti üçün səciyyəvi olan daha ümumi cəhətləri ayırmaq olar.

1. Federasiyanın ərazisi onun ayrı-ayrı subyektlərinin, ştatlarının, kantonların, torpaqların respublikaların və s. ərazilərindən ibarətdir.

2. İttifaq dövlətində ali qanunverici, icra və məhkəmə hakimiyyəti federal dövlət orqanlarına məxsusdur. Federasiya və onun subyektləri arasında səlahiyyətlər ittifaq (federal) konstitusiyası ilə dəqiq bölünür.

3. Federasiya subyektləri öz konstitusiyalarını qəbul etmək hüququna malikdirlər, özlərinin qanunverici, icra və məhkəmə orqanları vardır. Məsələn, Almaniyada torpaların öz qanunvericilik orqanları; birpalatalı (Bavariyada -ikipalatalı) landtaqlar, baş nazir başda olmaqla hökumətlər və torpaq məhkəmələri vardır.

4. Əksər federasiyalarda vahid ittifaq vətəndaşlığı və federal vahidlərin vətəndaşlığı mövcuddur.

5. Federal dövlət quruluşunda parlamentin federasiya üzvlərinin mənafelərini təmsil edən palatası olur.

6. Federasiyalarda əsas ümumdövlət xarici siyasət fəaliyyətini ittifaq dövlət orqanları həyata keçirir. Onlar federasiyanı dövlətlərarası münasibətlərdə rəsmi təmsil edirlər (ABŞ, Almaniya, Braziliya, Hindistanda və b.)

Federasiyalar dövlət quruluşunun xarakterini, məzmununu və strukturunu mühüm dərəcədə müəyyən edən ərazi və milli əlamətlər üzrə qurulur.

Ərazi federasiyası federasiya subyektlərinin dövlət suverenliyinin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə xarakterizə olunur.

Əvvələn, ərazi federasiyasını təşkil edən dövlət qurumları suveren dövlətlər deyildir, belə ki, daxili və xarici münasibətlər sahəsində onların fəaliyyəti ümumfederal (ittifaq) dövlət orqanlarının hakimiyyət səlahiyyətlərindən asılıdır. İttifaq və onun subyektləri arasında səlahiyyətlərin hüquqi və faktiki bölgüsü konstitusiya normaları ilə müəyyən edilir: onlar yalnız ittifaqın normativ hüquqi aktlar verə biləcəyi məsələlərin siyahısını müəyyən edir. Konstitusiya ilə müəyyən edilməyən bütün qalan məsələlər federasiya subyektləri qanunvericilik orqanlarının səlahiyyətində olur. Amerika Birləşmiş Ştatlarında ittifaqın müstəsna səlahiyyətinə ştatlararası və xarici ticarətin tənzimlənməsi, pul kəsilməsi, çəki və standartların müəyyən edilməsi, müharibə elan edilməsi, ordunun dəstləşdirilməsi və saxlanması məsələləri daxildir. Bütün qalan məsələlər (seçkilər keçirilməsi, ştatdaxili ticarətin tənzimlənməsi, yerli idarəçilik orqanlarının müəyyən edilməsi, səhiyyəyə yardım, ictimai qayda və kütləvi əxlaqın mühafizəsi, ştatların konstitusiyalarının dəyişdirilmiş və s.) ştatların səlahiyyətlərinə aiddir. (Bax: Konstituüiə burjuaznıx qosudarstv. M., 1982, s.23-24,34).

İkincisi, ərazi federasiyasının subyektləri beynəlxalq münasibətlərdə birbaşa təmsil olunmaq hüququndan konstitusiya qaydasında məhrum edilmişlər. Bu sahədə ittifaq konstitusiyası pozulduğu halda, mərkəzi hakimiyyətin federasiya subyektlərinə məcburi tədbirlər tətbiq etmək üququ vardır (Hindistan).

Üçüncüsü, ərazi federasiyalarında konstitusiya qanunvericiliyi ilə ittifaqdan birtərəfli qaydada çıxmaq nəzərdə tutulmur, bəzən isə qadağan edilir. Bu müddəa ABŞ, Braziliya və digər ölkələrin konstitusiyalarının mənasından irəli gəlir.

Dördüncüsü, ərazi federasiyalarının silahlı qüvvələrində idarəçiliyi ittifaq dövlət orqanları həyata keçirir. Federal dövlətin başçısı silahlı qüvvələrin baş komandanıdır. Federasiya subyektlərinə dinc dövrdə peşəkar silahlı birləşmələr saxlamaq qadağan olunur.

Konfederasiya – ümumi məqsədlərin təmini üçün yaradılmış suveren dövlətlərin müvəqqəti hüquqi ittifaqıdır. Konfederativ dövlət quruluşunda konfederasiya üzvləri həm daxili, həm də xarici işlərdə öz suveren hüquqlarını saxlayır. Federativ dövlət quruluşundan fərqli olaraq, konfederasiya aşağıdakı cəhətlərlə səciyyələnir:

Əvvələn, konfederasiya federasiya üçün xarakterik olan öz ümumi qanunverici, icra və məhkəmə orqanlarına malik deyildir. Suveren dövlətlərin nümayəndələrindən ibarət olan konfederativ orqanlar iqtisadi, müdafiə əməkdaşlığı problemlərini həll edirdilər (konfederativ dövlət də bu məqsədlə yaradılır).

İkincisi, konfederativ quruluş vahid ordusu, vahid vergi sistemi və vahid dövlət büdcəsi olmur. Lakin bu məsələlər konfederasiya üzvlərinin razılığı ilə əlaqələdirilə bilər. Məsələn, konfederasiyaya daxil olan ayrı-ayrı ölkələrin müdafiə qadiliyyətini möhkəmlətmək və ya onlara zəruri iqtisadi yardım göstərmək üçün ümumkonfederal büdcədən vəsait ayrıla bilər.

Üçüncüsü, bir dövlətin vətəndaşının digər dövlətin ərazisinə yerdəyişməsinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə (vizasız və başqa rəsmiyyətlər olmadan) baxmayaraq, konfederasiya müvəqqəti itiifaqda olan dövlətlərin vətəndaşlığını saxlayır.

Dördüncüsü, konfederasiyaya daxil olan dövlətlərin orqanları vahid pul sistemi, vahid kömrük qaydaları, həmçinin vahid dövlətlərarası kredit siyasəti haqqında həmin dövlət birliyinin mövcud olduğu dövr üçün razılığa gələ bilərlər. Birləşmiş dövlətlərin ümumi mənafelərini dünya birliyi ilə dövlətlətarası münasibətlərdə əlaqələndirməklə məşğul olan konfederal xarici siyasət, müdafiə və digər orqanların da fəaliyyəti mümkündür.

Beşincisi, konfederativ dövlətlər uzunömürlü deyildir. Onlar ümumi məqsədə nail olduqdan sonra ya parçalanır, ya da federasiyaya çevrilir. Tarixə həm bu, həm də digər nümunələr məlumdur: Alman ittifaqı (1815-1867-ci illər) İsveçrə ittifaqı (1815-1848-ci illər), Avstriya-Macarıstan (1867-1918-ci illər) və klassik nümunə olan Amerika Birləşmiş Ştatları 1781-ci ildə (Konfederasiya Maddələri ilə) qanunvericilik qaydasında təsdiq edilən konfederasiyadan 1787-ci ildə

ABŞ Konstitusiyası ilə təsbit edilən və hazırda da fəaliyyət göstərən federasiya yaradıldı.

Konfederativ dövlət quruluşu suverən unitar və yaxud federativ dövlətlərin yaranması üçün əsas ola bilər.

3. Dövlət rejimi forması dövlət tərəfindən hakimiyyətin həyata keçirilməsinin üsul və metodlarının məcmusunu özündə əks etdirir. *Dövlət rejim* cəmiyyətdə mövcud olan siyasi rejimin mühüm tərkib hissəsidir. Siyasi rejim daha geniş anşayışdır, belə ki, bura təkcə dövlət hakimiyyətinin həyata keçirilməsinin metodları, deyil, həm də siyasi qeyri-dövlət təşkilatlarının (partiyaların, hərəkatların, klubların, ittifaqların) fəaliyyətinin xarakterik üsulları da daxildir. Dövlət rejimləri demokratik və antidemokratik (totalitar, avtoritar. faşist) olan bilər. Buna görə də bu əlamət üzrə dövlətin təsnifatının əsas meyarı dövlət hakimiyyətinin həyata keçirilməsinin forma və metodlarının demokratizmidir. Quldarlıq dövlətləri üçün həm despotiya, həm də demokratiya, feodalizm üçün həm feodalın, monarxın qeyri-məhdud hakimiyyəti, həm də xalq yığıncağı, müasir dövlət üçün həm totalitarizm, həm də hüquqi demokratiya xarakterikdir.

Real gerçəklikdə dövlət rejiminin ideal demokratik forması mövcud deyildir. Bu və ya digər konkret dövlətdə rəsmi hakimiyyətçiliyin öz məzmununa görə müxtəlif metodlarından istifadə olunur. Bununla bərabər, dövlət rejiminin bu və ya digər növünə xas olan ən ümumi cəhətləri ayırmaq olar.

Antidemokratik rejimlər aşağıdakı əlamətlərlə səciyyələnir.

Əvvələn, dövlət hakimiyyətinin xarakterini müəyyən edən əsas dövlət və şəxsiyyətin qarşılıqlı münasibətidir. Antidemokratik rejimdə dövlət müxtəlif orqanları vasitəsilə şəxsiyyəti əzir, onun hüquqlarını məhdudlaşdırır, onun azad inkişafına mane olur.

İkincisi, antidemokratik rejim ictimai həyatın bütün sahələri: iqtisadiyyat, siyasət, ideologiya, sosial, mədəni və milli quruculuq üzərində tam (total) nəzaratlə səciyyələnir. Belə dövlətdə faktiki olaraq bütün dövlət funksiyalarını həyata keçirən, heç bir qanunla məhdudlaşdırılmayan səlahiyyətlərə malik bir partiyanın diktaturası qurulur.

Üçüncüsü, antidemokratik rejimlərə bütün ictimai təşkilatların (həmkarlar ittifaqlarının, gənclər, qadınlar və yaradıcı birliklərin, texniki, idman və digər cəmiyyətlərin) dövlətləşdirilməsi xasdır.

Dördüncüsü, antidemokratik rejimlərdə şəxsiyyət hər hansı subyektiv hüquqlardan fərqli olaraq məhrum edilmişdir, baxmayaraq ki, onlar hətta konstitusiya aktlarında formal olaraq elan edilir. Başqa cür düşünənlərə və mütərəqqi qüvvələrə qarşı qəddar repressiya tədbirləri tətbiq edilir.

Beşincisi, antidemokratik rejim zamanı özbaşınalığın, qanunçuluğun pozulmasının ictimai həyatda hüquqi əsasların ləğvinin nəticəsi kimi hüquq üzərində dövlətin üstünlüyü real olaraq fəaliyyət göstərir.

Altıncısı, ictimai həyatın bütünlüklə hərbiləşdirilməsi hərbi-demokratik aparatın, dünya iqtisadiyyatına hakim kəsilən hərbi-sənaye kompleksinin mövcudluğu antidemokratik dövlətin səciyyəvi əlamətidir.

Yeddincisi, antidemokratik rejimlər milli dövlət qurumlarının, xüsusilədə milli azlıqların mənafelərinə məhəl qoymur. Totalitar dövlətdə milli federasiya üzvləri öz daxili işlərinin həllində, xarici siyasətin həyata keçirilməsində müstəqillikdən praktiki olaraq məhrum olur, belə ki, bu məsələlər bütünlüklə mərkəzi hakimiyyətin səlahiyyətində olur.

Səkkizinci, antidemokratik dövlətin bütün növləri əhalinin dini etiqadını xüsusiyyətlərini nəzərə almır. O, dini dünyagörüşü tamamilə inkar edir və ona sərfəli olmayan bütün dini cərəyanları qadağan edərək və sıxışdıraraq, dinlərdən birinə üstünlük verir.

Demokratik rejimlər hüquqi dövlətlərdə təşəkkül tapır. O, dövlət hakimiyyətinin həyata keçirilməsinin, şəxsiyyət azadlığının; onun qanunui hüquq və mənafelərini real təmin edən metodları ilə səciyyələnir. Demokratik dövlət rejimi konkret olaraq aşağıdakılarda ifadə olunur.

Əvvələn, belə rejim cəmiyyətin maddi rifahının əsasını təşkil edən, iqtisadi fəaliyyət sahəsində şəxsiyyətə azadlıq verir.

İkincisi, vətəndaşın şəxsi hüquq və azadlıqlarının real təmini onun dövlətin siyasəti haqqında öz fikrini ifadə etmək müxtəlif mədəni, elmi peşə və s. ictimai təşkilatlarda fəal iştirakı imkanı demokratik dövlətə yüksək əxlaqilik verir.

Üçüncüsü, demokratik rejim dövlət hakimiyyətinin xarkterinə ölkə əhalisinin birbaşa təsirinin (seçki sistemi, seçicilərin dövlət orqanlarının fəaliyyətinə nəzarəti vasitəsilə) səmərəli mexanizmini yaradır.

Dördüncüsü, demorkratik dövlətdə şəxsiyyət özbaşınalıqdan, qanunsuzluqdan müdafiə olunur, belə ki, onun hüquqları ədalət mühakiməsi orqanlarının daimi mühafizəsindədir.

Beşincisi, demokratik rejim həm unitar, həm də federativ dövlətlərdə real hakimiyyətlər bölcüsünün nəticəsidir.

Altıncısı, demokratik hakimiyyət çoxluğun və azlığın mənafelərini əhalinin fərdi və milli xüsusiyyətlərini eyni ölçüdə nəzərə alır. O, habelə bürokratik özbaşınalığın və öz müstəqil dövlətçiliyi olmayan milli azlıqların sosial-iqtisadi hüquqlarının pozulmasının qarşısını alır.

Yeddincisi, dövlət hakimiyyətçiliyinin demokratik metodları ortaya çıxan sosial ziddiyyətlərin qarşısını almağa imkan verir, dövlət orqanları ilə vətəndaşlar arasında, əhalinin müxtəlif qrupları arasında qarşılıqlı güzəşt əsasında razılaşmaları təmin edir.

Səkkizincisi, demokratik dövlətin fəaliyyətinin əsas prinsipi plüralizmdir. Demokratik rejim şəraitində müxtəlif partiyalar, digər ictimai təşkilatlar, özfəaliyyət kollektivləri fəaliyyət göstərir, dövlətin siyasətini dəstəkləyir və onun fəaliyyətinə bütün fərdlərin və onların ictimai birliklərinin mənafeyini nəzərə alan plüralist xarakter verirlər.

Doqquzuncusu, demokratik dövlət rejimi cəmiyyət və şəxsiyyətin obyektiv tələbatını əks etdirən qanunlara əsaslanır, buna görə də o, sabit hüquq qaydası, cinayətkarlığın aşağı səviyyəsini təmin edir, dövlət və şəxsiyyət arasında, müxtəlif sosial və milli Insan qrupları arasında münaqişələrin daha təmkinli həllinə imkan yaradır.

Beləliklə, dövlət forması yalnız üç ünsürün: idarəçilik formasının, dövlət quruluşu formasının və dövlət rejimi formasının vəhdətində başa düşülə bilər. Müasir sivilizasiyalı dünyada baş verən dəyişikliklər, şərtsiz ki, dərs vəsaitinin bu fəslində verilən müddəalara düzəlişlər tələb edəcək.

Milli Kitabxana

V FƏSİL
İNSAN – VƏTƏNDAŞ

1. VƏTƏNDAŞ VƏ VƏTƏNDAŞLIQ

Vətəndaşlıq anlayışı. İnsan ailə üzvü, dost və yoldaş, müəyyən sosial qrupun, siyasi partiyanın və ya cəmiyyətin nümayəndəsi rollarında eyni zamanda çıxış edə bilər və ya etməyə bilər. Amma elə rol da var ki, bu bizim hər birimiz üçün ümumidir. Bu, *vətəndaş roludur.*

Vətəndaşlıq anlayışı çoxşaxəlidir. Biz bəzən tanımadığımız adamlara *"vətəndaş"* deyə müraciət edirik. Yaxud təyyarə limanında diktor elan verərkən ilk növbədə *"vətəndaş sərnişinlər"* ifadəsini işlədir. Dövlət başçıları radio və televiziyada çıxışlarında çox vaxt *"vətəndaşlar"* deyə müraciət edir.

Hüquq ədəbiyyatında vətəndaşlığa çoxsaylı təriflər verilmişdir. Vətəndaşlıq etnik mənşəyi göstərməməklə ayrıca bir şəxslə dovlət arasındakı hüquqi əlaqədir. Belə bir tərif də mövcuddur. Vətəndaşlıq dövlətlə vətəndaş arasındakı münasibətləri hüquqi cəhətdən rəsmiləşdirir və onların qarşılıqlı hüquq və vəzifələrini nəzərdə tutur. Daha qısa **və** məzmunlu tərif də vardır: ***Qanunla müəyyənləşdirilmiş hüquqlardan istifadə edən və dövlət qarşısında öhdəliyi olan şəxsə vətəndaş deyilir.*** Vətəndaşlıq – fiziki şəxsin dövlətlə sabit hüquqi əlaqəsidir ki, bu da onun həmin dövlətin suveren hakimiyyətinə tabe olmaqla orada müəyyən hüquq və vəzifələrə malik olmasında ifadə olunur.

Vətəndaşlığın inkişaf tarixi. "Vətəndaşlıq" anlayışı hələ qədim zamanlardan hüquqi status almLşdır. Lakin heç də həmişə bütün insanlar vətəndaş statusu almamış, uzun illər boyu hüquqsuz vəziyyətdə yaşamışlar. Qədim Yunanıstanda Afina şəhər-dövlətində yalnız 20 yaşına çatmış, atası və anası əslən afinalı olanlara vətəndaşlıq verilərdi. Qadınlar, başqa yerlərdən gəlmiş şəxsiər, qullar vətəndaş hüquqlarına malik deyildilər. Bu dövlətdə vətəndaşların həm də sahib olduqları əmlakın miqdarından ısılı

olaraq dərəcələrə bölünürdü. Qədim Roma dövlətində isə vətəndaşlığı ilk vaxtlar yalnız onun ən qədim sakinlərinin nəsilləri əldə edirdilər. Sonralar bütün azad adamlar vətəndaşlıq hüququ qazandılar. Burada da qadınlar və qullar vətəndaşlıq statusu qazana bilməzdilər.

Fransa burjua inqilabı dövründə *(1789-1794)* "vətəndaş" sözü bu ölkədə qürurla səslənməyə başladı. Bu termin "təbəə" sözünü əvəz etdi və insanların bir-birinə müraciət formasma çevrildi. Burada qəbul olunmuş ***"İnsanın və vətəndaşın hüquq Bəyannaməsi"*** adlı sənəddə belə deyilir: *"İnsanlar azad və bərabər hüquqlarla doğulur və yaşayırlar"*. Lakin burada da vətəndaşlar bütün hüquqları əldə edə bilmədilər. Seçki hüququnu yalnız kişilər aldılar. Həm də əmlak senzi saxlanıldı.

"Vətəndaş" ifadəsi Şarl Monteskyönün də əsərlərində səslənmişdir. O, *"İngiltərənin dövlət quruluşu haqqında"* əsərində yazırdı: *"Vətəndaş üçün siyasi azadlıq onun təhlükəsizliyinə olan inama əsaslanan ruhi sakitliyi deməkdir. Belə bir azadlığa malik olmaq üçün elə bir idarəetmə zəruridir ki, onun dövründə bir vətəndaş o biri vətəndaşdan qorxmaya bilsin"*.

Vətəndaşlığa aid beynəlxalq prinsiplər. Hər bir dövlətin özünün vətəndaşlıq məsələlərinə dair müvafiq qanunvericiliyi vardır. Lakin bu qanunvericilik dünya birliyi tərəfindən o vaxt qəbul edilir ki, həmin qanunvericilik vətəndaşlıq məsələsində mövcud olan beynəlxalq prinsiplərə uyğun gəlsin. Vətəndaşlığın əldə edilməsinin iki yolu vardır: 1) törəmə yolu ilə; 2) naturalizasiya[1] yolu ilə. Törəmə yolu ilə vətəndaşlığın əldə edilməsinin iki prinsipi vardır. Bəzi hallarda hər iki prinsip, biri digəri ilə əlaqədar, qarışıq prinsip əsasında tətbiq edilir. Gəlin, həmin prinsipləri nəzərdən keçirək.

Birinci prinsip ***"Torpaq hüququ"*** adlanır. Bu prinsipə əsasən vətəndaşlığı həmin dövlətin ərazisində anadan olmuş şəxslər alırlar. "Torpaq hüququ" prinsipinə görə hər hansı bir dövlətin ərazisində

[1] ***Naturalizasiya*** *— vətəndaşlığa qəbul etmə mənasını verir. Xaricilərə, yaxud vətəndaşlığı olmayan şəxslərə dövlətin vətəndaşlıq verməsidir.*

doğulmuş uşaq, onun valideynlərinin hansı ölkəyə mənsub olmasından asılı olmayaraq, bu dövlətin vətəndaşlığını əldə etmiş olur.

"Qan hüququ" adlanan ikinci prinsip isə valideynlərin vətəndaşlığına əsaslanır. Bu o deməkdir ki, valideynlərdən heç olmasa biri həmin dövlətin vətəndaşı olmalıdır. Həmin dövlətin ərazisində doğulmasından asılı olmayaraq, ona o vaxt vətəndaşlıq hüququ verilir ki, onun valideynlərindən biri bu ölkənin vətəndaşı olsun.

İkinci yol isə *naturalizasiyadır.* "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə"də göstərilir ki, hər bir insanın vətəndaşlıq hüququ var. Hər bir insan vətəndaşlığını dəyişmək, yəni bir dövlətin vətəndaşlığından çıxıb digər dövlətin vətəndaşlığını qəbul etmək hüququna malikdir. Bu cür hallar üçün vətəndaşlığa qəbulun qaydası naturalizasiya adlanır. ***Naiuralizasiya*** **-** şəxsin başqa dövlətin vətəndaşlığına keçməsi, əcnəbinin hər hansı bir ölkədə vətəndaşlıq hüququ almasıdır.

Vətəndaşlığın kimə verilməsi məsələsi dövlət üçün çox əhəmiyyətlidir. Ona görə də qanun naturalizasiyanı, adətən, müəyyən şərtlərlə bağlayır. Ayrı-ayrı ölkələrdə naturalizasiya üçün müxtəlif şərtlər mövcuddur. Dövlətin dilini bilmək, milli mənsubiyyət, gəlir mənbəyi, valideynlərin birinin həmin ölkənin vətəndaşı olması, dövlətin ərazisində müəyyən müddət ərzində yaşaması, ölkənin tarixini və Konstitusiyasını bilmək, sağlam həyat tərzi və s.

Bu şərtlər içərisində ən geniş yayılanı dövlətin ərazisində müəyyən müddət ərzində yaşamaqdır. Argentinada bu müddət 2 il, ABŞ, İtaliya və Fransada — 5 ıl, Avstriya və İspaniyada 10 il, İsveçrədə isə 12 ildir.

Beləliklə, göstərilən bu prinsiplər vətəndaşlıq almaq üçün mühüm əsaslardır. Elə hallar olur ki, insan bir deyil, iki və daha artıq dövlətin vətəndaşlığına malik olur. Bu cür vəziyyət ***"ikili",*** yaxud ***"çoxqat"*** vətəndaşlıq adlanır. "İkili" vətəndaşlıq vətəndaşlığın əldə edilməsi və itirilməsi qaydası haqqmda ayrı-ayrı dövlətlərin vətəndaşlığına uyğun gəlməməsi nəticəsində baş verir.

"Qan hüququ" prinsipini təsdiq edən ölkənin vətəndaşları olan valideynlərdən doğulmuş uşaqlar, "torpaq hüququ" prinsipini təsdiq edən ölkənin ərazisində ikili vətəndaşlıq əldə edir və hər iki ölkənin vətəndaşı sayılır. *Müstəsna vətəndaşlıq* prinsipinə əsasən bəzi dövlətlər öz vətəndaşlarının başqa bir dövlətin də vətəndaşı olmasını qəbul etmir. Dövlətin öz vətəndaşlarını vətəndaşlıqdan məhrum edilməsini qadağan edən *ayrılmaz vətəndaşlıq prinsipi* də mövcuddur. *Qeyri-ailəvi qaydada vətəndaşlıq* isə ya vətəndaşlığı olmayan şəxsin xahişi ilə onun vətəndaşlığa qəbul edilməsi, ya da şəxsin öz vətəndaşlığını dəyişdirib yeni vətəndaşlığı seçməsi, vətəndaşlığın bəxş edilməsi, əhali mübadiləsi və köçürülməsi yolu ilə əldə olunur.

Vətəndaşlığa aid beynəlxalq hüquq normaları BMT-nin Nizamnaməsində, İnsan Hüquqları haqqında 1957-ci il tarixli Paktında, dövlətlər arasında bağlanmış başqa çoxsaylı regional və ikitərəfli sazişlərdə öz əksini tapmışdır.

Heç bir dövlətə mənsub olmayan şəxslərə *vətəndaşlığı olmayan şəxslər* deyilir. Vətəndaşlığa malik olmamaq vəziyyəti müxtəlif səbəblərlə əlaqədar olaraq ortaya çıxır. Məsələn, qadın ərə gedərkən vətəndaşlıq qanunvericiliyi "qadın kişinin vətəndaşlığına keçir" prinsipinə əsasən onu vətəndaşlıqdan kənar edərsə, ərin mənsub olduğu dövlətin qanunvericiliyi qadını vətəndaşlığa qəbul etməzsə, uşaq vətəndaşlığı olmayan valideyndən doğularsa, yaxud şəxs hər hansı səbəbdən özünün vətəndaşlığını itirib yeni vətəndaşlıq əldə etməzsə, onda vətəndaşlığı olmayan şəxs vəziyyətinə düşür.

2. Azərbaycan Respublikasının vətəndaşlığı

Kim Azərbaycan Respublikasının vətəndaşı sayılır. Azərbaycan Respublikası vətəndaşlığının əsasları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuşdur. Vətəndaşlıq haqqmda Azərbaycan Respublikası qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Qanundan və Azərbaycan Respubiikasının müvafiq qanunvericilik aktlarından ibarətdir. Bu qanunvericiliyə

əsasən, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Bu şəxslər kimdir?

1) Azərbaycan Respublikası ərazisində doğulanlar;

2) Valideynləri və ya onlardan biri Azərbaycan Respublikasının vətəndaşı olanlar;

3) Azərbaycan Respublikası vətəndaşlığını qəbul edənlər. Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri bərabərdir. Məsələn, istər Azərbaycan Respublikasında doğulmuş azərbaycanlı, istərsə də qara irqdən olub Azərbaycan Respublikası vətəndaşlığını qəbul edən şəxs hüquqca bərabərdir. Ər və ya arvadın birinin vətəndaşlığının dəyişməsi o birinin vətəndaşlığının dəyişməsinə səbəb olmur. Əgər Azərbaycan Respublikasının vətəndaşı xarici dövlətlərin ərazisində yaşamağa gedirsə, yenə də Azərbaycan Respublikasının vətəndaşı olaraq qalır.

Bir dövlətin vətəndaşlığından çıxan şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi müəyyən şərtlərlə bağlıdır. O:

- son 5 il ərzində Azərbaycan Respublikasının ərazisində yaşamalıdır;
- Azərbaycan Respublikasının dövlət dilini bilməlidir.

Lakin həmin şəxs Azərbaycan Respublikasında mövcud dövlət quruluşunu zorakılıqla dəyişdirməyə və ya onun ərazi bütövlüyünü pozmağa çağırışlar edərsə,

- irqi, dini və milli müstəsnalığı təbliğ edərsə;
- terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa və qanunda göstərilən başqa hərəkətlərə yol verərsə, Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilə bilməz.

Valideynlərindən biri Azərbaycan Respublikası vətəndaşlığından çıxarsa, digəri isə Azərbaycan Respublikası vətəndaşlığında qalarsa, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır. Əgər Azərbaycan Respublikası vətəndaşlığında qalan valideyn razılıq verərsə, vətəndaşlıqdan çıxan valideyn uşağın Azərbaycan Respublikası vətəndaşlığından çıxmağına icazə ala bilər. 14

yaşından 18 yaşınadək uşaqların vətəndaşlığı yalnız onların razılığı ilə dəyişə bilər.

Azərbaycan Respublikasının qanunlarına görə, bizdə ikili vətəndaşlığa, yəni Azərbaycan Respublikası vətəndaşının ikinci bir dövlətin vətəndaşı olmasına icazə verilmir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasının vətəndaşlığından məhrum edilə bilməz. Bundan əlavə, o heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Konstitusiyamızda göstərilir ki, Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Azərbaycan dövləti öz orqanlarının və vəzifəli şəxslərinin simasında Azərbaycan Respublikası vətəndaşları qarşısında onların hüququnun təminatı üçün məsuliyyət daşıyır. Azərbaycan Respublikasının dövlət orqanları, xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəlikləri və konsulluqları ölkəmizdən kənarda müvəqqəti və ya daimi yaşayan vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar.

Şəxsiyyət vəsiqəsi. Azərbaycan Respublikasının vətəndaşlığı müəyyən sənədlərlə təsdiq olunur. Bu sənədlər aşağıdakılardır:

1) Doğum haqqında şəhadətnamə;
2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;
3) Azərbaycan Respublikası vətəndaşının pasportu.

Şəxsiyyət vəsiqəsi ölkə daxilində Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənəddir.

Şəxsiyyət vəsiqəsində onun seriyası və nömrəsi, vətəndaşın soyadı və adı, atasının adı, doğulduğu yer və tarix, vətəndaşın milliyyəti, ailə vəziyyəti, hərbi vəzifəsi, qan qrupu, boyu, gözlərinin rəngi, yaşadığı yer, vəsiqə sahibinin şəxsi imzası qeyd edilir, fotoşəkli əks olunur. Bunlardan əlavə, şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi göstərilir. Şəxsiyyət vəsiqəsində istər dövlət orqanları, istərsə də şəxsiyyətin özü tərəfindən qeydlər aparılması qadağandır.

Azərbaycan Respublikasının hər bir vətəndaşı 16 yaşına çatdıqdan sonra şəxsiyyət vəsiqəsi almalıdır. Qanunda göstərilən başqa hallar baş verməzsə, vətəndaş 25, 35, 50 yaşına çatdıqda şəxsiyyət vəsiqəsi dəyişdirilməlidir.

Şəxsiyyət vəsiqəsi itirildikdə dərhal onu verən dövlət orqanına yazılı məlumat verilməlidir. Vəsiqənin sahibi onu harada, nə vaxt və hansı şəraitdə itirdiyini məlumatda göstərməlidir.

Şəxsiyyət vəsiqəsi oğurlandıqda onun sahibi dərhal cinayətin baş verdiyi yerin polis orqanına müraciət etməlidir.

Vətəndaşa şəxsiyyət vəsiqəsi verilərkən o, yaşayış yeri üzrə qeydiyyata alınır. Yeni yaşayış yerinə köçdükdə vətəndaş, 10 gündən gec olmayaraq, müvafiq dövlət orqanına yeni yaşayış yerində qeydiyyata düşmək üçün müraciət etməlidir. Bu zaman o aşağıdakı sənədləri təqdim etməlidir:

- şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə;
- yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd və ya vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi.

Vətəndaşın şəxsiyyət vəsiqəsi dəyişdirilərkən o, heç bir əlavə sənəd tələb edilmədən, yaşayış yeri üzrə qeydiyyata alınır.

Pasport. Azərbaycan Respublikası vətəndaşının pasportu ölkəmizdən kənarda şəxsiyyəti təsdiq edən sənəddir. Bu sənəd vasitəsilə vətəndaşlar ölkədən getmək və ölkəyə gəlmək hüququnu həyata keçirə bilirlər. Pasport 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşına qanunla nəzərdə tutulmuş qaydada verilir. Qanunda qeyd olunmuş hallarda pasport 18 yaşına çatmamış vətəndaşlarımıza da verilir.

18 yaşına çatmamış vətəndaş ölkədən öz valideynlərinin razılığı ilə gedə bilər. Valideynlərin yazılı razılığı notarius tərəfindən təsdiq edilməlidir. Valideynlərdən birinin razılığı olmadıqda həmin vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

Pasportun aşağıdakı tipləri vardır:

- ümumvətəndaş
- xidməti
- Diplomatik

Umumvətəndaş pasportu almaq üçün vətəndaş ərizəsi, şəxsiyyət vəsiqəsi, fotoşəkli, dövlət rüsumunun ödənilməsi haqqında qəbz ilə müvafiq daxili işlər orqanına müraciət edir. Müraciətdən ən geci bir ay keçənədək vətəndaşa pasport verilməlidir. Əgər vətəndaş ölkədən yetkinlik yaşma çatmamış uşaqları ilə gedirsə, vətəndaşın pasportuna uşaqlar yazılır və foto şəkilləri yapışdırılır.

Xidməti pasport xidməti işlə əlaqədar xarici ölkələrə ezam edilən şəxslərə verilir. Onlar 3 aydan artıq xarici ölkədə işləyərlərsə, bu pasport onların arvadına (ərinə) və 18 yaşına çatmış ərdə olmayan qızlarına verilir.

Diplomatik pasport, əsasən, hakimiyyət orqanlarının rəhbər işçilərinə, beynəlxalq konfranslarda və s. tədbirlərdə Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətinin üzvlərinə verilir. Xidməti və diplomatik pasportlar Azərbaycan Respublikasının Xarici Işlər Nazirliyi tərəfindən verilir.

Tiplərindən asılı olmayaraq, hər bir pasportda Azərbaycan Respublıkasının adı, dövlət gerbi, ölkənin kodu, pasportun tipi, seriyası və nomrəsı, sahibinin soyadı, adı, atasıının adı, vətəndaşlığı, doğulduğu yer və tarix, cinsi, qan qrupu, pasportu verən orqanın adı, verilmə tarıxı, pasport sahibinin şəxsi imzası, birgə gedən 18 yaşına çatmamış uşaqların soyadı, adı, cinsi və doğulduğu tarix yazılır, onların fotoşəkılləri əks olunur. Tiplərindən asılı olmayaraq, pasportdakı yazılar latın qrafıkası ilə Azərbaycan Respublikasının dövlət dilində və ingilis dilində vahid nümunə əsasında hazırlanır.

3. Vətəndaş və cəmiyyət

Vətəndaşlığın ictimai və mənəvi tərəfi. Vətəndaşlığın hüquqi tərəfi ilə yanaşı, ictimai-mənəvi tərəfi də vardır. Vətəndaşlığın ictimai-mənəvi tərəfi vətəndaş necə olmalıdır, cəmiyyətdə hansı rolları ifa edə (etməyə) bilər, onun cəmiyyətdə rolu nədən ibarətdir kimi məsələləri əhatə edir.

"Vətəndaşın cəmiyyətdə rolu nədən ibarətdir?" sualından başlayaq. Öz cəmiyyətimizə fikir verək. Azərbaycan Respublikasında demokratik cəmiyyət qurulur. Demokratik cəmiyyətdə isə vətəndaşlar ölkənin idarə olunmasmda iştirak etmək hüququna

malikdirlər. Bizdə demokratiyanın inkişafı vətəndaşların bu işdə iştirakının səviyyəsindən asılıdır. Vətəndaşların fəallıq səviyyəsi nə qədər yüksək olsa, cəmiyyətimizdə demokratiya bir o qədər sürətlə inkişaf edər və möhkəmlənər.

Demokratik cəmiyyət quruculuğunda fəal iştirak edə bilmək üçün vətəndaşlarımızın bütün zəruri hüquq və azadlıqları vardır. Cəmiyyətdə təsirli rol oynamaq üçün vətəndaşlar müxtəlif qruplarda birləşə bilirlər.

Vətəndaşın cəmiyyətin inkişafında fəal iştirak etməsi onda müəyyən əxlaqi-mənəvi keyfiyyətlərin olmasını tələb edir. Deməli, fəal, yaradıcı-tənqidi düşünən vətəndaşlar cəmiyyəti irəli apara bilən ideyalar irəli sürür, bu ideyaları həyata keçirmək üçün qruplar yaradır, qruplardakı vətəndaşlar isə həmin ideyaları həyata keçirirlər.

İndi təsəvvür edək ki, cəmiyyətimizdə yeni ideyalar ortaya atan və onu həyata keçirməyə çalışan vətəndaşlardan ibarət çoxlu qruplar, təşkilatlar yaranmışdır. Əgər bu təşkilatların hərəsi bir ideyanın həyata keçirilməsinə nail olarsa, cəmiyyətimiz, Vətənimiz nə qədər inkişaf etmiş olar?!

Vətəndaşın cəmiyyət həyatında əsas rolu onun dövlətlə münasibətlərində meydana çıxır.

Totalitar və demokratik dövlətlərdə vətəndaşlıq. Dövlətlə vətəndaş arasındakı münasibət. Totalitar **və** ***demokratik*** dövlətlər də bir-birindən fərqlənir. Məsələn, SSRİ totalitar dövlət idi. Burada vətəndaşların beynəlxalq tələblərə uyğun olan statusu və hüquqi prinsipləri mövcud idi. Bu tələblərə uyğun olaraq, SSRİ-nin Konstitusiyasmda vətəndaşların bütün hüquq və azadlıqları təsbit olunurdu. Zahirən belə görünürdü ki, bu dövlətdə vətəndaşların hüquq və azadlıqları qanunla tənzimlənir. Əslində isə bu hüquq və azadlıqlar daima pozulurdu. Totalitar dövlət cəmiyyətin siyasi həyatında vətəndaşların fəal iştirakından qorxur. Ona görə də bu dövlət cəmiyyət həyatının bütün sahələrinə, xüsusilə siyasi sahəsinə güclü nəzarət edir. Bu dovlətdə vətəndaşların siyasi proseslərə hər hansı bir təsir gostərməsinə imkan verilmir, vətəndaşlar öz hüquqlarından

istifadə edə bilmirlər. Beləliklə, totalitar dövlət öz vətəndaşlarının hüquqlarını qorumaqdansa, özü onları pozur.

Demokratik cəmiyyətdə isə bunun tam əksi olan vəziyyət mövcuddur. Məlumdur ki, bu cəmiyyətdə insan hüquqlarının qorunması əsas məsələdir. Odur ki, demokratik dövlət hüquq və azadlıqların müdafiəsinin etibarlı mexanizmini yaradır. Belə dövlət cəmiyyətin siyasi həyatında vətəndaşların fəal iştirakına nail olmağa çalışır, bu məqsədlə onlara zəruri olan bilik, bacarıq və dəyərlərin verilməsi qayğısına qalır.

Döviət-vətəndaş münasibətləri. Vətəndaş-cəmiyyət, cəmiyyət-dövlət münasibətləri bütün dövrlərdə aktual olmuşdur. Vətəndaşla dövlət arasındakı münasibət onların hər ikisinin üzərinə müəyyən məsuliyyətlər qoyur. Vətəndaşın cəmiyyətdəki rolu onun bu məsuliyyəti necə başa düşməsindən və bu istiqamətdəki fəaliyyətindən asılı olur.

Demokratik cəmiyyətdə dövlətlə vətəndaş arasında münasibət necə olmalıdır? Bir insanın hüququ başqasının hüququ başlanan yerdə qurtarır. Bu qaydanı dövlətlə vətəndaş arasındakı münasibətə tətbiq etsək, onda necə vəziyyət yaranır? Dövlətin hüququ vətəndaşın hüququ başlanan yerdə qurtarır. Dövlət hüquqdan kənara çıxa bilməz. Vətəndaş isə qanunun qadağan etmədiyi hər şeyi edə bilər. Qanunlar dövlətin fəaliyyətini çərçivəyə salır.

Vətəndaşın hüququ dövlətin daşıdığı vəzifədir. Məsələn, təhsil hüququ: dövlət öz vətəndaşları üçün təhsil ocaqları açır.

Vətəndaşların hüquq və azadlıqlarından irəli gələn vəzifələrə dövlətin əməl etməsi qanunla müəyyən edilir. Hər bir qanun pozuntusu cəzalandırılmalıdır. Cəmiyyətdə özbaşınalığın getdikcə artmasına gətirib çıxaracaq halların qarşısı qanunla alınmalıdır.

Qanunlar vətəndaşların ümumi iradəsinin, istəyinin ifadəsidir. Odur ki, hər bir vətəndaş qanunların qorunmasına çalışır, onların pozulmasını öz hüquqlarının pozulması kimi, özünə qarşı saymamazlıq kimi qiymətləndirir.

Müasir dövrdə dövlət-vətəndaş münasibətlərində üstünlük tədricən vətəndaş tərəfə artır. Vətəndaşların özfəaliyyət təşəbbüsləri sahəsi getdikcə güclənir. Vətəndaşlara da, dövlət məmurlarına da

aydın olur ki, vətəndaş-dövlət münasibətlərində vətəndaş, onun mənafeyi birinci yerdə durmalıdır.

Vətəndaşların cəmiyyətin siyasi həyatında fəal iştirakı üçün zəruri olan keyfiyyətləri. Vətəndaşlıq şəxsiyyətin bir sıra keyfiyyətlərini özündə birləşdirir. Əvvələn, vətəndaş yüksək səviyyədə müstəqil ***sosial şəxsiyyətdir.*** Onun qanunla qadağan olunmayan hər şeyi etməyə ixtiyarı vardır. İkincisi, vətəndaş ölkənin siyasi həyatında mühüm, bəzən həlledici rol oynayan şəxsiyyətdir. Məsələn, 1989-cu ildə Polşada prezident seçkiləri zamanı prezidentliyə namizəd bir vətəndaşın səsi ilə çoxluq qazandı və prezident seçildi. Buna görə də, vətəndaş siyasət haqqında təhsilin əsas elementlərinə malik olmalıdır.

Vətəndaş həm də ***fiziki şəxsiyyətdir,*** yəni qanunla müəyyən olunmuş hüquqlara malikdir və onlara uyğun vəzifələr daşıyır. Bu, vətəndaşların ***hüquq qabiliyyəti*** adlanır. Vətəndaşın hüquq qabiliyyəti doğulduğu andan yaranır. Lakin hüquq qabiliyyəti vətəndaş yalnız qanunla göstərilən yaşa çatdıqda bütünlüklə həyata keçirilə bilər. Məsələn, 15 yaşından 18 yaşına qədər olan vətəndaş öz pulunu əmanət şəklində əmanət kassasına qoya bilər və onunla istədiyi kimi rəftar edə bilər. Lakin o, seçkilərdə iştirak edə bilməz. Vətəndaş həmin yaşlarda özü üçün ixtiraçılıq hüququ əldə edə bilər – bir şey ixtira edə bilər. Buradan aydın olur ki, vətəndaş fiziki şəxs kimi öz hüquq və vəzifələri haqqında zəruri biliklərə malik olmalıdır.

Bunlardan əlavə, hər bir vətəndaş həm də cəmiyyət üzvüdür. Buna görə o da həmin cəmiyyətin mənəvi dəyərlərinə yiyələnməlidir.

Göründüyü kimi, vətəndaş siyasi, sosial, hüquqi biliklərlə yanaşı, həm də mənəvi dəyərləri özündə birləşdirir. Bu keyfiyyətlər vətəndaşm cəmiyyətdəki ictimai-siyasi problemlərin həllində fəal iştirakına kömək edir.

Müasir şəraitdə vətəndaşlarda aşağıdakı keyfiyyətlər üzvi surətdə birləşməlidir:

- Başqa vətəndaşların hüquq və azadlıqlarını pozmadan öz hüquq və azadlıqlarını həyata keçirmək bacarığı;

- hakimiyyət orqanları, başqa vətəndaşlar və onların birlikləri ilə dialoqa girmək qabiliyyəti;
- öz hərəkətləri və öz seçimi üçün məsuliyyət, cəmiyyət və dövlət qarşısında hüquqi və əxlaqi borc;
- mövcud sosial vəziyyətə tənqidi münasibət, onu dəyişdirməyə səy.

Vətənin ərazi bütövlüyü və toxunulmazlığı və vətəndaşların ləyaqəti. *Vətənin ləyaqəti* vətəndaşların Insan ləyaqətidir. Insan ləyaqətinin toxunulmazlığı Vətənin toxunulmazlığıdır. Doğrudan da, başqa bir ölkədə, yad yerdə hər hansı vətəndaşımıza qarşı təhqiri biz özümüzə, millətimizə, Vətənimizə qarşı təhqir kimi qəbul edirik. Vətənimizə qarşı təhqiredici hərəkəti isə insanlıq ləyaqətinə qarşı təhqir hesab edirik. Çünki vətən ləyaqətinin toxunulmazlığı insan ləyaqətinin toxunulmazlığıdır.

Ermənistan Respublikasının Vətənimizə qarşı təcavüzkarlığı, ərazimizin 20 faizini işğal etməsi biz azərbaycanlıların ləyaqətinə toxunmuşdur. Hazırda hər bir vətəndaşımız, gündəlik qayğıları onu nə qədər məşğul etsə də, o, özünün mənəvi varlığının bərpasını düşünür. Axı bütün dünyanın gozü qarşısmda ərazimiz işğal olunmuşdur. İnsan ləyaqətinin müdafiə mexanizmi təbii Insan hüquqlarıdır. Vətəndaşın ləyaqətinin tapdanması, onun Insan hüquqlarının pozulması ilə nəticələnir.

4. Vətəndaşın cəmiyyət həyatında iştirakının müxtəlifliyi

Vətəndaşın cəmiyyət həyatında iştirakının müxtəlifliyi. Siz vətəndaşlıq statusunun insanlara həm müəyyən vəzifələr, həm də cəmiyyətin və dövlətin siyasi həyatında fəal iştirak etmək üçün geniş hüquqlar verdiyini artıq bilirsiniz. Vətəndaşın cəmiyyətin problemlərinin həllində iştirak etmək və hakimiyyətin qərarlar qəbul etməsinə təsir göstərmək hüququ vardır. Vətəndaşların cəmiyyət həyatında iştirak formalarını iki qrupa ayırmaq olar: ***siyasi iştirak*** **və** ***sosial iştirak.*** Siyasi iştirak hakimiyyət orqanlarına təsir etməklə öz maraqlarını təmin etmək məqsədi daşıyır. Sosial iştirak isə

vətəndaşların şəxsi və ictimai problemlərini, hakimiyyət orqanlarını cəlb etmədən, öz qüvvələri hesabına həllini nəzərdə tutur.

Siyasi və sosial iştirak formaları bir-birini inkar etmir. Onlar üst-üstə düşə bilər. Sağlam demokratiyanın mövcudluğu üçün həm siyasi, həm də sosial iştirak vacibdir.

Demokratik dövlətlərdə vətəndaşların dövlət siyasətini dəyişdirməsi mexanizmi mövcuddur. Bu mexanizm ***dövlət proseduralarından*** ibarətdir. Dövlət proseduralarına məhkəməyə, əgər bu nəticə verməsə, beynəlxalq təşkilatlara və beynəlxalq məhkəmələrə müraciətlər daxildir. Deputatlara müraciət də dövlət prosedurası hesab olunur.

Qeyri-zorakı vətəndaş itaətsizliyi. Qeyri-zorakı vətəndaş itaətsizliyi də vətəndaş iştirakının geniş yayılmış formalarındandır. XX əsrin 30-cu illərinin əvvlində ingilis müstəmləkəçiləri hind xalqının milli-azadlıq əzmini qırmaq üçün duz satışı üzərində inhisarı gücləndirmiş, əhalini duzsuzluğa düçar etmişdi. Hind milli-azadlıq hərəkatının lideri, qeyri-zorakı vətəndaş itaətsizliyi formasının ilhamçılarından biri olan ***Mahatma Qandinin*** rəhbərliyi altında xalq kütlələri ingilislərdən duzu almaqdan imtina etmiş, tarixdə məşhur «Duz yürüşü» adını almış dinc hərəkata başlamışlar. Onlar Ərəbistan dənizi sahillərinə yürüş edərək, dənizin suyunu buxarlandırmaq yolu ilə duz əldə etmişdilər. İngilis hakim dairələri bu hərəkat qarşısında geri çəkilərək, duz satışı üzərindəki inhisarı ləğv etməli olmuşdular. Tarixdə belə dinc vətəndaş itaətsizliyi halları haqqında məlumatlar çoxdur.

Vətəndaş təşəbbüsləri. Lakin elə problemlər var ki, vətəndaşların gücü ilə onları həll etmək olar. Məsələn, məhəlləyə su çəkilməsi, hər hansı yerli əhəmiyyətli yolun təmiri, yaxud kiçik çay üzərində körpünün salınması kimi işlər vətəndaş təşəbbüsləri yolu ilə həll edilə bilər.

Qeyri-hökumət **təşkilatları (QHT).** Vətəndaş iştirakı formalarından daha geniş yayılanı ***qeyri-hökumət təşkilatlarıdır.*** QHT-lər vətəndaşlarının könüllü gəlirsiz təşkilatlarıdır. Onlar müxtəlif məsələlərin həlli ilə məşğul olur, çoxsaylı humanitar funksiyalar yerinə yetirir, Insanların arzu və istəklərini hökumətin nəzərinə çatdırırlar. Bəzən QHT konkret problemin həlli üçün yaradılır. Vətəndaşlara hüquqi yardım göstərən, seçicilərin maarifləndirilməsi ilə məşğul olan, təhsil, səhiyyə və digər

sosial problemləri həll etmək sahəsində fəaliyyət gös-tərən QHT-lər də az deyildir. QHT-lər müstəqil olub, dövlətdən və cəmiyyətin başqa təbəqələrindən asılı deyillər. Azərbaycan cəmiyyətinin müxtəlif zümrələrini təmsil edən Insanlar qeyri-hökumət təşkilatları şəbəkəsi ilə öz qabiliyyətlərini gerçəkləşdirir və dövlət quruculuğunun müxtəlif sahələrində onlardan müxtəlif şəkildə istifadə edirlər.

Həmkarlar ittifaqları. Həmkarlar ittifaqları vətəndaş iştirakı formalarının ən kütləvi olanıdır. SSRl dövlətində həmkarlar ittifaqları formal xarakter daşıyır və işləyən əhalinin bütün təbəqələri bu təşkilata avtomatik olaraq üzv qəbul olunurdu. Həmkarlar ittifaqı təşkilatları totalitar cəmiyyətdə vətəndaşların şəxsi və ictimai problemlərinin həlli ilə çox cüzi məşğul olurdular.

Lakin demokratik dövlətdə həmkarlar ittifaqlarının rolu böyükdür. Onlar vətəndaşların hüquq və mənafelərini qoruyur və vaxtaşırı olaraq dövlət orqanları, sahibkarlar qarşısında məsələlər qaldırırlar.

Respublikada vətəndaşların hüquqlarının qorunması və sosial problemlərin həllində həmkarlar ittifaqları mühüm rol oynayır. Ölkədə həmkarlar ittifaqı hərəkatının inkişafı üçün bütün şərait yaradılmışdır. Mülkiyyət hüququndan asılı olmayaraq, bütün müəssisə, təşkilat və idarə işçiləri öz həmkarlar ittifaqlarında birləşmək və fəaliyyət göstərmək hüququna malikdirlər. Respublika həyatının müxtəlif sahələrini əhatə edən 30 sahə həmkarlar ittifaqı birləşərək, vahid Həmkarlar İttifaqları Konfederasiyası yaratmışlar. Bu bloka daxil olmadan müstəqil fəaliyyət göstərən həmkarlar ittifaqları şəbəkəsinin genişlənməsi prosesi davam edir.

İctimai-siyasi hərəkatlarda iştirak. Azərbaycan Konstitusiyasının təsbit etdiyi bütün demokratik hüquq və azadlıqlardan geniş istifadə edən qadınlar demokratik dövlət quruculuğuna öz töhfələrini verirlər. Ölkədə 20-dən çox müstəqil qadın təşkilatı fəaliyyət göstərir. Bu qurumların fəaliyyəti sülhün tezliklə əldə edilməsinə, qadın hüquqlarının müdafiəsinə, onların iqtisadi quruculuğa geniş cəlb olunmasına, ailə və uşaqların qorunmasına, qadınlar üçün iş yerlərinin açılmasına, ictimai-siyasi həyatda qadınların fəal iştirakına, ailənin mühafizəsinə, Qarabağ müharibəsindən əzab çəkmiş qadm və uşaqlara lazımi köməklik göstərilməsinə yönəldilmişdir.

Bu gün ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan ***Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, "Qadın və inkişaf" Mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti*** fəaliyyət göstərir.

Seçkilərdə iştirak. Vətəndaş iştirakının geniş yayılmış formalarından birini də seçkilərdə iştirak təşkil edir. Seçkilərdə iştirak etmək hər bir vətəndaşın öz hüququdur, yəni məcburi deyildir. Lakin unutmaq olmaz ki, vətəndaş ölkəsində gedən siyasi problemlərə biganə qala bilməz. Bəlkə də onun bir səsi hansısa ümummilli məsələnin müvəffəqiyyətli həllinə yardımçı ola bilər. Bəzi ölkələrdə, məsələn, Avstraliyada belə hesab edirlər ki, hökumətin və seçkili orqanların seçilməsində iştirak etmək təkcə bütün nəsillərin uğrunda mübarizə apardıqları hüquq deyil, həm də vətəndaşlıq borcudur. Lakin bizim ölkəmizdə də demokratik ölkələrdə olduğu kimi seçkilərdə iştirak könüllüdür. Azərbaycanda vətəndaşların seçib-seçilmək hüququ, habelə səs verdiyi millət vəkilləri vasitəsi ilə dövlətin siyasi idarə olunmasında fəal iştirak etmək hüququ vardır.

Siyasi partiyalarda iştirak. Üzvü çox olan cəmiyyətdə vətəndaş hadisələrə ancaq başqa vətəndaşlarla ittifaqda olduqda ciddi təsir göstərə bilər. Siyasi partiyalar yaxın fikirləri və ümumi maraqları olan adamları birləşdirir. Onlar seçicilərə siyasi mövqe və proqramların geniş dairəsini təklif edərək, onlara seçkilərdə öz mövqelərini müəyyənləşdirməkdə kömək edirlər. Siyasi cəhətdən fəal olan vətəndaşlar üçün partiya dövlətin həyatında iştirak etmək və dövlət siyasətinə təsir etmək üçün vacibdir.

5. Vətəndaş cəmiyyəti

Vətəndaş cəmiyyəti anlayışının məzmunu. Vətəndaş cəmiyyəti anlayışının ilk dəfə nə vaxt işlədildiyini demək çətindir. Ona həm antik müəlliflərin əsərlərində, həm orta əsrlər Avropa ədəbiyyatında, həm də yeni dövrün traktatlarında rast gəlmək olar. Vətəndaş cəmiyyəti dedikdə, adətən, inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlərin mövcud olduğu cəmiyyət, yüksək sosial, iqtisadi, siyasi, mədəni və mənəvi statusa malik vətəndaşların cəmiyyəti başa düşülür.

İngilis tarixçisi və politoloqu ***Entoni Blekin*** fikrincə vətəndaş cəmiyyətinin elementləri və dəyərləri artıq XIII əsrdə Avropada bərqərar olmuşdur. Antik Roma hüququ burada vətəndaş cəmiyyəti strukturunun yaranması üçün müəyyən zəmin yaratmışdır. Orta əsrlər Avropasında german tayfalarının bəzi ənənələri də (xalq yığıncaqları təsisatı, rəhbərliyin, hakimlərin seçilməsi) vətəndaş cəmiyyəti elementlərinin tədricən təşəkkül tapmasında az rol oynamamışdır.

Nəticədə, Qərbdə vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan ictimai təsisatlar və münasibətlər sistemi kimi meydana çıxmışdır. Lakin vətəndaş cəmiyyətini dövlətdə ayrı nəsə bir şey kimi təsəvvür etmək olmaz. Vətəndaş cəmiyyəti dövlətdən "uzaqlaşmır", əksinə onu öz dəyər və maraqlarına uyğun olaraq formalaşdırır.

Vətəndaş cəmiyyətinin əsasını cəmiyyətdə qeyri-siyasi münasibətlər təşkil edir. Onlar könüllü surətdə formalaşmış assosiasiya və təşkilatlar vasitəsi ilə meydana çıxır. Vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir ki, burada vətəndaşlar çoxlu müstəqil təşkilatlar vasitəsi ilə kollektiv şəkildə problemlərini həll edə bilər, öz fikirlərini söyləyə bilər və hökumətə təzyiq göstərə bilərlər. Belə təşkilatlar vətəndaşlarla dövlət arasında əlaqə yaradır və dövlətin şəxsiyyət üzərində hökmranlıcına mane olurlar. Bu o deməkdir ki, vətəndaş cəmiyyəti olan ölkədə dövlət yalnız müxtəlif təsisatlar, partiyalar, assosiasiyalar və s. ilə yanaşı mövcud olan bir elementdir.

Vətəndaş cəmiyyətinin quruluşu. Vətəndaş cəmiyyətində yuxarıda gostərilən müxtəliflik ***plüralizm*** adlanır. Bu şəraitdə bir çox təşkilat və təsisatlar özlərinin mövcud olması, qanuniliyi və nüfuzlarına görə dövlətdən asılı deyillər. Ölkəmizdə demokratik dövlət qurulduğundan, bu gün onların sayı yüzlərlədir. Belə təşkilatları aşağıdakı kimi təsnif edirlər:

- Siyasi partiyalar və kütləvi siyasi hərəkatlar.
- Peşəkar ittifaqlar.
- Yaradıcılıq assosiasiyaları və birlikləri.
- Qadınların, gənclərin, tələbələrin təşkilat və hərəkatları.
- Dini birliklər.
- Yerli etnik ittifaqlar.
- İctimai fondların hər cür növü.

- Şəxsi elmi-tədqiqatçılıq və təhsil mərkəzləri.
- Veteranlar, idmançılar, azarkeşlər, ekoloqlar assosiasiyaları və s.

Bunların məcmuyu əsasında vətəndaş cəmiyyəti qurula bilər. Vətəndaş cəmiyyətinin strukturunu aşağıda verilmiş 5.1. saylı sxemi vasitəsi ilə daha əyani görmək mümkündür.

Sxem 5.1.



Bu təşkilat və birliklərin çoxu qeyri-demokratik rejim şəraitində də mövcud ola bilər. Məsələn, keçmiş SSRİ-də də bu

təşkilatların əksəriyyəti (yaradıcılıq assosiasiyaları və birlikləri, qadınlar, gənclər, tələbə təşkilatları, veteranlar, idmançılar assosiasiyaları və s.) var idi. Lakin onlar hakim strukturların nəzarəti altında fəaliyyət göstərir və bu strukturlara hesabat verirdilər.

Vətəndaş cəmiyyətinin əsas elementlərinə, bu təşkilat və birliklərlə yanaşı, müstəqil kütləvi informasiya və rabitə vasitələri, hökumət siyasətinin bütün istiqamətlərinin dövlətdən asılı olmayan ekspertizaları da aiddir.

Vətəndaş cəmiyyətinin əsas elementləri. Bazar iqtisadiyyatı şəraitində vətəndaşlar özlərini öz şəxsi talelərinin ən yaxşı sahibləri, elədikləri seçim üçün məsuliyyətli hesab edirlər. Demokratiya öz seçicisini suveren etdiyi kimi, bazar da öz istehlakçısını suveren edir. Siyasi partiyaların müvəffəqiyyəti seçkilərdə seçicilər tərəfindən göstərilən yardımdan asılı olduğu kimi, firmaların müvəffəqiyyəti də alıcıların yardımından asılıdır. Bazar iqtisadi planda, habelə hər hansı müstəqil siyasi və mədəni təşəbbüslərin maliyyələşdirilməsi planında vətəndaşların dövlətdən asılılığını zəiflədir.

Məlumdur ki, sosializmdə planlı iqtisadiyyat var idi. Bu iqtisadiyyat ölkənin idarə olunması üçün nəzarətsiz bürokratik aparatın yaradılmasnı tələb etmiş və dövlətə imkan vermişdir ki, cəmiyyətin bütün enerji və təşəbbüsünü mənimsəsin, siyasi bərabərsizlik və imtiyazlar sistemi yaratsın.

İstənilən hökumət aparılan siyasətə görə əhalinin köməyinə və ya razılığına can atır. Bu zaman kütləvi informasiya vasitələri – qəzetlər, radio və televiziya əsas rol oynayır. Demokratik cəmiyyətdə kütləvi informasiya vasitələri hökumət təbliğatına təkcə vasitə kimi xidmət göstərmir, həm də digər vacib funksiyanı yerinə yetirirlər: hökumətin fəaliyyətini öyrənir, onun haqqında vətəndaşlara məlumat verir, siyasi diskussiyalar və ictimai fikrin ifadəsi üçün imkan yara-dırlar, ən zərurisi də odur ki, hökumətə təsir göstərirlər.

Kütləvi informasiya vasitələrinin dövlətin fəaliyyətinə nəzarət etməsi və onun hər addımı haqqında vətəndaşlara məlumat verməsi

zəruridir. Kütləvi informasiya vasitələri şəxsi həyata müdaxilə etməməlidir. Onların vəzifəsi ondan ibarətdir ki, verdikləri informasiya maraqlara cavab versin, vətəndaşlar isə belə informasiya almaq hüququna malik olsunlar.

Kütləvi informasiya vasitələri vətəndaş cəmiyyətində öz funksiyalarını o vaxt dürüst yerinə yetirərlər ki, onlar lazımi dərəcədə müstəqil olsunlar, nə hökumətin, nə də ayrı-ayrı siyasi, iqtisadi və ideoloji maraqların təsiri altına düşsünlər. Xüsusi maraqların təsirini kütləvi informasiya vasitələrinə sahib olmaq hüququnu azaltmaqla məhdudlaşdırmaq olar.

Dövlətlə vətəndaş cəmiyyəti arasında əlaqə. Vətəndaş cəmiyyəti canlı insanların, hər cür xüsusiyyətlərə malik ola bilən insanların cəmiyyətidir. Vətəndaş cəmiyyətinin özü canlı orqanizmdir. Canlıdır ona görə ki, dinamikdir, inkişafdadır, dəyişəndir, hakimiyyətin hərəkətverici qüvvəsinə cavab verə bilir. Vətəndaşlıq hisslərin, mənəviyyatın və şüurun xüsusi forması olub, hər bir Insanda tez formalaşmır, bu, şəxsiyyətin sosiallaşması yolu ilə və həyat təcrübəsinin olması əsasında tədricən baş verir. Məhz bərabər hüquqlu insanların fikir mübadiləsi prosesində siyasi qüvvələrin mövqeləri, dövlət xadimlərinin fəaliyyəti müzakirə olunur. Bunun sayəsində ictimai rəy yaranır, vətəndaşlıq mövqeyi ərsəyə gəlir.

Siyasi qrupların rəqabəti belə bir mifin yayılmasına imkan vermişdir ki, vətəndaş cəmiyyəti və dövlətin barışığı qeyri-mümkündür. Əlbəttə, onlar arasında həmişə mübarizə gedir. Lakin bu mübarizə konstitusiya müstəvisində gedirsə, burada təhlükəli bir şey yoxdur. Təhlükə onda yarana bilər ki, dövlət və ya vətəndaş qanun pozuntusuna yol vermiş olsun.

Vətəndaş cəmiyyətinin fəaliyyətinin zəruri şərti azad şəxslərin varlığıdır. Bu cür cəmiyyət bir tərəfdən onunla səciyyələnir ki, ictimaiyyət, xüsusən də hakimiyyət qarşısında fərdi muxtariyyət yüksək səviyyədə təmin olunur. Belə şəxsiyyət özünüqiymətləndirən və özünütamamlayan qüvvə kimi çıxış edir. Digər tərəfdən, bu cür şəxslər başqaları ilə ümumi məqsəd, maraq və dəyərlər uğrunda qarşılıqlı münasibətdə olmaq qabiliyyətinə

malikdirlər. Onlar həm də şəxsi maraqlarını və nailiyyətlərini hüquqi normalar çərçivəsində ümumi rifaha tabe etmək bacarığına qadir olurlar.

Yeni vətəndaş cəmiyyətinin formalaşması üçün ilk növbədə minimum demokratik hüquq və azadlıqların, bazar iqtisadiyyatının olması vacibdir. Məhz həmin vasitələr əsasında vətəndaşların həm şəxsi azadlığı, həm də özünütəşkilatlandırma imkanları yaranıb.

BMT-nin 1999-cu ilin aprelində qəbul etdiyi *"Demokratik hüquqların yayılması"* sənədinin əsas müddəalarında aşağıdakılar göstərilmişdir:

- Fikir azadlığı və onları ifadə etmək, düşünmək, din və vicdan azadlığı.
- İstənilən daşıyıcı qüvvə vasitəsi ilə informasiya və ideyaları axtarmaq, əldə etmək və yaymaq azadlığı hüququ.
- Vətəndaşların haqları, maraqları və şəxsi təhlükəsizliyinin
  hüquqi təminatını əks etdirən qanunun aliliyi.
- Ümumi və bərabər səsvermə hüququ.
- Siyasi həyatda iştirak etmək.
- Hesabat verməli olan və şəffaf işləyən dövlət müəssisələri.
- Öz ölkəsində dövlət xidməti göstərməyə bərabər nail olma hüququ.

Hər bir vətəndaşın mənəvi vəzifəsi o deməkdir ki, onun hər bir addımı cəmiyyətin tərəqqisinə xidmət etsin.

Beləliklə, vətəndaş cəmiyyəti fövqəladə mürəkkəb quruluşdur, demokratik ictimai quruluşun bünövrəsidir. Vətəndaş cəmiyyəti onun üzvləri arasında dövlətdən asılı olmayan, lakin dövlətlə qarşılıqlı əlaqədə olan münasibətlərlə səciyyələndirilir. Bu cəmiyyət yüksək sosial, iqtisadi, siyasi, mədəni və mənəvi statusa malik olub, dövlətlə birgə, inkişaf etmiş, hüquqi münasibətlər yaradan vətəndaş cəmiyyətidir.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu. Demokratik dəyərlərə söykənən vətəndaş cəmiyyəti quruculuğu yolu

çoxpartiyalı və ictimai birliklər şəbəkəsinin yaranmasından keçir. Azərbaycan Konstitusiyası hər kəsin istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai qurumlar yaratmaq və ya mövcud təşkilata daxil olmaq hüququnu təsbit edərək, bütün birliklərin sərbəst fəaliyyətinə təminat verir.

Biz əvvəlki mövzularda siyasi partiyalardan, qeyri-hökumət təşkilatlarından ətraflı bəhs etmişik. Onların normal fəaliyyəti üçün Azərbaycanda lazımi qanunvericilik bazası yaradılmışdır. Həmin təşkilatlar kütləvi informasiya vasitələrində sərbəst çıxışlar edir, müxtəlif layihələrin həyata keçirilməsində fəal iştirak edirlər.

Vətəndaşların milli, sosial, əmək, mədəni və s. hüquqları da vardır. Yalnız siyasətlə məşğul olanların deyil, həm də bütün sıravi vətəndaşların, o cümlədən qaçqın və məcburi köçkün düşmüş 1 milyondan çox vətəndaşın hüquqlarını qorumaq, onların problemlərini və dərdlərini beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırmaq lazımdır.

Keçid dövrü problemlərinin həllində və vətəndaş cəmiyyətinin for-malaşmasında qeyri-hökumət təşkilatlarını mühüm amil kimi qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılması qayğısına qalır. Bu məqsədlə 1997-ci ildə Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış razılaşmaya əsasən Azərbaycanda Qeyri-hökumət təşkilatlarının Resurs və Təlim Mərkəzi yaradılmışdır.

VI FƏSİL
İNSAN VƏ İQTİSADİ HƏYAT

1. İnsan tələbatı iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi. Təsərrüfat və mülkiyyət

İstehsalın ehtiyatları və onların növləri. İnsanlar öz maddi tələbatlarını ödəyən məhsulların və xidmətlərin - ərzağın, geyimin, mənzilin istehsalı üçün özlərinin fiziki və əqli qabiliyyətlərindən, onları əhatə edən maddi sərvətlərdən istifadə edirlər. Maddi nemətlərin və xidmətlərin istehsalı üçün istifadə edilən insan ehtiyatları, təbii ehtiyatlar və insanlar tərəfindən istehsal olunmuş ehtiyatlar ***iqtisadi ehtiyatları*** təşkil edir. İqtisadi ehtiyatlar da öz növbəsində iki yerə ayrılır: ***maddi ehtiyatlar*** **və** ***insan ehtiyatları***.

Maddi ehtiyatlarm tərkibinə təbii ehtiyatlar, istehsal olunmuş istehsal vasitələri, insan ehtiyatlarına isə əmək qabiliyyətli insanlar, intellektual və informasiya ehtiyatları daxildir. ***Təbii ehtiyatlara*** istehsal prosesində istifadə olunan təbii sərvətlər — torpaq, meşə, mineral ehtiyatlar, su, qiymətli metallar və s. aid edilir. İstehsal olunmuş istehsal vasitələrinə isə insanlar tərəfindən yaradılmış əmtəə və xidmətlər, onların istehlakçılara çatdırılmasında tətbiq olunan ehtiyatlar aiddir. Onlara ***kapital*** da deyilir.

İstehsal vasitələri ***əmək vasitələrinə*** və ***əmək cismlərinə*** bölünür. Maddi nemətlər istehsal etmək üçün insanlar əmək vasitələri ilə əmək cismlərinə təsir edirlər. Əmək vasitələrinə əmək alətləri – maşınlar, dəzgahlar, alətlər və əmək prosesinin ümumi maddi sərvətləri – istehsal binaları və qurğular, yollar, kanallar, nəqliyyat vasitələri, rabitə kanalları, torpaq daxil edilir. İstehsal vasitələrinin inkişaf səviyyəsi texniki tərəqqinin mühüm göstəricisidir. Buna görə də bəşəriyyətin inkişaf mərhələləri insanların nə istehsal etmələri ilə yox, nə ilə və necə istehsal etmələri ilə müəyyən edilir.

Əmək cismləri insanların əmək prosesində təsir göstərdikləri bütün təbiət maddələri və əşyalardır. Əmək cisimləri gələcək

məhsulun maddi əsasını təşkil edir. Bunlara xammal, material, yanacaq və enerji aiddir. Müasir elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi sayəsində təbiətdə rast gəlinməyən yeni əmək cisimləri yaratmaq mümkün olur.

İqtisadi ehtiyatların tərkib hissəsi kimi sahibkarlıq qabiliyyətini də ayırmaq məqsədəuyğundur. Sahibkar maddi məhsul yaradılması üçün istehsal ehtiyatlarının birləşdirilməsi təşəbbüsünü öz üzərinə götürməklə, istehsalın hərəkətverici qüvvəsi kimi çıxış edir.

İstehsal amilləri. Biz yuxarıda istehsalın təbii ehtiyatları haqqında danışdıq. Indi isə iqtisadi sahədə fəaliyyət göstərən *əsas istehsal amillərini* nəzərdən keçirək. Bu sahədə dörd əsas amil mühüm rol oynayır: torpaq, əmək, kapital və sahibkarlıq fəaliyyəti.

Torpaq (bütün təbii sərvətləri - əkin sahələri, meşələr, təbii ehtiyatlar, su mənbələri və s.)

Əmək (əhalinin sayı nə qədər çox olsa, onda istehsalda da bir o qədər əmək qüvvəsindən istifadə ediləcəkdir. Əhalinin təhsilli və ixtisaslı hissəsi nə qədər çox olsa, əməyin keyfiyyəti də bir o qədər yüksək olacaqdır).

Kapital (burada maşınlar, dəzgahlar, avadanlıqlar, onlarm yerləşdikləri istehsal binaları nəzərdə tutulur).

Sahibkarlıq fəaliyyəti (sadalanan üç amili bir yerdə uğurla birləşdirərək, əhalini zəruri mallarla təmin etməyi və gəlir əldə etməyi bacarmaq).

Son vaxtlar müasir dünyada *informasiya* da müstəqil bir istehsal amili kimi fəaliyyət göstərməyə başlamışdır. İnformasiya texnologiyalarının misli görünməmiş səviyyədə inkişafı, internet və mobil rabitənin geniş miqyas alması bu amilin istehsal amili kimi səmərəli fəaliyyətini təmin edir.

İstehsal amillərinin fəaliyyətini və qarşılıqlı əlaqəsini aşağıdakı 6.1. saylı sxem şəklində təsvir etmək olar.

Sxem 6.1.



Əmək bölgüsü və ixtisaslaşma. Cəmiyyətin iqtisadi münasibətlərində, bu münasibətlərin təkmilləşməsində və inkişafmda *əmək bölgüsü* və *ixtisaslaşma* xüsusi rol oynayır. Xalqların bütün daxili təşkilatları, bütün beynəlxalq münasibətləri əmək bölgüsünün müəyyən bir növünün ifadəsidir. Əmək bölgüsü *Insan cəmiyyətinin* yaranması ilə başlamışdır. Qəbilədə və tayfada da kişilər və qadınlar arasında əmək bölgüsü tətbiq edilmişdir. Bu bölgü yaşa və cinsə görə olan əmək bölgüsü idi.

Cəmiyyətin sonrakı inkişafında yaranmış birinci və ikinci ictimai əmək bölgüləri haqqında artıq siz tarix dərsliklərindən kifayət qədər məlumatlar əldə etmisiniz.

Cəmiyyətdə istehsal qüvvələri inkişaf etdikcə əmək bölgüsü də dərinləşir və inkişaf edir. Bu öz ifadəsini yeni-yeni, həm də mütərəqqi istehsal sahələrinin yaranmasında, buna uyğun ixtisasların meydana çıxmasında tapır.

Əmək bölgüsü yanaşı mövcud olan müxtəlif konkret əməyin hissələrini təşkil edir.

Təsərrüfat və mülkiyyət

Təsərrüfat anlayışı. Təsərrüfatın üç başlıca cəhəti. Bəşəriyyətin tarixində elə bir dövr olmuşdur ki, insanlar üçün maddi nemətlər əldə etmək çox çətin başa gəlmişdir. İnsanlar özlərinin yaşaması üçün zəruri olan nemətləri təbiətdən hazır şəkildə, yəni

ovçuluq etmək, balıq tutmaq, yeməli bitki və meyvələri toplamaqla əldə etmişlər. Onlar ovçuluq və balıqçılıq üçün zəruri olan ibtidai alətlərdən başqa bir şey istehsal etmək bacarığına malik olmamışlar. Belə təsərrüfatın ***istehlak təsərrüfatı*** adlandırıldığı, artıq, sizə məlumdur.

Ancaq belə yaşamaq çox çətin idi. Cəmiyyət inkişaf etdikcə insanların əmək vərdişləri, təsərrüfatı təşkil etmək bacarıqları da inkişaf etməyə başladı. Qədim insanların əkinçilik vədişlərinə yiyələnməsi, heyvanları əhliləşdirməsi, sənətkarlıq sahələrinin – toxuculuq, dulusçuluq, metal emalı, dabbaqlıq və s. meydana gəlməsi və inkişafı nəticəsində təsərrüfatın yeni forması – ***istehsal təsərrüfatı*** meydana gəldi.

Bu gün də istehsal təsərrüfatı fəaliyyətdədir. Yəni insanlar nəyisə istehsal, yaxud təkrar istehsal edirlər. Təsərrüfatın üç başlıca cəhəti – nə istehsal etmək, necə istehsal etmək və kimin üçün istehsal etmək vəzifəsi bütün aktuallığı ilə qalır. Doğrudur, XXI əsr təsərrüfatı ilə iyirmi əsr bundan əvvəlki təsərrüfat arasında çox ciddi fərqlər vardır. Bu təsərrüfat ən ibtidai əmək alətlərinə və əmək təcrübəsinə əsaslandığı halda, dövrümüzün təsərrüfatı elm və texnikanın, demək olar ki, hər gün dəyişən, yeniləşən dəyərlərindən faydalanır. Lakin təsərrüfatın üç cəhəti dəyişməz olaraq qalır.

Təsərrüfatın növləri. Bəşəriyyət minilliklər boyu təsərrüfatın, yaxud iqtisadi sistemin bir neçə tipini yaratmışdır. Biz bunu aşağıda təsvir edilmiş 6.2. saylı sxem vasitəsilə izləyə bilərik.

Sxem 6.2



İqtisadi sistem cəmiyyətin təsərrüfat həyatının təşkili formasıdır. İqtisadi sistemin tiplərini aşağıdakılara görə şərh etmək olar:

a) mülkiyyət formalarına görə;

b) məhdud miqdarda olan sərvətlərin bölüşdürülməsi vasitəsinə görə;

c) iqtisadiyyatın nizamlanması vasitəsinə görə;

d) insanların xüsusi müəssisələr və dövlətlə qarşılıqlı əlaqələrinə görə.

İndi isə iqtisadi sistemin əsas tiplərinin hansı xüsusiyyətlərə malik olduğunu nəzərdən keçirək.

Ənənəvi təsərrüfat istehsal təsərrüfatının nədən başlanmasıdır. Bu tip ibtidai, inkişaf etməmiş cəmiyyətlərdə mövcud olmuşdur. Bilirsiniz ki, ibtidai dövrdə torpaq, istehsal alətləri və istehsal olunan məhsul ümumi mülkiyyət sayılırdı. Əmək alətləri olduqca bəsit və sadə idi. İstehsal edilən məhsul qəbilə üzvlərinin yaşamasına zorla çatırdı.

Əlbəttə, belə ibtidai təsərrüfat forması uzun müddət mövcud ola bilməzdi. Bununla belə, ənənəvi iqtisadiyyat yüzilliklər boyu öz mövcudluğunu saxlamışdır.

Bazar təsərrüfatı[1] hələ feodalizm dövründə meydana gəlsə də, onun formalaşması kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı ilə qəti olaraq başa çatdı. Bazar təsərrüfatının əsasını ayrı-ayrı insanların xüsusi mülkiyyəti təşkil edir. Bunun nəticəsində isə bazar təsərrüfatı yaranır və inkişaf edir.

Burada mühüm bir məsələni də qeyd etmək lazımdır ki, ənənəvi təsərrüfat kimi, bazar təsərrüfatı da, xalis iqtisadi səbəblər üzündən təbii yolla meydana gəlmişdir. Onların yaranmasında siyasət və hakimiyyət həlledici rol oynamamışdır.

Sonralar iqtisadiyyatın ***inzibati amirlik tipi*** meydana gəldi. Təsərrüfatın bu tipi SSRİ-də, bir sıra Avropa ölkələrində müəyyən müddət mövcud olmuş, təcrübədə özünü doğrultmamışdır. Bu təsərrüfat tipində istehsal vasitələri dövlət mülkiyyətində idi. Təsərrüfat "yuxarıdan" müəyyənləşdirilmiş plan əsasında idarə

[1] *Bazar təsərrüfatı – azad sahibkarlığa, rəqabətə və xüsusi mülkiyyətə əsaslanan təsərrüfat sistemi.*

olunurdu. Belə bir sistem, təbii ki, SSRİ tərkibində olan Azərbaycan üçün də səciyyəvi idi. Nə istehsal olunması, necə və nə qədər istehsal olunması tamamilə yuxarı orqanlar tərəfindən müəyyənləşdirilirdi. Belə olduqda çox vaxt bazarın tələbləri, regionların təbii şəraiti, əhalinin məşğulluq səviyyəsi nəzərə alınmırdı. Qiymətlər bazarın tələblərinə görə yox, dövlət orqanları tərəfindən xərcə görə müəyyən olunurdu.

Sənayenin daha çox hərbi sifarişlər üçün işləyən sahəsi səmərəli işləyirdi. Əhali üçün lazım olan malların istehsalı, habelə maşınlı istehsal sənayesi geri qalır, kənd təsərrüfatı tənəzzül edirdi.

Doğrudur, ölkədə işsizlik və aclıq əsasən yox idi. Insanlar müəyyən məişət ehtiyaclarını – radio, televizor, paltaryuyan maşın, tozsoran, soyuducuya olan tələbatlarını qismən ödəyirdilər. Ancaq XX əsrin 70-80-ci illərində vəziyyət dəyişmişdi. Ən zəruri ərzaq məhsullarını – yağ, ət, balıq və s. qıtlığı yaranmışdı. Bu isə gizli də olsa, cəmiyyətdə narazılıq təzahürlərini artırır, sosial ziddiyyətləri kəskinləşdirirdi.

XX əsrin 90-cı illərində SSRİ və dünya sosializm sistemi dağıldıqdan sonra yaranmış müstəqil dövlətlər bazar təsərrüfatı yolunu seçdilər. Lakin bu proses ilk illərdə həmin ölkələr, o cümlədən Azərbaycan üçün çox çətin və ağrılı keçdi.

Mülkiyyət. İnsanın ilk dəfə əldə etdiyi ovu «mənimdir» adlandırması ilə ***mülkiyyət*** anlayışı yaranmışdır.

Mülkiyyət bəşəriyyətin iqtisadi və sosial inkişafının stimulu, tərəqqinin hərəkətverici qüvvəsi, cinayətlərin, inqilab və müharibələrin səbəbi hesab edilmişdir.

İqtisadi münasibətlər sistemində mülkiyyət anlayışı onun dərin mahiyyətini ifadə edir, müəyyənedici və aparıcı mövqeyə malikdir. Müəyyən mülkiyyət forması meydana gəlmədən onun mahiyyətinə uyğun gələn bir cəmiyyət və iqtisadi sistem qərarlaşa bilməz.

Mülkiyyətə hüquqi baxış da vardır. Çünki o, həm də hüquqi anlayışdır. Lakin bu halda o yalnız iqtisadi münasibətlərdən doğur və onu əks etdirir.

Hüquqi mənada mülkiyyət sahibinə ondan istədiyi kimi istifadə etmək hüququ verir. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsi vətəndaşlara mülkiyyət hüququ verir. Bu hüquqa əsasən, mülkiyyətin heç bir növünə üstünlük verilmir. Hər kəsin mülkiyyətində daşınan və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətin təkbaşma və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Mülkiyyət hüququ qanunla qorunur.

İqtisadi nöqteyi-nəzərdən mülkiyyət – insana məxsus olan şeylərə onun özününkü münasibəti bəsləməsidir.

Mülkiyyətin formaları. Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü maddəsində deyilir: «Mülkiyyət – dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər».

Bazar iqtisadiyyatı sistemində *xüsusi mülkiyyətin* əsas cəhəti ondan ibarətdir ki, fərdi sahibkar əsaslı vəsait sərf etməklə kiçik, orta və ya iri tipli müəssisələr təşkil edir. Bu sistemdə muzdlu əmək tətbiq edilir və kütləvi surətdə məhsul buraxılır, əldə edilən gəlir, mənfəət fərdi sahibkarlara məxsusdur. Xüsusi mülkiyyət qanunla məhdudlaşdırılmır.

Dövlət mülkiyyəti dedikdə, bazar iqtisadiyyatı şəraitində formalaşan dövlət mülkiyyəti nəzərdə tutulur. Adətən, dövlət mülkiyyətində strateji xarakter daşıyan xüsusi aparıcı müəssisələr, sahələr saxlanılır. Bunlar hər bir ölkənin öz mənafeyi baxımından müəyyən edilir. Elə istehsal sahələri və müəssisələri vardır ki, onlar ölkə üçün çox vacibdir. Lakin onların fəaliyyəti üçün çoxlu miqdarda kapital lazımdır. Fərdi və ya ayrı-ayrı sahibkarlar, adətən, belə sahələrlə məşğul olmaq istəmirlər. Dövlət belə sahə və müəssisələrin təşkilini öz üzərinə götürməyə məcbur olur.

Dövlət müəssisələrindən əldə edilən gəlir dövlət büdcəsinə daxil olur. Ona görə ki, istehsal vasitələri dövlət mülkiyyətidir. İnkişaf etmiş ölkələrin müasir təcrübəsi göstərir ki, dövlət mülkiyyətində olan əsas istehsal fondlarının xüsusi çəkisi orta hesabla 5-30 faiz arasındadır.

Bələdiyyə mülkiyyəti üçün səciyyəvi hal odur ki, mülkiyyətin obyektləri şəhərin, rayonun, qəsəbənin bələdiyyə idarəçiliyi tabeliyində olur. Bələdiyyə mülkiyyəti bir sıra dünya ölkələrində mövcuddur. Onlarda bu mülkiyyət təbii-tarixi inkişaf prosesində yaranıb. Həmin ölkələrdə bələdiyyə mülkiyyəti əsasən kommunal-mənzil, xidmət-məişət obyektlərini və təşkilatlarını əhatə edir, bilavasitə iri istehsal xarakterli obyektlərə malik deyil. Ölkəmizdə də bələdiyyə mülkiyyəti formalaşmaqdadır.

Özəlləşdirmə və milliləşdirmə. Tarixi təcrübədə xüsusi mülkiyyətin – torpağın, sənayenin, nəqliyyatın, rabitənin, bankların dövlət mülkiyyətinə keçməsi halları da olmuşdur. Bu hadisə *milliləşdirmə* adlanır. 1917-ci ildə Rusiyada dövlət çevrilişi oldu. Bolşeviklər elan etdilər ki, xüsusi mülkiyyət insanın insan tərəfindən istismarına əsaslandığı üçün ləğv edilməlidir. Xüsusi mülkiyyətdə olan bütün sahələr milliləşdirilərək ümumxalq mülkiyyəti elan olundu. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bolşeviklər burada da milliləşdirməni tətbiq etdilər. Həm də Azərbaycanda milliləşdirmə daha kəskin, amansız və təhqiramiz üsullarla aparılırdı. Adamların illər boyu gərgin əmək sayəsində topladığı sərvətlər, mülkiyyətlərində olan bütün nə varsa, əllərindən alınırdı.

Mülkiyyət münasibətləri *özəlləşdirmə* deyilən bir proseslə üzvi surətdə bağlıdır. Özəlləşdirmə müasir dövrdə həyata keçirilib və indi də davam etdirilir. Özəlləşdirmə bir elmi-iqtisadi anlayış kimi milliləşdirmənin əksi olaraq, dövlət mülkiyyətinin xüsusi və digər mülkiyyət formalarına çevrilməsi deməkdir.

Özəlləşdirmə həyata keçirilən zaman iqtisadiyyat, əsasən, dövlət inhisarından çıxır və azad sahibkarlığın yaranmasına səbəb olur. Sahibkarlıq istehsalın inkişafına maddi stimul yaradır. Nəticədə azad rəqabət üçün geniş imkanlar açılır.

Dövlət əmlakının özəlləşdirilməsi qanunlar əsasında həyata keçirilir. Özəlləşdirmə uzunmüddətli və fasiləsiz bir proses olsa da, onun həyata keçirilməsinin ilk mərhələsi 1999-2000-ci illərdə başa çatmışdır. Bu mərhələdə, əsasən, kiçik və orta ticarət, istehsal müəssisələrinin, xidmət sahəsinin və başqalarının özəlləşdirilməsi

ön plana çəkilmişdir. 2001-ci ildən sonra başlanan mərhələdə isə qalan orta və iri istehsal müəssisələrinin, obyektlərinin özəlləşdirilməsi həyata keçirilməyə başlamışdır.

1995-ci ildən Azərbaycanda bazar iqtisadiyyatının yaradılmasının hüquqi bazasını təmin edən, sosial-iqtisadi inkişafa xidmət edən qanunlar qəbul edilmişdir.

1996-cı ildən respublikada həyata keçirilmiş islahatlar nəticəsində iqtisadi tənəzzül və inflyasiyanın qarşısı alınmış, iqtisadi inkişafda yeni mərhələnin əsası qoyulmuşdur. Ölkədə özəlləşdirmə proqramı, aqrar islahatları və torpaqların xüsusi mülkiyyətə verilməsi prosesi ardıcıl surətdə davam etdirilir.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanda da dövlət əmlakının müəyyən xüsusi çəkiyə malik olması obyektiv zərurətdir.

Qarışıq iqtisadiyyat. İqtisadi sistemin bu tipi istehsal vasitələrinin əsas hissəsi üzərində mülkiyyət formalarının müxtəlifliyinə əsaslanır.

Qarışıq iqtisadiyyat müasir cəmiyyətin mürəkkəb iqtisadi, sosial və ekoloji problemlərini düzgün həll etməyə imkan verən yeni bir sistem kimi çıxış edir. İqtisadi sistemin bu tipi orta və yüksək səviyyədə inkişaf etmiş ölkələrdə formalaşmışdır. Ölkələrin konkret xüsusiyyətlərindən asılı olaraq, qarışıq iqtisadiyyatın müxtəlif modelləri mövcuddur.

Azərbaycan Respublikasının iqtisadiyyatında təsərrüfat həyatının əsas istiqamətləri. SSRİ-nin tərkibində olduğumuz 70 il ərzində Azərbaycanda iqtisadiyyat ümumi mərkəzi iqtisadiyyatın bir *halqası* olduğundan, respublikamız əsasən xammal mənbəyinə çevrilmişdi. Bu vəziyyəti aradan qaldırmaq üçün yeni demokratik cəmiyyət quruculuğu prosesində səmərəli qarışıq iqtisadiyyat sistemi formalaşmışdır. Bu problemin müvəffəqiyyətli həlli üçün ilk növbədə dövlət mülkiyyətinin geniş miqyasda özəlləşdirilməsi, iqtisadiyyatın idarə edilməsi sisteminin yenidən qurulması tədbirləri həyata keçirilir.

Ölkənin iqtisadi sisteminin modeli onun təbii sərvət potensialını, tarixi təsərrüfat ənənələrini, demoqrafik xüsusiyyətləri və digər əsas amilləri nəzərə almaqla yaradılır. İstehsal vasitələrinin

tam dövlət mülkiyyəti olduğu əvvəlki vəziyyətdən qarışıq iqtisadiyyat sisteminə, mülkiyyət formalarının müxtəlifliyinə keçid tədricən və müəyyən mərhələlərlə həyata keçirilir. Azərbaycanın iqtisadi sistemində dövlət bölməsinin rolu xeyli müddət yüksək olacaqdır. Dövlətin tənzimləyici funksiyaları daha çox iqtisadiyyatda azad sahibkarlıq bölməsinin təşəkkül və inkişafı vəzifələrinə yönəldilmişdir.

Bazar iqtisadiyyatı. Bank – kredit sistemi

Bazar iqtisadiyyatı. *Bazar iqtisadiyyatı* hər şeydən əvvəl, mülkiyyət plüralizmi ilə, sahibkarlıq və biznes fəaliyyəti ilə səciyyəvidir. Burada iqtisadiyyat azad demokratik prinsiplər əsasında idarə olunur.

Bazar iqtisadiyyatı sistemindəki dövlətlərdə istehsalın idarə edilməsində tətbiq olunan qaydalar, inzibati-amirlik sistemindəki kimi, kənardan zorla qəbul etdirilmir. İstehsalın idarə və təşkil edilməsi bazar qanunları əsasında aparılır. Bazar qanunlarınm fəaliyyət göstərməsinə geniş şərait yaradıldığına görə, istehsalçılar arasında rəqabət yaranır. *Rəqabət* bəzən arzuolunmaz nəticələrə gətirib çıxarırsa da, şəxsi təşəbbüskarlığın, işgüzarlığın stimullaşdırılmasının və əmək məhsuldarlığının artırılmasının olduqca səmərəli vasitəsidir. Məhz buna görə də azad rəqabətə əsaslanan bazar iqtisadiyyatı digər iqtisadi sistemlərdən üstündür, onun alternativi yoxdur. Bu, artıq sübuta ehtiyacı olmayan həqiqətdir.

Bazar iqtisadiyyatı, inzibati amirlik sistemindən fərqli olaraq, insanların fəaliyyət azadlığını təmin edir. Bu, onun çox müsbət cəhəti kimi səciyyələnir.

Bazar iqtisadiyyatı insanın öz qabiliyyətini, ixtisasını, biliyini, istehsal təcrübəsini daim təkmilləşdirməyə şərait yaradır, istehsalçıları var gücü ilə işləməyə sövq edir. Onlar öz təcrübələrində pis işləyənlərin aqibətini görür və onlardan ibrət dərsi götürürlər. Bu isə əmək məhsuldarlığının yüksəldilməsinə təsir göstərən amillərə, işçinin ixtisasının yüksəldilməsinə və əməyin elmi təşkilinə imkan verir.

Bazarların müxtəlifliyi. İnkişaf etmiş müasir iqtisadi sistemlərdə bazar əlaqələri bütün təsərrüfat sahələrini əhatə edir. Həmin əlaqələr cəmiyyətin iqtisadi orqanizminin bütün elementlərinə nüfuz edir. Eyni zamanda iqtisadiyyatda bazarın müxtəlif növləri formalaşır. Onların arasında, ilk növbədə, əmtəə və xidmətlər bazarını ayırmaq lazımdır.

Əmtəə və xidmətlər bazarı. Əmtəə və xidmətlər bazarmda alqı-satqının obyekti müxtəlif çeşidli məhsullar, həmçinin ayrı-ayrı xidmət növləri olur. Bazarın bu növündə alıcı və satıcı kimi məhsulun istehsalı və istehlakı ilə məşğul olan sənaye, kənd təsərrüfatı müəssisələri və firmaları, xidmət sferasının müəssisələri, ayrı-ayrı vətəndaşlar çıxış edirlər.

Müasir dövrdə əmtəə və xidmətlər bazarının mütəşəkkil formaları inkişaf etmişdir. Bu formalar içərisində əmtəə birjalarının rolu xüsusilə böyükdür.

Əmtəə birjası. Birja əvvəlcədən təyin edilən qaydalar əsasında, müəyyən olunmuş yerdə alqı-satqı aparan təşkilatdır. Onun əsas növləri əmtəə birjası, qiymətli kağızlar birjası və əmək birjasıdır.

Əmtəə birjasında malların nümunələr və standartlar üzrə topdan-satışı həyata keçirilir. O, bazarın müntəzəm fəaliyyət göstərən, inkişaf etmiş formasıdır. Əmtəə birjasında satılan malların hamısı alıcıya təqdim edilmir. Alqı-satqı mövcud nümunələr və müqavilədə göstərilən keyfiyyət göstəricilərinə əsaslanmaqla aparılır.

Əmtəə birjası məhsullar üzrə böyük həcmdə tələb və təklifi bir yerə cəmləşdirməyə imkan verir. Bunun nəticəsində mövcud əmtəə ehtiyatları, qiymətlərin səviyyəsi və onların dəyişməsi meyilləri haqqında real məlumatlar əldə etmək xeyli asanlaşır. Birjada qiymətlər qeydiyyatdan keçirilir və mətbuatda dərc edilir. Beləliklə, əmtəə birjasında əslində iqtisadiyyatın nəbzini dəqiq tutmaq olur.

Müvəffəqiyyətlə fəaliyyət gostərmək üçün firmalar əmtəə və xidmətlər bazarında yaranan gündəlik vəziyyəti, onun dinamikasını diqqətlə izləməli və dəqiq nəzərə almalıdırlar. Bu vəzifəni müvəffəqiyyətlə həyata keçirmək üçün *marketinq sistemindən* istifadə edilir.

Marketinq təsərrüfat fəaliyyətinin təşkili və idarə edilməsinin bazar tələblərinə, istehlakçıların tələbatının maksimum ödənilməsinə yönəldilən sistemdir. Marketinqin səmərəli tətbiqi üçün alıcıların tələbatı əvvəlcədən diqqətlə öyrənilir, həmin tələbatda baş verə biləcək dəyişikliklər proqnozlaşdırılır və bütün bu informasiya əsasında buraxılan məhsulun keyfiyyətinə və onun satışı üçün zəruri olan ticarət formalarının təşkilinə dair mümkün optimal tədbirlər planı hazırlanır.

Marketinqin başlıca məqsədi maksimum mənfəət əldə etməkdir. Bununla yanaşı, firmalar marketinqin vasitəsi ilə başlıca vəzifələri – yeni bazara uyğunlaşmaq, rəqibləri sıxışdırmaq, mümkün olan kommersiya riskini minimuma endirmək və s. həll edirlər. Hər bir konkret vəziyyətdə firmanın qarşısında duran vəzifələrə uyğun olaraq, onun rəhbərliyi ***marketinq proqramı*** tələb edir. Bu proqramda təsərrüfat fəaliyyətinin məhsulun satışı ilə birbaşa və ya dolayı yolla bağlı olan müxtəlif cəhətləri öz əksini tapır.

Qiymətli kağızlar bazarı. Bazarın bu növündə qiymətli kağızlarla əməliyyat aparılır. Qiymətli kağızlar öz sahibinin müəyyən əmlaka və ya pul məbləğinə mülkiyyət hüququnu təsdiq edən sənəddir. Qiymətli kağızların əsas növləri səhmlər və istiqrazlardır. Səhm öz sahibinin səhmdarlar cəmiyyətinin işində iştirak etdiyini təsdiq edən və həmin cəmiyyətin mənfətinin bir hissəsini divident şəklində almağa hüquq verən qiymətli kağızdır. Səhmdarlar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək üçün müxtəlif firmaların və vətəndaşların əmanətlərini səhm buraxılışı vasitəsi ilə birləşdirməklə yaradılan təşkilatdır.

İstiqraz – sahibinə nəzərdə tutulan vaxtda öz nominal qiymətinin və müəyyən edilən faizin ödənilməsi öhdəliklərini təsdiq edən qiymətli kağızdır. İstiqrazlar müəssisələr və əhali arasında könüllü yayılır,

Qiymətli kağızlar bazarının əsas təşkilat forması fond birjasıdır. *Fond birjasında* əvvəldən müəyyən edilmiş qaydalar üzrə səhmlərin və istiqrazların müntəzəm alqı-satqısı həyata keçirilir. Həmin alqı-satqı gedişində qiymətli kağızların məzənnəsi müəyyənləşdirilir. Əmək bazarı iş qüvvəsinə olan tələb və təşkilin

formalaşdığı dairədir. Əmək bazarının təşkilində əsas məqsəd adamları məcburi əməkdən azad etməkdir. Əmək bazarının mövcudluğu ictimai fəaliyyətdə əməyin tam könüllülüyünü təmin etməklə iş qüvvəsinin ölkə daxilində azad axını və yerləşməsi üçün real imkan və şərait yaradır. Əmək bazarı hər bir fərdin öz iş qüvvəsini azad surətdə satmaq hüququna əsaslanır.

İş qüvvəsi bazar qiyməti əsasında işçi ilə işə götürən arasında bağlanan müqavilə üzrə satılır. Həmin müqavilələr əsasında işçilərə əmək haqqı müəyyənləşdirilir. Əmək haqqını müəyyən edərkən işçinin normal yaşaması üçün lazım olan xərclər və işçinin istehsal prosesində necə və nə qədər işləməsi hökmən hesaba alınmalıdır. Başqa sözlə desək, bazar iqtisadiyyatında əmək haqqı istehsalda sərf edilən iş qüvvəsinin dəyərinin ifadəsi olmalıdır.

Əmək bazarının əsas təşkilat forması ***əmək birjasıdır*** (Azərbaycanda ***əmək yarmarkası).*** Əmək birjası iş qüvvəsinin alqı-satqı üzrə sovdələşmələrinin reallaşdırılmasında işçilərlə sahibkarlar arasında müntəzəm vasitəçiliyi həyata keçirən dövlət idarəsidir. Əmək birjası işsizlərin işə düzəlməsində, həmçinin iş yerlərinin dəyişdirilməsində vasitəçilik xidməti göstərir. Birjada iş qüvvəsinin tələb və təşkili öyrənilir, ona tələb olan müəssisələr haqqında məlumat verilir. Əmək birjası eyni zamanda işsizləri qeydiyyatdan keçirir və onlara işsizliyə görə müavinət verir.

Əmək birjası rəsmi qeydiyyatdan keçmiş işsizlərin, iş qabiliyyətli əhalinin ümumi sayına görə, xüsusi çəkisini müəyyənləşdirməklə ölkədə işsizliyin səviyyəsini təyin edir. Bu əsasda dövlət işsizliyi azaltmaq üçün əmək birjasını tənzimləyən geniş tədbirlər sistemi həyata keçirir. Bu tədbirlər sırasında boş iş yerləri haqqında mötəbər informasiya sisteminin hazırlanması və onun daim təkmilləşdirilməsi, işçilərin ixtisaslarının dəyişdirilməsi məsələsinin həlli, iş qüvvəsi bazarında vəziyyət üzərində daimi nəzarətin həyata keçirilməsi əsas yerləri tutur. Əmək bazarının tənzimlənməsi tədbirləri içərisində gənclərin işlə təmin edilməsinə yönəldilmiş dövlət proqramı xüsusi əhəmiyyətə malikdir. Bu proqramın həyata keçirilməsi bir sıra sosial, hüquqi, əxlaqi və s.

(ailə, cinayətkarlıq, təhsil və s.) problemlərin həlli üçün səmərəli dayaq ola bilər.

Tələb və təklif. Rəqabət. Istehsal amillərinin köməyi ilə istehsal edilmiş əmtəə və görülən xidmətlər bazara çıxarılır. Əmtəələr və xidmətlər bazarda *qiymət* alır. Bu zaman qiymət *tələb* və *təklif* əsasında müəyyən olunur.

Tələb bazarda təcəssüm olunan və müvafiq vəsait ilə təmin edilən tələbatların ifadə formasıdır. Məsələn, bir ailənin ayda 20 kq kartofa ehtiyacı var. Lakin həmin ailənin büdcəsi ayda yalnız 10 kq kartof almağa imkan verir. Burada ailənin tələbatı 20 kq, alıcılıq qabiliyyətli tələbi isə 10 kq kartofa bərabərdir. Deməli, burada tələbat tələbə çevrilmədi. Tələb, eyni zamanda, alıcılıq qabiliyyəti deməkdir. Burada məhsula, əmtəəyə ehtiyac yox, pulun miqdarı həlledici rol oynayır. Yəni nə qədər pulun varsa, bazardan ona uyğun miqdarda mal ala bilmək olar. Əgər malın qiyməti aşağı düşürsə, tələb yüksəlir. Qiymət qalxdıqda isə əksinə, tələb aşağı düşür.

Bəs təklif nədir? Təklif bazarda yerləşən və oraya göndərilə bilən əmtəələrin və xidmətin məcmuyudur. O, istehsalın və xidmətlərin həcmi ilə müəyyən olunur. Təklif bazar qanunlarma tabedir: əmtəə və xidmətlərin qiymətləri artdıqca, onlara olan təkliflər də artır.

Tələblə təklif istehsalla istehlakın vəhdəti, eyni zamanda təzahürüdür. İstehsalla istehlak tələb və təklif şəklində meydana çıxır. İstehsalla istehlakı bir-birindən ayırmaq olmaz, onlar qarşılıqlı əlaqədə və asılı şəkildə mövcuddur.

2. Bank – kredit sistemi

Pul nədir? Pul cəmiyyətdə hamı tərəfindən qəbul edilən alış-veriş (tədavül) vasitəsidir. Pulun meydana gəlməsi məhsulların mübadiləsi prosesini qat-qat asanlaşdırmış və iqtisadiyyatın inkişafında misilsiz rol oynamışdır, Bir çox iqtisadiyyatçılar pulu böyük sosial kəşflərdən biri kimi qiymətləndirirlər.

Pulun mahiyyəti onun yerinə yetirdiyi funksiyalarda ifadə olunur. Pul, hər şeydən əvvəl, tədavül funksiyasını yerinə yetirir.

Puldan bütün məhsulların alqı-satqısı zamanı istifadə etmək olur. Bununla da cəmiyyət malların birbaşa (yəni barter üsulu ilə) mübadiləsi ilə əlaqədar meydana çıxan çətinliklərdən xilas olur və Insanlar əmək bölgüsünün üstünlüklərindən bəhrələnə bilirlər.

Pul eyni zamanda dəyər ölçüsü və dəyərin saxlanması (yığım) funksiyalarını yerinə yetirir. Cəmiyyət pul vahidindən müxtəlif növ maddi nemətlərin dəyərlərini ortaq ölçüyə gətirmək üçün istifadə edir. Bununla da, hər bir məhsulun qiymətini onun mübadilə oluna biləcəyi bütün digər məhsullar vasitəsi ilə ifadə etmək ehtiyacı aradan qalxır, Pulla istənilən vaxtda istənilən malı almaq və ya maliyyə öhdəliklərini yerinə yetirmək mümkün olduğu üçün ondan, eyni zamanda, dəyəri saxlama (yığım) vasitəsi kimi istifadə edilir.

Pulun digər mühüm funksiyası onun borc ödəmə (tədiyə) vasitəsi olmasıdır. Müəyyən olunmuş vaxt çatdıqdan sonra alınmış borcların qaytarılması və həmin borclara görə faizlərin verilməsi pul vasitəsi ilə həyata keçirilir.

Müasir iqtisadi sistemlərdə istifadə olunan pullar uzun təkamül yolu keçmişdir.

Qədimdə pul rolunu vəhşi heyvanların dərisi, mal-qara, taxıl və s. oynayırdı. Tədricən bu rol nəcib metallara – pul əmtəələrinə daha çox münasib olan mis, gümüş və qızıla keçdi. Hazırda, demək olar ki, hər yerdə dövrümüzdə həqiqi pulları əvəz edən kağız pullar geniş yayılmışdır. İlk kağız pullar e.ə. 812-ci ildə Çində buraxılmış və *"çao"* adlandırılmışdır. Qərbdə isə ilk kağız pul XVII əsrdə Şimali Amerikada buraxılmışdır.

Valyuta. Hər bir ölkədə pul tədavülünün tarixən qərarlaşmış forması həmin ölkənin pul sistemini təşkil edir, Pul sisteminin əsasları qanunvericiliklə təsbit edilir. Pul sisteminin başlıca ünsürləri aşağıdakılardır: *pul vahidi, qiymət miqyası, pul nişanlarının növləri, pulun emissiyası* və *tənzimlənməsi qaydası.*

Pul funksiyasını nəcib metalların yerinə yetirdiyi pul sisteminə *monetar sistem* deyilir. XX əsrin 30-cu illərindən bütün ölkələrdə pul sistemi kredit və kağız pul nişanlarının tədavülünə əsaslanır. Bu halda pul sistemi pul nişanlarının rəsmi qızıl məzmununun ləğv edilməsi və pul dövriyyəsindən qızılın çıxarılması ilə səciyyələnir. Eyni zamanda

nağdsız hesablaşmaların inkişafı hesabına nağd pul dövriyyəsi ixtisar olunur. Pul buraxılışı dövlətin inhisarında olur.

Təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi milli pul vahidlərinin bir-birinə dəyişdirilməsinə tələbat doğurmuşdur. Bu tələbat xüsusi bazarda, yəni tələb və təklifin təsiri altmda *valyuta kursu* formasında reallaşdırılır.

Valyutanın alqı-satqısı *dunya valyuta bazarlarında* həyata keçirilir. Ən böyük dünya valyuta bazarları Nyu-York, London və başqa iri şəhərlərdədir.

Valyuta italyan sözü olub, *«qiymət», «dəyər»* deməkdir. Valyuta hər hansı bir dövlətin pul vahididir. Yəqin ki, siz tez-tez dollar, funt-sterlinq, marka, manat, rubl kimi sözlər eşidirsiniz. Onlar müxtəlif ölkələrin milli pul vahididir. Valyutanın əsas daşıyıcısı qızıl, gümüş, kağız pul, veksel, çek və digər qiymətli kağızlardır.

Hər bir ölkənin pul vahidinin arxasında müəyyən miqdarda qızıl və başqa sərvət dayanır. Qızıl ehtiyatı olmayan dövlətin pul nişanı istənilən vaxt qızıl ilə dəyişdirilə bilməz. Məhz ona görə də ABŞ dolları yığmaq, ondan ehtiyat saxlamaq qızıl yığmağa bərabərdir, hətta indiki şəraitdə ondan da yüksəkdir. Çünki qızılı istədiyin vaxt satıb, ondan istədiyin məhsulu və xidməti almaq olmur, dolları isə istədiyin vaxt və istədiyin ölkədə yerli pula dəyişmək mümkündür.

Son vaxtlarda nağdsız hesablaşma sistemi geniş yayılmışdır. Bundan məqsəd istənilən yerdə qoyulmuş bankomatlarda kredit kartları ilə pulların götürülməsi imkanı yaratmaqdır. İnternet vasitəsi ilə maliyyə əməliyyatları aparılır, məsələn, futbola, teatra biletlər, əmtəələr sifariş edilir və s. Buna ***elektron ticarət*** deyilir. İqtisadiyyatda bankların rolu. Pul kapitallarının toplanması və onların borc verilməsi bazar iqtisadiyyatı şəraitində ***bankların*** əsas vəzifəsini təşkil edir. Onların mühüm vəzifəsi borc pul alanla borc verən arasında vasitəçilik etməkdir. Banklar təkcə sənaye və ticarət mülkiyyətçiləri arasında borc alıb, borc verməkdə vasitəçilik deyil, eyni zamanda əhalinin pul gəlirlərinin və qənaət edib yığdığı pulların borc kapitalına çevirməsini həyata keçirir. Öz-özlüyündə əhalinin əlində olan pul kapital deyildir. Çünki bu pullar sahiblərinin şəxsi istehlak tələbatının ödənilməsi

məqsədi ilə yığılıb. Lakin həmin pul vəsaiti bankın sərəncamına keçdikdən sonra kapitala çevrilə bilər.

Bank kreditləri. *Kredit* qaytarılmaq və əlavə faiz ödənilmək şərti ilə **pul** və ya əmtəə formasında verilən borca deyilir. Kreditin hərəkəti zamanı borc verənlə borc alan arasında müəyyən iqtisadi münasibətlər yaranır.Borc kapitalının hərəkəti kredit vasitəsi ilə həyata keçirilir. Kapitalın dövranı zamanı sahibkarın əlində toplanan müvəqqəti sərbəst pul vəsaitlərindən istifadə olunmalıdır. Istehsal prosesində əsas kapital istehlak olunur, öz dəyərinin bir hissəsini yeni yaranmış əmtəənin üzərinə keçirir. Əmtəə satıldıqdan sonra həmin hissə ayırmalar şəklində sahibkarın sərəncamına keçir. Dövriyyə kapitalının hərəkəti zamanı da müvəqqəti pul vəsaiti yaranır.

Əgər bütün pul vəsaitləri istehsal vasitələri və xammal alınana qədər sahibkarın dəmir kassalarında istifadəsiz yatıb qalarsa, o, heç bir mənfəət gətirə bilməz. Buna görə də sahibkarlar sərbəst pul kapitallarını banklara qoyur və bankdan faiz alırlar. Banklar, öz növbəsində, bu kapitalları qaytarılmaq şərti ilə daha yüksək faizlə məhsuldar istifadə üçün digər fəaliyyətdə olan sahibkarlara verirlər. Müvəqqəti sərbəst kapitalların bu cür hərəkəti onların mülkiyyətçilərinə faydalıdır, çünki onlar banka qoyduqları pula görə bankdan faiz alırlar. Bu, həm də borc alan sahibkarlara sərfəlidir. Onlar aldıqları borc pulu əsasən istehsala qoyur, oradan mənfəət əldə edirlər. Mənfəətin bir hissəsini özləri mənimsəyir, digər hissəsini isə aldıqları puldan istifadə üçün banka faiz verirlər. Banklar sərbəst pulu nisbətən aşağı faizlə qəbul edir, borcu isə daha yuxarı faizlə verirlər. Bu fərq bank mənfəətini əmələ gətirir.

Bazar iqtisadiyyatı sistemində kreditin bir çox növləri mövcuddur. Bunlardan biri ***kommersiya*** *kreditidir*. Kommersiya krediti fəaliyyətdə olan sahibkarların (sənayedə və ticarətdə) bir-birinə əmtəə kapitalı şəklində verdikləri kreditdir.

Əmtəələrin kreditlə satışında tədavül vasitəsi funksiyasını, bir qayda olaraq, *veksellər* yerinə yetirir. *Veksel borclunun gostərilən vaxtda müəyyən pul məbləğini ödəməsini göstərən borc sənədidir.*

Vekseldən bir sahibkar başqa sahibkardan əmtəələr almaq üçün pul əvəzinə istifadə edir. Veksel bu yolla ticarət dövriyyəsinə daxil olur və kredit vasitəsinin ən sadə növünə çevrilir.

***Bank** krediti* bankların fəaliyyətdə **olan** sahibkarlara **pul** borcları şəklində verdikləri kreditə deyilir.

Bank krediti hər bir sahibkara istənilən həcmdə verilə bilər. Bank krediti dövlətin, çox hallarda, sərbəst xüsusi təşəbbüs göstərən sahibkarların xüsusi bir fəaliyyət sahəsinə çevrilir.

Dövlət krediti zamanı borc verən rolunda dövlətin özü çıxış edir. Bunun ən geniş yayılmış forması dövlət tərəfindən istiqrazların buraxılmasıdır. Dövlət büdcə defisitini aradan qaldırmaq məqsədi ilə istiqrazlar buraxır. Dövlət xərclərinin ödənilməsində daxili istiqrazların buraxılmasından əldə edilən gəlir əsas mənbələrdən biridir.

İpoteka krediti əmlakın girov qoyulması əsasında verilən kreditdir. *Ipoteka* sözü latın sözündən əmələ gəlib, mənası *«girov»* deməkdir. Adətən, tərpənməz əmlak – torpaq, ev və digər tikililər alınan borc əvəzində ipoteka banklarında girov qoyulur. Əgər borclu borcunu vaxtında qaytarmasa, əmlak bankın sərəncamına keçir.

Beynəlxalq kredit borc kapitalının ölkələr arasında hərəkəti və fəaliyyətidir. Borc alan və borc verən rolunda banklar, iri şirkətlər, xüsusi sahibkarlar, dövlət idarələri və başqaları iştirak edə bilərlər.

Azərbaycan bank sistemi. Dünya Bankının Azərbaycana köməyi. Azərbaycanın ***Mərkəzi Bankı*** respublikanın baş bankıdır. O, respublikanın pul-kredit sisteminin idarə edilməsini təşkil edir, ölkənin bankları arasında əlaqələndirici rol oynayır, pul və başqa qiymətli kağızlar buraxır.

Respublikamızda Səhmdar-kommersiya aqrar-sənaye bankı (ASB), Səhmdar-kommersiya sənaye-investisiya bankı (SİB) və Səhmdar-kommersiya əmanət bankı fəaliyyət göstərir.

Beynəlxalq bank ixracat və qeyri-ticarət əməliyyatları üzrə hesablaşmaları həyata keçirir və təşkil edir, xarici bazara çıxmaq hüququ olan müəssisə (firma) və təsərrüfat təşkilatlarının xarici iqtisadi əlaqələrini kreditləşdirir.

Dünya Bankı 1995-ci ildən başlayaraq Azərbaycanda 13 layihəni maliyyələşdirmişdir. 1999-cu ildə isə bu mötəbər maliyyə qurumu

2000-2002-ci maliyyə illəri ərzində Azərbaycan iqtisadiyyatının inkişaf proqramının dəstəklənməsinə yardım strategiyası işləyib hazırlamışdır. Strategiyanın əsas vəzifələri dövlət təsisatlarının islahatına kömək etmək, idarəetmə aparatını təkmilləşdirmək, normativ-hüquqi bazanı möhkəmlətmək, özəl sektorun inkişafı üçün əlverişli şərait yaratmaq, sosial inkişafı və infrastrukturu sərmayələşdirməkdir.

Pul emissiyası. İnflyasiya. Tədavüldə olan pulun miqdarı mal və xidmətlərin alış-verişi üçün tələb edildiyindən çox olduqda *inflyasiya* baş verir. İnflyasiya tədavüldə olan pulun ümumi kütləsinin əmtəə qiymətlərinin məbləğindən artıq olması nəticəsində pulun qiymətdən düşməsi və əmtəələrlə təmin olunmayan pul kütləsinin meydana gəlməsidir. İnflyasiya əmtəələrin qiymətlərinin qalxmasına gətirib çıxarır.

Gedişinin sürətinə görə inflyasiyanı sürünən, sürətli və hiperinflyasiyaya bölürlər. Bəzən iqtisadiyyatda pulun qiymətdən düşməsi istehsalın həcminin azalması, istehsalatda durğunluq və işsizliyin artması ilə müşayiət olunur. Bu hala da *staqflyasiya* deyilir. İnflyasiyanın başlıca səbəbləri iqtisadiyyatın müxtəlif sahələri arasında tarazlığın pozulması, dövlətin xərclərinin onun gəlirindən çox olması, hərbi xərclərin böyük

sürətlə artması, əsaslı vəsait qoyuluşunun həcminin çox böyük olması, qiymətlərin və əmək haqqının əsassız olaraq qaldırılmasıdır.

İnflyasiya ilə mübarizə üsulları. Hər bir dövlət inflyasiyanın qarşısının alınmasında maraqlıdır. Buna görə də o, bir sıra antiinflyasiya tədbirləri həyata keçirir. Antiinflyasiya tənziminin vəzifələrindən biri büdcə kəsirinin azaldılması və ləğv edilməsidir. Bu vəzifəni iki yolla: gəlirlərin artırılması və dövlət xərclərinin azaldılması yolu ilə həll etmək olar. Ikinci yol daha əlverişlidir.

İnflyasiyanın qarşısının alınması üçün dövlətin gördüyü tədbirlərdən biri *devalvasiyadır.* Devalvasiya ölkənin pul sisteminin sabitləşdirilməsi üçün qanunvericilik qaydası ilə milli pul vahidinin, qızılın məzənnəsinin aşağı salınması və ya kağız pulun rəsmi məzənnəsinin qızıla və digər ölkələrin valyutasına nəzərən endirilməsidir.

Çox zaman bir sıra dövlətlərdə tədavül üçün lazım olan kağız pulun miqdarını qızılın miqdarına daha çox uyğunlaşdırmaq üçün tədavüldən artıq pul kütləsi çıxardılır. Buna ***defilyasiya*** deyilir. Bu, inflyasiyanın əksi olan prosesdir.

İnflyasiya prosesi həddindən artıq güclənərsə, pulun qiyməti kəskin surətdə aşağı düşər və onun alıcılıq qabiliyyəti sıfıra enə bilər. Bu zaman dövlət qiymətdən düşmüş həmin pulların etibarsız olması haqqında elan verir. Buna pulun *nullifikasiyası* deyilir.

Bəzən mürəkkəb iqtisadi şəraitdə pul islahatı keçirmədən pul vahidinin inflyasiyayaqədərki alıcılıq qabiliyyətini tədricən bərpa etmək zərurəti yaranır. Bu prosesə *revalvasiya* deyilir. Revalvasiya üçün tədavüldə olan pulun miqdarını dəyişmədən əmtəə dövriyyəsi artırılır. Bu, pulun nisbətən qiymətdən az düşməsi şəraitində mümkündür.

3. *Biznes və sahibkarlıq. Dövlət və iqtisadiyyat. Sığorta*

Biznes və müstəqil sahibkarlıq. *Biznes* ingilis sözüdür, dilimizdə "iş" mənasını daşıyır. Biznes gəlir əldə etmək məqsədi ilə ticarət və başqa sahələrdə sahibkarlıq fəaliyyətinin bir növüdür. *Biznesmen* də ingilis sözü olub Azərbaycan dilində *iş adamı, bacarıqla şəxsi ticarətlə məşğul olan sahibkar, müəssisə sahibi* deməkdir. Məhsul istehsalı, satışı, xidmətlər göstərilməsi və digər sahələrdə fəaliyyət göstərən bütün sahibkarların məqsədi əsasən gəlir, mənfəət götürməkdir. Bu mənada bütün sahibkarları da biznesmen adlandırmaq olar. Lakin sahibkarlıq fəaliyyəti biznesdən fərqlənir. Sahibkarlar böyük həcmdə istehsal, xidmət və kommersiya yaradırlar. Biznesmenlər isə xırda və orta həcmli müəssisələr yaradır, onları idarə edirlər. Bazar prinsiplərinə əsaslanan səmərəli təsərrüfat sisteminin yaradılmasında ilk mər hələ cəmiyyət üçün faydalı olan sahibkarlıq fəaliyyətinin və iqtisadi davranış azadlığının təmin edilməsidir. Ayrı-ayrı şəxslərə, ailələrə, sosial qruplara və müəssisələrə təsərrüfat fəaliyyətində sərbəstlik verilməsi hər bir subyektin iqtisadi həyatda ən fəal iştirakına, öz potensial imkanlarından daha dolğun istifadə etməsinə səbəb olur. Azad sahibkarlığa geniş meydan verilməsi, hər bir vətəndaşa

fəaliyyət göstərmək üçün şərait yaradılması, müasir dövrdə cəmiyyətin tərəqqisinin zəruri şərtlərindən biri kimi çıxış edir.

Sahibkarlıq ayrı-ayrı şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət əldə edilməsinə yönəldilən müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Sahibkarlar öz adlarından çıxış edirlər və fəaliyyətlərinin nəticələri üçün məsuliyyət onların öz üzərinə düşür.

Ölkənin fəaliyyət qabiliyyəti olan hər bir vətəndaşı, mülkiyyət for-masından asılı olmayaraq hüquqi şəxslər, hər bir xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs, xarici hüquqi şəxslər sahibkar və ya sahibkarlığın subyekti ola bilərlər.

Mədəni sahibkarlığın bir çox etik ənənələri mövcuddur. Bunların içərisində işgüzar münasibətlərdə düzgünlük, təmizlik, tərəfdaşla qarşılıqlı etibarlılıq xüsusi yer tutur. Bu keyfiyyətlərə malik olmayanların bütün hallarda sahibkarlıq fəaliyyətində ciddi uğur qazanmaları sadəcə olaraq mümkün deyildir.

Sahibkarlığın növləri. Sahibkarlığın iki əsas forması vardır: *fərdi sahibkarlıq* və *kollektiv sahibkarlıq*. Bu formalar sahibkarlıq subyektləri tərəfindən vətəndaşların mülkiyyəti əsasında, habelə qanuni əsaslarla əldə olunan və istifadə edilən əmlakla həyata keçirilir. Bütün hallarda sahibkarlıq fəaliyyəti üçün təşəbbüskarlıq, mənfəət götürməyə çalışmaq, risk etmək, «özünü yoxlamaq» istəyi səciyyəvidir.

Həyata keçirildiyi sahəyə görə sahibkarlıq fəaliyyətinin *istehsal, kommersiya* və *maliyyə* növləri fərqləndirilir. Real təcrübədə sahibkarlığın bu növləri bir-birini qarşılıqlı surətdə tamamlayır.

Sahibkarlar təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun istehlakçılarını seçmək, dövlət ehtiyacları üçün müqavilə əsasında iş görmək və məhsul göndərmək hüququna malikdirlər. Sahibkarlar əldə etdikləri mənfəətdən vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra onun qalan hissəsini sərbəst istifadə edirlər. Bu zaman onlar həmin vəsaitdən sahibkarlıq fəaliyyətini genişləndirməklə yanaşı, xeyriyyəçilik, maarifçilik məqsədləri,

habelə müharibə və başqa fövqəladə hadisələr zamanı dövlətə lazımi yardım göstərilməsi məqsədləri üçün istifadə edə bilərlər.

Sahibkarlar eyni zamanda qüvvədə olan qanunvericilikdən və bağladıqları müqavilədən irəli gələn vəzifələri yerinə yetirməlidirlər. Onlar ilk növbədə işçilərə əmək haqqını ölkənin qanunvericiliyi ilə müəyyən olunmuş səviyyədə ödəməli, ekoloji təhlükəsizliyin, istehsal gigiyenasının və sanitariyanın, təhlükəsizlik texnikasının təmin edilməsi, memarlıq abidələrinin və tarixi abidələrin mühafizəsi kimi zəruri şərtlərə əməl etməlidirlər.

Müasir şəraitdə azad sahibkarlığın inkişafı həm iqtisadi, həm də sosial və siyasi əhəmiyyətə malikdir. Buna görə də dövlət sahibkarlığın inkişafı üçün əlverişli şərait yaratmalı, bu işə hərtərəfli yardım göstərməlidir. Ilk növbədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi sahəsində lüzumsuz məhdudiyyətlərin aradan qaldırılması təmin edilməlidir. Hər cür qadağanlar sahibkarlıq mənafeyinin güclü daxili enerjisindən dolğun istifadəyə imkan vermir. Dövlət sahibkarlığın sürətli inkişafını təmin etmək məqsədi ilə, sahibkarlıq fəaliyyətinin qabaqcıl istiqamətləri üçün güzəştlər sistemi müəyyənləşdirir. Dövlət sahibkarlığa kömək məqsədi ilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə sistemi yaradır, vergi ödənişlərinin güzəştli dərəcələrini təyin edir.

Müəssisələrin idarə edilməsi. Menecment. Bildiyimiz kimi, bazar iqtisadiyyatının hökm sürdüyü ölkələrdə iqtisadi fəaliyyət və mülkiyyət azadlığı hökm sürür. Belə bir şəraitdə hər hansı bir müəssisəni idarə edən subyekt də azad və müstəqildir. Sahibkarla işçi arasında normal Insani münasibətlərin olması istehsalın idarə edilməsində mühüm şərtdir. İşçi ilə sahibkarın mənafelərinin uzlaşdırılması mexanizmindən yaxşı istifadə olunarsa, bunun iqtisadiyyata böyük təsiri olar. Müəssisədə çalışan işçilərə olan inam, onlara göstərilən qayğı, qərarların qəbul olunmasında iştirak etmək və məsuliyyət daşımaq imkanı verilməsi onların psixologiyasında da dəyişikliklərə səbəb olar. İdarəetmə mexanizmi elə təkmilləşdirilməlidir ki, o, hər bir adamın yüksək iş bacarığını aşkara çıxarmağa imkan yaratsın və bütün müəssisənin ümumi mənafeyinə uyğun gəlsin. Bazar iqtisadiyyatı sistemi ölkələrində istehsal müəssisələrini idarə edən şəxslərə *menecer*

deyilir. Menecer idarəetmə ustalığına malik olmalıdır. Burada istehsalın təşkilatçısı ilə mülkiyyətin sahibi üzvi surətdə birləşir. Menecer sərt inzibatçılığa yox, əmək məhsuldarlığını yüksəltmək qabiliyyətinə malik olmalıdır.

Bəs *menecment* nədir? Menecer və menecment anlayışları bir-biri ilə ayrılmaz vəhdətdədir. Menecment istehsalın gəlirliliyini və səmərəliliyini yüksəltmək məqsədi ilə idarəetmədə tətbiq olunan prinsip, üsul, forma və vasitələrin məcmuyudur. Başqa sözlə, menecmentlik hər hansı obyektin idarə edilməsidir. Menecment nəzəriyyəsinin əsasını ABŞ mühəndisi F.Teylor qoymuş, menecientliyin vətəni də məhz ABŞ olmuşdur. Lakin hazırda bu sahə Yaponiyada daha uğurla inkişaf etməkdədir. Bu ölkədə menecmentliyin əsasını Insanlara düzgün münasibət təşkil edir. Sahibkarlar həmişə öz fəhlələrinin qayğısına qalır, hətta ağır iqtisadi böhran şəraitində də onları işsiz və maddi təminatsız qoymurlar. Əvəzində fəhlələr daha vicdanla işləyir, müəssisəsinin şərəfini ləyaqətlə qoruyurlar. Yapon menecerinin ən mühüm vəzifəsi işçilərə normal münasibət və şərait yaratmaqdan, işçilərlə menecerin eyni taleyə və şirkətin onların doğma ailəsi olduğuna inam yaratmaqdan ibarətdir.

Azərbaycanda sahibkarlıq. Azərbaycanlı sahibkarlar. Azərbaycanda sahibkarlığın yaranması və inkişafı XIX əsrin ortalarına təsadüf edir. Bu dövrdə Rusiyanın müstəmləkəsi kimi Azərbaycan da Ümumrusiya bazarına qoşuldu və dünya bazarına çıxış imkanı əldə etdi. Sənayenin bir çox sahələrində, xüsusilə neft sənayesində xarici kapitalla yanaşı, milli kapital da mühüm rol oynamağa başladı. Ilk milli sahibkarlar meydana gəldi. Sahibkarlığın inkişafı üçün ölkəmizdə mövcud olan əlverişli milli, tarixi və iqtisadi zəmin onun müxtəlif növlərini yaratdı. Bu dovrdə Azərbaycanın H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi qüdrətli sahibkarları yetişdi. H.Z.Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterini sındırdı, milli sahibkarlığın inkişafında müstəsna rol oynadı. Savadsız olmasına baxmayaraq, o, iqtisadiyyatı, sahibkarlığın sirlərini yaxşı bilirdi. Tağıyevin sahibkarlıq fəaliyyəti yalnız neft sənayesi ilə məhdudlaşmırdı. O, balıq, toxuculuq, yeyinti sənayesi sahələrində, gəmiçilik və ticarətdə də uğurlar qazanan sahibkar idi.

Hazırda bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq mülkiyyətin geniş miqyasda dövlətsizləşdirilməsi və özəlləşdirilməsi Azərbaycanda sahibkarlıq ənənələrinin dirçəldilməsi üçün əlverişli imkanlar açmışdır.

Sahibkarlığa dövlət qayğısı. 1995-ci ildən başlayaraq, bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirilən tədbirlər sahibkarlığın inkişafında mühüm rol oynamışdır. Sahibkarlığın inkişaf etdirilməsi, onu təmin edən işgüzarlıq mühitinin və rəqabət mexanizminin formalaşması, habelə sahibkarlığa dövlət köməyinin göstərilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş 1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı ölkəmizdə sahibkarlığın inkişafına güclü təkan verdi. Bu siyasəti reallaşdırmaq üçün Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi kimi qurumlar yaradıldı.

Ölkədə sahibkarlığın inkişafına dövlət qayğısını artırmaq, bu sahədə mövcud problemlərin vaxtaşırı təhlil edilərək tədbirlər görülməsini təmin etmək üçün 2003-ci il avqustun 27-də Respublika Prezidenti yanında Sahibkarlar Şurası yaradılmışdır. Bu sahədə yeridilmiş səmərəli siyasətin nəticəsində ölkədə milli kapitalizm formalaşmışdır.

Dövlət və iqtisadiyyat

Büdcə və vergi siyasəti. **Dövlət hər bir** vətəndaşının firavan yaşamaq istəyini təmin etməlidir. Lakin bunun üçün ölkə varlı olmalıdır. Ölkənin varlılığı isə onun təbii ehtiyatlarının, o cümlədən yeraltı faydalı qazıntılarının, yerüstü bitki və heyvanlar aləminin, Insan əməyi ilə yaradılmış maddi və mənəvi sərvətlərin bolluğundan asılıdır. Maddi sərvətlərin bolluğu öz ifadəsini dövlətin gəlir və xərclərini özündə əks etdirən ***dövlət büdcəsində*** tapır. Dövlət, büdcəni doldurmaqda maraqlıdır. Bu istəyi reallaşdırmaq üçün o, bir çox tədbirlər həyata keçirir. Bu tədbirlərin cəmi ***büdcə siyasəti*** adlanır. Büdcənin gəlirləri ölkədə tətbiq olunan vergilər və bu tipli digər ödənişlərdən daxil olan vəsaitlərdən ibarətdir.

Vergi dövlətin öz funksiyalarının yerinə yetirməsi ilə bağlı xərclərinin təminatı üçün əhali tərəfindən pul vasitələrinin xəzinəyə köçürülən hissəsidir.

Dövlət, əhali və verginin əlaqəsi bir tərəfdən dövlətin maliyyə təminatı, digər tərəfdən isə əhalidən alınan vergilərin cəmi ilə xarakterizə olunur. Vergi yükü ağır olduqda əhalinin maddi rifahı pisləşir, yüngül olduqda isə dövlətin maliyyə təminatı azalır. Ona görə də dövlət kimin hansı vergiləri nə qədər ödəməli olduğunu ədalətli həll etməlidir.

Adətən, bir sıra mütəxəssislər tərəfindən *büdcə siyasəti* ilə *vergi siyasəti* anlayışları müəyyən mənada eyniləşdirilir. Lakin büdcə siyasəti vergi siyasəti ilə müqayisədə daha geniş iqtisadi kateqoriyadır və dövlətin gəlir və xərclərin formalaşması istiqamətində həyata keçirdiyi tədbirlərin cəmini təşkil edir. Vergi siyasəti isə büdcənin gəlirlər hissəsinin formalaşması sahəsində həyata keçirilir. Nəzərə almaq lazımdır ki, büdcə siyasəti ilə vergi siyasəti qarşılıqlı əlaqədə həyata keçirilməli və bir-birini tamamlamalıdır. Vergi siyasəti cəmiyyətin ayrı-ayrı sosial qruplarının və dövlətin maliyyə vəsaitlərinə olan ehtiyacının ödənilməsi, maliyyə ehtiyatlarının yenidən bölüşdürülməsi hesabına ölkə iqtisadiyyatının inkişafının təmin edilməsi məqsədi ilə ölkənin vergi sisteminin formalaşdırılması sahəsində dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və siyasi tədbirlərin cəmidir.

İqtisadi cəhətdən əsaslandırılmış vergi siyasətinin əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər, vergitutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir. Vergi siyasətinin əsas məqsədlərindən biri də ölkədə vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılmasına nail olmaqdır. Vergilərin könüllü ödənilməsi əhali tərəfindən vergilərin ödənilməsinin ictimai dərk edilməsinin nəticəsidir. İqtisadi, siyasi və digər fərqlərə baxmayaraq, hər bir dövlətin vergi siyasəti ilk növbədə onunla müəyyən edilir ki, dövlət özü təkrar istehsal prosesinin fəal iştirakçısı kimi çıxış edir. Bu isə çox mühüm məsələdir. Hələ 750 il bundan əvvəl böyük Azərbaycan alimi Nəsirəd-din Tusi yazırdı: *"Təkrar istehsal olmadan mal toplamaq və onu saxlamaq mümkün olmaz, çünki xərc etmək zəruridir"*.

Dövlətin əsas məqsədi cəmiyyətin qarşısında duran iqtisadi və sosial məsələlərin həll edilməsidir ki, bu da vergi siyasətinin formalaşmasına öz təsirini göstərir.

Vergi siyasətinin həyata keçirilməsi üsulları dövlətin vergi siyasəti aparmaqla nail olmağa çalışdığı məqsədlərdən asılıdır. Müasir dünya təcrübəsində vergi ödəyicisinin vergi yükünün dəyişdirilməsi, vergitutmanın hər hansı forma və vasitəsinin digəri ilə əvəz edilməsi, bu və ya digər vergilərin yayılma sahəsinin dəyişdirilməsi, vergi güzəştlərinin tətbiq edilməsi və ya ləğvi, vergi dərəcələrinin fərqləndirilmiş sisteminin daxil edilməsi kimi üsullardan geniş istifadə olunur.

Dövlət və iqtisadiyyat, dövlətin büdcə və vergi siyasətini 6.3 saylı sxemdə belə ümumiləşdirmişik.

Sxem 6.3



Müasir şəraitdə inkişaf etmiş bazar iqtisadiyyatı ilə ölkələr vergi siyasətini aşağıda sadalanan mühüm məqsədlərə nail olmaq üçün həyata keçirilər.

- iqtisadiyyatın və gəlirlərin tənzimlənməsi üzrə dövlət siyasətini təmin etmək;
- iqtisadi və sosial siyasəti həyata keçirmək üçün kifayət edəcək

həcmdə maliyyə ehtiyatları ilə təmin etmək və s.

Vergi siyasətinin səmərəliliyi dövlətin onu hansı prinsiplər əsasında həyata keçirməsindən əhəmiyyətli dərəcədə asılıdır. Adətən, vergi siyasəti aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir:

- Vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması

və onların hüquqlarının maksimum qorunması.

- Sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, sadə və vergi ödəyicisi tərəfindən başa düşülən vergi sisteminin yaradılması

və s.

Yuxarıda göstərilən prinsiplər əsasında ölkədə həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən ən mühümləri aşağıdakılardır:

- Daxili və xarici investisiyaların prioritet sahələrə cəlb edilməsinə əlverişli vergi mühitinin yaradılması.
- Vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli nəzarət mexanizminin tətbiqi.

Fiskal siyasət. Milli iqtisadiyyatın tənzimlənməsində özünəməxsus rol oynayan *fiskal siyasət* vasitəsi ilə hökumət maliyyə sisteminə nəzarət edir və bazar mexanizminə təsir edə bilir. Fiskal siyasət sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən problemləri (yoxsulluq, işsizlik, əhalinin sosial müdafiəsi və s.) həll etmək üçün tələb olunan pul vəsaitlərinin yığım forması olan büdcəni formalaşdırmağa imkan verir.

Bazar iqtisadiyyatı şəraitində fiskal siyasət maliyyə bazarının sa-bitləşdirilməsinə, həmçinin dövlətin öz funksiyalarını həyata

keçirə bilməsi üçün maliyyə təminatına xidmət edən alət rolunu oynayır. Odur ki, bu alətdən düzgün və məqsədyönlü şəkildə istifadə olunması, fiskal siyasətin dövlət büdcəsinə real təsirinin müəyyən edilməsi hazırkı şəraitdə böyük əhəmiyyət kəsb edir.

"Fisk" latın sözü olub, *zənbil* deməkdir. Qədim Romada əvvəllər pulların saxlandığı kassa, sonralar imperatorların şəxsi xəzinəsi və nəhayət gəlir, vergi və digər rüsumların cəmləşdiyi mərkəz *fisk* adlanırdı.

Fiskal siyasətin səmərəliliyi hökumətin iqtisadiyyatda baş verən dəyişikliklərə reaksiyasının sürətindən çox asılıdır. Bu halda tətbiq olunan fiskal siyasətin effektivlik dərəcəsini aşağı salan bir sıra maneələr vardır. Əvvələn, inflyasiyanın faktiki başlaması ilə onun hiss edilməsi prosesi arasında olan vaxt fərqidir ki, onu *«məniməmənin gecikməsi»* adlandırırlar. İqtisadi dəyişiklikləri proqnozlaşdırmağa imkan verən bəzi göstəricilərin mövcud olmasına baxmayaraq, iqtisadi fəallığın gələcək xarakterini qabaqcadan xəbər vermək çox çətindir.

*İkincisi, "inzibati gecikmə"*dir. Bəzən idarəetmənin zəifliyi ucbatından iqtisadi proseslərə münasibət bildirilməsi ləngiyir və sonradan atılmış fiskal addımlar səmərəli olmur. Hətta ola bilər ki, dövlətin fiskal siyasətinin formalaşmasına çox vaxt sərf olunduğundan, qəbul edilən qərarlar real iqtisadi vəziyyətə uyğun gəlməsin və təsirsiz qalsm.

Üçüncüsü, hökumət fiskal tədbirlər barəsində vaxtında zəruri qərarlar qəbul etsə də, bu qərarların reallaşdırılması gecikir və həmin tədbirlər istehsala, məşğulluğa və qiymətlərin səviyyəsinə lazımi təsir göstərə bilmir. Vergilərin dərəcələrini daha tez dəyişdirmək mümkün olsa da, ictimai işlərə dövlət xərclərinin ayrılması uzunmüddətli planlaşdırma tələb edir və bir o qədər də vaxt müvafiq obyektlərin tikilməsinə sərf olunur. Ona görə də ayrılmış xərclərin iqtisadiyyatda baş verən qısamüddətli tənəzzüllərə effektiv təsir etməsi həmişə mümkün deyil.

Azərbaycanın vergi sistemi. Azərbaycan Respublikasının vergi sistemi 1991-ci ildən müstəqil inkişaf yoluna, bazar münasibətlərinə keçid dövründən sonra təşəkkül tapmışdır. Keçən

illər ərzində vergi qanunvericiliyində əsaslı dəyişikliklər aparılmış, Respublikanın vergi sisteminin inkişaf etmiş ölkələrin vergi sistemlərinin səviyyəsinə çatdırılması sahəsində ciddi işlər görülmüşdür.

Vergi Məcəlləsinə əsasən, respublikamızda aşağıdakı vergilər müəyyən edilmişdir: *dövlət vergiləri; muxtar respublika vergiləri; yerli vergilər (bələdiyyə vergiləri)*. Dövlət vergiləri ölkəmizin bütün ərazisində ödənilir. Bu vergilər bunlardır: fiziki şəxslərin gəlir vergisi; hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa); əlavə dəyər vergisi (ƏDV); aksizlər; hüquqi şəxslərin əmlak vergisi; hüquqi şəxslərin torpaq vergisi; yol vergisi; mədən vergisi; sadələşdirilmiş vergi.

Muxtar respublika vergiləri dedikdə, Naxçıvan Muxtar Respublikasının Qanunları ilə müəyyən edilən və Naxçıvan Muxtar Respublikasında ödənilən vergilər nəzərdə tutulur. Muxtar Respublika vergilərinə, yol vergisi istisna olmaqla, bütün başqa dövlət vergiləri aiddir. Yerli vergilər (bələdiyyə vergiləri) bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyə ərazilərində ödənilən vergilərdir. Bu vergilər dörd cür olur: fiziki şəxslərin torpaq vergisi; fiziki şəxslərin əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi. Fiziki şəxslərin gəlir vergisi aşağıdakı qaydada hesablanır.

Hüquqi şəxs statusunda yaradılmış müəssisə və təşkilatlar mənfəətlərindən 24 faiz dərəcəsi ilə vergi ödəyirlər. Əlavə dəyər vergisi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir.

Fiziki və hüquqi şəxslərin əmlak vergisinin dərəcəsi əmlakın orta illik qalıq dəyərinin 1 faizi həcmində müəyyənləşdirilmişdir.

Fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan binaların inventarlaşdırılmış dəyərindən tutulur. Bu dəyər aylıq gəlirin vergi tutulmayan məbləğinin 300 mislinədək olduqda vergi tutulmur, 300 mislindən çox olan məbləğdən isə 0,1 faizlə vergi tutulur. Içməli spirt, pivə və spirtli içkilərin bütün növləri, tütün məmulatları və neft məhsulları aksizli mallardır.

Sadələşdirilmiş vergi əldə edilən vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhərində 4 faiz, digər şəhər və rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə hesablanır.

Vergilərin funksiyaları və növləri. Vergilərin əsas funksiyaları kimi aşağıdakıları qeyd etmək olar: fiskal; bölüşdürücü; tənzimləyici; nəzarətedici.

Fiskal funksiya. Dövlət xərclərinin maliyyələşdirilməsini təmin etmək üçün ayrı-ayrı fiziki və hüquqi şəxslərin gəlirlərinin (mənfəətinin) müəyyən hissəsi dövlət xəzinəsinə cəlb edilir.

Vergilərin əsas təyinatı, yəni ümumdövlət proqramlarının həyata keçirilməsi üçün vəsaitlərin dövlət büdcəsinə toplanması, məhz bu funksiya vasitəsi ilə həyata keçirilir. Yerdə qalan funksiyalar isə fiskal funksiyanın bir növ törəmələridir.

Bölüşdürücü funksiya. Vergilərin bölüşdürücü funksiyasının mahiyyəti ictimai gəlirin əhalinin ayrı-ayrı kateqoriyaları arasında yenidən bölüşdürülməsindən ibarətdir. Başqa sozlə, əhalinin güclü təbəqəsinin vergi yükünün ağırlaşdırılması hesabına vəsaitlər bu kateqoriyadan əhalinin daha zəif kateqoriyalarına ötürülür. Buna görə də bölüşdürücü funksiyaya misal olaraq aksizləri, mütərəqqi vergi tutmanı göstərmək olar.

Tənzimləyici funksiya. Bu funksiya vergi mexanizmləri vasitəsi ilə dövlətin qarşıya qoyduğu müəyyən məqsədlərə nail olunmasına xidmət edir. Bu funksiya vasitəsi ilə vergilər təkrar istehsal prosesinə onun sürətini stimullaşdırmaq və ya ləngitməklə mühüm təsir göstərir, kapital yığımını gücləndirir və ya zəiflədir, ödəniş qabiliyyətli tələbi artırır və ya azaldır. Bu funksiyanın stimullaşdırıcı məqsədi bu və ya digər iqtisadi prosesin inkişafının müəyyən edilməsinə yönəldilir. Bu məqsədə, adətən, vergi güzəştləri vasitəsi ilə nail olunur. Dövlət müəyyən fəaliyyət növlərinin həddən artıq yüksək sürətlə inkişafını ləngitmək üçün artırılmış vergi dərəcələrini müəyyən edir.

Dövlət kənd təsərrüfatının inkişafını, istehsal təyinatlı kapital qoyuluşunu sürətləndirmək üçün bu fəaliyyət növü ilə məşğul olan

müəssisələrə vergi qanunvericiliyində müəyyən güzəştlər nəzərdə tutur.

Dövlət dolayı vergilərin səviyyəsini dəyişməklə qiymətlərin səviyyəsinə təsir göstərir, ixraca vergi güzəştləri tətbiq etməklə onu stimullaşdırır, öz istehsalını stimullaşdırmaq üçün analoji malların idxalına əlavə vergilər tətbiq edir.

Nəzarətedici funksiya. Dövlət vergilər vasitəsi ilə müəssisələrin və vətəndaşların maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirir. Bu nəzarət vasitəsi ilə dövlət büdcəsinə və vergi sisteminə bu və ya digər düzəlişlərin edilməsi zərurəti müəyyənləşdirilir.

Müasir vergitutma nəzəriyyəsində vergilər əsasən aşağıdakı xüsu-siyyətlərinə görə növlərə ayrılır:

- tutulma üsuluna görə;
- vergitutma formasına görə;
- statusuna görə.

Tutulma üsuluna görə vergiləri 2 əsas qrupa ayırmaq olar: *birbaşa vergilər və dolayı vergilər.*

Birbaşa vergilər dedikdə, maddi sərvətlərin toplanması prosesində vergi ödəyicilərinin gəlir və ya əmlakından bilavasitə tutulan vergilər başa düşülür. Dolayı vergilər əmtəə və xidmətin qiymətindən tutulan vergilərdir. Bu vergilərə istehlak vergiləri də deyilir. Beləliklə, birbaşa vergilərin ödəyicisi gəliri əldə edən şəxs, dolayı verginin ödəyicisi isə əmtəənin istehsalçısıdır.

Vergi bəyannaməsi. Vergi bəyannaməsi vergitutma elementlərini və vergi öhdəliyinin yerinə yetirilmə səviyyəsini əks etdirən və vergi qanunvericiliyi ilə müəyyən edilmiş müddətlərdə və qaydada vergi ödəyicisi (vergi agenti) tərəfindən təqdim edilməli yazılı sənəddir. Vergi bəyannaməsini verməyə borclu olan vergi ödəyiciləri vergi bəyannaməsini müvafiq müddətlərdə müəyyən edilmiş formada və yerdə vergi orqanına verməlidirlər.

Vergi bəyannaməsi vergi orqanına təqdim olunduqdan sonra vergi orqanı tərəfindən kameral vergi yoxlaması həyata keçirilir.

Kameral vergi yoxlaması vergi orqanı tərəfindən yerlərə getmədən, vergi ödəyicisi tərəfindən təqdim edilən vergi

bəyannamələri, habelə vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan digər sənədlər əsasında keçirilir.

Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanma təqdim edildiyi gündən 30 gün müddətində keçirilir.

Vergilərin ödənilməsi Azərbaycan vətəndaşının konstitusiya öhdəliyidir. Vergilərin ödənilməsi vergi ödəyicisinin vergilərin büdcəyə və büdcədənkənar fondlara ödənilməsi üçün həyata keçirdiyi fəaliyyətlərin məcmuyudur. Azərbaycan Respublikasının ərazisində vergilər Azərbaycan Respublikasının pul vahidi olan manatla hesablanır və ödənilir. Əksər hallarda vergilərin ödənilməsi hesablaşmaların qeyri-nağd formasından istifadə edilməklə həyata keçirilir. Bu zaman ödəniş tapşırığı əsasında pul vəsaitləri vergi ödəyicisinin bankdakı hesablarından büdcəyə köçürülür. Vergi ödəyiciləri vergilərin ödənilməsi üçün müəyyən edilmiş son müddətə kimi vergilərin büdcə və ya büdcədənkənar fondlara köçürülməsinə dair ödəniş tapşırıqlarını hesablaşma hesablarının açıldığı banka təqdim etməlidirlər. Bu ödəniş tapşırıqları banklar və kredit müəssisələri tərəfindən ilk növbədə icra edilir.

Məlum olduğu kimi, müasir mərhələdə vergilərə olan münasibət kökündən dəyişmişdir. Artıq, vergilərin ödənilməsinin məcburi deyil, könüllü şəkildə yerinə yetirilməsi geniş yayılmaqdadır. Bu baxımdan məşhur iqtisadçılar və siyasi xadimlər qeyd edirlər ki, hər bir vətəndaş vergi ödəməkdən şərəf duymalıdır. Sözügedən tendensiya Azərbaycanda da müşahidə edilməkdədir. Təsadüfi deyil ki, vergilərin ödənilməsinin zəruriliyi və əhəmiyyəti Azərbaycan Respublikasının Konstitusiyasında da vurğulanır.Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən olunmuş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dovlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

Odur ki, vergilərin ödənilməsi Azərbaycan vətəndaşının konstitusiya öhdəliyidir və bu öhdəliyin düzgün yerinə yetirilməsi hər bir şəxsin ali vəzifəsi sayılmalıdır.

Dövlət büdcəsi. Ölkə iqtisadiyyatının tənzimlənməsində özünəməxsus rol oynayan büdcə ölkə maliyyəsinin bir hissəsini təşkil edir və onun vasitəsi ilə dövlət ölkədə gəlirlərin ilkin və yenidən bölgüsünü həyata keçirir. Digər tərəfdən, büdcə sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən problemləri (yoxsulluq, işsizlik, əhalinin sosial müdafiəsi və s.) həll etmək üçün tələb olunan pul vəsaitlərinin yığım formasıdır. Deməli, büdcə vasitəsi ilə hökumətin əlində təsirli maliyyə alətləri yaranır ki, bunlara vergilər, dövlət satınalmaları, dotasiya, transfert ödəmələri, investisiya və s. daxildir. Bu alətlərdən düzgün və məqsədyönlü şəkildə istifadə olunması ölkənin iqtisadi inkişafına zəmin yaradır. Dövlət büdcəsi iki əsas hissədən - gəlir və xərclər hissəsindən ibarətdir.

Vergilərin ümumi xarakterini maliyyə sistemində əsas yer tutan büdcə sistemi şərtləndirir, çünki dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri: məhz büdcə vasitəsi ilə idarə olunur. Dövlət büdcəsi isə gəlirlər vasitəsi ilə formaiaşır.

Neft strategiyası və bu sahədə ümummilli lider Heydər Əliyevin rolu. Neft-qaz sektoru tarixən Azərbaycanda təkcə sənayedə deyil, həm də bütün iqtisadiyyatda mühüm rol oynayıb. Təsadüfi deyil ki, istər Sovetlər birliyində, istərsə də müstəqillik əldə ediləndən sonrakı dövrdə Azərbaycan dövlətinin iqtisadi quruculuğunda əsas prioritet məhz neft amilinə verilib.

Müstəqillik əldə etmiş Azərbaycan üçün zəngin karbohidrogen ehtiyatları uğurlu iqtisadi inkişaf üçün nə qədər yaxşı baza olsa da, siyasi cəhətdən zəif və dövlətçilik institutları formalaşmamış bir dövlət üçün bir o qədər problematik idi. 90-cı illərin əvvəllərində ölkə regional siyasi proseslərin mərkəzində yerləşərək, təkcə üzücü müharibə amili ilə deyil, həm də daxili siyasi çəkişmələr, iqtisadi durğunluq və böhranlarla üzləşmişdi. Xəzər dənizinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə xarici neft şirkətləri ilə sazişin imzalanması məhz belə bir çətin dövrə təsadüf edirdi.

Sözügedən layihənin həyata keçirilməsi regionda təsir imkanlarına malik bir sıra xarici qüvvələrin marağında deyildi. Buna görə də ölkə üçün həyati əhəmiyyətli bir layihənin reallaşdırılması istiqamətində danışıqlar davam etsə də, müsbət nəticə əldə etmək mümkün olmamışdı. Məhz belə bir dövrdə Azərbaycanda hakimiyyətə Heydər Əliyevin gəlişi təkcə ictimai-siyasi vəziyyətdə deyil, həm də layihənin reallaşdırılması istiqamətində mühüm dönüş nöqtəsi oldu. Heydər Əliyev qətiyyəti, uzaqgörənliyi, yüksək siyasi mədəniyyət və manevrlər qabiliyyəti danışıqların uğurla nəticələnməsi ilə başa çatdı.

Nəhayət 1994-cü ilin sentyabrında Bakının «Gülüstan» sarayında Azərbaycan hökuməti ilə 6 ölkəni təmsil edən 11 xarici neft şirkətindən ibarət konsorsiumla Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalandı. Gənc dövlət özünün ilk və ən böyük bir layihəsinə imza atmaqla yeni neft strategiyasının təməlini qoydu. Heydər Əliyev bu müqaviləni *ölkənin yeni neft doktrinasının başlanğıcı* adlandırmışdı. 0 səhv etmirdi. Məhz ilk neft müqaviləsi postsovet məkanında ən iri investisiya layihəsi olmaqla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası yolunda aparıcı qüvvəyə çevrildi, yaxın onilliklər üçün ölkənin inkişaf istiqamətini müəyyən etdi və miqyasına görə "Əsrin müqaviləsi" kimi məşhurlaşdı.

30 il müddətinə bağlanmış bu müqavilənin işlənməsi 11 milyard dollar sərmayə tələb edirdi. Təbii ki, xarici neft şirkətləri bu həcmdə sərmayəni siyasi və iqtisadi təminatlara əmin olmadan yatırmazdılar. Buna gorə də, layihəyə investisiyalar mərhələ-mərhələ, regiondakı ictimai-siyasi vəziyyətin və dövlət rəhbərliyinin strategiyasının uzun-müddətli proqnozlarına əsasən həyata keçirilirdi. «Əsrin müqaviləsi»nin reallaşdırılması Azərbaycanın dövlət başçısının daim nəzarətində idi. Heç şübhəsiz, Heydər Əliyev qətiyyəti olmasa idi, əsrin digər böyük bir layihəsi olan Bakı-Tbilisi-Ceyhan Əsas Ixrac Boru kəmərinin inşası da elə xəyallarda qalacaqdı. Bu gün xarici neft şirkətlərinin əksəriyyəti etiraf edir ki, o zaman layihədə belə fəal iştirak edəcəklərinə əmin deyildilər. Lakin Azərbaycanın dövlət başçısının qətiyyətli addımları tədricən bu passiv mövqeyin dəyişməsinə səbəb oldu.

Neft strategiyasının uğurla reallaşdırılması ölkənin iqtisadi potensialının güclənməsinə, bir çox sosial problemlərin həll edilməsinə, məşğulluğun artmasma, xidmət bazarının sürətli inkişaf etməsinə gətirib çıxardı. Dövlət müstəqilliyinin ilk onilliyinə qədəm qoyarkən, artıq, Azərbaycan ilk neft gəlirlərini əldə etməyə başlamışdı. Ölkənin valyuta ehtiyatları artır, neft dollarları daxil olmağa başlayırdı.

Heydər Əliyevin çox incə, siyasi cəhətdən dərin düşünülmüş, iqtisadi və siyasi maraqları uzlaşdıra bilən neft strategiyası əslində dovlətin xarici siyasət elementlərindən biri idi. Məhz bu siyasət Azərbaycanın indiki durumunu və yaxın onilliklər üçün perspektiv inkişafını müəyyən edərək, dövlətin dünya iqtisadi sisteminə inteqrasiya etmək yolunda atdığı ən mühüm addımlardan oldu.

4. SIGORTA[1]

Sığorta nədir? İnsanlar özlərinin, habelə mülkiyyətlərinin daim təhlükələrlə üz-üzə olduğunu nəzərə alaraq, maddi və iqtisadi maraqlarını müdafiə etmək üçün *sığorta* adlanan universal bir vasitə yaratmışlar. Tədqiqatlardan məlum olur ki, sığortanın əsası insanların xüsusi mülkiyyətinin yaranmasından irəli gəlir.

Təbiətdə baş vermiş fəlakətlər, habelə qəzalar, oğurluqlar və sair təhlükələr hər bir mülkiyyətçini və istehsalçını daim öz maddi maraqları ilə əlaqədar narahat etmişdir. İnsanlar müşahidə edirdilər ki, təsadüfi hadisələrdən ziyan çəkmiş obyektlərin sayı həmin tipli obyektlərin ümumi sayından az olur. Bu ideya əsasında əmlak sahiblərinin arasında zərərin ödənilməsi bölgü yolu ilə həyata keçirilir. Elə o vaxtdan əsrlər boyu sığortanın mahiyyəti dəyişməz qalır. Bu, zərərin birgə qapalı bölünməsidir. Sığorta ən qədim ictimai münasibətlərin kateqoriyalarından biridir.

[1] *Bu mövzu Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müracəti əsasında Təhsil Nazirliyi tərəfindən "İnsan və cəmiyyət" proqramına daxil edilmişdir. Mövzu işlənərkən B.Xankişiyebin "Sığorta (hamı üçün)" vəsaitlərindən istifadə edilmişdir.*

Orta əsrlərdə sığorta inkişaf etmiş və bir institut kimi formalaşmışdır. Azərbaycanda ilk dəfə sığorta XIX əsrin ortalarında tətbiq edilməyə başlamışdır. Ən iri sığorta təşkilatı ***"Rus sığorta cəmiyyəti"*** sayılırdı. Bu cəmiyyətin otuz ildən çox əvəzedilməz təmsilçisi məşhur iş adamı ***Məşədi Abbasqulu Əhmədov*** idi. A.Əhmədov işində olduqca ciddi, dəqiq və hətta bəzən çox sərt idi. "Rus sığorta cəmiyyəti"nin daimi müştərilərindən biri ona müraciət edərək xahiş etmişdi ki, Irana göndərilən böyük miqdarda qənd məhsulunu sığortalasınlar. Sənədlərin tərtibi zamanı o, sığorta tarixini köhnə tarixdən qeyd etməyi xahiş edir və bunun əvəzində mükafatlandırma söz verirdi. Buna baxmayaraq, Əhmədov dərhal yükü dəqiq yoxlayaraq aşkarlamışdır ki, yükün bir hissəsi satış üçün yararsız haldadır. Məşədi Abbasqulu yükün sahibini qovaraq, bir daha onunla heç bir əlaqəyə girməmişdir.

Sığorta növləri

Sığortanın aşağıdakı növləri vardır.

a) Tibbi sığorta

Tibbi sığorta əhalinin sağlamlıq maraqlarının sosial müdafiəsi formasıdır. Tibbi sığortanın əsasna potensial tibb xidmətlərindən istifadə üçün istehlakçılar tərəfindən müntəzəm haqqın ödənilməsi hesabına gələcək xərclərin əvəzinin ödənilməsi prinsipi durur. Sığortalardan yığılmış vəsait (sığorta haqları) hesabına zəmanətli tibbi yardımın və profilaktik tədbirlərin maliyyələşdirilməsi, sığorta hadisəsinin baş verdiyi halda ödənilməsi tibbi sığortanın əsas məqsədidir.

Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir.

b) Həyat sığortası

Müasir dövrdə həyat sığortası növü dünyanın sığorta bazarında sürətlə inkişaf edən sahələrdən biridir. Həyatın sığorta olunması dedikdə, sığorta etdirən şəxsin ölməsi və ya müəyyən müddətə qədər yaşaması zamanı sığortaçı tərəfindən üçüncü şəxsə və ya sığorta etdirən şəxsə sığorta haqqının əvəzinə müəyyən edilmiş məbləğin ödənilməsi üzrə zəmanətin verilməsi başa düşülür.

Müasir təcrübədə bu cür sığorta zəmanətlərinin verilməsi metodları dəyişsə də, ümumi metodoloji prinsiplər dəyişməz qalır. Həyat sığortası mahiyyətinə görə uzunmüddətli sığorta növlərindəndir.

c) Əmlakın yanğından və risklərdən sığortası

Biz, ömrümüzün böyük bir hissəsində və ya ömrümüzün sonuna kimi heç də az qiymətli olmayan əmlakın sahibiyik. Bu əmlakın təhlükəsizliyinə münasibət hər birimiz tərəfindən fərqli olur. Lakin eynilikdə hər birimizin bu və ya digər tələbatımızı ödəyir və bizə çox əzizdir. Əmlakı bəzi səbəblərdən itirdikdə biz kədərlənirik. Belə itkilərdən əmlakın sığortalanmasını sivil həyatın özü tələb edir. Bu o deməkdir ki, insan sığortalanmış əmlak ilə əlaqədar maliyyə təminatı əldə edir.

Əmlak sığortasının obyekti dedikdə, əmlakla bağlı maraq və əmlakın özü başa düşülür. Əmlak və ya əmlak marağı naminə sığorta edilmiş risklər növlərinə görə müxtəlifdir. Əksər hallarda əmlak yanğın, daşqın, zəlzələ, qəza, oğurluq, partlayış və sair kimi hadisələrə məruz qalır.

d) Bədbəxt hadisələrdən sığorta

Sığortada bədbəxt hadisə dedikdə, insan orqanizminə təsir edən qəfil və gözlənilməz xarici amillərin nəticəsində sağlamlığın müvəqqəti və ya daimi şəkildə pozulması və hətta sığorta olunmuş şəxsin ölüm halı başa düşülür. Bədbəxt hadisələrdən sığorta (qanun "dili"nə görə "fərdi qəza sığortası") şəxsi sığortanın ənənəvi növlərindən biridir. Lakin son illər ərzində sığortanın bu növü əhalinin müəyyən qrupu və təbəqəsi üçün nəzərdə tutulan bədbəxt hadisələrdən sığortanın icbari növlərinin təşkilinə, müəssisə və təşkilatların işçilərinin sığortasının kollektiv şəkildə inkişaf etməsinə, xaricə gedən vətəndaşların sığortası kimi yeni sığorta növlərinin meydana çıxması və s. ilə bağlı mühüm dəyişikliklərə məruz qalmışdır. Bədbəxt hadisələrdən sığorta olunmanın əsas məqsədi sağlamlığa dəyən zərərin ödənilməsidir. Bədbəxt hadisələrdən sığorta, sığorta olunmuş şəxslərin, onların ailə üzvlərinin iqtisadi risklərdən kompleks müdafiəsini təmin edir. Bu sığorta növü vahid sosial-iqtisadi məzmununu saxlamaqla, müxtəlif formalarda həyata keçirilə bilər. Bədbəxt hadisələrdən sığorta qanunla həyata keçirilən icbari sığortaya və ya kommersiyaya əsaslanan könüllü sığortaya ayrılır.

Azərbaycan Respublikasında sığortanın inkişafı. Respublikamıza xarici kapitalın cəlb olunması sığorta bazarının genişlənməsinə birbaşa təsir göstərdi. Sığorta bazarının inkişafı və genişlənməsinin məntiqi nəticəsi olaraq, sığorta şirkətləri dünyanın digər sığorta şirkətləri ilə inteqrasiya olunaraq getdikcə güclənməyə başlamışlar. Ölkəmizdə sığorta işi 1990-cı illərdən sonra müstəqil inkişaf etməyə başladı. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Sığorta Nəzarəti yaradıldı. Bu təşkilatın vəzifəsi ölkəmizdə sığorta xidmətləri bazarının inkişafının tənzimlənməsi, sığortaçıların, sığortalıların və dövlətin mənafeyinin müdafiəsi, metodiki rəhbərliyin həyata keçirilməsi, müvafiq normativ-hüquqi sənədlərin hazırlanması və s. olmuşdur.

1993-cü ildə Azərbaycan Respublikası Sığorta Cəmiyyətləri İttifaqı yaradıldı. İttifaqın məqsədi ölkənin sığorta təşkilatlarının inkişafına kömək etmək, onların fəaliyyətlərini əlaqələndirmək və s. olmuşdur.

5 yanvar 1993-cü il tarixində qəbul olunmuş «Sığorta haqqında» Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi sığorta bazarında vəziyyəti köklü surətdə dəyişdi və sığorta işinin inkişaf etdirilməsi üçün geniş imkanlar açdı.

VII FƏSİL
İNSAN İNKİŞAFI

1. İnsan inkişafı haqqında ümumi anlayış.

İnsan inkişafının əsas prinsipləri bunlardır:

1) insan həyatı ən böyük prioritetdir;

2) hər bir şəxsin həyatı eyni dərəcədə qiymətlidir.

Bu prinsiplərə əsasən heç bir fərd öz milli, dini, cinsi, sinfi və ərazi mənsubiyyətinə görə uzun, dolğun və ləyaqətli həyat sürmək imkanlarından məhrum edilə bilməz. İnsan inkişafı konsepsiyasına görə hər bir şəxs üçün onun fərdi qabiliyyətlərini maksimum şəkildə inkişaf etdirmək üçün şərait yaradılmalıdır. Bu şərait onun müxtəlif istiqamətlərdə: iqtisadiyyatda, sosial sahədə, mədəniyyətdə, siyasətdə inkişafı üçün ən əlverişli mühitin yaradılması ilə bağlıdır.

BMT-nin beynəlxalq ekspertləri tərəfindən insan inkişafı konsepsiyası 1990-cı ildən tətbiq etdirilməyə başlanmışıdır. Həmin ildən başlayaraq, bu məsələyə həsr olunmuş xüsusi hesabatların hazırlanması və nəşri həyata keçirilməkdədir. Belə hesabatlar həm dünya üçün, həm də ayrı-ayrı ölkə və bölgələr üçün hazırlanır. Bu hesabatlarda müxtəlif ölkələrdə insan inkişafının təhlili verilir. Eyni zamanda ölkələr arasında müqayisələr də aparılır. Bu sahədə əldə edilmiş ən parlaq nümunələr təbliğ edilir və bu nailiyyətləri digər ölkələrə də yaymaq üçün tədbirlərin keçirilməsi tövsiyyə olunur. Bu siyasətin həyata keçirilməsində ən əhəmiyyətli rolu BMT-nin İnkişaf Proqramı oynayır.

İnsan inkişafının bir xüsusiyyəti də ondan ibarətdir ki, insanın təhlükəsizliyi onun inkişafının əsas şərti kimi qəbul edilir. Bu zaman təhlükəsizliyin bütün istiqamətləri nəzərdə tutulur. İnsan inkişafı sahəsində təhlükəsizlikdən danışarkən onun təhlükəsizliyinin aşağıdakı sahələrdə təmin edilməsi nəzərə alınır:

1) İqtisadi təhlükəsizlik; 2) Ərzaq təhlükəsizliyi; 3) Ekoloji təhlükəsizlik; 4) İctimai təhlükəsizlik; 5) Siyasi təhlükəsizlik.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında insan inkişafının təmin edilməsi istiqamətində və müxtəlif sahələrdə təhlükəsizliyin təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu

sahədə ölkədə bir sıra fərmanlar verilmiş və qərarlar qəbul edilmişdir. Buna misal olaraq ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində tədbirlər göstərilə bilər. Bu sahədə həyata keçirilən siyasətin nəticəsində bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı ardıcıl olaraq artmaqdadır.

Azərbaycan Respublikasında insan inkişafının təhlili 1994-cü ildən həyata keçirilməkdədir. Bu təhlillər əsasında illik hesabatlar hazırlanmış və dərc olunmuşdur. Respublikada müxtəlif illərdə dərc edilmiş milli hesabatlar insan inkişafının müxtəlif məsələlərinə həsr olunmuşdur. Bu hesabatlar insan inkişafına təsir edən mühüm amillər kimi təhsil və biliklərin yayılmasına, təbii ehtiyatların səmərəli istifadəsinə, ətraf mühitin, təbii və sosial mühitin müasir səviyyədə idarə edilməsinə, insan hüquqlarına, demokratiya və vətəndaşların qərar qəbul etmə prosesində iştiraklarının genişləndirilməsinə və s. məsələlərin təhlilinə həsr edilmişdir. Eyni zamanda milli hesabatlarda dünya üzrə əldə edilmiş nailiyyətlər təhlil edilir və müvafiq tövsiyələr verilir. Həmin hesabatlar göstərir ki, 1995-ci ildən sonra insan inkişafı göstəriciləri daim artmaqdadır. Bu proses davam etməkdədir.

2. İstehlak mədəniyyəti insan inkişafı amili kimi

İnsan inkişafı üçün iqtisadi fəaliyyətin səviyyəsi və istehsalın həcmi yeganə amil deyil. İnsan inkişafının səviyyəsi eyni zamanda istehlakın həcmi və strukturu, istehsal olunan nemətlərin ölkələr arasında və ölkə daxilində ədalətli paylanmasından çox asılıdır.

XX əsr istehlakın sürətlə artması ilə səciyyələnir. BMT-nin məlumatlarına əsasən XX əsrin sonunda adambaşına istehlakın səviyyəsi 1975-ci ilin səviyyəsindən iki dəfə, 1950-ci ilin səviyyəsindən beş dəfə çox olmuşdur. Belə artım bir çox insanların həyat səviyyəsinin yüksəlməsini təmin etmişdir. Yüz milyonlarla adam rahat həyat şəraiti əldə etmişdir, nəqliyyat və rabitə xidmətlərinin köklü surətdə yaxşılaşdırılmasından bəhrələnmişlər. İstehlakın artması yeni iş yerlərinin açılmasına da təsir göstərmişdir. Belə şəraitdə bir çox ölkələrdə yaxşı fəaliyyət göstərən təhsil, səhiyyə və sosial müdafiə sistemləri sürətlə inkişaf etmişdir.

Lakin belə müsbət irəliləyişlə yanaşı dünyada istehlakın qeyri-bərabərliyi insan inkişafına mənfi təsir göstərir. Belə mənfi təsir əsasən üç istiqaməti əhatə edir:

l) qeyri-bərabər inkişaf; 2) təbii ehtiyatlardan qeyri-səmərəli istifadə; 3) ətraf mühitin çirklənməsi və pozulması.

Məsələn, BMT-nin dərc etdiyi məlumatlara görə ən yüksək gəlirə malik olan ölkələrin əhalisi dünya əhalisinin 20 faizini təşkil etməsinə baxmayaraq, onlar dünyada istehsal olunan nemətlərin 80%-dən çoxunu istehlak edirlər. Dünya əhalisinin qalan 80% isə nemətlərin ancaq 20%-ni istehlak edir.

Qeyri-bərabər istehlaka misal olaraq, göstərmək olar ki, yüksək inkişaf etmiş həmin ölkələrdə yaşayan əhali dünya əhalisinin 20%-ni təşkil etdiyi halda, istehsal olunan ümumi enerjinin 60%-ni, minik avtomobillərinin 85 faizindən çoxunu və s. istehlak edir.

Aydındır ki, istehlakda müşahidə olunan belə qeyri-bərabərlik insanların çoxunun maraqlarına uyğun deyil. Bununla əlaqədar insan inkişafını ən səmərəli səviyyədə təmint etmək və istehlakdakı qeyri-bərabərliyi aradan qaldırmaq məqsədi ilə BMT aşağıdakı tədbirlərin keçirilməsini təklif| edir:

bütün insanların əsas tələbatları tam şəkildə təmin edilməlidir;

istehlak insan sağlamlığını və təhsıl səviyəsını təmin etməlidir; bir qrup insanların istehlakı digərlərin istehlakına mənfi təsir göstərməməlidir; istehlak gələcək nəsillərin imkanlarını məhdudlaşdırmamalıdır.

Bu şərtlərin həyata keçirilməsi insan inkişafı üçün ən vacib amillərdəndir. Bu şərtlərin təmin edilməsində təbii ehtiyatlardan nə dərəcədə səmərəli istifadə edilməsi vacib amillərdən biridir. Son illərdə əldə edilmiş elmi nailiyyətlər və texnoloji imkanlar təbii ehtiyatlardan daha səmərəli istifadə etmək üçün müvafiq şərait yaradır. Belə imkanların olması enerjinin nə dərəcədə səmərəli istifadəsi misalından aydın ola bilər.

Məsələn, dəyəri 100 ABŞ dolları olan məhsulun istehsalı üçün Yaponiya 14, Almaniya isə 17 kq neftin verdiyi qədər enerji sərf edir. Bu olduqca yüksək nəticədir. Eyni iqtisadi göstəricini əldə

etmək, yəni 100 ABŞ doları dəyərində olan məhsulun istehsalı üçün bəzi Asiya, Afrika və Cənubi Amerika ölkələrində 90 -100 kq neftdən alınan enerji qədər enerji sərf edilir. Belə ölkələrə misal olaraq, Venesuelanı, Zimbabveni, Hindistanı və s. göstərmək olar. (Şəkil 7.1.)

Hər bir 100 ABŞ dolları dəyərində Ümumi Daxili Məhsulun (ÜDM) istehsalı üçün sərf olunan enerji (kq neft ekvivalenti ilə)

Şəkil 7.1.



Şəkildə verilən ölkələrlə yanaşı digər ölkələrdə də bu göstəricilər müxtəlifdir. Məsələn, bu göstərici Almaniyada -17, Kanadada - 31, Polşada - 44, Venesuelada - 93, Zimbabvedə - 94-dür.

Göründüyü kimi, eyni bir iqtisadi nəticəni əldə etmək üçün bəzi ölkələrdə 6-7 dəfə çox enerji istifadə olunur. Bu eyni zamanda təbii ehtiyatlardan qeyri səmərəli istifadə ilə yanaşı ətraf mühitin daha çox çirklənməsinə səbəb olur.

Norveçdə əldə olunmuş nəticə xüsusi ilə əhəmiyyətlidir. Bu ölkə dünyada tanınmış neft və qaz ixracçısıdır. Belə bir şəraitdə hər 100

dollar dəyərində ÜDM istehsalı zamanı cəmi 21 kq neft ekvivalenti enerjisinin istifadə edilməsi Norveçdə qeyri - neft sahəsinin çox yüksək inkişafından və təbii ehtiyatların səmərli istifadəsindən xəbər verir.

Bu misal eyni zamanda müxtəlif ölkələrdə təbii ehtiyatların istifadəsində mövcud olan fərqləri göstərir. Belə misalları digər təbii ehtiyatlardan istifadə barəsində də göstərmək olar. Bu misallar onu göstərir ki, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq və müasir texnoloji nailiyyətlərdən istifadə etməklə təbii sərvətlərdən daha səmərəli istifadəyə nail olmaq mümkündür. Belə bir şəraitdə insan inkişafı göstəricilərinin artması üçün də müvafiq imkan yaradılır. Eyni zamanda bu prinsiplərin tətbiqi inkişafın davamlı olmasını və ətraf mühitin qorunmasını da təmin edir.

3. İnsan inkişafının qiymətləndirilməsi.İnsan inkişafında gender problemləri. İnsan inkişafına mane olan amillər

ÖIkənin inkişaf səviyyəsini yalnız iqtisadi göstəricilər əsasında qiymətləndirilməsi artıq universal bir üsul kimi mahiyyətini itirməkdədir və keçilmiş mərhələ kimi qiymətləndirilə bilər. İqtisadi göstərici kimi adətən adambaşına düşən orta gəlir götürülür. Lakin, adambaşına düşən orta gəlir ölkə daxilində əhalinin vəziyyətindən xəbər vermir. Ölkədə gəlirlər qeyri-bərabər bölünə bilər. Bu zaman bəzi vətəndaşların gəlirləri yüksək, digərlərininki isə həddən artıq aşağı ola bilər. Orta göstərici isə bunu əks etdirə bilmir. Bu səbəbdən insan inkişafı xüsusi göstəricilər əsasında müvafiq düsturlarla hesablanmış əmsallar vasitəsi ilə qiymətləndirilir. Bütün bu əmsalların hesablanması sağlamlıq, savadlılıq, təhsil səviyyəsini və iqtisadi imkanları əks etdirən göstəricilər əsasında həyata keçirilir. Insan inkişafını qiymətləndirmək üçün BMT tərəfindən bir neçə əmsallar qəbul edilmişdir. Onlardan ən ümumiləşdirilmişi Insan İnkişafi Əmsalıdır (İİƏ).

İnsan İnkişafi Əmsalı ölkə və yaxud onun ayrı-ayrı bölgələri üçün hesab edilir. Bu zaman sağlamlıq, təhsil və iqtisadi göstəricilər nəzərə alınır. Sağlamlıq göstəricisi kimi uzunömürlülük və bir yaşına qədər olan körpələr arasında ölüm halları nəzərə alınır. Şübhəsiz ki, iqtisadi imkanları yüksək olan və insan rifahının yaxşılaşdırılmasına yönəldilmiş siyasəti həyata keçirən ölkələrdə ömür uzun, uşaq ölümü isə aşağı

səviyyədə olmalıdır. BMT tərəfindən dərc edilmiş məlumatlara əsasən, orta ömür bəzi Afrika və Asiya ölkələrində 40-a yaxın olduğu halda, digər ölkələrdə bu rəqəm iki dəfə artıq ola bilir. Uşaq ölümünə gəldikdə isə dünyada bu, hər min doğulmuş uşaqdan ölənlərin sayı 4 (Norveç) - 190 arasında (bəzi Afrika ölkələri) dəyişə bilər. Təhsil göstəricisi kimi təhsil səviyyəsinin müxtəlifl göstəriciləri nəzərə alınır.

İnsan inkişafi konsepsiyasının mahiyyəti hər bir şəxsin fərdi qabiliyyətinin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasından ibarətdir. Bu sağlamlıqla yanaşı, təhsildən də istifadənin təmin edilməsini vacib şərtlərdən birinə çevirir. Insan inkişafi əmsalının hesablanmasında aşağıda qeyd edilən iqtisadi göstəricilər, sağlamlıq və təhsili xarakterizə edən amillər nəzərə alınır.

4. İnsan inkişafında sağlamlıq göstəriciləri

Sağlamlıq göstəriciləri insan inkişafını səciyyələndirən amillərdən biridir. Bunlar artıq yuxarıdakı bölmədən aydındır. Lakin müxtəlif ölkələrdə onların inkişaf səviyyəsindən, yəni inkişaf etmiş və ya inkişaf etməkdə olmaqdan asılı olaraq müxtəlif sağlamlıq göstəricilərindən istifadə olunur. BMT-nin ən son təkliflərinə əsasən ən çox istifadə olunan sağlamlıq göstəriciləri aşağıdakılardır:

Uzunömürlülük. Bu zaman istifadə olunan əsas göstərici gözlənilən ömür müddətidir. Bu göstərici hər bir konkret ildə anadan olanlar üçün hesab edilir və ən müasir statistik göstəricilərdən biridir. Bu göstəricinin seçilməsi onunla əlaqədardır ki, məhz bu göstərici ömrün uzunluğunun həm tibbi xidmətlərlə təmin olunmasını, həm də bu xidmətlərin əhalinin bütün təbəqələri üçün əlçatan olmasını əks etdirir. Bu göstərici insanın uzun və sağlam ömür sürmək imkanının göstəricisidir. Azərbaycan Respublikasında gözlənilən ömür müddəti 71,9 ildir və bu göstərici kifayət dərəcədə yüksəkdir. Lakin Azərbaycanda mövcud olan ənənəvi uzunömürlülük və aparılan iqtisadi və sosial islahatalar bu göstəricinin daha da artması üçün şərait yaradır.

Göründüyü kimi uzunömürlülüyü səciyyələndirmək üçün gözlənilən omür müddəti kimi göstəricidən istifadə olunur. Bu yeni statistik göstəricilərdən biridir. Bu hər ildə doğulanlar üçün hesablanır.

Hesabatların aparılmasında isə həm hesablandığı dövrdə olan vəziyyət, həm də cəmiyyətin inkişaf meylləri nəzərə alınır.

Müəyyən yaşa çatmaq ehtimalı olmayan əhalinin sayı. Bu göstəricidən adətən yoxsulluğun müəyyən edilməsi və yoxsulluq əmsalının hesablanması zamanı istifadə olunur. Bəzi ölkələrdə yoxsulluq əhalinin bir hissəsinin tam və sağlam ömür sürməkdən məhrum edir. Bu zaman qiymətləndirilən göstərici 40 yaşına və 60 yaşına çatmaq ehtimalı olmayan əhalinin faizi kimi hesablanır. Birinci göstərici inkişafda olan ölkələr üçün, ikincisi isə inkişaf etmiş ölkələrdə yoxsulluq göstəricisini hesablamaq üçün istifadə olunur. Bu göstəricilər tibbi təhlükəsizlikdən də xəbər verir.

Bu iki göstərici ən çox və ən geniş istifadə olunan göstəricilərdir. Bunlarla yanaşı bir sıra digər sağlamlıq göstəricilərindən də istifadə olunur ki, onlar da əsas etibari ilə insan inkişafında yoxsulluğun səviyyəsini müəyyən edərkən və yoxsulluqla mübarizə tədbirləri hazırlayarkən nəzərə alınır. Bunlardan aşağıdakıları qeyd etmək olar:

Tibbi xidmətlərdən istifadə etmək imkanı olmayan əhalinin faizi. Təəssüf ki, dünyada bu kateqoriyaya aid olan əhaliyə bir sıra ölkələrdə rast gəlinir. Bu göstərici adətən inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun müəyyən edilməsi zamanı nəzərə alınır.

Təmiz içməli sudan istifadə etmək imkanı olmayan əhalinin faizi. Bu göstəricidən inkişaf etməkdə olan ölkələrdə yoxsulluq səviyyəsini müəyyən edərkən istifadə olunur. Bilavasitə sağlamlıq göstəricisi olmasa da, içməli suyun keyfiyyəti və onun bir sıra göstəricilərinin sağlamlıq və uzunömürlülük ilə əlaqəsi tamamilə aydındır. Ona görə də bu göstəricini tibbi təhlükəsizlik kateqoriyasına aid edirlər.

5 yasına qədər olan usaqların çəkisində və boy artımında qeriləmə. Bu göstəricidən də inkişaf edən ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən edərkən istifadə olunur. Aşağı çəki və boy artımında geriləmə tibbi baxımdan qidanın kəmiyyətinin və keyfiyyətinin kifayət qədər olmadığını səciyyələndirir. Yuxarıda göstərildiyi kimi bir yaşına qədər körpələr arasında ölümdən insan inkişafının qiymətləndirilməsində istifadə olunur.

Göründüyü kimi, insan inkişafının müxtəlif cəhətlərini xarakterizə etmək üçün müxtəlif sağlamlıq göstəricilərindən istifadə olunur.

5. İnsan inkişafında təhsil göstəriciləri. Savadsızlıqla funksional savadsızlığın fərqi

İnsan inkişafı əmsalı baxımından təhsil ilə əlaqədar bir neçə göstərici nəzərə alınır. Bunların arasında savadsızlıq göstəricisi vardır ki, bu da yoxsulluğun səviyyəsini müəyyən edərkən nəzərə alınır. BMT-nin təsnifatına görə 2 növ savadsızılıq mövcuddur. Onlardan biri ümumi savadsızlıqdır ki, bu da fərdin praktiki olaraq yazıb oxuya bilməməsini səciyyələndirir. BMT-nin həmin təsnifatına görə ümumi savadsızlıqla yanaşı funksional savadsızlıq anlayışı da mövcuddur. Bu zaman funksional savadı olmayanlar yazılı mətnləri oxuya bilsələr də bəzi hallarda onun mahiyyətini dərk edə bilmirlər. Bu səbəbdən onlar hətta dərmanın istifadəsinə dair göstərişləri və yaxud hansısa məişət cihazının təlimatını oxuya bilsələr də dərk edə bilmirlər.

İnsan inkişafı əmsalının hesablanmasında ən çox istifadə olunan göstərici müvafiq yaşda olan şəxslərin təhsilə cəlb olunanların payıdır ki, bu zaman 6-23 yaşında olanlar arasında təhsil alanların faizi nəzərə alınır. Digər göstərici təhsilin ümumi orta müddətidir. Bu zaman orta hesabla bir fərdin neçə illik təhsili olması hesablamalarda istifadə olunur.

Bəzi hallarda insan inkişafını xarakterizə edən əmsalları hesablama zamanı əlavə göstərici kimi ölkədə elmi fəaliyyətlə məşğul olanların payı da nəzərə alına bilər. Bu göstəricilərdən istifadə etməklə ölkə və yaxud bölgə üçün təhsilə olan diqqət qiymətləndirilir. Təhsilə, onun təşkilinə və təminatına fikir verilən ölkələrdə təhsil göstəriciləri yüksək olur və bu da insan inkişafının səviyyəsinə öz təsirini göstərir. Qeyd etmək lazımdır ki, sağlamlıq və savadlılıq göstəriciləri Azərbaycanda nisbətən yüksək olduğundan, ölkə insan inkişafı göstəricilərinə görə bir sıra qonşu şərq ölkələrini qabaqlayır.

6. İnsan inkişafında iqtisadi göstəricilər

İnsan inkişafı göstəricilərinin hesablanması zamanı istifadə olunan ən əsas göstərici ölkədə adambaşına düşən gəlirin

miqdarıdır. Bu adətən adambaşına düşən ümumdaxili məhsul kimi göstərilir. Ölkələr arasında olan fərqi müəyyən etmək üçün beynəlxalq praktikada bu gəlirin bütün ölkələr üçün ABŞ dollarında göstərilməsi qəbul olunmuşdur. Lakin, məlum olduğu kimi, müxtəlif ölkələrdə ABŞ dollarının alıcılıq qabiliyyəti müxtəlifdir. Məsələn, orta hesabla Asiya və Afrika ölkələrində bir ABŞ dollarına başa gələn hansısa mal və ya xidmət Şərqi Avropada 4 dollara, ABŞ-da 15 dollara, Qərbi Avropada isə təxminən 20 dollara başa gəlir. Şübhəsiz ki, belə bir şəraitdə müxtəlif ölkələrin mövcud adambaşına düşən gəliri müqayisə edilə bilməz. Bu ziddiyyəti aradan qaldırmaq üçün Dünya Bankı tərəfindən dünya ölkələri üzrə xüsusi tədqiqatlar aparılır. Bu zaman müxtəlif ölkələrdə 300-dən çox ərzaq və sənaye mallarının, xidmətlərin qiymətləri müqayisə edilir. Bunun nəticəsində hər ölkə üçün alıcılıq qabiliyyətini nəzərə alan xüsusi əmsal müəyyən edilir. Bu əmsalın istifadəsi ilə hər bir ölkə üçün adambaşına düşən real gəlir təyin edilir və bundan sonra bu göstərici insan inkişafı göstəricilərinin hesablanmasında istifadə olunur.

İstifadə olunan ikinci göstərici yoxsulluq həddindən aşağı yaşayan əhalinin faizidir. Bu göstəricidən adətən inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən edərkən istifadə olunur. Bu zaman yoxsulluğun həddi kimi inkişaf etmiş ölkələrdə adambaşına gündə 11 ABŞ dolları, Şərqi Avropada isə 4 ABŞ dolları qəbul edilmişdir. Ən aşağı göstəricilər Şimali Avropa ölkələrində qeydə alınmışdır. Mə-sələn, Norveçdə, 2003-cü ilin məlumatlarına görə əhalinin 4,3 faizi yoxsulluq həddindən aşağı gəlirlərə malikdir. ABŞ-da bu rəqəm 13,6 faiz, Böyük Britaniyada 15,7 faiz, Avstraliyada isə 17,6 faiz təşkil edir. Şərqi Avropa ölkələri arasında isə misal kimi Rumıniya və Bolqarıstanı göstərmək olar ki, bu ölkələrdə əhalinin 22-23 faizinin adambaşına gündəlik gəliri 4 ABŞ dollarından azdır.

BMT-nin iqtisadi statistikasında digər göstəricilərdən də istifadə olunur. Onlardan biri ümumi xərclər arasında ərzaq məhsullarına yönəldilən xərclərin payıdır. Xərclər arasında ərzaq mallarına yönəldilmiş xərclərin azalması insan inkişafı üçün daha

çox imkanlardan xəbər verir. Dünyanın müxtəlif ölkələrində bu göstərici 20 faizdən 85-90 faizə qədər dəyişə bilir.

Ölkəmizdə ərzaq xərclərinin payı ilbəil azalmaqdadır. Bu onu göstərir ki, iqtisadi göstəricilər artdıqca əhali öz gəlirlərini ərzaqla yanaşı digər məqsədlər üçün daha çox istifadə etməkdədir.

7. İnsan inkişafının qiymətləndirilməsi

Artıq bildiyiniz kimi, insan inkişafı əmsalı 3 göstərici əsasında: sağlamlıq (gözlənilən ömür müddəti), təhsil (təhsil alanların faizi, orta təhsil müddəti və savadsızlıq), iqtisadi (adambaşına düşən gəlir və yoxsulluq həddindən aşağı yaşayan əhalinin faizi) hesablanır. Bu zaman BMT tərəfindən təklif olunmuş xüsusi düsturlardan istifadə olunur.

Insan inkişafı indeksi BMT üzvü olan ölkələr üçün hər il hesablanır. Bunun nəticəsində bu prosesin hansı istiqamətdə getməsini, yəni insan inkişafının artmasını və ya azalmasını müşahidə etmək olur.

Qeyd olunduğu kimi, 1995-ci ildən başlayaraq Azərbaycan Respublikasında insan inkişafı əmsalı ilbəil artmaqdadır *(Şəkil 7.*2).

Şəkil 7.2.



1992-ci ildə ölkəmiz üçün hesablanmış insan inkişafı əmsalı (İİƏ) 0,718 təşkil edirdi. 1995-ci ildə isə bu rəqəm 0,692-yə enmişdir. Lakin, 1993-cü ildən ölkədə demokratiyanın inkişafı, siyasi və iqtisadi islahatların aparılması nəticəsində insan inkişafı üçün şərait

yaxşılaşdırılmışdır. 1996-ci ildə bu tədbirlərin nəticələri artıq İİƏ-nın artmasında öz əksini tapdı və bu rəqəm 0,697 oldu. 2002-ci ildə bu rəqəm isə 0,758-ə qədər artdı. Qeyd etmək lazımdır ki, dünya üçün orta İİƏ 0,722 təşkil edən Azərbaycan Respublikasında İİƏ orta dünya göstəricisindən çox olsa da, ölkə bu istiqamətdə daha yüksək nəaliyyətlər əldə etmək üçün potensiala malikdir. Dünyada da Insan İnkişafi Əmsalı tədricən artmaqdadır. Məsələn 1995-ci illə müqayisədə Insan İnkişaf Əmsalı (İİƏ) orta hesabla 1,8 faiz artmışdır. Həmin dövr ərzində isə Azərbaycanda bu göstərici daha böyük sürətlə artmışdır. Bu Azərbaycanda aparılan iqtisadi və sosial siyasətin daha çox insan inkişafına yönəldilməsi və daha çox səmərəli olması deməkdir.

8. İnsan inkişafinda gender amili. Gender nə deməkdir?

İnsan inkişafı konsepsiyasına görə inkişaf imkanlarında heç bir fərqə, o cümlədən cinslər arasında fərqlərə yol verilməməlidir. İrqindən, cinsindən, milliyyətindən, dini mənsubiyyətindən və yaxud coğrafi mövqeyindən asılı olmayaraq mövcud olan və yaxud ola biləcək bütün məhdudiyyətlər aradan qaldırılmalıdır. Eyni zamanda əlillər və müdafiəyə ehtiyacı olan digər qruplar üçün də mövcud ola biləcək bütün məhdudiyyətlər aradan qaldırılmalıdır. Bu o deməkdir ki, cəmiyyətdə təmsil olunan bütün qruplar öz imkanlarının genişləndirilməsi və fərdi potensialının həyata keçirilməsi üçün eyni hüquqlara malikdirlər və bu hüquqlar təmin edilməlidirlər.

Bəşər cəmiyyəti iki böyük qadın və kişi qruplarından ibarətdir. Bunlar arasında bərabərlik gender bərabərliyi kimi qəbul edilir. Cinslər arasında bioloji fərqlər məlumdur və dəyişməzdir. Bu məsələlər sizə orta məktəbin biologiya fənnindən, xüsusilə IX sinifdə keçmış olduğunuz "İnsan və onun sağlamlığı" kursundan məlumdur. Lakin bu heç də o demək deyil ki, kişi və qadının cəmiyyətdə tutduğu yer, mövqe dəyişməzdir. Qadın hərəkatının tarixi, bizim ölkədə bu sahədə əldə edilmiş nailiyyətlər bu prosesin dinamik surətdə dəyişməsindən xəbərl verir.

Qadınların cəmiyyətdə vəziyyətinin dəyişməsi təkcə tarixi proses kimi qəbul edilməməlidir. Bu eyni zamanda hər hansı bir ölkədə və ya konkret bölgədə mövcud olan iqtisadi, sosial və mədəni mühitdən asılı olan proses kimi qəbul edilməlidir. Elmi-texniki tərəqqi bəşəriyyətə bir sıra yeni texnoloji nailiyyətlər bəxş etmişdir ki, bu da müxtəlif proseslərin həyata keçirilməsində qadın və kişilərin fiziki imkanları arasında mövcud olan təbii fərqlərin aradan götürülməsinə və yaxud kəskin surətdə azalmasına gətirib çıxarmışdır. Bu eyni zamanda qadınların vaxta qənaətini təmin edir. Belə bir şərait gender problemlərinin həllinə, yəni qadın və kişilər arasında cəmiyyətdə mövcud olan fərqlərin aradan götürülməsinə xidmət edir.

Bəzi hallarda gender problemləri qadınların vəziyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması kimi qələmə verilir. Lakin gender problemlərinin təkcə qadınların problemləri kimi qiymətləndirilməsi düzgün deyil. Gender məsələlərinin öyrənilməsi və bu sahədə olan problemlərin həlli həm kişilər, həm də qadınlar üçün vacibdir. Onlar qadın və kişilər arasında olan münasibətlərin yaxşılaşmasına və insan inkişafı göstəricilərinin yüksəlməsinə xidmət edir.

9. Gender inkişafı göstəricisi. Gender sahəsində imkanların genişləndirilməsi

İnsan inkişafının göstəricisi hesablandığı kimi gender inkişafını da xarakterizə edən əmsallar mövcuddur və hesablanır. Bu əmsallar mütəmadi olaraq müxtəlif bölgə və ölkələr üçün hesablanır. Belə əmsalların mövcudluğu hər hansı bir ölkə və yaxud bölgədə gedən və gender problemlərinin həllinə yönəldilmiş siyasətin hansı istiqamətdə və hansı surətdə inkişafından xəbər verir. Eyni zamanda belə bir müqayisə bu sahədə əldə edilmiş ən qabaqcıl təcrübənin yayılmasına xidmət edir.

Gender inkişafının qiymətləndirilməsi iki başlıca əmsalın hesablanması əsasında həyata keçirilir. Onlardan biri gender faktorunu nəzərə almaqla insan inkişafı əmsalıdır. Bu əmsal Gender İnkişafı Əmsalı (GİƏ) kimi məlumdur. Həmin əmsalı hesablayarkən insan inkişafının ümumi əmsalının hesablanan göstəricilərindən

(sağlamlıq, təhsil, gəlir) istifadə olunur. Fərq yalnız ondadır ki, bu göstəricilər qadınlar üçün ayrıca hesablanır. Bundan sonra ümumi əmsal və qadınlar üçün alınmış əmsallar müqayisə olunurlar. Fərqin olmaması və yaxud az olması gender problemlərinin olmamasından və ya onların müvəffəqiyyətli həllindən xəbər verir. Bu o deməkdir ki, belə göstəricilərə malik olan ölkədə qadın və kişilər eyni hüquqa malikdirlər və bu sahədə olan haqlar həyata keçirilir.

Qadınların inkişafı üçün imkanların mövcud olması digər bir göstəricinin hesablanması ilə də həyata keçirilir. Bu zaman qadınların imkanlarının genişlənməsi əmsalı hesaba alınır. Bu əmsalın hesablanmasında qadınların qanunvericilik qurumlarında təmsil edilməsi, rəhbər vəzifələr tutmaları da nəzərə alınır. Dünya parlamentlərində qadınlar orta hesabla parlament üzvlərinin 11,8 faizini təşkil edir. Azərbaycanda bu rəqəm 12 faizə bərabərdir. Maksimal göstərici – 45,3 faiz İsveç parlamentində, minimal göstərici isə qanunvericilik qurumlarında qadınların tamamilə təmsil edilmədiyi bəzi Yaxın Şərq ölkələrində müşahidə olunur. Norveç, Finlandiya parlamentlərində qadınlar geniş təmsil olunblar və onlar qanunverici orqan üzvlərinin 35 faizdən çoxunu təşkil edirlər.

Gender inkişafı əmsalının ən yüksək göstəricisi Norveçdədir (0,941). Yüksək göstəriciyə (0,925-dən çox) Şimalı Avropanın bəzi ölkələri, ABŞ və Kanada malikdirlər. Azərbaycanda bu rəqəm nisbətən az olsa da (0,754), bu göstəriciyə görə Azərbaycan İtaliya, İspaniya, İsrail, Yunanıstan, Portuqaliya, Çexiya, Macarıstan və digər ölkələrlə bir cərgədədir. Eyni zamanda qeyd etmək lazımdır ki, Insan İnkişafı Əmsalı (0,758) və Gender İnkişafı Əmsalı (0,754) arasında fərq də çox azdır və bu sahədə düzgün siyasətin aparılmasından xəbər verir. Lakin Azərbaycanda bu göstəricinin artırılması üçün şərait var və bu sahədə ardıcıl siyasət həyata keçirilməkdədir (Cədvəl 7.1).

Cədvəl 7.1.

Azərbaycan Respublikasında Insan İnkişafı Əmsalı və Gender İnkişafı Əmsalı arasındakı fərqlər

İllər	İLƏ	GİƏ	Fərq faizlə
1997	0,706	0,689	-2,4
1998	0,722	0,719	-0,4
1999	0,738	0,732	-0,8
2000	0,746	0,744	-0,3
2001	0,751	0,748	-0,4
2002	0,758	0,754	-0,4

Gender problemini həll etmək üçün ölkədə bir sıra tədbirlər həyata keçirilir. Belə tədbirlər arasında hökumətin tərkibində Qadın Problemləri Üzrə Dövlət Komitəsinin yaradılmasını göstərmək olar. Bununla yanaşı Azərbaycanda gender problemləri ilə məşğul olan çox saylı qeyri-hökumət təşkilatları fəaliyyət göstərir.

Bir çox beynəlxalq təşkilatlar, ilk növbədə BMT-nin müxtəlif bölmələri ölkədə gender problemlərinin həllinə yönəldilmiş fəaliyyət həyata keçirirlər. Qeyd etmək lazımdır ki, BMT tərəfindən həyata keçirilən hər bir layihə və tədbirdə gender məsələləri mütləq nəzərə alınır.

10. Gender bərabərliyi istiqamətində beynəlxalq təşəbbüslər. Azərbaycanda gender bərabərliyi sahəsində fəaliyyət

Qeyd olunduğu kimi gender inkişafına BMT daim diqqət yetirir. Bu ən nüfuzlu beynəlxalq qurumun 2000-ci ilin iyununda keçirilən Baş Assambleyasının sessiyası məhz gender problemlərinə həsr edilmişdir. Assambleya sessiyasının XXI əsr üçün çağırışı «gender bərabərliyi, inkişaf və sülh» şüarı seçilmişdir. Sessiya gender bərabərliyinin təmin edilməsi üçün qadınlar və kişilər arasında mövcud olan qeyri-bərabərliyin aradan qaldırılması istiqamətində əsas məqsədləri göstərmişdir. Bunlara aşağıdakılar aid edilmişdir:

- yoxsulluqla mübarizə: Bu sahədə bir sıra nailiyyətlər əldə

edilməsinə baxmayaraq, yoxsulluq sahəsində gender qeyri-bərabərliyi mövcuddur və yoxsulların 70%-ni qadınlar təşkil edir. Yoxsulluğun ümumiyyətlə və xüsusilə qadınlar arasında azaldılması insan inkişafı sahəsində ən mühüm problemlərdəndir;

- qadınların təhsil və təlimi: Təhsil sahəsində gender qeyri-bərabərliyi bəzi ölkələrdə mövcuddur və aradan qaldırılmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında təhsil və təlimdə gender qeyri-bərabərliyi mövcud deyil;
- qadınların sağlamlığı: Bu sahədə bir sıra ölkələrdə gender bərabərsizliyi müşahidə olunmağına baxmayaraq, qadınların orta ömür uzunluğu kişilərin ömür uzunluğundan bir qayda olaraq çoxdur. Lakin buna baxmayaraq qadınların sağlamlıq problemləri mövcuddur və onlar aradan qaldırılmalıdır.

BMT-nin Baş Assambleyasının Sessiyası eyni zamanda bir sıra digər gender məsələlərini də müzakirə etmişdir. Bunların arasında qadınlara qarşı zorakılıq, qadınlar və hərbi münaqişələr, qadınlar və iqtisadi inkişaf və digər məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur. Eyni zamanda qadınlar və təbii mühit, qadın və mətbuat məsələlərinə dair də təkliflər qəbul edilmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən gender bərabərliyinə yönəldilmiş beynəlxalq tədbirlərə qoşulub və bir çox saziş və təşəbbüslərin iştirakçısıdır. Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatlarını təmsil edən nümayəndə heyətləri bir çox beynəlxalq toplantıların fəal iştirakçılarıdırlar.

11. İnsan inkişafına mane olan amillər: yoxsulluq Yoxsulluq insan inkişafı baxımından. Yoxsulluğu yaradan amillər. Yoxsulluğun qeyri - iqtisadi amilləri

Bir çox insanlar yoxsulluğu yaşatmaq üçün maddi vəsaitin çatışmazlığı kimi qəbul edirlər. Maddi vəsaitin çatışmazlığı və ya kifayət qədər olmaması həqiqətən yoxsulluğun səbəblərindən biridir və məhrumiyyət yaradır. Bununla belə, yoxsulluq yalnız bu anlayışla məhdudlaşmır. Yoxsulluq insanın təbii potensialının həyata keçirilməsi üçün şəraitin yetərincə olmamasıdır. Əgər insan

inkişafı insanın seçim və imkanlarının genişləndirilməsi kimi müəyyənləşdirilirsə, onda yoxsulluq insan inkişafı baxımından onun üçün normal həyat tərzi sürməyə seçimin və şəraitin məhdudluğu deməkdir. BMT-nin bu prinsip və terminologiyasına uyğun olaraq yoxsulluq eyni zamanda uzun, sağlam və yaradıcı həyat sürmək, normal həyat tərzindən, azadlıqdan, öz ləyaqətini qorumaq, özünə hörmətdən və gündəlik həyatın dəyərlərindən, digər faydalardan məmnun olmaq üçün imkanların çatışmazlığı deməkdir.

Müasir anlamda yoxsulluqla mübarizənin əsası XIX əsrdə Şimalı Amerika və Avropada qoyulmuşdur. İqtisadi və sosial təminatlar sahəsində aparılan mübarizə, həyata keçirilən müvafiq tədbirlər nəticəsində bu regionlardakı ölkələrdə yoxsulluğun səviyyəsi kəskin surətdə aşağı düşmüşdür.

Həmin dövrdə dünyanın digər regionları da yoxsulluq ilə mübarizə prosesinə qoşulmuşlar. BMT-nin məlumatlarına görə son 50 ildə yoxsulluq ilə mübarizə və yoxsulluğun azalma sürəti ondan əvvəlki 500 illə müqayisədə daha səmərəli olmuşdur. Bunu yoxsulluğun bir təzahürü olan uşaq ölümünün azalması da sübut edir. Məsələn, son 25 ildə uşaq ölümü Omanda 91%, Çində 86%, Səudiyyə Ərəbistanında 82%, Kubada 81%, İranda 80% azalmışdır. Eyni zamanda məktəbə getməyən məktəbyaşlı uşaqların da sayı həmin dövrdə iki dəfə azalmışdır. Bizim ölkədə də uşaq ölümü kəskin surətdə azalmışdır, təhsil ilə əhatə isə yüksəkdir və ən yüksək inkişaf etmiş ölkələrin səviyyəsindədir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, yoxsulluq ilə mübarizədə nailiyyətlərin olmasına baxmayaraq, mövcud olan məlumatlara əsasən inkişaf etməkdə olan ölkələrdə əhalinin ən azı 25 faizindən çoxu yoxsulluq şəraitində yaşayır. Ən çox yoxsulluq isə Asiya və Afrika qitələrinin müəyyən ərazilərində müşahidə olunur. Burada yoxsulların sayı 1,5 milyarda yaxındır. Azərbaycanda da yoxsulluq mövcuddur və əhalinin 13 faizini təşkil edən qaçqın və köçkünlər arasında daha geniş yayılmışdır. Müstəqilliyi yeni qazanmış və keçid dövrünü yaşayan ölkəmizdə yoxsulluq ilə mübarizə xüsusi dövlət proqramı əsasında həyata keçirilir.

Coğrafi xüsusiyyətləri ilə yanaşı, yoxsulluğun digər xüsusiyyətləri də məlumdur. Bunların arasında yoxsulluqdan əziyyət çəkən qrupları xüsusilə göstərmək olar. Bu qruplara uşaqlar da aiddir. Yoxsulluq onları kifayət dərəcədə qidalanmaq imkanlarından məhrum edir, normal boy atmağa və çəkinin artmasına imkan vermir, bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır. Kəmiyyət və keyfiyyət baxımından qeyri-qənaətbəxş qidalanma uşaqların təhsilalma qabiliyyətinə də mənfi təsir göstərir. Yoxsulluqdan xüsusilə əziyyət çəkən əhalinin digər qrupu yaşlılardır. Bir sıra ölkələrdə yaş-lılar öz ömürlərinin son illərini böyük gərginlik içərisində keçirirlər.

Bir daha qeyd etmək lazımdır ki, yoxsulluq təkcə yaşamaq üçün vəsaitin kifayət qədər olmaması deyil. Başqa sözlə desək yoxsulluq təkcə məişət yoxsulluğu demək deyil. Yoxsulluq ilk növbədə hər bir şəxsin iqtisadiyyat, səhiyyə, təhsil, vətəndaş və siyasi hüquqlarını həyata keçirmək imkanlarından tam və yaxud qismən məhrum olması deməkdir. Başqa sözlə - yoxsulluq insanın hər hansı bir imkanının məhdudlaşdırılması deməkdir.

Qeyd edilməlidir ki, inkişaf etmiş və inkişafda olan ölkələrdə cəmiyyət öz vətəndaşlarına yaratdığı imkanlar eyni ola bilməz. Bu xüsusiyyət yoxsulluğun qiymətləndirilməsi zamanı nəzərə alınır. Yoxsulluğu qiymətləndirmək üçün inkişaf etmiş və inkişaf edən ölkələrdə müxtəlif göstəricilərdən istifadə olunur.

12.Yoxsulluğun qiymətləndirilməsi. Yoxsulluğun qiymətləndirilməsindəiqtisadi, səhiyyə və təhsil göstəriciləri. Yoxsulluğun inkişaf etmişvə inkişaf etməkdə olan ölkələrdə qiymətləndirilməsi

Yoxsulluqla mübarizə aparmaq, onu ləğv etmək və ya azaltmaq üçün ilk növbədə yoxsulluğun səviyyəsini qiymətləndirmək lazımdır. Belə qiymətləndirmə yoxsulluğun səbəblərini müəyyənləşdirmək, onunla mübarizəni daha məqsədyönlü və müvəffəqiyyətli aparmaq üçün şərait yaradır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə şərait eyni olmadığından bu ölkələrdə yoxsulluğun qiymətləndirilməsi də müxtəlif yollarla həyata keçirilir. Hər iki halda qiymətləndirilmə sağlamlıq, təhsil və iqtisadi göstəricilərə əsas-

lanır. İnkişafda olan ölkələrdə yoxsulluq əmsalının hesablanması bir sıra xüsusi göstəricilərin istifadəsi ilə həyata kesirilir. Bu göstəricilərə müəyyən yaşa (adətən 40 yaşa) çatmaq ehtimalı olmayan, içməli təmiz su ilə təmin edilməyən əhalinin payı, qida çatışmazlığı nəticəsində çəki və boyda geriləyən uşaqların faizi və buna bənzər digər göstəricilər aiddir.

Bu göstəricilər əsasında ƏYƏ - 1 (Əhalinin Yoxsulluq Əmsalı -1) hesablanır ki, bu da inkişafda olan ölkələrə aiddir. Belə hesablamalar bu ölkələr üçün mütəmadi olaraq, çox zaman hər il, bəzi hallarda isə bir neçə ildən bir hesablanır. Alınmış nəticələr hər hansı bir ölkədə yoxsulluq ilə mübarizənin aparılmasının nə dərəcədə müvəffəqiyyətli olmasından xəbər verir. Eyni zamanda vahid bir üsul ilə hesablanmış ƏYƏ ölkələr arasında müqayisə etmək imkanını yaradır. Belə müqayisələr BMT tərəfindən mütəmadi olaraq aparılır. Yoxsulluğun ən yüksək göstəricisi Afrikada yerləşən Niger ölkəsində qeydə alınmışdır. Bu ölkədə uşaqların 50 faizindən çoxu aclıq nəticəsində aşağı çəkiyə malikdirlər. Yoxsulluğun yüksək dərəcəsi eyni zamanda bir sıra digər ölkələrdə, o cümlədən, Mali, Yəmən, Haiti, Nepal, Banqladeş və bir sıra digər ölkələrdə müşahidə olunur. Bəzi ölkələrdə isə məsələn, İordaniyada, Panamada, Livanda, Türkiyədə və bir sıra digər ölkələrdə son dövrlərdə həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində yoxsulluğun səviyyəsi xeyli azalmışdır.

İnsan İnkişafı Əmsalı (İİƏ) ilə Əhalinin Yoxsulluq Əmsalının (ƏYƏ) müqayisəsindən faydalı nəticələr əldə edilə bilər. Məsələn, Çində və Misirdə İİƏ təxminən eynidir. Adambaşına düşən gəlir də çox yaxındır və müvafiq olaraq 3105 və 3041 ABŞ dolları təşkil edir. Buna baxmayaraq Misirdə yoxsulluq Çinlə müqayisədə 1,5 dəfə çoxdur. Bu o deməkdir ki, ölkədə gəlirin orta səviyyəsi heç də yoxsulluqla əlaqədar deyildir. Ölkədə yoxsulluqla aparılan mübarizə və gəlirlərin ədalətli bölünməsi həlledici bir amildir.

Yoxsulluğun səviyyəsinin gəlirdən çox müvafiq siyasətdən asılı olmasını digər misalla da göstərmək olar. Məsələn, Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) adambaşına düşən gəlir Çindən

təxminən altı dəfə çoxdur. Lakin, buna baxmayaraq bu iki iqtisadi baxımdan kəskin surətdə fərqlənən ölkələrdə yoxsulluq eyni səviyyədədir. Bu onunla izah olunur ki, bu iki ölkədə yoxsulluğun aradan qaldırılmasına yönəldilmiş siyasət eyni effektivliyə malik deyil.

İnkişaf etmiş ölkələr üçün Əhalinin Yoxsulluq Əmsalı digər yolla hesablanır. Bü əmsal ƏYƏ – 2 kimi qəbul edilib və onun hesablanması zamanı aşağıdakı göstəricilər nəzərə alınır:

- Əhali arasında funksional savadsızlığın səviyyəsi
- Ölkədə yoxsulluq həddindən aşağı səviyyədə gəlirləri olan əhalinin faizi
- 12 aydan artıq müddət dövründə işsiz qalan əhalinin faizi

Bu göstəricilər əsasında ƏYƏ – 2 hesablanır. Yüksək inkişaf etmiş 17 ölkə üzrə ƏYƏ – 2-nin təhlili göstərdi ki, yoxsulluğun ən aşağı göstəricisi İsveçdə qeydə alınmışdır. Bu ölkədə əhalinin 6,7 faizi yoxsul kimi səciyyələndirilə bilər. Həmin ölkələr arasında yoxsulluğun ən yüksək dərəcəsi ABŞ-da qeydə alınmışdır. Bu ölkənin əhalisinin 16,5 faizi yoxsuldur (Cədvəl 7.2).

Cədvəl 7.2.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ƏYƏ-2 və onun bəzi göstəriciləri

Ölkə	60 yaşına çatma ehtimalı olmayan əhali, %	Gəlirləri yoxsulluq səviyyəsindən aşağı olan əhali, %	12 aydan artıq müddət dövründə işsiz qalan əhali, %	ƏYƏ üzrə yeri
1	**2**	**3**	**4**	**5**
İsveç	8	6,7	1,5	1
Niderland	9	6,7	3,2	2
Almaniya	11	5,9	4,0	3
Norveç	9	4,3	1,3	4
İtaliya	9	6,5	7,6	5

1	2	3	4	5
Finlandiya	11	6,2	6,1	6
Fransa	11	7,5	4,9	7
Yaponiya	8	11,8	0,6	8
Danimarka	12	7,5	2,0	9
Kanada	9	11,7	1,3	10
Belçika	10	5,5	6,2	11
Avstraliya	9	12,9	2,6	12
Yeni Zelandiya	10	9,2	1,3	13
İspaniya	10	10,4	13,0	14
Böyük Britaniya	9	13,5	3,8	15
İrlandiya	9	11,1	7,6	16
ABŞ	13	19,1	0,5	17

Cədvəl 7.2-də verilən məlumatlardan aydın olur ki, yoxsulluğun səviyyəsi heç də ölkədəki adambaşına düşən orta gəlirlə bilavasitə əlaqədar deyil. Məsələn, adambaşına düşən orta gəlirə görə dünyada birinci yerlərdə gedən ABŞ-da yoxsulluq səviyyəsi müqayisə edilən ölkələr arasında nisbətən yüksəkdir. Lakin, bir daha qeyd olunmalıdır ki, ABŞ və digər inkişaf etmiş ölkələr yoxsulluq ilə mübarizəyə xüsusi diqqət yetirirlər və bu sahədə tədbirlər həyata keçirirlər.

Yoxsulluğu müəyyən edən digər göstəricilərə gəldikdə isə aydın olur ki, müxtəlif ölkələrdə bu göstəricilərin əhəmiyyəti müxtəlif ola bilər. Məsələn, uzun müddətli işsizlik Yaponiyada əhalinin yalnız 0,6 faizini əhatə edirsə, İspaniyada bu rəqəm 13,0 faiz təşkil edir. Gəlirləri isə yoxsulluq səviyyəsindən aşağı olan əhaliyə gəldikdə isə bu göstərici üzrə Avropada ən yüksək səviyyə Böyük Britaniyada (13,5 faiz), ən aşağı isə Norveçdədir (4,3 faiz). Yoxsulluğun aşağı salınması üçün onu törədən səbəblərin araşdırılması

olduqca vacibdir. Belə araşdırmalar yoxsulluq ilə mübarizənin strategiyasının müəyyənləşdirilməsi və planlaşdırılması üçün olduqca əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, yeni minilliyin əsas məqsədlərindən biri yoxsulluq ilə mübarizədir.

13. Azərbaycanda yoxsulluqla mübarizə proqramı

Azərbaycan Respublikasında keçid dövrünü yaşayan bütün ölkələrdəki kimi yoxsulluq mövcuddur. Dünya Bankının və bəzi digər milli və beynəlxalq təşkilatların apardığı qiymətləndirmələr nəticəsində müəyyən edilmişdir ki, əhalinin təxminən yarısı yoxsulluğun bu və digər təzahürləri ilə üzləşir. Ölkə əhalisinin 13 faizindən çoxunun qaçqın və köçkün həyatını yaşamaq məcbüriyyətində qalması yoxsulluq səviyyəsinə və onun yayılmasına öz təsirini göstərir.

Azərbaycan Respublikasında yoxsulluğun aradan qaldırılması üçün xüsusi dövlət proqramı həyata keçirilməkdədir. Bu proqram Dünya Bankı və milli hökümət tərəfindən işlənilib və 2002-ci ilin sonundan başlayaraq tətbiq edilməkdədir. Bu proqramın hazırlanmasında və həyata keçirilməsində BMT-nin İnkişaf Proqramı da fəal iştirak edir. Ölkənin İqtisadi İnkişaf Nazirliyi proqramın hazırlanmasında və icrasında xüsusi rol oynayır. Həmin proqram yoxsulluq ilə mübarizə üçün ölkənin iqtisadı inkişafında müşahidə olunan reqional qeyri-bərabərliyinin aradan götürülməsini nəzərdə tutur. Proqramın tətbiqi yoxsulluğun azalmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Milli Kitabxana

VIII FƏSIL
İNSAN VƏ VƏTƏNDAŞIN HÜQUQ VƏ AZADLIQLARI

1. İnsan ləyaqətinini müdafiəsi üzrə müxtəlif sistemlər. İnsan və vətəndaş hüquqları anlayışı. İnsan hüquqlarının inkişafı tarixi

İnsan ləyaqəti anlayışı. İnsan hüquqlarının fəlsəfəsi heç vaxt inkar oluna bilməyən bir dəyərin üzərində qurulub. Bıı dəyər insan ləyaqətidir. Ləyaqət dedikdə, ilkin olaraq insanın zəkaya, iradəyə və hislərə sahib bir varlıq kimi ali dəyərə malik olmasının tanınması başa düşülür. Ləyaqətin ikinci tərəfi də vardır. Bu, konkret insanın qeyri-adiliyinin, təkrarsızlığının, bəşər birliyinin tərkib hissəsi kimi hər bir şəxsiyyətin əhəmiyyətinin cəmiyyət tərəfindən etiraf edilməsi deməkdir. Ləyaqətin belə xüsusiyyətləri insanın anadangəlmə, fitri ləyaqəti kimi səciyyələndirilir. Digər tərəfdən, ləyaqət insanın cəmiyyətlə oz əlaqəsinə, öz əhəmiyyətinə, başqa insanlar və cəmiyyət tərəfindən hörmət edilməsi hüququna verdiyi mənəvi qiymətdir.

İnsan ləyaqəti – insan hüquqlarının müdafiəsinin əsaslandığı təməl prinsiplərindən biridir.

İnsan ləyaqəti hər bir insana anadan olduğu andan məxsusdur və heç kəs ondan məhrum edilə bilməz. Anadangəlmə ləyaqəti şərəf və qazanılan ləyaqət anlayışı ilə qarışdırmaq olmaz. Bəzən qazanılan ləyaqət nalayiq, alçaq hərəkətlərlə ləkələnə bilər.

İnsani ləyaqət hissi anadangəlmə olub, bəşəriyyətin bütün təbiətindən doğur, hər bir adama – dilsiz-ağızsız körpəyə də, qatı cinayətkara da eyni dərəcədə bəxş edilir. Insan ləyaqəti onun hüquq və azadlıqlarının mənbəyidir. Dövlətdə və cəmiyyətdə bas verən heç bir hadisə, heç bir hal, hətta fövqəladə vəziyyət belə, insan ləyaqətinin alçaldılmasına haqq qazandıra bilməz.

İnsan ləyaqətinin müdafiəsi prinsipləri və mexanizmləri. Bütün tarixi dövrlərdə insanlar daim ləyaqətlə və layiqincə yaşamağa can atmışlar. Bu istək insan varlığının özünü qorumağa olan obyektiv tələbatından yaranmışdır. Ləyaqətlə və yaxşı yaşamağı təmin edən nemətlləri itirmək qorxusu bütün dövrlərdə insanları öz müdafiələri üçün mexanizm və təminatlar yaratmağa məcbur etmişdir. Bu prosesə, eyni zamanda, cəmiyyətin inkişafında vacib amil olan sosial məsuliyyət hissi də təsir göstərmişdir.

İnsan ləyaqətinin müdafiəsinin prinsip və mexanizmləri heç də həmişə və hər yerdə eyni olmamışdır. Lakin maraqlıdır ki, əksər hallarda müxtəlif adamların bu problemi anlamalarında və onun həllinə yanaşmalarında bir oxşarlıq müşahidə olunmuşdur. Üsul və vasitələr arasında fərqlər isə, əsasən, xalqların, mədəniyyətlərin və ölkələrin sosial-iqtisadi və siyasi sistemlərinin qeyri-bərabər inkişafından irəli gəlirdi.

Sivilizasiyanın inkişafı ilə insan ləyaqətinin əhəmiyyəti və möhtəşəmliyinin dərki, habelə onun kimlərdən və necə müdafiə olunması haqqında təsəvvür də genişlənib inkişaf edirdi.

İnsan ləyaqətini qorumağa, insan və cəmiyyət arasında münasibətləri tənzimləməyə xidmət etməli olan insan hüquqları kimi müstəqil fəaliyyət göstərən mexanizmləri dünya tarixində barmaqla saymaq olar. Yəni bu, nadir hadisə və nümunədir. Lakin əvvəllər bu cür norma və prinsiplərin yerli-dibli olmadığını da iddia etmək düzgün olmazdı. Doğrudur, bunlar qabarıq ifadə edilmiş ayrıca sistem halında deyildi. Bununla belə, insan ləyaqətini tanıyan və müdafiə edən prinsip və normalar, adətən, ümumiləşdirilmiş ictimai sistemlərə, yaxud baxışlar və əqidələr sisteminə daxil edilirdi. Bunlar, əsasən, dini etiqadlarda, fəlsəfi düşüncələrdə və dövlət quruluşu prinsiplərində öz əksini tapırdı. Gəlin, onların bir neçəsini nəzərdən keçirək.

Əsaslı fərqlərə, mədəniyyətlərin müxtəlifliyinə, izahlar arasındakı ziddiyyətlərə baxmayaraq, dinlərin hamısını bütün insanların dəyərinə, bütövlüyünə və ləyaqətinə olan ümumi maraq birləşdirir. Məsələn, Buddizm təlimində əsas yeri insanlar arasında qarşılıqlı münasibətlər, hər bir insanın həyatına hörmət, yaxud adamlara

mərhəmət movzusu tutur. Bu təlim, insanın sosial vəziyyətindən asılı olmayaraq, onun həyatının dəyərini, insan ləyaqətini tanıyır və yüksək qiymətləndirir. İslam dininin müqəddəs kitabı Qurani-Kərimdə bərabərlik, insan ləyaqəti, seçmək azadlığı, qanunun aliliyi və bütün insanlara hörmət kimi yüksək keyfiyyətlər təbliğ edilir. Məhəmməd Peyğəmbər (s.ə.s.) göstərirdi ki, hüquqi və sosial bərabərsizlik ən böyük ədalətsizlikdir, çünki Allah bütün insanları və xalqları bərabərhüquqlu yaradıb.

İnsan ləyaqətinə hörmət, əxlaq normaları və sosial ədalət haqqında ideyalar çox qədimlərdən müxtəlif ölkələrin fəlsəfi təlimlərində öz əksini tapmışdır. Insan ləyaqətinə hörmət haqqında ən qədim fikir və mülahizələr qədim Çin müdriklərinə məxsusdur. Onların təliminin əsasını insan varlığının olçüyəgəlməz dəyəri haqqında ideya təşkil edir. Çin filosofları, hətta dövlət quruluşu da daxil olmaqla, insanın dəyanətini hər şeydən uca tuturdular. Yunan filosofları isə kainatı idarə edən təbiətin və ya Tanrının bəxş etdiyi ümumi qaydaların mövcudluğu ideyasını təbliğ edirdilər. Onların fikrincə, bu qaydalara beş əsas azadlıq (ancaq vətəndaşlar üçün): bütün vətəndaşlara bərabər dərəcədə hörmət, qanun qarşısında hamının bərabər olması, bərabər seçki hüquqları, siyasi hakimiyyətə nail olmaqda bərabərlik, mülki hüquqların bərabərliyi daxildir.

Böyük Nizaminin yaradıcılığında insan ləyaqətinə dair fikirlər geniş yer tutur. Onun bəyan etdiyi ideyalar – Yer üzündə bütün insanların bərabərliyi, sosial mənşəyi və ictimai vəziyyətindən asılı olmayaraq, insan ləyaqətinə yüksək hörmətlə yanaşılması fikri öz dövrü üçün inqilabi hadisə idi.

İnsan cəmiyyətdən kənarda mövcud ola bilməz. İnsanlar həmişə birgə yaşayaraq, müxtəlif ictimai sistemləri yaratmışlar. Bu sistemlərdən hər biri insanlar arasındakı münasibətlərə həlledici təsir göstərən, xeyir və şər, ədalət anlayışlarına tərif verən, hər bir fərdə təsir göstərərək, onun cəmiyyətdə yerini təyin edən müəyyən prinsip və normaları rəhbər tuturdu. Qədim zamanlardan başlayaraq, insanlar elə bir dövlət modeli yaratmağa çalışırdılar ki, o, insan ləyaqətinə hörmət prinsipi üzərində qurulmuş olsun. Qədim Misirdə belə hesab edilirdi ki, insanlar arasındakı münasibətlər ilahi ədalət

və doğruçuluq prinsipləri əsasında qurulmuşdur. Bunun doğru olub-olmadığını ilahilər və padşah müəyyən edir. Bir qədim Misir sənədində deyilir ki, ədalət genişdir və sarsılmazdır. Başqa bir sənəddə yazılırdı ki, "padşah yalnız öz əyanlarının yox, ölkənin bütün əhalisinin qayğısına qalmalıdır". Babil padşahı Hammurapinin qanunları bu sözlərlə başlayırdı: "İlahilər zəifləri və yetimləri müdafiə etmək üçün ona hakimiyyət vermişlər".

Avropada da vətəndaşların hüquq və azadlıqlarını möhkəmləndirən yeni qanunlar meydana çıxırdı. 1215-ci ildə İngiltərədə hər bir vətəndaşın sahib olduğu müəyyən hüquqları təsbit edən və kral hakimiyyətini məhdudlaşdıran ilk sənəd - İngilis Azadlıqlarının Böyük Xartiyası (Maqna Karta)[1] qəbul olunmuşdu. Bu sənəd sonralar İngiltərədə cəmiyyətin həyatında azadlığın və qanunun aliliyinin təsdiqi üçün zənmin yaratdı.

Bu ideyalar sonrakı dövrlərin mühüm sənədlərində - ABŞ-ın "İstiqlaliyyət Bəyannaməsi"ndə, Fransanın "İnsanın və vətəndaşın hüquqları haqqında Bəyannaməsi"ndə və ABŞ-ın "Hüquqlar haqqında Bill"ində inkişaf etdirilmişdi.

XIX əsrdə beynəlxalq miqyasda insan şəxsiyyətinin müdafiəsi sahəsində müsbət dəyişikliklərdən biri də silahlı münaqişələr zamanı insanları müdafiə edən humanltar hüququn yaranmasıdır. Həmin dövrdə hu hüquq insan şəxsiyyətinin müdafiəsi üzrə ən mükəmməl sistem idi.

İnsan hüquqları insan ləyaqətinin müdafiəsi üzrə ən mükəmməl mexanizmdir. Bizim sadaladığımız sistemlər və haqqında danışmadıgımız digər sistemlər, bir sıra keyfiyyətlərinə baxmayaraq, bitkin deyildi və yalnız bütövlükdə götürüldükdə insan hüquqları haqqında müəyyən təsəvvür yarada bilirdi. Insan ləyaqətinin tanınması və müdafiəsinin formalaşmasında müəyyən rol oynamış bu sistemlər bu gün də öz aktuallığını saxlamaqdadır. Lakin insan ləyaqətinin müdafiəsi üzrə tarixən təşəkkül tapmış ənənələr son nəticədə onun müdafiəsinin ən mükəmməl mexanizmi olan insan hüquqlarının yaradılmasına gətirib çıxarmışdır.

[1] ***Maqna Karta*** *böyük sənəd mənasını daşıyır. İngilis Azadlıqlarının Böyük Xartiyasının latınca qısaldılmış adı.*

İnsanın müdafiəyə olan obyektiv tələbatından doğan insan hüquqları cəmiyyətdə insan ləyaqətinin müdafiəsi mexanizmini təşkil edir. Hamıya aid olan insan hüquqları bəşəriyyət tarixində xeyli yeni hadisədir. Bu hüquqlar yalnız İkinci Dünya müharibəsinin sonlarında formalaşmağa başlamışdır və hələ də inkişaf prosesindədir. İnsan hüquqları insan ləyaqətinin müdafiəsinin nisbətən «cavan» mexanizmi olsa da, hazırda dünya birliyi bu mexanizmi insan müdafiəsinin ən ədalətli, mükəmməl, təsirli sistemi kimi tanıyır və qəbul edir.

İnsan hüquqlarının əsas xüsusiyyəti onun ümumi, yəni hamıya mənsub olmasıdır. Bu, o deməkdir ki, insanın hüquqları onun qadın, yaxud kişi olmasından, harada yaşamasından, hansı işdə işləməsindən, hansı dildə danışmasından asılı olmayaraq, hər kəsə aiddir. İnsan hüquqları sistemi hər bir insanı əməli səviyyədə bərabər hüquqlar və azadlıqlarla təmin edir.

İnsan hüquqlarının digər fərqləndirici cəhəti ondan ibarətdir ki, bunlar aşağı həddi təyin edir. Bu elə bir həddir ki, dövlət heç bir halda onu keçməməlidir. Çünki bu həddən kənarda insan öz ləyaqətini itirir, hətta onun mövcudluğu da təhlükə altına düşmüş olur.

İnsan və vətəndaş hüquqları anlayışı

İnsanın tələbatları və hüquqları. İnsanın tələbatları yalnız cismən sag qalıb yaşamaq ehtiyacları ilə məhdudlaşdırıla bilməz. Bu anlayıs daha genışdır. Bu tələbatlar insanın həm maddi, həm də mənəvi cəhətdən ləyaqətlə yaşamasını təmin edən tələbatlardır. İnsan ləyaqəti hər bır insana anadan olduğu andan məxsusdur və heç kəs ondan məhrun, edilə bilməz.

Hər bir insanın onun ləyaqətlə yaşamasını təmin edə biləcək öz tələbatları və bu tələbatların həyata keçirilməsində öz maraqları vardır. Əsas tələbatların həyata keçirilməsi üçün cəmiyyətdə insan ləyaqətinə hörmət ideyasına əsaslanan qaydaların və davranış normalarının olması zəruridir. Demək olar ki, insan ləyaqətinin müdafiəsini təmin edən, habelə insanın ləyaqətlə yaşaması üçün zəruri tələbatların həyata keçirilməsinə kömək edən əsas norma və

prinsiplər elə insan hüquqlarıdır. Bu tərifi 8.1. saylı sxemində belə ümumiləşdirmişik:

Sxem 8.1.



İnsan və vətəndaş hüquqlarının təsnifatı. Cəmiyyətin hər bir üzvü, qanunla müəyyən olunan hüquqlardan əlavə anadangəlmə hüquqlara da malikdir. Həmin hüquqlar *təbii hüquqlar* adlanır. Yaşamaq hüququ, bərabərlik hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ belə hüquqlardandır. Azərbaycan Respublikasının Konstitusiyasında əsas insan və vətəndaş hüquqlarının toxunulmaz, pozulmaz və ayrılmaz olduğu qeyd edilməklə yanaşı, təbii hüquqların əsas xüsusiyyətləri də ilk dəfə olaraq öz əksini tapmışdır. Dövlət bu hüquqları müdafiə etməyə borcludur. Məsələn, təhsil hüququ dövləti məcbur edir ki, o, hər bir uşağın təhsil ala biləcəyi məktəblər açsın. Başqa cür desək, dövlətin hüquqları yalnız qanunun onun üçün müəyyən etdiyi qədərdir. Insanın isə qanunla qadağan edilməyən hər şeyə hüququ var.

Azadlıqlara bəzən *neqativ hüquqlar* da deyilir. Ona görə ki, onlar dövlətin həyatımızın müxtəlif sahələrinə qarışmağına qadağa qoyur. Məsələn, söz azadlığı insana fikrini söyləməyə imkan verir, hakimiyyətə isə onun bu hüququnu məhdudlaşdırmağı qadağan edir.

Bu, o deməkdir ki, insanın hansı hüququ varsa, dövlət də bu hüququn müdafiəsi üçün addımlar atmalıdır, əgər insanın hansı azadlığı varsa, dövlət onu məhdudlaşdıran hərəkətlərdən çəkinməlidir.

İnsan hüquqları iki əsas qrupa bölünür: maddi hüquqlar; prosessual hüquqlar.

Maddi hüquqlar mülki hüquqları, siyasi hüquqları, iqtisadi və sosial hüquqları, eləcə də mədəni hüquqları özündə birləşdirir. Bunlar aşağıdakı qaydada təsnif olunur.

Mülki hüquqlar - bütün insanların qanun qarşısında bərabərliyi, vətəndaşlıq hüququ, hörmət edilmək və şəxsi ləyaqət hüququ, söz, vicdan və dini etiqad azadlığı hüququ.

Siyasi hüquqlar - hakimiyyət orqanlarının qəbul etdiyi qərarların həllində iştirak etmək hüququ, seçki hüququ, partiya, həmkarlar ittifaqı təşkilatları yaratmaq və onların fəaliyyətində iştirak etmək hüququ, mitinq və yürüş keçirmək hüququ.

İqtisadi və sosial hüquqlar - əmək, ədalətli və rahat iş şəraiti hüququ, peşəkar təşkilatlar yaratmaq hüququ, tətil hüququ, təhsil və səhiyyə hüququ.

Mədəni hıquqlar - cəmiyyətin maddi həyatında iştirak etmək hüququ, elmi nailiyyətlərdən istifadə etmək hüququ.

Prosessual hüquqlar insanı dövlətin özbaşınalığından müdafiə edən metodların və müvafiq təsisatların məcmuyudur. Bu hüquqlara məhkəməyə (ümumi məhkəmə, Konstitusiya Məhkəməsi) müracıət etmək hüququ, referendum keçirmək hüququ və s. daxildir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən vətəndaşların əsas siyasi və vətəndaş hüquq və azadlıqlarına bunlar aid edilir: yaşamaq hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, sərəf və ləyaqətin müdafiəsi hüququ, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, vətəndaşlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, döv-lətin idarə olunmasında istirak etmək hüququ, seçki hüququ, müraciət etmək hüququ, birləşmək

hüququ, hüquq və azadlıqların məhkəmə təminatı, siyasi sığınacaq hüququ və s.

Siyasi hüquqlar və vətəndaş hüquqları elə hüquqlardır ki, onlara əməl olunması, hər şeydən əvvəl, dövlətdən vətəndaşların və ya bir qrup vətəndaşın maraqlarına toxunan hərəkətlərdən çəkinməyi tələb edir. Lakin bu hüquqlara əməl olunması dövlətin üzərinə qəti hərəkətlər etmək, məsələn, hüquqi yardım sistemini maliyyələşdirmək öhdəliyini qoyur. Bu isə, yoxsullara qarşı cinayət törətmək kimi ciddi ittiham irəli sürüldüyü halda, onlara məhkəmədə öz hüquqlarını müdafiə etmək imkanı yaradır.

İqtisadi, sosial və mədəni hüquqların nümunəsi kimi aşağıdakı hüquqlar misal gətirilə bilər: lazım olan qida, sağlamlıq, layiqli həyat səviyyəsi, bərabər əməyə görə bərabər əməkhaqqı, sosial təminat, əmək, tətil, mənzil və mədəni həyatda istirak hüquqları. Bu hüquqlar bir qayda olaraq elə hüquqlardır ki, məsələn, işsizlik və ya əlillik səbəbindən özlərini təmin edə bilməyən vətəndaşlara dövlətdən maddi yardım göstərməyi tələb edir.

İnsanın hüqııq və azadlıqları hər şeydən yüksəkdə durur. Onlar dövlətin mərhəmət göstərərək verdiyi pay deyil, çünki bu hüquqlar dövlətdən asılı olmayaraq mövcuddur. Hüquq və azadlıqların müdafiəsi isə dövlətin borcudur, çünki o, xalqa xidmət etməlidir.

Şəxsiyyətin hüquqi statusu. Azadlıq və şəxsi toxunulmazlıq hüququ əsas etibarilə, hər bir insana azadlıqdan, hər hansı qanunsuz məhrumetmədən müdafiə üçün təminat verir. Bu hüquq istənilən həbsin və ya saxlanmanın (tutulmanın) yalnız qanunla nəzərdə tutulmuş əsaslar və qaydalar üzrə həyata keçirilməsini, habelə şəxsin qanunsuz tutulma və ya həbsəalma halında şikayət vermək və bu qanunsuzluğa görə çəkdiyi zərərin əvəzini almaq imkanını nəzərdə tutur.

BMT-nin "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"sinin 15-ci maddəsi vətəndaşlıq məsələsinə həsr olunub. Orada qeyd olunur ki, hər bir şəxs vətəndaşlıq hüququna malikdir. Heç kim özbaşına olaraq vətəndaşlıqdan və vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 52-53-cü maddələri də vətəndaşlıq hüquqlarını qanunvericilik yolu ilə təsbit edir. Bu maddələrdə deyilir ki, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

İnsan hüquqlarının siyahısı

1. Şəxsiyyətin yaşamaq, azadlıq və təhlükəsizlik hüququ;
2. Köləliyə və asılı vəziyyətə məruz qalmamaq hüququ;
3. İşgəncələrə və qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara məruz qalmamaq hüququ;
4. Hüquq subyektinin tanınması hüququ;
5. Qanun qarşısında bərabərlik hüququ;
6. İnsan hüquqları pozulduqda həmin hüquqların təsirli vasitələrlə bərpa olunması hüququ;
7. Qeyri-qanuni həbsə, tutulmaya və sürgün edilməyə mərıız qalmamaq hüququ;
8. İşə müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq baxılması hüququ;
9. Təqsir qanuna əsasən sübut edilənədək müqəssir sayılmamaq, yəni təqsirsizlik prezumpsiyası hüququ;
10. Şəxsi həyata və ailə həyatına, mənzil toxunulmazlığına, yaxud yazışma sirrinə özbaşına müdaxilə edilməmə hüququ;
11. Sərbəst yerdəyişmə və özünə yaşayış yeri seçmək, o cümlədən, istənilən vaxt ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ;
12. Başqa ölkələrdə sığınacaq axtarmaq hüququ;
13. Vətəndaşlıq hüququ;
14. Nikah bağlamaq və ailə qurmaq hüququ;
15. Əmlaka sahib olmaq hüququ;
16. Fikir, vicdan və din azadlığı hüququ;

17. Əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ;
18. Sərbəst toplaşmaq və assosiasiyalar yaratmaq hüququ;
19. Öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququ;
20. Ümumi, bərabər və azad seçkilərdə iştirak etmək hüququ;
21. Ümumi bərabərlik əsasında dövlət qulluğuna buraxılmaq hüququ;
22. İşləmək və iş yerini sərbəst seçmək hüququ;
23. Bərabər əməyə görə bərabər ödəniş hüququ;
24. İnsanın ləyaqətlə və layiqincə yaşamasını təmin edən ədalətli və qənaətbəxş əməkhaqqı almaq hüququ;
25. Həmkarlar ittifaqları yaratmaq hüququ;
26. İstirahət və asudə vaxt hüququ;
27. Sosial təminat hüququ;
28. Sağlamlığın və rifah halının (qida, paltar, mənzil və tibbi yardım da daxil olmaqla) təmin edilməsi üçün zəruri olan həyat səviyyəsi hüququ;
29. İnsanın işsizlik, xəstəlik, əlillik, dul qalma, qocalıq və ya ondan asılı olmayan başqa hallar nəticəsində yaşamaq üçün zəruri olan vəsait itirildikdə sosial müdafiə hüququ;
30. Uşaqlı qadınların və uşaqların sosial müdafiəsi hüququ;
31. Təhsil hüququ;
32. Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ;
33. Müəlliflərin elmi, ədəbi və bədii yaradıcılığının nəticəsi olan mənəvi və maddi maraqların müdafiəsi hüququ;
34. Hüquqları və azadlıqları dolğun şəkildə həyata keçirən sosial və beynəlxalq qayda hüququ;
35. Hər bir insanın və xalqın sosial, iqtisadi və mədəni inkişafda iştirak etmək hüququ.

İnsan hüquqlarının inkişaf tarixi

BMT-nin yaradılması müasir insan hüquqları müdafiəsi tarixinin başlanğıcıdır. Milyonlarla insanın məhvinə səbəb olmuş İkinci Dünya müharibəsində insan hüquqlarının pozulmasına və insan ləyaqətinin alçaldılmasına yönəldilmiş ən amansız və yolverilməz üsullardan istifadə olunmuşdur. Bu dəhşətli hadisə

dünya xalqlarını həmrəy olmağa səslədi və 1945-ci il aprelin 25-də Birləşmiş Millətlər Təşkilatını yaratmağa sövq etdi. BMT-nin oktyabrın 25-də qəbul edilmiş Nizamnaməsində deyilir ki, BMT-nin əsas vəzifəsi insanın hüquq və azadlıqlarını həyata keçirmək, "...insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərinə, qadınlarla kişilərin hüquq bərabərliyinə, millətlərin bərabərhüquqlu olmasına inamı bir daha möhkəmlətməkdir...".

Bu mühüm sənədin yeddi bəndi bilavasitə insan hüquqları məsələlərinə həsr edilmişdi. Bunlardan biri 1948-ci ildə BMT-nin insan hüquqları üzrə Xüsusi Komissiyasının yaradılması üçün əsas olmuşdu.

Komissiyanın başlıca vəzifəsi bütün insanlar üçün ümumi olan insan hüquqları üzrə beynəlxalq bir sənəd işləyib hazırlamaq idi. Bu, heç də asan məsələ deyildi. Belə ki, hətta eyni sosial-iqtisadi sistemə malik olan ölkələr arasında da ideoloji-mədəni və tarixi baxımdan ciddi fərqlər mövcud idi. Lakin bir az əvvəl başa çatmış müharibədə saysız-hesabsız qurbanlarla əlaqədar keçirilən mənəvi sarsıntı daha böyük idi.

"İnsan hüquqları haqqında Ümumi Bəyannamə". İki il davam edən gərgin işdən sonra 1948-ci il dekabrın 10-da BMT Baş Məclisi "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"* qəbul etdi. Bu "Bəyannamə"nin qəbul edilməsində məqsəd insan hüquqlarını və bütün dövlətlərin əməl etməli olduğu normaları müəyyənləşdirmək idi. "Bəyannamə"dəki ideyalar o qədər diqqətçəkən idi ki, bu sənədi qısa bir müddətdə dünya ölkələrinin əksəriyyəti, hətta ən qəddar diktatura rejimli dövlətlər belə imzalamışdı.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" müxtəlif siyasi və sosial-iqtisadi quruluşlu dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində əməkdaşlıq imkanlarını nümayiş etdirmiş mühüm beynəlxalq sənəddir. Bu sənəd dünya dövlətlərinin konstitusiya və qanunlarına da öz səmərəli təsirini göstərir.

* ***Bəyannamə*** *- hansısa prinsiplərin bəyan edildiyi beynəlxalq hüquqi sənəd.*

Dünya xalqları "Bəyannamə"nin müddəalarından öz hüquqları, sülh, demokratiya və tərəqqi uğrunda mübarizədə istifadə edirlər. BMT Baş Məclisinin 1950-ci ildə qəbul edilmiş qətnaməsi ilə bütün dövlətlərə və maraqlı təşkilatlara dekabrın 10-nu "İnsan Hüquqları Günü" kimi qeyd etmək tövsiyə olunmuşdur.

İnsan hüquqları üzrə ilk sənəd - "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiya". Etnik hökmranlıq nəticəsində irqi ayrı-seçkilik insanların müəyyən qrupunun hüquq və azadlıqlarının məhdudlaşdırılmasına və ya onlardan məhrum edilməsinə gətirib çıxarır. 1965-ci ildə BMT Baş Məclisi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiya"* qəbul etdi. Bu Konvensiyada "irqi ayrı-seçkilik" anlayışının tərifi verilmiş, irqi ayrı-seçkilik pislənmiş, ölkədə irqi ayrı-seçkiliyə və ya onun saxlanmasına səbəb olan siyasəti dəyişmək dövlətlərin öhdəsinə buraxılmışdı.

Bəs BMT-ni irqi ayrı-seçkiliyin ləğv edilməsi üçün Konvensiya qəbul etməyə vadar edən nə idi? Cənubi Afrika Respublikasının hakim dairələri tərəfindən Afrikanın yerli əhalisinə və Hindistandan köçürülmüşlərə qarşı dözülməz irqi ayrı-seçkilik siyasəti bəşəriyyəti narahat etmişdi. 1960-cı il oktyabrın 26-da Cənubi Afrikanın Şarpevil şəhərində polis ***aparteid***** rejiminin afrikalı əhalinin məcburi pasportlaşdırılması haqqında qanununa qarşı dinc etiraz nümayişinə diyan tutmuşdu.

1966-cı il oktyabrın 26-da BMT Baş Məclisi "İrqi ayrı-seçkiliyin ləğvi uğrunda Beynəlxalq Mübarizə Günü"nün təsis edilməsi haqqında qərar qəbul etdi. Beynəlxalq birlik bununla beynəlxalq ictimaiyyəti irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi uğrunda səyləri birləşdirməyə çağırdı. 1979-cu ildə Baş Məclis ***rasizmə***** və

---

* ***Konvensiya*** *(latınca) – müqavilə, saziş. Hansısa müəyyən məsələ üzrə beynəlxalq saziş. Konvensiya qəbul edildikdən sonra deyil, şərtləşdirilmiş sayda dövlətlər tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir. Konvensiya onu imzalamış və ratifikasiya (təsdiq) etmiş dövlətlər üçün hüquqi-məcburi sənəddir.*

** ***Aparteid*** *— Cənubi Afrika Respublikasında qeyri-avropalı (rəngli) əhaliyə qarşı həyata keçirilən qəddar irqi ayrı-seçkilik siyasəti*

*** ***Rasizm*** *(irqçilik) — xalqları «ali» və «aşağı» siniflərə bölən, bir irqi başqa irqdən üstün tutan nəzəriyyələr sistemi.*

irqi ayrı-seçkiliyə qarşı mübarizə onilliyi elan etdi. Baş Məclis bütün dövlətlərə müraciət edərək, hər il martın 21-dən başlayaraq, rasizmə və irqi ayrı-seçkiliyə qarşı mübarizə aparan xalqla həmrəylik həftəsi keçirməyə çağırdı. İndi Cənubi Afrika Respublikasında 21 mart «İnsan Hüquqlan Günü» kimi qeyd olunur.

İnsan hüquqlarına dair digər sənədlər. Beynəlxalq birlik insan hüquqları üzrə çoxlu beynəlxalq sazişlər və konvensiyalar qəbul etmişdir. Bu sənədlər hökuməti məcbur edir ki, qanunvericilik qaydasında və praktikada həmin hüquqların müdafiəsi üçün zəruri addımlar atsın.

"Soyuq müharibə" illərində sosialist ölkələri və Qərb demokratları arasında qarşıdurma güclənmişdi. Mübarizə aparan ölkələr insan hüquqları və azadlıqları barədə müxtəlif mövqelərdə dururdular. Qərb demokratları insanın mülki və siyasi hüquqlarının (söz, fikir azadlığı, siyasi plüralizm, ölkədən sərbəst getmək və yenidən qayıtmaq və s.) prioritetliyini təkidlə irəli sürür, sosialist ölkələri isə iqtisadi və sosial hüquqların vacibliyini qabardırdılar. Bu problem üzrə uzunsürən müzakirələr, əsasən, bir məsələ ətrafında gedirdi: əsas insan hüquqları üzrə bir ümumi və ya iki müxtəlif sənəd qəbul edilməlidir. 1966-cı ildə təxminən 20 il davam edən qızğın müzakirələrdən sonra iki mühüm beynəlxalq sənəd qəbul edildi. Bu, "İqtisadi, sosiai və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"* və "Siyasi hüquqlar və vətəndaş hüquqları haqqında Beynəlxalq Pakt"dır. Dünya dövlətlərinin üçdə iki hissəsi bu *paktların* iştirakçısıdır.

"İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" ədalətli və əlverişli əmək hüququnu, həmkarlar ittifaqı yaratmaq hüququnu, habelə sosial təminat, ailənin müdafiəsi, müəyyən həyat səviyyəsinin təmin edilməsi, səhiyyə və təhsil ilə əlaqədar hüquqları elan və təsbit edir.

"Siyasi hüquqlar və vətəndaş hüquqları haqqında Beynəlxalq Pakt" yaşamaq, şəxsi toxunulmazlıq, sərbəst toplaşmaq hüququnun, söz, vicdan və din azadlığının qanunla qorunduğunu bəyan edir. Sənəddə göstərilir ki, heç kəs həyatdan özbaşına məhrum edilə bilməz, heç kəs işgəncəyə və köləliyə məruz qala bilməz, məcburi,

yaxud icbari əməyə cəlb edilə bilməz. Pakt, həmçinin sərbəst şəkildə yerdəyişmək və yaşayış yeri seçmək azadlığını müdafiə edir. Hər iki Pakt 1976-cı ildə qüvvəyə minmişdir.

BMT "Siyasi hüquqlar və vətəndaş hüquqları haqqında Beynəlxalq Pakt"a əlavə olaraq, ***Fakültativ Protokol*** da qəbul etmişdir. Bu sənəd vətəndaşların hüquqlarının hökumət tərəfindən pozulması hallarında onlara bu Pakta əməl olunmasına nəzarət edən Insan hüquqları haqqında Komitəyə müraciət etmək hüququ verir. Belə imkan ancaq o halda mövcud ola bilər ki, Paktı təsdiq edən dövlət Fakültativ Protokolu da imzalamış olsun. Belə dövlətlərin sayı isə o qədər də çox deyildir.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə", iki Pakt və Protokol birlikdə "İnsan Hüquqları haqqında Beynəlxalq Bill" kimi tanınır. İnsan hüquqları üzrə yenə də çoxlu beynəlxalq müqavilələr, habelə İnsan Hüquqları üzrə Amerika Konvensiyası, İnsan Hüquqları və xalqların hüquqları üzrə Afrika Xartiyası, Insan Hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası kimi regional konvensiyalar da mövcuddur.

1993-cü ilin iyununda Avstriyanın paytaxtı Vyanada keçirilmiş insan hüquqları üzrə ümumdünya konfransı Bəyannamə və Fəaliyyət Proqramı qəbul etdi. Bu sənəddə birmənalı şəkildə göstərilirdi: "İnsanın bütün hüquqları ümumidir, bölünməzdir, qarşılıqlı asılılıqda və əlaqədədir. Beynəlxalq birlik insan hüquqlarına miqyaslı şəkildə, ədalətli və bərabər əsaslar üzrə, eyni bir qayğı və diqqətlə yanaşmalıdır...".

Bütün dövlətlərə tövsiyə edildi ki, insan hüquqları sahəsində beynəlxalq müqavilələri ratifikasiya etsinlər, insan hüquqları üzrə beynəlxalq standartlara, habelə həm milli, həm də beynəlxalq səviyyədə bu cür mexanizmlərin gücləndirilməsinə nəzarət və diqqəti artırsınlar. Dövlətlər bir daha təsdiq etdilər ki, insan hüquqlarının müdafiəsi BMT-nin başlıca məqsədi olaraq qalır.

2. Hüquq bərabərliyi və ayrı-seçkilik. Azərbaycanda insan və vətəndaşın hüquqları və azadlıqları. Analıq və qadın problemləri

"Hüquq bərabərliyi" və "ayrı-seçkilik" anlayışları. İnsanların bir-birindən fərqləndiyini, eyni zamanda onlar arasında oxşarlığın da olduğunu artıq bilirsiniz. Fərqlənmək insanı, fərdi təkrarolunmaz, özünəməxsus və bənzərsiz edir. Oxşarlıq isə insanlara müəyyən cəmiyyətlərdə (peşə, klub, dostların əhatəsi, partiya, assosiasiya, millət və s.) birləşmək imkanı yaradır. Hər bir adamın başqalarından istedadı, geyim tərzi, dini etiqadı, maraqları, nöqteyinəzəri, nəyəsə üstünlük vermək və s. ilə fərqlənmək hüququ var. Bu hüquq bütün insanları bərabər edir.

"Hüquq bərabərliyi" və "ayrı-seçkilik" anlayışları sizə yaxşı məlumdur. İnsanlar əsrlər boyu bərabərlik uğrunda mübarizə aparıblar, ayrı-seçkiliyin bütün formalarına (milli, dini, irqi, cinsi, silki və s.) qarşı çıxıblar. Tarixdə elə hallar olub ki, insanlar sosial mənşəyinə görə (qul-quldar, ağa-nökər, aşağı-ali silk, təbəqə və s.), irqinə və dərisinin rənginə (qaradərili, qırmızıdərili, ağdərili), cinsinə (kişi-qadın), milli və dini mənsubiyyətinə görə bərabər olmamışlar. Demək lazımdır ki, "bərabərlik" anlayışı da müxtəlif mənalarda işlədilmişdir. Orta əsrlərdə ədalətli, azad cəmiyyət qurmağı özlərinin başlıca vəzifəsi hesab edən Məzdəkilər və Xürrəmilər əmlak bərabərsizliyinə qarşı çıxmış, xüsusi mülkiyyəti ləğv etməyi tələb etmişlər. Eləcə də bərabərhüquqlu insanların cəmiyyətini qurduqlarını iddia edən bolseviklər xüsusi mülkiyyəti ləğv etmiş, insanların ləyaqətlərini, idrak və vicdanını hər addımbaşı tapdalamışdılar. Hətta dünyanm ən demokratik dövləti olan ABŞ-da irqi ayrıseçkiliyin ifrat forması olan *seqreqasiya*[*] qanunları cəmiyyətin mütərəqqi dairələrinin uzunmüddətli mübarizəsinin nəticəsi olaraq ləğv olunmuşdu. Elə yola saldığımız əsrin ortalarında və sonlarında Ermənistanda yaşayan azərbaycanlıların öz doğma yurdlarından qovulmasının səbəblərindən biri də onların başqa millətin və dinin

[*] ***Seqreqasiya*** *(ayrılma) insanları irqi və milli mənsubiyyətlərinə görə zorla ayırmaq və onların hüquqlarını məhdudlaşdırmaq siyasəti.*

nümayəndələri olmaları idi. İkinci Dünya müharibəsindən sonra "hüquq bərabərliyi" və "ayrı-seçkilik" anlayışları yeni mahiyyət kəsb etdi.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin birinci maddəsində deyilir ki, bütün insanlar azad, hüquq və ləyaqətlərinə görə bərabər doğulurlar. Onlar idrak və vicdana malikdirlər. Ona görə də onlar bir-biri ilə qardaşlıq ruhunda davranmalıdırlar. Bu müddəanı haqlı olaraq insan hüquqlarının "təməl daşı", "özülü", "başlanğıc nöqtəsi" və s. kimi qiymətləndirirlər. Bu maddənin əhəmiyyəti bundadır ki, o bir növ, insanın qalan bütün hüquq və azadlıqlarını özündə birləşdirən təməl prinsipi rolunu oynayır. Bu maddədə insan hüquqlarının mahiyyətini açan iki mühüm prinsip öz əksini tapmışdır. Bu, hər bir insanın anadangəlmə ləyaqətinin ali dəyər kimi tanınması, bütün insanların hüquq və ləyaqətlərinə görə bərabər doğulduqlarının etiraf edilməsidir. Birinci prinsipdə ifadə olunan dəyər bütün insan hüquqları sistemi üçün "başlanğıc nöqtəsi" rolunu oynayır. Insan hüquqları sistemində öz əksini tapmış bütün hüquq və azadlıqlara aid olan bərabərlik prinsipi insan hüquqlarının "qızıl qaydası" adlandırılmağa layiqdir. Bu prinsip bütün insanların hüquq və azadlıqlarına görə bərabərliyini, habelə bu hüquq və azadlıqların bərabər dərəcədə müdafiəsini təmin edir.

Bərabərliyin və insan hüquqlarının pozulmasına səbəb olan hallar. Hüquq bərabərliyinin insan hüquqlarının ali prinsipinə çevrilməsi obyektiv zərurətdən irəli gəlmişdir. Məhz bu prinsipə əməl olunmaması həmişə hüquq və azadlıqların pozulması üçün səbəb olmuşdur.

Bərabərliyin pozulmasının daha geniş yayılmış forması ayrı-seçkilikdir. Buna görə ayrı-seçkiliyin ləğv edilməsi – hüquq bərabərliyinin tam reallaşmasının ən mühüm şərtlərindən biridir. "Insan Hüquqları haqqında Ümumi Bəyannamə"nin ikinci maddəsində bəyan edilir: "Insanlar irqinə, dərisinin rənginə, cinsinə, dininə, siyasi və digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülki, silki, yaxud başqa vəziyyətinə görə heç bir fərq qoyulmadan... hüquqlara və azadlıqlara malik olmalıdırlar". Ayrı-seçkiliyin bütün formaları insan hüquqlarının pozulması deməkdir. Təkcə yola saldığımız XX

əsr yüzlərlə belə ayrı-seçkilik formalarının şahidi olmuşdur. Bütün hallarda "hüquq və ləyaqətlərə görə bərabərlik" insan hüquqlarının başlıca prinsipi hesab olunur. Bu prinsipi əsas tutan Azərbaycan Respublikası dövləti özünün Konstitusiyasında irqindən, milliyyətindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Eyni zamanda dövlətimiz hər cür ayrı-seçkiliyə görə məhdudlaşdırmaları qadağan edir.

Azərbaycanda insan və vətəndasın hüquqları və azadlıqları

Azərbaycanda insan və vətəndaşın hüquq və azadlıqlarının təsbit olunması. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan pozulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bununla da Konstitusiyada insan hüquqlarının aliliyi təsdiq edilmiş, onların hər hansı normativ-hüquqi aktla və ya hər hansı vəzifəli şəxs tərəfindən ləğv edilməsinin və ya məhdudlaşdırılmasının yolverilməzliyi təsbit edilmişdir.

Bərabərlik hüququ. Konstitusiyanın 25-ci maddəsində bərabərlik prinsipi aşağıdakı əlamətləri ilə fərqlənir:

l. Hamının qanun və məhkəmə qarşısında bərabərliyi. 2.Kişinin və qadının bərabərliyi, yəni hüquqların və azadlıqların istifadəsində cinsi bərabərlik. 3.Hüquq və azadlıqların hər kəs üçün bərabərliyi. 4.Hüquq və azadlıqların məhdudlaşdırılmasının yolverilməzliyi.

Konstitusiyaya görə irqindən, mülkiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir.

Yaşamaq hüququ. Konstitusiyanın 27-ci maddəsinə əsasən, hər kəsin yaşamaq hüququ vardır. "Insan Hüquqları haqqında

Ümumi Bəyannamə"yə əsasən, hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Azadlıq hüququ. Konstitusiyanın 28-ci maddəsinə əsasən, hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunda nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Mülkiyyət hüququ. Konstitusiyanın 29-cu maddəsinə əsasən, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyət hüququ subyektin ona mənsub əmlaka öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. Mülkiyyət hüququ üç ünsürdən – sahiblik, istifadə və sərəncam hüququndan ibarətdir.

Təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ və mənzil toxunulmazlığı hüququ Konstitusiyanın 31-ci, 32-ci və 33-cü maddələrində təsbit edilmişdir.

Nikah hüququ. Konstitusiyanın 34-cü maddəsinə əsasən hər kəsin nəzərdə tutulmuş yaşı çatdıqda ailə qurmaq hüququ vardır. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin 16-cı maddəsinə görə, yetkinlik yaşına çatmış kişilərin və qadınların heç bir irqi, milli, yaxud dini məhdudiyyəti olmadan nikah bağlamaq hüququ var.

Nikah qanunla müəyyən edilmiş şərtlərə və qaydalara riayət etməklə kişi və qadın arasında, onlar üçün qarşılıqlı şəxsi hüquq, əmlak hüququ və vəzifələri yaradan, ailənin təşkilinə yönəldilmiş, prinsip etibarilə ömürlük, azad, könüllü, bərabərhüquqlu bir ittifaqdır. Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18, qadınlar üçün 17 vaş müəyyən edilmişdir. Üzürlü səbəblər olduqda yerli icra orqanları nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin xahisi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Əmək hüququ. Konstitusiyanın 35-ci maddəsinə əsasən, əmək fərdi və ictimai rifahın əsasıdır.

Cəmiyyətin maddi əsasını insanların əmək fəaliyyəti təşkil edir. Azərbaycan Respublikasında əmək azaddır. Əməyin azadlığı aşağıdakı xüsusiyyətləri ilə səciyyələnir:

1. Hər kəs işləmək və işləməmək hüququna malikdir; 2. Hər kəsin sərbəst surətdə özünə peşə, məşğuliyyət və iş yeri seçmək azadlığı vardır.

Tətil hüququ. Konstitusiyanın 36-cı maddəsinə əsasən, hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

İstirahət hüququ. Konstitusiyanın 37-ci maddəsinə əsasən, hər kəsin istirahət hüququ vardır.

Sosial təminat hüququ. Konstitusiyanın 38-ci maddəsinə əsasən, hər kəsin sosial təminat hüququ vardır.

Konstitusiya ilə Azərbaycan vətəndaşlarına sağlam ətraf mühitdə yaşamaq hüququ, sağlamlığı qorumaq hüququ, təhsil hüququ, mənzil hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin qorunması hüququ verilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan vətəndaşlarına fikir və söz, vicdan, sərbəst toplaşmaq, məlumat azadlıgı, eləcə də yaradıcılıq azadlığı verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsi insan və vətəndaş hüquqları və azadlqlarının təminatına aiddir. Bu maddə ilə dövlətin iki başlıca vəzifəsi müəyyən edilir: 1) hüquq və azadlıqlara əməl etmək; 2) hüquq və azadlıqları müdafiə etmək. İnsan və vətəndaş hüquqları və azadlıqları həm bu orqanların qəbul etdiyi normativ-hüquqi aktlarda, həm də hüquq normalarının tətbiqi prosesində pozulmur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət tərəfindən müdafiəsini təmin etmək üçün Konstitusiya ilə bir sıra təminatlar nəzərdə tutulmuşdur.

İnsan və vətəndaş hüquqları və azadlıqları heç bir şəkildə ləğv edilə və ya məhdudlaşdırıla bilməz. Konstitusiyanın 155-ci maddəsinə uyğun olaraq, 3-cü fəsildə (əsas insan və vətəndaş hüquqları və azadlıqları) nəzərdə tutulmuş müddəaların məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz. Bütün bunlar insan və vətəndaş hüquq və azadlıqlarının əsassız olaraq məhdudlaşdırılmasının qarşısını alır.

71-ci maddənin üçüncü hissəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasını nəzərdə tutan

hallar öz əksini tapmışdır. Həmin hallar bunlardır: müharibə elan olunduqda; hərbi vəziyyət elan olunduqda; fövqəladə vəziyyət elan olunduqda; səfərbərlik elan olunduqda.

Yuxarıda sadalanan hallar Azərbaycan dövlətinin milli təhlükəsizlik maraqlarının qorunması naminə tətbiq edilir. Insan və vətəndaş hüquqlarının və azadlıqlarının belə halda məhdudlaşdırılması bir məqsədə — Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin və suverenliyinin, habelə ərazi bütövlüyünün qorunmasına xidmət edir.

Azərbaycanda insan və vətəndaşın dəyişməz Konstitusiya hüquqları. Konstitusiyanın 52-ci maddəsinə əsasən, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Konstitusiyanın 53-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda vətəndaşlıqdan məhrum edilə bilməz. Vətəndaşlıqdan məhrumetmə fərdi xarakter daşıyır, bu, şəxsin həyat yoldaşının və uşaqlarının vətəndaşlığının dəyişilməsinə səbəb olmur. Azərbaycan Respublikası vətəndaşı nə inzibati, nə də cinayət məsuliyyət tədbiri kimi bir yerdən digər yerə qovula bilməz. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə əsasən hər bir insanın sərbəst hərəkət etmək və hər bir dövlətin hüdudları daxilində özünə yaşayış yeri seçmək hüququ vardır.

İnsanın şəxsi toxunulmazhq hüququ. Konstitusiyanın 32-ci maddəsinə əsasən hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

"Uşaq hüquqları haqqında" Qanunun 12-ci maddəsinə əsasən hər bir uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Analıq və qadın problemləri

Gender bərabərliyi uğrunda mübarizə. İnsan cəmiyyətini qadın və kişilər təşkil edir. Cinslər arasında bioloji fərqlər məlumdur və dəyişməzdir. Lakin bu heç də o demək deyil ki, kişi və qadının cəmiyyətdə tutduğu yer dəyişməzdir. Qadın hərəkatının tarixi, bizim ölkədə bu sahədə əldə edilmiş nailiyyətlər qadınların cəmiyyətdə oynadığı rolun dinamik surətdə dəyişməsindən xəbər verir. Son əsrlərin texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirmişdir. XX əsrin sonunda

"gender"[1] anlayışı formalaşmışdır ki, bunu da "sosial cins" kimi səciyyələndirmək olar. Qadın və kişilər arasında sosial bərabərlik "gender bərabərliyi" kimi qəbul edilir.

Qadınların cəmiyyətdə vəziyyətinin dəyişməsi təkcə tarixi qanunauyğunluq kimi qəbul edilməməlidir. Bu proses, eyni zamanda, hər hansı bir ölkədə və ya bölgədə mövcud olan iqtisadi, sosial və mədəni mühitdən, gender bərabərliyi sahəsində həyata keçirilən siyasətdən asılı olmuşdur. Elmi-texniki tərəqqi bəşəriyyətə bir sıra yeni texnoloji nailiyyətlər bəxş edib ki, bu da müxtəlif proseslərin həyata keçirilməsində qadın və kişilərin fiziki imkanları arasında mövcud olan təbii fərqlərin aradan qaldırılmasına, yaxud kəskin surətdə azalmasına şərait yaradır.

Yeni texnoloji nailiyyətlər, eyni zamanda, qadınların ev işlərinə sərf etdiyi vaxtın qənaətini də təmin edir. Belə bir şərait gender problemlərinin həllinə, yəni qadın və kişilərin cəmiyyətdəki vəziyyətində mövcud olan fərqlərin aradan götürülməsinə xidmət edir.

Bəzi hallarda gender problemlərini qadınların vəziyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması kimi qələmə verirlər. Lakin gender problemlərinin təkcə qadın problemləri kimi qiymətləndirilməsi düzgün deyil. Gender problemlərinin öyrənilməsi və bu sahədə olan problemlərin həlli həm kişilər, həm də qadınlar üçün vacibdir. Bu problemlərin həlli qadın və kişi arasında olan əmək bölgüsü münasibətlərinin yaxşılaşdırılmasına və insan potensialının inkişaf göstəricilərinin yüksəlməsinə xidmət edir.

Gender inkişafını xarakterizə edən əmsallar mövcuddur və hesablanır. Bu əmsallar mütəmadi olaraq müxtəlif bölgə və ölkələr üçün hesablanır. Belə əmsalların mövcudluğu hər hansı bir ölkə, yaxud bölgədə gedən və gender problemlərinin həllinə yönəldilmiş siyasətin istiqaməti və sürəti barəsində məlumat verir. Eyni zamanda, belə müqayisələr bu sahədə mövcud olan problemlərin aşkarlanmasına, onların aradan qaldırılması üçün əldə edilmiş ən qabaqcıl təcrübədən istifadə olunmasına xidmət edir.

[1] *Gender (ingiliscə) – cins, cinsi mənsubiyyət mənasını verir.*

Gender inkişafının qiymətləndirilməsi iki əsas əmsalın hesablanması nəticəsində həyata keçirilir. Onlardan biri, gender amili nəzərə alınmaqla, insan inkişafı əmsalıdır. Bu göstəriciyə **Gender İnkişaf Əmsalı (GİƏ)** deyirlər. Əmsalı hesablayarkən insan inkişafının ümumi əmsalının hesablanan göstəricilərindən istifadə olunur. Fərq bir də ondadır ki, bu göstəricilər qadınlar üçün ayrıca hesablanır. Bundan sonra ümıimi ***İnsan İnkişafı Əmsalı (İİƏ)*** və qadınlar üçün alınmış ***Gender İnkişaf Əmsalı (GİƏ)*** müqayisə olunur. Fərqin olmaması, yaxud az olması gender problemlərinin olmamasından və ya onların uğurlu həllindən xəbər verir. Bu o deməkdir ki, belə göstəricilərə malik olan ölkədə qadın və kişi eyni hüquqa malikdir və onların inkişafı üçün tələb olunan imkanlar yaradılıb. ***Azərbaycan cəmiyyətində qadının mövqeyi.*** GİƏ ilə yanaşı, qadınların inkişafına xidmət edə bilən imkanların mövcudluğunu qiymətləndirmək üçün digər bir əmsalla hesablanır. Bu, xüsusi bir əmsaldır və qadınların imkanlarının genişlənməsini əks etdirir. Bu əmsalın hesablanmasında qadınların qanunvericilik qurumlarında təmsil edilməsi, rəhbər vəzifələr tutmaları da nəzərə alınır. Rəhbər vəzifələr dedikdə, qadınların nazir, xarici ölkələrdə səfir vəzifələrində calışmaları, yaxud şəhər, ya digər yaşayıs məntəqələrinin rəhbəri seçilməsi də nəzərə alınır. Dünya parlamentlərində qadınlar, orta hesabla, bu qurum üzvlərinin 11,8%-ni təşkil edir. Azərbaycanda bu rəqəm 12%-dən çoxdur. Maksimal göstərici (42,7%) İsveç parlamentindədir. Minimal göstərici isə qadınların qanunvericilik qurumlarında tamamilə təmsil edilməməsi nəticəsində yalnız bəzi Asiya və Afrika ölkələrində müşahidə olunur. Rəhbər vəzifələrdə təmsil olunmağa gəldikdə isə, bu sahədə gender qeyri-bərabərliyi bir çox ölkələrdə, o oümlədən yüksək inkişaf etmiş ölkələrdə də mövcuddur. Müşahidə olunan qeyri-bərabərliyi aradan qaldırmaq üçün milli və beynəlxalq səviyyələrdə müvafiq tədbirlər həyata keçirilir.

Gender İnkişaf Əmsalının ən yüksək göstəricisi Norveçdədir. Yüksək göstəricilər, həmçinin Avropanın bəzi ölkələrində, ABŞ və Kanadada müşahidə edilir. Azərbaycanda bu əmsal yuxarıda adları çəkilən ölkələrdən az olsa da, bu göstəriciyə görə vəziyyət İtaliya,

İspaniya, İsrail, Yunanıstan, Portuqaliya, Çexiya, Macarıstan və bir sıra başqa ölkələrdə müşahidə olunan səviyyəyə yaxındır. Lakin Azərbaycanda bu göstəricinin daha da yüksəlməsi üçün şərait var və bu sahədə müvafiq siyasət həyata keçirilməkdədir.

Gender problemini həll etmək üçün Azərbaycan Respublikasında ardıcıl olaraq bir sıra tədbirlər həyata keçirilir. Belə tədbirlər arasında hökumətin tərkibində Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasını, sonralar isə bu Komitənin səlahiyyətlərini genişləndirməklə onun yeni dövlət strukturuna – **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə** çevrilməsini göstərmək olar. Bununla yanası, Azərbaycanda gender problemləri ilə məşğul olan çoxsaylı qeyri-hökumət təşkilatları (QHT) fəaliyyət göstərir. Bir çox beynəlxalq təşkilatlar, ilk növbədə BMT-nin müxtəlif agentlikləri, ölkədə gender problemlərinin həllinə yönəldilmiş siyasətin həyata keçirilməsinə maraq göstərirlər.

BMT və **Beynəlxalq Əmək** Təşkilatının "eyni əməyə görə eyni ödənis" prinsipinə əsaslanan Konvensiyasının (1951-ci il) maddələri bir çox olkələrin milli qanunlarında, o cümlədən Azərbaycan Respublikasının qanunlarında da öz əksini tapmışdır. Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən gender bərabərliyinə yönəldilmiş beynəlxalq tədbirlərə qoşulub və bir çox saziş və təşəbbüslərin iştirakçısıdır. Azərbaycanın nümayəndə heyətləri gender inkişafına həsr olunmuş beynəlxalq tədbirlərdə mütəmadi olaraq iştirak edirlər.

Gender bərabərliyinin təmin edilməsi üçün qadınlar və kişilər arasında mövcud olan bərabərsizliyin aradan qaldırılması istiqamətində əsas məqsədlərə aşağıdakılar aiddir:

- **Yoxsulluqla mübarizə.** Bu sahədə bir sıra nailiyyətlər əldə edilməsinə baxmayaraq, yoxsulluq sahəsində gender qeyri-bərabərliyi mövcuddur. Azərbaycanda da bu göstəricinin aşağı salınması üçün müvafiq siyasət həyata keçirilir.
- **Qadınların təhsil və təlimi.** Bəzi ölkələrdə təhsil sahəsində gender qeyri-bərabərliyi mövcuddur və aradan qaldırılmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında təhsil və təlimdə gender qeyri-bərabərliyi mövcud deyil.

▪ **Qadınların sağlamlığı.** Bu sahədə bir sıra ölkələrdə gender bərabərsizliyi müşahidə olunmasına baxmayaraq, qadınların orta ömür uzunluğu kişilərin ömür uzunluğundan, bir qayda olaraq, çoxdur. Lakin buna baxmayaraq, ölkəmizdə qadınların sağlamlıq problemləri mövcuddur və onlar aradan götürülməlidir.

Cinsi əlamətə görə ayrı-seçkiliyin yolverilməzliyi. Qadınlara yanlış və qərəzli münasibət qızların ailə tərbiyəsindən başlayır. Qızlar artıq uşaq yaşlarından cinsi əlamət üzrə ayrı-seçkiliyi öz üzərlərində hiss edirlər. Belə ayrı-seçkiliyin mövcud olduğu ölkələrdə qızlara nisbətən oğlanlara daha çox diqqət və qayğı göstərilir. Onları daha yaxşı yedizdirir, geyindirir, daha çox həvəsləndirirlər. Təhsil almaq bacarıqlarını inkişaf etdirmək, öz ehtiyac və maraqlarını təmin etmək, yeniliklərlə tanış olmaq, həyata öz şəxsi baxışlarını formalaşdırmaq üçün onlara daha geniş imkanlar yaradırlar. Nəticədə, belə cəmiyyətdə oğlanlar qızlara nisbətən daha mükəmməl təhsil alır və özlərini daha inamlı, arxayın hiss edirlər.

BMT-nin sənədlərində və dövlətlərin konstitusiyasında təsbit olunmuş hüquq bərabərliyi cəmiyyətdə qadınla kişi arasında real bərabərlik üçün kifayət etmir. İndiyə qədər də bir sıra ölkələrdə bərabərdəyərli işə görə qadınların daha az əməkhaqqı alması, qadınlar arasında savadsızlığın yüksək həddə olması və onların tibbi xidmətdən məhdud istifadə etməsi kimi problemlər mövcuddur. Bununla yanaşı, qadınların əmək bazarında məruz qaldıqları ayrı-seçkilik, qadın alveri, qadınlara qarşı zorakılıq və s. kimi acınacaqlı hallara da tez-tez təsadüf olunur.

Qadın hüquqları insan hüquqlarının ayrılmaz hissəsi kimi. Bütün dövrlərdə qadının cəmiyyətdə rolu əslində böyük olub. Çünki qadın anadır. Hər bir cəmiyyətin özəyi isə ailədir. Ailədə qadının üzərinə nə dərəcədə böyük məsuliyyət düşdüyünü qəbul edən hər kəs bilir ki, savadlı, dünyagörüşlü, azad fikirli qadının uşağına verdiyi tərbiyə ilə dünyagörüşsüz, əzilən, istismar olunan, təhqir və təzyiqlərə məruz qalan qadının öz uşağına verdiyi tərbiyə arasında böyük fərq var. Qadınların evdə yaratdığı rahat mikromühit də bu amillə dolayısı ilə bağlıdır. Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev bunu hələ XIX əsrin sonlarında çox gözəl anlayır və

qadınların təhsil almasında dinə zidd heç bir şey olmadığını təbliğ edirdi. Hacının vəsaiti ilə 1901-ci ildə Bakıda tikilən Qızlar məktəbi onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri idi. Deməli, qadının insan inkişafı üçün mövcud olan məhdudiyyətlərlə üzləşməsi bütövlükdə cəmiyyətin inkişafına mane olur. Çünki cəmiyyətin və onun aparıcı qüvvəsi olan insanın inkişafı irqindən, cinsindən, milliyyətindən, dini mənsubiyyətindən, yaxud coğrafi mövqeyindən asılı olmayaraq, hər bir insan üçün şərait yaradılmasını tələb edir. Bu, o deməkdir ki, cəmiyyətdə təmsil olunan bütün qruplar öz imkanlarının genişləndirilməsi və fərdi potensialının həyata keçirilməsi üçün eyni hüquqlara malikdirlər və bu hüquqlar təmin edilməlidir. BMT Baş Məclisi hələ 1967-ci ildə "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Bəyannaməsi"ni qəbul etmişdi. Lakin BMT üzvü olan dövlətlər bəyannamələrin yerinə yetirilməsi ilə bağlı öhdəlik daşımadıqlarından bu sənəd də cinslər arasında qarşılıqlı münasibətin yeni, daha ədalətli modelini yarada bilmədi və qadınları kişilərlə eyni hüquqlarla təmin etmədi.

XX əsrin 70-ci illərinin sonunda BMT-nin qadın hüquqları üzrə Komissiyası qadın hüquqları haqqında Konvensiyanı yaratmaq təşəbbüsü ilə çıxış etdi. Bu ideyaya əsasən, Konvensiya qanun qüvvəsinə malik olmalı və qadınlar barəsində ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılmasına yönəldilməli idi. 1979-cu ildə BMT Baş Məclisi "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya" qəbul etdi. Hazırda bu sənəd "Qadın Kon-vensiyası" kimi də tanınır. Bu Konvensiya, ilk dəfə olaraq qadın hüquqlarının insan hüquqlarının ayrılmaz hissəsi olması məsələsini gündəmə gətirdi. XX əsrin sonlarında bu Konvensiyanı artıq yüzdən çox ölkə ratifikasiya etmişdi. Azərbaycan dövləti də 1995-ci ildən bu Konvensiyaya qoşulmuşdur.

	Əsas müddəaların qeyri-rəsmi qısa şərhi
Preambula Bu Konvensiyanın iştirakçısı olan dövlətlər: Birləşmiş Millətlər Təşkilatının Nızamnaməsində bəyan edilmiş prinsiplərə uyğun olaraq, cəmiyyətin bütün üzvlərinin ləyaqətlərinin, bərabər və ayrılmaz hüquqlarının tanınmasını Yer üzündə azadlığın, ədalətin və sülhün təmin edilməsinin əsası olduğunu hesab edərək. Birləşmiş Millətlər Təşkilatının üzvü olan xalqların onun Nizamnaməsində insanın əsas hüquqlarına, insan şəxsiyyətinin qədir və ləyaqətinə inamlarını təsdiq etdiklərini və geniş azadlıq təqdirində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına kömək göstərmək qətiyyətlərini nəzərə alaraq; Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında ümumi Bəyannamədə[1] və insan hüquqları haqqında beynəlxalq paktlar[2] irq, dərinin rəngi, cins, dil, din, siyasi əqidə, yaxud dıgər əqidələr, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğulma və yaxud başqa hallar kımi əlamətlərə heç bir fərq qoyulmadan, hər bir adamın həmin sənədlərdə göstərilən bütün hüquq və azadlıqlara malik olmasını bəyan etdiyini və bununla razılaşdığını təsdiq edərək;	*Preambula* *Preambulada Birləşmiş Millətlər Təşkilatının əsas prinsipləri və insan hüquqlarına dair bəzi müvafiq paktların və bəyannamələrin konkret müddəaları xatırladılır. Preambulada təsdiq edilir ki, uşaqlar zəif olduqlarına görə xüsusi qayğı və mühafizəyə möhtacdırlar. Burada ailə tərəfindən müdafiə sahəsində əsas qayğı və məsuliyyət xüsusi nəzərə çarpdırılır. Preambulada uşağın doğulmazdan əvvəl və doğulduqdan sonra hüquqi və dıgər müdafiəsinin zərurılıyi, uşağın mənsub olduğu xalqın mədəni dəyərlərinə hörmətin vacibliyi və uşaq hüquqlarının müdafiəsi işində beynəlxalq əməkdaşlığın həyati əhəmiyyətə malik rolu da təsdiq edilir.*
Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında ümumi bəyannamədə uşaqların xüsusi qayğıya və köməyə hüququ	

[1] *Qətnamə 217 A (III)*
[2] *Qətnamə 2200 A (XXI), əlavə*

olduğunu bəyan etdiyini xatirladaraq;
cəmiyyətin əsas özəyi kimi və ailənin bütün üzvlərinin, xüsusilə uşaqların inkişafı və rifahı üçün əsas təbii mühit kımi ailənin cəmiyyət çərçivəsində vəzıfələri tam həcmdə öz üzərinə götürə bilməsi üçün ona yardım göstərilməsinin və onun müdafiə edilməsinin zərurilıyınə əmin olaraq;
uşağın şəxsiyyətinin tam və ahənğdar inkişafı üçün onun ailə mühitində, xoşbəxtlik, məhəbbət və anlaşma mühitində böyüməsinin vacibliyini təsdiq edərək;
uşağın cəmiyyətdə müstəqil həyata tamamilə hazırlanmalı və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində bəyan olunmuş ideallar ruhunda və xüsusılə sülh, ləyaqət, dözümlük, azadlıq, bərabərlik və həmrəylik ruhunda tərbiyə edilməli olduğunu qeyd edərək;
uşağın belə xüsusi müdafiə olunması zəruriliyinin uşaq hüquqlarına dair 1924-cü il tarixli Cenevrə Bəyannaməsində[1] və 1959-cu il noyabrın 20-də Baş Məclis tərəfindən qəbul edilmiş uşaq hüquqları Bəyannaməsində nəzərdə tutulduğunu və insan hüquqları haqqında ümumi Bəyannamədə, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda (xüsusən 23 və 24-cü maddələrdə)[2], iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq paktda (xüsusən 10-cu maddədə)[3], habelə uşaqların rifahı məsələləri ilə məşğul olan ixtisaslaşdırılmış idarələrin və beynəlxalq təşkilatların nizamnamələrdə və müvafiq sənədlərində təsdiq edildiyini nəzərə alaraq;

[1] *Leage of Nations Official Journal. Special Supplement № 21, October 1924, p.43.*
[2] *Qətnamə 2200 A (XXI), əlavə*
[3] *Yenə orada*

uşaq hüquqları Bəyannaməsində göstərildiyi kimi, "fiziki və əqli cəhətdən yetkin olmadığına görə uşağın istər doğulmazdan əvvəl, istərsə də doğulduqdan sonra xüsusi mühafizəyə və qayğıya, o cümlədən də lazımi hüquqi müdafiəyə ehtiyacı olduğunu" nəzərə alaraq;

uşaqların xüsusilə tərbiyə olunmağa verilməsi, milli və beynəlxalq səviyyələrdə övladlığa götürülməsi zamanı onların müdafiəsinə və rifahına aid sosial və hüquqi prinsiplər haqqında Bəyannamənin müddəalarına[1], yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına aid Birləşmiş Millətlər Təşkilatının Minimal standart qaydalarına ("Pekin qaydaları"[2]) və fövqəladə hallarda və silahlı münaqişələr dövründə qadınların və uşaqların müdafiəsi haqqında Bəyannamənin müddəalarına[3] istinad edərək;

dünyanın bütün ölkələrində son dərəcə çətin şəraitdə yaşayan uşaqlar olduğunu və belə uşaqların xüsusi qayğıya möhtac olduğunu təsdiq edərək;

uşağın müdafiəsi və ahəngdar inkişafı üçün hər bir xalqın ənənələrinin və mədəni dəyərlərinin əhəmiyyətini lazımınca nəzərə alaraq;

hər bir ölkədə, xüsusən inkişaf etməkdə olan ölkələrdə uşaqların həyat şəraitini yaxşılaşdırmaq üçün beynəlxalq əməkdaşlığın əhəmiyyətini təsdiq edərək;

aşağıdakılar barədə razılığa gəlmişlər:

---

[1] *Qətnamə 41/85, əlavə*
[2] *Qətnamə 40/33, əlavə.*
[3] *Qətnamə 3318 (XXIX).*

I HİSSƏ Maddə 1 Hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilə bilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmamış olsun.	*Uşaqlıq yaşının təyin edilməsi* *18 yaşına çatmamış olan şəxs uşaq sayılır. O hallar istisna təşkil edir ki,milli qanunlara uyğun olaraq yetkinlik yaşı daha erkən yaş çağında nəzərdə tutulur.*
Maddə 2 1. İştirakçı dövlətlər onların yurisdiksiyası daxilində olan hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onları təmin edir, uşağın, onun valideyinlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dinindən, siyasi əqidəsindən və ya digər əqidələrindən, milli, etnik, yaxud sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğulduğu şəraitindən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermirlər. 2. İştirakçı dövlətlər uşağın,onun valideynlərinin, qanuni qəyyumlarının və ya digər ailə üzvlərinin statusu, fəaliyyəti, ifadə olunan baxışları, yaxud əqidələri əsasında uşağın ayrı-seçkiliyin və cəzanın bütün formalarından müdafiə olunmasını təmin etmək üçün hər cür lazımi tədbirləri görürlər.	*Ayrı-seçkiliyin qarşısının alınması* *Bütün hüquqlar istisnasız olaraq uşaqların hamısına şamil edilir. Dövlət uşağı hər hansı formada ayri-seçkiliyikdən qorumağa və onun hüquqlarını qorumaq üçün lazımi tədbirləri görməyə borcludur.*
Maddə 3 1. Sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr, habelə məhkəmələr, inzibati orqanlar, yaxud qanunvericilik orqanları tərəfindən həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq, uşaqlar barəsində görülən bütün	*Uşaq hüquqlarının ən yaxşı təmin edilməsi* *Uşaq barəsində bütün tədbirlərdə onun mənafeləri tam həcmdə nəzərə alınmalıdır. Əgər uşağa müvafiq qayğı üçün*

tədbirlərdə uşağın maraqlarının daha yaxşı təmin edilməsinə ilk növbədə diqqət yetirilir. 2. İştirakçı dövlətlər uşağın valideyinlərinin, qəyyumların və ya onun üçün qanuna görə məsuliyyət daşıyan digər şəxslərin hüquq və vəzifələrini nəzərə alaraq, onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə uşağı təmin etməyi öhdəyə götürür və bu məqsədlə bütün qanunvericilik tədbirlərini və inzibati tədbirləri görürlər. 3. İştirakçı dövlətlər təmin edirlər ki, uşaqları qayğı və ya onların müdafiəsi üçün cavabdeh olan idarələr, xidmətlər və orqanlar səlahiyyətli orqanların qoyduqları normalara, o cümlədən təhlükəsizlik və səhiyyə sahəsində normalara onların işçilər heyyətinin say tərkibi və yararlığı, habelə mötəbər nəzarət baxımdan da cavab versinlər.	*məsuliyyət daşıyan valideynlər və ya digər şəxslər bu qayğını göstərmirlərsə, onda dövlət uşağı müvafiq qayğı ilə təmin etməlidir.*
Maddə 4 İştirakçı dövlətlər bu Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tədbirlərini, inzibati və digər tədbirləri görürlər. İştirakçı dövlətlər iqtisadi, sosial və mədəni hüquqlar sahəsində belə tədbirləri malik olduqları ehtiyatların maksimum çərçivəsində, lazım gəldikdə isə, beynəlxalq əməkdaşlıq çərçivəsində görürlər.	*Hüquqların həyata keçirilməsi* *Dövlət bu Konvensiyada nəzərdə tutulan hüquqların həyata keçirilməsiüçün bütün mümkün tədbirləri görməlidir.*
Maddə 5 İştirakçı dövlətlər valideynlərin və yerli adətdə nəzərdə tutulduğu kimi, müvafiq hallarda genişləndirilmiş ailə və ya icma üzvlərinin, qəyyumların, yaxud qanuna görə uşaq üçün məsuliyyət daşıyan digər şəxs-	*Ailədə tərbiyə və uşağın inkişaf etməkdə olan bacarığı* *Uşağın inkişaf etməkdə olan öz bacarığına müvafiq surətdə tərbiyə edilməsi işində dövlət valideynlərin və genişlən-*

lərin bu Konvensiyada tanınan hüquqların onlar tərəfindən həyata keçirilməsində uşağı lazımınca idarə və ona rəhbərlik etmək və bunu uşağın inkişaf etməkdə olan qabiliyyətinə müvafiq surətdə yerinə yetirmək məsuliyyətinə, hüquqlarına və vəzifələrinə hörmət bəsləyirlər.	*dirilmiş ailənin hüquqlarına və məsuliyyətinə hörmət bəsləməlidir.*
Maddə 6 1. İştirakçı dövlətlər təsdiq edirlər ki, hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir. 2. İştirakçı dövlətlər uşağın sağ qalmaq və sağlam inkişaf etmək imkanını maksimum mümkün dərəcədə təmin edirlər.	*Sağ qalmaq və inkişaf etmək* *Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir və buna görə də dövlət uşağın sağ qalmasını və inkişafını təmin etməyə borcludur.*
Maddə 7 1. Uşaq doğulduqdan sonra dərhal qeydə alınır və doğulduğu andan ad və vətəndaşlıq almaq hüququna, habelə, mümkün olduğu dərəcədə, öz valideynlərini tanımaq və onlardan qayğı görmək hüququna malikdir. 2. İştirakçı dövlətlər bu hüquqların öz milli qanunvericiliyinə müvafiq surətdə həyata keçirilməsini və öz öhdəliklərinin bu sahədə müvafiq beynəlxalq sənədlərə uyğun olaraq yerinə yetirilməsini təmin edirlər, bir şərtlə ki, uşaq vətəndaşlığa malik olmasın.	*Ad və vətəndaşlıq* *Uşaq doğulduqda ona ad verilməsi hüququna malikdir. Uşaq onun valideynlərinin kim olduğunu bilməsi üçün, mümkün halda, vətəndaşlıq almaq, habelə valideynləri tərəfindən qayğı görmək hüququna malikdir.*
Maddə 8 1. İştirakçı dövlətlər qeyri-qanuni müdaxiləyə yol vermədən, qanunda nəzərdə tutulduğu kimi, vətəndaşlıq, ad və ailə əlaqələri daxil olmaqla uşağın öz fərdiliyini saxlamaq hüququna hörmət bəsləməyi öhdələrinə götürürlər.	*Fərdiliyinin qorunub saxlanılması* *Dövlət uşağın fərdiliyinin əsas cəhətlərini qorumağa və zəruri halda bərpa etməyə borcludur. Buraya ad, vətəndaşlıq və ailə əlaqələri də daxildir.*

2. Əgər uşaq öz fərdiliyinin bütün ünsürlərinin bir qismindən və ya hamısından məhrum olursa, onda iştirakçı dövlətlər onun fərdiliyinin tezliklə bərpa edilməsi üçün ona lazımi köməyi və müdafiəni təmin edirlər.	
Maddə 9 1. İştirakçı dövlətlər təmin edirlər ki, uşaq öz valideynlərinin arzusuna zidd olaraq onlardan ayrılmasın, bir şərtlə ki, məhkəmənin qərarına uyğun olaraq səlahiyyətli orqanlar tətbiq edilən qanuna və qaydalara müvafiq surətdə müəyyən etsinlər ki, belə ayrılıq uşağın ən yaxşı mənafeləri naminə labüddür. Belə ayrılıq bu və ya digər konkret halda labüd ola bilər ki, məsələn, valideynlər uşaqla sərt rəftar edir və ya ona qayğı göstərmir, yaxud valideynlər birbirindən ayrı yaşayırlar və uşağın yaşayış yeri barədə qərar qəbul edilməlidir. 2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq hər cür araşdırma zamanı bütün əlaqədar tərəflərə araşdırmada iştirak etməyə və öz nöqteyi-nəzərini şərh etməyə imkan verilir. 3. İştirakçı dövlətlər valideynlərinin biri və ya hər ikisi ilə ayrılmış uşağın hər iki valideynlə müntəzəm əsasda şəxsi münasibətlər və birbaşa əlaqələr saxlamaq hüququna hörmət bəsləyirlər, bir şərtlə ki, bu münasibət və əlaqələr uşağın ən yaxşı maraqlarına zidd olmasın. 4. Belə ayrılıq iştirakçı dövlət tərəfindən	*Valideynlərdən ayrılmaq* *Uşaq öz valideynləri ilə yaşamaq hüququna malikdir. Bir şərtlə ki, bu uşağın ən yaxşı mənafelərinə zidd olmasın. Uşaq valideynlərindən biri ilə və ya hər ikisi ilə ayrılıqda onların hər ikisi ilə əlaqə saxlamaq hüququna malikdir.*

qəbul edilmiş hər hansı qərardan irəli gəldikdə, məsələn, valideynlərdən birinin və ya hər ikisinin həbsə alınması, məhbəsdə saxlanması, sürgünə göndərilməsi, ölkədən qovulması, yaxud ölməsi (o cümlədən həmin şəxsin dövlətin sərəncamında olduğu dövrdə hər hansı səbəb üzündən baş vermiş ölümü) ilə əlaqədar olduqda həmin iştirakçı dövlət ailənin qaib üzvünün/üzvlərinin olduğu yer barəsində valideynlərə, uşağa və ya, əgər lazım gələrsə, ailənin başqa üzvünə onların xahişi ilə lazımi məlumat verir, bir şərtlə ki, bu məlumatın verilməsi uşağın rifahına ziyan vurmasın. İştirakçı dövlətlər daha sonra təmin edirlər ki, bu cür xahişin yerinə yetirilməsi müvafiq şəxs/şəxslər üçün özlüyündə xoşagəlməz nəticələrə gətirib çıxarmasın.	
Maddə 10 1. İştirakçı dövlətlərin 9-cu maddənin 1-ci bəndi üzrə öhdəliyinə uyğun olaraq uşağın və ya onun valideynlərinin ailənin qovuşması məqsədilə iştirakçı dövlətə gəlmək, yaxud oradan getmək barədə ərizələrinə iştirakçi dövlətlər tərəfindən müsbət, humanist və operativ tərzdə baxılmalıdır. İştirakçı dövlətlər daha sonra təmin edirlər ki, bu cür xahişin yerinə yetirilməsi ərizəçilər və onların ailə üzvləri üçün xoşagəlməz nəticələrə gətirib çıxarmasın. 2. Valideynləri müxtəlif dövlətlərdə yaşayan uşağın ixtiyarı var ki, xüsusi hallar istisna olmaqla, hər iki valideynlə müntəzəm əsasda şəxsi münasibətlər və birbaşa	*Ailənin qovuşması* *Ailənin qovuşması və ya uşaqla valideynlər arasında şəxsi münasibətlər saxlanması məqsədilə uşaqlar və onların valideynləri hər hansı ölkəni dərk etmək və öz ölkəsinə getmək hüququna malikdirlər.*

əlaqələr saxlasın. Bu məqsədlə və iştirakçı dövlətlərin 9-cu maddənin 2-ci bəndi üzrə öhdəliyinə uyğun olaraq iştirakçı dövlətlər uşağın və onun valideynlərinin ictənilən ölkəni, o cümlədən də öz ölkəsini tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna hörmət bəsləyirlər. İstənilən ölkəni tərk etmək hüququ barəsində yalnız elə məhdudiyyətlər qüvvədədir ki, bu məhdudiyyətlər qanunla müəyyən edilmişdir və dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığı və ya mənəviyyatının, yaxud digər şəxslərin hüquq və azadlıqlarının mühafizəsi üçün zəruridir və bu Konvensiyada tanınan digər hüquqlarla uyğun gələ bilər.	
Maddə 11 1. İştirakçı dövlətlər uşağın bir yerdən başqa yerə qanunsuz aparılmasına və xaricdən geri qaytarılmamasına qarşı mübarizə aparılması üçün tədbirlər görürlər. 2. Bu məqsədlə iştirakçı dövlətlər ikitərəfli və ya çoxtərəfli sazişlər bağlanmasına, yaxud qüvvədə olan sazişlərə qoşulmağa kömək edirlər.	*Uşağın yerinin qanunsuz dəyişdirilməsi və qaytarılması* *Dövlət valideynlərdən birinin və ya üçüncü tərəfin uşağı oğurlamasının, yaxud xaricdə saxlanmasının qarşısını almağa və belə hallarda lazımi tədbirlər görməyə borcludur*
Maddə 12 1. Iştirakçı dövlətlər öz baxışlarını formalaşdırmağa qadir olan uşağı həmin baxışları özünə aid bütün məsələlərlə əlaqədar azad ifadə etmək hüququ ilə təmin edirlər, həm də uşağın baxışlarına onun yaşına və yetkinliyinə müvafiq surətdə lazımi diqqət yetirilir. 2. Bu məqsədlə uşağa imkan verilir ki, ona aid hər hansı məhkəmə araşdırmasının və ya	*Uşağın baxışları* *Uşaq öz baxışlarını azad ifadə etmək hüququna malikdir, özü d. Həmin uşaqla bağlı hər hansı məsələlərin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir.*

inzibati araşdırmanın gedişində ya bilavasitə, ya da nümayəndə, yaxud müvafiq orqan vasitəsilə onu milli qanunvericiliyin prosessual normalarında nəzərdə tutulan qaydada dinləsinlər.	
Maddə 13 1. Uşaq öz fikrini azad ifadə etmək hüququna malikdir; bu hüquqa hər cür informasiya və ideyaları sərhədlərdən asılı olmayaraq, şifahi, yazılı və ya çap edilmlş formada, incəsənət əsərləri formasında, yaxud uşağın istədiyi digər vasitələrin köməyi ilə axtarmaq, almaq və vermək azadlığı daxildir. 2. Bu hüququn həyata keçirilməsinə bəzi məhdudiyyətlər qoyula bilər, lakin həmin məhdudiyyətlər qanunda nəzərdə tutulan və aşağıdakı məqsədlər üçün zəruri məhdudiyyətlər ola bilər. a) digər şəxslərin hüquqlarına və nüfuzuna hörmət üçün; və ya b) dövlət təhlükəsizliyinin və ya ictimai asayişın (ordre public), yaxud əhalinin sağlamlığı və ya mənəviyyatının mühafizəsi üçün.	*Rəyi ifadə etmək azadlığı* *Uşaq öz rəylərini ifadə etmək və sərhədlərdən asılı olmayaraq, informasiya almaq, informasiya və ideyalar vermək hüququna malikdir.*
Maddə 14 1. Iştirakçı dövlətlər uşağın fikir, vicdan və din azadlığına hörmət edirlər. 2. Iştirakçı dövlətlər valideynlərin və müvafiq hallarda qanuni qəyyumların uşağın inkişaf etməkdə olan qabiliyyəti ilə uzlaşan metodlarla onun hüquqlarının həyata keçirilməsində uşağa rəhbərlik etmək hüquqlarına və vəzifələrinə hörmət bəsləyirlər. 3. Öz dininə və ya inamına etiqad etmək	*Fikir, vicdan və din azadlığı* *Dövlət valideynlər tərəfindən müvafiq rəhbərlik şəraitində uşağın fikir, vicdan və din azadlığına hörmət etməyə borcludur.*

azadlığına yalnız elə məhdudiyyətlər qoyula bilər ki, bu məhdudiyyətlər qanunla müəyyən edilmiş olsun və dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyat və sağlamlığının mühafizəsi, yaxud digər şəxslərin əsas hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olsun.	
Maddə 15 1. İştirakçı dövlətlər uşağın assosiasiyalara üzv olmaq azadlığını və dinc yığıncaqlarda iştirak etmək azadlığını tanıyırlar. 2. Həmin hüququn həyata keçirilməsində hər hansı məhdudiyyətlər tətbiq edilə bilməz, burada elə məhdudiyyətlər istisna təşkil edir ki, onlar qanuna müvafiq surətdə tətbiq olunur və demokratik cəmiyyətdə dövlət təhlükəsizlıyi və ya uctimai təhlükəsizlik, ictimai asayiş (ordre public) baxımından, əhalinin sağlamlığı və ya mənəviyyatının mühafizəsi, yaxud digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün zəruridir.	*Assosiasiya azadlığı* *Uşaq digər şəxslərlə görüşmək və assosiasiyalara daxil olmaq və ya onları yaratmaq hüququna malikdir.*
Maddə 16 1. Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, mənzilinin toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşınalıqla və ya qanunsuz surətdə müdaxilə obyekti, yaxud onun şərəf və nüfuzuna qanunsuz qəsd edilmək obyekti ola bilməz. 2. Uşaq belə müdaxilə və ya qəsdə qarşı qanunla müdafiə olunmaq hüququna malikdir.	*Şəxsi həyat hüququnun müdafiə edilməsi* *Uşaqlar onların şəxsi, ailə və ev həyatına, habelə yazışmasına müdaxilədən müdafiə, böhtan və iftiralardan müdafiə olunmaq hüququna malikdirlər.*
Maddə 17 İştirakçı dövlətlər kütləvi informasiya	*Müvafiq informasiyadan istifadə etmək*

vasitələrinin mühüm rol oynadığını qəbul edir və təmin edirlər ki, uşaq müxtəlif milli və ya beynəlxalq mənbələrdən informasiya və materiallar, xüsusən uşağın sosial, mənəvi və əxlaqi rifahına, habelə sağlam fiziki və psixi inkişafına köməyə yönəldilmiş informasiya və materialları ala bilsin. Bu məqsədlə iştirakçı dövlətlər: a) kütləvi informasiya vasitələrini uşaq üçün sosial və mədəni baxımdan faydalı olan və 29-cı maddənin ruhuna uyğun gələn informasiya və materialları yaymağa həvəsləndirirlər; b) müxtəlif mədəni, milli və beynəlxalq mənbələrdən alınan belə informasiya və materialların hazırlanması, mübadiləsi və yayılması sahəsində beynəlxalq əməkdaşlığa həvəsləndirirlər; c) uşaq ədəbiyyatının buraxılmasını və yayılmasını həvəsləndirirlər; d) kütləvi inforvasiya vasitələrini azlıq təşkil edən xalqların hər hansı qrupuna və ya yerli əhaliyə mənsub olan uşağın dil ilə bağlı ehtiyaclarına xüsusi diqqət yetirməyə həvəsləndirirlər; e) 13-cü və 18-ci maddələrin müddəalarını nəzərə alaraq, uşağın rifahına zərər gətirən informasiya və materiallardan uşağın qorunmasının lazımi prinsiplərini hazırlamağa həvəsləndirirlər.	*Dövlət uşaqların müxtəlif mənbələrdən informasiya və materiallar almaq imkanını təmin etməli, uşağın sosial və mədəni inkişafına təkan verən materialların kütləvi informasiya vasitələri ilə yayılmasına rəvac verməli və uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlər görməlidir.*
Maddə 18 1. İştirakçı dövlətlər uşağın tərbiyəsi və inkişafı üçün hər iki valideynin birlikdə və eyni dərəcədə məsuliyyət daşıdığına dair prinsipin tanınmasını təmin etməkdən ötrü mümkün olan bütün səyləri göstərirlər. Uşağın tərbiyəsi və inkişafı üçün əsas məsu-	*Valideynlərin məsuliyyəti* *Valideynlər uşağın tərbiyəsi üçün əsas məsuliyyəti birlikdə daşıyırlar, dövlət isə onlara bu işdə həyanlıq göstərməlidir. Dövlət uşaqların tərbiyəsində valideynlərə lazımi kömək*

liyyəti valideynlər və ya müvafiq hallarda qanuni qəyyumlar daşıyırlar. Uşağın ən yaxşı maraqları onların əsas qayğı obyektidir. 2. Bu Konvensiyada şərh olunmuş hüquqların həyata keçirilməsinə təminat verilməsi və kömək göstərilməsi məqsədilə iştirakçı dövlətlər valideynlərə və qanuni qəyyumlara uşaqların tərbiyəsi ilə bağlı öz vəzifələrini yerinə yetirməkdə onlara lazımi kömək edir və uşaq tərbiyə müəssisələri şəbəkəsinin inkişafını təmin edirlər. 3. İştirakçı dövlətlər bütün lazımi tədbirlər görürlər ki, valideynləri işləyən uşaqların onlara baxmaq üçün nəzərdə tutulan idarələrdən istifadə etmək hüququna malik olması təmin edilsin.	*etməlidir.*
Maddə 19 1. İştirakçı dövlətlər uşağı valideynlər, qanuni qəyyumlar və ya uşağa qayğı göstərən hər hansı digər şəxs tərəfindən fiziki, yaxud psixoloji zorakılığın, təhqirin və ya sui-istifadənin, qayğısızlığın, yaxud etinasız münasibətin, kobud rəftarın və ya istismarın, o cümlədən də seksual sui-istifadənin hər cür formalarından qorumaq məqsədilə bütün lazımi qanunvericilik, inzibati, sosial və maarifçilik tədbirlərini görürlər. 2. Lazım gələrsə, bu cür müdafiə tədbirlərinə uşağa və onun qayğısına qalan şəxslərə zəruri kömək göstərilməsi məqsədilə sosial proqramlar hazırlamaq üçün, habelə uşaqla yuxarıda sadalanmış kobud rəftar hallarının qarşısının alınmasının və aşkara çıxarılmasının digər formalarını həyata keçirmək, uşağı müalicə etmək və sonrakı tədbirləri görmək,	*Sui-istifadə və laqeyd rəftar hallarından müdafiə* *Dövlət uşağı valideynlər tərəfindən və ya uşağa qayğı üçün məsuliyyət daşiyan digər şəxslər tərəfindən onunla hər hansı formada pis rəftardan qorumalı və sui-istifadə hallarının qarşısının alınması və zərərçəkənlərin müalicə olunması üçün müvafiq sosial proqramlar hazırlamalıdır.*

habelə, lazım gələrsə, məhkəmə prosesinə başlamaq üçün səmərəli qaydalar daxildir.	
Maddə 20 1. Öz ailə mühitindən müvəqqəti və ya daimi məhrum olan, yaxud özünün ən yaxşı mənafeyi naminə belə mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi müdafiə edilmək və ona yardım göstərmək hüququna malikdir. 2. İştirakçı dövlətlər öz milli qanunlarına uyğun olaraq belə uşağa baxılması üsulunun dəyüşdirilməsini təmin edirlər. 3. Belə baxma üsulu uşağın şəriətə görə "kəfalət"ə, yəni tərbiyəyə verilməsindən, habelə övladlığa götürülməsindən, lazım gəldikdə isə, uşaqlara baxan müvafiq müəssisələrə qoyulmasından ibarət ola bilər. Uşağa baxılması üsulunun dəyişdirilməsi variantları müzakirə edilərkən uşağın tərbiyəsinin varisliyinin məqsədəuyğunluğu və onun etnik mənşəyi, dini və mədəni mənsubiyyəti və ana dili lazımi dərəcədə nəzərə alınmalıdır.	*Ailədən məhrum olmuş uşağın müdafiə edilməsi* *Dövlət ailə mühitindən məhrum olmuş uşağın sosial müdafiəsini təmin etməyə və ailə qayğısına alternativ qayğını, yaxud belə hallarda uşağın onlara baxılan müvafiq tərbiyə müəssisəsində yerləşdirilməsini təmin etməyə borcludur. Bu vəzifələrin yerinə yetirilməsi üçün göstərilən səylər zamanı uşağın mədəni mənsubiyyəti hökmən nəzərə alınmalıdır.*
Maddə 21 Övladlığa götürmə sistemini qəbul edən və yaxud bu sistemin həyata keçirilməsinə icazə verən iştirakçı dövlətlər uşağın ən yaxşı maraqlarının ilk növbədə nəzərə alınmasını təmin edirlər və onlar: a) təmin edirlər ki, uşağın övladlığa götürülməsinə icazə versinlər. Bu orqanlar tətbiq edilən qanuna və qaydalara uyğyn olaraq və işə bütün səhih məlumat əsasında müəyyən edirlər ki, uşağın valideynlər, qohumlar və qanuni qəyyumlar barəsində statusuna görə övladlığa götürmə mümkündür və əgər tə-	*Uşağın övladlığa götürülməsi* *Uşağın övladlığa götürülməsinin qəbul edildiyi və yaxud ona icazə verildiyi ölkələrdə övladlığa götürmə uşağın ancaq ən yaxşı mənayeləri naminə və səlahiyyətli orqanların icazəsi ilə, habelə uşaq təminatlar olduğu halda həyata keçirilə bilər.*

ləb olunarsa, əlaqədar şaxslər lazım ola biləcək belə məsləhətləşmə əsasında övladlığa götürməyə öz dərk edilmiş razılığını versinlər; b) təsdiq edirlər ki, uşağın başqa bir ölkədə övladlığa götürülməsi ona baxmağın alternativ üsulu hesab oluna bilər, bir şərtlə ki, uşaq onun tərbiyə olunmasını və ya övladlığa götürülməsini təmin edə bilməyəcək ailəyə tərbiyə edilməyə, yaxud saxlanmağa verilə bilməsin və uşağın doğulduğu ölkədə ona münasib qaydada baxılmasının təmin edilməsi mümkün olmasın; c) təmin edirlər ki, uşaq başqa bir ölkədə övladlığa götürüldükdə ölkənin daxilində övladlığa götürmə ilə əlaqədar tətbiq edilən eyni təminat və normalar tətbiq olunsun; d) bunu təmin etmək məqsədilə bütün lazımi tədbirləri görünür ki, başqa övladlığa götürmə təqdirində uşağın yerbəyer edilməsi bununla bağlı şəxslərin əsassız olaraq maliyyə mənfəəti əldə etməsinə gətirib çıxarmasın; e) zəruri hallarda ikitərəfli və çoxtərəfli razılaşmalar, yaxud sazişlər bağlanması yolu ilə bu maddənin məqsədlərinə nail olmağa kömək edir və bunun əsasında təmin edirlər ki, uşağın başqa bir ölkədə yerbəyer edilməsi səlahiyyətli hakim dairələr və ya orqanlar tərəfindən həyata keçirilsin;	
Maddə 22 1. İştirakçı dövlətlər qaçqın statusu almaq istəyən və ya tətbiq edilə bilən beynəlxalq, yaxud daxili hüquq və qaydalara müvafiq surətdə qaçqın sayılan, valideynləri və ya hər hansı digər şəxs tərəfindən istər	*Qaçqın uşaqlar* *Qaçqın uşaqlar və ya qaçqın statusu almağa çalışan uşaqlar üçün xüsusi müdafiə təmin edilməlidir. Dövlət bu cür müdafiə və köməyi təmin edən*

müşayiət edilən, istərsə də müşayiət edilməyən uşağı bu Konvensiyada və göstərilən dövlətlərin iştirakçısı olduğu insan hüquqlarına dair digər beynəlxəlq sənədlərdə və ya humanitar sənədlərdə əksini tapmış hüquqlardan istifadə edilməsində lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün zəruri tədbirləri görürlər. 2. Bu məqsədlə iştirakçı dövlətlər belə uşağın müdafiəsi və ona kömək göstərilməsi, hər hansı qaçqın uşağın öz valideynlərini və ya digər ailə üzvlərini axtarıb tapması, öz ailəsinə qovuşmaqdan ötrü gərəkli məlumat alması üçün Birləşmiş Millətlər Təşkilatının və onunla əməkdaşlıq edən digər səlahiyyətli hökumətlərarası təşkilatların və ya qeyri-hökumət təşkilatlarının bütün səylərinə lazım bildikdə kömək edirlər.	*səlahiyyətli təşkilatlarla əməkdaşlıq etməyə borcludur.*
Maddə 23 1. İştirakçı dövlətlər təsdiq edirlər ki, əqli və ya fiziki çatışmazlıq olan uşaq onun ləyaqətini təmin edən, onun özünə inamını artıran və cəmiyyətin həyatında fəal iştirakını asanlaşdıran şəraitdə dəyərli və layaqətli həyat sürməlidir. 2. İştirakçı dövlətlər əqli və ya fiziki çatışmazlığı olan uşağın ona xüsusi qayğı göstərilməsi hüququnu təsdiq edir və belə hüquqa malik olan uşağa və ona qayğı üçün məsuliyyət daşıyanlara mövcud imkanlar daxilində yardım göstərilməsini həvəsləndirir və təmin edirlər. Xahişlə müraciət edilmiş bu yardım uşağın vəziyyətinə və onun valideynlərinin, yaxud uşağa qayğını təmin edən digər şəxslərin vəziyyətinə müvafiq olmalıdır.	*Əlil uşaqlar* *Əlil uşaq onun maksimum müstəqilliyi və sosial inteqrasiyasını təmin edən şəraitdə onun tamdəyərli və layiqli həyat sürməsinə kömək etmək üçün xüsusi qayğı, təhsil və hazırlıq hüququna malikdir.*

3. Əqli və ya fiziki çatışmazlığı olan uşağın xüsusi ehtiyacları olduğu təsdiq edildikdə bu maddənin 2-ci bəndinə müvafiq surətdə ona imkan daxilində pulsuz yardım verilir və bu zaman valideynlərin, yaxud uşağa qayğını təmin edən digər şəxslərin maliyyə ehtiyatları nəzərə alınır. Bundan məqsəd əqli və ya fiziki çatışmazlığı olan uşağın təhsil, peşə hazırlığı, tibbi xidmət, sağlamlığın bərpası, əmək fəaliyyətinə hazırlıq sahəsində xidmətlərdən səmərəli istifadə etməsini və istirahət vasitələrindən bəhrələnməsini elə təmin etməkdir ki, bunlar uşağın sosial həyata imkan daxilində daha geniş cəlb edilməsinə və uşağın mədəni və mənəvi inkişafı da daxil olmaqla onun şəxsiyyətinin püxtələşməsinə nail olmağa gətirib çıxarsın. 4. İştirakçı dövlətlər profilaktiki cəhiyyə və əqli, fiziki çatışmazlığı olan uşaqların tibbi, psixoloji və funksional müalicəsi sahəsində müvafiq məlumat mübadiləsi o cümlədən də sağlamlağın bərpası metodları, ümumtəhsil və peşə hazırlığı barədə məlumatın yayılmasına, habelə bu məlumatdan istifadə olunmasına beynəlxalq əməkdaşlıq ruhunda kömək edirlər ki, iştirakçı dövlətlərə bu sahədə öz imkanlarını yaxşılaşdırmağa, biliklərini zənginləşdirməyə və öz təcrübəsini artırmağa şərait yaratsınlar. Bununla əlaqədar olaraq inkişaf etməkdə olan ölkələrin tələbatına xüsusi diqqət yetirməlidir.	
Maddə 24 1. İştirakçı dövlətlər uşağın ən təkmil səhiyyə sistemi xidmətlərindən və xəstəliklərin müalicəsi və sağlamlığın bərpası vasitələrindən istifadə etmək hüququ olduğunu təsdiq	*Sağlamlıq və səhiyyə* *Uşaq ən yüksək standartlara müvafiq olan tibbi yardım hüququna malikdir; elə yardım ki, real surətdə həyata keçirilə*

edirlər. İştirakçı dövlətlər təmin etməyə çalışırlar ki, heç bir uşaq səhiyyə sisteminin belə xidmətlərindən istifadə üçün öz hüququndan məhrum olmasın. 2. İştirakçı dövlətlər həmin hüququn tamamilə həyata keçirilməsinə çalışır və lazımi tədbirlər görürlər ki: a) körpələr və uşaqlar arasında ölüm hallarının səviyyəsi aşağı düşsün; b) ilkin tibbi-sanitar yardımının inkişafına birinci növbədə diqqət yetirmək şərtilə bütün uşaqlara lazımi tibbi yardım göstərilməsi və onların sağlamlağının mühafizəsi təmin edilsin; c) xəstəliklərə və doyunca yeməyə qarşı mübarizə aparılsın, o cümlədən ilkin tibbi-sanitar yardımçı çərçivəsində, digər vasitələrlə yanaşı, asnlıqla əldə olunan texnologiyanın tətbiq edilməsi və kifayət qədər qidalı ərzaq və təmiz içməli su verilməsi yolu ilə, ətraf mühitin çirklənməsi təhlükəsini və risqini nəzərə alaraq mübarizə aparılsın; d) analara doğumdan əvvəl və sonrakı dövrlərdə səhhətin mühafizəsi sahəsində lazımi xidmət göstərilsin; e) uşaqların sağlamlığı və yedizdirilməsi, əmizdirmənin üstünlükləri, gigiyena, uşağın yaşadığı mühitin sanitariyası və bədbəxt hadisələrin qarşısının alınması barədə cəmiyyətin bütün təbəqələrinə, xüsusən valideynlərə və uşaqlara malumat verilməsi, habelə onların təhsil alması və belə biliklərdən istifadə etməkdə onlara kömək göstərilməsi təmin edilsin; ə) profilaktiki tibbi yardım və ailənin böyüklüyünün planlaşdırılması sahəsində maarifçilik işi və xidmətlər inkişaf etdirilsin.	*bilər. Dövlətlər ilk tibbi-sanitar yardımı göstərilməsinə, xəstəliklərin profilaktıkasına, sanitariya təbliğatına və uşaqlar arasında ölüm hallarının azalmasına xüsusi diqqət yetirməlidirlər. Onlar bu sahədə beynəlxalq əməkdaşlığı həvəsləndirməli və hər şey etməlidirlər ki, heç bir uşaq səmərəli səhiyyə xidmətlərindən bəhrələnmək imkanından məhrum olmasın.*

3. İştirakçı dövlətlər uşaqların sağlamlığına mənfi təsir göstərən ənənəvi praktikanın ləğv edilməsi məqsədilə hər cür səmərəli və lazımi tədbirləri görürlər. 4. İştirakçı dövlətlər bu maddədə təsdiq olunan hüququn tamamilə həyata keçirilməsinə tədricən nail olmaq məqsədilə beynəlxalq əməkdaşlığı həvəsləndirməyi və inkişaf etdirməyi öhdələrinə götürürlər.	
Maddə 25 İştirakçı dövlətlər uşağa baxılması, onun müdafiəsi və ya fiziki, yaxud psixi müalicəsi məqsədilə səlahiyyətli orqanlar tərəfindən qəyyumluğa verilmiş uşağın keçdiyi müalicənin və onun haqqında belə qəyyumluqla bağlı bütün digər şəraitin vaxtaşırı qiymətləndirilməsi barədə uşağın hüququnu təsdiq edirlər.	*Qəyyumluğun vaxtaşırı yoxlanılması* *Baxılmaq, müdafiə və ya müalicə edilmək məqsədilə dövlət tərəfindən qəyyumluğa verilmiş uşaq qəyyumluğun müntəzəm surətdə yoxlanılması hüququna malikdir.*
Maddə 26 1. İştirakçı dövlətlər hər bir uşağın sosial sığorta da daxil olmaqla, sosial təminat imtiyazlarından istifadə etmək hüququnu tanıyır və öz milli qanunvericiliyinə uyğun olaraq bu hüququn tamamilə həyata keçirilməsinə nail olmaq üçün lazımi tədbirləri görürlər. 2. Lazım olduqca bu imtiyazlar mövcud ehtiyatlar və uşağın imkanları və onun saxlanması üçün məsuliyyət daşıyan şəxslərin imkanları, habelə uşaq tərəfindən və ya onun adından nemətlər alınması ilə bağlı istənilən mülahizələr nəzərə alınaraq verilir.	*Sosial təminat* *Uşaq sosial təminat imtiyazlarından, o cümlədən də sosial sığortadan istifadə etmək hüququna malikdir.*
Maddə 27 1. İştirakçı dövlətlər hər bir uşağın fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq hüququnu təsdiq edirlər.	*Həyat səviyyəsi* *Hər bir uşaq özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malikdir. Lazımi*

2. Valideyn(lər) və ya uşağı tərbiyə edən digər şəxslər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz bacarıqları və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyəti daşıyırlar. 3. İştirakçı dövlətlər valideynlərə və uşaqları tərbiyə edən digər şəxslərə həmin hüququn həyata keçirilməsində kömək göstərilməsi üçün öz milli şəraitinə müvafiq surətdə və öz imkanları daxilində lazımi tədbirlər görür və lazım gələrsə, maddi yardım göstərir və xüsusən ərzaqla, paltarla və mənzildə təmin edilməyə dair proqramları dəstəkləyirlər. 4. İştirakçı dövlətlər valideynlər və ya uşaq üçün maliyyə məsuliyyəti daşıyan digər şəxslər tərəfindən istər iştirakçi dövlətin daxilində, istərsə də xaricdə uşağın saxlanmasının bərpa olunmasını təmin etmək sahəsində bütün lazımi tədbirləri görürlər. Məsələn, əgər uşaq üçün maliyyə məsuliyyəti daşıyan şəxs və uşaq müxtəlif dövlətlərdə yaşayırdılarsa, iştirakçı dövlətlər beynəlxalq sazişlərə qoşulmağa və ya belə sazişlər bağlanmasına, habelə digər müvafiq razılaşmalar əldə olunmasına kömək edirlər.	*həyat səviyyəsinin təmin edilməsi üçün əsas məsuliyyəti valideynlər daşıyırlar. Dövlətin vəzifəsi bu məsuliyyətin həyata keirilməsi üçün müvafiq şərait yaratmaqdan ibarətdir. Dövlətin vəzifəlrinə valideynlərə və onların uşaqlarına maddi yardım göstərilməsi də daxil ola bilər.*
Maddə 28 1. İştirakçı dövlətlər uşağın təhsil almaq hüququnu tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsinə tədricən nail olmaq məqsədilə onlar: a) pulsuz və icbari ibtidai təhsil sistemi tətbiq edirlər; b) istər ümumi orta təhsilin, istərsə də orta peşə təhsilinin müxtəlif formalarının inkişaf	*Təhsil* *Uşaq təhsil hüququna malikdir, buna görə də dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdən, hər bir uşağın ala biləcəyi orta təhsil verilməsini həvəsləndirməkdən, bilik əsasında hamının ali təhsil almaq imkanını təmin etmək-*

etdirilməsini həvəsləndirir, bu təhsilin bütün uşaqlar üçün mümkün olmasını təmin edir və pulsuz təhsil sisteminin tətbiq olunması və lazım gələrsə maliyyə yardımı göstərilməsi kimi zəruri tədbirlər görürlər; c) bütün lazımi vasitələrin köməyilə hər bir kəsin bacarığı əsasında hamı üçün ali təhsilin mümkün olmasını təmin edirlər; d) təhsil və peşə hazırlığı sahəsində məlumat və materialların bütün uşaqların əldə etməsi imkanını təmin edirlər; e) məktəbə müntəzəm davamiyyətə kömək göstərilməsi və məktəbi tərk edən şagirdlərin sayının azalması sahəsində tədbirlər görürlər. 2. İştirakçı dövlətlər məktəb intizamının uşağın insan ləyaqətinə hörməti əks etdirən metodların köməyi ilə və bu Konvensiyaya müvafiq surətdə təşkil olunmasını təmin etmək üçün bütün lazımi tədbirləri görürlər. 3. İştirakçı dövlətlər bütün dünyada cəhalətin və savadsızlığın ləğvinə kömək göstərilməsi və elmi-texniki biliklərə və təlimin müasir metodlarına yiyələnməyin asanlaşdırılması məqsədilə təhsilə aid məsələlərdə beynəlxalq əməkdaşlığı həvəsləndirir və inkişaf etdirirlər. Bununla əlaqədar olaraq inkişaf etməkdə olan ölkələrin tələbatına xüsusi diqqət yetirməlidir.	*dən ibarətdir. Məktəb intizamı uşağın hüquqlarının nəzərə alınması və onun ləyaqətinə hörmət bəslənməsi şərti ilə təmin olunmalıdır. Dövlət bu hüququn həyata keçirilməsi məqsədilə beynəlxalq əməkdaşlıq etməlidir.*
Maddə 29 1. İştirakçı dövlətlər razılaşırlar ki, uşağın təhsili aşağıdakı məqsədlərə yönəldilməlidir: a) uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının ən tam həcmdə inkişaf etdirilməsinə; b) insan hüquqlarına və əsas azadlıqlara,	*Təhsilin məqsədləri* *Təhsil şəxsiyyətin, istedadın, əqli və fiziki qabiliyyətin maksimum inkişaf etdirilməsinə yönəldilməlidir. təhsil uşağı azad cəmiyyətdə fəal yaşlı şəxs həyatına hazırlamalı, öz valideynlərinə, mədəni özgünlüyə, dilə və*

habelə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində bəyan edilmiş prinsiplərə hörmət tərbiyə olunmasına; c) uşağın valideynlərinə, onun mədəni özgünlüyünə, dilinə və dəyərlərinə, uşağın yaşadığı ölkənin və onun əslən olduğu ölkənin milli dəyərlərinə, onun öz sivilizasiyalarından fərqlənən sivilizasiyalara hörmət tərbiyə edilməsinə; d) uşağın azad cəmiyyətdə anlaşma, sülh, dözümlük, kişilərdə qadınların hüquq bərabərliyi və bütün xalqlar, etnik, milli və dini qruplar arasında, habelə yerli əhali sırasından olan şəxslər arasında dostluq ruhunda şüurlu həyata hazırlanmasına; e) ətraf mühitə hörmət tərbiyə edilməsinə. 2. Bu maddənin və ya 28-ci maddənin heç bir hissəsi ayrı-ayrı şəxslərin və orqanların təhsil müəssisələri yaratmaq və onlara rəhbərlik etmək azadlığının məhdudlaşdırılması kimi yozulmur, bir şərtlə ki, bu maddənin 1-ci bəndində şərh olunmuş prinsiplərə daim əməl edilsin və belə təhsil müəssisələrində verilən təhsilin dövlət tərəfindən qoyula bilən minimal normalara uyğun gəlməsi barədə tələblər yerinə yetirilsin.	*dəyərlərə, başqalarının mədəni ənənələrinə və dəyərlərinə hörmət tərbiyə etməlidir.*
Maddə 30 Etnik, dini baxımdan və dil baxımından azlıqların və ya yerli əhali sırasından olan şəxslərin yaşadıqları dövlətlərdə belə azlıqlara və ya yerli əhaliyə mənsub olan uşaq öz qrupunun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən bəhrələnmək, öz dininə etiqad bəsləmək və onun ayinlərini yerinə yetirmək, habelə ana dilindən istifadə etmək hüququndan məhrum oluna bilməz	*Azlıqlara və yerli əhaliyə mənsub olan uşaqlar* *Azlıqlara və yerli əhaliyə mənsub olan uşaqlar öz mədəniyyətindən, ana dilindən istifadə etmək və öz dininə etiqad bəsləmək hüququna malikdirlər*
Maddə 31	*İstirahət, asudə vaxt və mədəni*

1. İştirakçı dövlətlər uşağın istirahət etmək və asudə vaxta malik olmaq hüququnu, onun yaşına uyğun gələn oyunlarda və əyləncəli tədbirlərdə iştirak etmək və sərbəst surətdə mədəni həyatda iştirak etmək və incəsənətlə məşğul olmaq hüququnu tanıyırlar. 2. İştirakçı dövlətlər uşağın mədəni həyatda və yaradıcılıq həyatında hərtərəfli iştirak etmək hüququna hörmət bəsləyirlər və bu hüququ təşviq edir, mədəni fəaliyyət və yaradıcılıq fəaliyyəti, asudə vaxt və istirahət üçün müvafiq və bərabər imkanlar verilməsinə kömək göstərirlər.	*həyat* *Uşaq istirahət, asudə vaxt və mədəni həyatda, yaradıcılıq həyatında iştirak etmək hüququna malikdir.*
Maddə 32 1. İştirakçı dövlətlər uşağın iqtisadi istismardan və onun sağlamlığı üçün təhlükə törədə və ya təhsil almasında əngələ çevrilə biləcək, yaxud onun sağlamlığına və fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafına ziyan vura biləcək hər hansı işin yerinə yetirilməsindən müdafiə edilmək hüququnu tanıyırlar. 2. İştirakçı dövlətlər bu maddənin həyata keirilməsini təmin etmək üçün qanunvericilik tədbirləri, inzibati və sosial tədbirlər, habelə təhsil sahəsində tədbirlər görürlər. Bu məqsədlə digər beynəlxalq sənədlərin müvafiq müddəalarını rəhbər tutaraq iştirakçı dövlətlər: a) işə qəbul üçün minimal yaş həddi və ya minimal yaş hədləri müəyyən edirlər; b) iş gününün uzunluğu və əmək şəraiti haqqında lazımi tədbirlər müəyyən edirlər; c) bu maddənin səmərəli surətdə həyata keirilməsini təmin etmək üçün müvafiq	*Uşaq əməyi* *Uşağa onun sağlamlığı, təhsili və ya inkişafı üçün təhlükə törədən iş tapşırıldıqda o, müdafiə hüququna malikdir. Dövlət işə qəbul üçün minimal yaş həddi təyin etməli və əmək şəraiti barəsində tələbələr qoymalıdır.*

cəza növləri və ya digər sanksiyalar nəzərdə tutulur.	
Maddə 33 İştirakçı dövlətlər müvafiq beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu kimi, uşaqları narkotik vasitələrdən və psixotropik maddələrdən qanunsuz istifadə etməkdən qorumaq və belə maddələrin qanuna zidd olaraq istehsalında və satılmasında uşaqlardan istifadə edilməsinə yol verməmək üçün bütün lazımi tədbirləri, o cümlədən də qanunvericilik tədbirləri, inzibati və sosial tədbirlər, habelə təhsil sahəsində tədbirlər görürlər.	*Narkotik vasitələrdən qanunsuz istifadə edilməsi* *Uşaqlar narkotik vasitələrdən və psixotropik maddələrdən qanunsuz istifadədən, habelə onların belə maddələrin istehsalına və bu maddələrlə alverə cəlb olunmasından müdafiə edilmək hüququ var.*
Maddə 34 İştirakçı dövlətlər uşağı seksual istismarın və seksual cəhətdən pis yola salınmağın bütün formalarından qorumağı öhdələrinə götürürlər. Bu məqsədlə iştirakçi dövlətlər aşağıdakı halların qarşısınıalmaq üçün milli, ikitərəfli və çoxtərəfli səviyyələrdə bütün lazımi tədbirləri görürlər: a) uşağı hər cür qanunsuz seksual fəaliyyətə çəkmək və ya məcbur etmək; b) istismar məqsədilə uşaqlardan fahişəlikdə və ya digər qanunsuz seksual praktikada istifadə etmək; c) istismar məqsədilə uşaqlardan pornoqrafiyada və pornoqrafik materiallarda istifadə etmək.	*Seksual istismar* *Dövlət uşağı seksual istismardan və pis yola çəkilməkdən, o cümlədən də fahişəlikdən və pornoqrafiyadan qorumalıdır.*
Maddə 35 İştirakçı dövlətlər uşaqların istənilən məqsədlərlə və istənilən formada oğurlanmasının, uşaq alveri edilməsinin və ya onların qaçaqmalçılıqla məşğul olmasının qarşısını	*Alver, qaçaqmalçılıq və oğurluq* *Dövlətin vəzifəsi uşaqların oğurlanması, onlarla alver edilməsi və onların qaçaqmal-*

almaq üçün milli, ikitərəfli və çoxtərəfli səviyyələrdə bütün lazımi tədbirləri görürlər.	*çılıqla məşğul olması hallarının qarşısını almaq üçün var qüvvə ilə səy göstərməkdən ibarətdir.*
Maddə 36 İştirakçı dövlətlər uşağı onun rifahının istənilən cəhətinə ziyan vuran istismarın digər bütün formalarından müdafiə edirlər.	*İstismarın digər formaları* *Uşaqlar onların rifahının hər hansı cəhətlərinə zərər vuran və 32, 33, 34 və 35-ci maddələrdə əhatə edilməmiş olan bütün formalarda istismardan müdafiə hüququna malikdirlər.*
Maddə 37 İştirakçı dövlətlər təmin edirlər ki: a) heç bir uşaq işgəncələrə və ya rəftarın, yaxud cəzanın digər amansız, qeyri-insani və ya ləyaqəti alçaldan növlərinə məruz qalmasın. 18 yaşına çatmamış şəxslər tərəfindən törədilmiş cinayətlərə görə nə ölüm cəzası, nə də azad edilmək imkanı nəzərdə tutulmayan ömürlük həbs cəzası kəsilmir; b) heç bir uşaq qanunsuz olaraq və ya özbaşınalıqla azadlıqdan məhrum edilməsin. Uşağın həbsə alınması, tutulması və ya həbs cəzası çəkməsi qanuna uyğun olaraq həyata keçirilir və bunlardan son tədbir kimi və mümkün olan daha qısa müddət ərzində müvafiq qaydada istifadə edilir; c) azadlıqdan məhrum olunmuş hər bir uşaqla humanist rəftar edilsin və onun şəxsiyyətinin ayrılmaz hissəsi kimi ləyaqətinə hörmət bəslənsin, onunla bir yaşda olan şəxslərin tələbatı nəzərə alınsın. Məsələn, azadlıqdan məhrum edilmiş hər bir uşaq məhbəsdə yaşlılardan ayrı saxlanılmalı (əgər hesab edilsə ki, bunu uşağın ən yaxşı mənafeləri naminə etmək gərək deyildir) və xüsusi hallar istisna olmaqla, öz ailəsilə yazışmaq və görüşmək yolu ilə əlaqə	*İşgəncələr və azadlıqdan məhrumetmə* *Hər bir uşaq işgəncələrə, amansız rəftara və cəzaya, qanunsuz həbsə və ya azadlıqdan məhrum edilməyə məruz qalmalıdır. 18 yaşınadək olan şəxslər cəzalandırılarkən azadlığa buraxılmaq imkanı olmadıqda ölüm cəzası və ömürlük həbs qadağan edilmişdir. Azadlıqdan məhrum edilmiş hər hansı uşaq məhbəsdə yaşlılardan ayrı saxlanılmalıdır. Əgər hesab edilsə ki, bu cür ayrı saxlanma uşağın ən yaxşı mənafelərinə ziddir, onda bu, istisna təşkil edən haldır. Tutulmuş olan uşaq hüquqi və digər yardım hüququna, habelə öz ailəsi ilə əlaqə saxlamaq hüququna malikdir.*

saxlamaq hüququna malik olmaıdır. d) azadlıqdan məhrum edilmiş hər bir uşaq ləngidilmədən hüquqi və digər müvafiq yardım almaq hüququna, habelə onun azadlıqdan məhrum olmasının qanuniliyini məhkəmə və ya digər səlahiyyətli, müstəqil və qərəzsiz orqan qarşısında sübuta yetirmək hüququna və istənilən belə prosesual tədbir barəsində onların tərəfindən təxirə salınmadan qərarlar çıxarılması hüququna malik olsun.	
Maddə 38 1. İştirakçı dövlətlər silahlı münaqişələr zamanı onların barəsində tətbiq edilə biləcək və uşaqlara aid olan beynəlxalq humanitar hüquq normalarına hörmət bəsləməyi və onlara əməl olunmasını təmin etməyi öhdələrinə götürürlər. 2. İştirakçı dövlətlər bunu təmin etmək üçün bütün tədbirləri görürlər ki, 15 yaşına çatmayan şəxslər hərbi əməliyyatlarda birbaşa iştirak etməsinlər. 3. İştirakçı dövlətlər 15 yaşına çatmayan hər hansı şəxsi öz silahlı qüvvələrində hərbi xidmətə çağırmaqdan imtina edirlər. İştirakçı dövlətlər 15 yaşına çatan, lakin 18 yaşı hələ tamam olmayan şəxslərin orduya cəlb edilməsi zamanı üstünlüyü daha yaşlı şəxslərə verməyə çalışırlar. 4. Silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq iştirakçı dövlətlər silahlı münaqişəyə məruz qalmış uşaqların müdafiəsinin və onlara baxılmasının təmin edilməsi üçün	*Silahlı münaqişələr* *İştirakçı dövlətlər bütün mümkün tədbirlərin görülməsini təmin etməlidirlər ki, 15 yaşına çatmamış olan uşaqlar hərbi əməliyyatlarda birbaşa iştirak etməsinlər. 15 yaşınadək olan heç bir uşaq silahlı qüvvələrdə hərbi xidmətə çağırılmamalıdır. Beynəlxalq hüququn müvafiq müddəalarına uyğun olaraq dövlətlər silahlı münaqişələrdən ziyan çəkmiş olan uşaqlara qayğını və onların müdafəsini təmin etməlidirlər.*

mümkün olan bütün tədbirləri görürlər.	
Maddə 39 İştirakçı dövlətlər hər hansı növ etinasızlığın, istismarın və ya sui-istifadənin, işgəncələrin, yaxud hər hansı digər sərt, rəhmsiz və ya ləyaqəti alçaldan rəftarın, cəzanın, yaxud silahlı münaqişələrin qurbanı olmuş uşağın fiziki və psixoloji cəhətdən bərpasına və sosial reinteqrasiyasına kömək etmək üçün bütün lazımi tədbirləri görürlər.	*Bərpaedici qulluq göstərilməsi* *Dövlət silahlı münaqişədən, işgəncələrdən, etinasızlıqdan, pis rəftardan və ya istismardan zərər çəkmiş olan uşağın sağalmasını və sosial reinteqrasiyanı təmin etmək məqsədilə onu lazımi müalıcə ilə təmin etməyə borcludur.*
Maddə 40 1. İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, bu qanunvericiliyin pozulmasında təqsirləndirilən və ya müqəssir satılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hisslərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörməti möhkəmləndirir və bu zaman uşağın yaşı və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rolunu yerinə yetirməsinə kömək göstərilməsi arzusu nəzərə alınır. 2. İştirakçı dövlətlər bu məqsədlə və beynəlxalq sənədlərin müvafiq müddəalarını nəzərə alaraq təmin edirlər ki: a) cinayət qanunvericiliyinin pozulduğu zaman milli və ya beynəlxalq hüquqla qadağan olunmayan hərəkətlərə və fəaliyyətsizliyə görə heç bir uşaq cinayət qanunvericiliyini pozmuş hesab edilməsin, onun pozulmasında təqsirləndirilməsin və bilinməsin; b) cinayət qanunvericiliyini pozmuş hesab edilən və ya onu pozmaqda təqsirləndirilən hər bir uşaq ən azı aşağıdakı təminatlara	*Yetkinlik yaşına çatmayan hüquq pozucuları barədə ədalət mühakiməsinin icrası* *Qanunu pozmuş olan uşaq elə rəftar hüququna malikdir ki, bu rəftar uşaqda ləyaqət və mənlik hissinin inkişafına kömək edir, onun yaşını nəzərə alır və onun sosial reinteqrasiyasına yönəldilmişdir. Uşaq müdafiə zamanı əsas təminatlar, habelə hüquqi və digər yardım hüququna malikdir. İmkan daxilində məhkəmə vasitəsilə araşdırmaya və uşağın azadlıqdan məhrumetmə yerlərində saxlanmasına yol verməmək lazımdır.*

malik olsun:
I) onun təqsiri qanuna uyğun olaraq sübuta yetirilməyincə təqsirsizlik prezumpsiyası:
II) ona qarşı irəli cürülən ittihamlar barədə ona dərhal və bilavasitə, zəruri hallarda isə, onun valideynləri və ya qanuni qəyyumları vasitəsilə məlumat verilməsi və öz müdafiəsinə hazırlaşarkən və bunu həyata keçirərkən hüquqi yardım və digər lazımi yardım göstərilməsi;
III) qanuna uyğun olaraq vəkilin və ya digər müvafiq şəxsin iştirakı ilə məsələyə ədalətlə baxılarkən səlahiyyətli, müstəqil və qərəzsiz orqan, yaxud məhkəmə orqanı uşağın yaşı və ya onun valideynlərinin, yaxud qanuni qəyyumlarının vəziyyəti nəzərə alınaraq həmin məsələ barəsində təxirə salınmadan qərar çıxarsınlar, əgər bu, ən yaxşı maraqlarına zidd deyildirsə;
IV) şahid ifadələri verməyə və ya təqsiri boynuna almağa məcbur edilməkdən azad olmaq; ittiham şahidlərinin verdiyi ifadələrin ya müstəqil surətdə ya da digər şəxslərin köməyilə öyrənilməsi və müdafiə şahidlərinin bərabər hüquqla iştirakının və onların ifadələrlə tanış olmasının təmin edilməsi;
V) əgər hesab edilsə ki, uşaq cinayət qanunvericiliyini pozmuşdur, onda qanuna uyğun olaraq müvafiq qərara və bununla əlaqədar görülmüş hər hansı tədbirlərə səlahiyyətli, müstəqil və qərəzsiz yuxarı orqan, yaxud məhkəmə orqanı tərəfindən təkrar buraxılması;
VI) əgər uşaq istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyi;
VII) məsələyə baxılmasının bütün mərhələlərində uşağın şəxsi həyatına tam hörmət

edilməsi; 3. İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya müqəssir bilinən uşaqlara bilavasitə aid olan qanunlar və qaydalar qəbul olunmasına, orqanlar və müəssisələr yaradılmasına kömək göstərməyə çalışırlar, o cümlədən: a) elə minimal yaş həddi müəyyən edirlər ki, bu həddən aşağı yaşda olan uşaqlar cinayət qanunvericiliyini pozmağa qadir hesab olunmur; b) zəruri və arzu olunan hallarda, insan hüquqlarını və hüquqi təminatları tamamilə gözləmək şərtilə, məhkəmə təhqiqatından istifadə etmədən belə uşaqlarla rəftar üçün tədbirlər görürlər. 4. Uşağa baxılması, qəyyumluq və nəzarət haqqında əsasnamə, məsləhət xidmətləri göstərilməsi, sınaq müddəti təyin edilməsi, tərbiyə verilməsi, təlim və peşə hazırlığı proqramları və tərbiyə müəssisələrində uşağa baxılmasını əvəz edən digər formalarda qayğı göstərilməsi kimi müxtəlif tədbirlərin olması zəruridir. Bundan məqsəd uşaqla elə rəftarı təmin etməkdir ki, bu rəftar üsulu onun rifahına, habelə onun vəziyyətinə və cinayətin xarakterinə uyğun olsun.	
Maddə 41 Bu konvensiyada heç nə uşağın hüquqlarının həyata keçirilməsinə daha çox kömək edən müddəalara və aşağıdakı sənədlərdə ola bilən müddəalara xələl gətirmir: a) iştirakçı dövlətin qanunda; yaxud b) həmin dövlət barəsində qüvvədə olan beynəlxalq hüquq normalarında.	*Ən yüksək normaların tətbiqi* *Müvafiq milli və beynəlxalq qanunlarda uşağın hüquqları ilə bağlı normalar bu Konvensiyada müəyyən edilmiş normalardan yüksək olduqda, ən yüksək normalar tətbiq edilir.*

II HISSƏ Maddə 42 İştirakçı dövlətlər lazımi və təsirli vasitələrdən istifadə edərək, Konvenssiyanın prinsipləri və müddəaları barədə istər yaşlılara, istərsə də uşaqlara geniş məlumat verməyi öhdələrinə götürürdülər. Maddə 43 1. Bu Konvensiyaya müvafiq surətdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsində iştirakçı dövlətlər tərəfindən əldə olunmuş tərəqqini nəzərdən keçirmək məqsədilə Uşaq Hüquqları Komitəsi təsis edilir. Komitə aşağıdakı funksiyaları yerinə yetirir. 2. Komitə yüksək mənəvi keyfiyyətləri olan və bu Konvensiyanın əhatə etdiyi sahədə səriştəliyi ilə tanınmış on ekspertdən ibarət olur. Komitənin üzvləri iştirakçi dövlətlər tərəfindən öz vətəndaşları sırasından seçilir və öz adlarından çıxış edirlər, həm də ədalətli coğrafi bölgüyə, habelə əsas hüquqi sistemlərə diqqət yetirilir. 3. Komitənin üzvləri siyahıya salınmış şəxslər sırasından gizli səsvermə yolu ilə seçilir. Həmin şəxslər iştirakçi dövlətlər tərəfindən irəli sürülür. Hər bir iştirakçı dövlət öz vətəndaşları sırasından bir nəfər irəli sürə bilər. 4. Komitəyə ilk seçkilər bu Konvensiya qüvvəyə mindiyi gündən altı ay gec olmayaraq, sonralar isə iki ildə bir dəfə keçirilir. Hər halda hər seçkilər gününə dörd ay qalmış Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçi dövlətlərə məktubla müraciət edərək, onlara iki ay ərzində öz namizədlərini təqdim etmək təklifi	*Əməletmə və qüvvəyəminmə* *42-54-cü maddələrin əsas müddəaları aşağıdakılardır:* *(I) Dövlət istər yaşlıları, istərsə də uşaqları bu Konvensiyada nəzərdə tutulan hüquqlarla tanış etməyə borcludur.* *(II) Bu Konvensiyanın iştirakçısı olan dövlətlərin məruzələrinə baxmaq üçün on ekspertdən ibarət tərkibdə Uşaq Hüquqları Komitəsi yaradılması; həmin dövlətlər öz məruzələrini bu Konvensiyanı təsdiqlədikdən iki il sonra, bundan o yana isə beş ildən bir təqdim etməlidirlər. Konvensiya qüvvəyə minir, Komitə isə iyirmi dövlət Konvensiyanı təsdiqlədikdən sonra müvafiq surətdə təsis olunur.* *(III) İştirakçı dövlətlər ictimaiyyəti öz məruzələri ilə geniş tanış etməlidirlər.* *(IV)Komitə uşaq olduqları ilə bağlı konkret məsələlər üzrə xüsusi tədqiqatlar aparılmasını təklif edə bilər və onların nəticələrini marağı olan hər bir iştirakçı dövlətin və Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin nəzərinə çatdıra bilər.* *(V) "Konvensiyanın səmərəli həyata keçirilməsinə kömək etmək və beynəlxalq əməkdaşlığa təkan vermək" məqsədilə BMT-nin ixtisaslaşdırılmış idarələri – Beynəlxalq Əmək Təşkilatı (BƏT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı (YUNESKO) və YUNİSEF Uşaq hüquqları Komitəsinin iclaslarında iştirak etmək imkanına malik olacaqlar. Onlar "səlahiyyətli" sayılan hər hansı*

irəli sürür. Sonra Baş katib bu yolda irəli sürülmüş bütün şəxslərin siyahısını əlifba sırası ilə tərtib edir, siyahını bu Konvensiyanın iştirakçısı olan dövlətlərə təqdim edir. 5. Seçkilər Birləşmiş Millətlər Təşkilatının Mərkəzi idarələrində Baş katib tərəfindən çağırılan iştirakçi dövlətlərin müşavirələrində keçirilir. İştirakçı dövlətlərin üçdə iki hissəsinin yetərsay təşkil etdiyi bu müşavirələrdə o namizədlər komitənin tərkibinə seçilmiş sayılırlar ki, onlar səsvermədə olmuş və iştirakçı dövlətlərin nümayəndələrinin səslərinin daha çoxunu qazanmış olsunlar. 6. Komitənin üzvləri dördillik müddətə seçilirlər. Onlar namizədlikləri təkrar irəli sürüldükdə yenidən seçilmək huququna malikdilər. İlk seçkilərdə seçilən beş nəfər üzvün səlahiyyət müddəti iki illik dövrün sonunda bitir; ilk seçkilərdən sonra dərhal beş nəfər üzvün adları müşavirə sədrinin atdığı püşklə müəyyənləşdirilir. 7. Komitənin hər hansı üzvü öldükdə və ya istefa verdikdə, yaxud o, Komitənin üzvü vəzifələrini hər hansı başqa səbəbə görə daha yerinə yetirə bilmədikdə, onda Komitənin həmin üzvünü irəli sürmüş olan iştirakçı dövlət öz vətəndaşları sırasında qalan müddətə digər ekspert təyin edir, bir şərtlə ki, həmin ekspert Komitə tərəfindən bəyənilsin. 8. Komitə öz iş üsulu qaydalarını müəyyən edir. 9. Komitə öz vəzifə şəxslərini iki il müddətinə seçir. 10. Komitənin sesiyaları, bir qayda olaraq, Birləşmiş Millətlər Təşkilatının Mərkəzi idarələrində, yaxud Komitə	*digər orqanlarla, o cümlədən də BMT yanında məsləhətçi statusu olan qeyri-hökumət təşkilatları və BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsi ilə birlikdə Komitəyə müvafiq informasiya verə və Konvensiyanın optimal surətdə yerinə yetirilməsinə dair sorcular ala bilərlər.*

tərəfindən müəyyənləşdirilmiş hər hansı digər münasib yerdə keçirilir. Komitə öz sessiyalarını, bir qayda olaraq, hər il keçirir. Komitənin sessiyasınındavam etməsi müddəti bu Konvensiyanın iştirakçısı olan dölərin müşavirəsində müəyyənləşdirilir və lazım gələrsə yenidən baxılır, bir şərtlə ki, müəyyən edilmiş müddət Baş Məclis tərəfindən bəyənilsin. 11. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Komitənin öz funksiyalarını bu Konvensiyaya müvafiq surətdə səmərəli həyata keçirilməsi üçün lazımi işçilər heyəti və maddi vəsait ayırır. 12. Bu Konvensiyaya müvafiq surətdə təsis edilmiş Komitənin üzvləri Baş Məclsin qoyduğu qayda və şərtlərə Birləşmiş Millətlər Təşkilatının vəsaitindən Baş Məclis tərəfindən təsdiq olunan məbləğdə haqq alırlar.	
Maddə 44 1. İştirakçı dövlətlər Konvensiyada tanınmış hüquqların təsbit olunması sahəsində onların gördükləri tədbirlər haqqında və bu hüquqların həyata keçirilməsində əldə edilmiş tərəqqi haqqında Komitəyə Birləşmiş Millətlər Təşkilatının Baş katibi vasitəsilə məruzələr təqdim etməyi öhdələrinə götürürlər: a) Konsensiya müvafiq iştirakçı dövlət üçün qüvvəyə mindikdən sonra iki il ərzində; b) sonralar hər beş ildən bir. 2. Həmin maddəyə müvafiq surətdə təqdim olunan məruzələrdə bu Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsi dərəcəsinə təsir edən amillər və çətinliklər göstərilir, əgər onlar varsa. Həmin ölkədə Konvensiyanın əhəmiyyətinin tama-	

milə başa düşüldüyündən Komitənin xəbərdar olması üçün məruzələrdə kifayət qədər məlumat da olur. 3. Komitəyə hərtərəfli ilkin məruzə təqdim etmiş olan iştirakçı dövlətə ehtiyac yoxdur ki, bundan əvvəl şərh edilmiş əsas məlumatı bu maddənin 16 bəndinə müvafiq surətdə təqdim olunan sonrakı sənədlərdə təkrarlansın. 4. Komitə iştirakçı dövlətlərdən bu Konvensiyanın həyata keçirilməsinə aid əlavə məlumat istəyə bilər. 5. Komitənin fəaliyyəti haqqında məruzələr İqtisadi və sovial Şura vasitəsilə iki ildə bir dəfə Baş Məclisə təqdim olunur. 6. İştirakçı dövlətlər öz məruzələrinin öz ölkələrində geniş aşkarlığını təmin edirlər.	
Maddə 45 Konvensiyanın səmərəli surətdə həyata keçirilməsinə kömək göstərmək və bu Konvensiyanın əhatə etdiyi sahədə beynəlxalq əməkdaşlığı həvəsləndirmək məqsədilə: a) Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış idarələrinin, Uşaq Fondunun və digər orqanlarının ixtiyarı var ki, bu Konvensiyanın onların səlahiyyətləri dairəsinə daxil olan müddəalarının həyata keçirilməsi məsələlərinə baxılarkən nümayəndə ilə təmsil edilsinlər. Komitə Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış idarələrinə, Uşaq Fonduna və digər mötəbər orqanlarına məqsədəuyğun saydığı halda təklif edə bilər ki, onların müvafiq səlahiyyətləri dairəsinə daxil olan sahələrdə Konvensiyanın həyata keçirilməsi barədə ekspertlərin rəyini təqdim etsinlər. Komitə Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış	

idarələrinə, Uşaq Fonduna və digər orqanlarına təklif edə bilər ki, onların fəaliyyət dairəsinə daxil olan sahələrdə Konvensiyanın həyata keçirilməsi haqqında məruzələr təqdim etsinlər; b) İştirakçı dövlətlərin texniki məsləhət və ya yardım barədə xahiş olan, yaxud buna tələbat duyulduğunu göstərən hər hansı məruzələrini, habelə belə xahiş və ya göstərişlərlə əlaqədar Komitənin irad və təklifləri varsa, bunları Komitə məqsədəuyğun sayarsa Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış idarələrinə, Uşaq Fonduna və digər mötəbər orqanlarına göndərir. c) Komitə Baş Məclisə tövsiyə edə bilər ki, uşaq hüquqlarına aid ayrı-ayrı məsələlər barədə Baş Məclisin adından tədqiqat aparılmasını Baş katibə təklif etsin. d) Komitə bu Konvensiyanın 44-cü və 45-ci maddələrinə müvafiq surətdə alınmış məlumata əsaslanan ümumi xarakterli təklif və tövsiyələr irəli sürə bilər. Ümumi xarakterli belə təklif və tövsiyələr marağı olan hər hansı iştirakçı dövlətə göndərilir və əgər iştirakçı dövlətlərin iradları varsa, bunlarla birlikdə Baş Məclisə məlumat verilir.	
III HISSƏ Maddə 46 Bu Konvensiya onun bütün dövlətlər tərəfindən imzalanması üçün açıqdır.	
Maddə 47 Bu Konvensiya təsdiq edilməlidir. Təsdiqnamələr saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.	
Maddə 48 Bu Konvensiya hər hansı bir dövlətin	

ona qoşulması üçün açıqdır. Konvensiyaya qoşulmaq haqqında sənədlər saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.	
Maddə 49 1. Bu Konvensiya iyirminci təsdiqnamə və ya Konvensiyaya qoşulmaq haqqında sənəd Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa təhvil verildiyi gündən sonra otuzuncu gün qüvvəyə minir. 2. İyirminci təsdiqnamə və ya Konvensiyaya qoşulmaq haqqında sənəd saxlanılmağa təhvil verildikdən sonra bu Konvensiyanı təsdiqləyən və ya ona qoşulan hər bir dövlət üçün bu Konvensiya həmin dövlət öz təsdiqnaməsini və ya ona qoşulmaq haqqında sənədi təhvil qüvvəyə minir.	
Maddə 50 1. İstənilən iştirakçı dövlət düzəliş təklif etmək və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim etmək ixtiyarına malikdir. Sonra Baş katib təklif olunmuş düzəlişi iştirakçı dövlətlərə göndərir və onlardan xahiş edir ki, həmin təkliflərə baxılması və bunlara dair səsvermə keçirilməsi məqsədilə iştirakçı dövlətlətlərin konfransının çağırılıb-çağırılmaması barədə öz fikirlərini bildirsinlər. Əgər belə məlumat verildiyi gündən başlayaraq dörd ay ərzində iştirakçı dövlətlərin ən azı üçdə biri bu konfransın çağırılmasına tərəfdar olduğunu bildirərsə, onda Baş katib konfransı Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə çağırır. Bu konfransda olan və ya iştirak edən iştirakçı dövlətlərin əksəriyyəti tərəfindən qəbul edilmiş hər hansı düzəliş Baş Məclisin təsdiqinə verilir.	

2. Bu maddənin 1-ci bəndinə müvafiq sürətdə qəbul olunmuş düzəliş onu Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi təsdiqlədikdən və iştirakçı dövlətlərin üçdə ikiyə bərabər çoxluğu qəbul etdikdən sonra qüvvəyə minir. 3. Qüvvəyə mindikdən sonra bu düzəliş onu qəbul etmiş iştirakçı dövlətlər tərəfindən hökmən nəzərə alınır, digər iştirakçı dövlətlər isə bu Konvensiyanın müddəalarını və onlar tərəfindən qəbul olunmuş hər hansı əvvəlki düzəlişləri hökmən həyata keçirirlər.	
Maddə 51 1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi dövlətlərin Konvensiyanı təsdiqləməsi və ya ona qoşulması vaxtı onlar tərəfindən irəli sürülmüş qeyd-şərtlərin mətnini alır və bütün dövlətlərə göndərir. 2. Bu Konvensiyanın məqsəd və vəzifələri ilə bir araya sığmayan qeyd-şərtlər irəli sürülməsinə yol verilmir. 3. Qeyd-şərtlər Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərilmiş müvafiq xəbərdarlıq yolu ilə istənilən vaxt ləğv edilə bilər. Sonra Baş katib bu barədə bütün dövlətlərə məlumat verir. Belə xəbərdarlıqdan sonra həmin qeyd-şərtlər qüvvəyə minir.	
Maddə 52 Hər hansı iştirakçı dövlət bu Konvensiyanı Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı xəbərdarlıq göndərmək yolu ilə ləğv edə bilər. Ləğvetmə Baş katib tərəfindən xəbərdarlıq alındığı vaxtdan bir il keçdikdən sonra qüvvəyə minir.	
Maddə 53 Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Konvensiyanın depozitarisi	

təyin edilir.	
Maddə 54 Bu Konvensiyanın əsli saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir, həm də onun ingilis, ərəb, ispan, çin, rus və fransız dillərində olan mətnləri eyni qüvvəyə malikdir. Yuxarıdakıların doğruluğunu təsdiq etmək üçün aşağıda imza atmış səlahiyyətli nümayəndələr – öz hökumətləri tərəfindən həmin məqsədlə lazımi qaydada vəkil edilmiş nümayəndələr bu Konvensiyanı imzaladılar.	

4. Sosial bə iqtisadi hüquqlar. Təhsil hüququ zəruri vasitə kimi. Seçki hüququ

Qənaətbəxş həyat səviyyəsi hüququ. İşləmək və ya iş yerini seçmək hüququ, bərabər əməyə görə bərabər ödəniş hüququ, insanın ləyaqətlə və yaxşı yaşamasını təmin edən ədalətli və qənaətbəxş əməkhaqqı almaq hüququ, həmkarlar ittifaqları yaratmaq hüququ, istirahət və asudə vaxt hüququ – bunlar insanın əsas iqtisadi hüquqlarıdır.

İqtisadi hüquqlar insan üçün təsərrüfat fəaliyyətinin əsas amillərindən sərbəst istifadə etmək imkanını təmin edir.

Hər bir insan qənaətbəxş həyat səviyyəsi hüququna, yəni sağlamlığın qorunması, özünün və ailəsinin normal yaşaması üçün zəruri olan həyat səviyyəsi hüququna malikdir. Bu hüquq uşaqlar üçün xüsusilə vacibdir, belə ki, onun həyata keçirilməsi uşağın fiziki, əqli, ruhi, mənəvi və sosial inkişafına kömək edir.

Qənaətbəxş həyat səviyyəsinə – lazımi miqdarda və keyfiyyətdə ərzaq, paltar, mənzil, tibbi xidmət, habelə sosial təminata nail olmaq hüququ daxildir.

Cəmiyyətdə gündəlik həyat üçün hər bir insana öz əsas tələbatlarının, məsələn, sağlamlığı təmin edən miqdarda ərzaq, paltar, mənzil və s. tələbatların adicə ödənilməsindən əlavə, başqa şeylər də lazımdır. Lakin yaşadığımız bu mürəkkəb və dəyişkən dünyada kifayət qədər yüksək səviyyədə yaşamaq üçün tələb olunan şeylərin miqdarını və müxtəlifliyini təyin edən ümumi qaydaları, yaxud normaları dəqiq müəyyənləşdirmək xeyli çətindir. Axı hər bir cəmiyyətin sosial-mədəni xüsusiyyətləri məhz həmin cəmiyyətə uyğun olan qənaətbəxş həyat səviyyəsini nəzərdə tutur. Lakin bu zaman yadda saxlamaq lazımdır ki, istənilən halda qənaətbəxş həyat səviyyəsinin bərqərar olmasının başlıca prinsipi insan ləyaqətinin alçaldılmasının yolverilməzliyinə əsaslanır. Bu o deməkdir ki, hər bir insanın cəmiyyətdə digər insanlarla sıxıntısız, yaxud məhdudiyyətsiz, öz anadangəlmə ləyaqətini qorumaq, gündəlik qarşılıqlı əlaqənin bərabərhüquqlu üzvü olmaq imkanı olmalıdır. Anadangəlmə ləyaqətə hörmətsizlik və insanın əsas tələbatlarını təmin edən insan hüquqlarının inkarı yolverilməzdir.

Maddi mənada mövcud cəmiyyətdə qənaətbəxş həyat səviyyəsi yoxsulluq dərəcəsindən yüksək olan yaşayış səviyyəsi kimi başa düşülməlidir. Qənaətbəxş həyat səviyyəsi hüququnun verilməsi məsuliyyəti ilk növbədə dövlətin üzərinə düşür. Hətta iqtisadi inkişafı çox yüksək olmayan dövlət öz əhalisi üçün heç olmasa minimum yaşayış səviyyəsini təmin etməlidir. Dövlət, habelə, bu hüququn tədricən tam həyata keçirilə bilməsi üçün öz ölkəsinin inkişafı üzrə səmərəli tədbirlər görməyə borcludur.

Insanın qənaətbəxş həyat səviyyəsini təmin edən hüquqlar – sosial və iqtisadi hüquqlardır. Onlar insan hüquqlarına dair beynəlxalq sənədlərdə - "Insan Hüquqları haqqında Ümumi Bəyannamə"də, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"da, habelə Azərbaycan Respublikası Konstitusiyasında əks olunub.

Bu hüququn uşaqlar barədə həyata keçirilməsi valideynlərin ən ümdə vəzifələrindən biridir. Onlar imkanları daxilində öz uşaqlarının tam fiziki, əqli, mənəvi və sosial inkişafı üçün müvafiq şərait təmin etməyə çalışmalıdırlar.

Minimum yaşayış səviyyəsi istehlak səbətinin dəyər qiyməti, üstəgəl məcburi ödəmə və rüsumlar kimi müəyyən edilir. *Istehlak səbəti* insanın sağlamlığının müdafiəsi və onun həyat fəaliyyətinin qorunması üçün zəruri olan ərzaq məhsullarından, qeyri-ərzaq malları dəstindən və müvafiq xidmətlərdən ibarətdir.

BMT-nin hesablamalarına görə, insanın normal həyat fəaliyyəti və onun həm şəxsi gigiyenası, həm də evində təmizlik yaratması üçün gündə 25-45 litr su tələb olunur. Lakin bu qədər su işlətməyə hamının imkanı yoxdur. Dünyada xeyli miqdarda adam su qıtlığından əziyyət çəkir. İnkişaf etməkdə olan ölkələrdə daim xəstələnmək təhlükəsi ilə üzləşirlər. *Saf sudan istifadə - insanın hüququdur.*

Qida hüququnu (su hüququ daxil olmaqla) təşkil edən əsas tərkib hissələri aşağıdakı üç prinsipdən ibarətdir:

1. Qida (minimum tərkibdə kartof ilə) hamı üçün kifayət qədər olmalıdır. 20-39 yaşlı kişinin sərf etdiyi minimum enerji gün ərzində 1800 kaloriyə, qadınların sərf etdiyi isə 1500 kaloriyə bərabərdir. Əslində isə bu yaş həddində insanların enerjiyə olan tələbatı kişilər üçün 3000 kalori, qadınlar üçün 2200 kalori təşkil edir.

2. Gündəlik minimum qida, heç olmasa, yaxşı keyfiyyəti ilə seçilməli, minimum zəruri vitaminlər və minerallarla zəngin olmalıdır ki, sağlamlıq üçün faydalı olsun və zərər verməsin.

3. Güman edilir ki, bəşəriyyətin ən azı yarısı hələ də doyunca yeməməkdən və ya zəif qidalanmaqdan əziyyət çəkir. 1980-ci ildə BMT-nin Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünya birliyini belə bir fakt qarşısında qoymuşdur ki, Yer kürəsindəki bütün xəstəliklərin 80%-i çirkli sudan istifadə ilə bağlı yaranır. ***Aclıq sərf edilən qidanın çatışmazlığı nəticəsində yaranan fiziki vəziyyətdir.*** Aclığın qurbanı kənar müdaxilə olmadıqda ölür. Aclığın müəyyən edilməsi üçün kəmiyyət meyarı yoxdur. Doyunca yeməmək – aclıq qədər qorxulu vəziyyət deyil, lakin o, orqanizmin ciddi surətdə zəifləməsinə səbəb olur. Doyunca yeməyən şəxs onun həyatı üçün təhlükə doğuran xəstəliklərə asan tutulur. Doyunca yeməmək bəzən çəkinin çatışmazlığı kimi müəyyən edilir.

BMT Nizamnaməsi bu təşkilatın başlıca məqsədlərindən biri olaraq, həyat səviyyəsinin yüksəlməsinə, tam məşğulluğun təmin olunmasına, iqtisadi və sosial tərəqqiyə köməyi müəyyən edir.

Həm büdcə vəsaitinin həcminə, həm də işə cəlb edilmiş personajın sayına görə, bütün dünyada insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş çoxsaylı proqramların həyata keçirilməsi BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Dünya ölkələri varlı (inkişaf etmiş), inkişaf etməkdə olan və yoxsul ölkələrə bölünürlər. Əhalinin 75%-i inkişaf etməkdə olan ölkələrdə yaşayır, 1,3 milyard insan isə dilənçi vəziyyətində ömür sürür. Bu fərqi aradan qaldırmaq müasir dünya qarşısında duran ən vacib problemlərdən biridir. BMT Baş Məclisinin daim qeyd etdiyi kimi, beynəlxalq iqtisadi münasibətlər elə qurulmalıdır ki, inkişaf etməkdə olan ölkələr dünya iqtisadiyyatında layiqli yer tuta bilsinlər.

Beləliklə, sosial və iqtisadi hüquqlar insan tələbatları ilə sıx əlaqəli olub, onun layiqli həyat sürməsi üçün zəruri olan hüquqlardır. Bu hüquqların həyata keçirilməsi dövlətin ehtiyatlarından və iqtisadiyyatın vəziyyətindən asılıdır.

Mülkiyyət hüququ. Mülkiyyət hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq mütləq səciyyə daşıyır. Mülkiyyət hüququnun subyektləri dövlət, fiziki və hüquqi şəxslərdir. Mülkiyyət hüququ əmlakla bağlı mülkiyyət münasibətlərini tənzimləyir.

Qanun bu hüququ istənilən pozuntulardan qoruyur. Mülkiyyət sahibi qanunun yol verdiyi bütün hallarda bu hüquqlardan, istənilən formada istifadə edə bilər. Mülkiyyət hüququ Azərbaycan Respublikasi Konstitusiyasında da öz əksini tapmışdır. Konstitusiyanın 29-cu maddəsində deyilir: "1. Hər kəsin mülkiyyət hüququ vardır. II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. III. Hər kəsin mülkiyyətində daşınan və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətin təkbaşına və başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. IV. Heç kəs məhkəmənin

qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətlə ödəmək şərtilə yol verilə bilər".



İstehlakçının hüququ və onun pozulması qarşısında cavabdehlik. Insanlar istənilən malı alarkən və ya pullu xidmət növlərindən istifadə edərkən istehlakçı qismində çıxış edirlər. Qanun istehlakçı anlayışını dəqiq müəyyənləşdirir. Istehlakçı gəlir əldə etmək məqsədi güdmədən əmtəələri alan və istifadə edən, xidınət və iş sifariş verən vətəndaşdır.

İstehlakçı aldığı əşyanın, məhsulun, ona gostərilən xidmətin keyfiyyətli olmasında maraqlıdır. Bu, istehlakçının keyfiyyət hüququdur. Biz əmin olmalıyıq ki, aldığımız qida məhsulları ekoloji və gigiyenik cəhətdən sağlamlığımız üçün heç bir təhlükə törətməyəcək, yaxud hər hansı bir elektrik cihazı mənzildə yanğına səbəb olmayacaqdır. Bu, istehlakçının təhlükəsizlik hüququdur. Əmtəə, xidmətlər haqqında məlumat almaq informasiya hüququnu özündə əks etdirir. Istehlakçı dəymiş ziyanın ödənilməsi hüququna malikdir. Belə ki, aldığımız hər hansı bir əşya sağlamlığımıza, yaxud əmlakımıza ziyan vurarsa, onun əvəzini bərpa etməyi tələb etmək hüququmuz vardır. Bu dörd məşhur hüquq ilk dəfə ABŞ prezidenti C.Kennedinin 1961-ci ildə Konqresdəki çıxışında səslənmişdir. Ümumdünya İstehlakçılar İttifaqı Təşkilatı həmin sözləri özünün manifestinə çevirmişdir.

Hər birimizin istehlakçı kimi hüquqlarımızın pozulduğu hallar azmı olub?

Ümumdünya İstehlakçılar İttifaqı dünyada istehlakçıların hüquqlarını qorumaqla məşğuldur. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da "İstehlakçıların hüquqlarının qorunması haqqında" Qanun qəbul olunmusdur və istehlakçıların ictimai birliyi fəaliyyət göstərir. Bu qanunla vətəndaşların istehlakçılıq hüququ qorunur, eyni zamanda ticarət təşkilatlarının, xidmətlə məşğul olan sistemin hüquq və vəzifələri müəyyənləşdirilir. Bu məsələ o qədər aktuallıq kəsb etmişdir ki, 1985-ci ildə BMT Baş Məclisi tərəfindən istehlakçıların hüquqlarının müdafiəsi üçün rəhbər prinsiplər müəyyənləşdirilmişdir. Bu prinsiplərin qorunması nəticəsində istehlakçı hüquqları beynəlxalq səviyyədə tanınaraq qanuniləşdirilmişdir.

Təhsil hüququ zəruri vasitə kimi

Təhsil hüququ digər hüquq və azadlıqların həyata keçirilməsi üçün zəruri vasitə kimi. Təhsil almaq, oxumaq insanın əsas hüquqlarından biridir. Çünki oxumaq insanın intellektual tələbatıdır, o həmişə nə isə öyrənmək istəyir. Bilik və bacarıqlar insana özünü cəmiyyətdə inamla aparmağa imkan verir. Təhsil həm də insanın digər hüquq və azadlıqlarının həyata keçirilməsi üçün zəruri vasitədir. Təhsil hüququ insanın kamil inkişafı və onun öz potensialını həyata keçirməsi üçün real və geniş imkanlar yaradır. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"də deyilir: "Təhsil insan şəxsiyyətinin tam inkişafına, insan hüquqlarına və azadlıqlarına ehtiramın artırılmasına yönəldilməlidir".

Təhsil hamı üçün faydalıdır: uşaqlar da, gənclər də, yaşlılar da cəmiyyətdə özlərinə layiqli yer tutmaq, özlərini təsdiq etmək üçün təhsil almalıdırlar. Təhsil uşaqların və gənclərin ağır və təhlükəli əməkdən, habelə müxtəlif növ istismardan qorunmasına imkan yaradır. Təhsil, eyni zamanda, hər bir yeniyetmənin layiqli, azad və təmin olunmuş gələcəyinin rəhnidir.

Təhsil hüququnun əsas xüsusiyyətləri. Təhsil hüququnun bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər təhsilin bütün

forma və səviyyələrində təzahür edərək bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu xüsusiyyətlər aşağıdakılardır:

1. ***Mövcudluq.*** Dövlətin ərazisində kifayət qədər təhsil müəssisəsi, habelə onların fəaliyyət göstərməsi üçün lazımi şərait olmalıdır.

2. ***Mümkünlük***. Təhsil müəssisələri və proqramlar heç bir ayrı-seçkiliyə yol verilmədən hamı üçün mümkün və açıq olmalıdır. Bu xüsusiyyət üçün qarşılıqlı əlaqədə olan üç cəhət səciyyəvidir: a) ayrı-seçkiliyin yolverilməzliyi (yəni təhsil hamı üçün, xüsusilə sosial müdafiəyə ehtiyacı olan qruplar üçün mümkün və açıq olmalıdır); b) fiziki mümkünlük, yəni təhsilin təhlükəsiz fiziki mümkünlüyü, insanın əlverişli coğrafi mövqedə yerləşən təhsil müəssisələrinə getməklə, yaxud müasir texnologiyadan istifadə etməklə təhsil almaq imkanının olması; c)iqtisadi mümkünlük, yəni hər kəsin təhsil almaq imkanının olması; ibtidai təhsilin hamı üçün pulsuz olması, bütün dövlətlərin pulsuz orta və ali təhsil prinsipini həyata keçirməyə can atması. İstisnasız olaraq, bu prinsip bu gün ölkəmizdə tam müvəffəqiyyətlə həyata keçirilir. Çünki bizdə nəinki ibtidai və əsas təhsil, habelə orta və ali təhsil də pulsuzdur.

3. MəqbuIIuq. Təhsilin forma və məzmunu, tədris planları, proqramları və metodları da daxil olmaqla, şagirdlər və valideynlər üçün məqbul olmalıdır. Buraya təlim yükünün səmərəli və əlverişli olması, proqram və dərsliklərin yaş, bilik səviyyəsinə uyğunluğu, istifadə edilən təlim metodlarının fəallığı və çevikliyi, interaktiv və inteqrasiya yönümlü olması və s. daxildir.

4. Uyğunlaşma. Təhsil daim yeniləşən cəmiyyətin tələbatlarına və şagirdlərin sosial-mədəni səviyyəsinə uyğunlaşmağa qadir və çevik olmalıdır.

Azərbaycan Respublikasında vətəndaşların təhsil hüququna onun Konstitusiyasında təminat verilmişdir. Konstitusiyanın 42-ci maddəsində deyilir ki, 1) hər bir vətəndaşın təhsil almaq hüququ vardır; 2) dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir; 3) təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir; 4) maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini

davam etdirməsinə dövlət zəmanət verir; 5) dövlət minimum təhsil standartlarını müəyyən edir.

Ölkəmizdə təhsilin aşağıdakı formaları mövcuddur.

1) Məktəbəqədər tərbiyə

2) İbtidai təhsil. Bu təhsil forması baza təhsilinin ən mühüm tərkib hissəsidir. ibtidai təhsil hamı üçün icbari və pulsuzdur. İbtidai təhsil I-IV sinifləri əhatə edir.

3) Əsas təhsil. Bu təhsil forması baza təhsilini əsasən əhatə edir. Şagirdlər bir sıra fənlər üzrə onlar üçün zəruri olan əsas biliklərə yiyələnirlər. Bu təhsil forması da hamı üçün icbari və pulsuzdur. Əsas təhsili başa vurmuş şagirdlər ***Əsas təhsil haqqında Şəhadətnamə*** alırlar.

4) Orta təhsil. Bu təhsil forması baza təhsilinin başa çatdırılmasını və şəxsiyyətin gələcək təlimi və inkişafı üçün özül yaradılmasını nəzərdə tutur, X-XI sinifləri əhatə edir. Bu təhsil forması da icbari və pulsuzdur. Ölkəmizdə orta təhsil orta ümumtəhsil məktəbləri, gimnaziyalar və liseylər tərəfindən həyata keçirilir. Orta təhsili başa vurmuş şagirdlərə ***Orta təhsil haqqında Attestat*** verilir. Ölkəmizdə orta təhsilin rəsmi sistemi ilə yanaşı, alternativ təhsil proqramlarının tətbiq edildiyi özəl orta təhsil müəssisələri də fəaliyyət göstərir.

5) Texniki-peşə təhsili. Bu təhsil forması da təhsilin tərkib hissəsidir və iqtisadi, sosial, mədəni inkişafın əldə olunmasına kömək edir. Texniki-peşə təhsili əsas və orta təhsilin bazasında formalaşdırılır. TPT gələcəkdə səmərəli əmək məşğulluğuna təminat verir. Texniki-peşə təhsilini peşə liseyləri həyata keçirir.

6) Orta ixtisas təhsili. Baza təhsilinin daha da genişləndirilməsi, təsərrüfatın müxtəlif sahələri üçün kadrların hazırlanmasında mühüm rol oynayır.

7) Ali ixtisas təhsili. Təhsilin bütün forma və səviyyələri üçün ümumi olan xüsusiyyətlər bu təhsil formasında öz əksini tapmışdır. Ali təhsilin cəmiyyətin müxtəlif sosial-mədəni təbəqələrindən olan tələbələrin tələbatlarına cavab verməsi üçün o, tez uyğunlaşan proqramlara və ən müxtəlif təminat formalarına (qiyabi təhsil) malikdir. Ölkəmizdə ali təhsil sisteminin çox geniş şəbəkəsi mövcud-

dur. Ali təhsil dövlət və özəl ali təhsil müəssisələrində həyata keçirilir. Bakalavr pilləsi geniş şəbəkəyə malikdir.

8) Diplomdan sonrakı təhsilə daxildir – magistratura, doktorantura, sərbəst təhsil, ixtisasartırma və kadrın hazırlanması və s.

Təcrübə göstərir ki, təhsil və ölkənin sosial-iqtisadi inkişafı arasında birbaşa əlaqə mövcuddur. Təhsilə xüsusi diqqət yetirən dövlət ən inkişaf etmiş dovlətdir. Eyni zamanda, təhsil yalnız praktik əhəmiyyətə malik deyildir. Yaxşı təhsil almış, geniş və sərbəst düşüncəli, fəal insan daha xoşbəxt və mənalı yaşaya bilər.

XXI əsrdə öz müstəqilliyinin yeni mərhələsinə qədəm qoymuş Azərbaycan dövləti təhsil sahəsində islahatları inamla davam etdirir. Təhsil hüququnun daha dolğun həyata keçirilməsi və dünya təhsil sisteminə inteqrasiya olunması sahəsində atılan addımlar daha da möhkəmləndirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı"na dair sərəncamı bu istiqamətdə həyata keçirilən ən mühüm tədbirlərdən biridir.

Seçki hüququ

Demokratik cəmiyyətdə seçkilər. Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında ***seçkilər*** həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır.

Cəmiyyətin siyasi həyatında seçkilər həmişə aparıcı yer tutmuşdur. Insanlar uzun müddət özlərinə layiqli rəhbər, lider müəyyənləşdirməyin ədalətli formalarını axtarmış, nəhayət, seçki kimi səmərəli forma tapmağa nail olmuşlar.

Müasir demokratiyanın atributu kimi ümumi seçki hüququ əsasında həyata keçirilən seçkilər qəbul edilir. Seçki sisteminin meydana çıxması dünyanın qabaqcıl ölkələrində demokratiya uğrunda mübarizənin genişlənməsinin nəticəsidir.

Seçkilər hakimiyyətin xalq etimadını və müdafiəsini əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Seçkilər və ya referendum zamanı hakimiyyət, faktiki olaraq, seçki məntəqələrinə gedərək öz səsini hakimiyyət orqanlarının nümayəndələrinə verən xalqın əlinə keçir.

Seçkilər hakimiyyətin sistemli olaraq yeniləşməsi vasitəsidir. Bu mühüm vasitə cəmiyyəti ədalətsizlikdən və diktatura təhlükəsindən qoruyur.

Azərbaycan Respublikası vətəndaşları seçmək və seçilmək, referendumda iştirak etmək hüququna malikdirlər. Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə və ümumxalq səsverməsində - referendumda öz əksini tapır. Azərbaycan Respublikası Konstitusiyasına əsasən, Azərbaycan Respublikasının vətəndaşlarının seçmək, seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Lakin məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak hüququ yoxdur. Eyni zamanda, qanun hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilən şəxslərin seçkilərdə iştirakını məhdudlaşdıra bilər.

Ümumi seçki hüququ dedikdə irqindən, milliyyətindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və digər statusundan asılı olmayaraq, Azərbaycan Respublikasının vətəndaslarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ başa düşülür.

Bərabər seçki hüququna aşağıdakılar daxildir: 1) vətəndaşlar seçkilərdə və referendumda bərabər əsaslarla iştirak edirlər; 2) hər bir səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır; 3) vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir.

Birbaşa seçki hüququ dedikdə: a) vətəndaşların seçkilərdə namizədlərin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs vermələri; b) başqa şəxslərin yerinə səs vermələrinin qadağan olunması məsələləri nəzərdə tutulur.

Seçkilər və referendum zamanı səsvermə gizli olmalıdır.

Seçki sisteminin əsas tipləri. Seçki hüququnun həyata keçirilməsində mühüm rol oynayan şərtlərdən biri ***səsverməni təşkil etmək*** formasıdır. Səsvermə prosesini həyata keçirmək üçün tətbiq

edilən konkret seçki forması ***seçki sistemi*** anlayışında öz əksini tapır. *Seçki sistemi* dedikdə vətəndaşların seçkili dövlət orqanlarının seçilməsində iştirakını, habelə seçicilərlə seçkili dövlət orqanlarının üzvləri ara-sında əlaqələri müəyyən edən qaydalar başa düşülür. Hər hansı ölkədə bu və ya digər seçki sisteminə üstünlük verilməsi ölkənin siyasi rejiminin xarakterindən, siyasi sistemindən, sosial-etnik tərkibindən, həyata keçirilən dövlət siyasətindən asılı olur.

Dünya təcrübəsində seçki sisteminin iki əsas tipi – ***majoritar*** və ***proporsional seçki sistemləri*** mövcuddur. Bunlardan əlavə bir sıra ölkələrdə hər iki sistemin ayrı-ayrı ünsürlərini özündə əks etdirən ***qarışıq seçki sistemi*** adlanan forma da tətbiq edilir.

Majoritar seçki sistemi seçki dairələri üzrə çox geniş yayılmış birmandatlı seçki növüdür. Bu seçki sisteminə uyğun olaraq deputatlığa namizəd seçkilərdə fərdi qaydada iştirak etməli və o, seçkili orqana deputat seçilmək üçün seçki dairəsi üzrə deputatlığa namizədlərə nisbətdə daha çox səs toplamalıdır. Bu növ seçkidə siyasi mənsubiyyətindən asılı olmayaraq, qanunla seçmək və seçilmək hüququna malik olan hər bir vətəndaş deputatlığa öz namizədliyini irəli sürmək hüququna malikdir. Majoritar seçki sistemi bir sıra xüsusiyyətləri ilə səciyyələnir. Bu seçki sistemi: birincisi, bir nəfərin timsalında tanınmış hər hansı bir partiyaya deyil, konkret namizədə seçici səslərinin verilməsinə imkan yaradır; ikincisi, seçicilərə deputatlığa namizədi daha yaxından tanımağa şərait yaradır; üçüncüsü, deputat olduğu halda, üzərinə götürdüyü tapşırıqları yerinə yetirməkdə seçicilər qarşısında deputatlığa namizədin mənəvi məsuliyyətini artırır; dördüncüsü, deputata partiyanın göstərişlərini deyil, seçicilərin rəyini və iradəsini rəhbər tutaraq sərbəst və müstəqil şəkildə fəaliyyət göstərməyə təminat verir. Digər tərəfdən isə belə seçkilərin nəticəsində yaranan hakimiyyət çox sabit və möhkəm olur. Majoritar sistem əvvəlcə Fransada tətbiq edilirdi. Hazırda bu sistemdən Kanada, Böyük Britaniya və Hindistanda, son vaxtlar ABŞ-da istifadə edilir.

Proporsional seçki sistemi seçkilərin partiya siyahıları üzrə aparılmasını nəzərdə tutur. Bu sistem mandatların ayrı-ayrı namizədlər üzrə deyil, əldə olunmuş səslərə uyğun olaraq siyahı üzrə proporsional şəkildə bölünməsinə əsaslanır.

Bu sistemin çatışmayan cəhəti ondadır ki, seçilən partiya liderlərinin həmin regionla bilavasitə əlaqələri olmur, onlar bu regionda yaşamırlar. Bu hal isə seçicilərlə seçilənlər arasında qarsılıqlı asılılıq prinsipini pozmuş olur. Əslində xalqı təmsil edən deputatlar yalnız pariya qarşısında məsuliyyət daşıyırlar. Bu sistem İtaliyada, Latın Amerikası ölkələrinin əksəriyyətində, İsraildə, Avstraliyada və Portuqaliyada geniş tətbiq edilir.

Qarışıq seçki sistemi majoritar və proporsional seçki sistemlərinin birləşməsini nəzərdə tutur. Bu sistemdən Rusiya Federasiyasında istifadə olunur. Dövlət Dumasına seçkilərdə deputat yerlərinin sayı bərabər bölüşdürülür. Proporsional sistem uzrə seçkilərdə 5%-lik səddi aşmış partiyalar Dövlət Dumasında təmsil olunmaq hüququ qazanırlar.

Əvvəllər Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər qarışıq seçki sistemi əsasında həyata keçirilirdi. Lakin Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında 2002-ci il avqustun 24-də ümumxalq referendumunda qəbul edilmiş dəyişikliklər nəticəsində Milli Məclisə yalnız majoritar seçki sistemi əsasında seçkilərin keçirilməsi müəyyən edildi.

5. Söz, fikir və vicdan azadlığı

Söz azadlığı. Söz azadlığının zəruriliyi. Demokratik quruluşun, vətəndaş cəmiyyətinin formalaşması prosesinin ayrılmaz tərkib hissələrindən biri söz azadlığıdır. Söz azadlığı insan hüquq və azadlıqları siyahısına daxil olan əsas atributlardan biridir. Söz azadlığı insanın layiqli yaşamasını, onun cəmiyyətin sosial-siyasi həyatında fəal iştirakını təmin edir.

İnsanlar əsrlər boyu söz azadlığı uğrunda mübarizə aparmalı olmuşlar. Söz azadlığı uğrunda senzura (latınca "dövlət nəzarəti" deməkdir) ilə ardıcıl mübarizə İngiltərədə uzun müddət davam etmişdir. Kral zülmünə və anqlikan kilsəsinə qarşı mübarizə aparanların davamçılarından biri, parlament tərəfdarı Con Milton (1608-1674) 1644-cü ildə özünün "Aeropolitika" əsərində əvvəllər kralın etdiyi kimi hərəkət edib mətbuata senzura qoyan parlamentə qarşı çıxdı. Hətta XX əsrin əvvəllərində Lev Tolstoyun bəzi əsərləri "mənəvi-əxlaqi məsələlərə görə" Böyük Britaniyada qadağan edilmişdi.

Azərbaycanda azad sözün təqib olunması tarixi heç də Avropa təcrübəsindən geri qalmır. Orta əsrlərin dissidentlərini həm siyasi, həm də dini hakimiyyət izləyirdi. Məsələn, İmadəddin Nəsimi və onun həmfikirləri cəmiyyətin mənəvi həyatına nəzarət etməli olan ruhanilərin hökmü ilə "küfr" elan edilərək edam olunmuşlar.

Böyük Azərbaycan mütəfəkkiri M.Füzuli azad sözə yüksək qiymət vermiş, onu hərbi qüdrət, var-dövlətə malik olan hokmdarlardan qat-qat güclü və üstün saymışdır.

Çap məhsullarının, teatr tamaşalarının və s.-nin mənəvi və siyasi xüsusiyyətləri üzərində ilkin nəzarət Azərbaycanda Rusiya işğalından sonra tətbiq olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilkin senzura mətbuat haqqında qanunla tam ləğv edilmişdi. Lakin Azərbaycanda bolşevik diktaturası qurulduqdan sonra 70 il müddətində ölkədə insan həyatının bütün sahələri kimi azad söz də ən ciddi nəzarət altına alındı. Sovet hakimiyyətinin ilk onilliklərində minlərcə mütəfəkkir, ədəbiyyat və incəsənət xadimi, hakim ideologiya ilə baxışları üst-üstə düşmədiyi üçün repressiyalara məruz qalmışdı. Bütün nəşriyyatlar, kütləvi informasiya vasitələri dövlətə məxsus idi. SSRİ-də ilkin senzuranı ***Baş Ədəbiyyat İdarəsi*** (rusca Qlavlit) həyata keçirirdi. Sonralar onun adı dəyişdirilərək **Mətbuatda Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi** qoyulsa da, o, bütün dünyada ilk adı ilə məşhurdur.

Azərbaycanda senzura ilə gərgin mübarizə 1988-1989-cu illər milli-azadlıq hərəkatı dövründə, ilk müstəqil qəzetlər yarandıqdan sonra başlandı. Nəticəsi də oldu. Qəzetlər ilkin senzuradan keçmədi. Lakin 1991-1993-cü illərdə ölkədə hökm sürən qeyri-sabit ictimai-siyasi vəziyyət, silahlı dəstələrə arxalanan müxtəlif siyasi qrupların öz iddialarını qeyri-qanuni yollarla gerçəkləşdirmək cəhdləri, Ermənistanın hərbi təcavüzünün doğurduğu ağır sosial-iqtisadi və psixoloji vəziyyət söz və məlumat azadlığının təmin edilməsinə maneələr yaradırdı.

1993-cü ildən etibarən Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informa-

siya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. İndi ölkənin efir-ekran məkanında özəl telekanallar, onlarca radio kanalları sərbəst fəaliyyət göstərir. Çoxsaylı müxalifət qəzetləri heç bir maneə olmadan çıxır.

Dini etiqadlar azadlığı haqqında söhbət gedərkən yadda saxlamaq lazımdır ki, **bu hüquq yalnız ənənəvi din və etiqadların müdafiəsi ilə məhdudlaşmır. O həm də yaxın vaxtlarda yaradılmış dinləri və ya milli azlıqların sitayiş etdikləri istənilən dinləri müdafiə edir.**

Dinə və ya əqidəyə etiqad bəsləmək azadlığı geniş əhatə dairəsinə malikdir. Buraya sitayiş etmə, müəyyən mərasimlərə riayət olunması, məscidlərin və digər dini ibadətgahların inşası, mərasim obyektlərindən istifadə, dini rəmzlərin nümayişi, bayramlara və istirahət günlərinə əməl edilməsi, dini liderləri seçmək azadlığı, pəhriz təlimatlarına riayət olunması, özünəməxsus dildən istifadə, habelə əqidə və etiqadlarının təlimi və təbliği daxildir.

Lakin elə hallar var ki, bu zaman əqidə və ya etiqadın ***ifadəsi azadlığına*** bəzi məhdudiyyətlərin qoyulmasına icazə verilir. Qeyd etmək vacibdir ki, burada söhbət hansısa əqidə və dini etiqadın varlığına qoyulan məhdudiyyətlərdən deyil, məhz əqidə və etiqadın ifadəsinin məhdudlaşdırılmasından gedir.

Məhdudiyyətlər yalnız o hallarda mümkündür ki, bu, qanunla müəyyən edilsin və ictimai təhlükəsizliyin, sağlamlığın və mənəviyyatın, digər insanların əsas hüquqları **və** azadlıqlarının müdafiəsi üçün zəruri olsun. **Əqidə və dini etiqadın heç bir ifadəsində ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa təhrik edən müharibənin, yaxud milli**, **irqi və dini nifrətin təbliğinə yer olmamalıdır.**

Qeyd etmək lazımdır ki, beynəlxalq paktlara görə, **bu məhdudiyyətlər dövlətin milli təhlükəsizliyi mülahizəsi ilə əsaslandırıla bilməz.** Habelə, məhdudiyyətlər ayrı-seçkilik məqsədləri ilə təyin edilə və ya ayrı-seçkilik ruhunda tətbiq edilə bilməz.

Azərbaycan dünyəvi dövlətdir, yəni din dövlətdən ayrıdır və dövlət işlərinə müdaxilə edə bilməz. Ölkəmizdə dini etiqadlar qanun

qarşısında bərabərdir. Azərbaycanda təhsil sistemi də dünyəvi xarakter daşıyır. Təhsil müəssisələrində dini təlim qadağandır.

Demokratik Azərbaycan dövlətinin Konstitusiyası hər bir vətəndaşa vicdan azadlığı verir.

Azərbaycan dini cəhətdən də tolerant ölkədir. Bunu ümummilli lider Heydər Əliyevin Qafqaz müsəlmanlarının XI qurultayına göndərdiyi təbrik məktubundan götürülmüş fikirlər də təsdiq edir: "...Başqa dinlərə dözümlülük, dinc, yanaşı və anlaşma şəraitində yaşamaq İslam dininin nəcib xüsusiyyətlərindən biridir. Bu tarix Qafqazda da, Azərbaycanda da həmişə öz əməli ifadəsini tapmışdır. Biz iftixar hissi ilə deyə bilərik ki, bölgəmizdə dini zəmində heç bir qarşıdurma halları olmamışdır. Belə bir hal Qafqaz müsəlmanlarının həmişə sülh və əmin-amanlığa dəvət edən İslami dəyərlərə sadiq olduğunu əyani şəkildə nümayiş etdirir".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı ilə senzura ləğv edildi. Bu tədbir kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsi üçün mühüm addım oldu.

İctimai rəy və onun məhdudlaşdırılmasına dövlət nəzarəti. Dövlət tərəfindən senzura insan hüquqlarına və azadlıqlarına müdaxilə edir. Senzura insanın əsas azadlıqlarını, məsələn, söz azadlığmı, informasiya əldə etmək azadlığını sarsıdır.

Senzura cəmiyyətdə fikir mübadiləsinə və şəxsiyyətin tamdəyərli inkişafına mane olur. Senzura cəmiyyətin intellektual inkişafı, yeni ideyaların yaranması qarşısında sədd çəkir. Söz, məlumat, fikir azadlığı. İkinci Dünya müharibəsindən sonra bütün demokratik dünyanın diqqətində duran problemlərdən biri oldu. Bu məqsədlə, **"Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"** adlı beynəlxalq səviyyəli hüquqi sənəd qəbul olundu. Bu Paktın 19-cu maddəsində deyilir: "1. Hər bir insanın şəxsi fikrə malik olmaq hüququ vardır. 2. Hər bir insanın öz fikrini sərbəst ifadə etmək

hüququ vardır. Bu hüquqa, dövlət sərhədlərindən asılı olmayaraq, insanın hər cür informasiya və ideyaları axtarmaq, almaq, onları şifahi, yazılı, mətbuat, yaxud bədii ifadə formaları vasitəsi ilə, yaxud da özünün seçdiyi başqa üsullarla yaymaq azadlığı daxildir".

Azərbaycan Respublikasının Konstitusiyasında da fikir, söz və məlumat azadlığına geniş təminat verilmişdir.

Beləliklə, demokratik dövlətlər, informasiya azadlığı bəyan etməklə, senzuranı qadağan edir. Senzuranın qadağan olunması isə fikir və söz azadlığına təminat verir. Fikir və söz azadlığı həm də informasiya əldə etmək azadlığı üçün vacib şərtdir. Cəmiyyətin ictimai-siyasi həyatında fikir və söz azadlığının rolu və əhəmiyyəti böyükdür. Fikir və söz azadlığı olmadan insanların ictimai həyatda normal fəaliyyəti qeyri-mümkündür.

Eyni zamanda, fikir və söz azadlığı vətəndaşların üzərinə məsuliyyət qoyur ki, bu hüquqdan sui-istifadə etməsinlər, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət etsinlər. Qanuna əsaslanan hallarda fikir və söz azadlığı məhdudlaşdırıla bilər. Bu barədə Azərbaycan Respublikasının Konstitusiyasında çox dəqiq ifadə vardır: irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. Eyni zamanda, dövlət sirlərini təşkil edən məlumatların siyahısı qanunla müəyyənləşdirilir.

Vicdan və din azadlığının əhatə dairəsi. Vicdan və din azadlığı hüququ insan hüquqlarının mühüm tərkib hissəsidir və hər hansı bir ədalətli və demokratik cəmiyyətin mükəmməl fəaliyyət göstərməsi üçün zəruri olan əsas hüquqlardan biridir.

Vicdan və din azadlığı insan hüquqları toplusunda və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilib və bu barədə hər bir insan üçün təminatlar verilib. Konstitusiyanın 48-ci maddəsində vicdan azadlığı üçün aşağıdakı təminatlar verilmiş və müvafiq məsuliyyət qoyulmuşdur:

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

III. Dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

Vətəndaşların vəzifə və məsuliyyətləri

Vətəndaşların konstitusiya vəzifələri. Vəzifə insanın zəruri olan haqlı davranışıdır. İnsanın davranış normaları cəmiyyətin və başqa insanların maraqlarına uyğun olmalıdır. Cəmiyyət, əsasən, insanlar arasında yaranan davranış qaydaları ilə idarə olunur. Davranış qaydalarının bir hissəsi dövlət tərəfindən müəyyən edilir və qanunlarda öz əksini tapır. Onların pozulmasına görə məsuliyyət nəzərdə tutulur. Davranış qaydalarının başqa bir qismi isə əxlaq normalarına əsaslanır.

Bu qaydaların pozulmasına görə dövlət məcburetmə və məsuliyyət nəzərdə tutmur. Bu pozuntular ictimai təsir vasitələri tətbiq etməklə aradan qaldırılır.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin 2-cu maddəsində deyilir: "Hər bir insan yalnız öz şəxsiyyətinin tam inkişafı mümkün olan cəmiyyətin qarşısında vəzifə daşıyır…". Azərbaycan Respublikasının Konstitusiyası da vətəndaşlar qarşısında konstitusiya vəzifələri qoyur: "Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri daşıyır" (Maddə 29).

Dövlət qarşısında hüquq və azadlıqdan yaranan vəzifələrin yerinə yetirilməsi dedikdə, hüquqa əsaslanan tələblərin icrası başa düşülür. Cəmiyyət qarşısında hüquq və azadlıqlardan yaranan vəzifə dedikdə, həm qanunlardan, həm əxlaq normalarından, həm də davranış qaydalarından irəli gələn vəzifələrin icrası nəzərdə tutulur.

Konstitusiyaya əsasən, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Konstitusiyanın 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. **Vergi fiziki və hüquqi şəxslərdən tutulan məcburi,**

fərdi və əvəzsiz, ödəmə həcmi və müddəti dövlət tərəfindən müəyyən edilən ödənişdir.

Konstitusiyanın 74-cü maddəsinə əsasən, vəzifəyə seçilmək və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər. Vətənə sədaqət əxlaqi baxımdan hər kəsdə vətənpərvərlik hisslərinin olması ilə müəyyən edilir.

Konstitusiyanın 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. Dövlət rəmzləri – bayraq, gerb və himn Azərbaycan Respublikasının beynəlxalq hüququn subyekti kimi tanınmasında mühüm rol oynayan atributlarıdır. Hər bir Azərbaycan vətəndaşı dövlət rəmzlərinə hörmətlə yanaşmalı və onların adını uca tutmalıdır. Dövlət bayrağı, gerbi və himni barəsində hörmətsizlik göstərilməsi həm cəmiyyətin əxlaq normaları, həm də beynəlxalq hüququn hamılıqla tanınmış normaları ilə bir araya sığmır.

Dövlət rəmzləri barəsində təhqiredici hərəkətlərin edilməsi Azərbaycan dövlətinin nüfuzuna qarşı yönəldilmiş əməllər kimi qiymətləndirilir. Belə hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə cinayət məsuliyyətinə səbəb olur.

Konstitusiyanın 76-cı maddəsinə əsasən, vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla bərabər, həm də onun müqəddəs borcudur.

Konstitusiyanın 77-ci maddəsinə əsasən, tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur. Tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə edilməsi ilə bağlı münasibətlər 1998-ci il 10 aprel tarixli ***"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında"*** Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Bu nıənada, tarix və mədəniyyət abidələrinin qorunması, onların elmi təd-qiqi və təbliği üçün zəruri olan qurumların yaradılması dövlətin ən əsas vəzifələrindən biridir.

Konstitusiyanın 78-ci maddəsinə əsasən, ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Hər bir insan özünün fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə və ətraf mühitlə təmasda olur. Bu baxımdan, hər kəs istər məişətdə, istərsə də istirahət zamanı ətraf mühitin qorunması vəzifəsini yerinə yetirməlidir.

Ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsasları **"Ətraf mühitin mühafizəsi haqqında"** 1999-cu il 8 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.



Konstitusiyanın 79-cu maddəsinə əsasən, heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına yol verməməlidir.

Vətəndaşların məsuliyyəti. Hüquq və vəzifələrin vəhdəti. Konstitusiyanın 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsulliyyətə səbəb olur.

Cəmiyyətdə qanunun aliliyinin təmin olunmasında, hüquq qaydalarına əməl olunmasında hər bir qanun pozuntularına görə məsuliyyətin müəyyən edilməsinin böyük əhəmiyyəti vardır. Beləliklə, hüquq və vəzifələr vəhdət təşkil edir. Hər bir vətəndaş öz hüquqlarını yaxşı bilməli və onlara əməl olunmasını tələb etməklə yanaşı, öz vəzifələrini də yaxşı bilməli, onları yerinə yetirməlidir. Hüquq və vəzifələr ilə vətəndaşların öz hərəkətləri və məsuliyyəti arasında birbaşa əlaqə vardır. Həm öz hüquqlarından istifadə etmək, həm də öz vəzifələrini yerinə yetirmək eyni

dərəcədə mühümdür. Təəssüf ki, aramızda elələri var ki, öz hüquqlarını tələb etdikləri halda, vəzifələrini yerinə yetirmirlər. Belələri hər işin dovlət tərəfindən görüləcəyini zənn edir, kənardan müşahidəçilik mövqeyi tuturlar. Bu isə vətəndaşın Konstitusiya ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsinə səbəb olur.

İnsanın hüquq mədəniyyəti

Hüquq mədəniyyəti nə deməkdir? Cəmiyyətdə qüvvədə olan qanunlar hər bir şəxsin hüquqlarını müdafiə edir, eyni zamanda şəxsi mənafe naminə digər insanların hüquqlarını qadağan edir. Buna görə də siz ümumi maraqlardan çıxış etməyi və problemin həllinə konstruktiv yanaşmağı öyrənməlisiniz.

Siz yalnız o zaman başqalarının hüquqlarına hörmət bəsləyəcəksiniz ki, özünüzə hörmət etməyi bacarasınız. Həm də insanın hüquqlarını öyrənməklə siz özünüz də müstəqillik hisslərinin və öz gücünüzə olan inamın möhkəmləndirilməsinə nail olacaqsınız. Ona görə də hüquqi dövlət quruculuğu şəraitində əhalinin hüquqi və siyasi mədəniyyətə yiyələnməsi çox mühüm əhəmiyyət kəsb edir.

Hüquqi dövlətdə qanunun aliliyi yalnız dövlət aparatı tərəfindən onun təmin edilməsinin dönməzliyində ifadə olunmur. O habelə onun sərəncamlarına vətəndaşların əməl etməsinə inamın olmasını nəzərdə tutur. Çünki qanun xalqın iradəsini təmsil edir. Heç kim özünün qanundan güclü, üstün olduğunu sübut etməyə çalışmamalıdır. Əslində bütün münaqişələr qanunların pozulması ilə başlayır. Məhz buna görə də bütün vətəndaşlar qanunun aliliyini və insan hüquqlarını müqəddəs bilməli, yalnız həqiqətə xidmət ruhunda tərbiyə olunmalıdırlar. Demokratik dövlətdə insanın hüquqlarından və qanunun aliliyindən yüksək heç nə ola bilməz. Elə buna görə də insanlarda vətəndaş duyğusunun tərbiyəsi, insana, cəmiyyətə və qanunlara hörmət hissinin aşılanması, bir-birindən və dövlətdən həmin qanunlara sözsüz əməl etmək tələbi demokratik qüvvələrin ən mühüm vəzifələrindəndir. Əxlaq və vətəndaş duyğusu isə hüquqi dövlətin təməl daşıdır.

Hüquq mədəniyyəti necə formalaşdırılır? Siz gənclərdə, eləcə də əhalinin digər təbəqələri içərisində, Azərbaycan Respublikasının milli hüquq sahələri haqqında dərin bilik formalaşdırılmalıdır. Təhsil

müəssisələrində, iş yerlərində, qəzet və jurnallarda, radio və televiziya verilişlərində hüquqi biliklərin təbliği fasiləsiz və davamlı aparılmalıdır. Hüquqi biliklərin məqsədyönlü təbliği vətəndaşların hüquq biliklərinə, hüquq tərbiyələrinə, ümumiləşdirilmiş şəkildə desək, onlarda hüquq mədəniyyətinin formalaşmasına motiv yaradır. Buna görə də orta məktəb şagirdləri tarix kurslarını, "Insan və cəmiyyət" fənnini dərindən mənimsəməlidirlər. Məhz həmin fənlərin məzmununda şagirdlərdə hüquq mədəniyyətini formalaşdıra biləcək kifayət qədər material var.

Hər bir gənc bilməlidir ki, hüquq, hüquq qaydası, hüquq düşüncəsi, hüquq münasibəti, hüquq mədəniyyəti, eləcə də siyasi mədəniyyət nədir.

Hüquq dövlət tərəfindən qorunan ümumi-məcburi sosial normalar sistemidir. Hüquq dövlətlə sıx bağlıdır. Bununla da o, dövlətəqədərki cəmiyyətdə davranış qaydalarından, habelə digər normativ sistemlərdən (məsələn, əxlaqdan) fərqlənir. Hüququn köməyi ilə dövlət hakimiyyətini əldə saxlayan sosial qüvvələr adamların və insan kollektivlərinin davranışını nizamlayır, ictimai münasibətlərin müəyyən dairəsini məcburi münasibətlər kimi təsbit edir.

Hüquq qaydası ictimai həyatın müxtəlif sahələrini nizamlayan və öz aralarında xarakterinə və adamların davranışına təsir vasitəsinə görə (adət, əxlaq norması, ictimai təşkilatların qaydaları və s.) fərqlənən müxtəlif növ sosial normaların həyata keçirilməsi nəticəsində əmələ gəlir. Hüquq qaydası dövlətdə müəyyən edilmiş qaydada qəbul edilən normalarla nizamlanır.

Hüquq düşüncəsi hüquqi dövlət quruculuğunda müstəsna əhəmiyyət kəsb edir. Ona görə ki, hüquq düşüncəsi – adamların, sosial qrupların hüquqa, qanunçuluğa, ədalət mühakiməsinə münasibəti, onların nəyin hüquqi və nəyin hüquqa zidd olması haqqında təsəvvürlərini ifadə edən görüşlərin, ideyaların məcmuyudur.

Hüquq mədəniyyəti tarixi inkişaf gedişində əldə edilmiş və yenidən təkrar olunan hüquq sərvətlərinin (prinsiplərin, normaların, kateqoriyaların, biliklərin, hüquqi, texniki, hüquqi-təşkilati normaların) məcmuyudur. Geniş mənada hüquq mədəniyyəti hüquqi cəmiyyətin ümumi mədəniyyəti ilə bağlı olmasını və bu mədəniyyətin həmin cəmiyyətin hüquq sistemində ifadə olunması səviyyəsini bildirir. Hüquq mədəniyyəti siyasi mədəniyyətlə sıx bağlıdır. Hüquq mədəniyyəti qüvvədə olan hüququn (məzmununa və formasına görə), qanunçuluğun, ədalət mühakiməsinin, hüquq düşüncəsinin səviyyəsi ilə, eləcə də, ictimai şüurun hüquqa münasibəti ilə müəyyən edilir.

IX FƏSİL
HÜQUQ VƏ DÖVLƏT

1. Konstitusiya quruluşu. İnsan hüquqlarının qorunmasında dövlətin rolu. Ombudsman

Qədim yunan şəhər-dövlətlərində ***müstəqil demokratiya*** adlandırılan hakimiyyət forması mövcud idi. Bu elə hakimiyyət formasıdır ki, burada hər bir vətəndaş şəhərin (ölkənin) əsas məsələlərinə dair qərar qəbul edilməsində iştirak edir və bu qərarı (qanunu) həyata keçirir. Müstəqil demokratiya başqa ölkələrdə də xalq yığıncağı şəklində mövcud idi. Buna, məsələn, Novqorod boyar respublikasında veçe adlanan xalq yığıncağını, yaxud Azərbaycanda Car-Balakən camaatlığındakı xalq yığıncağını misal göstərmək olar. Bu nümunələrdə xalq yığıncağı qanunvericilik funksiyaları daşıyırdı.

Zaman keçdikcə müstəqil demokratiyadan hakimiyyət forması kimi istifadə halları azalmağa başladı. Onun yerini demokratik dövlətlərdə *nümayəndəli demokratiya* tutdu. *Nümayəndəli demokratiya idarəetmənin elə formasıdır ki, burada vətəndaşlar siyasi qərarların qəbul edilməsi, qanunların yaranması və onların həyata keçirilməsi üçün rəsmi şəxslər seçirlər.* Yəni qərar qəbul etmək məsuliyyətini seçdiyimiz adamlara həvalə edir, bunula da onlara müvafiq vəzifələr tapşırmış oluruq. Belə demokratiya şəraitində hökumətin qərar qəbul edə bilməsi üçün onun istinad edə biləcəyi müəyyən qaydalar olmalıdır, yəni dövlətin əsas qanunu olan konstitusiya olmalıdır ki, dövlət quruluşunu, hakimiyyət strukturlarını, eləcə də, qərar qəbul eləmə qaydalarını müəyyənləşdirsin.

Müasir dövlətlərin çoxunun konstitusiyası var. Konstitusiyası olmayan dövlətlərdə isə idarəetmə adət-ənənələrə, dini qaydalara əsasən yerinə yetirilir. Bir qayda olaraq, konstitusiyalar uzun müddətə qəbul edilir və nadir hallarda dəyişdirilir. Bu dəyişiklik daha çox müharibələr, inqilablar və ya ölkənin siyasi kursunun kəskin şəkildə dəyişilməsi nəticəsində baş verə bilər. Məsələn,

Almaniya Federativ Respublikasının, İtaliya və Yaponiyanın konstitusiyaları bu ölkələrin İkinci Dünya müharibəsində məğlubiyyətindən sonra qəbul edilib. ABŞ Konstitusiyası isə əksinə, 200 ildən çoxdur ki, fəaliyyət göstərir.

Böyük Britaniyada məsələ başqa cürdür. Burada konstitusiyaya bənzər bir sənəd yoxdur. Ölkənin idarə olunması uzun illərdən bəri ənənələrin və ayrı-ayrı qanunların əsasında həyata keçirilir. Bunlar isə birlikdə heç də hər hansı bir rəsmi sənəddən pis işləmir.

İndi isə gəlin konstitusiya quruluşuna tərif verək. *Konstitusiya quruluşu* insanların və vətəndaşların hüquq və azadlıqlarına əməl olunmasına yönəldilmiş elə bir qaydadır ki, burada dövlət konstitusiyaya uyğun fəaliyyət göstərir. 9.1.saylı sxemdə Konstitusiyanın əsas tərkib hissələrini ümumiləşdirmişik:

Sxem 9.1.



Konstitusiya quruluşu. Konstitusiya quruluşu əsas iqtisadi münasibətlər, əsas sosial münasibətlər, əsas siyasi münasibətlər, şəxsiyyətin hüquqi statusları kimi tərkib hissələrdən ibarətdir.

Konstitusiya quruluşunu müəyyən edən ünsürlər. Hər bir ölkənin konstitusiya quruluşunun özünənəxsus xüsusiyyətləri vardır. Bu, hər şeydən əvvəl, konstitusiya quruluşunu müəyyən edən əsas ünsüriərlə bağlıdır. Bu ünsürlər konstitusiya quruluşunun əsas tərkib hissələri baxımından ümumiləşdirilir. Bizim ölkəmiz də konstitusiya quruluşuna malik olduğundan, həmin ünsürləri onun

nümunəsində nəzərdən keçirək. Bu ünsürlər aşağıdakılardan ibarətdir:

- Konstitusiyanın aliliyi;
- xalq hakimiyyəti;
- xalqın suverenliyi;
- sosial və dünyəvi dövlət prinsipləri;
- azad iqtisadiyyat və iqtisadi həyatın müxtəlifliyi;
- şəxsiyyətin hüquqi statusunun əsasları;
- hakimiyyətin bölünməsi;
- siyasi və ideoloji plüralizm;
- yerli özünüidarəetmənin təşkili;
- respublika idarəçilik forması;
- mülkiyyətin müxtəlif formalarının müdafiəsi.

Azərbaycan tarixində konstitusiya məsələləri. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkəmizin Konstitusiyası qəbul edilməsə də, konstitusiyanın 1918-ci il mayın 28-də Tiflisdə Milli Şuranın qəbul etdiyi **"İstiqlaliyyət bəyannaməsi"** əvəz etmişdir.

"İstiqlaliyyət bəyannaməsi"ndə göstərilirdi:

- Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər. Cənubi və Şərqi Qafqazdan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.
- Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik cümhuriyyətdir;
- Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır;
- Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşların vətəndaşlıq və siyasi hüquqlarını təmin edir;
- Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişaf üçün geniş imkanlar verir;
- Müəssislər Məclisi çağırılana kimi bütün Azərbaycanın idarəsi başında ümumi səsvermə yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət

durur.

Sovet Rusiyasının 28 aprel işğalından sonra Azərbaycanın ictimai və dövlət quruluşunda mövcud olmuş qaydalar ləğv edildi və Sovet rejiminin formalaşmasına başlandı. Azərbaycanın sovetləşməsi başa çatdıqdan sonra 1921-ci ildə Azərbaycan SSR-in Bakıda keçirilən Birinci Sovetlər qurultayı Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. Əsasən, RSFSR Konstitusiyasının təkrarı olan bu Konstitusiya xalqa geniş hüquqlar vəd etsə də, formal səciyyə daşıyırdı. Çünki Sovetlərin fəaliyyətinə bütün mərhələlərdə Moskvadan Rusiya Kommunist Partiyası tərəfindən istiqamətləndirilən AK(b)P rəhbərlik edirdi. Üstəlik, ölkədə fəaliyyət göstərən bütün siyasi partiyalar qadağan olunmuşdu. Bununla da Kommunist partiyasının diktaturası yaranmışdı. *Digər* tərəfdən xalqın ziyalı təbəqələrinin, "fəhlə-kəndli hakimiyyəti yaratmaq" pərdəsi altında, faktiki olaraq, sovetlərə seçilmək hüququndan məhrum edilməsi sovetləri Kommunist partiyasının əlində itaətkar alətə çevirdi. Beləliklə, işğaldan keçən bir il ərzində bolşeviklərin qanlı qırğınlarla müşayiət olunan zorakı tədbirləri nəticəsində Şimali Azərbaycanda, guya, konstitusiyaya əsaslanan hakimiyyət orqanları formalaşdırıldı, Sovet Sosialist demokratiyası bərqərar oldu. Əslində isə Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti ilə müqayisədə, yeni yaradılan demokratiya formal və yalançı demokratiya, sözün əsl mənasında kommunist diktaturası idi. Odur ki, dünyanın ən qabaqcıl dünyəvi, demokratik respublikaları ilə bir sırada dayanan və xalqın dövlətçilik zəkasının layiqli bəhrəsi olan AXC-nin süqutu və onun dövlət idarəçiliyi strukturlarının dağıdılması Azərbaycan xalqının tarixində ən ağır faciələrdən biri idi.

1937-ci ildə IX fövqəladə Azərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasını təsdiq etdi. Konstitusiyanın 3-cü maddəsinə görə, Azərbaycan SSR-də hakimiyyət zəhmətkeş deputatlar sovetinə məxsus idi. Həmin hakimiyyət respublikanın siyasi əsasını təşkil edirdi.

Bu konstitusiya 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasının təkrarı idi.

Azərbaycan SSR-in sonuncu Konstitusiyası 1978-ci ildə qəbul edildi.

Konstitusiyanın 73-cü maddəsinə görə, Azərbaycan SSR-in dovlət dili Azərbaycan dili idi. Azərbaycanın SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsinin təmin edilməsi, onun hərtərəfli inkişafına dövlət qayğısı göstərilməsi Konstitusiyada təsbit edilmişdir.

Bu, həmin dövr üçün çox böyük iş, cəsarətlə atılmış bir addım idi. Çünki SSRl-nin milli siyasətinin dönmədən şovinist səciyyə daşıdığı bir dövrdə respublikanın ali qanununa belə bir müddəanın daxil edilməsi Sovet milli siyasətinin tələblərinə uyğun deyildi. Bu şərəfli vəzifənin öhdəsindən o vaxtlar Azərbaycana rəhbərlik edən Heydər Əliyev gəldi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Bu sənədə görə, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisi elan olundu. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsinin imzalandığı andan etibarsız olması göstərildi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsini hazırlamaq üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradılmışdı. Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul edilmiş və noyabrın 27-də qüvvəyə minmişdir.

Yeni Konstitusiya ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması işinə hüquqi zəmin yaratdı. Əsas Qanunda dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsinə, vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və s. kimi nailiyyətlər təsbiq olunmuşdur.

Kommunizm quruculuğunu özünün ali məqsədi elan edən keçmiş Sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini döviətin ali məqsədi hesab edir. Konstitusiya bu deklarativ norma ilə kifayətlənməyərək, başqa bir maddədə insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə bir vəzifə olaraq qoyur.

Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri insan və vətəndaş hüquqlarına və azadlıqlarına geniş yer ayrılmasıdır. Bununla əlaqədar, Konstitusiyada aşağıdakı ideyaların təcəssümü öz əksini tapmışdır: 1) beynəlxalq təcrübə nəzərə alınmaqla əsas insan və vətəndaş hüquqlarının təsbit edilməsi; 2) Konstitusiya ilə normalaşdırılmış əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarnın həyata keçirilməsi, təmin edilməsi və müdafiəsi üçün zəruri olan müvafiq icra mexanizminin və strukturlarının yaradılması.

Əsas Qanunumuzda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur. Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir. Bir çox beynəlxalq hüquqi sənədlər Azərbaycan Respublikası Konstitusiyasının insan hüquq və azadlıqlarını təsbit edən üçüncü fəslinin əsasını təşkil edir.

Konstitusiya sosial-siyasi, iqtisadi və mədəni həyatda baş verən keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

Bu Konstitusiya quruluşuna və məzmununa görə inkişaf etmiş demokratik dövlətlərin konstitusiyalarına çox oxşardır. Hakimiyyətin bölünməsi prinsipinin təsbit edilməsi, ayrı-ayrılıqda qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyətlərinin və yerli özünüidarəetmə orqanlarının statusunun müəyyən edilməsi həmin oxşarlığı səciyyələndirən başlıca xüsusiyyətlərdir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildikdən sonrakı dövr ərzində Milli Məclis tərəfindən ölkə həyatının bütün

sahələrini əhatə edən, dünya standartlarına cavab verən bir sıra qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, Avropa Şurasına üzv olmuşdur.

Baş vermiş bu dəyişikliklərdən, demokratik dəyərlərin inkişafına yönəldilmiş bir sıra islahatlardan irəli gələn hüquqi tənzimləmə öz əksini Konstitusiyada tapmalı idi. Bununla əlaqədar olaraq, Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən, 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi.

Xalqın yekdil iradəsinin nəticəsi olaraq Konstitusiyada edilmiş 24 dəyişikliyin hər biri dövrümüzün reallığından irəli gəlir və müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsinə xidmət edir. Bu dəyişiklikləri sərti olaraq dörd qrupa bölmək olar. ***Birinci qrupa*** insan hüquqları və azadlıqları, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə bağlı dəyişikliklər daxildir. ***İkinci qrup*** ölkədə aparılmış nıəhkənıə islahatları nəticəsində yaranmış yeni hüquqi münasibətlərin Konstitusiyada əks olunması zərurətindən irəli gələn dəyişiklikləri əks etdirir. ***Üçüncü qrup*** dəyişikliklər seçki sisteminin dəyişdirilməsi ilə bağlıdır. ***Dördüncü qru*pa** Azərbaycanda hakimiyyət bölgüsü normalarına uyğunlaşdırılması və bununla əlaqədar a1i qanunverici orqanların səlahiyyətlərinin yenidən müəyyənləşdirilməsi zərurətindən irəli gələn dəyişikliklər daxildir.

İnsan hüquqlarının qorunmasında dövlətin rolu

İnsan hüquqlarının subyekti. Siz artıq insan hüquqları haqqında müəyyən biliklər əldə etmisiniz. Ümumiyyətlə götürdükdə, hüquqlara malik olmaq və konkret halda insan hüquqlarına malik olmaq nə deməkdir? Biz hüquq haqqında söhbət açarkən, ilk növbədə, bu hüququn sahibini, yəni hüququn subyektini nəzərdə tuturuq. İnsan hüquqlarından danışanda, subyekt, sözsüz ki, insandır.

Hüququn subyekti olmaq müəyyən tələblərin, yəni nəyisə əldə etmək iddiasının olması deməkdir. Hüquqlar strukturunun

birinci elementi dedikdə, subyektin iddiası başa düşülür. Əgər onu insan hüquqları ilə bağlasaq, onda bu, insanın müəyyən azadlıqlara, müdafiəyə və ya müəyyən nemətlərə nail olmaq iddiasıdır.

Əgər iddialar mövcuddursa, onda haqlı olaraq düşünə bilərik ki, bu nemətləri əldə etmək imkanları da olmalıdır. İmkanlar dedikdə, insanın öz iddialarından asılı olaraq müəyyən azadlıqlara, müdafiəyə və nemətlərə nail olması mümkünlüyü başa düşülür. İmkanlar hüququn strukturunun ikinci elementidir.

İnsan hüquqlarının əsas mənbəyi insanın anadangəlmə ləyaqəti sayıla bilər. Bununla belə, hazırda müxtəlif beynəlxalq və milli sənədlər insanın müəyyən azadlıqlar, müdafiə və nemətlər almaq iddialarına hüquqi əsas verir.

İnsan hüquqlarının obyekti. Hüququn obyekti hüquq strukturunun sonuncu elementini təşkil edir. Əgər hüquq obyekti yoxdursa, onda subyektin hər hansı bir hüquqa malik olmaq iddiası öz mənasını itirir. Hüquq obyekti hüququn mənbəyi əsasında subyektin iddialarını qəbul etməli və subyektə, onun üçün zəruri olan nemətləri verməlidir.

Yuxarıda deyilənləri ümumiləşdirməklə, insan hüquqlarının aşağıdakı tərifini vermək olar. ***İnsan hüquqlarına malik olmaq, insanın konkret hüquq səlahiyyətli mənbənin əsasında hüquq obyektindən müəyyən nemətləri almaq iddiasnın olması imkanıdır.***

Yaxşı, bəs burada hüququn obyekti kimdir? İnsanı cəmiyyətdə müdafiə etmək və qorumaq vəzifəsi kimin ixtiyarına verilir? İnsan hüquqlarına əməl olunması üzrə başlıca məsuliyyət dövlətin üzərinə düşür. Bu məsuliyyət insan hüquqlarına əməl etmək haqqında dövlətin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlikdən irəli gəlir. Bu öhdəliyin əhəmiyyəti getdikcə artır. Hazırda açıq şəkildə bu öhdəlikdən imtina edən dövlət tapmaq çətindir.

İnsan hüquqlarına riayət edilməsinə görə, dövlətin məsuliyyətinin üç əsas tərkib hissəsini hörmət, müdafiə və bu cür hüquqların verilməsi öhdəlikləri təşkil edir.

İnsan hüquqlarına hörmət etmək öhdəliyinin dövlət tərəfindən pozulması hakimiyyət nümayəndələrinin insan hüquqlarının bilavasitə pozulmasına səbəb olan birbaşa hərəkətlərindən və ya bu cür qanunlardan, məhkəmə orqanlarının müvafiq qərarlarından irəli gəlir.

İnsan hüquqlarını müdafiə etmək öhdəliyinin dövlət tərəfindən pozulması insanların əsas hüquq və azadlıqlarını qorumaq üçün bütün zərıiri tədbirləri görməkdən imtina etməsi nəticəsində baş verir. Əgər dövlət insanın əsas hüquq və azadlıqları üçün bütün zəruri addımları atmaqdan imtina edirsə, bu halda insana onun hüquqlarını vermək öhdəliyinin pozulması baş verir.

İnsan hüquqlarına əməl olunması sahəsində başlıca məsuliyyətin dövlətin üzərinə qoyulması qanunauyğundur. Çünki hər bir insanın hüqııq və azadlıqlarının həyata keçirilməsi imkanı daha çox dövlətə məxsusdur. Belə ki, hər bir insanın ləyaqətlə və layiqincə yaşamaq imkanına təsir edə bilən bütün qaydaların formalaşdırılması məhz dövlətdən asılıdır.

Müasir dovrdə insan hüquqlarının qorunmasında və davamlı inkişafın tənıin edilməsində transmilli korporasiyaların öhdəlik və vəzifələri. Müasir dünyada çağdaş və gələcək nəsillərin insan hüquqlarının qorunmasında dövlət və ictimai təşkilatlarla yanaşı, *transmilli korporasiyaların (TMK)* da rolu artmaqdadır. TMK-lar milli dövlətlərin hüdudlarından kənara çıxan iqtisadi qurumlardır və son 30-40 ildə xüsusilə inkişaf etmişlər. Bu super şirkətlərin imkanları bir çox hallarda inkişaf edən ölkələrin maliyyə və texnoloji imkanlarını kölgədə qoyıır. TMK-lar, bir qayda olaraq, fəaliyyət göstərdiyi ölkələrdə həm dövlət qurumları ilə, vətəndaş cəmiyyəti ilə yanaşı, həm də onun bir hissəsi olan ictimai təşkilatlarla sıx əlaqə qurur. Aydındır ki, hər hansı TMK, yaxud ayrıca şirkət dövlətin öhdəsində olan vəzifələri və ya ictimai təşkilatların insan hüquqları ilə əlaqədar öhdəliklərini öz üzərinə götürə bilməz. TMK-lar insan hüquqlarına dair dövlət və qeyri-dövlət təşkilatları və ictimaiyyət ilə əməkdaşlıq edirlər və bu əməkdaşlıq korporativ siyasət adlı sənədə əsaslanır. Müasir dövrdə hər bir TMK belə siyasətin işlənilməsini və onun şəffaf şəkildə

həyata keçirilməsini təmin etməkdədir. İnsan hüquqlarının qorunması bu siyasətin ayrılmaz bir hissəsidir. İnsan hüquqları yalnız siyasi və ya layiqli əmək hüququ ilə məhdudlaşdırılmır. TMK-ların korporativ siyasəti, eyni zamanda, gələcək nəsillərin ən mühüm insan hüquqlarından olan ətraf mühitin qorunmasını və insanların əlverişli təbii mühitdə yaşama qabiliyyətini də nəzərdə tutur.

İnsan hüquqlarının həyata keçirilməsində mühüm əhəmiyyət daşıyan sosial mühitin, yəni yaşayış üçün əlverişli şəraitin yaradılması korporativ siyasətin ayrılmaz bir hissəsidir və insan hüquqlarının təmin edilməsində mühüm rol oynayır. Korporativ siyasətin bu bölməsi ***sosial məsuliyyətli fəaliyyətə*** aiddir. Sosial məsuliyyətli fəaliyyət anlayışı TMK-larının korporativ siyasətinə son illərdə daxil edilmişdir və insan hüquqlarının həyata keçirilməsi ilə sıx əlaqədardır. Sosial məsuliyyətli fəaliyyətin məqsədi həm TMK-nın daxilində, həm də ondan kənarda yüksək yaşayış standartlarına nail olmaqdır. Bu məqsədləri həyata keçirərkən sosial məqsədlər, yəni insanların həyat standartlarının yaxşılaşdırılması gəlir götürməkdən üstün tutulur. Qeyd etmək lazımdır ki, ölkəmizdə neft strategiyasının həyata keçirilməsində BP şirkəti tərəfindən idarə edilən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təbii və sosial mühitin yaxşılaşdırılmasına yönəldilmiş bir sıra uğurlu layihələr həyata keçirmişdir. BP və onun tərəfdaşları bu istiqamətdə fəaliyyətlərini davam etdirirlər.

TMK-ların fəaliyyətinin korporativ siyasət çərçivəsində aparılmasına və sosial məsuliyyətli olmasına baxmayaraq, bəzi hallarda onların fəaliyyət göstərən layihələri çərçivəsində də insan hüquqlarının pozulma ehtimalı mövcuddur. Bunların qarşısını almaq üçün TMK və onların təmsilçiləri ilə əmək müqavilələri bağlanan zaman insan hüquqlarının pozulma ehtimalını törədə bilən bütün bəndlər aradan götürülməlidir.

TMK-larını insan potensialının inkişafında və bu yolla insanların hüquqlarının pozulma ehtimalının qarşısının alınmasında oynadığı rol da böyük ola bilər. Korporasiyaların ölkələrə gətirdiyi yeni bilik və bacarıqlar, müasir texnologiyalar və idarəetmə üsulları da

sosial məsuliyyətli fəaliyyətin və davamlı inkişafın vacib amillərindəndir.

Ombudsman

Azərbaycanda hüquq və azadlıqların qorunması. Dünya ölkələrinin əksəriyyətində insan hüquqları dövlət və beynəlxalq qanunvericiliyi ilə qorunur.

Azərbaycan Respublikası Konstitusiyası təsbit edir ki, hər bir kəsin doğulduğu andan toxıınulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Göründüyü kimi, burada hüqııq və azadlıqları əhatə edən üç mühüm anlayış öz əksini tapmışdır. Hüquq və azadlıqların ***"toxunulmaz"*** olması dedikdə, humanizm və ədaləti özündə əks etdirən insanlıq və əxlaqın əldə etdikləri dəyərlər əsasında insanın mənəviyyatını və şərəfini qoruyan amillər başa düşülür. Hüquq və azadlıqların ***"pozulmaz"*** olması anlayışı qanunla müəyyən edilmiş hüquq və azadlıqların lıər hansı hüquqazidd, qanunsuz hərəkət nəticəsində pozulmasının yolverilməz olduğunu əks etdirir. Hüquq və azadlıqların ***"ayrılmaz"*** olması anlayışı isə heç bir ayrı-seçkiliyə yol verməməklə ölkədə yaşayan insanların bərabər hüquqlarının mövcudluğu, qanun qarşısında bərabərlik kimi başa düşülməlidir.

Azərbaycan Respublikası Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir (24-cü maddə). Konstitusiya habelə insan hüquqlarının məhkəmədə müdafiəsinə (60-cı maddə) və hüquqi yardım almaq hüququna (61-ci maddə) təminat verir.

Konstitusiyanın insan hüquqları və azadlıqlarına dair nəzərdə tutduğu bütün müddəalar qanun tərəfindən dolğunluqla qorunur və müdafiə edilir. Eyni zamanda, Konstitusiya, hüquq və azadlıqları insanların cəmiyyət qarşısındakı borc və vəzifələrindən təcrid olunmuş halda təsəvvür etmir. Belə ki, Konstitusiyada göstərilir ki, "Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir". Bu o deməkdir ki, hər bir kəs öz hüquq və azadlıqlarından dolğun və sərbəst istifadə etməklə yanaşı, cəmiyyət və insanlar qarşısında öz borcunu yaddan

çıxarmamalıdır. Hər bir şəxs öz hüquq və azadlıqlarından irəli gələn hər hansı vəzifəni yerinə yetirməlidir.

Azərbaycan dövləti irqindən, milliyyətindən, mövqeyindən, dilindən, cinsi mənsubiyyətində, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi və ictimai mənşəyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir, hər hansı bir məhdudiyyətə yol verilməsini qadağan edir.

Bunlarla yanaşı, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun olması Konstitusiyada təsbit olunur.

Konstitusiyaya əsasən, hər kəsin azadlıq hüququ vardır, qanuni əsaslar mövcud olmadıqda insan azadlıqdan məhrum edilə bilməz. Insan cinayət hərəkətinə yol verdiyinə görə tutula, həbs oluna və ya azadlıqdan məhrum edilə bilər. Lakin bunların hər biri üçün qanuni əsasların olması tələb olunur. Məsələn, insan cinayət etdiyi vaxtda, yaxud bunu törətdikdən sonra yaxalana və tutula, yaxud həbsə alına bilər. Insan tutulduqda onun hansı cinayət əməlinə, yaxud təqsirli hərəkətə yol verməsi izah olunmalı, protokol tərtib edilməli və o, vəkillə təmin edilməlidir. Əgər o, həbs olunarsa, mütləq bu barədə məhkəmənin qərarı olmalıdır. Hökm çıxarılana qədər ittiham olunanı cinayətkar adlandırmaq olmaz. Şəxsin azadlıqdan məhrum edilməsinə yalnız məhkəmənin hökmü olduqda yol verilir.

İnsan hüquqları üzrə müvəkkil (Ombudsman). Ombudsman təsisatı ilk dəfə 1809-cu ildə İsveçdə yaradılmışdır. Bu söz isveç dilində "vəzifəli şəxs" anlamını verir. Müasir dövrdə isə Ombudsman İnsan hüquqları üzrə müvəkkil təsisatı kimi anlaşılır.

Ombudsmana ayrı-ayrı ölkələrdə fərqli münasibət bəslənir. Məsələn, bu təsisat Hollandiyada "Milli Ombudsman", Fransada "Vasitəçi", Kanadada "Vətəndaş qoruyucusu", İspaniyada "Xalq müdafiəçisi", İtaliyada "Vətəndaş müdafiəçisi" adları daşıyır. Lakin o, hansı ad altında fəaliyyət göstərməsindən asılı olmayaraq, bütün dövlətlərdə insan hüquqlarının müdafiəsi ilə məşğul olan təsisatdır.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə **"İnsan hüquqları üzrə müvəkkil"** — ombudsman sistemi

2002-ci ildə təsis edilmişdir. İlk ombudsman vəzifəsinə Elmira Süleymanova seçilmişdir.

Ombudsman təsisatı keçmiş SSRİ ərazisində yaranmış dövlətlər, o cümlədən Azərbaycan Respublikası üçün tamamilə yenilikdir. Lakin bu təsisat dünya təcrübəsində insan hüquqlarını müdafiə edən orqanlar sistemində mühüm yer tutur. Demokratik prinsiplərin, insan hüquqlarının yaxşı qorunduğu ölkələrdə hüquqi quruculuq baxımından bu təsisatın əhəmiyyəti böyükdür.

Qanuna əsasən, müvəkkilin mühüm səlahiyyətlərindən biri maneəsiz olaraq və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti orqanlarına daxil olmaqdır. Onu vəzifəli şəxslər dərhal qəbul etməlidirlər. Ombudsmanı digər hüquq müdafiə mexanizmlərindən fərqləndirən mühüm cəhət ondan ibarətdir ki, o, insanların maneəsiz, heç bir rüsum ödəmədən, bilavasitə və tez bir zamanda müraciət edə bildiyi, bürokratik maneələrdən uzaq olan, hüquq pozuntusuna qısa müddətdə reaksiya verən, şikayətlərə operativ baxan hüquq müdafiə mexanizmidir.

Ombudsman dedikdə, parlament tərəfindən insanın hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, lakin onlar tərəfindən qəbul edilmiş qərarları dəyişdirmək hüququ olmayan, etibarlı və layiqli vəzifəli şəxs başa düşülür.

Ombudsman təsisatı nə qanunverici, nə icra, nə də məhkəmə hakimiyyətinə aid olmayan, lakin öz mahiyyətinə görə dövlətin ali təsisatlarına aid orqandır. Ombudsmanın birinci səciyyəvi əlaməti onun tam müstəqilliyidir. Dünya təcrübəsinə görə, bu orqan parlament tərəfindən təsis olunur və onun qarşısında hesabat verir. Ombudsman, funksiyalarını vətəndaşların tələbləri və şikayətləri üzrə öz şəxsi təşəbbüsü ilə həyata keçirir. Ombudsmanın hüquq statusu Konstitusiya və digər hüquqi aktlarla müəyyən edilir. Adətən, ombudsman parlament tərəfindən, onun səlahiyyətləri müddətinə seçilir. Ombudsmanın əsas iş üsulu vətəndaşların ərizə və şikayətlərini araşdırmaqdır. Bu işdə ombudsmanın səlahiyyətləri kifayət

qədər genişdir. O, müvafiq aktları yoxlamaq üçün tələb edə, sənədlərlə tanış ola, vəzifəli şəxslərdən və vətəndaşlardan izahat ala bilər.

Ombudsman, bir növ vətəndaşlar ilə dovlət arasında qanun pozuntularının aradan qaldırılması üçün vasitəçi rolunda çıxış etsə də, o, qəbul edilmiş inzibati qərarı dəyişdirə bilməz, lakin bu məqsədlə o, təqdimat, təklif və Konstitusiya Məhkəməsinə şikayət yolu ilə, yaxud cinayət işinin qaldırılmasına dair təşəbbüslə müvafiq müraciət edə bilər. Hər ilin sonunda məlumat və müvafiq qərar qəbul edilməsi üçün ombudsman parlamentə müraciət də edə bilər.

Müvəkkilin (ombudsmanın) namizədliyinə dair bir sıra tələblər movcuddur. Bunu aşağıdakı 9.2. saylı sxemdən də görmək olar.

Sxem 9.2.



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkil vəzifəsi dövlət və yerli özünüidarə orqanları, habelə vəzifəli şəxslər

tərəfindən pozulan insan hüquqlarının bərpa edilməsi üçün təsis edilir. Müvəkkil ictimaiyyət qarşısında hörmət qazanmış, böyük mənəvi nüfuza malik olan şəxslər arasından Prezident tərəfindən irəli sürülür və Milli Məclisdə seçilir.

Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır (şikayəti insan hüquqları pozulmuş şəxsin razılığını almadan qeyri-hökumət təşkilatları da verə bilər).

Şikayət insan hüquqlarının pozulduğu andan, yaxud hüquqları pozulmuş şəxs hüquqlarının pozulduğunu bildiyi andan bir il müddətində təqdim edilə bilər.

Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayət senzuradan keçirilmədən 24 saat müddətində müvəkkilə göndərilməlidir.

Müvəkkilin şikayətlə bağlı dövlət məmurlarına ünvanlanmış sorğusuna onlar 10 gün ərzində cavab verməlidirlər.

Hər ilin axırında müvəkkil il boyu toplanmış şikayətləri vahid hesabata salır və Respublika Prezidentinə təhvil verir. Bundan sonra müvəkkil hesabatı parlament qarşısında oxuyur və hesabat dövlət mətbuat orqanında dərc olunur.

Əlbəttə, heç bir məmur öz adını bu cür hesabatda görmək istəməz. Müvəkkilin ədalətsizliklərə qarşı mübarizə mexanizmi də əsasən bundan ibarətdir. Bundan başqa, müvəkkil qanunların demokratikləşməsi ilə bağlı parlament və Konstitusiya Məhkəməsi qarşısında təkliflər irəli sürə bilər.

Ombudsman tarixinə bir nəzər. Ombudsman təsisatı İsveçdə qəbul edilsə də, onun kökü daha uzaqlara gedib çıxır. İsveç kralı XII Karl Şimal müharibəsinin həlledici döyüşündə - Poltava döyüşündə məğlub olmuş və Osmanlı dövlətinə sığınmışdı. O, bir neçə il burada mühacirətdə yaşamağa məcbur olmuşdu. Ölkədə vəziyyətə nəzarət etmək üçün XII Karl sonradan Ombudsman adlandırılan "Şikayət bürosu" yaratmışdı. İsveçə qayıtdıqdan sonra həmin təsisat XII Karla geniş bir hesabat təqdim etmişdi. Bu hesabatda

vətəndaşların şikayətləri, aparılan təhqiqatlar və s. geniş şərh olunmuşdu. Bundan razı qalan kral belə bir nəzarətçinin – ölkə idarəçiliyində faydalı olacaq Ombudsman qurumunun təsis edilməsinə dair qərar qəbul edir. 1809-cu ildən etibarən həqiqi fəaliyyət göstərən hüquqi qurumq çevrilib.

1971-ci ildə Vyanada Skandinaviya ölkələrində mövcud olan Ombudsman təsisatı kimi bir orqanın təsis edilməsi qərara alındı. Hazırda dünyanın 100-dən artıq dövlətində Ombudsman təsis edilmişdir. Avropa Birliyində **Avropa Birliyi Ombudsmanı** adlı təsisat fəaliyyət göstərir.

2. İnsan hüquqlarının müdafiəsi üzrə əsas Beynəlxalq İnstitutlar. İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlər

İnsan hüquqları haqqında təməl sənədlər. İnsan hüquqları haqqında təməl sənədlər insan hüquqları üzrə beynəlxalq sistemin əsas hissəsini təşkil edir. Bu sistemin üstünlüklərindən biri də ondan ibarətdir ki, o, həm də ***müdafiə mexanizminə*** malikdir. Sözsüz ki, belə bir mexanizm funksiyasını ***insan hüquqları üzrə beynəlxalq institutlar*** yerinə yetirir.

Bu cür institutların yaradılması və onların fəaliyyəti əksər hallarda beynəlxalq əhəmiyyətli sənədlərdə və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuşdur. Insan hüquqları üzrə mərkəzi təşkilatlara BMT (Birləşmiş Millətlər Təşkilatı), Avropa Şurası və ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) daxildir. Bu mövzuda onların fəaliyyət mexanizmi nəzərdən keçiriləcəkdir.

BMT. İnsan hüquqları üzrə mərkəzi təşkilatlar. BMT-nin əsas vəzifələrindən biri də insan hüquqlarının həyata keçirilməsinə kömək etməkdir. BMT-nin bu sahədəki fəaliyyəti insan hüquqları üzrə beynəlxalq standartların hazırlanması və inkişaf etdirilməsindən, geniş miqyaslı nəzarət mexanizmlərinin həyata keçirilməsindən ibarətdir. Bu problemlə BMT-nin işi iki sistem əsasında aparılır: a) BMT Nizamnaməsinə əsaslanan mexanizmlər; b) BMT-nin insan hüquqları üzrə başlıca müqavilələrinə əsaslanan mexanizmlər.

BMT Nizamnaməsinə əsaslanan insan hüquqları üzrə məsələlər əsasən BMT Baş Məclisinin, iqtisadi və Sosial Şuranın, habelə Katibliyin səlahiyyətlərinə aiddir.

Baş Məclisin BMT Nizamnaməsi çərçivəsində insan hüquqları ilə əlaqədar məsələləri də müzakirə etmək səlahiyyəti var. BMT-nin Baş Məclisi insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, insan hüquqlarının və əsas azadlıqların həyata keçirilməsinə və daha da inkişaf etdirilməsinə kömək edir. ***İqtisadi və Sosial Şuranın*** əsas vəzifəsi yüksək həyat səviyyəsinin, iqtisadi və sosial tərəqqinin əldə edilməsini, insan hüquqları və azadlıqlarına hərtərəfli hörmət edilməsini və ona riayət olunmasını təmin etmək üçün BMT-nin üzv dövlətlərinin və ixtisaslaşdırılmış idarələrinin səylərini əlaqələndirməkdən ibarətdir.

1994-cü ildə İnsan Hüquqları üzrə Ali Komissar vəzifəsi təsis edilmişdir. Ali Komissar insan hüquqları sahəsində fəaliyyətin əlaqələndirilməsi, insan hüquqlarının BMT sistemi vasitəsi ilə həyata keçirilməsi və müdafiəsi üzrə əsas məsul şəxsdir. Ali Komissarın vəzifələrindən biri də bütün dünyada insan hüquqlarının tam həyata keçirilməsi yolunda maneələri aradan qaldırmaq və insan hüquqlarının pozulmasının qarşısını almaqdan ibarətdir.

Təhlükəsizlik Şurasına sülhün pozulmasına və ya onun ciddi təhlükəyə məruz qalmasına səbəb ola biləcək hallarda, o cümlədən, insan hüquqlarının geniş miqyasda və kütləvi surətdə pozulması hallarında zəruri tədbirlər görmək hüququ verilmişdir.

İnsan Hüquqları üzrə Komissiyanın başlıca vəzifəsi insan hüqıqları üzrə beynəlxalq mexanizmləri inkişaf etdirmək, ayrı-ayrı dövlətlərdə insan hüquqları ilə əlaqədar vəziyyəti qiymətləndirmək və bu məsələlər üzrə hesabat və tövsiyələr verməkdən ibarətdir.

İnsan Hüquqları iizrə Yardımçı Komissiya, **adından** göründüyü kimi, Insan Hüquqları üzrə Komissiyanın köməkçi orqanıdır. Yardımçı komissiya insan hüquqları üzrə beynəlxalq standartların müstəqil ekspertlərdən təşkili, insan hüquqlarının pozulması hallarının nəzərdən keçirildiyi xüsusi proseduralardan istifadə zamanı, xüsusilə böyük əhəmiyyət kəsb edir.

BMT-nin insan hüquqları üzrə «müqavilə mexanizmi»nin təməlini insan hüquqları üzrə altı beynəlxalq müqavilə təşkil edir. Bu mexanizmə həmin müqavilələrin yerinə yetirilməsinə nəzarət üçün yaradılmış altı komitə daxildir. Bunlar aşağıdakı komitələrdir:

İnsan hüquqları üzrə Komitə mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti həyata keçirir. ***İqtisadi, sosial və mədəni hüquqlar haqqında Komitə*** iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti həyata keçirir. ***İrqi ayrıseçkiliyin ləğv edilməsi üzrə Komitə*** irqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın həyata keçirilmə-sinə nəzarət edir. ***Qadınlar barəsində ayrıseçkiliyin ləğv edilməsi üzrə Komitə*** qadınlar barəsində ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın həyata keçirilməsinə nəzarət edir. ***İşgəncələr əleyhinə Komitə*** işgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə Konvensiyanın yerinə yetirilməsinə nəzarət edir. ***Uşaq hüquqları üzrə Komitə*** uşaq hüquqları haqqında Konvensiyanın təyin etdiyi öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir.

Bütövlükdə götürdükdə, bu komitələr müvafiq konvensiyalar üzrə iştirakçı dövlətlərin götürdükləri öhdəliklərin necə yerinə yetirilməsinə nəzarət edirlər. Dövlətlər müntəzəm olaraq, bu öhdəliklərin yerinə yetirilməsi haqqında komitələrə xüsusi hesabatlar təqdim etməlidirlər. Bu komitələrdən dördünün (Uşaq hüquqları üzrə Komitə və İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə istisna edilməklə) əsas xüsusiyyəti bundan ibarətdir ki, onlar iştirakçı dövlətlər əleyhinə fərdi şikayətləri qəbul etmək səlahiyyətinə malikdirlər.

Avropa Şurası. Avropa Şurası 1949-cu ildə yaradılmış dövlətlərarası təşkilatdır. Təşkilatın əsas prinsipləri insan hüquqlarının müdafiəsi, plüralist demokratiya, qanunun aliliyi, Avropanın mədəni müxtəlifliyinin qorunması və inkişafıdır.

Avropa Şurasının insan hüquqları problemləri ilə məşğul olan bir sıra əsas orqanlarını və onların funksiyalarını nəzərdən keçirək:

Nazirlər Komitəsi – insan hüquqları və azadlıqlarının müdafiəsi üzrə dövlətlərin öhdəliklərinin yerinə yetirilməsinə nəzarət edən mərkəzi rəhbər orqandır.

Baş Katiblik – təşkilatın fəaliyyətini, o cümlədən, insan hüquqları məsələləri üzrə işini əlaqələndirən, eyni zamanda, insan hüquqları üzrə Avropa Konvensiyasına qoşulan dövlətlərdən ratifikasiya sənədlərini qəbul edən orqandır. Baş Katiblik iştirakçı dövlətlərin milli qanunvericiliklərinin insan hüquqları üzrə Avropa standartlarına uyğunluğu məsələləri ilə də nıəşğul olur.

Bıı siyasi orqanlardan əlavə, Avropa Şurası sisteminə Avropa müqavilələri əsasında yaradılan orqanlar da daxildir.

Avropa Şurası çərçivəsində qəbul edilən mühüm sənədlər arasında 1950-ci il Insan hüquqlarının və əsas azadlıqların nıüdafiəsi haqqında Avropa Konvensiyası əsas yeri tutur. Konvensiya insanın ayrılmaz hüquqlarının azadlıqlarını təyin edir və üzv dövlətlərin yuridiksiyasında olan bir vətəndaşın bu hüquq və azadlıqlarının təmin edilməsi vəzifəsini həmin dövlətlərin öhdəsinə qoyur.

İnsan hüquqları üzrə digər mühüm sənəd 1961-ci ildə qəbul edilən Avropa Sosial Xartiyasıdır. Bu sənədin müddəalarının icrasına nəzarəti lıəyata keçirən əsas orqan Müstəqil Ekspertlər Komitəsidir. Komitə üzv dövlətlərin öz öhdəliklərini yerinə yetirməsi üzrə hesabatlarını nəzərdən keçirir.

Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) 1975-ci ildə Avropa dövlətlərinin, habelə ABŞ və Kanadanın iştirakı ilə yaradılmışdır. Onun iştirakçısı olan dövlətlər Helsinkidə Yekun Aktını imzaladılar. Bu akt Avropanın müharibədən sonrakı sərhədlərini pozulmaz elan edir və insan hüquqlarına hörmət prinsipini Avropanın təhlükəsizlik sisteminin dayaqlarından biri kimi qəbul edirdi. O cümlədən, Yekun Aktı bu ideyaya əsaslanırdı ki, öz vətəndaşlarının hüquqlarını pozan andan beynəlxalq meydanda sülhsevər siyasət yürüdə bilməz.

Helsinki Yekun Aktı ***"səbətlər"*** deyilən üç əsas qrupdan ibarət tövsiyələri nəzərdə tutur.

Tövsiyələrin birinci qrupu **(I** səbət) təhlükəsizliyin hərbi-siyasi aspektlərini əhatə edir. Buraya üzv dövlətlərin öz ikitərəfli və çoxtərəfli

münasibətlərində rəhbər tutmalı olduqları beynəlxalq hüququn bu prinsipləri daxildir. Bu prinsiplərdən ikisi – fikir, vicdan, din və əqidə azadlıqları da daxil olmaqla, insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsi, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipləri insan hüquqları ilə bağlıdır.

İkinci qrup **(II** səbət) iqtisadiyyat, texnika və ətraf mühit də daxil olmaqla bir sıra sahələrdəki əməkdaşlığa həsr olunub.

Üçüncü qrup **(III** səbət) humanitar və digər sahələrdə əməkdaşlığı, habelə insan hüquqları üzrə məsələləri əhatə edir.

Bilavasitə ATƏT-in fəaliyyətdə olan sədri tərəfindən fəaliyyəti əla-qələndirilən insan hüquqları ilə məşğul olan orqanlar aşağıdakılardır:

Demokratik institutlar və İnsan Hüquqları üzrə Büro. Bu orqan insan hüquqları üzrə institutların yaradılmasına köməklik göstərməkdə fəal rol oynayır, milli hüquq institutlarına texniki yardım göstərir, qeyri-hökumət təşkilatlarının formalaşmasına və mülki cəmiyyətin inkişafına kömək edir, insan hüquqları sahəsindəki vəziyyətə nəzarət edən müşahidəçilərin hazırlığı ilə məşğul olur.

Milli Azlıqların İşləri Üzrə Ali Komissar. Milli azlıqlarla əlaqədar böhranlı vəziyyətləri təhlil edir və bu böhranın qarşısını mümkün qədər erkən mərhələdə almaq üçün müvafiq tədbirlər görür. Məsləhətləşmələr keçirmək və tövsiyələr hazırlamaq yolu ilə tərəfləri məsələni münaqişəsiz həll etməyə sövq edir.

Kütləvi İnformasiya Vasitələrinin Azadlığı Məsələiəri üzrə ATƏT-in nümayəndəsi. O, bu sahədəki vəziyyəti daim müşahidə etməlidir. Bu orqan kütləvi informasiya vasitələri barədə ATƏT çərçivəsində qəbul edilən prinsip və öhdəliklərin iştirakçı dövlətlər tərəfindən ciddi pozulması hallarına dərhal münasibət bildirməlidir.

Missiyalar və Yerlərdə Digər Fəaliyyət Formaları. Bu orqan münaqişələrin uzun müddətə qarşısının alınması, böhranlı vəziyyətlərin tənzimlənməsi, münaqişələrin həlli və münaqişədən sonrakı dövrdə regionda ATƏT-in fəaliyyətinin bərpası üçün onun başlıca alətidir. Yardıma ehtiyacı olan ölkələrdə ATƏT-in fəal iştirakını təmin edən missiyalar siyasi qərarları konkret hərəkətlərə çevirmək mexanizmi rolunu oynayır.

İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlər

Avropa Məhkəməsi. İnsan hüquq və azadlıqarını qoruyan ən etibarlı institutlardan biri Avropa İnsan Hüquqları Məhkəməsidir**,** yaxud qısaca, Avropa Məhkəməsidir. O, 1959-cu ildə yaradılmışdır. Bu məhkəmə 1959-cu il noyabrın 4-də Romada qəbul edilmiş insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın zəmanət verdiyi hüquqları pozulmuş üzv dövlətlərin, onların vətəndaşlarının, qeyri-hökumət təşkilatlarının şikayətlərinə baxır. Avropa Məhkəməsini Avropa Şurasının Parlament Assambleyası formalaşdırır. O, Avropa Şurasına üzv olan ölkələrin sayına müvafiq yaradılır. Hakimlər 5 il müddətinə seçirlər. Hakimlərin yarısı üç ildən bir yenidən seçilir. Vaxtı bitmiş hakimin yenidən seçilməsi hüququ saxlanılır. Avropa Məhkəməsinin mənzil qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Məhkəməsi **Komitə** (3 hakim), **Palata** (7 hakim) və **Yuxarı Palata** (17 hakim) kimi orqanlarını yaradır və onların vasitəsilə fəaliyyət göstərir. Vətəndaşı Avropa Məhkəməsinə şikayət edən dovlətdən seçilmiş hakim mütləq Palataya və Yuxarı Palataya daxil edilir.

Şikayətlə Avropa Məhkəməsinə müraciət etmək üçün müəyyən qaydalara əməl etmək lazımdır. Məsələn, əgər Azərbaycan Respublikası vətəndaşı Avropa Məhkəməsinə şikayət etmək istəyirsə, əvvəlcə dövlətin bütün hüquq müdafiə vasitələrindən yararlanmağa çalışmalıdır. Əgər vətəndaşın şikayəti rədd edilərsə, ən yuxarı məhkəmə qərar çıxardıqdan sonrakı 6 ay ərzində o, Avropa Məhkəməsinə müraciət edə bilər. Onu da nəzərə almaq lazımdır ki, Avropa Məhkəməsinə Konvensiya və onun protokollarında göstərilən hüquqları dovlət tərəfindən pozulan şəxslər müraciət edə bilərlər. Avropa Məhkəməsi şəxslərə və qeyri-hökumət təşkilatlarına qarşı şikayət ərizəsini qəbul etmir. Avropa Məhkəməsində şikayətlərə baxılması bir neçə mərhələdən keçir.

Əvvəlcə komitə işə baxılmasının zəruri olub-olmaması haqqında qərar qəbul edir. Komitənin qərarında işə baxılması zəruri hesab edilirsə, onda Palata işin mahiyyəti üzrə məsələyə baxır. Palata iş haqqında qəti qərar qəbul edir. Bu qərarla razılaşmayan tərəf işə baxılmasını Yuxarı Palatadan xahiş edir. Yuxarı Palatanın qərarı tərəflər üçün həlledicidir.

Avropa Məhkəməsində vətəndaşların şikayətlərinə baxılması qaydasını əks etdirən 9.3. saylı sxem:

Sxem 9.3.



Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 700 min nəfərdən çox Azərbaycan Respublikası vətəndaşı məcburi köçkün vəziyyətinə düşmüşdür. Onların siyasi, sosial, iqtisadi və mədəni hüquqları işğalçı Ermənistan dövləti tərəfindən pozulmuşdur. Hər bir məcburi köçkün bu hüquqların bərpası ilə əlaqədar olaraq Avropa Məhkəməsinə müraciət edə bilər. Bunun üçün o, əvvəlcə Məhkəmənin Katibliyinə məktub göndərir. Məktubda şikayətin qısa xülasəsi pozulmuş hesab etdiyi hüquqları, istifadə edilən müdafiə vasitələri, rəsmi dövlət orqanları tərəfindən çıxarılan qərarların siyahısı və qısa məzmunu verilir. Məktubda göstərilən sənədlərin surətləri də əlavə olunur. Şikayət Avropa Məhkəməsi tərəfindən qəbul edilərsə, Məhkəmə katibi məcburi köçkünə şikayətin anket nümunəsini göndərir. Bu anket doldurulub Məhkəməyə göndərildikdən sonra şikayət məhkəmə baxışına çıxarılır. Əgər şikayətçinin vəkil tutmaq imkanı yoxdursa, məhkəmə özü onun üçün vəkil təyin edir. Qərar səs çoxluğu əsasında qəbul edilir. Əgər tərəflərdən biri – ya məcburi köçkün, ya da şikayət olunan dövlətin nümayəndəsi qərardan razı qalmasa, 3 ay ərzində Yuxarı Palataya etiraz edə bilər. Yuxarı Palata iş haqqında qərar qəbul edir.

Bu qərar qətidir və dəyişdirilə bilməz. Artıq bu qərardan şikayət qəbul edilmir. Məhkəmənin qərarı "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya"nı qəbul edən dövlətlər üçün məcburidir. Məhkəmənin qərarının yerinə yetirilməsi Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən təmin edilir. Müvafiq dövlət, məsələn, bizim misalımızda Ermənistan dövləti Avropa Məhkəməsinin qərarlarını yerinə yetirdikdən sonra iş başa çatmış hesab olunur.

Beləliklə, insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulan dövlətlər ölkədəki hüquqi və faktiki vəziyyəti həmin Konvensiyaya uyğun hala salmaq üçün lazımi addımları atmalı olurlar. Bu yolla Avropa Məhkəməsi üzv dövlətlərdə insanların hüquq və əsas azadlıqlarının müdafiəsi üçün etibarlı təminat yaradır!

3. Silahlı münaqişə qurbanlarının həyat və ləyaqətinin müdafiəsi. Əsas hüquqi sənədlər

Beynəlxalq humanitar hüquq anlayışı. Beynəlxalq humanitar hüquq anlayışını aydınlaşdırmaq üçün tərifl ə tanış olaq. *Beynəlxalq humanitar hüquq* beynəlxalq hüququn sahəsini və humanist prinsiplərə əsaslanan və hərbi münaqişələrin nəticələrinin məhdudlaşdırılmasına yönələn hüquqi normaların cəmini təşkil edir.

Bu hüquq hərbi əməliyyatlarda birbaşa iştirak etməyən və ya iştirakını dayandıran şəxslərin müdafiəsi ilə məşğul olur, müharibənin aparılması vasitələrinə və metodlarına məhdudiyyət qoyur.

Beynəlxalq humanitar hüquq normalarının əksəriyyəti isə yalnız silahlı münaqişədə iştirak edən tərəflər arasındakı münasibətləri tənzimlədiyinə görə, hərbi münaqişə zamanı tətbiq olunur. Bu hüquq sahələri ayrı-ayrılıqda inkişaf edir və müxtəlif beynəlxalq hüquqi aktlarla tənzimlənir.

Beynəlxalq humanitar hüquq hərbi münaqişədə iştirak edən tərəflərin müəyyən davranış qaydalarını yaratmasına, zorakılığın məhdudlaşdırılmasına və müharibə qurbanlarının müdafiəsini təşkil etməsinə əsas yaradır.

Qeyd edilməlidir ki, "müharibə qurbanın" termini etik məna daşımır və burada hüquqi termin kimi istifadə olunur. O, hərbi münaqişə şəraitində hüquq müdafiəsinin aid olduğu insanların (yaralılar, xəstələr, gəmi qəzasına uğrayanlar, hərbi əsirlər, mülki vətəndaşlar) kateqoriyasını təyin edir.

Sxem vasitəsi ilə hərbi münaqişə şəraitində beynəlxalq humanitar hüququn kimi və necə müdafiə etdiyini, müharibənin silah və metodları ilə bağlı hansı məhdudiyyətlər qoyduğunu dəqiqləşdirməyə çalışaq. Bu məqsədlə 9.4. saylı sxemə diqqət yetirək:

Sxem 9.4.



Daha bir vacib məsələ beynəlxalq humanitar hüquq və insan hüquqları arasında sıx bağlılığın olması və onların bir-birilərini tamamlamasıdır. Lakin onlar həm də beynəlxalq hüququn ayrı-ayrı sahələri kimi çıxış edir. Onlar bir-birindən mahiyyət və tətbiq olunma şəraitinə görə fərqlənir. Insan hüquqları hüquqi dövlət və onuıı vətəndaşları arasında münasibətləri tənzimləyir və həm dinc, həm də hərbi münaqişə zamanı tətbiq olunur.

Beynəlxalq humanitar hüququn prinsipləri. Beynəlxalq humanitar hüquq öz fəaliyyətində bir sıra prinsiplərə əsaslanır. Bu prinsiplər təsnifat etibarilə dörd hissəyə bölünür: əsas prinsiplər;

ümumi prinsiplər; münaqişə qurbanlarına aid prinsiplər; müharibə hüququna aid prinsiplər. Bu mövzuda biz yalnız birinci iki prinsipi nəzərdən keçirəcəyik.

Əsas prinsiplərdən birini **humanitar hüquq prinsipi** təşkil edir. Bu prinsipə əsasən, hərbi zərurət və ictimai qaydanının qorunması həmişə insana hörmətlə əlaqələndirilməlidir. Bu prinsip özündə humanizm və mərhəmət, rəhm, hörmət, himayə, humanist münasibət müddəalarını əks etdirir.

Cenevrə hüququnun prinsipinə əsasən, sıradan çıxmış şəxslər, habelə, artıq, hərbi əməliyyatlarda bilavasitə iştirak etməyənlər hörmət, himayə və humanist rəftar hüququna malikdirlər. Yaxşı döyüşçü, istedadlı sərkərdə düşmən üzərində qələbəyə daha az əzab verməklə də nail ola bilər. Hərbi əməliyyatlar üçün, artıq, yararsız olan düşmənlə pis rəftar humanizm nöqteyi-nəzərindən yolverilməzdir.

Əsas prinsiplərdən biri ***Haaqa hüququ prinsipi*** adlanır. Bu prinsip müharibə hüququ prinsiplərindən qaynaqlanır. Haaqa hüququ prinsipinə görə, münaqişədə olan tərəflərin hərbi əməliyyatları aparma metodları və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir. Bu prinsip silahlı münaqişə iştirakçılarının hərbi əməliyyatları aparma metod və vasitələrini seçmək hüququnu məhdudlaşdırır.

Ümumi prinsiplər. Ümumi prinsiplər siyahısında birinci yerdə ***toxunulmazlıq prinsipi*** durur. Bu prinsipə əsasən, hər bir fərdin onun həyatına, həm fiziki, həm də psixi toxunulmazlığına və onun şəxsiyyətinin ayrılmaz hissəsi olan atributlara hörmət hüququ vardır. Toxunulmazlıq prinsipinin tətbiqinə aşağıdakılar aiddir:

1. Döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşmüş şəxsin həyatının saxlanılması hüququ vardır.
2. İşgəncələr, alçaldıcı və ya qeyri-insani cəzalar qadağandır.
3. Hər bir şəxsin qanun qarşısında insan hüquqlarının qəbul edilməsi hüquqları vardır.
4. Hər bir şəxsin şərəfinə, ailə hüquqlarına, əqidə və adətlərinə hörmət edilməsi hüququ vardır.
5. Əzab çəkən hər bir şəxsə daldalanacaq verilməli və həmin

vəziyyətdə o, zəruri qayğı ilə təmin edilməlidir.

6. Hər bir şəxsin öz ailəsinə xəbər göndərmək, ailəsindən xəbər və kömək almaq hüququ vardır.
7. Heç kim qanunsuz yolla mülkiyyət hüququndan məhrum edilə bilməz.

İkinci prinsip hüquqi ayrı-seçkiliyin yolverilməzliyi prinsipidir. Burada deyilir ki, bütün insanlar ilə irq, cins, milliyyət, dil, ictimai mənşə, maddi rifah, siyasi, fəlsəfi və dini əqidə əlamətlərinə və ya hər hansı digər oxşar meyara əsaslanan heç bir fərq qoyulmadan eyni cür rəftar edilməlidir.

Üçüncü ümumi prinsip ***təhlükəsizlik prinsipidir***. Hər kəsin şəxsi təhlükəsizlik hüququ vardır. Bu prinsip aşağıdakı prinsiplərin təmin edilməsini müəyyənləşdirir:

1. Heç kim etmədiyi hərəkət üçün cavabdeh sayıla bilməz.
2. Təzyiq tədbirləri, kollektiv cəzalar, girov götürmə və deportasiya qadağandır.
3. Hər bir şəxsin hamı tərəfindən qəbul edilmiş hüquqi təminatdan istifadə etmək hüququ vardır.
4. Heç kim özünün Konvensiyalarla ona verilmiş hüquqlarından imtina edə bilməz.

Təəssüflər olsun ki, Beynəlxalq humanitar hüququn bu prinsipləri heç də həmişə gözlənilmir. Bu, özünü Bosniya – Serbiya, Azərbaycan – Ermənistan münaqişələrində öz kəskinliyi ilə göstərmişdir. Erməni işğalçıları Beynəlxalq humanitar hüququn yuxarıda sadalanan bütün prinsiplərini pozmuşlar. Onlar nəinki yaralıları və əsirləri, habelə mülki vətəndaşları da kütləvi şəkildə, ən amansız üsullarla qətlə yetirmişlər. İşğalçılar qocaya, qadına, uşağa, xəstəyə, əlilə, bir sözlə, heç kəsə mərhəmət göstərməmişlər, əsirlikdə saxlanılanlara qeyri-insani münasibət bəsləmişlər, bütün bunlar isə dünyanın gözü qarşısında baş verir.

Beynəlxalq humanitar hüququn mənbələri. Beynəlxalq humanitar hüququn əsas mənbələrini 1949-cu ilin dörd Cenevrə Konvensiyası və onların 1977-ci il tarixli iki əlavə Protokolu təşkil edir. Birinci Cenevrə Konvensiyası döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqındadır.

Konvensiyanın əsas maddəsində deyilir ki, silahlı qüvvələrin üzvləri (və hərbi əməliyyatların digər iştirakçıları) yaralandıqda və xəstələndikdə onlara bəzi hallarda hörmət və himayə göstərilməlidir. Konvensiya onların həyatına və şəxsiyyətinə yönəlmiş hər hansı qəsdi qəti qadağan edir şəxsən onların öldürülməsi, işgəncəyə məruz qalması, bioloji təcrübədən keçirilməsi, tibbi yardımdan məhrum edilməsi və s. yolverilməzliyi təmin olunur. Konvensiya bu sahədə silahlı münaqişədə iştirak edərkən üzərinə konkret hüquqi öhdəliklər qoyur.

İkinci Cenevrə Konvensiyası dənizdə silahlı qüvvələrin heyətində yaralıların, xəstəiərin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması hüquqlarından bəhs edir. Konvensiyanın 12-ci maddəsində deyilir ki, silahlı qüvvələrin üzvləri dənizdə olarkən yaralandıqda, xəstələndikdə və ya gəmi qəzasına uğradıqda onlara bütün hallarda hörmət və himayə göstərilməlidir. Özü də «gəmi qəzası» termini, baş verdiyi şəraitdən asılı olmayaraq, hər cür gəmi qəzasına, o cümlədən təyyarələrin məcburən dənizə enməsi və ya dənizə düşməsi hallarına tətbiq edilir. Bu Konvensiya da, Birinci Konvensiya kimi, onları həyatlarına və şəxsiyyətlərinə yönəlmiş bütün qəsd və qeyri-humanist tədbirlərdən müdafiə edir.

Üçüncü Cenevrə Konvensiyası hərbi əsirlərin müdafiəsinə və hüquqlarına həsr edilmiş 143 maddədən ibarətdir. Bu qaydalar, əlbəttə, hərbçilərə - zabit və əsgərlərə yaxşı məlumdur. Konvensiyada deyilir ki, bütün hərbi əsirlərlə həmişə insanpərvərcəsinə rəftar olunmalıdır. Əsirlərin həyatı üçün təhlükəli olan və ya onlara zərər vuran hər hansı bir hərəkət, xüsusilə işgəncə vermək və fiziki cəhətdən şikəst etmək qadağandır. Başqa sözlə, hərbi əsir təhlükəli və təhqiramiz işləri icra etməyə məcbur edilməməlidir. Əsirin ləyaqətinə insancasına hörmət edilməlidir. Münaqişənin sonunda hərbi əsirlər öz evlərinə qayıtmalıdırlar. Əsirlərin öz ailələrinə xəbər göndərməklərinə və yaxın adamlarından xəbər tutmalarına icazə verilməlidir.

Mülki şəxslər döyüşlərin iştirakçısı deyildirlər. Onlar özlərini müdafiə edə bilmirlər və müdafiə olunmalıdırlar. Dördüncü Cenevrə Konvensiyası mülki əhalinin müdafiəsinə həsr olunub.

Orada bütün vəziyyətlərdə insanlara hörmət və onların müdafiəsi ilə bağlı müddəalar öz əksini tapmışdır. Bu sənəddə insanlara hədə-qorxu gəlmək, girov götürmək, işgəncə, kollektiv əzab vermək qadağan olunur.

Münaqişə dövründə hər şey daha ciddi, daha faciəli və daha zorakıdır. Buna görə də intiqam hissinin yaranmasına səbəb olan zorakılıqları məhdudlaşdırmağa yönəldilən qaydaların tətbiqi zəruridir. Konvensiyanın 33-cü maddəsində aydın şəkildə qeyd olunur ki, himayə (müdafiə) olunan şəxslər (müharibədə iştirak etməyən və ya bir daha iştirak etməyəcək şəxslər; mülki əhali, xəstələr, əsirlər) törətmədiyi qanun pozuntusuna görə cavab verməməlidirlər. Kütləvi ölüm, qorxu, terror aktları qadağandır. Himayə (müdafiə) edilən şəxslərə təzyiq və onların əmlakının qəsb olunması tədbirləri qadağan edilir.

Beynəlxalq humanitar hüquqa görə, silahlı münaqişənin beynəlxalq və qeyri-beynəlxalq səciyyə daşıdığını bilirsiniz. Bu tip münaqişə qurbanlarının müdafiəsini təşkil etmək məqsədilə 1977-ci il iyunun 8-də Cenevrə Konvensiyasına əlavə olunan Birinci və İkinci Protokollar qəbul edilmişdir. Bu Protokolların birincisi beynəlxalq səciyyəli silahlı münaqişə, ikincisi isə qeyri-beynəlxalq səciyyəli silahlı münaqişə qurbanlarına lıəsr olunmuşdıır.

Beynəlxalq humanitar hüqüq normalarının pozulmasının məsuliyyəti. İstənilən hüquq normasının təyinatı onun insanlarının davranışlarına olan təsirindən ibarətdir. Aydınlaşdırdığımız kimi, beynəlxalq humanitar hüquq göstərir ki, silahlı münaqişə şəraitində nəyi etmək olar, nəyi etmək olmaz, yəni hərbi əməliyyatların iştirakçılarının davranış normaları müəyyənləşdirilir. Bu normaları göstərmək üçün ilk növbədə onlardan xəbərdar olmaq lazımdır. Odur ki, 1949-cu il Cenevrə Konvensiyalarına və Əlavə Protokol-lara imzasını atmış dövlətlər hərbçilərlə bərabər, öz əhalisinin də həmin sazişlərin məzmunu və mahiyyəti ilə ətraflı tanış olmasını öhdələrinə götürmüşlər.

Hüquq normalarını pozmuş insan məsuliyyət daşıyır. Beynəlxalq humanitar hüquqda beynəlxalq silahlı münaqişə zamanı yol-verilən və hərbi cinayət adlandırıla bilən kobud hüquq pozuntusuna

görə cinayət məsuliyyəti göstərilir. Onlardan bəziləri bunlardır: qəsdən adam öldürmə, işgəncə və qeyri-insani münasibət, beynəlxalq humanitar hüququn qoruduğu şəxslərin (məsələn, yaralı, xəstə, gəmi qəzasından əziyyət çəkən, hərbi əsir, mülki vətəndaş) sağlamlıqlarına mənfi təsir göstərmək, onları düşmən hərbi dəstələrinə qoşulmağa məcbur etmək, mülki vətəndaşların qanunsuz köçürülməsi, qırmızı aypara və qırmızı xaç nişanlarından suiistifadə etmək (əgər bu ölümlə nəticələnmişsə, bədənə fiziki cəhətdən xətər dəymişsə).

Yolverilən hərbi cinayət beynəlxalq humanitar hüquqla mühakimə oluna bilər. Belə ki, İkinci Dünya müharibəsindən sonra Nürnberq tribunalında əsas hərbi canilər mühakimə edilmiş, onların 12-nə ölüm hökmü, qalanlarına müxtəlif müddətli həbs cəzaları verilmişdi. XX əsrin 90-cı illərində keçmiş Yuqoslaviya və Ruandada törədilmiş hərbi cinayətləri təhqiq etmək üçün iki beynəlxalq hərbi tribunal yaradılmışdır. Bu tribunallara həmin münaqişələr çərçivəsində yol verilmiş hərbi cinayətlər haqqında işlə məşğul olmaq səlahiyyəti verilmişdir. 1998-ci ildə Romada keçirilmiş Diplomatik konfransda daimi beynəlxalq cinayət məhkəməsinin Statusu (Nizamnaməsi) qəbul edilmişdir.

Hərbi cinayət törətmiş şəxslərin tapılıb mühakimə edilməsi həmin qurumun səlahiyyətlərinə daxildir.

Təcrübə göstərir ki, hərbi cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunması əksər hallarda dövlətlər tərəfindən həyata keçirilir. 1949-cu ildə qəbul edilmiş dörd Cenevrə Konvensiyasına və 1977-ci ildəki Əlavə Protokollara görə, bu sazişlərdə iştirak edən dövlətlər hərbi cinayət törətmiş və ya bunun üçün tapşırıq vermiş şəxslərin qanuni mühakimə olunmasını təmin edə biləcək qanunvericilik fəaliyyətini öz öhdələrinə götürmüşlər.

Cenevrə Konvensiyalarına qoşulmuş Azərbaycan Respublikası da öz fəaliyyətində beynəlxalq humanitar hüququn bütün prinsiplərinə əməl edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində VII bölmə "Sülh və insanlıq əleyhinə cinayətlər" adlanır. Buradakı 116-cı maddə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə məsuliyyətin növlərini

və tətbiq edilən cəza növlərini əhatə edir. Burada sadalanan cinayətləri törətmək üstündə yeddi ildən on beş ilədək müddətə və ya ömürlük azadlıqdan məhrumetmə kimi cəza tədbirləri müəyyənləşdirilmişdir.

Beynəlxalq humanitar hüquqa əməl olunması adi bir iş deyil. Bunun üçün hər bir insan öz üzərində işləməlidir. O, özündəki intiqam hissini dəf etməli, ən gərgin vəziyyətlərdə insan olduğunu nəzərə almalıdır. Beynəlxalq humanitar hüquq normalarının gözlənilməsini, onların zəruriliyini anlamaq o vaxt mümkün olur ki, insan özünün də düşmən əlinə keçə biləcəyini gözünün qabağına gətirsin. Belə vəziyyətlərdə hər bir kəs hüququn müdafiəsini qanunsuzluq və özbaşınalıqlardan üstün tutacaqdır.

Artıq XX əsr tarixə çevrilmişdir. Bəşəriyyət yeni minillikdə yaşamağa başlayır. Suallar meydana çıxır. Bəs bundan sonra necə olacaq? Qeyri-insaniliyi, zorakılığı yerində oturtmaq mümkün olacaqmı? Bəlkə də bu, daha çox bizim ünsiyyət qurmağı, hüquqi qaydalarla yaşamağı bacarmağımızdan, hətta ən amansız şəraitdə belə, bir-birimizə insani yanaşmağımızdan çox asılıdır.

Demokratik cəmiyyətdə insan hüquqlarının qorunması

Demokratik cəmiyyət nədir? Demokratiya xalq hakimiyyəti deməkdir. Həqiqi xalq hakimiyyətinə nail olmaq üçün cəmiyyətdə bir sıra şərtlərin olması zəruridir.

Bu şərtlər aşağıdakılardır:

- parlamentə həqiqətən azad və bərabər seçkilərin keçirilməsi;
- vətəndaşların və milli azlıqların hüquqlarının təminatı;
- düşüncə, fikir azadlığı;
- qeyri-hökumət təşkilatlarının dövlətlə bərabərhüquqlu fəaliyyəti;
- vətəndaşların siyasi həyatda mükəmməl və səmərəli iştirakı. Bu şərtlər hüquqi dövlətin fəaliyyəti, şəxsiyyətin siyasi mədəniyyətinin formalaşması kimi amillərlə bağlıdır. Həmin şərtlərin hamısı hansı cəmiyyətdə varsa, deməli, orada demokratik siyasi rejim mövcuddur. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir. Demokratiya elə bir cəmiyyətdir ki,

insan hüquq və azadlıqları aşağıdakı prinsipə ciddi əməl olunması ilə bağlıdır: "Hər bir insan elə bir cəmiyyət qarşısında məsuliyyət daşıyır ki, onun şəxsiyyətinin azad və tam inkişafı yalnız o cəmiyyətdə mümkündür".

Buradan aydın olur ki, cəmiyyətlə şəxsiyyət arasındakı münasibət insanın hüquqları və əsas azadlıqları ilə bağlıdır. Şəxsiyyət yalnız onun tam inkişafının mümkün olduğu cəmiyyət qarşısında məsuliyyət daşıyır. Cəmiyyət o halda şəxsiyyətdən məsuliyyət, hər hansı bir vəzifəni yerinə yetirməyi tələb edə bilər ki, onun tam və azad inkişafını, əsas hüquq və azadlıqlarını təmin etmiş olsun. Hüquq və vəzifələrin vəhdətdə olduğunu nəzərə alsaq, doğrudan da, görəcəyik ki, əgər şəxsiyyətin hüquqları varsa, onlara uyğun vəzifələri də vardır. Bu halda cəmiyyət həmin şəxsiyyətdən vəzifələrini yerinə yetirməyi tələb edir. Əksinə, əgər cəmiyyət şəxsiyyətin əsas hüquq və azadlıqlarını təmin etmirsə, ondan məsuliyyət, vəzifə də tələb edə bilməz.

Demokratik cəmiyyətdə insan hüquqları daha yaxşı qorunur**.** İstər ayrıca bir cəmiyyətdə, istərsə də dünyada azadlığın, ədalətin və ümumi sülhün əsasını insan hüquqlarına hörmət təşkil edir. İnsan hüquqları qanunla tanınmış tələbat olduğundan, hökumət bu tələbatın həyata keçirilməsini qadağan edən heç bir qanun qəbul edə bilməz. Əgər bu tələbatdan hər hansı biri həyata keçirilmirsə, bu o deməkdir ki, həmin cəmiyyətdə ədalətsizlik mövcuddur. "Hüquq" sözünün özü bütün qanuni tələblərin təmin edilməsini nəzərdə tutur.

Demokratik cəmiyyətlərdə insan hüquqları Konstitusiya qanunu kimi müəyyən edilir. Bu qanun parlamentin qəbul etdiyi adi qanunlardan yüksəkdə dayanır. Odur ki, insan hüquqlarını bəzən "konstitusiya hüquqları" da adlandırırlar. Demokratik ölkədə konstitusiya cəmiyyətin, dövlətin idarə edilməsində insanların iştirak etmək hüququnu təsbit edir.

Demokratik hakimiyyət formalarının mövcud olduğu ölkələrdə şəxsiyyətlər, müxtəlif birliklər, qruplar assosiasiyalar, partiyalar və s. cəmiyyətin həyatında geniş iştirak edirlər. Məsələn, onlar seçkilərarası dövrdə hakimiyyətin keçirdiyi tədbirlərə öz münasibətlərini bildirirlər. Bu tədbirlərdən razı qaldıqda onları təqdir edir, narazı qaldıqda isə qanunun yol verdiyi şəkildə etiraz aksiyaları keçirə bilirlər. Beləliklə,

müxtəlif qüvvələr cəmiyyətdə qərarların qəbul edilməsinə, dövlətin daxili və xarici siyasətinin müəyyənləşdirilməsinə və s. təsir göstərə bilirlər.

İnsan hüquqlarının qorunması demokratik cəmiyyətin, demokratiyanın mahiyyətindən irəli gəlir. Çünki demokratik cəmiyyətin əlamətlərindən biri onun təməlində duran qanunların aliliyidir. Bu cəmiyyətin təməl qanunları isə insan hüqıqlarıdır. İıısan hüquqları demokratik cəmiyyətdə lıər hansı bir qanundan, hər hansı bir məsələdən yüksəkdə durur. Prezidentdən başlamış adi bir fəhləyə qədər hər kəs bu hüquqların gözlənilməsi üçün məsuliyyət daşıyır. Demokratik cəmiyyətin varlığı insan hüquqları ilə bağlıdır. Bu hüquqların müdafiəsi və ya pozulması cəmiyyətin demokratikliyinin göstəricisidir. Cəmiyyətdə insan hüquqları nə qədər çox pozulursa, onun demokratiyadan uzaqlaşması, demokratik olmaması bir o qədər aydın görünür. Demokratiya yolu ilə gedən cəmiyyətdə isə, əksinə, insan hüquqlarının reallaşması və müdafiəsi getdikcə daha geniş vüsət alır.

Beləliklə, demokratik cəmiyyətlə (demokratiya ilə) insan hüquqlarının müdafiəsi arasında üzvi əlaqə, asılılıq vardır. İnsan hüquqlarının müdafiəsi üçün nə qədər çox iş görülürsə, cəmiyyətdə demokratiya bir o qədər inkişaf edir. Əksinə, insan hüquqları nə qədər çox pozulmaqda davam edirsə, cəmiyyət bir o qədər qeyri-demokratik olur. Mövcud ABŞ demokratiyası uzun bir inkişaf yolu keçmişdir. Bu haqda az-çox aydın təsəvvürə malik olmaq üçün bir neçə fakta diqqət edək. ABŞ konstitusiyası qəbul edilən dövrdə (1787-ci il) ölkədə əhalinin sayı 4 milyon idi. Konstitusiya isə yalnız 120 min nəfərə səsvermə hüququ verirdi. Hazırda isə seçki hüququ ABŞ cəmiyyətinin müxtəlif təbəqələrini ən geniş şəkildə əhatə edən dəyərlərdən biridir.

ABŞ-ın konstitusiyasına edilən birinci düzəliş (1791-ci ildə) elə hökumətlə insanlar arasındakı münasibətə aiddir. Orada yazılırdı: "Konqres ölkədə hər hansı bir dinə ibadət edilməsinə icazə verən və ya bu ibadəti qadağan edən, söz və mətbuat azadlığını məhdudlaşdıran, insanların bir yerə toplaşmaq və şikayətlərinə baxılması məqsədilə müraciət etmək hüququnu pozan heç bir qanun qəbul etməməlidir".

Buradan görünür ki, ABŞ hökuməti öz vətəndaşlarına ibadət etmək hüququ, mətbuat və söz azadlıqları vermir. Vermədiyi bir hüququ

– azadlığı ləğv etməyə, məhdudlaşdırmağa isə hökumətin ixtiyarı yoxdur.

Konstitusiya hökumətdən tələb edir ki, heç bir şeyə qarışmasın, öz vətəndaşlarının bu hüquqlarını məhdudlaşdırmasın ki, ABŞ konstitusiyasında "insanın hüququ var" ifadəsi işlənməmişdir, əvəzində, "Konqresin hüququ yoxdur" ifadəsi işlənmişdir.

ABŞ Konstitusiyasına görə, Konqresin qəbul etdiyi qanunların heç biri konstitusiyadan, xüsusilə insan hüquqlarına dair maddələrdən yüksəkdə dura bilməz. Konqres Konstitusiyanı dəyişdirə bilməz. Ona görə də Konqres insan hüquqlarına qəsd etməklə xalqın razı olmadığı prezidentin hakimiyyətini uzatmaq məqsədilə konstitusiyaya dəyişiklik etmək, onu dəyişdirmək iqtidarında deyil.

1803-cü ildə ABŞ-da Ali Məhkəmənin sədri Con Marşall idi. Məhkəmədə bir məmurunun dövlət katibi Medisona qarşı qaldırdığı iddiaya baxılırdı. Bu zaman aydın oldu ki, Konqresin qəbul etdiyi qanun Konstitusiyaya uyğun gəlmir. Con Marşall cəsarət nümayiş etdirərək Konqresin qəbul etdiyi qanunu ləğv etdi. Bu, doğrudan da, cəsarətli hərəkət idi. Çünki bu vaxta qədər Ali Məhkəmə Konqresin qanununu ləğv etməmişdi. İlk dəfə idi ki, Ali Məhkəmənin sədri Konqresin qəbul etdiyi qanunu ləğv edirdi. Bununla da Con Marşall yeni qayda yaratdı; Ali Məhkəmə Konqresin və hökumətin Konstitusiyaya zidd qanun və qərarlarını ləğv edə bilər. C.Marşallın qoyduğu qaydaya görə, məhkəmədə insan hüquqlarının hökumət tərəfindən pozulması hallarına baxılarkən hakimlər (məhkəmə) Konstitusiyanın insan hüquqlarına dair müddəalarından hökumətə qarşı istifadə etməlidirlər. Beləliklə, ABŞ-da insan hüquqları faktiki olaraq "Konstitusiya hüquqları"na çevrildi. Con Marşall insan hüquqları ilə dövlət mənafeyi arasında yaranan münaqişəni insan hüquqlarının xeyrinə həll etdi. Bu gün dövləti məhkəməyə vermək və onu udmaq imkanı ABŞ cəmiyyətində adi hala çevrilmişdir. İndi ABŞ hakimləri ölkədə ən hörmətli şəxs-bir nömrəli vətəndaş sayılan Prezidentin zərərinə, ədalətin xeyrinə hökm çıxara bilirlər. İnsan hüquqları cəmiyyətdə insanın fəaliyyət imkanlarını göstərir. Bu hüquqlar nə qədər genişdirsə, insanın fəaliyyət imkanları da bir o qədər genişdir. Bu hüquqların təminatı nə səviyyədədirsə, insanların azadlığı da o səviyyədədir. Əgər insanın təbii hüquqları

pozulursa, şəxsi ləyaqət hissi tapdanırsa, özünü alçaldılmış hiss edir. Bu cür insanlar tənqidi, yaradıcı düşünənək, yaratmaq qabiliyyətini itirirlər. Belə şəraitdə insanın özünün inkişafı ləngiyir, məhdudlaşır. İnsanlar isə cəmiyyəti təşkil edirlər. Əgər insanların inkişafı ləngiyirsə, deməli, bütövlükdə cəmiyyətin inkişafı ləngimiş, məhdudlaşmış olur. Buradan görünür ki, insanların təbii və ayrılmaz hüquqlarının təmin olunub-olunmaması cəmiyyətin inkişafı məsələsidir. Kim bu hüquqların təminatı uğrunda mübarizə aparırsa, o, cəmiyyətin inkişafına çalışır. Cəmiyyət bu cür insanların hesabına inkişaf edir. Zənci Roza Parksın mübarizəsi buna parlaq misaldır. 1955-ci il idi. ABŞ-da irqi ayrı-seçkilik davam edirdi. Bıı ölkədə yaşayan zənci Roza Parks düşünürdü ki, onun da bir insan kimi toxunulmaz hüquqları, ləyaqəti vardır. Ona görə də Roza Parks avtobusda ağ adamlar üçün nəzərdə tutulmuş oturacaqda əyləşir. Ondan oturacağı ağdəriliyə verməyi tələb etdikdə o, buna etiraz edir. Avtobusda Roza Parksın etirazı az bir vaxtda zənci əhalisinin kütləvi etiraz aksiyasına çevrilir. Bu, ABŞ-da irqi bərabərlik uğrunda mübarizənin başlanğıcı idi. Mübarizə irqi ayrı-seçkiliyin ləğv olunması ilə nəticələndi və ABŞ cəmiyyəti bir qədər də inkişaf etdi. Bu qələbə bir daha sübut etdi ki, insanlar öz hüquqları uğrunda mübarizədə birləşsələr, qalib gələrlər. Bu hadisə həm də sübut edir ki, ayrı-ayrı adamlar cəmiyyətin inkişafına necə xidmət edə bilərlər. Deməli, öz hüquq və azadlıqlarının müdafiəsi uğrunda mübarizə aparan insanlar, əslində, cəmiyyətin inkişafı uğrunda mübarizə etmiş olurlar.

Azərbaycan demokratiya yollarında. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasında Konstitusiyanın qəbul olunması ilə ölkəmizdə demokratik islahatların inkişafı üçün şərait yaradıldı. Senzuranın ləğvi cəmiyyətimizdə söz, fikir azadlığını təmin etdi. Cəmiyyətdə müasir vəziyyətə uyğun olan seçki haqqında qanun qəbul olundu.

Qanunların insan hüquqlarını və əsas azadlıqları pozmamasına nail olmaq üçün 1996-cı ilin fevralında Prezident yanında hüquqi islahatlar komissiyası yaradıldı. Bundan başqa, ölkəmizdə hazırlanan çox mühüm hüquqi sənədlərin insan hüquqların və əsas azadlıqların müdafiəsinə zidd olmaması üçün onlar Avropa şurasında ekspert rəyindən keçirildi.

1998-ci ilin fevralında "Insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında" Prezident fərmanı verildi. İnsan hüquqlarının təmin olunması üçün "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında" və b. qanunlar qəbul olundu. Senzura ləğv edildi və bununla da cəmiyyətdə söz, fikir azadlığına şərait yarandı. Respublikada ölüm cəzası ləğv edildi və insanın təbii hüququ olan yaşamaq hüququ cəmiyyət səviyyəsində təsdiq olundu.

Vətənimiz Şərqdə bu cəzanı ləğv edən ilk ölkə oldu. 1993-2000-ci illərdə 40 min nəfərdən çox məhbusa amnistiya tətbiq edildi. 1998-ci ildə ölkədə Konstitusiya Məhkəməsi yaradıldı.

Konstitusiya Məhkəməsi hüquqları pozulmuş vətəndaşların və ya təşkilatların şikayətlərinə baxaraq qərar qəbul edir. Qərar qapalı müşavirədə səs çoxluğu ilə qəbul olunur. Konstitusiya məhkəməsinin qərarı qətidir. Onu heç bir orqan və ya vəzifəli şəxs ləğv edə və ya dəyişdirə bilməz.

Konstitusiya Məhkəməsi öz fəaliyyətində insan hüquqları və əsas azadlıqlar haqqında beynəlxaq hüquqi sənədlərin və Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsaslanır.

X FƏSİL
QANUN VƏ DÖVLƏT

1. Qanun hüququn ifadə formasıdır. Konstitusiya ali qanundur. Milli Məclis qanunverici orqanıdır. Qanunvericilik prosesi

Qanunun əlamətləri. Qanun ən mühüm hüquq normalarını təsbit edən dövlət sənədidir. Hüquqi akt olan qanun aşağıdakı əlamətləri ilə başqa dövlət sənədlərindən seçilir:

- o, dövlət hakimiyyətinin ali nümayəndəli orqanının (Milli Məclisin) qəbul etdiyi və ya bilavasitə xalqın iradəsi ilə (məsələn, referendumla) qəbul edilən normativ aktdır:

- qanun müəyyən olunmuş xüsusi qaydada qəbul olunur. Başqa dövlət orqanlarının və ictimai təşkilatların normativ aktlarına nisbətən ən yüksək hüquqi qüvvəyə malikdir. Çünki qanunları parlament qəbul edir. Parlament isə çoxluğun – xalqın seçdiyi nümayəndələrdən ibarətdir. Odur ki, parlamentin qəbul etdiyi qanun xalqın iradəsinin ifadəsidir. Qanunun ali hüquqi qüvvəyə malik olması da buradan irəli gəlir. Ali qanunverici orqanın - Milli Məclisin qəbul etdiyi qanun ölkənin prezidentindən başlamış sıravi şəxslərə qədər – hamı üçün məcburidir. Qanunun ən yüksək (ali) hüquqi qüvvəsi, ilk növbədə, onun qətiliyində təzahür edir. Belə ki, əvvələn, qanunu qanunverici orqandan başqa heç bir başqa dövlət orqanı və ya ictimai təşkilat ləğv edə və ya dəyişə bilməz. İkincisi, qanun dövlətin hüquq sisteminin əsasında durduğundan, bütün dövlət orqanlarının aktları ona (qanuna) müvafiq (uyğun) olmalıdır.

Qanunun növləri. Müəyyən etdiyi hüquqi normaların əhəmiyyətinə və xarakterinə görə qanunları iki qrupa bölürlər:

a) Konstitusiya (Əsas qanun).

b) Adi qanunlar.

Adi qanunlarla Konstitusiya arasında əlaqəni bu cür başa düşmək lazımdır. Adi qanunlar:

- Konstitusiya əsasında qəbul olunur;
- Konstitusiya məzmununu konkretləşdirir, dəqiqləşdirir;
- Konstitusiyanın maddələrinin icra qaydasını tənzimləyir.

Qanun insanlar arasında qayda qoyur. Bu qaydanı pozanlar həmin qanun əsasında cəzalandırılır. Məsələn, ta qədim zamanlardan dövlət qanun vasitəsi ilə insanların toxunulmazlıq hüququnu qoruyur. Hammurapinin qanunları bunu sübut edir.

Demokratik cəmiyyətlərdə qanun:

a) siyasi vəzifələrin həlli;

b) təsərrüfat və mədəni quruculuq;

c) dövlətin daxili və xarici təhlükəsizliyinin təmin olunması;

ç) mülkiyyətin toxunulmazlığı;

d) demokratiyanın genişləndirilməsi və möhkəmləndirilməsi alətidir.

Azərbaycan Respublikasında Konstitusiyaya görə qanun qəbul etmək hüququ Milli Məclisə məxsusdur. Bu mühüm funksiyanın Milli Məclisin səlahiyyətinə aid edilməsi hüquq yaratma prosesinin sabitləşdirilməsi və qanunçuluğun möhkəmləndirilməsi zərurətindən irəli gəlir. Qəbul olunmuş hər hansı qanun yalnız qanunvericilik qaydasında və ancaq onu qəbul etmiş orqan tərəfindən ləğv oluna bilər.

Qanun və hüquq. Cəmiyyət insan hüquqlarını dövlətə qarşı irəli sürür. Dövlət isə bu hüquqları qanunla ifadə edir. Hüquq qanun şəklində insanlara görünəndə hüquqlarını tanıyırlar. Cəmiyyətdə insan hüquqlarının nə dərəcədə, nə səviyyədə gözlənildiyini dövlətin qanunlarından görmək olar.

Hammurapinin qanunlarında yazılırdı: "Əgər bir adamın borcu varsa, onun arvadı, oğlu və ya qızı 3 il müddətinə qul olmalıdır".

Bu qanunda həm borc verənin, həm də borc alanın hüquqları ifadə olunmuşdur. Buradan aydın olur ki, borc verən borcunu qaytarmayan (kəndli və ya sənətkar) adamı, onun arvadını və uşağını qul etmək (qula çevirmək) və 3 il qul kimi saxlamaq hüququna malikdir.

Borclu adam isə 3 il vaxt bitdikdən sonra azad olmaq hüququna malikdir.

Hammurapinin başqa bir qanununda yazılmışdı: "Əgər bir adam özünə bərabər bir adamın üzünə sillə vurarsa, cərimə verməlidir". Bu qanun bir-birinə bərabər adamların hüquqlarını ifadə etməklə həm də onların arasındakı münasibətləri tənzimləyir. Bu qanun insanla dövlət arasındakı münasibətləri aydınlaşdırmaq baxımından da əhəmiyyətlidir. Buradan aydın olır ki,

1. Dövlət qanun vasitəsilə insanların hüquqlarını qoruyur.
2. İnsanlar dövlətin qanunlarına qoyduğu qaydalara ənıəl etməlidirlər.
3. Qanunu, başqasının haqqını pozanları dövlət cəzalandırır.

Qanun və dövlət. Qanun hüququ ifadə etməklə yanaşı, dövlətin bu və ya digər sahədə yürütdüyü siyasəti də özündə əks etdirir. Məsələn, yuxarıdakı qanunda dövlətin sahibini deyil, borclunu – qulu müdafiə etdiyi aydın olur. Nə üçün? Çünki quldar cəmiyyətdə ən çox kəndli və sənətkarlar borclarını qaytara bilmirdilər. Dövlət isə kəndli və sənətkarların tamamilə qula çevrilməsinə yol verə bilməzdi. Çünki xəzinəyə vergi verən, çar qoşununda xidmət edən, kanal və bəndlərin tikilməsində çalışan onlar idi. Deməli, dövlət borclunun hüququnu müdafiə edərkən əslində öz mənafeyini güdürdü.

Qanun insana münasibətdə dövlətin səlahiyyətlərinin həddini müəyyən edir. Qanun hakimiyyət və onun orqanları tərəfindən şəxsin həyatının bu və ya digər sahəsinə müdaxiləsini yasaqlayır. Hakimiyyətin nümayəndələri insana qarşı ancaq qanunda nəzərdə tutulanları edə bilərlər. Bir sözlə, qanun insanı hakimiyyət nümayəndələrinin özbaşınalıqlarından qoruyur.

Beləliklə, qanun həm vətəndaşların hüquqlarını ifadə edir, həm də onu (bu hüquqları) qoruyur.

İnsanlarının hüquqlarını ifadə edən qanunların arxasında çoxlu maliyyə xərcləri durur. Məsələn, təhsil qanunu pulsuz və keyfiyyətli təhsil almaq imkanı verir. Uşaqların pulsuz oxuması üçün məktəbin bütün xərcini dövlət çəkməlidir. Baxın, məktəb üçün müasir bina, avadanlıq (tabaşirdən tutmuş kompyuterə qədər) və çətin əmək üçün yaxşı əməkhaqqı verilən müəllimlər lazımdır.

Bunlar isə çoxlu pul tələb edir. Əgər dövlət bu pulu təhsilə ayıra bilmirsə, deməli, vətəndaşların təhsil hüququnu təmin edə bilmir.

Qanunçuluq. Qanunları və onlara müvafiq verilən digər hüquqi aktları dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar və ictimai təşkilatlar dönmədən yerinə yetirməlidirlər. Bu, ***qanunçuluq*** adlanır. Qanunçuluğun mövcud olduğu cəmiyyətlərdə bütün hüquqi aktlar sistemində qanunların üstünlüyü təmin olunur. Bu cür cəmiyyətdə dövlətin mərkəzi orqanlarının aktlarını yerli orqanlar və ictimai təşkilatlar dönmədən yerinə yetirirlər. Qanunçuluq bürokratiya ilə bir araya sığa bilməz.

Qanunçuluq olan yerdə dövlət orqanları və vəzifəli şəxslər vətəndaşlara qarşı hər hansı özbaşınalığa yol verə bilməzlər.

Qanunun qüvvəsi. Qanunun zamana və məkana görə həddi vardır. Hər bir qanun müəyyən zaman üçün məcburi olur. Bu o deməkdir ki, həmin zaman ərzində insanlar qanunun tələblərinə əməl etməyə məcburdırlar. Həmin qanunu ləğv edən başqa bir qanun verildikdə insanlar onun göstərişlərinə daha əməl etmirlər. Qanunun bu cəhəti "qanunun qüvvəsi" anlayışı ilə ifadə olunur. Hər bir qanun nıüəyyən dövrdə qüvvədə olur. Qanun, əsasən, verildiyi vaxtdan əvvəlki dövrə aid edilmir. Qanun həm də müəyyən dövlətin ərazisi hüdudunda qüvvədə olur. Bu, qanunun məkana görə qüvvəsi hesab olunur.

Bəzən qanun müəyyən orqanlara, təşkilatlara, vətəndaşların müəyyən dairəsinə aid olur. Bu cür hallarda qanunun tələblərini icra etmək həmin orqanlar, təşkilatlar və vətəndaşların müəyyən dairəsi üçün məcburidir. Bu tələblər başqa təşkilatlar və şəxslər üçün məcburi deyil. Məsələn, əgər polis işçiləri barəsində qanun verilmişsə, onun tələbləri yalnız onlar üçün məcburidir. Deməli, həmin qanunun qüvvəsi onlara aiddir. Bu, qanunun qüvvəsinin şəxslərə görə müəyyən edilməsi adlanır.

Beləliklə, qanunun qüvvəsi anlayışı qanunun zamana, məkana, şəxslər dairəsinə görə məcburilik həddini müəyyən edir.

Qədim Romada imperatorun elə də çox əhəmiyyəti olmayan fərman və dekretlərini "konstitusiya" adlandırırdılar. Orta əsrlərdə əyan və feodalların imtiyazları konstitusiyalarla təsdiqlənirdi. Latın dilindən tərcümədə ***konstitusiya*** sözünün mənası (latınca "konstitutio") *təsis etmək, təlimat, quruluş, norma* deməkdir. Məsələn, insanın konstitusiyası – yəni onun bədən quruluşu. Dövlətin konstitusiyası isə cəmiyyətin və dövlətin quruluşu deməkdir. Burada cəmiyyət və dövlətin quruluşunun əsasları, əsas qaydaları gostərilir.

Dövlət quruluşunun və cəmiyyət həyatının əsaslarını müəyyən edən qanunu konstitusiya adlandırırlar. Konstitusiya dövlətin ən əsas, ən yüksək qanunudur. Konstitusiya dövlətin tabe olduğu qanunlar qanunudur. Beləliklə, konstitusiyaya aşağıdakı kimi tərif vermək olar:

Konstitusiya cəmiyyət həyatının və dövlət quruluşunun əsaslarını təsbit edən əsas dövlət qanunudur. O, dövlətin bütün qanunvericilik aktlarının əsasında durur. Əgər Konstitusiya varsa, başqa qanunvericilik aktlarına ehtiyac varmı? Başqa qanunları qəbul etməyə dəyərmi? Məsələ ondadır ki, Konstitusiyada cəmiyyətimiz üçün ən vacib olan məsələlərə aid ümumi müddəalar verilir. Məsələn, onun 13-cü maddəsində göstərilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən qorunur. Burada göstərilmir ki, vətəndaşın və ya dövlətin maşınını oğurlayan adamı hansı cəza gözləyir. Bu, mümkün deyildir. Çünki həyatın bütün rəngarəngliyini Konstitusiyada əhatə etməyə imkan və ehtiyac yoxdur.

Həyatda konstitusiyanın müəyyən etdiyi normalar müxtəlif şəraitdə, müxtəlif şəkildə pozula bilər. "Avtomobildən qorunun" adlanan bədii filmin qəhrəmanı konstitusiyanın müəyyən etdiyi ııormaları pozaraq qeyri-qanuni yollarla varlanmış adamların avtomobillərini oğurlayıb satır, əldə etdiyi pulları isə uşaq evlərinin bankdakı hesabına keçirir. Onıın bu oğurluğu peşəkar avtomobil oğrusunun hərəkətindən fərqli şəkildə cəzalandırılır. Həyatdakı bütün bu müxtəlifliklər konstitusiyada göstərilə bilməz. Ona görə

də konstitusiya başqa qanunların verilməsi üçün əsas olur. Odur ki, konstitusiya əsas və ya ali qanun hesab olunur.

Konstitusiyanın xüsusiyyətləri. Konstitusiya elə xüsusiyyətlərə malikdir ki, bunlar başqa (adi) qanunlarda olmur. Bunlardan aşağıdakıları göstərmək olar:

1. Konstitusiyanın mahiyyəti, mənası hüququn aliliyi ideyasıdır. Mütləq monarxiya quruluşlu dövlətlərdə monarxın hakimiyyəti hər cür qanundan yüksəkdə dururdu. Konstitusiya isə o denıəkdir ki, ali hakim monarx və ya prezident deyil, hüquqdur. Hüquq isə konstitusiya və qanunlarda təsbit olunur. Hüququn aliliyi hüququn idarə etməsi deməkdir.

1. Ölkə həyatının əsasları Konstitusiyanın əsas məzmununu təşkil edir. Müasir dövrdə diqqət daha çox insan hüquqlarına verildiyindən, bu əsaslar aşağıdakılardan ibarətdir:

a) insanın hüquq və vəzifələri;

b) insan hüquqlarının gözlənilməsini təmin edən döviət quruluşu.

Azərbaycan Respublikası Konstitusiyasında da bu məsələlərə xüsusi yer ayrılmışdır. Konstitusiyanın 2-ci bölməsi insanın hüquq və vəzifələrinə, 3-cü bölməsi isə dövlət hakimiyyətinin quruluşuna həsr olunınuşdur. Azərbaycan Respublikasının Konstitusiyası da cəmiyyət və dövlət həyatının əsaslarını müəyyənləşdirmişdir. Konstitusiyamız hüququn mənbəyi rolunu oynayır. Vətəndaşlarımızın istifadə etdiyi hüquqlar və azadlıqlar Konstitusiyada təsbit olunmuşdur. Hər hansı birimizin hüququ pozulduqda, biz dərhal Konstitusiyaya müraciət edərək öz etirazımızı bildiririk. Konstitusiya dövlət quruluşunu və onun fəaliyyət prinsiplərini və s. müəyyənləşdirir. İstər insan hüquqları, istərsə də dövlətin fəaliyyəti ilə əlaqədar verilən qanunların əsasında Konstitusiya durur. Deməli, Konstitusiya ölkədə qanunvericilik sisteminin əsasını təşkil edir. Beləliklə, ölkə həyatının əsas məsələləri Konstitusiyada öz əksini tapır.

3. Konstitusiya yüksək hüquqi qüvvəyə malikdir. Bu, o deməkdir ki**,** o, ölkənin ən əsas qanunudur və bütün qalan qanun və fərmanlar ona uyğun olmalıdır. Ölkədə əsas qanuna zidd ola bilən

qanun, fərman verilə bilməz. Bir çox ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında əsas qanunun pozulmasına yol verməmək üçün xüsusi Konstitusiya Məhkəməsi yaradılmışdır. Əgər o, hər hansı qanun və ya fərmanın Konstitusiyaya zidd olduğunu elan etsə, həmin qanun qüvvədən düşmüş, qüvvəsini itirmiş hesab olunur.

4. Konstitusiyanın bir xüsusiyyəti də onun sabitliyidir. Bu xüsusiyyət nədən irəli gəlir? Konstitusiyanın məzmununu yadımıza salaq. O, cəmiyyətin, dövlətin həyatının əsaslarını müəyyən edir. Məsələn, Konstitusiyanın 59-cu maddəsində azad sahibkarlıq hüququ təsbit edilmişdir. Bu hüququn əsasında ölkəmizdə sahibkarlıq fəaliyyəti geniş yayılmışdır. Cəmiyyətimizdə bazar iqtisadiyyatı formalaşır. İndi təsəvvür edək ki, Konstitusiyamızdan bu maddə çıxarılır. Bu, cəmiyyətimizdə ciddi sarsıntılara və əsaslı dəyişikliklərə gətirib çıxara bilər. Deməli, Konstitusiyanı dəyişmək o qədər də asan məsələ deyildir.

Digər tərəfdən, axı Konstitusiya referendumla — ümumxalq səsverməsi yolu ilə qəbul olunur. Ona görə də onun hər bir maddəsinə xalqın iradəsinin ifadəsi kimi baxılmalıdır. Odur ki, onun mətnində dəyişikliklər də referendumla qəbul edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının strukturu. Azərbaycan Respublikası Konstitusiyası məzmununa uyğun olaraq müəyyən sistem şəklində qurulmuşdur. Bu da Azərbaycan Respublikası Konstitusiyasının strukturu adlanır.

Konstitusiyamız, bütövlükdə, preambula, 5 bölmə və keçid, cəmi 158 maddədən ibarətdir. Azərbaycan Respublikasının Konstitusiyası preambula ilə başlayır. Adətən, beynəlxalq müqavilənin, sazişin giriş hissəsinə preambula deyilir. Burada dovlətçilik ənənələrini davam və inkişaf etdirmək, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu və b. məsələlərlə əlaqədar Azərbaycan xalqının niyyətləri bəyan edilir.

Hər bölmə müxtəlif sayda fəsildən ibarətdir. Bütövlükdə, Konstitusiyada isə 12 fəsil vardır. Hər bir bölmədə cəmiyyət və dövlət həyatının əsaslarını müəyyən edən maddələr verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının funksiyaları. Bu nə deməkdir? Azərbaycan Respublikası Konstitusiyasının ictimai və dövlət təyinatı, tətbiq edilməsi üsulları vardır. Bunlar Azərbaycan Respublikası Konstitusiyasının funksiyası adlanır. 0, cəmiyyət və dövlət üçün hansı vəzifələrin yerinə yetirilməsinə xidmət edir? Bu vəzifələri 5 qrupda birləşdirmək (ümumiləşdirmək) olar:

1. Siyasi
2. Sosial
3. Iqtisadi
4. Hüquqi
5. Tərbiyəvi

Azərbaycan Respublikası Konstitusiyasının funksiyalarını 10.1. saylı sxemində belə ümumiləşdirmişik:

Sxem 10.1.



Azərbaycan Respublikası Konstitusiyası ölkəmizdə konstitusiya quruluşunun əsasını, dövlətlə şəxsiyyət arasında olan münasibətləri, mövcud siyasi sistemin, habelə seçki sisteminin əsaslarını müəyyən edir. Bu, Konstitusiyamızın *siyasi* funksiyasını təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının *sosial* funksiyası ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsi ilə təmin olıınmasını müəyyən etməsindədir.

Konstitusiyamızın *iqtisadi* funksiyası onun xüsusi, dövlət və bələdiyyə mülkiyyət formalarını elan və müdafiə etməsində təzahür edir.

Azərbaycan Respublikasının Konstitusiyası hüququn əsas mənbəyi olub, qanunvericilik sisteminin əsasını təşkil edir və ən mühüm ictimai münasibətləri nizamlayır. Konstitusiyanın *hüquqi* funksiya daşıdığı buradan aydın görünür.

Azərbaycan Respublikasının Konstitusiyası ideoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq mövqeyindən çıxış edir və bununla da vətəndaşlarımızın plüralizm, tolerantlıq və humanizm ruhunda *tərbiyə* olunmasına xidmət edir.

Milli məclis qanunverici orqandır

Qanunvericilik hakimiyyəti. Demokratik dövlətdə hakimiyyətin bölünməsi prinsipi tətbiq olunur. Yəni dövlət hakimiyyətinin üç əsas funksiyası – ***qanunvericilik, icra*** və ***məhkəmə*** funksiyaları müstəqil dövlət orqanları tərəfindən müstəqil icra olunmalıdır. Bir dövlət orqanının əlində, eyni zamanda, həm qanunvericilik, həm də icra hakimiyyəti cəmləşdirilə bilməz.

Qanunvericilik hakimiyyəti funksiyasını ***parlament*** həyata keçirir. Parlament ölkə əhalisi tərəfindən seçki yolu ilə yaradılan, qanunvericilik hakimiyyətini təmsil edən, demokratik dövlət quruluşunun ayrılmaz hissəsi, dövlət hakimiyyətinin mühüm qollarından biridir. Bu orqan müxtəlif ölkələrdə müxtəlif vaxtlarda meydana gəlmişdir. Azərbaycanda ilk parlament 1918-ci il dekabrın 7-də yaradılmışdır.

Parlament ideyası müxtəlif ölkələrdə müxtəlif şəkildə öz əksini tapmışdı. Məsələn, Böyük Britaniyada parlament aliliyi

prinsipi mövcuddur. Bu prinsipə uyğun olaraq, bütün dövlət hakimiyyəti sistemi ***"parlament idarəetməsi"*** adlanır. ABŞ-da hakimiyyətin bölünməsi prinsipi ardıcıl şəkildə qəbul edilmiş, dövlət hakimiyyəti sistemində parlamentin icra və məhkəmə hakimiyyəti ilə bərabər mövqeləri müəyyən edilmişdir.

Parlamentli respublikalarda hökumət parlamentdə səs çoxluğuna malik olan partiyanın təmsilçiləri tərəfindən təşkil edilir. Prezidentli respublikalarda hökumət Prezident tərəfindən təşkil edilir və onun qarşısında nıəsuliyyət daşıyır.

Totalitar dövlətlərdə xalq nümayəndəliyi qondarma xarakter daşıyır. Belə ki, parlament qanun qəbul etməklə hakim partiyanın qərarını rəsmiləşdirir. Keçmiş SSRİ-də nümayəndəli orqan olan Ali Sovet ilə bağlı vəziyyət belə idi.

Parlament bir və ya ikipalatalı olur. Bu, müəyyən mənada dövlət quruluşunun forması ilə müəyyən edilir. Bir qayda olaraq, federativ dövlətlərdə parlament iki palatadan ibarət olur. Parlamentin səlahiyyətləri nümayəndəli və qanunverici orqan kimi onun əsas funksiyalarını əks etdirir. Parlamentin əsas funksiyalarına aşağıdakılar aid edilir: qanunlar qəbul etmək, dövlət büdcəsini təsdiq etmək, icra hakimiyyəti üzərində parlamentin nəzarətini həyata keçirmək.

Milli Məclis. Parlament müxtəlif dövlətlərdə müxtəlif cür səslənir, məsələn, ABŞ-da *Konqres,* İsraildə *Knesset,* Norveçdə *Stortinq,* Misirdə *Xalq Məclisi,* Rusiya Federasiyasında *Federal Məclis* adlandırılır. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyəti bir palatadan ibarət olan *Milli Məclis* tərəfindən həyata keçirilir.

Qanun yaradıcılığı Milli Məclisin əsas funksiyasıdır. Qanunlar yalnız Milli Məclis tərəfindən qəbul edilir. Bir sıra demokratik dövlətlərdə parlamentin icra hakimiyyətinin fəaliyyəti üzərində nəzarət həyata keçirmək hüququ vardır. Bu, xüsusilə, hökumətin parlament qarşısında məsuliyyətində özünü göstərir. Azərbaycan Respublikası Konstitusiyasında da icra hakimiyyətinin parlament qarşısında məsuliyyətini müəyyənləşdirən normalar vardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin etimad məsə-

ləsinin həll edilməsi, Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət belə maddələrdəndir.

Parlamentin nəzarət formalarından biri də ***deputat sorğusudur.*** Deputat öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, məhkəmə hakimiyyəti orqanlarına, Respublikanın Baş prokuroruna və ona tabe olan prokurorlara, yerli özünüidarə orqanlarına və onların vəzifəli şəxslərinə və s. sorğu verə bilər.

Milli Məclisin deputatlarının sayı 125 nəfərdən ibarətdir.

Milli Məclisə seçkilərin əsas prinsipləri. Dövlət hakimiyyəti orqanları iki yolla – seçkilər və təyin olunma yolu ilə formalaşır. Bir qayda olaraq, məhkəmə və icra hakimiyyətinə bir çox yüksək vəzifələrə şəxslərin təyin olunması parlamentin iştirakı ilə həyata keçirilir. Beləliklə, seçkilər ən ali legitimliyi[1] təmin edir.

Azərbaycan Respublikasında Milli Məclis seçkilər yolu ilə formalaşır. Seçkilər demokratiyanın inkişafında və təmin edilməsində, dövlətin idarə olunması işinə vətəndaşların cəlb edilməsində və onlarm siyasi fəallığının artmasında mühüm əhəmiyyət kəsb edir.

Seçkilərin keçirilməsi siyasi tədbir olmaqla, ölkədə demokratiyanın başlıca göstəricisi və xalqın iradəsinin qanuni formada ifadəsidir. Əgər ədalətli seçkilər əsasında dövlət hakimiyyəti orqanları vətəndaşların iştirakı ilə formalaşmırsa, rəylərin və maraqların müxtəlifliyinə əsaslanan vətəndaş cəmiyyəti vətəndaşların könüllü şəkildə qanunlara tabeliyini təmin edə, sosial partlayışların qarşısını ala bilməz.

Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilir.

Milli Məclisə seçkilərin əsas prinsiplərini 10.2. saylı sxemində ümumiləşdirmişik:

Sxem 10.2.

[1] *Legitimlik (latınca "legitimus" — "qanuni") ~ dövlət hakimiyyət orqanının, yaxud ali vəzifəli şəxslərin səlahiyyətlərinin tanınması, bu səlahiyyətlərin Konstitusiyaya və xalqın qanunla ifadə olunan iradəsinə tam uyğun olması.*



Milli Məclis bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir.

- Qanunverici hakimiyyətdir.

Azərbaycan xalqının maraqlarını və iradəsini ifadə edir.

- Dövlət hakimiyyətinin bütün digər qollarına münasibətdə müstəqildir.

- Qəbul etdiyi qanun və qərarlarda icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz.

Milli Məclisin işinin təşkili. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 il müəyyən edilmişdir. Parlanıent üçün belə bir səlahiyyət müddətinin müəyyən edilməsi cəmiyyətdə sosial-iqtisadi, siyasi və digər sahələrdə baş verən dəyişikliklərlə əlaqədar onun tərkibinin vaxtaşırı dəyişməsini təmin edir, deputatların, xüsusilə ilk dəfə seçilən deputatların qanun yaradıcılığı işini, parlamentin iş təcrübəsini mənimsəməsinə və istifadə etməsinə imkanlar yaradır.

Azərbaycan Respublikasının Milli Məclisi hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Yaz sessiyası fevralın 1-dən haşlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 1-dən başlanır və dekabrın 30-dək davam edir. Milli Məclisin fəaliyyəti qısamüddətli vaxtaşırı sessiyalardan təşkil olunmamışdır. O, daimi fəaliyyət gostərən ali nümayəndəli orqandır. Yalnız belə orqan olmaqla Milli Məclis öz üzərinə düşən qanun yaradıcılığı funksiyasını həyata keçirə, cəmiyyətdə baş verən proseslərə fəal müdaxilə edə bilər.

Milli Məclisin işində fasilələr yaranır. Bu müddətdə cəmiyyətdə növbədənkənar sessiyanın çağırılmasına əsas olan hadisələr baş verə bilər. Məhz həmin hadisələrin meydana çıxa biləcəyi ehtimalı nəzərə alınmaqla, növbədənkənar sessiyaların keçirilməsi Konstitusiya ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti və təşkil olunması **"**Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi" ilə müəyyən edilir. Həmin qanuna görə, Milli Məclis onun sədrini və müavinlərini seçir.

Milli Məclisin hər çağırışının birinci sessiyasının əvvəlində Milli Məclisin ***daimi komissiyaları*** yaradılır. Daimi komissiyalar Milli Məclisin çağırışının səlahiyyət müddəti ərzində səlahiyyətlidir. Daimi komissiyaların fəaliyyəti fikir müxtəlifliyi, siyasi plüralizm, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi prinsipləri əsasında qurulur.

Milli Məclisdə aşağıdakı daimi komissiyalar fəaliyyət göstərir: təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyası; hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyası; iqtisadi siyasət daimi komissiyası; təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyası; aqrar siyasət daimi komissiyası; sosial siyasət daimi komissiyası; regional məsələlər daimi komissiyası; elm və təhsil məsələləri daimi komissiyası; mədəniyyət məsələləri daimi komissiyası; insan hüquqları daimi komissiyası; beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyası.

Milli Məclis dövlət büdcəsi üzərində nəzarətin həyata keçirilməsi məqsədi ilə *Hesablama Palatası* yaradır. Hesablama Palatası sədrdən, sədr müavinindən və 7 auditordan ibarətdir. Onların səlahiyyət müddəti 7 ildir.

Milli Məclisin səlahiyyətləri. Milli Məclisin səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsində müəyyənləşdirilmişdir. Onlarm sayı 19-dur. Onlardan bəzilərini nəzərdən keçirək.

1) ***İnzibati-ərazi bölgüsü.*** İnzibati-ərazi bölgüsü ilə əlaqədar Milli Məclis Azərbaycan Respublikası rayonlarının inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında qanunlar qəbul edir.

2) ***Dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi.*** Bu, Milli Məclisin ən mühüm səlahiyyətlərindən biridir. Milli Məclis tərəfindən dövlətlərarası müqavilələr təsdiq edildikdən sonra bu sənədlər Respublikanın qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsinə çevrilir.

3) ***Dövlət büdcəsinin təsdiq edilməsi*** *və* ***onun icrasına nəzarət.*** Bu, lcra hakimiyyəti üzərində parlament nəzarətinin həyata keçirilməsi formalarından biridir. *Dövlət büdcəsi* müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır. Dövlət büdcəsi qanunla qəbul edilir.

4) *Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının* ***hərbi dokirinasını*** *təsdiq edir.* Müasir demokratiyanın ən vacib ünsürlərindən biri də Silahlı Qüvvələr üzərində parlament nəzarətinin olmasıdır. Bu, sivil ölkələrin normal fəaliyyətini şərtləndirən ən əhəmiyyətli amillərdən biridir. Parlament nəzarətinin formalarından biri kimi Milli Məclis tərəfindən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiq edilməsi ölkənin təhlükəsizliyinin təmin olunmasında parlamentin rolunun əhəmiyyətini vurğulayır.

Azərbaycan Respublikasının Prezidenti Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərdən irəli gələn məsələlərin həlli

məqsədi ilə qanun qüvvəli aktlar fərmanlar və sərəncamlar verir. Bir qayda olaraq, bu aktlar Milli Məclis tərəfindən təsdiq edilmir. Əks halda bu, qanunvericilik hakimiyyətinin icra hakimiyyətinə müdaxiləsi və onun nıəhdudlaşdırılması kimi qiymətləndirilə bilərdi. Bu, həm də dövlət hakimiyyətinin bölünməsi prinsipinin pozulmasma gətirib çıxara bilərdi. Beləliklə, icra hakimiyyəti icraedici funksiyasını həyata keçirməkdə müstəqildir. Lakin dövlət həyatının elə məsələləri vardır ki, onların həlli qanunvericilik və icra hakimiyyətlərinin qarşılıqlı razılığını tələb edir. Məhz, hərbi vəziyyət elan edilməsi və fövqəladə vəziyyət tətbiq edilməsi belə məsələlərdəndir. Odur ki, Konstitusiyanın 95-ci nıaddəsinin 8-ci bəndi ilə hərbi vəziyyət elan edilməsi və fövqəladə vəziyyət tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Prezidentin təqdimatı əsasında Azərbaycan Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi hökumətin parlament qarşısında məsuliyyətinə hüquqi əsas yaradan normalardan biridir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası apelyasiya məhkəmələrinin hakimləri Respublika Prezidentinin təqdimatına əsasən, Milli Məclis tərəfindən təyin edilirlər. Milli Məclis Prezidentin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi məsələsini həll edir. Nazirlər Kabinetinin etimad məsələsinin Milli Məclis tərəfindən həll edilməsi Nazirlər Kabinetinin təkcə hüquq məsuliyyəti forması olmayıb, həm də onun siyasi məsuliyyət formasını müəyyən edir.

Milli Məclis Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən ***müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi məsələlərini*** həll edir. Referendum təyin etmək hüququ Milli Məclisə Azərbaycan xalqının mənafeləri və hüquqları ilə bağlı olan hər bir məsələni ümumxalq səsverməsinə çıxarmaq səlahiyyətini verir.

Qanunvericilik prosesi

Qanunvericilik təşəbbüsü hüququ. Azərbaycan Respublikasında onun hər bır vətəndaşının Azərbaycan Respublikasının Milli Məclisinə muracıət etmək, o cümlədən qanunvericiliklə bağlı təkliflərini təqdim etmək huququ vardır. Vətəndaşlar tərəfindən verilən təkliflərə Milli Məclis baxıb qərar qəbul edə və ya onlara baxmaya bilər. Lakin həmin təklıflər qanunvencilik təşəbbüsü hüququ olan subyektlər tərəfindən təqdim edıldıkdə, Milli Məclis həmin təkliflərə qanunvericilik prosesinin butun qaydalarına əməl etməklə baxmağa borcludur. Milli Məclisin Daxili Nizamnaməsində qanunvericilik prosesi dörd mərhələdən ibarətdir:

1) qanunvericilik təşəbbüsü;
2) qanun layihəsinin müzakirəsi
3) qanunun qəbulu;
4) qanunun dərc olunması.

Qanunvericilik prosesinin birinci mərhələsi qanunvericilik təşəbbusudur. Qanunverıcıhk təşəbbüsü hüququ hansı subyektlərə mənsubdur? Bəzı dovlətlərdə bu huquqlar yalnız deputatlara (ABŞ), bəzilərində isə deputatlara və hakimlərə (İspaniya, Fransa) məxsusdur. Azərbaycan Respublikasında isə bu lıuquq Milli Məclisin deputatlarına, Respublika Prezidentinə, Ali Məhkəməyə respublika Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə verilir

Ölkəmizin qanunvericilik təcrübəsi onu göstərir ki, deputatlar və Azərbaycan Respublikası prezidenti qanunvericilik təşəbbüsü huququndan daha çox istifadə edirlər. Milli Məclisə təqdim edilmis qanun və qərar layıhələrı Milli Məclisin Katibliyində qeydiyyata alınır.

Milli Məclisin deputatı qanunvericilik təşəbbüsü hüququnu aşağıdakı formalarda həyata keçir:

a) yeni qanun və ya qərar layihəsinin qəbul olunmasını təklif edə bilər;

b) qüvvədə olan qanuna və qərarlara dəyişikliklər və əlavələr edilməsi haqqında layihə təklif edə bilər;

c) qüvvədə olan qanunun və qərarların qüvvədən dıısməsi haqqında layihə təklif edə bilər;

ç) Milli Məclisdə baxılan qanun və qərar layihələrinə dəyisikliklər və əlavələr edilməsi haqqında təkliflər irəli sürə bilər.

Deputatın qanunvericilik təşəbbüsü hüququ onun təqdim etdiyi qanun və ya qərar layihələrinə Milli Məclisin komissiyalarında baxılması və bu barədə müvafiq qərar qəbul edilməsi ilə, qanunvericilik təşəbbüsü irəli sürən deputatın Milli Məclisin və onun komissiyalarının iclaslarında çıxış etməsinə şərait yaradılması ilə təmin olunur.

Qanun layihələrinin qəbul edilməsi və müzakirəsi. Milli Məclisə təqdim edilmiş qanun və qərar layihələrini Milli Məclisin Sədri Milli Məclisin daimi komissiyalarına göndərir və layihələrə baxılması müddətini müəyyən edir. Bu layihələr bir neçə daimi komissiyaya göndərildikdə Milli Məclisin sədri onlardan birini aparıcı komissiya təyin edir. Milli Məclisin daimi komissiyaları arasında baxılan layihələrə dair fikir ayrılığı yaranarsa, aparıcı daimi komissiyanın qərarı əsas götürülür.

Milli Məclisdə qanun layihələrinə, bir qayda olaraq, üç oxunuşda baxılır. Qanun layihəsinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir. Qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Milli Məclis aşağıdakı qərarlardan birini qəbul edir:

a) layihə birinci oxunuşda qəbul edilsin və soylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilsin (bu qərar protokol qaydasında qəbul edilir);

b) layihə qəbul edilməsin;

v) qanun qəbul edilsin.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi aparıcı daimi komissiyanın nümayəndəsinin məruzəsi ilə başlanır. Məruzəçi daimi komissiyada layihəyə baxılmasının nəticələri barədə məlumat verir. İkinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Bu zaman qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı daimi ko-missiyaya qaytarılır.

Bu iş başa çatdıqdan sonra aparıcı daimi komissiya üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Milli Məclisə göndərir. Qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulur. Üçüncü oxunuş zamanı layihənin mətnində dəyişikliklər edilə bilməz.

Qanunların hüquqi qüvvəyə minməsi. Qanunlar dövlət başçısı tərəfindən imzalandıqdan sonra dərc edilir. Qanunların dərc olunması onların qüvvəyə minməsini şərtləndirən başlıca amildir. Qəbul edilmiş qanunlar, 14 gün müddətində imzalanmaq və dərc olunmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin Sədri tərəfindən Azərbaycan Respublikasının Prezidentinə göndərilir.

Prezident 56 gün müddətində qanunu imzalamalı və ya təkrar baxılmaq üçün onu Milli Məclisə göndərməlidir. Qanunun ıınzalanmasının hüquqi əhəmiyyəti ondan ibarətdir ki, qanunu imzalamaqla dövlət başçısı qanun barəsində öz müsbət rəyini və onun hüquq qaydalarına riayət olunmaqla qəbul edilməsini bildirmiş olur.

Müasir həyatımızda siyasi, iqtisadi və sosial hadisələrin inkişafı qanun layihəsinin qısa bir müddətdə qüvvəyə minməsi zərurətini yarada bilər. Belə olduqda, qanun layihəsi qəbul edildiyi gündən 24 saat ərzində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

Elanetmə qanunun hamı tərəfindən icrasını təmin etmək məqsədi ilə onun mətninin rəsmi qaydada əhaliyə bildirilməsidir. Qanunlar və qərarlar dərc olunduğu gündən qüvvəyə minir.

2. İcraedici hakimiyyət

İcraedici hakimiyyət. İcraedici hakimiyyət dövlət hakimiyyətinin üç qolundan biridir. O, bir-biri ilə sıx surətdə bağlı olan müəyyən dövlət orqanları sistemində təmsil edilmişdir. Bu sistem dövlət orqanlarının və qulluqçularının əsas çoxluğunu əhatə edir və

geniş hüquqlara malikdir. Hüquqi dövlətdə qanunların icrası icra hakimiyyətinin əsas funksiyasıdır.

İcra hakimiyyəti, onun "güc nazirlikləri" (müdafiə, daxili işlər, milli təhlükəsizlik və s.) dövlətin məcburetmə qüvvəsini təcəssüm etdirir. Məhz bu səbəbdən o, siyasi qüvvələrin və ictimaiyyətin daim diqqət mərkəzindədir.

Bütün dövlətlərdə icra hakimiyyətinin rolu onun gücləndirilməsi meyilliliyi ilə səciyyələndirilir. Ölkə daxilindəki proseslər və beynəlxalq həyatın mürəkkəbliyi, elmi-texniki inkişaf şəraitində iqtisadiyyatın tələbləri və sosial ehtiyacların artması icra hakimiyyətinin rolunun gücləndirilməsini şərtləndirən əsas amillərdəndir. İslahatların aparıldığı keçid dövründə onun rolu xüsusilə əhəmiyyətlidir.

Bir qayda olaraq, icra hakimiyyətinin başçısı ***dövlətin başçısı*** hesab edilir. Respublika idarəetmə formasına malik olan ölkələrdə dövlət parlament və ya xalq tərəfindən seçilmiş Prezident tərəfindən təmsil olunur. Onun ölkədəki statusu və həqiqi siyasi rolu respublika idarəetmə formasının müxtəlifliyindən və siyasi rejimin xüsusiyyətlərindən çox asılıdır. Belə ki, prezidentli respublikalarda parlamentli respublikalardan fərqli olaraq, dövlət başçısı ölkənin siyasi həyatında daha fəal rol oynayır. Prezidentli respublikada prezident geniş səlahiyyətlərə malikdir. Parlamentli respublikalarda isə prezidentin rolu olduqca məhduddur. Dövlət başçısı kimi o, icra hakimiyyətini yalnız formal olaraq təmsil edir, həqiqətdə isə icra hakimiyyətinə rəhbərliyi hökumətin başçısı (Baş nazir, Nazirlər Soveti sədri) həyata keçirir.

Hökumət dövlət hakimiyyətinin ali icra və sərəncam orqanıdır. Hökumət başçıları müxtəlif dövlətlərdə müxtəlif cür adlanır. Məsələn, hökumət başçısı AFR-də ***Federal Kansler,*** İtaliyada *Nazirlər Sovetinin sədri,* İrlandiyada ***Baş nazir*** adlanır. Hökumətin tərkibinə mərkəzi hakimiyyət orqanlarına rəhbərlik edən bütün hökumət üzvləri daxildir. Öz səlahiyyətlərinə dair məsələlər üzrə hökumət qərarlar qəbul edir.

Azərbaycan Respublikası prezidentli respublikadır. Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının

Prezidentinə mənsubdur. Azərbaycan dövlətinin başçısı – Prezident öz fəaliyyətini Konstitusiya ilə ona verilmiş səlahiyyətlər çərçivəsində həyata keçirir. O, Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təmin edir. Yəni qanunverici orqana seçkilərin Konstitusiyamızın tələbləri əsasında keçirilməsini müəyyənləşdirmək Prezidentin səlahiyyətindədir. Prezident Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir. Dövlətin iqtisadi və sosial proqramlarını, yəni ölkənin iqtisadiyyatı ilə əlaqədar proqramları təsdiq edir. Sosial problemlərlə bağlı məsələlərin həllinə yönəldilmiş proqramların təsdiqi də Prezidentin səlahiyyətlərinə daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir. Baş naziri vəzifədən azad etmək də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə daxildir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin edir və vəzifədən azad edir. Müəyyən çətinliklər, ziddiyyətlər olduqda və zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir. Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır. İcra hakimiyyətinin başçısı kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv etmək hüququna malikdir. Belə ki, bu orqanların qərar və sərəncamları Konstitusiyaya uyğun olmadıqda Prezident həmin qərar və sərəncamları ləğv etmək səlahiyyətindən istifadə edir. Eləcə də, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktları mövcud qanunvericiliyə uyğun olmadıqda Prezident tərəfindən ləğv edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və İqtisad Məhkəməsi hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Prezident Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir. Milli Məclisdə səs çoxluğu əsasında

bəyənildikdən sonra onlar Prezident tərəfindən vəzifəyə təyin edilirlər.

Prezident Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir. Eləcə də, Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini də vəzifəyə təyin edir.

O, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə heyəti üzvlərini Milli Məclisin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Prezident Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir. Azər-baycan Respublikası Prezidentinin İcra Aparatını təşkil edir və onıın rəhbərini təyin edir. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndələrini vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır. Xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamələrini qəbul edir. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqa-vilələr bağlayır, dövlətlərarası beynəlxalq müqaviləri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir və təsdiqnamələri imzalayır.

Azərbaycan Respublikasının Prezidenti referendum təyin edir. Referendumun keçirilməsi səlahiyyətinin Azərbaycan Respublikası Prezidentinə verilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki Konstitusiyanın qəbulu, respublikanın taleyüklü problemlərinin həlli kimi məsələlər referendum yolu ilə həll olunur.

Azərbaycan Respublikasının Prezidenti qanunları, fərmanları imzalayır və dərc edir, eləcə də vətəndaşlıq məsələlərini həll edir. Azərbaycan dövlətindən siyasi sığınacaq istəyənlərə siyasi sığınacaq verilməsi məsələlərini həll edir.

Azərbaycan Respublikasının Prezidenti əfv etmək, dovlət təltifləri ilə təltif etmək, ali hərbi və ali xüsusi rütbələr vermək, ümumi və rəsmən səfərbərlik elan etmək, habelə səfərbərlik üzrə çağırılanları tərxis etmək səlahiyyətlərinə də malikdir. Prezidentə habelə Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul etmək səlahiyyətləri verilmişdir.

Prezident Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir. Eləcə də, fövqəladə və hərbi vəziyyət elan edir. Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır. Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır. Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

Konstitusiyamızın 110-cu maddəsi ilə Azərbaycan Respublikasının Prezidentinə verilən səlahiyyətlərdən biri də qanunların imzalanmasıdır. Yəni qanunların hüquqi qüvvəyə minməsidir. Həmin maddədə qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır.

Qanun Azərbaycan Respublikası Prezidentinin etirazına səbəb olarsa, qanunu imzalamayıb öz qeydləri ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul ediləni isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Prezident tərəfindən hərbi vəziyyət aşağıdakı hallarda elan edilir:

1) Azərbaycan Respublikasının ərazisinin müəyyən hissəsi faktik olaraq işğal olunduqda;
2) Xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə;
3) Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda;
4) Azərbaycan Respublikası üçün blokada təhlükəsi yarandıqda.

Azərbaycan Respublikasının Prezidenti ölkədə fövqəladə vəziyyət tətbiq edə bilməsi səlahiyyətindən aşağıdakı hallarda istifadə edə bilər:

1) Ölkədə təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa hadisələr baş verdikdə;
2) Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə;
3) Zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının rıormal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə.

Deməli, yuxarıda sadaladığımız hallarda Azərbaycan Respublikasının Prezidenti ölkənin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Nazirlər Kabineti. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır.

Nazirlər Kabineti yuxarıda deyildiyi kimi, icra orqanıdır. Prezident Nazirlər Kabinetindən icra səlahiyyətlərini lıəyata keçir-

mək məqsədi ilə istifadə edir. Elə bu məqsədlə də Nazirlər Kabinetinə status[1] verilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır, prezidentə tabedir və onun qarşısında cavabdehdir. Nazirlər Kabinetinin iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir.

Konstitusiyanın 116-cı maddəsinə əsasən, yəni seçilmiş Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir.

Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Baş nazir vəzifəsinə təyin edilmək üçün yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan vətəndaşı tələb olunur.

Konstitusiyamızın 119-cu maddəsi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə aşağıdakı səlahiyyətlər verilmişdir:

a) Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

b) Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir;

c) Maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir;

ç) Dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

d) Dövlət sosial-təminat proqramlarının həyata keçirilməsini təmin edir;

e) Nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

ə) Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

---

[1] *Status (latınca) – "vəziyyət" deməkdir. Yəni hər hansı şəxsin və ya orqanın səlahiyyətləri və hüquqi vəziyyəti başa düşülür.*

Nazirlər Kabineti rabitə, informasiya, meteorologiya, geodeziya, kartoqrafiya, geologiya, standartlaşdırma sistemlərinin idarə edilməsini tənzimləyir. Bununla yanaşı, ərzaq, sağlamlığın qorunması, sosial təminat, əhalinin məşğulluğu, ana və uşaqların qayğısı, mədəniyyət, təhsil, elmi-texniki tərəqqinin inkişafı, ictimai asayişin qorunması, mülkiyyətin qorunması, vətəndaşların hüquqlarının və azadlıqlarının qorunması məsələlərini öz səlahiyyətləri əsasında təmin edir.

Konstitusiya ilə Baş nazirə xüsusi diqqət ayrılmışdır. Bu, hər şeydən əvvəl, Baş nazirin statusundan irəli gəlir. Baş nazir Nazirlər Kabinetinə ümumi rəhbərliyi həyata keçirir, onun işini təşkil edir və onun əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir. O, Konstitusiya ilə müəyyən edilmiş hallarda Prezidentin səlahiyyətlərini icra edir.

3.Məhkəmə hakimiyyəti

Məhkəmə. Məhkəmə hakimiyyəti. Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqildir və o, hakimiyyətin başqa qollarından asılılığı olmadan həyata keçirilir.

Məhkəmə hakimiyyətinin əsasını səlahiyyətləri olan, nümayəndəli və icra orqanlarından asılı olmayan məhkəmə orqanlarının cəmi təşkil edir.

Müasir dövlətlərdə məhkəmə fəaliyyəti dövlətin konstitusiya quruluşunun əsaslarının, fiziki və hüquqi şəxslərin hüquqlarının və maraqlarının müdafiyəsinin təmin edilməsinə yönəldilmişdir. Məhkəmə hakimiyyəti əsas tarazlaşdırıcı mexanizm kimi dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətlərinin hüquq çərçivəsində fəaliyyət göstərmələri üçün onların fəaliyyətini istiqamətləndirir.

Məhkəmə sistemi müxtəlif dövlətlərdə müxtəlif qaydada formalaşmışdır. Şübhəsiz, məhkəmə sisteminin formalaşmasına dövlətin unitar və ya federativ quruluş forması, dövlətin idarəetmə forması təsir göstərməyə bilməz. Məsələn, ABŞ-ın məhkəmə sistemi federal məhkəmələrdən, ştatların məhkəmələrindən və yerli məhkəmələrdən ibarətdir. Federal məhkəmə sistemi rayon məhkəmələrindən, dairə (apelyasiya) məhkəmələrindən və ABŞ Ali Məhkəməsindən ibarətdir. ABŞ Ali Məhkəməsinin hakimləri Senat

tərəfindən bəyənilməklə şəxsən Prezident tərəfindən təyin edilir. ABŞ Ali Məhkəməsi birinci instansiya məhkəməsi olmaqla, çox mühüm əhəmiyyət kəsb edən məsələləri həll edir, aşağı məhkəmələrin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. ABŞ Ali Məhkəməsinin konstitusiya nəzarəti funksiyası da var.

İtaliyanın məhkəmə sisteminə Ali Kasasiya məhkəməsi, mülki işlər üzrə məhkəmələr, cinayət işləri üzrə məhkəmələr, habelə apelyasiya məhkəmələri aiddir.

İngiltərədə bütün hakimlər monarx tərəfindən təyin edilir.

Azərbaycan Respublikasının məhkəmə sisteminə aşağıdakılar aiddir:

1) Rayon (şəhər) məhkəmələri;

2) Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi;

3) Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi;

4) Hərbi məhkəmələr;

5) Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi;

6) Yerli iqtisad məhkəmələri;

7) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;

8) Apelyasiya məhkəmələri;

9) Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Məhkəmə hakimiyyətinin həyata keçirilməsi. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi Konstitusiyanın 125-ci maddəsi ilə təsbit olunur. Bu maddəyə uyğun olaraq, məhkəmə dövlət hakimiyyətinin xüsusi funksiyası kimi ədalət mühakiməsini həyata keçirən yeganə dövlət orqanıdır. Ədalət mühakiməsini həyata keçirərkən, məhkəmələrin əsas vəzifələri Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə etməkdən ibarətdir.

Ədalət mühakiməsi yalnız qanunla müəyyən edilmiş qaydada və üsullarla həyata keçirilir. Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının əsas məzmununu mülki mübahisələrdən doğan, habelə fiziki və hüquqi şəxslərin hüquqlarının və maraqlarının müdafiəsi ilə bağlı olan işlərin və mübahisələrin baxılma-

sından və həll edilməsindən ibarətdir. Qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa və cinayət məsuliyyətinə cəlb etmək isə cinayət məhkəmə icraatının əsas məzmununu təşkil edir.

Konstitusiya Məhkəməsi. Hüquqi dövlətin ən əhəmiyyətli xüsusiyyətlərindən biri qanunla müəyyən edilmiş formada və qaydada nıəhkəmə nəzarəti funksiyasını həyata keçirən orqanın yaradılmasıdır. Azərbaycan Respublikasında belə orqan Konstitusiya Məhkəməsidir.

Konstitusiya nəzarəti orqanlarına bənzər orqanların yaradılması qədim dövrlərə təsadüf edir. Hələ qədim Yunanıstanda Xalq Məclisi tərəfindən qəbul edilmiş qanunlar andlılar məhkəməsinin müzakirəsinə verilirdi. Bu məhkəmə qanunun taleyini həll edən son qərar qəbul etmək səlahiyyətlərinə malik idi. Feodal İspaniyasında Baş hakimin rəhbərlik etdiyi xüsusi komissiya fəaliyyət göstərirdi. Bu komissiyanın başlıca vəzifəsi sonradan qəbul edilən qanunların kral tərəfindən imzalanmış qanunlara uyğunluğunu təmin etməkdən və bu sahədə nəzarəti həyata keçirməkdən ibarət idi.

Konstitusiya nəzarəti institutu ABŞ-da 1787-ci il Konstitusiyası qəbul edildikdən sonra inkişaf etməyə başlamışdı. 1803-cü ildə Merberi Medisona qarşı iş üzrə ilk dəfə olaraq federal qanun ABŞ-ın Ali Məhkəməsi tərəfindən etibarsız elan edilmişdir.

Keçmiş SSRİ-də, 1977-ci il Konstitusiyasına uyğun olaraq, Konstitusiyaya əməl olunması, ittifaq respublikaları konstitusiyalarının və qanunlarının SSRİ Konstitusiyasına uyğunluğunun təmin edilməsi SSRİ Ali Sovetinin Rəyasət Heyətinin səlahiyyətlərinə aid edilmişdi. 1990-cı ildə isə SSRİ Konstitusiya Nəzarəti Komitəsi yaradılmışdır. Lakin onun səlahiyyətləri çox məhdud idi və o, az bir müddətdə fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiya məhkəməsi 9 hakimdən ibarətdir (bu rəqəm Rusiya Federasiyasında 19, İtaliyada 15, Avstriyada 20, İspaniyada 12 nəfərdir). Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsinin hakimləri Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Milli Məclis tərəfindən 10 -il müddətinə təyin edilirlər. Səlahiyyət

müddəti qurtardıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi yenidən həmin vəzifəyə yalnız bir dəfə təyin edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin üçüncü hissəsində konstitusiya nəzarəti funksiyasının əsas istiqamətləri göstərilmişdir. Bu maddənin beşinci hissəsində isə Konstitusiya Məhkəməsinə dövlət hakimiyyət orqanlarının qərarlarından vətəndaşlar tərəfindən edilən müraciətlər əsasında fərdi şikayətlərə baxmaq səlahiyyətləri müəyyən edilmişdir. Konstitusiya Məhkəməsinə belə səlahiyyətin verilməsi vətəndaşların Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarının qorunmasına xüsusi təminat yaradır, onların hüquq və azadlıqlarının dövlət tərəfindən pozulmasının qarşısını alır.

Bir sıra subyektlərin Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququ vardır. Sorğunun verilməsi qaydasından asılı olaraq, həmin subyektləri iki kateqoriyaya bölmək olar: birbaşa və dolayısı ilə sorğu vermək hüququ olan subyektlər. Birbaşa sorğu vermək hüququ olan subyektlər bunlardır:

1) Azərbaycan Respublikasının Prezidenti.
2) Azərbaycan Respublikasının Milli Məclisi;
3) Azərbaycan Respublikasının Nazirlər Kabineti;
4) Azərbaycan Respublikasının Ali Məhkəməsi;
5) Azərbaycan Respublikasının Prokurorluğu;
6) Naxçıvan Muxtar Respublikasının Ali Məclisi.

Dolayı yolla müraciət etmək və sorğu vermək hüququ olan subyektlər aşağıdakılardır:

1) fiziki şəxslər;
2) məhkəmələr;
3) Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman).

Konstitusiya Məhkəməsi konstitusiya nəzarəti orqanı olmaqla, yeganə dövlət orqanıdır ki, Konstitusiya müddəalarının və qanunların şərhini vermək səlahiyyətinə malikdir.

Ali Məhkəmə. Apelyasiya Məhkəmələri. Azərbaycan Respublikasında üçpilləli məhkəmə sistemi mövcuddur. Bu məhkəmə sisteminə birinci instansiya məhkəmələri kimi rayon (şəhər) məhkəmə-

ləri, Ağır cinayətlərə dair işlər üzrə məhkəmə, Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi, hərbi məhkəmələr, Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmə, yerli iqtisad məhkəmələri, apelyasiya instansiyası məhkəməsi kimi Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, apelyasiya məhkəmələri, kasasiya instansiyası məhkəməsi kimi Ali Məhkəmə daxildir.

Məhkəmə səhvlərinin qarşısının alınmasında, məhkəmə nəzarətinin səmərəli şəkildə həyata keçirilməsində belə məhkəmə sistemi mühüm rol oynayır.

Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin fəaliyyətinə nəzarət edir. Ali Məhkəmənin tərkibinə Ali Məhkəmənin sədri, onun müavini, kollegiya sədrləri və hakimləri daxildir.

Ali Məhkəmə Plenumdan və kasasiya kollegiyalarından ibarətdir. Ali Məhkəmədə mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri üzrə və hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyaları təşkil edilir.

Məhkəmə sisteminin orta pilləsi olmaqla, apelyasiya məhkəmələrinin tərkibi aşağıdakı 10.3. saylı sxem təsnif olunur:

Sxem 10.3.



Apelyasiya məhkəməsi kollegiyaları apelyasiya instansiyası məhkəməsi kimi, həmin apelyasiya məhkəməsinin *ərazi* **yuridiksiyasına**[1] daxil edilmiş birinci instansiya məhkəmələri tərəfindən baxılmış işlər üzrə qərarından verilmiş apelyasiya şikayətləri və apelyasiya protestləri üzrə işlərə baxırlar.

4. Yerli özünüidarəetmə orqanları

Bələdiyyələr. *Bələdiyyə ərəb sözü olub şəhər idarəçiliyi deməkdir*. Bələdiyyələrin səlahiyyətləri. Bir çox dövlətlərdə yerli məsələlərin lıəlli ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə formalaşan yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir.

Yerli özünüidarəetmə cəmiyyətin idarə olunmasında vətəndaşların iştirakının formalarından biri, xalq hakimiyyətinin əsasıdır. Bilavasitə yerli əhalinin idarəsi zəminində formalaşan və real səlahiyyətlərə malik olan yerli özünüidarəetmə orqanlarının əhəmiyyəti ondan ibarətdir ki, bu orqanların köməyi ilə yerli əhali onları narahat edən məsələlərin həllinə yönəlmiş qərarların qəbulunda birbaşa və ya öz nümayəndələri vasitəsi ilə iştirak edə bilər.

Dövlətlərdə yerli özünüidarəni həyata keçirən orqanlar müxtəlif cür adlanır. Bu orqanlar Fransada və İtaliyada kommunalar, Polşada icmalar, Danimarkada bələdiyyələr, Portuqaliyada məhəllələr, munisipilər, inzibati vilayətlər adlanır. Lakin necə adlandırılmasından asılı olmayaraq, yerli özünüidarə orqanları müstəqildirlər və dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildirlər.

Bir qayda olaraq, yerli özünüidarə haqqında rəhbər müddəalar konstitusiya normaları ilə müəyyən edilir. Bu, hər şeydən əvvəl, xalq hakimiyyətinin forması kimi yerli özünüidarənin siyasi əhəmiyyətindən irəli gəlir. Yerli özünüidarə geniş xalq kütləsini özündə birləşdirən, bu kütləni dövlətin idarə olunmasına cəlb edən,

[1] *Ərazi yuridiksiyası – apelyasiya məhkəməsinin səlahiyyətinə aid olan ərazi nəzərdə tutulur*

onun siyasi düşüncəsini və siyasi mədəniyyətini formalaşdıran siyasi təbliğat mərkəzidir. Demokratiyanın məhsulu olan bu institut xalq hakimiyyətinin inkişafında xüsusi rol oynayır. Odur ki, yerli özünüidarənin hüquqi əsasları ilk növbədə konstitusiya normaları ilə təsbit edilir.

Bələdiyyələr öz fəaliyyətini nizamnaməyə uyğun olaraq həyata keçirirlər. Bələdiyyənin nizamnaməsi bələdiyyə iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir.

Bələdiyyələrin nizamnaməsində bələdiyyənin ərazisi, orqanları, strukturu, səlahiyyətləri, bələdiyyə üzvlərinin səlahiyyət müddəti, yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin qaydaları və s. müəyyən olunur.

Bələdiyyələr sosial müdafiə və sosial inkişaf, iqtisadi inkişaf, ekologiya üzrə yerli əhəmiyyətli proqramlar həyata keçirir.

Bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələrin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur.

Bələdiyyə orqanları səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədi ilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlardır. *Bələdiyyə hüququ* yerli özünüidarə ilə bağlı məsələləri tənzimləyən hüquqi normalar sistemidir. *Bələdiyyə mülkiyyəti* mülkiyyət hüququ əsasında şəhər və kənd ərazilərinə, həmçinin digər bələdiyyə qurumlarına mənsub olan əmlakdır. *Bələdiyyə seçkiləri* yerli özünüidarə orqanlarının demokratik təşkili üsuludur.

Yerli özünüidarə sahəsində əsas beynəlxalq sənəd 1985-ci il oktyabrın 15-də Avropada yerli və regional hakimiyyət orqanlarının daimi konfransı tərəfindən Strasburqda qəbul edilmiş "Yerli özünüidarə haqqında Avropa Xartiyası"dır. Xartiyanın əsas məqsədi vətəndaşlara daha yaxın olan və onlara yerli əhəmiyyətli məsələlərin həlli üçün qərarların qəbul edilməsində iştirak etmək imkanı verən yerli özünüidarə orqanlarının hüquqlarının təmin olunması və müdafiəsidir. Bu sənədin müəlliflərinə görə, Xartiya

Avropa Şurasının əsas prinsiplərini – Avropada demokratik təfəkkürü dəstəkləmək və ən geniş mənada insan hüquqlarının müdafiəsini real məzmunda zənginləşdirmək məqsədi daşıyır.

Xartiyanın əsas istiqaməti yerli özünüidarə orqanlarının muxtariyyət dərəcəsinin demokratiyanın əsas meyarı olmasını göstərməkdir.

Azərbaycan Avropa Xartiyasına 2001-ci il dekabrın 12-də qoşulmuşdur.

Azərbaycanda bələdiyyələr. Azərbaycan Respublikasında yerli özünüidarə orqanı kimi bələdiyyələr fəaliyyət göstərir. Azərbaycan Respublikası vətəndaşları Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikasında bələdiyyələrə ilk seçkilər 1999-cu il dekabrın 12-də keçirilmişdir. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.

Bələdiyyələrin işinin təşkili və onların fəaliyyət qaydası «BəIədiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının qanunu və digər normativ sənədlər əsasında müəyyən edilir. Azərbaycan Respublikası Konstitusiyasının 143-cü maddəsi bələdiyyələrin işinin təşkilinə həsr olunmuşdur. Bu maddənin birinci hissəsində bələdiyyələrin fəaliyyətinin iki forması öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

1) iclaslar; b) komissiyalar (daimi və başqa komissiyalar).

Bələdiyyənin iclasları bələdiyyə üzvlərinin ümumi yığıncağıdır. İclaslar ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. İclaslarda aşağıdakı məsələlər həll edilir:

a) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

b) bələdiyyələrin reqlamentinin təsdiq edilməsi;

c) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

ç) yerli vergi dərəcələrinin aşağı salınması barədə qərar qəbul edilməsi və yerli ödənişlərin müəyyən edilməsi;

d) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

e) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

ə) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

f) yerli iqtisadi proqramların qəbul və icra edilməsi;

g) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Bələdiyyələr öz səlahiyyətlərinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması, bələdiyyələrin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarətin təmin edilməsi üçün daimi və başqa komissiyalar yarada bilərlər.

Bələdiyyələrin daimi və başqa komissiyalarının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

a) yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya yerli əhalinin müzakirəsinə çıxarmaq;

b) yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;

c) bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;

ç) seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanmasına kömək etmək.

Bələdiyyələrin daimi və başqa komissiyalarının fəaliyyəti bu prinsiplər əsasında həyata keçirilir: fikir müxtəlifliyi, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi, ictimai rəyi nəzərə almaqla komissiya üzvlərinin təşəbbüskarlığı.

Milli Kitabxana

XI FƏSİL
DEMOKRATİYA VƏ CƏMİYYƏT

1. Demokratik cəmiyyətdə plüralizm, ideologiya və tolerantlıq

Demokratik cəmiyyət anlayışı. Demokratiya cəmiyyətdə elə bir siyasi təşkilatdır ki, o, xalqın hakimiyyət mənbəyi kimi tanınmasına əsaslanır. Demokratiya xalqa dövlət işlərində iştirak etmək hüququ verir və vətəndaşları real hüquq və azadlıqlarla təmin edir. ABŞ-ın eks-prezidentlərindən biri R.Reyqan belə hesab edirdi ki, demokratiya heç də idarəetmə üsulu deyildir; o, insanların ailədə və məktəbdə aldıqları əsas dəyərlərin inkişafına hökumətin mane olmasının qarşısını almaq üçündür.

Demokratiya dövlətin idarə edilməsində vətəndaşların iştirakı hüququ, öz fikrini ifadə etmək və başqalarının fikrini eşidə bilmək imkanıdır. Bu isə o deməkdir ki, demokratiyanı seçərkən biz bütün vətəndaşların bərabərliyinə inam hissindən çıxış edirik. Bir tərəfdən bu inam insanın azad olması fikrinə əsaslanır, digər tərəfdən isə yaddan çıxarmaq olmaz ki, bir nəfərin azadlığı başqasının azad olmasına maneçilik törətməməlidir.

Plüralizmin cəmiyyətdə rolu. Demokratiya əhvali-ruhiyyəsinin hökm sürdüyü cəmiyyətdə, sosial mühitdə ***plüralizmə*** də meydan açılır. Plüralizm nədir?

Demokratik cəmiyyət əsas siyasi partiyalar və təşkilatların qarşılıqlı əlaqələrinə əsaslanan hakimiyyət sistemidir. Çünki demokratik cəmiyyətdə dövlətin siyasətinə - qərarların qəbul edilməsinə, dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə az və ya çox dərəcədə təsir gostərə bilən, bəzən də dövlətin daxili və xarici siyasətini müəyyənləşdirən müxtəlif qüvvələr müxtəlif təşkilatlar fəaliyyət göstərir. Bunlar siyasi partiyalar, siyasi qruplar, həmkarlar ittifaqları təşkilatları və digər ictimai təşkilatlar, hərbi-sənaye kompleksləri və intellektual elitadır.

Bu təşkilatların içərisində siyasi partiyalar xüsusi yer tutur, çünki siyasi partiya dövlətin siyasi həyatına təsir göstərən ən mühüm vasitədir.

Avtoritar və totalitar cəmiyyətlərdən fərqli olaraq, demokratik cəmiyyəti partiyalarsız təsəvvür etmək olmaz. Birpartiyalı sistemə əsaslanan keçmiş Sovet cəmiyyətində hakim kommunist partiyasına müxalif mövqedə dayanan partiyalar yaratmaq mümkün deyildi. Deməli, hakimiyyətə təsir etməkdən, onun siyasi və ideoloji xəttinə münasibət bildirməkdən, hakimiyyətin bölüşdürülməsində iştirakdan söhbət belə gedə bilməzdi. Lakin çoxpartiyalı sistemin hökm sürdüyü cəmiyyətdə belə birliklərin hakimiyyətə təsiri və ya hakimiyyətin bölüşdürülməsində iştirakı mümkündür. Bu, demokratiyanın təzahürü olub, siyasi plüralizmdə öz əksini tapır.

Beləliklə, siyasi plüralizm müəyyən nöqteyi-nəzərlər və baxış çoxluğu olub, sosial qrupların öz maraqlarını ifadə etmək üçün təşkilat yaratmaq imkanıdır.

Siyasi plüralizm şəraitində vətəndaş istədiyi baxışlara, dünyagörüşü istiqamətlərinə malik ola bilər. Lakin bununla yanaşı, o, başqalarının da həmin hüquqlarına hörmətlə yanaşmalı, istənilən fikir müxtəlifliyinə dözümlü münasibət bəsləməlidir.

Totalitar cəmiyyət bütün vətəndaşlardan eyni cür, hakim ideologiyanın müəyyən etdiyi kimi düşünməyi tələb edir. Bu ideologiya hakimiyyətdə olan qüvvələrin maraq və mənafelərinin ifadəsinə yönəldiyi üçün onu tənqid etmək, siyasi proseslərə müdaxilə mümkün deyildir. Sovet cəmiyyətinin xüsusilə XX əsrin 30-40-cı illər tarixi özgə cür düşünənlərin dəhşətli cəzalara məruz qalması ilə zəngindir. insanlar ona görə repressiyalara məruz qalırdılar ki, onlar hakimiyyət ideoloqlarının müəyyənləşdirdiyi kimi deyil, sərbəst düşünürdülər.

Plüralizmin ancaq demokratik cəmiyyətə xas olması. Siyasi plüralizm demokratik cəmiyyətin siyasi quruluş prinsiplərindən biridir. Bu prinsipə əsasən siyasi həyat özündə müxtəlif qarşılıqlı əlaqəli və eyni zamanda müstəqil siyasi qrupların, partiyaların və təşkilatların mövcud olmasını zəruri edir.

Onların tərtib etdiyi proqramlar, irəli sürdüyü ideyalar daim toqquşma və rəqabət halında olur. Beləliklə, cəmiyyətdə siyasi baxışlar, əqidələr, dünyagörüşlər daim toqquşur, bir-biri ilə ziddiyyətdə və münaqişədə olur. Bu təbiidir, əgər belə olmasa inkişaf da olmaz. Ancaq məhz plüralizm onların qarşıdurmalara, düşmənçiliyə çevrilməsinə yol vermir. Siyasi münaqişələrin həllində siyasi plüralizmin rolu çox böyükdür. Plüralizm ziddiyyətlərin sosial-siyasi inkişafın mənbəyi olmasını tanıyır və bu ziddiyyətlərin dinc yolla həllini mümkün edir. Siyasi plüralizm hakimiyyətdə istənilən inhisarı, hər hansı totalitar və avtoritar rejimi rədd edir. Plüralizmin əsas prinsipi hakimiyyətin xalq tərəfindən seçilməsi və hakimiyyətin bölünməsidir.

Demokratik cəmiyyətdə hakimiyyətlə ona müxalif olan siyasi qüvvələr öz aralarındakı münasibətləri aydınlaşdırmaq üçün dialoqa girirlər. Məhz dialoq vasitəsilə plüralist düşüncəli insanlar, qruplar, təşkilatlar, qurumlar arasında qarşılıqlı əməkdaşlığa nail olmaq mümkündür.

Demokratik cəmiyyət quranlar tədricən və böyük intellektual səylər hesabına idarəetmə və həqiqət axtarışı prosesində yaranan münaqişələri dinc yolla həll etməyi öyrəniblər. Burada ilk olaraq qəbul edilir ki, hər hansı mübarizə kimisə əzmək və alçaltmaqdan ötrü deyil, daha yaxşı, ədalətli gələcək uğrunda irəliyə doğru addımlamaq üçün aparılır. Münaqişədə əks tərəf düşmən yox, ümumi problemlərin həlli yollarını tapmaq üçün mübarizə aparmalı olduğumuz həmkardır.

Özünə rəva görmədiyini başqasına da etmə. Demokratiya klassiki Tomas Hobbs tərtib etdiyi "Sülh qaydaları"nın içində bunu "Qızıl qanun" adlandırmışdı.

Qarşılıqlı razılığa əsaslanan cəmiyyət üçün ədalətli və sağlam mübarizə səhvlərin aradan qaldırılması və daha yaxşı gələcək qurulması yolunda yeganə metoddur.

Demokratik cəmiyyət və ideologiya

İdeologiya anlayışı. ***İdeologiya*** termini elmdə XVIII əsrin sonu — XIX əsrin əvvəllərindən işlədilir. Bu anlayışa ilk dəfə fransız alimi Destyut de Frasinin "Düşünmək qabiliyyəti haqqında etüdlər" adlı kitabında rast gəlinir.

İdeologiya termini ilk dəfə işlədildiyi gündən bu zamana qədər onun haqqında müxtəlif nöqteyi-nəzərlər irəli sürülmüş, təsəvvürlər çox böyük inkişaf yolu keçmişdir. Nəticədə onun bir sıra tərifləri meydana çıxmışdır. Onlardan biri belədir: ***ideologiya* – ictimai təfəkkürün formasıdır. O, siyasi, hüquqi, dini, fəlsəfi, mənəvi, bədii baxışlar və ideyalar sistemidir.**

Daha bir tərifl ə tanış olaq: ***ideologiya*** **bu və ya digər insan qrupunun hakimiyyət iddialarını əsaslandıran və buna müvafiq olaraq ictimai fikri öz mənafelərinə tabe etdirməyə çalışan müəyyən doktrinadır.** Bu tərifl ərdən aydın olur ki, ictimai reallığı əks etdirən bütün baxışlar, nəzəriyyələr ideologiya rolunu oynaya bilməzlər. Yalnız müəyyən məqsəd ətrafında cəmlənmiş və konkret mənafeləri müdafiə edən ideya və baxışların vahid sistemi ideologiya hesab olunur.

Lakin bütün sistemli baxışlar da ideologiya sayıla bilməz. İdeologiya sistem şəklinə salınmış elmi nəzəriyyədən fərqlənir. Elm obyektiv gerçəkliyi olduğu kimi, idrak metodlarının köməyi ilə öyrənir və təsvir edir. İdeologiya isə obyektiv gerçəkliyi məqsədyönlü şəkildə, bu və ya digər mənafelərə uyğun olaraq əks etdirir.

Bolşevik diktaturası qurulduqdan sonra Azərbaycanda belə bir ideologiya hakim idi və şüurlara yeridilmişdi: bəylər, xanlar, mollalar, tacirlər, iri sənətkarlar, qolçomaqlar (varlı kəndlilər) sinfi düşməndirlər, çünki onlar "zəhmətkeşləri istismar etməklə məşğul olmuşlar". Bu ideologiya bolşeviklərə öz hakimiyyət iddialarını həyata keçirməyə imkan yaradırdı. Onlar bununla əhalinin böyük əksəriyyətini təşkil edən yoxsul və ortabablarda "sinfi düşmən", "xalq düşməni" obrazı formalaşdırmağa, ictimai fikri öz mənafelərinə tabe etdirməyə nail olmuşdular. Nəticədə yüz minlərlə insan taleyi faciələrlə üzləşdi: həbslər, sürgünlər, edamlar,

repressiyalar sistemli və kütləvi xarakter aldı. Bu ideologiya *siyasi ideologiya* idi.

Orta əsrlərdə Qərbi Avropada katolik kilsəsi xalqın böyük zülmkarı idi. Bu kilsə mərkəzləşmiş dövlətin olmadığı, cəhalət və nadanlığın hökm sürdüyü bir şəraitdə şəriksiz hökmranlığını təmin etmək üçün ideologiyadan məqsədyönlü şəkildə istifadə edirdi. Kilsə təliminə zidd olan hər hansı fikrə, hərəkətə, baxışlara çox böyük dözümsüzlük göstərilirdi. Kilsə ideologiyasına qarşı çıxmaq "bidətçilik" hesab olunurdu. Bələləri daim təqib edilir, kilsə məhkəmələri tərəfindən edama və yaxud diri-diri tonqalda yandırılmağa məhkum olunurdular. Bu ideologiya ***dini ideologiya*** idi.

Böyük yunan filosofu Aristoteli fizika elminin atası hesab edirlər. Lakin onun "fizikasında" nə riyazi formul, nə təcrübə cihazlarının təsviri var. Çünki Aristotel hər hansı nəticəyə mühakimə yolu ilə gəlirdi. Aristotelə görə dünyanın dərk edilməsinə aparan təbii yol bizə məlum olan aşkarlıqdan daha məlum aşkarlığa gedir. Yəni insanlar hər hansı əşyanı əvvəlcə gördükləri kimi də təsəvvür edirlər, məsələn, suyu ancaq susuzluğu yatıran şəffaf maye kimi qəbul edirlər. Ancaq kimyəvi və fiziki xassələrinə baş vuranda suyun nə qədər mürəkkəb bir maddə olduğu aşkara çıxır. Ona görə də bizim mövcud biliklərimizi hazır və dəyişməz təsəvvür etmək olmaz. Tam olmayan, dəqiq olmayan bilik daim təzələnir, zaman keçdikcə daha tam, daha dolğun olur. Bu, ***fəlsəfi ideologiyadır.***

XVIII əsr Fransa burjua inqilabının ideya cəhətdən hazırlanmasında Monteskyenin, Volterin, Russonun və Didronun maarifçilik fəaliyyətinin necə böyük rol oynadığın, yəqin ki, xatırlayırsınız. Onlar feodal qayda-qanunlarını dinc yolla, islahatlar və maarifləndirmə yolu ilə ləğv etmək fikrini irəli sürürdülər. Monteskye isə daha irəli gedərək hakimiyyətin bölünməsi ideyasını təklif edirdi. Bu ideyalar toplusu ***maarifçilik ideologiyası*** idi. XIX əsrdə Azərbaycan cəmiyyətində maarifçilik ideologiyasının daşıyıcıları Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov və başqaları olmuşlar. Bu deyilənləri 11.1. saylı sxemdə ümumiləşdirmişik:

Sxem 11.1.



İdeologiyanın avtoritar və totalitar cəmiyyətdə rolu. Hər bir ideologiya cəmiyyətdə mövcud olan siyasi rejimlə sıx bağlıdır. Xarakterindən, siyasi istiqamətindən asılı olaraq, ideologiya ya mövcud ictimai quruluş və qaydaları müdafiə etmək vəzifələrinə xidmət göstərir, ya da onu dəyişdirmək istiqamətində qərar tutur. Avtoritar və totalitar rejimli cəmiyyətlərdə ideologiya hakimiyyətin qorunmasına və möhkəmlənməsinə qulluq edir. Bu cəmiyyətdə hakim ideologiyaya qarşı çıxanlar, yaxud bununla sadəcə olaraq razılaşmayanlar məhv edilir, həbsə salınır, ölkədən qovulur, bir sözlə, cəmiyyətdən təcrid olunurlar.

Totalitar sovet cəmiyyətində hakim ideologiya kommunist rejiminin qorunmasına və möhkəmlənməsinə xidmət edən kommunist və ya *sosialist ideologiyası* idi. Bu cəmiyyət siyasi plüralizmdən məhrum idi. Kommunist Partiyasının cəmiyyətə və dövlətə alternativsiz rəhbərliyi ən kiçicik tənqidə belə dözümsüz idi. Bir çox görkəmli adamların taleyi daha faciəli olmuşdu. Məsələn, öz şeirində Göygölü tərənnüm edən şair Əhməd Cavad türkçülüyün rəmzi olan goy rəngdən bəhs etdiyi üçün repressiyaya məruz qalmışdı. Ona görə də, müxtəlif ideoloji cərəyanların qadağan olunduğu totalitar və avtoritar cəmiyyətdə rejimə qarşı müxalif mövqedə dayanan ideologiyalar çox zaman qeyri-leqal

şəkildə yayılır. Insanlar gizli dərnəklər, birliklər, partiyalar şəklində birləşirlər.

Demokratik cəmiyyət və ideologiya. Azad, demokratik cəmiyyətdə çoxsaylı ideoloji cərəyanlar bir-biriləri ilə rəqabət şəraitində fəaliyyət göstərirlər. Çünki demokratik cəmiyyətdə hər bir fərd istədiyi kimi düşünə və öz fikrini söyləyə bilər (əgər bu fikir başqalarına qarşı yönəlmiş təhqir deyilsə). Bu cəmiyyətdə müxtəlif siyasi, dini və başqa ideologiyaya mənsub adamlar (məsələn, leyboristlər, sosial-demokratlar, mühafizəkarlar, liberallar, müsəlmanlar, xristianlar, buddistlər, ateistlər, dindarlar və s.) nəinki dinc yanaşı yaşayıb işləyə, hətta bir ideya ətrafında (məsələn, təbiətin mühafizəsi, nüvə silahının yayılmamasına, yoxsulluğa, narkomaniyaya, QİÇS-ə qarşı mübarizə) birləşə də bilərlər.

Demokratik cəmiyyətdə ideologiyanın mövcudluğunu aşağıdakı misallardan da görmək mümkündür. Dünya şöhrətli "Bitlz" qrupunun üzvləri Vyetnam müharibəsinə etiraz əlaməti olaraq, təltif olunduqları ordeni ingilis kraliçasına qaytarmışdılar. ABŞ-ın Vyetnama qarşı ədalətsiz müharibəsinə etiraz əlaməti olaraq hərbi çağırışdan imtina edən məşhur boksçu Məhəmməd Əli həbsxanaya salınmışdı. XX əsrin 80-ci illərinin sonunda Qərb ölkələrinin bir çox musiqiçisi Cənubi Afrika Respublikasında aparteid siyasətinə qarşı aksiyalar – izdihamlı konsertlər təşkil etmişdilər. Bu faktlar göstərir ki, hətta siyasətdən uzaq olan müxtəlif peşə sahibləri də müəyyən ideya ətrafında birləşərək bu və ya digər məsələyə öz münasibətlərini bildirirlər.

Müxtəlif ideologiyaların vətəndaş cəmiyyətində rolu. Artıq vətəndaş cəmiyyətinin nə demək olduğu sizə yaxşı məlumdur. Belə cəmiyyətdə müəyyən ideyalar əsasında yaranmış müxtəlif ictimai birliklər – qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları, qadın təşkilatları, siyasi partiyalar fəaliyyət göstərir. Dövlətdən, hakimiyyətdən asılı olmayan bu ictimai birliklərin fəaliyyəti cəmiyyətdə müəyyən problemlərin həllinə kömək etməklə yanaşı, demokratiyanın inkişafında da mühüm rol oynayır.

Bütün deyilənlərdən çıxan ən mühüm nəticələr bunlardır: a) demokratik cəmiyyətdə hakim ideologiya yoxdur; b) demokratik cəmiyyətdə ideoloji plüralizm mövcuddur; c) demokratik cəmiyyətdə müəyyən ideyalar əsasında yaranan ictimai birliklər vətəndaş cəmiyyətinin inkişafında böyük rol oynayırlar.

Demokratik cəmiyyətdə tolerantlıq

Tolerantlıq anlayışı. Biz bundan əvvəlki mövzularda plüralizmdən, ideologiyadan, danışdıq, siyasi plüralizm şəraitində vətəndaşın istənilən baxış və ideologiyaya malik olmaq hüququndan söz açdıq. Lakin bununla yanaşı onu qeyd etdik ki, hər bir vətəndaş başqalarının da həmin hüquqlarına hörmət etməli, hər hansı fikir müxtəlifliyinə dözümlə yanaşmalıdır. Çünki, insanlar müxtəlif sosial-mədəni köklərə, dini əqidəyə malikdirlər. Təbiidir ki, onların hər birinin həyatın müxtəlif problemləri barədə həmişə müxtəlif fikir və ideyaları olmuşdur və olacaqdır. Belə dünyagörüşü qəbul edən şəxsi ***tolerant insan*** adlandırırlar.

Tolerant insan olmaq - əks baxışlara dözmək, onlara səbirlə yanaşmaq və digər insanları öz baxışlarını dəyişməyə inandırmaq cəhdi zamanı onlara həddindən artıq təzyiq göstərməmək deməkdir. Tolerant insan mövcud fikir ayrılıqlarını dialoq prosesində aydınlaşdırır, istənilən mübahisəni müzakirə və inandırma yolu ilə həll edir. Tolerant insan olaraq öz *opponentlərinizi* bağışlamağa gücünüz çatırsa, deməli, lazım gəldikdə sizi də kimlərsə bağışlayacaqlar.

Tolerantlıq insan hüquqlarının həyata keçirilməsinin, sülhə nail olmağın ayrılmaz və mühüm ünsürüdür. Tolerantlıq güclü əlaqələr yaradır, daha sıx əməkdaşlığa yol açır və insanların həmrəyliyini möhkəmləndirir. Tolerantlıq ədavəti və fikir ayrılığını aradan qaldırmağa kömək edir, zorakılığa, hədə-qorxuya qalib gəlir, cəmiyyətdə təhlükəsizlik hissi yaradır.

Tolerant insan, tolerant cəmiyyət ədalət və bərabərlik kimi dəyərləri həyata keçirməyə və münaqişələri bu dəyərlərdən çıxış etməklə həll etməyə can atır. Bu dəyərlər müxtəlif mədəniyyətlərdə müxtəlif şəkildə ifadə oluna bilər, lakin bütün hallarda onun

mahiyyəti dəyişməz qalır: istisnaya yol vermədən, bütün insanların ləyaqətinə hörmət etmək! Öz fikrini başqalarına zorla qəbul etdirmək cəhdi ciddi münaqişələrə gətirib çıxarır. Bundan isə təkcə ayrı-ayrı insanlar deyil, bütövlükdə cəmiyyət ziyan çəkir.

Bəs tolerantlığa necə tərif vermək olar? Bu tərif YUNESKO-nun Parisdə 185 üzv-dövlət tərəfindən imzalanmış "Tolerantlıq Prinsiplərinin Bəyannaməsi"ndə (16 noyabr, 1995) belə ifadə olunur: **Tolerantlıq – dünyamızda mədəniyyətlərin zəngin müxtəlifliyinə, mövcud özünüifadə formalarına hörmətlə yanaşmaq, bunları tanımaq və düzgün anlamaq deməkdir.** Geniş əhatə dairəsinə malik bu tərif digər irqlərə, dərinin rənginə, cinsinə, yaşa, dilə, dinə, siyasi və digər fikirlərə, milli, yaxud sosial mənşəyə, mülkiyyətə və sair fərqli xüsusiyyətlərə dözümlü münasibəti nəzərdə tutur.

Bəşəriyyət tarixində dözümsüzlük həmişə mövcud olmuş, siyasi, iqtisadi, sosial, mədəni, milli, irqi, dini və ideoloji dözümsüzlük formalarında təzahür etmişdir. Bunlar isə həmişə münaqişələrə və müharibələrə, dini təqiblərə, üsyanlara gətirmiş və ideoloji qarşıdurmalarla nəticələnmişdir. Gündəlik həyatda o, mühüm demokratik azadlıqların ziddinə olaraq, irqi ayrıseçkilik, etnik və dini əlamətə görə təqib formasında təzahür etmişdir. Ümumiyyətlə, dözümsüzlük belə bir şərtə əsaslanır ki, sənin istənilən inandırma sistemin, sənin həyat tərzin, sənin mədəniyyətin, sənin dinin hamıdan yüksəkdə durur. Dözümsüzlüyün əsasını insan şəxsiyyətinin təməl dəyərinin inkarı təşkil edir. Buna görə də tolerantlıq — dözümlülük ictimai münasibətlərdə zorakılıq və məcburiyyətdən çəkinməyə im-kan verən zəruri keyfiyyətdir. Tolerant olmadan dinc yanaşı yaşa-maq mümkün deyil. Məsələn, Ermənistan deyilən ərazidən Azərbaycan türkləri ona görə qovulmuşlar ki, tolerantlıq kimi demokratik və sivil dəyərdən məhrum olan bu dövlətdə ümumiyyətlə türklərə qarşı kəskin milli dözümsüzlük hökm sürür.

Demokratik cəmiyyətdə münaqişələrin həllində tolerantlığın rolu. Demokratik cəmiyyət cinsindən, irqindən, milli mənsubiyyətindən və hansı dinə etiqad etməsindən asılı

olmayaraq, bütün insanların hüquq və azadlıqlarının həyata keçirilməsini təmin edir. Belə cəmiyyətdə insanlar bir-birilərinin fikirlərinə hörmətlə yana**şır, əks baxışları və fikirləri faktlar, dəlillər, sənədlər vasitəsilə, qarşılıqlı anlaşma şəraitində aradan qaldırırlar.**

Belə cəmiyyətdə hər cür zorakılıqdan, ilk növbədə fiziki, psixoloji, sosial zorakılıqdan imtina edilir. Hər şey qarşılıqlı dialoq, səmərəli əməkdaşlıq, əqidə plüralizmi əsasında həll olunur. Tərəflər kompromislər yolu ilə ümumi razılığa gələ bilirlər.

Demokratik cəmiyyətdə yad münasibət, sosial ədalətsizlik, milli və dini ayrı-seçkilik, siyasi və iqtisadi zülm yoxdur. Belə bir şəraitdə insanlar, sosial qruplar, siyasi partiyalar, etnik qruplar, müxtəlif dinlərin nümayəndələri qarşılıqlı anlaşma, yardımlaşma, dialoq əsasında rahatca yaşayırlar. Qarşıya çıxan hər hansı bir problemin münaqişəyə çevrilməsinə yol verilmir, hər şey qanunlar və dəyərlər çərçivəsində həll olunur.

Demokratik cəmiyyətdə hər hansı bir münaqişə baş versə belə, insanlar, qruplar, partiyalar, təşkilatlar dözümlülük nümayiş etdirir, əks baxışlara olan hörmətlərini saxlamaqla, münaqişənin həlli üçün daha optimal yollar tapmağı bacarırlar.

Məhz tolerantlıq münaqişələrin öhdəsindən gəlmək və kompromislərin tapılması üçün ən vacib şərtdir. Dözümsüzlük isə bəşəriyyəti yadlaşmaya, düşmənçiliyə aparır. Buna görə də bu gün tolerantlıq beynəlxalq məna daşıyır.

Tolerantlıq tərbiyəsində əsas vasitələr. İnsanlar yaşa dolduqca, ətrafdakılarla ünsiyyət və əlaqəyə girdikcə, müxtəlif cəmiyyətlərdə, kollektivlərdə, ailələrdə və ölkələrdə yaşadıqca hər cür müxtəlifliklə rastlaşırlar. Dərisinin rənginə, dilinə, dininə, həyata baxışına, daşıdığı ideologiyaya görə ondan fərqlənən bir insanla qarşılaşanda dözümsüzlük yarana bilər. Bu zaman sivil insanın üzərinə düşən tolerant olmaq

- yəni dözümlülük nümayiş etdirməkdir. Bəs onu necə tərbiyə etməli, axı bütün insanlar xarakter etibarilə heç də tez yolagələn, güzəştə gedən, xeyirxah, səmimi, təvazökar və ədalətli deyillər. Bu

çox çətin məsələdir, amma mümkündür. Onun bir sıra vasitələri vardır. Onlardan bəzilərini nəzərdən keçirək:



- İnsan həyatına hörmət, zorakılığa son qoyma, zorakı olmamağı həvəsləndirmə, təhsil, dialoq və əməkdaşlıq vasitəsilə faktiki zorakılıqdan imtina;

- bütün insanların hüquqlarına və azadlıqlarına hörmət və bunun həvəsləndirilməsi;

- münaqişələrin dinc yolla tənzimlənməsinə tərəfdarlıq;

- qadınların və kişilərin hüquqları və imkanlarının bərabərliyinə hörmət və buna şəraitin yaradılması;

- azadlıq, ədalət, demokratiya, həmrəylik, əməkdaşlıq, əqidə plüralizmi, mədəni və dini müxtəliflik prinsiplərinə, cəmiyyətin bütün səviyyələrində və xalqlar arasında dialoqa, qarşılıqlı anlaşmaya sədaqət.

İnsan hüquqlarına hörməti nəzərdə tutan dözümlülük sosial ədalətsizliyə dözümlə yanaşmaq, öz əqidəsini özgə əqidələrə güzəştə getmək demək deyil. Dözümlülük hər bir insanın öz əqidəsini müdafiə etməkdə azad olduğunu və başqalarının da həmin hüquqa malik olduqlarını etiraf etməkdir. Bu həmçinin o deməkdir ki, bir insanın baxışları digərlərinə zorla qəbul etdirilə bilməz.

2. Demokratik cəmiyyətdə steriotiplərə qarşı mübarizə

Stereotiplər anlayışı. Stereotip (yunanca "stereos" – *möhkəm,* "tipos" – *iz)* ictimai hadisə və yaxud obyekt haqqında standartlaşdırılmış sxematik obrazdır.

Məsələn, irqçilər israr edirlər ki, ən yaradıcı irq ağ irqdir; bu, irqçilər arasında digər irqlərə qarşı yayılmış stereotip düşüncədir. Bu stereotipi inkar etmək olduqca asandır. Yapon və Koreya xalqlarının radioelektronika, kompyuter texnologiyası sahəsində uğurları, afro-amerikalıların caz musiqisinin banisi olmaları bu stereotipi inkar edir.

Yaxud, ermənilər türklərin onlara qarşı soyqırım törətdiklərini təsdiq etdirmək üçün bütün dünyada "yazıq erməni" obrazı – stereotipi yaratmağa çalışırlar. Lakin çoxlu təkzibolunmaz faktlar bu stereotipi inkar etməyə əsas verir. Belə ki, ermənilər özləri türk-müsəlmanlara qarşı xüsusi amansızlıqla dəfələrlə soyqırımları törətmişlər. Beləliklə, stereotiplər bütün hadisə və obyektlərə ümumilikdə şamil olunur. Məsələn, biri əyalətdə yaşayırsa, deməli o, etik normaları bilmir, yaxud biri məhkəmə hökmü ilə nə vaxtsa azadlıqdan məhrum edilmişsə, demək, ona etimad bəsləmək olmaz və s. Bu isə düzgün deyil.

Stereotiplərin növləri vardır: siyasi stereotiplər; etnik stereotiplər; irqi stereotiplər; cinsi stereotiplər; dini stereotiplər; mədəni stereotiplər; yaş stereotipləri; sosial stereotiplər.

Stereotipləri sxem şəklində aşağıdakı kimi göstərmək olar.



Yaş stereotipinə aid bir misal göstərək. Bir qayda olaraq Azərbaycanda və digər Şərq ölkələrində cavanlar yaşlı adamlara böyük hörmətlə yanaşırlar. Lakin bu hörməti belə bir stereotiplə bağlamaq olmaz ki, yaşlılar həmişə cavanlardan ağıllı və müdrikdirlər. Təbii ki, bu ümumi təsəvvürlərdən fərdi hallara keçsək, görəcəyik ki, bəzi yaşlılarla müqayisədə bəzi cavanlar daha ağıllı və müdrikdirlər. "Ağıl yaşda deyil, başdadır" xalq məsəli də bu fikri təsdiq edir.

"Qadınlar kişilər qədər ağıllı ola bilməzlər", - cinsi stereotipi də təkzib edən faktlar var. Bu stereotipin yaranmasının uzun bir tarixi var. Çünki qadınlar tarix boyu kişilər tərəfindən diskriminasiyaya məruz qalmışlar. Nəticədə qadınlar ictimai həyatdan uzaqlaşdırılmış, öz yaradıcılığını və əqli qabiliyyətini cəmiyyət qarşısında göstərmək imkanından məhrum edilmişlər. Bu isə qadınların ağlı, biliyi, təxəyyülü barədə belə bir mənfi stereotipin yaranmasını təmin etmişdir.

Bu gün qadınlar həyatın hər sahəsində çalışırlar. Onların nümayəndələri ordu sıralarında, təhlükəsizlik xidməti orqanlarında qulluq edirlər. Qadınlar arasında çoxsaylı alim, müəllim, həkim kimi fəaliyyət göstərənlər ordusu vardır. Bu gün qadın hüquq müdafiəçisidir, diplomatdır, kosmonavtdır, müəssisə rəhbəridir, millət vəkilidir, ən nəhayət, dövlət başçısıdır. Bu təkzibedilməz faktlar yuxarıda göstərilən ***cinsi stereotipi*** inkar edir.

Avtoritar və totalitar cəmiyyətlərdə stereotiplər. Yuxarıda sadaladığımız stereotiplərin, demək olar ki, hamısına avtoritar və totalitar cəmiyyətlərdə təsadüf etmək mümkündür. Bu hal həmin cəmiyyətlərin xüsusiyyətlərindən irəli gəlir. Çünki bu stereotiplər hakim rejimin qorunmasına, onun daha da möhkəmləndirilməsinə xidmət edir. Məsələn, Sovet imperiyasında belə bir stereotip mövcud idi ki, iri sahibkarlar öz ölkələrində fəhlə və kəndlilərin siyasi düşmənləridir. Bu, iri sahibkarların hamısına şamil olunan stereotip idi. Bu stereotip təsəvvür əsasında sovet ideologiyası «düşmən obrazı» yaradırdı. Stereotipin bu növü ***siyasi stereotipdir***.

Totalitar cəmiyyətdə ***dini stereotiplərdən*** də geniş istifadə olunur. «Din xadimlərinin hamısı nadan, fırıldaqçı, riyakar və cəhalətpərəstdirlər» stereotipi uzun müddət sovet ideologiyasının əlində ruhanilərdən "düşmən obrazı" yaratmaq üçün silah rolunu oynamışdır. Bu stereotipi inkar edən faktlar da vardır. Müsəlman din xadimlərinin əksəriyyəti ali ruhani təhsil almış, bir çox dünyəvi elmləri yaxşı mənimsəmiş, elmə, biliyə, maarifə xidmətlər göstərmiş, doğruçul və ədalətli olmuşlar.

Stereotiplər həm də dözümsüzlük və münaqişələrin törədilməsində bir növ mənbə rolunu oynamışlar. Bu özünü xüsusilə etnik və dini stereotiplərdə daha çox göstərir. Siz yəqin ki, dəfələrlə "alman dəqiqliyi", "azərbaycanlı qonaqpərvərliyi", "ingilis soyuqqanlılığı" haqqında eşitmisiniz. Lüğətdə "etnik stereotiplər" anlayışına belə tərif verilir: Etnik stereotiplər müxtəlif etnik birliklərə məxsus mənəvi, əqli və fiziki keyfiyyətlərlə bağlı olan nisbətən sabit təsəvvürlərdir.

Hər bir etnos müəyyən maddi və mənəvi dəyərlər yaratdığı üçün onun hər bir nümayəndəsi özünü əcdadlarının işinin davam-

çısı kimi hiss edir. Bu mənada stereotip sosial təcrübənin ötürücü forması rolunu oynayır.

Çox vaxt konkret bir millətin nümayəndəsinə münasibətdə onun əməllərini deyil, milliyyəti haqqındakı etnik stereotipləri əsas götürürlər. Etnik stereotiplər çox vaxt emosional əsaslı və son dərəcə sxematikləşdirilmiş olduğundan insan psixikasma işğaledici təsir göstərir, nəinki fərdi, eləcə də ictimai şüuru öz təsirinə salır.

Nəzərə almaq lazımdır ki, stereotiplər ilk növbədə həmin etnik birliklərə mənsub olan insanların fikir və dəyərləri kimi üzə çıxır. Başqa xalqlar haqqında dəyər və fikirlərin məcmusu isə həm müsbət, həm də mənfi ola bilər. Onların xarakteri qarşılıqlı münasibətlərin tarixi təcrübəsinə əsaslanır. Belə subyektiv bir əsasa malik olduğu üçün etnik stereotiplərə daxil olan məlumatlar adətən natamam, bəzən də səthi olur. Buna görə də mənfi etnik stereotiplərin cəmiyyətə təsiri çox təhlükəlidir. Təəssüflər olsun ki, çox vaxt bu təsir millətlərarası münaqişələrdə özünü göstərir.

Məlumatı az olan, sosial gerçəkliyə nüfuz etməyə çalışmayan insanlar stereotiplərin təsirinə daha çox məruz qalırlar.

Demokratik dövlətlərdə stereotiplərin aradan qaldırılması yolları. Bu gün bütün bəşəriyyət qlobal terror təhlükəsi ilə üz-üzə qalmışdır. Hətta dünyanın ən qüdrətli dövlətləri belə terror təhlükəsindən sığortalanmamışlar. 2001-ci ilin 11 sentyabrında ABŞ-ın Nyu-York şəhərində iki iri ticarət mərkəzi təyyarələrlə partladıldı. Bu, minlərlə dinc insanların ölümünə səbəb oldu. Bir çox Amerika filmlərində ərəblər və müsəlmanlar haqqında neqativ, terrorçu stereotipi yarandı. Bunun səbəbi 11 sentyabr hadisələrindən əvvəl və sonra bir sıra ölkələrdə baş vermiş terror aktlarında amerikalıların fərziyyəsinə görə, ərəb mənşəli şəxslərin iştirak etməsidir.

Lakin faktlar bunun əksini göstərir. Dünyada mövcud olan terrorçu təşkilatlar təkcə ərəb mənşəlilərdən və müsəlmanlardan ibarət deyildir. Məsələn, İspaniyada yerli etnik qrup olan basklardan ibarət "Eta" təşkilatı, yaxud Şimali İrlandiyada İRNA terrorçu təşkilatı son 10 il ərzində dinc insanlara qarşı yüzlərlə qanlı terror aktları törətmişlər. Lakin irland terrorçuları haqqında filmlər çox azdır, ispan terrorçuları haqqında isə heç bir film bizə məlum deyil.

Ermənilərin "ASALA" və "Daşnaksutyun" terrorçu təşkilatları tərəfindən XX əsrin 70-90-cı illərində Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı çoxsaylı terror əməliyyatları həyata keçirilmişdir. Kürd terrorçu təşkilatı PKK-nın qanlı əməlləri də eyni qəbildəndir. Lakin erməni və kürd terrorçuluğu barədə çox az film çəkilmişdir.

Bəs demokratik dövlətlərdə belə stereotipləri necə aradan qaldırmaq olar? İlk növbədə bu ölkələrdə çəkilən filmlərdə ərəb xalqlarından olan müsbət personajların yaradılması bu işdə mühüm rol oynayar. Buraya bədii əsərlərin yazılması, kütləvi informasiya vasitələrində, internet saytlarında real həqiqətləri əks etdirən məlumatların verilməsi, lobbiçilik fəaliyyətinin gücləndirilməsi də daxildir. ABŞ Dövlət Departamenti tərəfindən terrorçu təşkilatların siyahısının tərtib edilərək beynəlxalq ictimaiyyətə açıqlanması da bu cür stereotiplərin aradan qaldırılmasında az rol oynamır.

Sosial stereotiplər. Son on ildə sosial şərait xeyli dəyişmişdir. Həmin sosium özünün hər bir üzvünə fərqli tələblər yönəldir və cəmiyyətin hər növbəti inkişaf mərhələsində bu tələblər çoxluğu təzələnir, yeniləşir. Budur, ətrafda mövcud olan və baş verən hadisələrin qərəzsiz qavrayışında psixoloji uçurumlar vardır. Bu uçurumlar maneə, süzgəc, eynək kimi dünya qavrayışını məhdudlaşdırır, xüsusən də yanıldır. İstənilən mühitdə uyğun davranışları ilə sistemin tələblərini ödəyən adam nisbətən yaxşı qarşılanır. Lakin insanın həyatında ənənəvi sabitlik pozulanda müstəqil qərar vermək zəruriləşir. Bu zaman insanda narahatlıq və qorxu hissi yarana bilər. Bəzən bu hislər elə ağır təsir bağışlayır ki, insanlar situasiyadan qaçmağı üstün tutur, bununla da xəstəliyə, alkoqolizmə və tənhalığa yuvarlanırlar. İstənilən bu cür hallar, öz növbəsində şəxsi həyatda ciddi dəyişikliklərə səbəb olur, ətrafdakı insanlarla ünsiyyət problemi yaradır. Öz daxili tənəzzülünü hiss edən insan ya kömək axtarır, ya da "hədəf" seçir, yəni öz problemlərini üstünə yıxmağa adam axtarır. Böhran şəraiti insanı cəmiyyətdən təcrid edib biganələşdirə bilər və nəticədə tərkidünyalıq yaranır. Başqasını bəyənməyən, sevməyən adam həmişə narahatlıq içində olar. Belə bir vəziyyətdə bu və ya digər addımlarm düşünülməmiş olması

qənaəti özünü doğruldur. Insanın düşüncələrini dəyişərək, hadisələrə olan münasibətlərinə yenidən baxması onun psixologiyasından, idarə gücündən çox asılıdır.

Əgər hər hansı bir insan stereotipdən uzaqdırsa, onda o, ya geniş düşüncəlidir, ya da cəmiyyətin istiqamətini tuta bilmir. Stereotiplərin faydası ondadır ki, onlar dünya haqqındakı təsəvvürlərimizi sistemləşdirməkdə bizə kömək edirlər. Beləliklə, stereotiplər gerçəklikdə üç əsas göstəriciyə malikdir:

1. Qruplararası ayrı-seçkilik qoyulur və bununla da insanlar yaxşı və pis kateqoriyalara parçalanmalı olurlar.

2. Bir qrup daxilində xüsusiyyətlərin və əlamətlərin izlənməsi baş verir.

3. Seçmə qavrayışı yaranır, yəni stereotipə zidd olan informasiya qəbul edilmir.

Milli Kitabxana

XII FƏSİL
DEMOKRATIK CƏMİYYƏTDƏ SEÇKİLƏR

1. Azərbaycan Respublikasında seçki hüququnun təminatı

Vətəndaşların seçki hüququ: aktiv və passiv hüquq. Xalqın iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına azad, demokratik seçkilərin keçirilməsidir. Seçkilər, demək olar ki, bütün dünyada vətəndaşların cəmiyyətin həyatında və dövlət işlərində iştirakının ən kütləvi formasıdır. Siyasi mədəniyyətin, hüquq şüurunun və mədəniyyətinin formalaşmasında, xalqın ümumi iradəsinin milli maraqlar ətrafında birləşdirilməsində seçkilərin əhəmiyyəti böyükdür.

Seçkilərin keçirilməsi hüquqi və siyasi əhəmiyyəti ilə seçilir. Seçkilərin keçirilməsinin hüquqi əhəmiyyətini başlıca olaraq, vətəndaşların aktiv və passiv seçki hüquqlarının həyata keçirilməsinə hüquqi təminat verilməsi və Konstitusiya ilə müəyyən edilmiş dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının formalaşması təşkil edir. Siyasi əhəmiyyətə isə seçkilərin nəticələrindən asılı olaraq, ölkədə mövcud siyasi qüvvələr nisbətinin, demokratiyanın vəziyyətinin, seçicilərin arzu və istəklərinin, onların siyasi, iqtisadi və sosial sahələrdə olan tələblərinin müəyyən edilməsi daxildir.

Dövlət hakimiyyətinin və yerli özünüidarə orqanlarının yalnız xalqın iradəsi, istəyi əsasında təşkili və fəaliyyət göstərməsi cəmiyyətdə siyasi sabitliyə təminat verir, vətəndaşlarda milli özünüdərketməni inkişaf etdirir. Tarixi təcrübə göstərir ki, real seçki hüququna malik olmayan, azad, demokratik və ədalətli seçkilərin keçirilməsi üçün lazımi şərait yaradılmayan avtoritar dovlətlərdə siyasi sabitlik, iqtisadi inkişaf, sosial rifahın yaxşılaşdırılması qeyri-mümkündür. Bütün bunlar bir daha Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində öz əksini tapmış seçki hüququnun vətəndaşların digər Konstitusiya hüquqları içərisində xüsusi yer tutduğunu təsdiq edir.

Seçki hüququ iki ünsürlə - aktiv və passiv seçki hüquqları ilə səciyyələnir.

Aktiv seçki hüququ vətəndaşların nümayəndəli orqanlara seçkilərdə qanunla müəyyən edilmiş qaydada iştirak etmək, daha doğrusu, seçmək hüququdur.

Passiv seçki hiiququ vətəndaşların nümayəndəli orqanlara seçkilərdə və ya seçkili vəzifələrə namizəd sifəti ilə qanunla müəyyən edilmiş qaydada iştirak etməyə əsas verən subyektiv hüququdur, yəni seçilmək hüququdur. Aktiv və passiv seçki hüquqları haqqında müddəalar "Azərbaycan Respublikasının Seçki Məcəlləsi"ndə öz əksini tapmışdır.

Azərbaycan Respublikası vətəndaşları üçün aktiv seçki hüququ 18 yaş müəyyən edilmişdir. Passiv seçki hüququ üçün aşağıda göstərilən yaş senzləri müəyyən edilmişdir: Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmək üçün – 25 yaş; Azərbaycan Respublikasının prezidenti seçilmək üçün – 35 yaş; bələdiyyələrə üzv seçilmək üçün 21 yaş.

Seçki orqanları. Azərbaycan Respublikasında seçkilər ***seçki komissiyaları*** tərəfindən təşkil edilir və keçirilir. Seçki komissiyaları seçkilərin hazırlanmasını, keçirilməsini, səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyən edilməsini, vətəndaşların seçki hüquqlarının həyata keçirilməsini və müdafiəsini təmin edir, həmin hüquqlara riayət olunmasına nəzarət edirlər. Seçki komissiyaları seçkilərin hazırlanması və keçirilməsində dövlət hakimiyyət orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, qeyri-hökumət təşkilatlarından və başqa ictimai təşkilatlardan, digər hüquqi və fiziki şəxslərdən asılı deyildirlər.

Azərbaycan Respublikasında seçki komissiyaları sisteminə aşağıdakı komissiyalar daxildir: Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası; dairə seçki komissiyaları; məntəqə seçki komissiyaları. Bu komissiyalar yuxarıdan aşağı 12.1. sxemində verildiyi kimi sıralanır:

Sxem 12.1.

Mərkəzi Seçki Komissiyası. Seçki komissiyalarının işinə Azərbaycan Respublikasının *Mərkəzi Seçki Komissiyası* rəhbərlik edir. Bu orqan 18 üzvdən ibarətdir. Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclis tərəfindən aşağıdakı qaydada seçilir: 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təmsil edən siyasi partiyaları təmsil edirlər.

Mərkəzi Seçki Komissiyasının üzvləri ali təhsilli olmalıdırlar. MSK prezident seçkilərinin və Milli Məclis deputatlarının seçkilərinin, həmçinin referendumların, bələdiyyələrə seçkilərin hazırlanmasını və keçirilməsini təmin edir. Mərkəzi Seçki Komissiyasının səlahiyyətləri və fəaliyyəti "Azərbaycan Respublikasının Seçki Məcəlləsi" ilə müəyyənləşdirilir.

Mərkəzi Seçki Komissiyasının üzvü Azərbaycan Respublikası Baş prokurorunun razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, saxlanıla bilməz, tutula bilməz və ya məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Mərkəzi Seçki Komissiyasının üzvü cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, Mərkəzi Seçki Komissiyası üzvünü tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

Dairə və məntəqə seçki komissiyaları. Dairə seçki komissiyası 9 üzvdən ibarətdir. Bu üzvlər Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilirlər. Dairə seçki komissiyasının üzvlərinin təyinatı aşağıdakı qayda üzrə həyata keçirilir: komissiyasının 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı MSK-da təmsil edən komissiya üzvləri tərəfindən; 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları MSK-da təmsil edən komissiya üzvləri tərəfindən; 3 üzvünün namizədliyi isə heç bir siyasi partiya mənsubiyyəti olmayan Milli Məclis deputatlarını MSK-da təmsil edən komissiya üzvləri tərəfindən təqdim edilir.

Azərbaycan Respublikasında 125 seçki dairəsinə müvafiq sayda dairə seçki komissiyaları yaradılır.

Məntəqə seçki komissiyaları müvafiq dairə seçki komissiyaları tərəfindən 6 üzvdən ibarət təşkil edilir. Məntəqə seçki komissiyasının üzvlərinin təyinatı aşağıdakı qayda üzrə həyata keçirilir: 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən; 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları dairə seçki komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən; 2 üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını dairə seçki komissiyasında təmsil edən üzvlər tərəfindən təqdim edilir.

Seçki məntəqəsi. Səsvermənin keçirilməsi və səslərin hesablanması məqsədi ilə bələdiyyə qurumlarının ərazilərində qeydə alınmış seçicilərin sayı nəzərə alınmaqla hər beş ildən bir ***seçki mən-***

təqələri yaradılır. Seçki məntəqələrinin yaradılması haqqında dairə seçki komissiyasının qərarında məntəqənin hüdudları (seçki məntəqəsi yaşayış məntəqəsinin bir hissəsini əhatə etdikdə evlərin nomrələri nəzərə alınmaqla küçələrin adları) dəqiq göstərilməlidir. Seçki məntəqəsinin ərazisində ən çoxu 1500 və ən azı 50 seçici qeydə alınmalıdır.

Səsvermə qaydası, səslərin hesablanması. Seçkilər günü səsvermə saat 8-dən 19-a kimi keçirilir. Məntəqə seçki komissiyaları səsvermə gününə azı 25 gün qalmış səsvermənin yeri və vaxtı haqqında kütləvi informasiya vasitələri və ya məlumat lövhələri vasitəsi ilə seçiciləri xəbərdar etməlidir.

Seçiciyə seçki bülleteni seçici vəsiqəsi ilə birlikdə şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə verilir. Seçici seçki bülletenini aldıqdan sonra seçicilər siyahısına şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi yazılır və onun tərəfindən imza edilir.

Hər bir seçici şəxsən və təklikdə səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir. Seçki bülleteni seçicidən başqa heç kəsin daxil olmasına icazə verilməyən, gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz olunmuş otaqda və ya kabinədə doldurulur. Doldurulmuş bülleten məntəqə seçki komissiyasının möhürü ilə möhürlənən zərfə qoyulur və səsvermə üçün nəzərdə tutulmuş seçki qutusuna atılır.

Səsvermə müddəti başa çatdıqdan sonra səslər hesablanır. Səslər hesablanarkən seçki qutularında bülletenlər olan zərflərin ümumi sayı bülleten alan seçicilərin sayından çox olarsa, seçki qutusunda olan bütün səslər məntəqə seçki Komissiyasının qərarı ilə etibarsız sayılır.

Səsin etibarlılığına şübhə yarandıqda məntəqə seçki komissiyası məsələni səsvermə yolu ilə həll edir. Səsin etibarsız sayılması haqqında qərar qəbul edilərsə, bülletenin arxa tərəfində etibarsız sayılmanın səbəbləri göstərilməlidir.

Məntəqə seçki Komissiyasının sədri tərəfindən məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə seçicilərin səslərinin hesablanması birbaşa səsverməyə yekun vurulanadək fasiləsiz aparılır. Bu zaman

istifadə edilmiş hər bir seçki bülleteni mohürlənir. Məntəqə seçki Komissiyasının bütün üzvləri və müşahidəçilər səsvermənin nəticələri ilə tanış edilir.

Seçki protokolları. Səsvermənin yekunları rəsmi olaraq məntəqə seçki Komissiyasının protokolunda öz əksini tapır. Protokolun 1-ci nüsxəsi digər müvafiq sənədlərlə birlikdə dərhal, lakin 24 saatdan gec olmayaraq dairə seçki komissiyasına gondərilir. Dairə seçki komissiyasının protokolu məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında səsvermə günündən 2 gün keçənədək tərtib edilir. Dairə seçkı komissiyasının protokolunun 1-ci nüsxəsi müvafiq sənədlərlə birlikdə dərhal, lakin səsvermə günündən 2 gün gec olmayaraq Mərkəzı seçki Komissiyasına göndərilir.

Mərkəzi Seçki Komissiyasının müvafiq protokolu dairə seçkı komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında tərtib edilir. Göstərilən məlumatların umumiləşdirilməsi fasiləsiz aparılır. Milli Məclisə və bələdiyyələrə seçkilərin nəticələri üzrə Mərkəzi Seçki Komissiyasının protokolları tərtıb edilmir.

Seçkilərin ilkin nəticələri səsvermə günündən başlayaraq ən geci 5 gün müddətində Mərkəzi Seçki Komissiyası tərəfindən seçkı dairələri üzrə səsvermənin nəticələrini ümumiləşdirən cədvəl şəklində dərc edilir və həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər.

Mərkəzi Seçki Komissiyası 45 gün müddətində kütləvı informasiya vasitələrində dairə seçki komissiyalarının protokollarında olan məlumatları tam şəkildə dərc edir və həmin məlumatlar Mərkəzı Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər.

2. Referendum ümumxalq səsverməsidir

Referendum ümumxalq səsverməsidir. Referendum ümumxalq səsverməsi forması olub, xalqın öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələnin bu yolla həll etmək imkanıdır. Referendum ilk dəfə 1439-cu ildə İsveçrədə keçirilmişdir.

Dünya təcrübəsində referendum gizli səsvermə yolu ilə hər hansı bir sənəd layihəsinin təsdiq edilməsi (və ya edilməməsi), parlamentin, dövlət başçısının, yaxud hökumətin bu və ya digər hərəkətlər etməsinə razılığın verilməsi (və ya verilməməsi) məqsədi ilə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Referendum, bir qayda olaraq, Konstitusiya ilə müəyyən edilmiş məsələlərin həllində ali legitimliyə, yəni daha yüksək hüquqi təminata nail olmaq üçün tətbiq edilir. Referendumun keçirilməsində başqa bir səbəb isə müəyyən məsələnin həllində öz üzərinə tam məsuliyyət götürmək məqsədilə hər hansı bir akt ilə bağlı əhalinin rəyini öyrənmək və ya razılığını əldə etmək üçün dövlət hakimiyyətinin istəyi ola bilər.

Nəticəsindən asılı olaraq referenduma çıxarılan sənəd qəbul edilə və ya edilməyə bilər. Keçirilməsi Konstitusiyada nəzərdə tutulan referendumlar bəzən ***nəzarət referendumu*** adlanır. Buna misal olaraq, Avropa İqtisadi Birliyinə üzvlük məsələsi ilə bağlı XX əsrin 70-80-ci illərində Böyük Britaniyada, Danimarkada və digər Avropa dövlətlərində keçirilən referendumları göstərmək olar. Bir çox dövlətlərdə nəticəsi məcburi xarakter daşımayan ***məsləhət referendumlarına*** da rast gəlmək olar. Buna misal olaraq, nəqliyyatın sağ tərəfli hərəkətə keçilməsi barədə 1956-cı ildə İsveçdə keçirilən referendumu göstərmək olar. Finlandiya Konstitusiyasının 3-cü fəsli məhz məsləhət referendumuna həsr olunmuşdur.

Referendumun növləri. Referendumu müxtəlif əlamətlərə görə təsnif etmək olar. Belə əlamətlərdən biri onun keçirildiyi ərazi hüdudlarıdır. Bu əlamətə görə referendumlar *ümumrespublika* və *yerli referendumlara* bölünür.

Ümumrespublika referendumu - *bütün respublika hüdudlarına şamil olunan hər hansı bir məsələ üzrə ümumxalq səsverməsidir.*

Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş məsələlər üzrə keçirilən ümumxalq səsverməsi bütün respublika hüdudlarına şamil olunur.

Yerli referendum – *yerli əhəmiyyətli məsələlər barəsində qanunla nəzərdə tutulmuş müəyyən ərazi hüdudları daxilində aparılan rəy sorğusudur.*

Referenduma çıxarılan aktın xarakterindən asılı olaraq referendum aşağıdakı növlərə bölünür: ***qanunverici referendum*** və ***qanunverici olmayan referendum.***

Qanunverici referendum qanun layihələrinin ümumxalq səsverməsi yolu ilə qəbul edilməsini nəzərdə tutur. Beləliklə, burada müzakirə obyekti yalnız qanun layihəsi ola bilər. Qanunverici olmayan referendum isə qanun layihəsi olmayan hər hansı bir akt ilə əlaqədar rəy sorğusunu nəzərdə tutur. Belə referendumlar daha çox məsləhət xarakteri daşıyır.

Ölkədə demokratiyanın inkişafında və əhalinin siyasi fəallığının artmasında referendumun əhəmiyyəti əvəzsizdir. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin mənbəyi xalq olduğu üçün taleyüklü məsələlərin həllində onun iştirakının təmin edilməsi olduqca vacibdir. Belə bir təminat Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsində öz əksini tapmışdır. Tələblərin xarakterindən asılı olaraq Konstitusiyanın 3-cü maddəsində səlahiyyətverici, məc-buredici və qadağanedici normalar müəyyən edilmişdir. Maddənin birinci hissəsi Azərbaycan xalqına öz hüquqları və mənafeləri ilə bağlı məsələləri referendumla həll etmək hüququ verən normadır. Həmin normanın hüquqi

əhəmiyyəti onun Azərbaycan xalqının milli maraqları ilə bilavasitə bağlı olmasıdır.

Hər bir dövlətin milli təhlükəsizlik konsepsiyasının əsasını milli maraqlar təşkil edir. Həmin maraqlar dövlətin dünyada və ya regionda mövqeyi, iqtisadi inkişafı, daxili və xarici təhlükələr, mühüm əhəmiyyət kəsb edən digər amillər nəzərə alınmaqla müəyyən edilir. Milli maraqlar xalqın taleyi ilə birbaşa əlaqəsi olan və təmin edilmədikdə onun mövcudluğuna təhlükə yarada bilən bütün imkan və bacarığını tələb edən məqsədlərdir.

Maddənin ikinci hissəsində yalnız Azərbaycan xalqının birbaşa iştirakı ilə, yəni referendumla həll oluna bilən məsələlər sadalanır. Bunlar aşağıdakılardır:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;
2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyiş-dirilməsi.

Oxşar müddəalar Konstitusiyanın diğər maddələrində də öz əksni tapmışdır. Məsələn, Konstitusiyanın 152-ci maddəsinə görə, Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər. Konstitusiyanın 11-ci maddəsinə görə isə, Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Konstitusiyanın 3-cü maddəsinin 3-cü hissəsində referendumla həll olunması qadağan olunan məsələlər barəsində göstəriş ifadə olunur. Həmin məsələlər bunlardır:

1) vergilər və dövlət büdcəsi;
2) amnistiya və əfvetmə:
3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

Vergilər və dövlət büdcəsi bir-biri ilə sıx əlaqəsi olan və bir-birini tamamlayan iqtisadi kateqoriyalardır. Vergilər dövlət hakimiyyəti orqanlarının fəaliyyətinə maddi təminat verən əsas

vəsait mənbəyi kimi dövlətlə bir vaxtda yaranmışdır. Vergilərin əsas xüsusiyyətlərindən biri onun dövlətlə bağlılığından irəli gəlir. Vergilər dövlət tərəfindən müəyyən edilən məcburi ödəmələrdir. Onlar dövlət büdcəsinin formalaşmasında başlıca vasitədir.

Bütün bu xüsusiyyətləri nəzərə alınmaqla vergilərlə bağlı məsələrin həlli Konstitusiyanın 94-cü maddəsinin 15-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aid edilmişdir. Ölkədə aparılan iqtisadi islahatlar hər an vergi qanunvericiliyində müvafiq dəyişikliklər edir. Bütün bunlar, o cümlədən dovlət büdcəsinin vergilərdən asılılığı nəzərə alınmaqla vergilər və dövlət büdcəsi üzrə referendum keçirilməsinin əhəmiyyətsizliyi aydın olur.

Bu baxımdan vergilər və dövlət büdcəsi ilə bağlı məsələlər üzrə referendumun keçirilməsinin Konstitusiya norması ilə qadağan edil məsi, həmin məsələlərin daha səmərəli hüquqi mexanizm yolu ilə - parlamentdə həll edilməsinə təminat verir.

Maddənin üçüncü hissəsində referendum keçirilməsi qadağan edilən məsələlərdən biri də amnistiya və əfvetmə ilə bağlıdır. Bu məsələ dövlət hakimiyyətinin bölünməsi prinsipinə uyğun olaraq qanunvericilik və icra hakimiyyətinin səlahiyyətlərinə aiddir. Konstitusiyaya görə, amnistiya Azərbaycan Respublikası Milli Məclisinin, əfvetmə isə Prezidentin səlahiyyətlərinə aid edilmişdir. Eyni fikirləri Konstitusiyanın 3-cü maddəsinin 3-cü bəndi barəsində də söyləmək olar. Çünki orada göstərilən məsələlər də qanunvericilik və icra hakimiyyətləri orqanlarının səlahiyyətləri daxilində həll edilir.

Referendumun keçirilməsi. Referendumun keçirilməsi qaydası 2003-cü il 27 may tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Seçki Məcəlləsi" ilə müəyyən olunur. Azərbaycan Respublikasında referendum keçirilərkən seçki hüququnun ümumi prinsipləri tətbiq edilir. Həmin prinsiplər xalq iradəsinin ümumi, bərabər və birbaşa gizli və şəxsi səsvermə yolu ilə ifadəsində öz əksini tapır.

Referendumun keçirilməsi günü 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının referendumda iştirak etmək

hüququ vardır. Referendum zamanı heç kəs öz rəyini bildirməyə və ya ondan imtina etməyə məcbur edilə bilməz.

Referenduma hazırlıq və onun keçirilməsi məsələləri referendum komissiyaları tərəfindən həll edilir. Azərbaycan Respublikasında referendum komissiyaları sisteminə aşağıdakı komissiyalar daxildir:

1) Azərbaycan Respublikasının Mərkəzi Referendum Komissiyası;

2) dairə referendum komissiyaları;

3. Bələdiyyə seçkiləri

Bələdiyyə seçkilərinin əsasları. Seçilmək hüququ. Azərbaycan Respublikasında bələdiyyələr nümayəndəli orqan kimi seçkilər əsasında yaradılır. Bəiədiyyəiərə seçkilərin keçirilməsi qaydası 2003-cü il 27 may tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Seçki Məcəlləsi" ilə müəyyən edilir.

Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər.

Seçkilər günü 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının bələdiyyələrə üzv seçmək hüququ – aktiv seçki hüququ vardır. Bələdiyyələrə üzv seçilmək – passiv seçki hüququ isə Azərbaycan Respublikası vətəndaşlarının aşağıdakı şərtlərə cavab verməsini tələb edir.

Birincisi, seçkilər günü Azərbaycan Respublikası vətəndaşının 21 yaşı tamam olmalıdır. İkincisi, Azərbaycan Respublikasının vətəndaşı müvafiq seçki dairəsində daimi yaşamalıdır.

Bələdiyyələrə üzv seçilmək hüququndan – passiv seçki hüququndan aşağıdakı şəxslər məhrumdurlar:

a) məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslər;

b) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslər;

c) ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları (ikili vətəndaşlığı qalanadək);

ç) xarici dövlətlərin qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşları (həmin öhdəliklərə xitam verilənədək).

Vəzifələrin uzlaşması nəzərə alınmaqla Seçki Məcəlləsinin 14-cü maddəsinə görə, aşağıdakı şəxslər bələdiyyə üzvü ola bilməzlər:

a) hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə);

b) hakimlər (hakim olduqları müddətdə);

c) dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə);

ç) din xadimləri (peşəkar din fəaliyyəti ilə məşğul olduqları müddətdə).

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş şəxslər bələdiyyələrə seçkilərdə iştirak edə bilməzlər.

Mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyət növünə görə Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır.

Bələdiyyə üzvlərini seçicilər bilavasitə seçirlər. Səsvermə şəxsən və gizli keçilir. Seçkilərdə seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Onların səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclası günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyəti müddətində qüvvədədir.

Bələdiyyə seçkilərinin təyin edilməsi və keçirilməsi. Bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir. Bələdiyyələrə seçkilərin təyin edilməsi barədə qərar onun qəbul edildiyi gündən ən

geci iki gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir.

Azərbaycan Respublikasında bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

Bələdiyyələrə seçkilərin hazırlanması və keçirilməsi aşağıdakı orqanlar tərəfindən təmin olunur:

1) Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası;
2) bələdiyyələrə seçkilər üzrə dairə seçki komissiyaları;
3) bələdiyyələrə seçkilər üzrə məntəqə seçki komissiyaları. Seçki Komissiyasının fəaliyyətinin müstəqilliyinin təmin olunmasında onun üzvlərinin statusunun müəyyən edilməsi mühüm rol oynayır. Seçki Məcəlləsinin 22-ci maddəsinə müvafiq olaraq, seçki Komissiyasının həlledici və məşvərətçi səs hüquqlu üzvlərinin aşağıdakı hüquqları vardır:

- müvafiq seçki komissiyasının iclasları barədə vaxtında məlumatlandırılması;
- müvafiq seçki Komissiyasının səlahiyyətlərinə aid məsələlər üzrə təkliflər vermək, seçki Komissiyasının iclasında çıxış etmək, bu məsələlər üzrə səsvermə keçirilməsini təklif etmək;
- seçki komissiyası iclasının digər iştirakçılarına gündəlikdəki məsələlərə aid suallar vermək və bu suallara mahiyyəti üzrə cavab almaq;
- hər bir seçki sənədinin (seçici siyahıları, seçki bülletenləri və seçici vəsiqələri istisna olmaqla) surətlərini almaq, qanunla dövlət, kommersiya və başqa sirr sayılmayan məlumatları əks etdirən sənədlərlə tanış olmaq;
- seçki komissiyasının qərarından və ya hərəkətindən yuxarı seçki komissiyasına və məhkəməyə şikayət etmək.

Dövlət hakimiyyəti orqanları sisteminə aid olmayan həmin orqanlardan ayrıca mövcud olan bələdiyyələr yerlərdə demokratiyanın real daşıyıcısı, xalq hakimiyyətinin ən perspektivli və səmərəli formasıdır.

XIII FƏSİL
CƏMIYYƏTİN MƏNƏVİ HƏYATI

1. Mənəvi həyat, cəmiyyət, davamlı insan inkişafı və sosial məsuliyyətli siyasət

Cəmiyyətin mənəvi həyatı anlayışı. Mənəviyyat cəmiyyətin, ailənin, məktəbin və s. təsiri altında hər bir insanda formalaşmış ağıl, şüur, səviyyə, iradə, hissiyyat, arzu və istəklər, baxış, əqidə və ideyalardır. Mənəviyyat əxlaqa nisbətən daha geniş anlayışdır. Hər bir insanın əxlaqı onun mənəviyyatından asılıdır. Mənəviyyat — insanın əxlaqını formalaşdıran ruhi keyfiyyətlərdir.

Mənəvi şüur davranışla, adətlə vəhdətdə formalaşır. Mənəvi şüur əqldən, mənəvi hisslər isə insanın ürəyindən qidalanır. İnsan baş verən sevinc və kədər hadisələrini ürəkdən yaşadıqda gözdən yaş gəlir. İnsanın hissləri ictimai həyat tərzinin təsiri nəticəsində şəxsiyyətin mənəvi həyatının obyektiv ifadəsi kimi yaranır. İnsanın şüur və davranışına təsir edən hislər xarakterinə zənginlik, gözəllik bəxş edərək onu daha da ülviləşdirir.

Mənəvi şüurun ikinci komponenti *mənəvi adətlər* və *vərdişlərdir***.** Məşhur Şərq filosoflarından biri ağılı gəmi, biliyi yelkən, sahili məqsəd, nəfsi və tamahı burulğan, bütün görünən aləmi dəniz hesab edirdi. O deyirdi ki, bu görünən aləmdə – dənizdə nəfs burulğanlarından – sualtı qayalardan salamat keçmək və müvəffəqiyyətlə üzüb sahilə – məqsədə çatmaq üçün ağılı (gəmini) biliklə (yelkənlə) birləşdirmək zəruridir.

Mənəvi şüurun formalaşmasında ***motivlər*** mühüm yer tutur. Mənəvi şüur, mənəvi hisslər, mənəvi adət və vərdişlər, motivlər bir-birindən təcrid olunmuş halda deyil, bir-birilə vəhdətdə təşəkkül taparaq şəxsiyyətin *mənəvi əqidəsini* yaradır. Bəşəriyyət tarixində hər bir xalq özünün parlaq ulduzlarını — ən yaxşı həyat, tərəqqi və xoşbəxtlik, azadlıq və bərabərlik naminə mübarizə aparıb gələcək nəsillərin yolunu işıqlandıran, əbədi şölə saçan görkəmli şəxsiyyətlərini, vətənpərvər qəhrəmanlarını yaratmışdır. Bu deyilənləri 13.1. saylı sxemində belə ifadə etmək olar.

Sxem 13.1.



Mənəvi mədəniyyət. Yüksək mənəviyyata sahib olmaq səyi ayrı-ayrı fərdlərə ailəni, dövləti, xalqı, bütün insanları sevməyi, hörmət etməyi, qayğıkeş, namuslu, qeyrətli, vəfalı və sədaqətli olmağı öyrətmiş, onlara ən üstün keyfiyyətlər qazandırmış, bütövlükdə isə xalqımızın təfəkkürünü, dünyagörüşünü, həyat anlayışını müəyyən etmişdir. Bu dünyagörüşü ilə çoxsaylı elmi kəşflər və ixtiralar edilmiş, nəsillər tərbiyələnmiş və mədəniyyətə yiyələnmiş, dünya dövlətləri arasında layiqli yer tutmaq nəsib olmuşdur.

Gözəl mənəviyyata yiyələnənədək ulularımız çox uzun bir yol keçmiş, bir çox sınaqlarla rastlaşmış, sonunda canları və qanları bahasına yüksək mənəvi dəyərlərə sahib olmuş, onu yaşamış, yaşatmış, sonra bir əmanət kimi qoruyub gələcək nəsillərə ötürmək üçün bizlərə təhvil vermişlər. Onlar bizə misilsiz mənəvi dəyərlər — nağıllar, dastanlar, bayatılar, laylalar və digər gözəl şifahi xalq ədəbiyyatı nümunələri, nadir yazılı ədəbiyyat inciləri, mədəniyyətimizi, dövlətçiliyimizin tarixini özündə yaşadan qiymətli mənbələr yadigar qoyub getmişlər. Onlarla tanışlıq göstərir ki, əcdadlarımız yüksək mənəvi dəyərlər yaratmaq kimi ali bir məqsədə xidmət etmiş, özlərindən sonra gələcək nəsilləri də buna hazırlamış, qazandıqları mənəvi sərvətləri onlara miras qoyub getmişlər.

Onlardan sonra gələnlər də bu mənəviyyatı yaşamış, qorumuş, özlərindən sonra gələn nəsillərə ötürmüşlər.

Demək, biz də bu vəzifəni həyata keçirməli, mənəvi mədəniyyətimizi qorumaqla yanaşı, onu daha da zənginləşdirməli, bizdən sonra gələn nəsillərə ərməğan etməliyik.

Mənəviyyat və mənəviyyatsızlıq. Yüksək mənəvi keyfiyyətlər özünü davranışda, ictimai münasibətlərdə, fəaliyyətdə büruzə verir. Insanın davranışı, özünü aparması onun əxlaqının göstəricisidir. Deməli, insan necə bir mənəviyyata malikdirsə, əxlaqı da ona görə formalaşır. Insan hansı əxlaqa sahibdirsə, onun başqa insanlarla, ətrafdakı canlı və cansız varlıqlarla rəftarı da o cür olur. Deməli, insanı böyük mənada insaıı edən onun mənəviyyatıdır.

"Öz adına layiq işlər gör ki, sən,
Axırda utanma xəcalətindən",

– yazan böyük Nizami insanları yüksək mənəviyyat daşıyıcısı olmağa səsləyirdi.

Bəs, *mənəviyyatsızlıq* ııədir? Mənəviyyatsızlıq mənəviyyata əks sözdür. Yəni yüksək əxlaq: və insani keyfiyyətləri ehtiva edən mənəviyyatdan fərqli olaraq. mənəviyyatsızlıq bütün bu dəyərlərdən məhrumdur. Mənəviyyatsırlıq çox qorxulu xəstəlikdir. O, humanizmdən, vicdandan, şərəfdən, ləyaqətdən, imandan və inamdan çox uzaqdır. Bəzən bu sözləri eşidirik: "Filankəs çox mənəviyyatsız adamdır". Onda həmin insanın obrazı bütün mənfi əxlaqi keyfiyyətləri ilə gəlib gözümüzün qarşisında dayanır. Onda dostuna xəyanət, xalqına, millətinə, dövlətə, mənsub olduğu nəslə qarşı laqeydlik, yadlıq var. Beləsi nəyə desən qadirdir: lazım gələrsə, özünü xilas etmək üçün çoxlarını güdaza verə bilər. Mənəviyyatsız adam böyük şairimiz Mirzə Ələkbər Sabirin sözləri ilə desək, "Millət necə tarac olur-olsun, nə işim var" prinsipi ilə yaşayır.

Cəmiyyətin mənəvi həyatının insanın inkişafına təsiri. Insanın mənəviyyatı bir tərəfdən genetik əsaslara malik olsa da, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin mədəni aspektləri mühüm rol oynayır.

İnsanın formalaşdığı ictimai mühit mövcud dəyərlər sistemi – sosial və hüquqi normalar, mövcud dövlət quruluşu, iqtisadi münasibətlər, ailə münasibətləri, təhsil sistemi kimi elementlərin sintezindən ibarətdir. Mədəni-mənəvi mühit cəmiyyətin çağdaş dəyərləri ilə yanaşı, əvvəlki nəsillərdən qalmış sənət əsərləri, xüsusilə bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır. Bütün bunlar insanların bir mütəxəssis və bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır.

Sosial-mənəvi mühitdə böhran da baş verə bilər. Ona görə də sosial-mənəvi mühitin saflığının qorunması aktual problemlərdən biridir. Bayağı mədəniyyətin tüğyan etdiyi, xarici ölkələrdən milli-mənəvi mühitimizə yad olan təsirlərin gücləndiyi bir vaxtda cəmiyyətin mənəvi problemlərini öyrənmək və lazım gəldikdə həyəcan təbili çalmaq lazımdır.



İnsanın mənəviyyatı cəmiyyətin mədəni həyatı və sosial-mənəvi mühitin təsiri ilə formalaşır

Bu gün mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətin məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır. Milli özünüdərk prosesi ilə özünüqoruma instinkti vəhdət təşkil

etməlidir. Yəni cəmiyyət həyatına kənardan daxil olan yad təsirlərdən qorunmaq üçün insanlarda sosial özünümüdafiə instinkti formalaşdırılmalıdır.

Davamlı insan inkişafı sosial məsuliyyətli siyasət

Sosial məsuliyyətli siyasətin planlaşdırılmasında insan inkişafı. Davamlı inkişafın əsas məqsədi gələcəksiz inkişafın qarşısını almaqdan ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün müvafiq siyasətin həyata keçirilməsi və bu istiqamətdə insan potensialının formalaşdırılması vacibdir. Belə siyasətin planlaşdırılması və həyata keçirilməsi zamanı ilk növbədə təbii ehtiyatların səmərəli istifadəsi, ətraf mühitin mühafizəsi və ***biliyə əsaslanan inkişaf*** üçün imkanların yaradılması nəzərdə tutulur. Biliyə əsaslanan inkişaf və onun başlıca amili olan insan potensialı davamlı inkişafın ən vacib şərtidir. Bunu təmin etmək üçün müxtəlif ixtisas sahiblərinin və hər bir vətəndaşın davamlı insan inkişafı sahəsində biliklərə yiyələnməsi və müvafiq bacarığa nail olması vacibdir. BMT və YUNESKO-nun 2005-2014-cü illəri davamlı inkişaf sahəsində təhsil onilliyi elan etməsi bu məqsədə xidmət edir.

Davamlı inkişafın həyata keçirilməsinin digər vacib şərti bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, informasiya mübadiləsi və qlobal miqyasda yeni texnologiyaların ötürülməsidir.

Davamlı insan inkişafının planlaşdırılması və həyata keçirilməsi, gələcəksiz inkişafın qarşısını almaqdan ötrü bir sıra prinsiplərə əməl edilməsi olduqca əhəmiyyətlidir. Davamlı inkişafının təmin edilməsində xüsusi əhəmiyyət daşıyan aşağıdakı vacib şərtlər vardır. Bu şərtlər korporativ siyasətin formalaşması üçün də çox əhəmiyyətlidir:

— ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan istifadə edilməsi layihələrinin planlaşdırılması və həyata keçirilməsində çağdaş və gələcək nəsillərin maraqlarının nəzərə alınması;

— təbii ehtiyatlardan istifadə etdikdə onların davamlı işlədilməsini təmin edən prinsip və texnologiyalardan istifadə edilməsi;

— inkişafın planlaşdırılmasına və həyata keçirilməsinə aid

dövlət sənədləri hazırlanması və icrası zamanı davamlı inkişaf prinsiplərinin əsas meyar kimi qəbul edilməsi;

— ətraf mühitin keyfiyyəti və təbii ehtiyatların istifadəsi ilə əlaqədar layihələrin müzakirəsi və qərar qəbul edilməsi prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi;

— hazırkı və gələcək nəsillərin sağlamlığının və uzunömürlüyünün təmin edilməsi və bunlara hər hansı potensial təsir barədə məlumatların əhaliyə çatdırılması;

— davamlı insan inkişafı sahəsində müxtəlif: qlobal, regional, ölkə, bölgə, bələdiyyə, məhəllə, ev və s. səviyyələrdə əməkdaşlığın təşkil edilməsi.

Bu prinsiplərə əsaslanan inkişafın planlaşdırılması və idarə edilməsi 2002-ci ildə Yohannesburqda keçirilmiş Dünya Sammitinin qərarlarında da öz əksini tapmışdır. Davamlı inkişaf sahəsində irəli sürülən məqsədlər bu prosesin bütün iştirakçılarının səfərbərliyini tələb edir. Bunlara fərdi sektorda fəaliyyət göstərən şirkətlər və korporasiyalar da aiddir. Son illərdə isə *Korporativ Sosial Məsuliyyətli Fəaliyyət* [1] anlayışı irəli sürülmüşdür. Bu sahədə düzgün siyasətin aparılması həm etik baxımdan vacibdir, həm də rəqabətdə üstünlük təmin edən amil kimi çıxış edir.

Korporasiya və şirkətlərin sosial baxımdan məsuliyyətli fəaliyyəti idarəetmənin ən müasir istiqamətlərindəndir və davamlı inkişafı təmin edən amildir. Bu fəaliyyətin planlaşdırılması və həyata keçirilməsi insan potensiahna arxalanır və davamlı inkişaf sahəsində təhsilin vacib elementidir. Korporativ sosial məsuliyyət ilk növbədə hər bir fəaliyyətin etik formada aparılmasını nəzərdə tutur. Bu isə öz növbəsində, təbii və sosial mühitə təsir edən, yaxud edə bilən fəaliyyətin sivil cəmiyyətdə qəbul olunmuş normalar əsasında həyata keçirilməsinə əsaslanır. Korporativ sosial məsuliyyətli fəaliyyət şirkət daxilində və şirkətdən kənarda həyat səviyyəsinin daimi yüksəlməsini bir məqsəd kimi qarşısına qoyur və bu məqsədi gəlir götürməkdən daha yüksək tutur.

---

[1] *Korporativ Sosial Məsuliyyətli Fəaliyyət – korporasiyanın daxilində və xaricində insanların rifahının hər zaman yüksəlməsini əsas məqsəd kimi qəbul edir və bu prinsipi gəlir əldə etməkdən üstün tutur.*

İqtisadi və sosial, fərdi və ictimai maraqlar arasında tarazlığın təmin edilməsi bu prosesin idarə edilməsinin əsas prinsipidir. Bu prinsipin təmin edilməsi kifayət dərəcədə çətin olsa da, hər bir milli, yaxud transmilli korporasiyanın və yaxud şirkətin tanınması və şöhrətlənməsi, ictimaiyyət ilə əlaqələrin qurulması üçün olduqca əhəmiyyətlidir.

Bu isə öz növbəsində sosial məsuliyyətli idarəetmə prinsiplərini tətbiq edən qurumların şöhrətini artırır, onlara azad rəqabətdə əlavə imtiyazlar yaradır. Göstərilən amillərin təsiri nəticəsində korporasiya, yaxud şirkət daha da güclənir, onun iqtisadi imkanları artır. Nəticədə onun sosial məsuliyyəti, fəaliyyətinin daha da gücləndirilməsi üçün əlavə imkanlar yaranır.

Davamlı insan inkişafının institutlaşdırılması. Davamlı insan inkişafına yönəlmiş korporativ sosial baxımdan məsuliyyətli siyasətin həyata keçirilməsi bu proseslərin təşkilatlanması üçün xüsusi qurumların yaradılması zəruriyyətini gündəmə gətirdi. Belə qurumlar ilk dəfə Azərbaycan Respublikasında yaradılmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən və müvəffəqiyyətlə həyata keçirilən neft strategiyasının məqsədlərinə müvafiq olaraq BP tərəfindən idarə edilən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti 2002-ci ildə fərdi bölmədə fəaliyyət göstərmək üçün İnsan İnkişafı Mərkəzi təşkil etmişdir. Bu mərkəz öz fəaliyyətini Səngəçal Terminalının Genişləndirilməsi Proqramı çərçivəsində həyata keçirməyə başlamışdır. Mərkəzin əsas məqsədi insan potensialının formalaşması və davamlı inkişafa yönəlmiş layihələrin planlaşdırılması, onların həyata keçirilməsi üçün müvafiq bilik və bacarığın yaradılmasıdır. Bu, dünyada birinci İnsan İnkişafı Mərkəzi olmaqla fərdi sektorda davamlı və sosial baxımdan məsuliyyətli siyasəti planlaşdıran və uğurla həyata keçirən təşkilatdır. Bunları nəzərə alaraq, 2005-ci ilin dekabrında BMT-nin Nyu-Yorkdakı Baş Qərargahı bu mərkəzin Azərbaycanda təşkilini və bu istiqamətdə alınan nəticələri *"innovativ ideya və fəaliyyət"* kimi qiymətləndirib və bu barədə üzv olan ölkələr arasında xüsusi məlumat yaymışdır. Beləliklə, davamlı insan inkişafının institutlaşması sahəsində ilk addım atılmışdır.

Davamlı insan inkişafının institutlaşması sahəsində Azərbaycan Respublikasında daha bir təşəbbüs həyata keçirilmişdir. Ədliyyə Nazirliyi tərəfindən 2004-cü ildə qeydə alınmış "İnsan İnkişafı və Davamlı Gəlir Əldə Edilməsinə Kömək" ictimai birliyi Qaradağ rayonunun "Ümid" qəsəbəsində ilk dəfə təşkil olunmuşdur. İctimai birliyin əsas məqsədi bilik və təcrübəyə yiyələnməklə yeni istehsal sahələrinin yaradılması və davamlı gəlir əldə etmək idi. İndi birlik işçilərinin sayını bir neçə dəfə artırmışdır. İstehsal olunan müxtəlif məhsullar həm ölkədə istifadə olunur, həm də ixrac edilir. Tam şəffaflıq şəraitində fəaliyyət göstərən bu birlik, eyni zamanda, demokratik idarəetmə nümunəsi ola bilər. «Ümid» qəsəbəsinin qadın sakinləri tərəfindən həyata keçirilən sosial baxımdan məsuliyyətli fəaliyyət bir çox beynəlxalq və milli məqsədlərə nail olmağa xidmət edir. Bu məqsədlər arasında gender bərabərliyi, yoxsulluqla mübarizə, regional inkişaf, demokratiyanın inkişafı və qərar qəbuletmə prosesində əhalinin iştirakının genişləndirilməsi və s. göstərmək olar. Bu fəaliyyət həm BMT-nin Dünya Sammitində nəzərdə tutulmuş minilliyin inkişaf məqsədlərinin, həm də ölkədə qəbul edilmiş və müvəffəqiyyətlə həyata keçirilən milli inkişaf proqramlarının yerinə yetirilməsinə xidmət edir.

2. İncəsənət, bədii ədəbiyyat və din. Mədəniyyət və cəmiyyət

İncəsənət və onun növləri. Bizim yaşadığımız dünya elə gözəl, elə rəngarəngdir ki, insan bu gözəllik və rəngarənglik qarşısında heyrət edir. Insanlar lap qədim zamanlardan bu gözəl dünyamızı bəzəməyə, onu daha da gözəlləşdirməyə çalışmışlar. Yaşadıqları ibtidai mağaralardan tutmuş bugünkü müasir binalara kimi hər yerə, hətta təbiətin özünə də «əl gəzdirmişlər». Qədim Azıx mağarasında, Qobustan, Gəmiqaya qayalarında cızdıqları təsvirlər, düzəltdikləri fiqurlar buna sübutdur.

Tarix elmindən yaxşı məlumdur ki, insan yaranışdan qurmağa, yaratmağa meyilli olub, gördüyünü təsvir edib, fiqurunu, sonra isə heykəllərini yaradıb. Misirlilər, şumerlər, finikiyalılar, yunanlar, romalılar qədim sivilizasiyaların bənzərsiz nümunələrini

yaratmışlar. Bu sivilizasiyaların əsas göstəricilərindən biri də incəsənət olmuşdur. Bəzən bu sivilizasiyalar tarixin müəyyən mərhələsində məhv olmuşlar. Məsələn, Krit-Miken sivilizasiyası kimi. Lakin bu sivilizasiyanın ən yaxşı nümunələri dünya mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir. Bir çox xalqların, sivilizasiyaların yaratdığı incəsənət nümunələri qarşılıqlı əlaqədə və təsirdə olmuşlar, bu *gün* də belədir.

Bəs incəsənət özü nədir? ***İncəsənət*** ictimai şüurun təzahür formalarından biridir. İncəsənət insanın mənəvi aləminin, onun həyata bədii-etik münasibətinin ifadəsidir. Nəhayət, incəsənət həyatın bədii əksidir.

İncəsənətin müxtəlif növləri məlumdur: memarlıq, boyakarlıq, qrafika, heykəltəraşlıq, musiqi, teatr və s. Bunların arasında boyakarlıq, qrafika, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət təsviri sənətə aiddir. Siz bunların hər biri haqqında müxtəlif fənləri öyrənərkən müəyyən məlumatlar almısınız.

İncəsənətin funksiyası. İncəsənət müəyyən bir ideyanın təbliği funksiyasını daşıyır. Məsələn, qədim və orta əsrlər dövrlərində dini tikililəri – məbədləri, məscidləri və kilsələri bəzəyən təsvirlər dini ideyaların təbliğinə yönəlmişdi. Təsadüfi deyildi ki, Orta əsrlər Avropasında incəsənəti "savadsızlar üçün Bibliya" hesab edirdilər. Qədim Misirdə fironlar üçün ehramların nə məqsədlə tikildiyi də yəqin yadınızdadır. Bu möhtəşəm abidələr hökmdar hakimiyyətinin böyüklüyünü, əzəmətini göstərməli idi. Müasir dövrdə incəsənət müxtəlif ideologiyalara xidmət edir. Azərbaycan incəsənəti əsrlərin dərinliyindən süzülüb gələn funksiyasını – insanın mənəvi aləmini zənginləşdirmək, onda yaşadığı dünyaya, ətraf aləmə, gözəlliyə məhəbbət, estetik duyğular formalaşdırmaq funksiyasını uğurla davam etdirir. Sovet hakimiyyəti dövründə Azərbaycan incəsənəti də mənəvi repressiyaya məruz qalmış, çox vaxt həyat həqiqətləri əvəzinə "sosializm cənnəti"ni tərənnüm etməklə məşğul olmuşdur. Bununla birlikdə incəsənətimiz öz milli köklərini qoruyub saxlaya bilmişdir. Xalqımızın tarixini yaşadan heykəllər, rəsm əsərləri, musiqi janrları inkişaf etdirilmiş, daha da zənginləşdirilmişdir.

XX əsrin sonu, XXI əsrin əvvəlində incəsənətimiz dünya incəsənəti və estetikasına xeyli inteqrasiya etmiş, milli-mənəvi dəyərləri qoruyub saxlamaqla yanaşı, ümumbəşəri dəyərləri də inkişaf etdirmişdir. Bizim müasir incəsənətimiz yüksək kamillik səviyyəsinə çatmışdır.

İncəsənət əsərləri insanın həyatında çox böyük rol oynayır. Cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, orada incəsənətin bu və ya digər bir növü fəaliyyət göstərməsin. İnsanların həyatını musiqisiz, teatrsız, kinosuz, rəsmlərsiz necə təsəvvür etmək olar? İnsanda nəcib hisslər oyadan, gözəlliyə məhəbbət, ətrafdakılara qayğı və humanizm aşılayan çoxsaylı incəsənət əsərləri vardır.

Əlbəttə, insanlar müxtəlif olduğu kimi, onların zövqləri, maraq və meyilləri də müxtəlifdir. Amma onların böyük əksəriyyətini incəsənətə maraq və məhəbbət hissi birləşdirir. Heykəltəraşın bütün cizgiləri ilə təsvir etdiyi heykəl insanda özünə inam, daxili güc yaratmaqla yanaşı, onun mənəvi aləmini, əxlaqi görüşlərini də inkişaf etdirir. Məşhur müğənninin ifa etdiyi mahnılar insanda əməksevərlik, humanizm, insanlara sevgi, vətənə məhəbbət və s. hisslər formalaşdırır.

Məişətdə gözəllik. İnsan çalışır ki, ətrafında hər şey gözəl olsun. Elə götürək məişətimizi. Zövqlə inşa olunmuş, insanın ruhunu oxşayan boyalarla, divar kağızları ilə təmir edilmiş, rahat və gözoxşayan mebelləri, digər avadanlıqları olan mənzili kim istəməz. Məişətdə gözəllik dedikdə bahalı və parıltılı əşya və avadanlıqlar yox, sadə və rahat, həm də insan üçün gərəkli olanlar nəzərdə tutulur.

İnsanların çoxu zövqlə, səliqəli geyinməyi sevirlər. Lakin bu geyimlər həddini aşanda, hədsiz dərəcədə bər-bəzəkli olanda digər insanlarda bir növ ikrah hissi oyadır. Səliqəli, sadə, lakin zövqlə geyinən insanı gördükdə, yəqin ki, hamımız ona heyranlıqla baxırıq. Deməli, geyimin gözəl olması şərt deyil, şərt onu necə və hansı zövqlə geyməkdir. İşə də, teatra da, toya və qonaqlığa da səliqə ilə geyinib getmək lazımdır. Evdə də səliqəli görünmək vacibdir. Hər kəsin rahat ev palları olmalıdır.



Moda. Dizayn. Cəmiyyət inkişaf etdikcə, insanların dünyagörüşü, istək və tələbatları da dəyişir. Bir neçə il dəbdə olan geyimlər, mebellər, avadanlıqlar artıq köhnəlmiş olur. Yeni modaya ehtiyac yaranır. Bu, özünü insanların məişətində, ilk növbədə geyimlərdə daha qabarıq göstərir. Bəzən isə elə olur ki, 40-50 il əvvəlki modaya, dəbə qayıdış baş verir. Məsələn, XX əsrin 60-cı illərində kişilər arasında enli və balaqları qatlanmış şalvarlar dəbdə idi. 70-80-ci il-lərdə onları balaqları düz və dar şalvarlar əvəz etdi. 90-cı illərin ortalarında 60-cı illərin modasına qayıdış baş verdi. İndi isə yenə də 70-80-ci illərin modasına qayıtmaq meyli duyulur.

Ev sadə bəzənməli, bəzək şeyləri məqsədəuyğun, interyer yığcam olmalıdır. Evdə çıraqların düzgün yerləşdirilməsinə, mətbəxin, uşaq otaqlarının yaxşı işıqlandırılmasına fikir verilməli, torşer, stolüstü lampa və s.-dən səmərəli istifadə olunmalıdır. Mebel, çıraqlar və s. evin interyerinə münasib olmalıdır. Zövqlə seçilmiş xalçalar, qobelenlər, pərdələr, süfrələr, balışlar, örtüklər və s. evin yaraşığını xeyli artırır.

Mənzilin gözəlliyi mebelin və başqa əşyaların qiyməti ilə ölçülmür. "Bahalı şey" və "gözəl şey" müxtəlif anlayışlardır. Müasir mənzillərdə gözəllik şeylərin miqdarı və qiyməti ilə deyil, formaların, materialların, xətlərin və rənglərin ahəngdarlığı nəticəsində yaranır.

İndi tez-tez ***dizayn, dizayner*** sözləri ilə rastlaşırıq. Dizayn ingiliscə «design» sözündəndir, *plan, layihə, şəkil* anlamını verir. Dizayn ətraf aləmin funksional və estetik keyfiyyətlərinin formalaşmasını özündə əks etdirən layihə fəaliyyətinin müxtəlif növlərini bildirir. Dizayn, adından göründüyü kimi, hər hansı bir evin, otağın, ofisin planının, şəklinin hazırlanması və onun əsasında inşa, təmir olunması, otaqların döşənməsi, mebellərin düzülüşü, interyer və s. ilə məşğul olan xüsusi peşə sahəsidir. Bu, adi peşə deyil, xüsusi istedad və qabiliyyət, eyni zamanda yüksək estetik zövq və duyum, fantaziya işlətməyi tələb edən bir incəsənət növüdür.

Bədii ədəbiyyat

İnsanın həyatında bədii ədəbiyyatın rolu. İnsanda mənəvi əqidənin formalaşmasında bədii ədəbiyyatın imkanları daha geniş, əhatəli və təsirlidir. Bədii ədəbiyyat mənəvi, emosional həyatın əqli fəaliyyətlə birləşməsinə şərait yaradır. Çünki ədəbiyyat həyat hadisələrini obrazlı şəkildə əks etdirir. Bədii ədəbiyyat xarakterlərin, əqidələrin mübarizəsi və toqquşmasını, obrazların psixoloji, mənəvi və ruhi sarsıntılarını, daxili dünyalarının ziddiyyətlərini açıb göstərən qüdrətli söz sənətidir. İnsan bədii ədəbiyyat vasitəsilə bəşəriyyət adlı böyük bir ailədə hər bir xalqın tutduğu yerlə, onun dünya ədəbiyyatına bəxş etdiyi nadir sənət inciləri ilə tanış olur.

Bədii ədəbiyyat (povest, hekayə, roman, poema, şeir), orada təsvir olunan müsbət qəhrəmanlar, onların daxili aləminin zənginliyi, xüsusilə gənclərin xarakterinin möhkəmlənməsinə, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasına güclü təsir göstərir.

Bədii ədəbiyyatın mütaliə edilməsi çox faydalıdır. Çünki o, həm insanın dünyagörüşünü zənginləşdirir, ətraf aləm, insanlar, cəmiyyət haqqında biliklərini dərinləşdirir, həm də söz ehtiyatını artırır, təfəkkürünü inkişaf etdirir. Təcrübə göstərir ki, o adamlar ki daha çox və müntəzəm bədii ədəbiyyat oxuyurlar, onların nitqi aydın, səlis və rəvandır, istənilən mövzuda polemikaya, mübahisəyə girməyi bacarırlar.

Bədii ədəbiyyat söz sənəti adlanır və incəsənətin bir növü sayılır. Rəssam əsər yaradarkən kağızdan, kətandan, rənglərdən və s. istifadə edir. Heykəltəraş mərmər, bürünc və s. ilə, memar torpaq, daş və s. ilə istədiyi əsəri yaradır. Musiqiçi müxtəlif musiqi alətlərindən və səslərindən istifadə etməklə bitkin əsər yaradır. Bədii ədəbiyyat isə bədii sözə əsaslanır. O, hadisələri sadəcə olaraq təsvir etmir, bədii lövhələrlə obrazlı şəkildə canlandırır.

Bədii ədəbiyyat həm də xarakterlərin mübarizəsidir. Azərbaycan və dünya ədəbiyyatında minlərlə gözəl əsərlər vardır ki, onların mütaliə olunması insanın xarakterinin formalaşmasına, mənəvi əqidəsinin möhkəmlənməsinə güclü təsir göstərir. Məsələn, Mirzə İbrahimovun "Böyük dayaq" romanında Rüstəm kişi, Fərman Kərimzadənin "Qarlı aşırım" romanında Kərbəlayi İsmayıl, Pənahi

Makulunun "Səttar xan" romanında Səttar xan obrazı belə xarakterlərdəndir. Onlarda əsl kişiyə xas olan bir mərdlik, qürur, sözübütövlük, haqq-sayı tapdalamamaq, vüqarlı olmaq, ən çətin məqamlarda belə dəyanətini, əzəmətini itirməmək xarakteri vardır.

Estetik tərbiyədə bədii ədəbiyyatın rolu. Təbiət və cəmiyyət gözəlliklərini müxtəlif təzahür formalarında duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək, həyatı gözəllik qanunları əsasında qurmaq prosesi estetik tərbiyə adlanır. Insanın estetik təəssüratlarının zəngin mənbələrindən birini də məhz bədii ədəbiyyat təşkil edir. Ədəbiyyat azad insan sözləri ilə ifadə olunur. Bu həm səs, həm lövhə, həm də aydın olmuş müəyyən təsəvvürdür. Həyatın obrazlarla ifadəsi olan ədəbiyyat nəsr, nəzm və dram formasında üzə çıxır. Məşhur alman tənqidçisi Jan Pol Rixterə görə nəzm, şeir bir lovhəyə bənzəyir, həm də bu lövhədə başlıca şey mənzərə deyil, onun insanda doğurduğu təsirdir.

Od tutub qırmızı atəşlə yenə yandı üfüq,
Şəfəqin qırmızı rəngi ilə işıqlandı üfüq.
Bir qədər çaydan uzaq, od qalamış dağda çoban,
Oyadır öz sürüsün otlaya yaylaqda çoban,
Yumşaq, göy çəmənin üstə düşüb şeh gecədən,
İsti yoxdur, hələ var bir balaca meh gecədən,
Ağ dumanlar ucalır göy üzünə dağlardan,
Çox sərindir havası, keçmə bu yaylaqlardan.

Görkəmli şairimiz Abbas Səhhət bu misralarla sanki bir rəssam fırçası ilə yay gecəsinin, sübhçağının gözəl bir lovhəsini yaratmışdır.

Bədii əsərlərdə təbiətin gözəllikləri, qəhrəmanların daxili aləmi əlvan, rəngarəng boyalarla təsvir olunur. Bu gozəlliklərə baş vurmaq, daxili aləmə «səyahət etmək» insanda gözəlliyə məhəbbət hissi yaradır, musiqiyə, incəsənətə, ətraf mühiti dərk etməyə maraq oyadır.

Nizami Gəncəvinin yaradıcılığı yüksək estetik zovq mənbəyidir desək, yanılmarıq. "Xosrov və Şirin" poemasının qəhrəmanlarından biri olan Fərhadın yüksək əxlaqi keyfiyyətləri, mənəvi zənginliyi ilə xarici görkəmi, sənətkarlığın ahəngdar təsviri

insanda bu sənətə böyük məhəbbət hissi oyatmaqla yanaşı, heykəltəraşlıq haqqında da müəyyən təsəvvürlər formalaşdırır:

Qırmızı bir rəng alır işindən güllər,
Daşlara, dəmirlə Çin nəqşi çəkər.
Sənətinin səsi yayılmış Ruma
Tişəylə qart daşı döndərir muma...
Böyük dağ gövdəli o dağlar yaran,
Gələndə camaat qalmışdı heyran.

Ədəbiyyat gözəl davranmaq, gözəllik hissi, humanizm və gözəl yazmaq vərdişləri tərbiyə edir. İnsanların mənəvi cəhətdən formalaşmasında ədəbiyyatın, fəaliyyət göstərən ədəbi qüvvənin rolu böyükdür. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri insanlarda gözəl davranma, gözəllik hisləri aşılayan, gözəllik tərənnüm edən nümunələrlə çox zəngindir. N.Gəncəvinin, M.Müşfiqin, S.Vurğunun, B.Vahabzadənin və başqalarının yaradıcılığının mərkəzində humanizm, insana məhəbbət və qayğı durur. Yaranışların ən alisi olan insana böyük hörmət bəsləyən Nizami deyirdi:

- Sən ki bir hüma quşsan, az ye, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin həyat fəlsəfəsi bərabərlik, ədalət, sülh, insanpərvərlik və mənəvi ucalıq fəlsəfəsidir. Bu poetik fəlsəfənin şüarı belədir: ancaq özün üçün deyil, başqaları üçün də yaşa, yarat! Cəmiyyət üçün, onun tərəqqisi üçün əlindən gələni əsirgəmə! Insanları, həyatı duy, incə zövqlü və zərif düşüncəli ol!

Böyük Şəhriyarın ölməz misraları insan olanı humanistliyə, bəşəriliyə səsləyir:

Mənə elə gəlir:hardasa, kimsə
Bir insan ömrünə qələm çəkirsə,
Özü də bilmədən yüz qan salır o,
Bəşər ağacına balta çalır o.

D i n

Din və onun cəmiyyət həyatında rolu. İnsanlar hamısı doğulur, yaşayır, müxtəlif sahələrdə çalışır və nəhayət, ölüb gedirlər. Onları bir-birindən xarici görünüşləri fərqləndirir. Biri qara, başqası ağ rəngli olur. Bəziləri ucaboy, bəziləri isə qısaboy, bəziləri kök, bəziləri isə arıq olurlar. Çoxlu xalqlar və millətlər vardır ki, onlar da müxtəlif dillərdə danışırlar, müxtəlif adət-ənənələrə malikdirlər.

Bütün bunlar insanları bir-birindən fərqləndirən əlamətlərdir. Lakin insanları fərqləndirən daha mühüm əlamət vardır. Bu, insanların inamıdır. İnam isə öz əksini dində tapır.

Sizə tarix dərsliklərindən dinin necə meydana gəldiyi, insanlarda inam hissinin necə formalaşdığı, çoxilahili və təkallahlı dinlər haqqında bilgilər məlumdur. Bir çox xalqlar müxtəlif daşlara, ağaclara, heyvanlara və bütlərə inanmışlar, bu gün də inanmaqdadırlar. Dünya xalqlarının böyük əksəriyyəti isə səmavi dinlərə – yəhudilik, xristianlıq və İslam dinlərinə etiqad edirlər.

Bütün dinlərin daha mükəmməli və sonuncusu olan İslam dini bu gün milyonların etiqad etdiyi bir dindir. Bu din təkcə öz ardıcıllarının dünyagörüşünü formalaşdırmaqla kifayətlənmir, onlarda özünəməxsus davranış və həyat tərzi tərbiyə etməklə, onlara emosional və mənəvi dayaq verməklə müəyyən birlik yaradır.

Çox demokratik bir din olan İslam dini özündən əvvəlki bütün təkallahlı dinlərə qarşı tolerant mövqedə dayanır: "İman gətirənlərdən musəvi [yəhudi], isəvi [xristian] və sabiilərdəm[1] Allaha, axirət gününə [sədaqətlə] inananların və yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. [Qiyamətdə] onların heç bir qorxusu yoxdur və onlar qəmgin olmazlar". (Əl-bəqərə surəsi, 62-ci ayə)

İslamın müqəddəs kitabı Qurani-Kərimdə cəmiyyət həyatından əhəmiyyətli dərəcədə bəhs olunur, cəmiyyətin ahəngdar yaşaması, birlik və bütövlük içində olması üçün göstəriş və tövsiyələr verilir.

İslam dini insanın cəmiyyət içində əmin-amanlıqla yaşaması üçün onu kin, qəzəb və düşmənçilikdən, dedi-qodu və nifrətdən çəkindirir. Insanlar qarşısında cəmiyyətin və fərdin rifah halının,

[1] ***Sabiilər*** *– Aşağı Mesopotamiyada yaşayan mandeylərdəndir (xaça sitayiş edən məzhəblər).*

sosial inkişafının, əmin-amanlıqda yaşaması üçün çox mühüm vəzifələr qoyur. Bu mənada İslamın güclü sosial təlim və prinsipləri vardır. İslam insanları ədalətə, bərabərliyə, qardaşlığa çağırır. Insanlar arasında mehriban münasibətlərin bərqərar edilməsinə çalışır. İslam hidayət — doğru yol dinidir.

Nəsillər, xalqlar və millətlər insanların birliyi əsasında təşəkkül tapmışdır. Bu barədə Qurani-Kərimin "Ə1-Hücürat" ayəsində belə deyilir: "Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq". Ən böyük birlik dini təməl üzərində qurulan birlikdir. Insanın cəmiyyətdən tamam uzaqlaşması, təkbaşına yaşaması mümkün deyildir, çünki o, sosial bir varlıqdır. Insanın ünsiyyətə ehtiyacı vardır. Din belə bir ünsiyyət üçün insana imkan yaradır. Dünyada mövcud olan dinlərin özləri də bir-biri ilə qarşılıqlı əlaqədədir. Dinlərin qarşılıqlı əlaqəsini aşağıdakı 13.2. saylı sxemində belə ümumiləşdirmişik:

Sxem 13.2.



Bütövlükdə isə, din və cəmiyyət qarşılıqlı əlaqədədir və onları bir-birindən ayrı təsəvvür etmək olmaz.

Din və elm. Bəşər cəmiyyəti meydana gəldiyi vaxtdan etibarən kainatın böyüklüyü, tərkibi, necə və nə zaman, kim tərəfindən və niyə yaradıldığı, varlığını nə zamana qədər davam etdirəcəyi kimi suallarla qarşılaşmış və bu suallara cavab axtarılmışdır. Bu suallar insanları daim düşündürmüş və onlar bu suallara cavab axtararkən müxtəlif nəticələrə gəlmişlər. Onların hər biri gəldiyi nəticəni daha doğru hesab etmiş, ona inanmış, başqalarını da öz düşüncələrinə, gəldikləri nəticələrə inandırmağa çalışmışdır. Beləliklə, kainat, dünya, insan, yaradılış barədə müxtəlif nəzəriyyələr meydana çıxmış, fəlsəfə, astronomiya və digər dünyəvi elmlər əmələ gəlmişdir.

Hər bir filosof, alim dünyanı və kainatı bir cür təsəvvür edirdi: kimisi yerin tava kimi düz olduğunu, kimisi onun qızıl öküzün buynuzu üzərində, kimisi isə nəhəng bir balığın belində dayandığını sübut etməyə çalışırdı. Alimlərin bəzisi səmanı, ulduzları xalça üzərində düzülmüş kimi təsəvvür edir, kimisi də tamamilə başqa bir fərziyyə irəli sürürdü. Beləliklə, dünyanın, kainatın yaradılışı haqqında əsasən iki fikir ortaya çıxmış oldu və onlar lap qədimlərdən bəri bir-biri ilə mübahisə edirlər; biriləri dünyanın öz-özünə yarandığını, digərləri isə dünyanın Allah tərəfindən yaradıldığını və Onun tərəfindən idarə edildiyini sübut etməyə çalışırlar.

Bunların dərin elmi izahı ilk dəfə Qurani-Kərimdə öz əksini tapmışdır. Müqəddəs kitabımızda kainatm yaradılışından, Ay, Günəş və ulduzlardan bəhs edən bir çox ayələr vardır. Məsələn, Quran Allahın əvvəlcə Göyü və Yeri bir-birinə yapışıq şəkildə yaratdığını, sonra isə onları ayırdığını xəbər verir. Başqa bir ayədə onları altı dövrdə, göyləri yeddi qatdan ibarət, yeri isə kürə şəklində yaratdığını, Ay və Günəşi, gecə ilə gündüzü insanların istifadəsinə verdiyini bildirir.

Daha sonra isə göy cisimlərinin hər birinin həm öz oxu ətrafında fırlandığı, həm də onların hamısının nizamlı şəkildə öz günəşi ətrafında dolandığı, Günəşlə Ayın hərəkətinin müəyyən bir hesaba görə olduğu bildirilir. Bundan başqa, Qurani-Kərim göylərin və Yerin yaradılışında ibrət götürüləcək, yəni bu barədə

düşünüləcək çox şey olduğunu və vaxt gələndə Allahın onları yenidən bir yerə toplayacağını da xəbər verir.

XVI əsrdə astronomiya elminin inkişaf etməsi ilə yeni kəşflər, yeni nəzəriyyələr meydana çıxdı. Bunlardan biri də "Böyük partlayış" nəzəriyyəsi idi. Bu nəzəriyyəyə görə, kosmos yaradıldıqdan sonra göydə tək bir cism olmuş, sonra böyük bir partlayış baş vermişdir. Partlayış nəticəsində bu nəhəng cismdən ətrafa dağılan parçalar cazibə qanununun təsiri altında bir-biriləri ilə əlaqəli şəkildə kosmosda hərəkət etməyə başlamışlar. Bu parçaların bir qismi bir-birinə çox yaxın, digərləri uzaqda yerləşirdilər. Bir-birinə çox yaxın əlaqədə olan parçalara birlikdə Qalaktika adı verildi. Astronomlar qalaktikalara "Göy adası" da deyirlər. Bir qalaktikada milyonlarla ulduz və hər qalaktikanın özünün də öz günəşi vardır. Yer kürəsi "Samanyolu" ("Südyolu") adı verilən qalaktikada digər planetlərlə birlikdə Günəşin ətrafında dolanır. Bundan başqa o, həm də öz oxu ətrafında fırlanır. Yerin öz oxu ətrafında fırlanması ilə gecə və gündüz, Yerin Günəş ətrafında fırlanmasından isə fəsillər yaranır.

XX əsrdə astronomlar kəşf etdilər ki, bu qalaktikalar da hərəkətdədirlər. Onlar bir-birindən çox boyük sürətlə uzaqlaşmaqdadırlar. Deməli, bizim gördüyümüz Kainat hər an daha da genişlənir.

Vicdan azadlığı. *Vicdan azadlığı* insanın düşünmək və öz əqidəsinə uyğun olaraq davranmaq hüququdur. O, bir-biri ilə üzvi surətdə bağlı olan aşağıdakı struktur ünsürləri özündə ifadə edir: 1) hər hansı bir dinə etiqad etmək; 2) dini ibadət etmək; 3) dinini dəyişdirmək; 4) heç bir dinə etiqad etməmək; 5) *ateist*[1] təbliğatı aparmaq; 6) xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmaq; 7) dini qurum yaratmaq; 8) dinə olan münasibətindən asılı olmayaraq, hamının qanun qarşısında bərabərliyi.

Əxlaqi mənada vicdan azadlığı öz əqidəsinə uyğun olaraq insanın düşünmək və davranmaq hüququdur. Bəşər tarixi göstərir ki, uzun zaman kəsiyində dini ehkamlar dünyanın dərk olunmasında bütün

[1] *Ateist (fransızca "atheisme" — Allahı inkar etmək mənasını verir). Allaha və dinə inanmayan.*

baxışların əsasını təşkil etmişdir. O, ayrı-ayrı xalqların və millətlərin həyatına nüfuz edərək onların mədəniyyətinə, incəsənətinə, həyat fəaliyyətinə və əxlaqına hakim kəsilmişdir. Əsrlər boyu xalqların və millətlərin mənəvi dəyərlərinin əsasını təşkil edən müxtəlif dinlər bu gün "vicdan azadlığı" anlayışı ilə insana verilən azadlıqda öz ifadəsini tapmışdır. Başqa sözlə desək, *vicdan azadlığı* insanın dinə olan münasibətini sərbəst şəkildə, kənardan heç bir təsir olmadan bildirmək hüququdur. İnsanın dinə olan belə münasibəti üç xüsusiyyəti ilə səciyyələnir: 1) o, hər hansı bir dinə sitayiş edə bilər; 2) o, heç bir dinə inanmayıb, dinə münasibətdə öz bitərəf mövqeyini saxlaya bilər; 3) o, dinə inanmayıb ateist olaraq bütövlükdə dini inkar edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsi vicdan azadlığı hüququnu təsbit edir. Bu mühüm konstitusiya norması 1992-ci il avqustun 20-də qəbul edilmiş "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda öz ətraflı əksini tapmışdır.

3.Atropatena mədəniyyəti

Mədəniyyət – cəmiyyət və insanın inkişafının tarixən müəyyən cəviyyəsini əks etdirir. Mədəniyyət müəyyən tarixi dövrləri, konkret cəmiyyətlərin, xalqların və millətlərin maddi və mənəvi inkişaf səviyyəsini səciyyələndirir.

Mədəniyyət – bəşəriyyət tarixinin keçdiyi üç dövrünün (vəhşilik, barbarlıq, sivilizasiya) üçüncü mərhələsini bildirmək üçün qəbul edilmiş termindir. Mədəniyyət terminini ilk dəfə bu mənada Şotlandiya filosofu A.Ferguson işlətmişdir. L.Morqan bu bölgünü daha da əsaslandırmışdır.

IV əsrin axırlarında meydana gələn bu, dövlət haqqında ilk dəfə geniş məlumatı qədim yunan coğrafıyaşünası Strabon (e. ə. I - eramızın I əsri) vermişdir.

Cənubi və Şimali Azərbaycanın, eləcə də İran Kürdüstanının ərazilərini əhatə edən bu böyük dövlət üç yüz əlli il yaşamış; əkinçiliklə, maldarlıqla, atçılıqla və dünyanın bir çox ölkələrilə apardığı ticarət əlaqələrilə tanınmışdır.

Şəhərləri və şəhər həyatı get-gedə inkişaf etmiş, siyasət və mədəniyyət sahəsində böyük uğurlar qazanılmışdır.

Atropatena – dövlətin yaradıcısı, görkəmli sərkərdə və ağıllı ölkə başçısı Atropatın adı ilə tarixdə qalmışdır.

Makedoniyalı İskəndər Əhəmənilər (Xəhamənişilər) imperiyasını məğlub etdikdən sonra, onun şimal-qərb satraplığında Atropatena müstəqil dövlətlərdən biri olmuşdur. Əhəmənilər sülaləsinin qanuni varisi kimi "İran şahı" taxtında əyləşən Makedoniyalı İskəndər Atropatı qəbul etmiş, göstərdiyi hərbi xidmətləri nəzərə alaraq, dövləti müstəqil şəkildə idarə etməyi ona tapşırmışdır.

Atropat müharibənin ən qızğın yerində Makedoniya əleyhinə güclü qiyamı yatırmış, Midiya hökmdarı Bariaksı əsir alaraq, qiyam iştirakçıları ilə birlikdə gətirib təhvil vermiş və onların hamısı cəzalandırılmışdır[1].

İskəndərin Suz şəhərində düzəltdiyi təntənəli evlənmə mərasimində şahın sərkərdələrindən biri - dostu Perdikka Atropatın qızı ilə evlənmişdir[2].

Buna baxmayaraq, Ellinizmin tarixini yazan müəlliflərin bəziləri, səhv olaraq, Atropatın Midiya satraplığından kənarlaşdırıldığını, hətta Daranın yaxın adamlarından biri olduğunu yazırlar[3].

Bu, mümkün olan şey deyildi, çünki Atropat Daranın yox, İskəndərin yaxın adamlarından biri olmuşdu. İkincisi, Perdikka – İskəndərin görkəmli sərkərdəsi və dostu Atropatın qızı ilə evlənmişdi, onları ailəvi tellər bağlayırdı. Üçüncüsü də, hələ Strabon vaxtilə məlumat verirdi ki, Midiya iki hissəyə ayrılır. Onun bir hissəsi – böyük Midiya adlanır, ikinci hissəsi isə Atropatın Midiyasıdır. Bu ərazi hərbi xadim Atropatın adını daşıyır. Atropat imkan verməmişdir ki, bu ölkə Böyük Midiyanın bir hissəsi kimi makedoniyalıların hakimiyyəti altına düşsün[4]. Həqiqətən, İskəndərin təyin etdiyi Atropat, öz şəxsi qərarı ilə ölkəsini müstəqil elan etmişdir.

---

[1] *Ш.Шифман. Александр Македонский, Ленинград, «Наука», 1988, стр.83.*
[2] *Yenə orada, səh.186.*
[3] *Bax: И.Г.Дройзен. История Эллинизма. т.1 М., Изд. «Эксмо», 2003, стр.261.*
[4] *Bax: : Играр Алиев. Очерк истории Атропатены. «Азернешр», 1989, стр.58.*

E. ə. I minillikdə Azərbaycanda bir-birinin ardınca Manna, Midiya, Atropatakan (Cənubi Azərbaycan ərazisində) və Aşquz, Albaniya-Aran (Şimali Azərbaycan ərazisində) kimi dövlətlər meydana gəlmişdir. Və bununla əlaqədar e.ə. VIII-VII əsrlərdə Urartu, Assuriya və b. dövlətlərin yazılı mənbələrində Azərbaycanın həmin dövrünə aid gil təbəqələr üzərində qeydə alınmış 25 toponim aşkar edilmişdir[1]. Tədqiqatçılar Araz çayının, Təbrizin, Naxçıvanın, Şəkinin, Qəbələnin və bir çox digər yerlərin adlarını misal çəkirlər[2].

Qədim tarixçilər Bizans imperatoru İraklinin (610-641) Şərqə hücumu zamanı Naxçıvandan çıxıb Atropatena Gəncəsinə getdiyini yazırlar. Onlar bu qərara gəliblər ki, həmin dövrdə Arran Gəncəsi ilə yanaşı, Atropatena Gəncəsi də mövcud olmuşdur[3].

Təkzibolunmaz faktlar belədir.

Döyüşlərini davam etdirən Makedoniyalı İskəndərin orduları III Daranın Midiyadan qaçdığını eşidib, oraya daxil olmadan Ekbatana (indiki Həmədana) dönmüş və burada bir möcüzə ilə qarşılaşmışdır: neft çalaları qaynayırdı. Adi bir qığılcımdan yer alovlanır, alışıb yanırdı. Bir uşağın üstünə neft töküb məşəli ona yaxınlaşdıranda od alıb yanır və güclə söndürə bilirlər[4].

Tədqiqatçılar yazırlar ki, Sasani hakimiyyəti zamanı Atropatenaya – Adərbadaqan, ərəblər - Adərbican, farslar – Azərbaycan deyiblər və s. Strabon "Kiçik Midiya" adlandırmışdır.

Bundan başqa, Azərbaycanın şimal hissəsi Albaniya - xalq arasında Aran, yaxud Arran, cənub hissəsi isə - Atropatena kimi tanınırdı[5].

Böyük bir dövlət kimi, Atropatenada kənd təsərrüfatı ilə yanaşı, şəhərsalma və tikinti-abadlıq işləri, memarlıq, pul dövriyyəsi, dəfn mərasimləri və s. maddi mədəniyyət sahələri sürətlə inkişaf edirdi.

Mənbələrdə bir sıra şəhərlərin adları çəkilir və Qazaka şəhərinin – qış, Vera şəhərinin isə - yay iqamətgahı olduğu barədə məlumat verilir. Kənd təsərrüfatının çox inkişaf etdiyi göstərilir.

---

[1] *Q.Voroşil. Zaqafqaziya mənbələrində Azərbaycan palcotoponimləri. /Bax: Azərbaycan filologiyası məsələləri. II buraxılış, B., "Elm"\ 1984, səh.136.*

[2] *Yenə orada.*

[3] *Gəncə (tarixi oçerk), B.:Elm, 1994, səh.8.*

[4] *Ш.Шифман. Александр Македонский, Ленинград: Наука, 1988, стр.83.*

[5] *A.Fazili. Atropatena. e.ə. IV - eramızın VII əsri. B.: Elm, 1992, səh.13.*

Torpağı xış vasitəsilə şumlamışlar. Su kanalları çəkir və bataqlıqları qurudurdular. Süni suvarma sistemi mühüm yer tuturdu. Şəhər ətrafında bağlar və yaşıllıqlar salınır, saxsı qablardan və kəhriz sularından istifadə edirdilər.

Mənbələr Fraaspa (Faraspa) şəhərinin Marağa ətraflarında, Qazakanın – Leylan kəndi ərazisində, Vera şəhərinin Səhənd dağının ətəklərində yerləşdiyi barədə məlumat verirlər[1].

İnşaat işlərində, müxtəlif tikililərdə bişmiş kərpicdən, tez quruyan əhəng və gil məhlulundan istifadə olunurdu. Saxsı materialların istehsalı keramikanın daha geniş şəkildə yayıldığını göstərir.

Fraaspa qədim dini mərkəz olmuş və bu şəhərdə Anahita məbədi fəaliyyət göstərmişdir. Din başçıları – mağlar məbədlərdə yuxarı təbəqə uşaqlarının təlim-tərbiyəsilə məşğul olur, xəstələri müalicə edirdilər. Mağlar astrologiyaya aid məsələləri öyrənirdilər və təbabət elmindən xəbərdar idilər. Atropatenada yüksək səviyyədə ailə məktəbləri, atəşgahlar, saray təhsil sistemi mövcud olmuşdur.

Saray məktəblərində şahzadələr, əyanların və mənsəb sahiblərinin uşaqları təhsil alırdı. Kəndlilərin, sənətkarların və şəhər yoxsullarının uşaqları oxumaq imkanından məhrum idilər.

Dərslər, adətən, səhərlər başlayırdı. Dini təhsil alan uşaqlar atəşgahlarda gecələyir və təhsil haqqını da atəşgahlar ödəyirdi. Orada dini-əxlaqi, fiziki (idman) biliklər verilir, yazıb-oxumaq öyrədilirdi.

"7-15 yaş arasında bir gün bayram edilir, dost-tanışlar həmin məclisə dəvət olunurdu. Məbəddə xüsusi dini ayinlər yerinə yetirilir, uşaqlar yuyundurulduqdan sonra məbədin göstərişilə kəlmeyi-şəhadətini deyir, "sədrə" (müqəddəs köynək) geyinir, "geşti" (müqəddəs kəmər) bağlayırdılar. Beləliklə, Zərdüşt dini gənclərə (20-24 yaş arasında) qəbul etdirilirdi"[2].

"Qədim Azərbaycan atçılığın inkişafında xüsusi rol oynamışdır: Manna, Midiya, Atropatena, Albaniya dövlətlərində

[1] *Azərbaycan tarixi. 7 cilddə, c.1, "Elm", 1998, səh. 302-303.*
[2] *A.Fazili. Atropatena. e.ə. IV - eramızın VII əsri, B., "Elm" səh.160.*

atçılıq inkişaf etmiş, hətta ailə üzvləri sırasında atın da adı çəkilmişdir”[1].

Ox atmaq, ov etmək kimi idman növləri, çövkən oyunu geniş yayılmışdır.

Qazıntılar zamanı indiki Astara-Ərdəbil ərazilərində keramika materiallarından tikilmiş Sasan qala, Novduz qala, adsız “Qala” kimi uzun müddət fəaliyyət göstərmiş bir çox qalalar aşkar edilmişdir.

Bu qalalar əlçatmaz yerlərdə, qayalar üzərində tikilmiş və divarlarında böyük su çənləri quraşdırılmışdır.

Atropatenanın coğrafı şəraiti tikinti işlərinə rəvac verirdi. Əsas tikinti materialı qaya, çay daşlarıydı; bu daşlardan tikilən şəhərlər, qala divarları, qüllələr və istehkamlar, əsasən, müdafiə xarakteri daşıyırdı.

Gil, yaxud gips məhlulu ilə bərkidilmiş daşlar və çay daşları (çınqıllar) da Zöhhak Qalada tikilən pavilyonun binövrəsinə qoyulmuş tikinti materialıydı ki, bu, o biri tikililərlə müqayisədə, ikinci dərəcəliydi. İctimai binaların tikilişində və memarlığa aid bəzək işlərində isə xüsusilə əhəng daşlarından geniş istifadə edirdilər. Zöhhak Qala sarayının tikintisində belə bəzək detallarından çox istifadə olunmuşdur.

Atropatenada abidələrin memarlıq cəhətdən işlənməsinə saraylardan, kilsələrdən və ictimai binalardan daha çox üstünlük verilirdi. Bu abidələrdən birincisi – Zöhhak Qalada tikilən və mülki xarakter daşıyan yaşayış yeri, ikincisi isə qaya üzərində ucaldılmış Kerefto kompleksi məbədidir.

Atropatenalılar ölülərini iri küplərdə (ana bətnində olduğu kimi) dəfn edirdilər, buradan da elmi ədəbiyyatda "küp qəbirlər" ifadəsi işlədilir. Bu küplər xüsusi hazırlanmırdı, adicə iri gil küplər (hündürlüyü - 1,5-1,8 m, eni 1 m) olurdu. Bu küp qəbirlərin üzərində heç bir abidə qoyulmur, inşaat işləri getmirdi. Ölünü iri küpün içinə düzünə (üfiqi şəkildə) salır, boynunu ya sol, ya da sağ çiyni üstə əyirdilər. Dəfn zamanı kişiləri sol, qadınları isə sağ böyrü

[1] *Yenə orada, səh.161*

üstə dəfn edirdilər. Basdırılmış küplərin yanlarına xırda avadanlıq, içinə isə bəzək şeyləri: qolbağı, bilərzik, üzük, muncuq və s. qoyurdular. Bunların da yanında üstü qırmızı və qara rənglərlə naxışlanmış gil qablar olurdu.

Naxçıvanda və Ağcabədidə (Mil düzü) tapılan belə küp qəbirlər sübut edir ki, onlar son əsrlərin yox, e.ə. və eramızın III əsrinin yadigarlarıdır[1].

Atropatena dövlətində pul dövriyyəsi geniş inkişaf etmişdi: bu ölkə ərazisində son dövrlərdə (1923-cü il) xəzinə qalıqlarında tapılan 600, sonra isə 110 "dirhəm" pul vahidi, eləcə də Roma "dinar"ı göstərir ki, Atropatenada parfiyalılarla və Avqust dövrü romalılarla geniş ticarət əlaqələri, pul dövriyyəsi mövcud olmuşdur[2].

Tarixçilər yazırlar ki, qədim Azərbaycanda məhsuldar qüvvələrin inkişafı, ibtidai icma quruluşunun dağılması ilə yanaşı, xüsusi mülkiyyətin əmələ gəlməsi və sinfi münasibətlərin meydana çıxması yeni dini baxışlar üçün münbit şərait yaratmışdı.

Beləliklə, Zərdüştün Urmiya gölü ətrafında doğulduğunu əsas götürən tədqiqatçıların çoxu, zərdüştiliyin ilk vətəni qədim Azərbaycan dininin prototürk olduğunu söyləyirlər[3].

Qədim Roma tarixçisi Pliniyə əsaslanaraq göstərirlər ki, "Avesta"nın ilkin həcmi 2 milyon misra olmuşdur.

Makedoniyalı İskəndər İranı zəbt etdikdən sonra əsəri yandırmışdır. Bu barədə Nizami Gəncəvi də "İskəndərnamə" əsərində geniş məlumat vermişdi:

İskəndər ənır etdi ki, iranlılar
atəşə pərəstişdən əl çəksinlər,
Qədim dinlərini təzələsinlər.
... Müğlərin paltarı oda qalansın,
Atəşpərəstlərlə sərt rəftar olunsun.
O vaxtlar belə bir qayda vardı,
MüəIIim atəşgahlarda oturardı.

[1] *И.Алиев. Очерк истории Атропатены. Б., «Азернешр», 2003, стр.113-114..*
[2] *Yenə orada, səh.114.*
[3] *B.Şəfizadə. Zərdüşt, Avesta, Azərbaycan, B., "Elm", 1996, səh.60.*

Orada xəzinələri gizlində saxlayardı,
Onlara hcç kəsin əli çatmazdı.
Varlılar, varisi olmayan halda,
öz malını atəşgaha qoyardı.
Bu adət üzündən üfüqlər əzabda idi.
Hər bir atəşgah xəzinələrlə dolu ev idi.
İskəndər bu binaları xarab etdikcə
Xəzinə su kimi axırdı…[1]

(Sətri tərcümə)

Zərdüştün fəlsəfi konsepsiyasına görə, dünya əksliklərin vəhdəti üzərində bərqərardır; yəni işıq-zülmət, xeyir-şər, xeyirxahlıq-bədxahlıq, ağ-qara, yaxşı-pis və s.

Dünyanın ən qədim dövlətlərindən və mədəniyyət mərkəzlərindən biri olan Çində də varlıqdakı bu sonsuz hərəkəti və daimi dəyişikliyi bir-birinə zidd kosmik qüvvələrin - işıqla zülmətin toqquşmasında görürdülər[2].

Akademik Aslan Aslanov Aristotelin "Poetika" kitabının tərcüməsinə əlavə etdiyi "Aristotel poetikasının Şərq fəlsəfəsi və ədəbiyyatında mövqeyinə dair" adlı "son sözdə" yazır ki, "...Platon və Aristotelin Zərdüşt fəlsəfəsinə münasibəti haqqında Diogen Layersi özünün "Fəlsəfə tarixi"nə girişində danışır"[3].

Biz bütün bunlara Zərdüştiliyin (hələ öyrənilməmiş nə qədər mübahisəli tərəfləri olsa da) böyük təsir gücünə malik dini-fəlsəfi görüş kimi dünya xalqları arasında geniş yayılması kimi baxırıq.

Sonralar Məzdəkizm və Manilik dini-fəlsəfi dünyagörüşləri də Zərdüştün "Avesta"sındakı fəlsəfi baxışlara əsaslanırdı.

Alimlər qədim Atropatena dövlətində "...gənc Avesta inamları ocaqlarının mövcud olduğunu ehtimal" edirlər. Bizə qədər gəlib çatan "Avesta" Yasnadan, Yaştlardan, Vispratdan, Vendidaddan (Videvdatdan) və kiçik Avestadan ibarətdir.

---

[1] *N.Gəncəvi. "İsgəndərnamə", B., "Elm", 1983, səh.169 (Filoloji tərcümə Qəzənfər Əliyevindir).*
[2] *Bax: Bax:Культурология. М., изд. «Юнити-Дана», 2000, стр.43.*
[3] *Aristotel. Poetika. B., "Azərnəşr", 1974, səh.132.*

Müəlliflər belə nəticəyə gəlirlər ki, "Atropatena Zərdüştiliyi qədim İran dini təlimlərinin tarixində mühüm mərhələlərdən biri idi. Sasanilər hakimiyyəti dövründə Atropatena bir neçə əsr ərzində Zərdüştiliyin istinadgahına çevrilmişdir"[1].

"Zərdüştün alqiş nəğmələri"ndən

Ey Ahura Məzda, səndən soruşuram, mənə bildir: Bu yeri aşağıda və enməyə qoyulmayan göyü yuxarıda saxlayan kimdir? Suyu, odu kimdir yaradan?

Kim yeyin və iti gedən buluda iti gctməyi öyrətmişdir? Ey Məzda, pak təbiətin yaradıcısı kimdir?

Ey Ahura Məzda, səndən soruşuram, doğrusun mənə bildir:

Bu faydalı işığı və bu qaranlığı yaradan kimdir?

Xoşluq gətirən yuxunun və oyaqlığm kimdir yaradıcısı?

İnsanları ibadətə çağıran dan yerinin, günortanın və axşamın yaradıcısı kimdir?

Ey Ahura Məzda, səndən soruşuram, doğrusun mənə bıldir:

Aya, yalanı doğru əlinə tapşıra bilərəmmi ki, onu sənin ayinində muştuluq vcrildiyi kimi, yerə yıxıb ağrı və işgəncəyə giriftar edə?

Bu böyük sınıqlıq, yalana tapmanlarda dərin iz qoyardı.

...Ey insanlar, əgər Məzdanın müqərrər etdiyi əzəli hökmdən faydalansanız, bu dünyanın və o dünyanın xoşluğundan, əbədi əzabdan, yalana tapınanların zərərindən, düzlük istəyənlərin xeyir və faydasmdan agah olsanız, onda həmişə gələcəyiniz yaxşı keçəcək.

... Ey Məzda, bu müqəddəs ağıldan doğruluq ardıcılları deyil, yalana tapınanlar zəhalətə düşdülər; istər birisinin nıalı çox olsun, istərsə də az olsun, gərək doğruluq yolu tutanın dostu ola və yalana tapınanların ziddinə gedə.

...Ey Məzda, işıqlı səhər haçan gələcək və bəşər nəsli doğruluğa üz tutacaq? Öz hikmət dolu sözləri ilə o böyük qurtarıcı

[1] *Azərbaycan tarixi. 7 cilddə, c.1, "Elm", 1998, səh.326.*

haçan diləyinə çatacaq? Vəhumə[1] nin köməyilə gəldiyi adamlar kimlərdir? Çox ümid edirəm ki, ey Ahura, onu mənə qismət edəsən!

Ey Ahııra Məzda, mənə bildir: çünki sən bilənsən, aya, sənin qərarlaşdırdığın cəza günü çatmazdan öncə doğruluq ardıcılları, yalana tapınanlara qalib gələcəkmi? Bəli, bu qələbə dünya üçün bir təmizkarlıq tapşırığı olacaqdır[2].

İslam mədəniyyəti

- *Məhəmməd Peyğəmbər 570-ci ildə Məkkədə Qüreyşilər qəbiləsinin Bəni Haşim nəslindən olan Abdullahın ailəsində anadan olmuşdur. Dünyaya göz açan gündən atasız, 6 yaşında isə anasız qalan Məhəmməd əvvəl babası Əbdül Mütəllibin, sonra isə əmisi Əbu Talibin himayəsi altında böyümüşdür.*
- *Xədicədən Peyğəmbər əleyhissəlamın dörd övladi dünyaya gəilir, nəslin davamçısı isə həzrəti Əlinin arvadı həzrəti Fatimə olur.*

Dünya dinləri kimi, İslam da tarixi hadisədir. İslam eramızın VII əsrində Asiyada, Ərəbistan yarımadasında meydana gəlmişdir; bu o vaxt idi ki, artıq qəbilə cəmiyyətləri dağılmağa başlayır və sinfi münasibətlər yaranırdı.

Ərəbistan, Asiya, Afrika, Aralıq dənizi hövzəsi ərazisində yerləşdiyindən, bir çox Qərb və Şərq dövlətlərilə daim siyasi, mədəni, ticarət əlaqələrilə bağlıydı[3].

Məhəmməd Peyğəmbər 570-ci ildə Məkkədə Qüreyşilər qəbiləsinin Bəni Haşim nəslindən olan Abdullahın ailəsində anadan olmuşdur. Dünyaya göz açan gündən atasız, 6 yaşında isə anasız qalan Məhəmməd əvvəl babası Əbdül Mütəllibin, sonra isə əmisi Əbu Talibin himayəsində böyümüşdür.

Məhəmməd uzun illər boyu karvanları müşayiət etmiş, ticarət işlərində düzlüyü, təmizliyi əxlaqı və mərdanəliyi ilə şöhrət qazanmışdı. Bunu görən Xədicə adlı dul qadın özünün ticarət işlərinin idarə olunmasını ona tapşırmışdır. Məhəmmədin şəxsiyyət və ləyaqətinə

[1] *"Avesta"da xeyir qüvvələrdən biri (red.)*
[2] *Azərbaycan klassik ədəbiyyatı kitabxanası /20 cilddə/, c.l, B., "Eim",1982, səh.11-13.*
[3] *Л.И.Климович. Ислам. М., 1962, стр.13.*

get-gedə heyran qalan Xədicə ona vurulur və Məhəmməd əmisi Əbu Talibin xeyir-duası ilə 25 yaşında ikən 40 yaşlı Xədicə ilə ailə qurur.

Xədicə onu duyur, peyğəmbərlik veriləndə onun iztirablarına şərik olur, Məhəmmədin böyüklüyünü, nadir şəxsiyyət olduğunu görür, qiymətləndirir və ona inanırdı.

Xədicədən Məhəmməd peyğəmbərin dörd övladı dünyaya gəlir, nəslin davamçısı isə həzrəti Əlinin arvadı həzrəti Fatimə olur[1].

Xədicənin ölümündən dörd il sonra Məhəmməd peyğəmbər Aişə ilə ailə qurur.

Son dövrün tədqiqatlarında "Qurani-Kərim" "İslam dininin müqəddəs kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların ən sonuncusu" kimi qiymətləndirilir[2].

Artıq Şərqdə Buddizm, Avropada Xristianlıq sürətlə yayıldığı bir vaxtda, böyük Ərəbistan yarımadasında ən gənc və dünyəvi İslam dini yaranırdı. Tarixçilər yazırlar ki, qısa bir müddətdə İslam dini ideologiyasının təsirilə vaxtilə qədim Romanın tabeliyindəki torpaqlardan daha geniş əraziyə malik olan bir dövlət yarandı.

Ərəbistanın cənubunda və qərbində bir neçə ticarət mərkəzi olan şəhərlər meydana gəldi ki, onların da ən böyüyü Məkkə və Mədinə şəhərləri məhz qüreyş qəbiləsinin əlində idi.

Müqəddəs kitablar. Tarixçilər Məhəmməd peyğəmbərə qədər 124.000 peyğəmbərin olduğunu və onlardan yalnız dördünün kitabı olduğunu qeyd edirlər.

Zəbur – dini əsatirə görə Davud peyğəmbərə Allah tərəfindən göndərilmişdir.

Tövrat – yəhudilərin dini kitabı sayılır. Musa peyğəmbərə aid edilir.

İncil – xristianlığın dini kitabıdır. İsa peyğəmbərin adı ilə bağlıdır.

Quran – İslamın dini kitabıdır. Məhəmməd peyğəmbərə Allah tərəfindən nazil olmuşdur[3].

Məhəmməd peyğəmbərin baxış və fikirləri vahid Allah və axirət dünyasının reallığı ətrafında büllur kimi aydın idi. Və

---

[1] *Anri Masse. İslam. B., "Azərbaycan ensiklopediyası", 1992, səh.33-34.*
[2] *"Quran" (V.Məmmədəliyevin ön sözü), B., "Azərnəşr", 1991.*
[3] *"Quran" (V.Məmmədəliyevin ön sözü). B., "Azərnəşr", 1991, səh.344.*

Məhəmməd peyğəmbər bu inamını özünün səmim-qəlbdən gələn möminliyi, çox gözəl nitq qabiliyyəti və mətanəti sayəsində ətrafındakıların hamısına təlqin edirdi.

Məhəmməd peyğəmbər yer üzərində Allahın yeganə elçisidir. İslam dininin yaradıcısıdır, böyük dövlət xadimi və ictimai xadimdir.

"Qurani-Kərim"i akademik Ziya Bünyadov və AMEA-nın müxbir üzvü, dünyanın bir neçə ali dini qurumlarının fəxri üzvü Vasim Məmmədəliyev 1991-ci ildə orijinaldan Azərbaycan dilinə tərcümə və nəşr etdirmişlər.

Vasim Məmmədəliyev kitaba yazdığı ön sözdə deyir: "Allah təalanın peyğəmbər seçdiyi kimsələrə vəhy üç yolla nazil olur: l) Allah təala bu və ya digər fikri peyğəmbərin ürəyinə salır, yaxud gizli bir səslə ona təlqin edir və ya həmin fikri ona çin olan yuxuda bildirir; 2) Peyğəmbər Allah təalanı görmədən ondan gələn nidanı açıq-aydın eşidir, yəni arada heç bir vasitə olmadan (hicab arxasından) Allahla danışır; 3) Allah təala öz hökmlərini peyğəmbərə mələk vasitəsilə göndərir"[1].

Bu vəhy göydən nazil olan kimi, Məhəmməd peyğəmbər yanındakı əshabələrinə oxuyar, katiblərinə dəri, sümük, daş, xurma qabığı üzərində yazdırardı. Bu əshabələr müxtəlif ərəb qəbilələrinə mənsub adamlar idilər. Hər kəs öz ləhcəsində yazırdı.

Məhəmməd peyğəmbər demişdir ki, vəhy yeddi ləhcədə nazil olmuşdur, yeddi ləhcədə oxumağa da özü icazə vermişdir.

Yeri gəlmişkən, demək lazımdır ki, Musa peyğəmbərin "Tövrat"ından, İsa peyğəmbərin "İncil"indən fərqli olaraq "...Qurani-Kərim Peyğəmbər əleyhissəlama birdən-birə, bütöv şəkildə deyil, hissə-hissə, əvvəlcə Məkkədə, sonra isə Mədinədə... təqribən 23 il ərzində" nazil olmuşdur[2].

Qurani-Kərimin ayrıca kitab şəklində tərtibindən danışan və bunun səbəblərini araşdıran görkəmli alim yazır: "...ilk dəfə Yamamədə baş verən bir vuruşda Allah kəlamını əzbər bilən

[1] *"Quran", B., "Azərnəşr", 1991, səh.V*
[2] *«Quran», B., «Azərnəşr», 1991, səh. VII*

yetmişə qədər əshabə şəhid olduqdan sonra Ömərin təşəbbüsü ilə Əbu Bəkrin xəlifəliyi zamanında başlanmış"dır[1].

"...632-ci ildə gələcək varisləri haqqında heç bir vəsiyyət qoymayan Məhəmməd peyğəmbərin[2] vəfatından sonra yeni yaranan İslam feodal dövlətinin dayaqlarını qorumaq və yarımçıq qalan işləri davam etdirmək dörd xəlifənin öhdəsinə düşmüşdür: Əbu Bəkrin (632-634), Ömərin (634-644), Osmanın (644-656) və Məhəmməd peyğəmbərin kürəkəni və əmisi oğlu Əlinin (656-661). Öz aralarında müəyyən ixtilaflar olsa da, onlar din yolunda mübarizəyə qoşuldular və 640-658-ci illər arasında Fələstini, Suriyanı, Misiri, Gürcüstanın bir hissəsini və s. islamlaşdıra bildilər".

Qafqaz Şeyxülislamı Allahşükür Paşazadə "Qafqazda islam" ("Azərnəşr", 1991) kitabında Quranın, eləcə də hədislərin məscidlərdə və mədrəsələrdə müntəzəm tədrisinin, nəzəri fikirlərinin daha dərin əsaslar üzərində inkişafının orta əsr islam dünyagörüşünün "parlaq hadisələrindən" sayıldığını yazır. O göstərir ki, əl-Kindi, əl-Fərabi, İbn Rüşd, Əbu Bəkr, ər-Razi, əl-Mərvan kimi mütəfəkkirlərin sırasında İbn Sinanın davamçısı Əbülhəsən Bəhmənyar ibn əl-Mərvan əl-Azərbaycani (?-1065) kimi şəxsiyyətlərin xidməti Məhəmmədəli Tərbiyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Bəhmənyar Azərbaycani "...müsəlman mütəfəkkirlərinin fikirlərini davam etdirərək, öz əsərlərində qədim yunan filosoflarını düşündürən dünyagörüşü məsələlərini yeni təməl üzərində - islam müddəaları əsasında nəzərdən keçirmiş və izah etmişdir"[3].

İslam dininin Hindistanda qarşılanması, təbliği və yayılması barədə Cəvahirləl Nehru deyirdi: "...Hindistanın tərəqqisi üçün islam özüylə yeni, həvəsləndirici amillər gətirdi. İslam müəyyən dərəcədə fəaliyyəti yuksəldən vasitə kimi təsir göstərirdi"[4].

C.Nehru başqa bir yerdə yazırdı: "İslam dini Hindistanı ayıltdı… İslam dinini Hindistana gətirən türk xalqları və digər xalqlar olub"[5].

---

[1] *«Quran», B., «Azərnəşr», 1991, səh.X.*
[2] *Azərbaycan tarixi. 7 cilddə, c.2, "Elm", 1998, səh. 247-248.*
[3] *Qafqazda İslam. B., "Azərnəşr", 1991, səh.119.*
[4] *Nehru C. Ümumdünya tarixinə nəzər. B., "Gənclik", 1986, səh.258.*
[5] *Yenə orada, səh.253.*

Məhəmməd peyğəmbərin yadigar qoyub getdiyi müqəddəs "Qurani-Kərim" 114 surədən, 6236 ayədən ibarətdir. İslam alimlərinin fıkrincə, Quranın 90 surəsi Məkkədə, 24 surəsi Mədinədə nazil olmuşdur. Quran insanı Allaha ibadət etməyə, ondan kömək və mərhəmət diləməyə, ona heç bir şərik qoşmamağa, yalnız Allaha boyun əyməyə çağırır. O, kişilərə - qadınla zərif bir məxluq kimi rəftar etməyi, uşaqların tərbiyəsində ata və ananın bərabər məsuliyyət daşımasını tövsiyə edir.

Peyğəmbər əleyhissəlamın kəlamları bütün insanların tərbiyə ocağıdır. O, alimin xidmətinə, sənətkarların əməyinə yüksək qiymət verir: "Qiyamət günü Allahın hüzurunda alimin mürəkkəbi şəhidin qanından qiymətlidir". "Alimlər peyğəmbərlərin varisləridir".

"Məhəmmədin kəlamları" ayrıca kitabça şəklində 1905-ci ildə məşhur hind alimi Abdulla Sührəvərdi tərəfindən toplanıb nəşr edilmişdir.

Böyük rus yazıçısı Lev Tolstoy Məhəmməd peyğəmbərin həyatını yazmağa hazırlaşırdı, öləndə bu "Kəlamlar" onun paltosunun cibindən çıxıb[1].

Məhəmməd peyğəmbərin kəlamları:

"Behişt anaların ayaqları altındadır".
"Fəhlənin alnının təri qurumamış onun muzdunu verin".
"Ömrünü elmə sərf edən adam heç vaxt ölmür".
"Bir saat yaradıcı düşünmək, altmış il ibadətdən üstündür".
"Elmindən fayda gələn alim min abiddən üstündür".
"Elmi beşikdən məzara qədər öyrənmək lazımdır".
"Elmin ayağı dünyadan kəsildiyi vaxt savaş başlanacaq".
"İnsanın gözəlliyindən biri də onun aydın və gözəl Danışmasındadır".
"Bəşəriyyət düz yolu tapandan sonra dağılıb məhv olmaz, yalnız münaqişə və mübahisə yolu ilə dağıla bilər".
"Təkəbbür insanı alçaldır və kiçildir".
"Qocaya hörmət Allaha hörmət deməkdir..."

[1] *Панова В.Ф., Вахтин В. Пророк Мухаммед. М., изд. "Феникс", 1999, стр.3.*

Quran, ilk növbədə, ərəblərin və bütün müsəlman dünyasının ağlına, şüuruna, dünyagörüşünə, özünüdərkinə böyük təsir göstərmişdir. Ən bariz misal olaraq, ərəblərin qədim adətlərinə münasibətin dəyişməsini göstərmək olar. Ailədə doğulan və "artıq" sayılan qız uşağının diri-diri basdırılmasını Quran qadağan etmişdir.

Bu müqəddəs kitabdakı ehkamlar və şəriət (hüquq məsələləri) cəmiyyət, qanun, əxlaq kimi problemləri əhatə edir.

"İman" və "Ehsan"la insan özünü Allahın ixtiyarına verir, ondan asılı olduğunu hiss etdirir.

Ərəblər deyirlər: "Biz iman gətirdik!", yaxud "Biz islam qarşısında itaət etdik" və s. İman sözünün üç ünsürdən ibarət olduğunu yazırlar, yəni dini ürəkdən dərk etmək (etiqad), dil ilə söyləyib inanmaq (iqrar) və xeyir iş görmək (əməldə göstərmək).

Quranda adı çəkilən qiyamət gününün dəhşətləri - cənnət-cəhənnəm, alın yazısı, islam dinində ilahi qanun və ya hüquq, ibadət, namaz, oruc tutmaq, zəkat (sədəqə), Həcc ziyarəti, vərəsəlik, məhərrəmlik, oğurluq, ailə və s. təfsirçilər tərəfindən ətraflı surətdə şərh edilmişdir və indi də edilməkdədir.

Hicrət. Məhəmmədin Məkkədən Mədinəyə köçməsi (hicrət) gecəsi, yəni 622-ci il iyul ayının 26-sı müsəlman tarixinin başlanğıcı hesab olunur[1].

Peyğəmbərin ziyarətə getməsi. Mənbələr məlumat verir ki, Məhəmmədin Məkkəni ziyarətə getməsinə "həcci vəda" ("vidalaşma həcci") adı verilmişdir. Peyğəmbər əleyhissəlam həcdən Mədinəyə qayıtdı. Özünü olduqca yorğun hiss edirdi. Bu vəziyyət üç ay davam etdi və 632-ci il iyun ayının 8-də dünyasını dəyişdi[2].

Məhəmmədin ölümündən sonra Ərəbistanın müxtəlif yerlərində yalançı peyğəmbərlər peyda oldu.

Quranın ilk əlyazması. Məhəmməd peyğəmbər əleyhissəlamın sağlığında Quran ayrıca kitab halına salınmamışdı. Əbubəkrin tapşırığı ilə Zeyd ibn Sabit (peyğəmbərin oğulluğa götürdüyü inanılmış şəxs olmuş və yanında katiblik etmişdir) əshabələrin yadında qalan ayrı-ayrı parçaları toplaya bilmiş, onların üzünü köçürmüş,

[1] *Masse A. İslam, B., "Azərbaycan ensiklopedyası", 1992, səh.38.*
[2] *Yenə orada*

işini tamamlayandan sonra ilk əlyazmasını Əbubəkrə təqdim etmişdir[1].

Mələklər və şeytanlar. İşıqdan yaranmış mələklərin cinsi olmur və onlar allah təalaya itaət edirlər. Qədim yəhudi dinindən İslam dininə keçən dörd böyük mələyin adı belədir: Allahın vəhyini peyğəmbərlərə gətirən Cəbrail; bütün Kainata göz yetirən Mikail; qiyamət günü öz surunu (şeypurunu) çalmağa hazır vəziyyətdə duran İsrafil; ölənlərin ruhunu canından çıxaran Əzrail.

Mələklər Adəmdən əvvəl yaradıldığından, Allah əmr edir ki, mələklər ona sitayiş etsinlər. İblis oddan yaradıldığını əsas gətirərək, torpaqdan yarananlara baş əymək istəmir. Allah onu lənətləyir. Lakin o, qiyamət gününəcən allahdan möhlət alır, Adəm və Həvvadan tutmuş bütün insanlara yamanlıq etməyə başlayır.

Peyğəmbərlər. Peyğəmbərlər Allahın rəsuludurlar. Quranda deyilir ki, dini yaymaq üçün "biz hər bir xalqın arasına bir rəsul (elçi) göndərdik". Lakin peyğəmbər çox olduğu üçün, onların 6-sı baş peyğəmbər hesab edilir: Adəm, Nuh, İbrahim, Musa, İsa və axırıncı peyğəmbər sayılan Məhəmməd[2].

Qadınlar. Tədqiqatçılar belə bir fikir yürüdürlər ki, Quran qadınlara nəvaziş göstərməmişdir. Çünki onlar ancaq "bəzəyi düşünərək və mənasız mübahisələr edərək böyüyürlər". Hətta qadınlar və uşaqlar kişilərin allah qarşısında vəzifələrini yerinə yetirmələrinə də maneçilik törədirlər. Quran iki qadını mükəmməl olduğuna görə qəbul cdir. Biri Fironun arvadı Asiya, digəri İsa peyğəmbərin anası Məryəm. Məhəmməd peyğəmbər bu qadınlar sırasına arvadı Xədicəni və qızı Fatiməni də daxil etmişdir[3].

İslamın beş sütunu. Dinə inam gətirmək – kəlmeyi-şəhadəti söyləməkdən ibarətdir. Yəni, "Allahdan başqa məbud yoxdur və Məhəmməd allahın rəsuludur"; gündə 5 dəfə namaz qılmaq; təmiz ürəklə əl tutmaq, yəni zəkat vermək; ildə bir dəfə, ramazan ayında oruc tutmaq; Məkkəni, heç olmasa, bir dəfə ziyarət etmək.

---

[1] *Masse A. Islam. B., «Azərbaycan ensiklopediyası», 1992, səh.89.*
[2] *Yenə orada, səh.119.*
[3] *A.Masse. İslam. B., "Azərbaycan ensiklopediyası", 1992, səh.145*

Ərəb xəlifələri. Əbu Bəkrin (632-634) xəlifəliyi dövründə İslam dini Ərəbistanda sabitləşdi. O, Məhəmməd peyğəmbərin həm yaxın dostu, həm də qayınatası idi.

Ömərin 10 illik (634-644) hakimiyyəti İslam tarixinin qalibiyyətli yayılma və möhkəm təşkilat dövrü oldu.

Osmanın (644-656) və Əlinin (656-661) xəlifəliyi dövründə yeni feodal dövlət quruluşu ərəblərin birliyini təmin etdi və İslamın şöhrəti Ərəbistan yarımadasından çox-çox uzaqlara yayılmağa başladı.

Xəlifə Ömər 644-cü ildə bir iranlı xristian tərəfindən öldürüldü. Xəlifə Osman 656-cı ildə döyüşlərin gərgin və çıxılmaz yerində suriyalı döyüşçülərə müraciət etdi və onlardan imdad dilədi - bu, xəyanət kimi qiymətləndirildi və onu təqsirli bilib qılıncla öldürdülər. Xəlifə Əli 661-ci ildə, bir növ, təkləndi, belə ki, Kufə əhalisi ondan üz döndərdi, Misir Müaviyənin tərəfinə keçdi, əməvilərə qarşı iki il arası kəsilmədən mübarizə aparan Əli qətlə yetirildi[1].

İslamın Azərbaycanda yayılması. Mənbələrdən öyrənirik ki, islamın Azərbaycanda yayılması VII-VIII əsrlərdə Cənubi Qafqazın ərəblər tərəfindən işğalı ilə başlamışdır. Ərəb yürüşlərinin müqayisəli təhlili sübut cdir ki, "...ərəb ordusunun xəlifə Ömərin əmri ilə 639-cu ilin avqustunda başlamış Mesopotamiyanın işğalı prosesində Azərbaycan ərazisinə hücum olmuşdur".[2]

Ərəblərin üç dəfə (639, 643, 645-ci illərdə) Azərbaycana ardıcıl hücumu yerli əhalinin ciddi müqavimət göstərdiyinə dəlalət edir.

Babək hərəkatının müasiri, ərəb alimi Əbu Hənifə əd-Dinəvəri... hələ o zamanlar Babəkin əsli və təlimi haqqında müxtəlif rəylər əlduğunu göstərirdi... "Babəkin başçılıq etdiyi xürrəmilər-babəkilər öz ideya və əməllərilə ... yeni dini görüş yaratmış, yalnız ərəblərin hakimiyyətlərinə qarşı deyil, onların təbliğ etdikləri və o dövrdə Azərbaycanda hələ tam mənimsənilməyən ideologiyalarına qarşı çıxmışdılar".[3]

---

[1] *A.Masse. İslam. B., "Azərbaycan ensiklopediyası", 1992, səh.49-56.*
[2] *Azərbaycan tarıxi, 7 cilddə, c.2, Bakı, "Elm", 1998, səh.157.*
[3] *Yenə orada, səh.238.*

Bir çox ərəb müəllifləri[1] mənbələrə mümkün qədər elmi və hörmətlə yanaşan, onlardan çox-çox qabaq yaşamış qədim yunan, Roma tarixçilərindən - Herodotdan, Fukididdən, Tasitdən, Plutarxdan və b. nümunə götürmək əvəzinə, Babəkin başçılıq etdiyi ümumxalq hərəkatına nəinki tendensiyalı və qərəzli münasibət bəsləmişlər, hətta dövrünün "...ən böyük simalarından biri" (Səid Nəfisi) olan milli qəhrəmanın ünvanına hər cür ləkə yaxmaqdan çəkinməmiş, şəxsi ləyaqət hissini belə təhqir etmişlər.

Səid Nəfisi bunun səbəblərindən birini Babək haqqında tarixi məlumatların bizə kifayət qədər gəlib çatmamasında görür.

Görkəmli İran alimi yazır:

"Aydındır ki, İbn-əl-Əsirin ... yazdığı sözlərdən məqsəd, başqa ərəb yazıçıları kimi, bu xalqa (Azərbaycan xalqına) böhtan atmaq idi"[2].

Mənbələri yetərincə araşdıran məşhur alim fikrini belə davam etdirir: "Kitablarda onların (Babəkilərin) məsləki haqqında yazılanlar da qərəz və böhtan xarakteri daşıyır... Bu mənada xürrəmilər yeni məzdəkilər və ya islamdan sonrakı məzdəkilər kimi tanınmalıdırlar. Kitablarda məzdəkilər haqqında yazılmış böhtanlar bunların (Babək hərəkatının) haqqında da deyilmişdir"[3].

Böyük Azərbaycan alimi Ziya Bünyadov yazırdı ki, Səid Nəfisi də, başqa fars alimləri kimi, Babəki, xürrəmilər hərəkatını öz "milli Azərbaycan xüsusiyyətlərindən" ayıraraq, yalnız İran milli ruhu üçün xarakterikdir, - deyə təqdim etmişdir[4].

Akademik Ziya Bünyadov Babək hərəkatının dini zəmində baş verdiyini izah edənlərin əleyhinə idi. O, bir çox mənbələrə əsaslanaraq sübut edirdi ki, Babək hərəkatı Abbasilər hakimiyyətinin "vergi məngənəsində" çırpınan xalq kütlələrinin mübarizəsiydi[5]. Həmçinin "...IX əsrdə Azərbaycan xalq kütlələrinin hərəkatını üsyan kimi qiymətləndirmək azdır. Bu hərəkat xarici işğalçılara qarşı

---

[1] Səmani. "Kitab əl-ənsab"; İbn əl-Əcir. "Əl-kamil fi-t tarix"; İbn əl-İbri. "Müxtəsər əl-düvəl"; Nizam əl-Mülk ət-Tusi. "Siyasətnamə"; Etimad-əc-Səltənə. "Müntəzəmi-Nasiri" və s. Bu barədə bax: Səid Nəfisi. Babək, B., "Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı", 1960. səh.12-13.

[2] Nəfisi S. Babək, B., "Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı", 1960. səh.14.

[3] Yenə orada.

[4] Yenə orada.

[5] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, "Azərnəşr", 1989, səh.37.

Azərbaycan xalqının apardığı uzunsürən qüdrətli azadlıq müharibəsi idi".[1]

Göründüyü kimi, Babək hakim qüvvələrin dözülməz zülm və istismarına qarşı azadlıq mübarizəsi aparan milli qəhrəman, xalq sərkərdəsi olmuşdur.

Beləliklə, Babək və onun rəhbərlik etdiyı ümumxalq hərəkatı qədim qullar dünyasını ayağa qaldıran Spartakla və onun üsyançı hərəkatı ilə müqayisə edilə bilər. Romada qorxuya düşən Senat ən güclü sərkərdələri Mark Krassı və Qney Pompeyi (e.ə. I əsrin 72-71-ci illəri) Spartakın üstünə göndərmişdisə,[2] Babəkin hücumlarından vahimə keçirən xəlifə əl-Mötəsim də 835-ci ildə mahir sərkərdəsi – "...Afşin Heydər ibn Kavusu xürrəmilərlə döyüşəcək bütün xəlifə qoşunlarının baş komandanı təyin etdi". Və "Afşinin özünə xəzinədən hər gün 5 min dirhəm... döyüş günlərində isə 10 min dirhəm ödənilməsi barədə göstəriş verdi".[3]

Hər iki xalq hərəkatı xəyanətlə yatırılmış, qəhrəmanlara divan tutmuşdur.

4. Etik tərbiyə. Əxlaq – azadlığın şürlu surətdə məhdudlaşdırılmasıdır. Həzrəti-Əli(ə)-ın ağıl və bilik haqqında kəlamları

Etika anlayışı. ***Etika əxlaq nəzəriyyəsidir***. Etika və əxlaq bir-biri ilə bağlı olan başqa-başqa anlayışlardır. Etika yunanca "ehtika", "ehtos" sözlərindən götürülüb, *adət, xasiyyət, xarakter* anlamını verir. Etika əxlaq, onun inkişafı, kateqoriyaları, normaları və cəmiyyətdə rolu haqqında fəlsəfi təlimdir. Etika müxtəlif cəmiyyətlərdə əxlaqın yerini müəyyənləşdirir, onun təbiətini və mahiyyətini təhlil edir, mənəviyyatın mənşəyini və inkişaf tarixini öyrənir. Bununla yanaşı, etika mənəviyyatın əsas prinsiplərini, insan fəaliyyətinin normalarını xeyir və şər anlayışları noqteyi-nəzərindən təhlil edir.

---

[1] *Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, "Azərnəşr", 1989, səh.32.*

[2] *Машкин Н.А. История Древного Рима. М., ОГИЗ, Государственное изд. Политической литературы, 1948, стр.264-265.*

[3] *Azərbaycan tarixi. 7 cilddə, c.2, "Elm", 1998, səh.247-248.*

Bəs insanların əxlaq haqqında təsəvvürləri ilə *etik baxışların* yaranması necə baş vermişdir? Etik baxışlar ancaq insanların əməli əxlaqının ümumiləşdirilməsi sayəsində çox sonralar meydana gəlmişdir. Başqa sözlə desək, insanların əxlaqi keyfiyyətləri bu keyfiyyətlər haqqında nəzəri təfəkkürdən əvvəl mövcud olmuşdur. Nəzəri əxlaq, yəni etika əməli əxlaqın uzunmüddətli müşahidəsi və təhlili əsasında təşəkkül tapmışdır.

Etikanın aşağıda sadalanan kateqoriyaları vardır:

- Xeyir;
- Şər;
- Borc;
- Xeyirxahlıq;
- Vicdan;
- Şərəf;
- Ləyaqət;
- Alicənablıq;
- Xoşbəxtlik;
- Mənalı həyat;
- Ədalətlilik.

Bu kateqoriyaları sxem şəklində belə göstərmək olar.



Onlardan bəzilərini nəzərdən keçirək.

Biz daima cəmiyyətdə borc duyğusu ilə yaşayırıq: ata-ana qarşısında borc, ailə qarşısında borc, dövlət, cəmiyyət və xalq qarşısında borc. Borcun, vəzifənin meydanı çox genişdir. O, insanın daimi yoldaşı, ayrılmaz bir parçasıdır. Biz öz ailəmiz, qonşularımız, vətəndaşlarımız, dövlətimiz və bütün bəşəriyyət qarşısında müəyyən vəzifələr daşıyırıq. Onları təkcə dərk etmək kifayət deyildir. Onları həm də icra etmək üçün səy göstərmək, əməli fəaliyyətdə olmaq lazımdır.

İnsanların bir-birinə edə biləcəkləri ən mühüm yardım növlərindən biri insanı pislik və eyiblərin pəncəsindən xilas etməkdir. Bu, ən böyük yaxşılıqdır. Qədim zərbi-məsəllərin birində deyilir: "Yaxşılığın pislik üzərində ən böyük qələbəsi pis insanları yaxşı etməkdir. Bu, xeyirin şər üzərində təntənəsidir, bu, qaranlığı, zülməti işığa çevirməyə, əyri şeyləri düzəltməyə, ölümcül xəstələrə şəfa verməyə bərabərdir".

Xeyirxahlıq əsrlər boyu xalqımızın tərənnüm etdiyi və qoruyub əzizlədiyi etik kateqoriyalardan biridir. Xeyirxahlıq etikanın mərkəzində duran xeyir kateqoriyasının reallaşdırılması və əməli tətbiqidir. Xeyirxahlıq əxlaqi sərvətlərin əsası və insanların

birgəyaşayışının təməl daşlarından biridir. Insanlara yaxşılıq etməyə çalışmaq, onlara münasibətdə xeyirxah olmaq insanlığın ən vacib şərtidir.

Təəssüf ki, cəmiyyətdə şər, bədxahlıq real surətdə mövcuddur. Şəri, bədxahlığı görmək, ona qarşı amansız mübarizə aparmaq lazımdır. Çoxəsrlik əxlaqi təcrübə sübut edir ki, xeyirin şər, işığın qaranlıq, xeyirxahlığın bədxahlıq üzərində qələbəsi labüddür. Xalqımız özünün zərbi-məsəllərində, atalar sözlərində bu fikri belə əsaslandırmışdır: "Xeyir toxumu ən sərt qayanı da yarar", "Hər qaranlıq gecənin bir işıqlı gündüzü də var". Ən böyük əxlaqi vəzifə isə öz qəlbini xeyirxahlığa öyrətməkdən, başqalarına da bunu təlqin etməkdən ibarətdir. Çünki bir atalar sözündə deyildiyi kimi, "yaxşılıq edən yaxşılıq tapar".

Etik tərbiyədə bədii ədəbiyyatın və incəsənətin rolu. Bədii ədəbiyyat və incəsənət etik tərbiyədə mühüm rol oynayır. Azərbaycan və dünya ədəbiyyatının diqqətəlayiq əsərləri insanın daxili aləminə, mənəvi əxlaqının təkmilləşdirilməsinə xidmət edir. Bədii ədəbiyyat insanları öz ləyaqətini qorumağa, mənəvi cəhətdən yüksəlməyə, xeyirxah əməllər sahibi olmağa, düzlüyə, ədalətliliyə, əxlaqi saflığa səsləyir. Nizami, Füzuli, Səməd Vurğun kimi ədəbiyyat korifeylərimiz əxlaqi gözəllik, mənəvi saflıq uğrunda mübarizə aparan çox cəsarətli insanlar olmuşlar. Dünya ədəbiyyatının korifeyləri Vilyam Şekspirin, Ernest Heminqueyin, Mark Tvenin, Teodor Drayzerin, Çingiz Aytmatovun əsərləri insanda müsbət əxlaqi keyfiyyətlərin yaranmasına və onun mənəvi cəhətdən getdikcə zənginləşməsinə istiqamət verir, güclü təsir göstərir. Məsələn, Nizami Gəncəvinin bu ölməz misraları insanları həmişə yaxşılığa, xeyirxahlığa səsləyir:

Yaxşılıqla pisdən qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeydən üstün.

Mədəniyyət abidələri, incəsənət əsərləri öz bənzərsiz, təkrarolunmaz gözəlliyi ilə insan qəlbində böyük hisslər oyadır. Görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlunun, bənzərsiz miniatürçü-rəssam Sultan Məhəmmədin yaratdığı möhtəşəm mədəniyyət nümunələri əsrlərin dərinliyindən gələn səslər olmaqla yanaşı, həm

də yüksək etik baxışlar mənbəyidir. Onların əsərləri insanın mənəvi aləmini zənginləşdirir, sənətə, sənətkara hörmət və məhəbbət hissi formalaşdırır.

Ümumiyyətlə, insanın həyatdakı bütün fəaliyyəti, yaradıcılığı onun mənəvi aləminin gözəl olub-olmamasından çox asılıdır. Əgər insanın mənəvi aləmi gözəl və kamildirsə, onun fəaliyyəti, yaradıcılığı, gördüyü işlər, onu düşündürən məsələlər də gözəl, kamil olacaqdır. Bu kamillik insan münasibətlərinin, vətən, xalq, cəmiyyət həyatının daha da gözəlləşməsinə xidmət edəcəkdir. Əksinə, əgər bu daxili aləm özü yoxdursa, belə bir nöqsanlı daxili aləmə malik olan insanın işi, fəaliyyəti, hərəkətləri, münasibətləri, o cümlədən zövqü də eybəcər olacaqdır. O, həmişə işə zərər verəcək, xətər toxunduracaqdır.

Başqa bir mühüm məqama diqqət yetirək. Təbiət gözəlliklərinə, ayrı-ayrı cism və hadisələrdə mövcud olan tənasüblüyə, ahəngdarlığa, insan əməyinin gözəl nəticəsinə estetik münasibət göstərməyi bacarmayan bir adamın əxlaqında, hərəkət və davranışında nöqsan olmaya bilər, ancaq onu mənəvi cəhətdən inkişaf etmiş adam hesab etmək çətindir.

Yuxarıdakıları ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, yüksək əxlaqi keyfiyyətlər mənəvi zənginliyin mühüm xüsusiyyətlərindəndir, mənəvi gözəllikdir. Hər kəs özündə etik baxışları inkişaf etdirməli, hamı üçün maraqlı insan kimi yetişməlidir.

Vicdan. Əxlaqi məsuliyyət. İnsanın iradi hərəkətlərinin bir çox növləri vardır. *Əxlaqi hərəkətlər* bu hərəkətlərin bir növüdür. Əxlaqi hərəkətlər dedikdə insanın bilavasitə məsuliyyət daşıdığı, cavabdeh olduğu hərəkətləri başa düşürük. Cavabdeh olmaq, məsuliyyət daşımaq isə insan iradəsinin azadlığını tələb edir. Əgər iradə azadlığı olmasa, hərəkətin səbəbləri insan qüvvəsindən kənarda qalsa, heç bir pis əməldə insanı təqsirləndirmək olmaz. Buna görə də müdriklər "azadlıq olmayan yerdə əxlaq da yoxdur" demişlər. İnsan bir hərəkəti edib və ya etməməkdə azad deyilsə, hərəkət növü seçməkdə sərbəst deyilsə, onda onun hərəkətinə əxlaqi nöqteyi-nəzərdən qiymət vermək mümkün olmaz. Başqa sözlə de-

sək, insanın iradə azadlığını inkar etmək bütövlükdə əxlaqı inkar etmək olardı.

Burada ***əxlaqi məsuliyyət*** anlayışı meydana çıxır. Əxlaqi məsuliyyətin dini, hüquqi və b. məsuliyyətlərdən fərqi ondadır ki, onun arxasında Allah qorxusu və ya hüquqi cəza, cəmiyyət ittihamı deyil, eyni zamanda daxili vicdan mühakiməsi durur. Əxlaqi məsuliyyətin hüquq, din, adət-ənənələrdən fərqi ondadır ki, bunlar fərdi iradəyə xaricdən təzyiq, təsir göstərdikləri halda, əxlaqi məsuliyyətin cəzavericisi daxildə olur. Yaxşı və pis, əxlaqlı və ya əxlaqsız hərəkəti bəyənən və ya rədd edən hakim isə ***vicdandır.*** Əxlaqi iradəni bir sıra niyyət və məqsədlərin icrasına yönəldən də odur.

Əxlaqi məsuliyyət hər şeydən əvvəl vicdan qarşısında məsuliyyətdir. Vicdan əzabı, peşmançılıq insanı bu və ya digər qeyri-əxlaqi hərəkətlərdən, eyib və pisliklərdən çəkindirən qüvvədir.

Vicdan, əxlaqi məsuliyyət insanın qəlbində cəmiyyətin səsi kimi çıxış edir. Buna görə də dahi Nizami sağlam düşüncə sahibi olan hər kəsi, hər bir kamil insanı öz könül dünyasına qonan tozları, çirkləri vaxtlı-vatında silməyə, bu «evin» hər bir guşəsini təmiz saxlamağa səsləyir:

Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından.
O qədər saf qəlbli, pak vicdanlı ol,
Mənəvi sirləri edəsən qəbul...
Pis olan şəxslərə vur qara damğa,
Çalış öz qəlbini saflaşdırmağa.

Əxlaq – azadlığın şüurlu surətdə məhdudlaşdırılmasıdır

İnsanların mənafeyinin başqalarının mənafeyi ilə uzlaşması.Tarixi inkişafın bütün mərhələrində insanlar arasında əxlaqi münasibətlər mövcud olmuşdur. Bu münasibətlər içərisində ***xeyirxahlıq, səmimiyyət, mehribanlıq, qarşılıqlı hörmət*** xüsusi yer tutur. Çünki onlar əsl insani münasibətlərdir. Müxtəlif dövrlərdə müxtəlif xalqları təmsil edən mütəfəkkirlər, əxlaq nəzəriyyəçiləri bu əxlaqi

keyfiyyətləri geniş tərənnüm etmişlər. Həm də bunlar adicə bir arzu deyil, həmişə ürəkdən gələn amiranə bir tələb kimi səslənmişdir. Bu, heç də təsadüfi deyildir. Xeyirxahlığı, səmimiyyəti, mehribanlığı, qarşılıqlı hörməti, əsl insani münasibətləri haqlı olaraq əxlaqi tərəqqinin "ilk pillələri" adlandırmışlar. Çünki bunlarsız insanların birgəyaşayışı mümkün olmazdı. Cəmiyyətin inkişafı və bərqərar olması üçün bunlar ciddi bir zərurət olmuş, belə bir zərurət olaraq da qalmaqdadır. Yalnız səmimilik, xeyirxahlıq, mehribanlıq, əsl insani münasibətlərin olduğu şəraitdə, insanların mənafeyi başqalarının mənafeyi ilə uzlaşa bilər. Səmimi, xeyirxah, humanist, ədalətli insan heç vaxt öz şəxsi mənafeyini mənsub olduğu nəslin, ailənin, icmanın, kollektivin, xalqın, ən nəhayət, ölkənin mənafeyindən üstün tutmaz.

Əxlaqın azadlığı məhdudlaşdırması nə deməkdir? Bəzən cəmiyyətdə insanlar arasında elə münasibətlər hökm sürür ki, onları qanunlarla deyil, əxlaqi dəyərlərlə ölçmək, nizamlamaq mümkündür. Məsələn, avtobusda gənc oğlan və qızların yaşlı, əlil insanlara, uşaqlı qadınlara yer verməsi heç bir qanunla müəyyən olunmayıb. Lakin yüksək əxlaqi keyfiyyətlərə malik olan insanlar bunu özlərinə borc bilirlər.

Əsrlərdən bəri xalqımızın yaratdığı, yaşatdığı, qoruduğu bir çox əxlaqi dəyərlər vardır ki, onlar insanların fəaliyyətlərini, eləcə də davranışlarını məhdudlaşdırır. Onlar belə bir yazılmamış qanuna əsaslanır ki, sənin azadlığın mənim mənafeyimə toxunduğu yerdə məhdudlaşır. Insanların hər birinin hüquq və azadlıqlarının olduğu yaxşı məlumdur. Götürək sərbəst toplaşmaq azadlığını. Müəyyən insanlar qrupunun qanunun yol verdiyi yerlərdə sərbəst şəkildə toplaşaraq öz fikirlərini bildirmək, etiraz və tələblərini irəli sürmək hüququ vardır. Lakin bu zaman yersiz səs-küy salmaq, ətrafı zibilləmək, yaxın evlərdə yaşayan insanların rahatlığını pozmaq olmaz. Çünki belə olduqda başqalarının istirahət etmək, təmiz və sağlam mühitdə yaşamaq hüquqları pozulur. Bu zaman edilmiş hərəkətlərdə cinayət tərkibi olmasa da, həmin adamlar ictimai qınağa məruz qala bilərlər. Bax onda əxlaqın məhdudlaşdırılması meydana çıxır. Əxlaqın məhdudlaşdırılmasında isə əxlaqi məsuliy-

yət mühüm rol oynayır. İnsanlar bir-birinə münasibətdə müəyyən əxlaqi məsuliyyət daşımasalar, cəmiyyət həyatı, birgəyaşayış əsla mümkün olmaz.

İnsanlığın əsas keyfiyyətlərindən olan, danışdıqda sözünün yerini bilmək, oturub-durmaqda, başqasına münasibət göstərməkdə əxlaq normalarını gözləmək, başqasının ömrünü uzatmaqla yanaşı, özünün də gələcək xoşbəxtliyinin təməlini qoyur. Bu barədə Azərbaycan şifahi xalq ədəbiyyatının görkəmli nümayəndəsi Abbas Tufarqanlı çox gözəl deyib:

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını.
Amanat-amanat qonşu malını,
Qonşunu yox istəyən özü var olmaz.

Əxlaq və din. Əsrlər boyu din insanların mənəviyyatında, şüur və davranışında çox mühüm rol oynamış və oynamaqdadır. Bir çox dinlərdə, o cümlədən İslam dinində insanları düz yola dəvət edən, ədalətli, vicdanlı, namuslu, humanist olmağa səsləyən çox qiymətli fikirlər vardır. Müqəddəs kitabımız olan Qurani-Kərimi həm də böyük "Əxlaq Ensiklopediyası" adlandırmaq olar. İslam dini kamil bir həyat tərzi, əxlaq məcmusudur. Bu baxımdan o, istər fərdi, istərsə də ictimai həyatın hər hansı sahəsində bir ölçü, bir qayda qoymuşdur. Insanlar, cəmiyyət bu ölçü və qaydalara əməl etdikdə müvəffəqiyyət qazanır, zərərdən uzaqlaşmış olurlar.

Qurani-Kərimdə insanları pis əməllərdən çəkindirən, onları əxlaqlı, mənəviyyatlı olmağa sövq edən çoxlu dəyərli fikirlər vardır. Onlardan bir neçəsini nəzərdən keçirək.

- "Biz insana ata-anasına yaxşılıq etməyi, onlarla gözəl davranmağı tövsiyə etdik".

- "(Ey müsəlmanlar!) Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!"

- "Düz danışanlara düzlükləri fayda verər".

Əxlaq insan fəaliyyətini tənzimləyən sosial mexanizmdir. Hər bir insan müəyyən bir iş görməyə başlamazdan əvvəl bu işin ona fayda verib-verməyəcəyini, atdığı addımın cəmiyyət tərəfindən necə qarşılanacağını götür-qoy etməlidir. Insan öz hərəkətlərini

nəinki tam məsuliyyət hissi ilə təhlil edib qiymətləndirməli, habelə bu istiqamətdə dərhal fəaliyyətə başlamalıdır. "Yaxşı nədir, pis nədir?" sualına cavab axtaran insan öz fəaliyyətində bu sualların yerini tənzimləməyi bacarmalıdır. Əgər insanın əxlaqı nəyisə etməyə qadağa qoyursa, deməli, ondan çəkinmək lazımdır. Yəqin ki, "Yalançının evi yandı, heç kəs inanmadı" atalar sözü sizlərə kiçik yaşlarında oxuduğunuz "Yalançı çoban" hekayəsini xatırladır. Əgər çoban yalan danışıb öz həmkəndliləri ilə zarafat etmək fikrinə düşməsəydi, onda həqiqətən sürüyə canavar daraşanda onlar çobanın fəryadını eşidib ona köməyə çatardılar. Deməli, insan yalan danışmamaqla ətrafındakıların rəğbət və etimadını qazanır. Yalan söz işlətməkdən uzaq olmaqla insan özündə doğruçuluq, düzlük kimi müsbət əxlaqi keyfiyyət formalaşdırır.

Bu barədə böyük Nizami belə deyib:

Öz düziüyü klmsəni verməz bada dünyada,
Düz sözüylə kimsəyə yetməz qada dünyada.
Doğruluqla köməkdir hər bir ərə Yaradan,
Doğru ol ki, yetirsin hər zəfərə Yaradan.

Həzrət Əli (ə)-in ağıl və bilik haqqında kəlamları

1. Elm tükənməyən bir xəzinədir; ağıl əskilməyən, köhnəlməyən bir libas.
2. İki cür həris var ki, doymaz: biri elm öyrənən, o biri mal-dövlət diləyən.
3. Elm hikmətin meyvəsidir, həqiqət isə onun budaqları.
4. İki şey var ki, sonu görünməz; bilik və ağıl.
5. Az elmi olub bildiyinə əməl edən, çox elmi olub əməl etməyəndən xeyirlidir.
6. Ağıllının zənni cahilin yəqinindən daha doğrudur.
7. Alimin rütbəsi rütbələrin ən ucasıdır.
8. Alimin öz biliyinə əməl etməsi və o biliyi başqalarına öyrətməsi onun şükrüdür.
9. Bəndələr bilmədikləri şeylərdə dayansaydılar, nə kafir olardılar, nə də zəlalətə düşərdilər.
10. Cahil dostundan çox ağıllı düşmənində güvən.

11. Görmək yalnız gözlə olmaz: görünüş baxanı aldada bilər.
12. Elmlə dirilən ölməz.
13. Söyləyənə baxma, söylədiyinə bax.
14. Özünü dərk edən rəbbini tanıyır.
15. 15.Özünü, nəfsini aciz bilən, nöqsanlı sayan, günahkar hesab edən, şəri bilən, Rəbbini qüdrətli, kamallı, əfv edən və xeyirli bilər.
16. Məsləhətləşmədən özbaşına iş görən şəxs məhv olar: insanlarla məsləhətləşmək isə onların ağıllarına şərik olar.
17. Bildiyinizi bilməzlik, yəqininizi şübhə halına gətirməyin. Bildinizmi əməl edin: yəqinə yetişdinizmi ayaq saxlayın.
18. Xoş rəftar ağlın yarısıdır.
19. Insanlar bilmədikləri şeylərə düşməndir.
20. Qaba bir şey qoyarkən dolar, ancaq bilik qabı getdikcə genişlənər.
21. Cahillər çoxalanda, ariflər qərib olar.
22. 22.Axmaqla yaxın dost olma. Öz etdiyini sənə gözəl göstərir, səni də özünə bənzətmək istər.
23. Başqaları arasında bir kəsə nəsihət etmək, onun üçün danlaqdır.
24. Nadan adamın xoşbəxtliyi zibillikdə olan bağ-bağça kimidir.
25. Ağlı kamil olan kimsə az danışar.
26. Ədəb ağlın surətidir.
27. Şərafət elm və ədəblədir, əsl-nəcabətlə deyil.
28. Ən böyük dövlət ağıldır. Yəni ağıllı kimsə həqiqətdə möhtac deyil, bəlkə də artıq dövlətlidir.
29. Ən böyük əsl-nəcabət ədəbli olmaqdır.
30. Gözəl davranışlar insana həmişə təzə zinətlərdir.
31. Ağlın azlığından betər xəstəlik olmaz.
32. Ağıllı insanın zənni də gercək olar.
33. Xoşbəxt o kimsədir ki, özündən başqalarının da nəsihətinə qulaq asar.
34. Allah bir bəndəni alçaltsa ona bilik qabiliyyəti verməz.
35. Alim ölü olsa belə diridir, cahil diri olsa belə ölü.
36. Ölç, biç, sonra kəs: düşün, daşın sonra danış: anla, bil, sonra et.
37. Özünü dərk etməyən başqasını necə dərk edər?

38. Şəni islah etməyən elm cəfəngiyyatdır: sənə faydası olmayan mal bəladır.
39. Ağıl tamamlandıqda söz azalar.

5. Əxlaq normaları və mənəvi dəyərlər. Mədəniyyət və cəmiyyət. İnsanın siyasi mədəniyyəti

Əsas əxlaqi dəyərlər və normalar. Əxlaq ictimai şüurun formalarından biri kimi nəzərdən keçirilir. Əxlaq hamı və ya əksəriyyət tərəfindən qəbul olunduğundan və ona əməl edildiyindən ictimaı şüur formasına düşür. Əxlaq bu və ya digər cəmiyyətdə adamların bir-birinə, ətraf mühitə münasibətlərini tənzimləyən mənəvi keyfiyyətlərin, qaydaların məcmusudur. Hər hansı şəxsin mənəvi simasını müəyyənləşdirmək üçün birgəyaşayış qaydalarına onun nə dərəcədə əməl etdiyinə də diqqət yetirilir.

Cəmiyyətdə birgəyaşayış qaydalarına tam əməl edən şəxsə "əxlaqlı adam", "insan adam", "gözəl adam", "ədəbli adam" deyilir, həmin qaydaları pozan, bu qaydalara tam laqeyd olan şəxs isə "əxlaqsız adam", "insanlıqdan uzaq adam" hesab edilir.

Əxlaq, yəni birgəyaşayış qaydaları adamların şüuruna hakim kəsildikdə və oradan davranışa süzüldükdə güclü hərəkətverici qüvvəyə çevrilir.

Əxlaq qaydalarının tərkibində milli dəyərlərlə yanaşı ümumbəşəri dəyərlər də olur. Birinci qrupa yalnız bir xalq üçün spesifik olan qaydalar, ikinci qrupa isə bütün xalqların əməl etdikləri qaydalar aiddir. Məsələn, Azərbaycan xalqı arasında geniş yayılmış böyüklərə ehtiram, qadınlara hörmət, valideynlərə qayğı, nəqliyyata minəndə qadınları qabağa buraxmaq kimi əxlaq qaydaları milli dəyərlərimizdir. Haqq, ədalət, azadlıq kimi mənəvi keyfiyyətlər isə ümumbəşəri dəyərlərdir.

İnsan əxlaqı üçün səciyyəvi olan keyfiyyətləri iki böyük qrupa ayırmaq olar: cəmiyyətin, xalqın zərərinə olan, onun bəyənmədiyi əxlaqi keyfiyyətlər və cəmiyyətin, xalqın bəyəndiyi, qəbul etdiyi əxlaqi keyfiyyətlər.

Paxıllıq, yalan danışmaq, böhtan atmaq, satqınlıq, ikiüzlülük, arxadan danışmaq, qiybət, qorxaqlıq, iradəsizlik, sədaqətsizlik,

etibarsızlıq, israfçılıq, tənbəllik, xudbinlik, özündən bədgümanlıq kimi zərərli əxlaqi keyfiyyətlər birinci qrupa aiddir. Əməksevərlik, insanpərvərlik, təvazökarlıq, sadəlik, halallıq, işgüzarlıq, dostluq, yoldaşlıq, düzlük, doğruçuluq, vətənsevərlik və s. faydalı mənəvi keyfiyyətlər ikinci qrupun məzmununu təşkil edir.

Əməksevərlik. Qədim zamanlardan indiyədək xalqımızın yüksək qiymətləndirdiyi əxlaqi sifətlərdən biri əməksevərlikdir. Ulu Zərdüştün "Avesta"sında yazılırdı ki, ən əxlaqlı adam əməksevər adamdır, Məhəmməd peyğəmbərin (s.ə.s.) kəlamlarında da əməksevərliyə böyük məna verilir, deyilir ki, yetmiş qism ibadətin ən üstünü çalışmaqdır. "Ulu Tanrı bekar qalmamağı, işləməyi lazım bilmişdir; odur ki çalışın, işləyin", "Kim hansı işə layiqdirsə, o işdən yapışmalıdır".

Bu fikir bir sıra atalar sözlərində də təsbit edilir: "Mərdin əli işdə gərək", "Mərd kişi çörəyi daşdan çıxarar". Atalar veyil-veyil gün keçirməyi, zəhmətə xor baxmağı, başqasının hesabına yaşamağı halallıqdan uzaq hesab etmişlər.

İnsanpərvərlik. Əxlaq tərbiyəsinin məzmununu təşkil edən nəcib keyfiyyətlərdən biri də insanpərvərlikdir. İnsanpərvərlik bütövlükdə Azərbaycan xalqının səciyyəvi xüsusiyyətlərindəndir. İnsanpərvərlik geniş anlayışdır. Qardaşa, bacıya, valideynə, övlada, qonşuya, qohuma, yurddaşa, digər xalqların nümayəndələrinə məhəbbət hissi bu anlayışa daxildir. Uzaq keçmişdən indiyədək Azərbaycan ailəsində uşaq müqəddəs varlıq kimi qəbul edilib. Babalarımız, nənələrimiz əbəs yerə deməyiblər: "Bala dadı bal dadır, bala adam aldadır, şirini şirindir, acısı da bal dadır", "Uşaq – evin işığı, ailənin yaraşığıdır", "Uşaqlı ev – bazardır, uşaqsız ev – məzardır".

Uşaqların gələcəyi müəyyən dərəcədə valideynlərdən, onların verdiyi tərbiyədən asılı olur. Bu həqiqəti yaxşı bilən Sədi Şirazi məsləhət görürdü:

Oğluna bilik ver, sevdir zəhməti,
Qoy olsun kamalı, ağlı, sənəti.

Valideynlərindən düzgün tərbiyə alan övladlar da öz ata-analarını daim uca tuturlar. Xaqani Şirvaninin öz valideynlərinə

münasibəti nəsillərə örnək ola bilər. O, ata-anası ilə əlaqədar yazırdı:

Yandırmaq istərkən qəlbimdə çıraq,
Qəlbini mum etdi, sözlərini yağ...
Odur, bil, böyüyüm, yol göstərənim,
Tərbiyə verənim-onlardır mənim.

Valideynlər də atalar sözlərində uca tutulub: "Ata – evin başçısı, ana – ailənin ürəyidir", "Ana haqqı, Tanrı haqqı".

Insanpərvərlik qocaların, əlsiz-ayaqsızların, kimsəsizlərin, xəstələrin, bütövlükdə xalqın qayğısını çəkməkdə, el-obaya toxunanlara qarşı amansız olmaqda da özünü göstərir. Insanpərvər şəxs adamlarla ünsiyyətə, dostluq və yoldaşlığa, həmrəyliyə meyilli olur.

Həmrəylik. Normal yaşamaq üçün adamlar fikirdə və əməldə həmrəy olmalıdırlar. Belə bir zərurəti dərk edən ata-babalar düzgün demişlər: "Tək əldən səs çıxmaz", "Tək əl ilə düyün açılmaz", "E1 bir olsa, dağ oynadar yerindən, söz bir olsa zərbi kərən sındırar".

Milli birlik, həmrəylik Azərbaycan xalqına indi, xaricdən təcavüzə, təzyiqə, hədə-qorxuya məruz qaldığı bir şəraitdə daha çox lazımdır.

Yoldaşlıq və dostluq. Əxlaqlı insanda olan keyfiyyətlərdən biri də yoldaşlıq və dostluqdur. Yoldaşlıq və dostluq Azərbaycan xalqının çoxəsrlik tarixində əzizlənərək qorunub saxlanan əxlaqi keyfiyyətlərdəndir.

Yoldaşlıq və dostluq anlayışları arasında həm oxşarlıq, həm də fərq vardır. Hər ikisi insanpərvərlik zəminində yaranır; hər ikisi adamların bir-birinə həyan, arxa olmalarını nəzərdə tutur. Başlıca fərq budur ki, yoldaşlıq inkişaf edərək dostluğa çevrilə bilir, yoldaşlar çox, dost az olur. Dostluq qayğısı və məsuliyyəti yoldaşlığa nisbətən daha güclü olur. Atalar sözlərində deyildiyi kimi, "Dostlar iki can, bir qəlb olur", "Sidq ilə dost olanlar ürəkdən də bir gərək".

Maraq, ideya və məqsəd birliyi əsasında, habelə dərin inam, etibar, səmimilik zəminində dostluq daha möhkəm, daha davamlı olur. Belə dostluq hər iki tərəfi faydalandırır. Atalar əbəs yerə

deməmişlər: “Yaxşı dost böyük xəzinədir”, “Dostun varsa candan, qorxma cahandan”.

Yoldaşlıq və dostluqdan sui-istifadə halları əxlaq tərbiyəsindən kənarda qalmamalıdır. Çünki bəziləri dostluğa öz vəziyyətlərini yaxşılaşdırmaq, mənfəət götürmək vasitəsi kimi baxırlar. Belə dostluğa isə el arasında “Ürək dostu” deyil, “Çörək dostu”, “Gərək dostu”, “Söz dostu”, “Vəzifə dostu”, “Saxta dostluq” deyilir. Saxta dostluq isə saxsı qaba bənzər, əl dəyməmiş sınar, bir daha bitişməz. Ürək dostu isə təmiz qızıldan hazırlanmış qab kimidir: gec sınar, tez bərpa edilər.

Adamlar arasındakı dostluq da inkişaf edərək xalqlar arasında dostluğa çevrilir. Xalqlar arasında dostluq səviyyəsinə yüksələn şəxslər öz xalqına, onun keçmişinə ehtiramla yanaşdığı, doğma el-obasının tərəqqisinə çalışdığı kimi, dost hesab etdikləri xalqa, onun keçmiş tarixinə də hörmət bəsləyirlər.

Vətənpərvərlik. Vətənpərvərlik – öz elini, obasını, Vətənini sevməkdə, onun inkişafına kömək etməkdə, tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, canını və malını Vətənə qurban verməkdə, nümunəvi davranmaqda, yaxşı oxumaqda, Vətəndən kənarda ona başucalığı gətirməkdə ifadə olunur.

Tək-tək dönüklər nəzərə alınmazsa, ümumən Azərbaycan xalqı tarix boyu öz Vətəninin vurğunu olmuş, Vətənini ürəkdən sevmişdir. Bu səbəbdən də xalq demişdir: “Doğma yurd şirin olar”, “Hər kəsə öz Vətəni şirindir”, “Vətən viran olsa da, cənnətdən gözəldir”, “Qürbət yer cənnət olsa, yenə Vətən yaxşıdır”.

Xalqımızın keçmişində Cavanşirlər, Babəklər, Qara Yusiflər, Uzun Həsənlər, İbrahimlər, Tomrislər, Sara Xatınlar, Cavad xanlar həmin fikirlərlə qidalanmışlar. Müasir dövrdə torpağımızı erməni işğalçılarından qoruyan zaman şəhid olmuş, 1990-cı ilin 20 yanvarında sinələrini imperiya tanklarına sipər etmiş igidlər də Vətəni azad görməyə çalışmışlar. Azərbaycan Respublikasının indi müstəqil dövlət kimi fəaliyyət göstərməsində həmin mərd şəhidlərin böyük payı vardır. Onları xalqımız unutmur. Bayatılardan birində xalqımız deyir:

Namərdlə mərdi tanı,

El sevər mərd atanı.
Oğul fərsiz çıxanda,
Öldürər dərd atanı.

Düziük və doğruçuluq. Əsrlər boyu Azərbaycan xalqının qoruyub saxladığı və yüksək qiymətləndirdiyi mənəvi keyfiyyətlərdən biri düzlük və doğruçuluqdur.

Düzlük əsasən işlə, doğruçuluq sözlə bağlıdır. Adamın gördüyü iş düz, danışdığı söz həqiqət olmalıdır. Bu səbəbdən də onlar bir-birini tamamlayır və birlikdə işlədilir. İslam Peyğəmbərinin kəlamlarında deyilir: "Doğruçu olun, çünki doğruçu olmaqla yaxşılıq etmək bərabərdir... Dilinizə yalan gətirməyin, çünki yalan danışmaq pislik etmək kimi bir şeydir".

Lakin, təəssüf ki, doğru danışmaq bəzilərinin xoşuna gəlmir. Bu mənada atalar sözündə deyilir: "Doğru söz acı olar". Amma unutmayaq ki, acı olan doğru sözün müalicə əlaməti var. Acı dərman xəstəliyi – yalan danışmaq mərəzini müalicə edir.

Düz iş görən, doğru danışan şəxs mənəvi cəhətdən ucalır, xalqın hörmətini qazanır, dost-tanışı çoxalır. Yalançılıq adamın mənəviyyatca yoxsulluğunu göstərir, onu başqalarının gözündə hörmətdən, etibardan salır. Atalar gözəl deyib: "Bərəkət ondur, onu da düzlük". A.Bakıxanov xatırladırdı: "Yalan danışmaqdan çəkin, çünki hər kəs səni yalançı tanısa, düz sözünə də inanmaz".

Düzlük və doğruçuluq kimi mənəvi sərvət sahibləri ikiüzlülük, riyakarlıq, yalançılıq, əliəyrilik, oğruluq kimi rəzil əlamətlərdən uzaq olurlar.

Halallıq. Halal yaşamaq, halal yolla ruzi qazanmaq mənəvi paklığın, təmiz əxlaqın zirvəsidir. Əməllərində və davranışında halallığı əsas götürən şəxs – özü doğru, sözü düzgün, nəfsi təmiz, əlləri düz, yalandan uzaq olan adamdır. Halallığı ilə fərqlənən şəxsdən xalq ancaq xeyir görür. Belə şəxs möhtəkirliyə, oğruluğa qurşanmır, əyri yolla qazanc əldə edənlərə nifrət edir. Halal adam ağır maddi şəraitdə yaşasa da, haqqı nahaqqa satmır, saxta yolla qazanca meyil göstərmir, halal ruzi yolunu arayıb axtarır. Yadda saxlayaq ki, müsəlmanların müqəddəs kitabı Qurani-Kərim də halal işlərin dalınca getməyi təlqin edir.

Sadəlik və təvazökarlıq. Atalar sərrast deyib: "Sadəlik insanın bəzəyidir", "Ən böyük gözəllik sadəlikdir", "Bar verən ağac başını aşağı əyər". Həyat təcrübəsi göstərir ki, ağıllı adamlar kamala çatdıqca, vəzifə cəhətdən yüksəldikcə, məşhurlaşdıqca təvazökarlığı, sadəliyi də artır, özünü öymür, "mənəm-mənəm"dən uzaq olur.

Sadəlik və təvazökarlığın əksi lovğalıqdır, özündən bədgümanlıqdır, özünü gözə soxmaqdır. Mənəmliyin, lovğalığın, özünüöyməyin naqis mənəvi keyfiyyət olduğunu atalar belə ifadə etmişdir: "Mənəmlik şeytana yaraşar", "Özünü öyən, dizinə döyər".

Xalq arasında yüksək tutulan nəcib əxlaqi keyfiyyətlər çoxdur: nəzakətlilik, ədəblilik, mərifətlilik, xeyirxahlıq, səxavətlilik, əhdü-peymana sadiqlik, haqq işin tərəfində olmaq, mənsəbpərəstliyə, müftəxorluğa qarşı barışmaz olmaq və s. belə keyfiyyətlərdəndir. Məhz bu cür keyfiyyətlər əxlaq tərbiyəsinin məzmununa çevrilməlidir.

Din insanların həyatında mühüm rol oynayır. Din bizlərə gözəl əxlaq sahibi olmağı, hərəkət və davranışları ilə başqalarına ziyan vurmamağı, ədalətli və insansevərlik təlqin edir.

Əsrlər boyu incəsənət əsərləri insanlara yüksək əxlaqi və mənəvi keyfiyyətlər aşılamışdır. İstedadlı insanlar tərəfindən yaradılmış incəsənət əsərləri – memarlıq abidələri, rəsm əsərləri, heykəllər, bədii sənət nümunələri həm bədii-estetik zövqü formalaşdırır, həm də sənətə, sənətkara hörmət və məhəbbət hissi tərbiyə edir. Xalqımızın əsrlərin dərinliklərindən süzülüb gələn mahnıları, nəğmələri, Azərbaycan bəstəkarlarının əsərləri insanlarda səmimiyyət, məhəbbət, vətənpərvərlik, insansevərlik kimi yüksək əxlaqi-mənəvi dəyərlər formalaşdırır. Rafaelin, Albrext Dürerin, Velaskesin, Sultan Məhəmmədin, Kəmaləddin Behzadın, Bəhruz Kəngərlinin, Maral Rəhmanzadənin, Mikayıl Abdullayevin yaratdıqları rəsm əsərləri insanlarda ümumbəşəri duyğular formalaşdırır. Bir sözlə, yüksək incəsənət yüksək əxlaq deməkdir.

Mədəniyyət və cəmiyyət

Mədəniyyət və sivilizasiya anlayışları. Biz öz aramızda, qəzet səhifələrində, televiziya və radio verilişlərində tez-tez "sivilizasiya" və "mədəniyyət" sözlərini işlədirik. Bu məfhumların hər ikisi

insanın mahiyyəti, onun tarixi və fəaliyyəti ilə sıx bağlı olsa da, ayrı-ayrılıqda bunlar müxtəlif məzmun daşıyır.

Böyük mütəfəkkirlər hələ lap qədim zamanlardan başlayaraq, mədəniyyət problemləri ilə məşğul olmuş, müxtəlif movqelərdən ona öz münasibətlərini bildirmişlər. Ona görə də "mədəniyyət" anlayışı müxtəlif dövrlərdə müxtəlif mənalar, çalarlar kəsb etmişdi. Məsələn, mədəniyyət termini özünün ilk, ənənəvi anlamında (latın dilində "sillure") "torpağı şumlamaq, belləmək, əkib-becərmək" mənalarını ifadə etmişdir. Lakin sonralar romalılar ona yeni bir məna verməklə insanların intellektual səviyyəsinə, onların təhsil və tərbiyəsinə şamil etmişlər.

İslam intibahının yaranması və inkişafı "mədəniyyət" anlayışının daha geniş məna kəsb etməsinə səbəb oldu. "Mədəniyyət" ərəb sözüdür, öz əhatə dairəsinə görə çox geniş olub, insanların və xalqların fiziki və əqli fəaliyyətlərinin, demək olar ki, bütün sahələrini özündə əks etdirirdi.

Şərq dünyasının böyük mütəfəkkirləri Nizamülmülkün "Siyasətnamə", Nəsirəddin Tusinin "Əxlaqi-nasiri", İbn-Həldunun "Müqəddimə" əsərlərində yüksək mədəniyyətli insan deyərkən, hər şeyi bilən, hazırcavab olan, dövrün siyasi-iqtisadi problemlərindən baş çıxara bilən adamlar nəzərdə tutulurdu. Deməli, Orta əsrlər islam aləmində bu anlayış eyni dərəcədə həm maddi fəaliyyətə, həm də mənəvi sahələrə aid edilirdi.

Sonrakı dövrlərdə «mədəniyyət» anlayışı daha geniş məna kəsb etdi. Mədəniyyət insanım yaradıcı fəaliyyətinin məhsulu olmaqla yanaşı, ayrı-ayrı insanların səviyyəsini müəyyən edən meyara da çevrildi. Tez-tez bu sözləri eşidirik: "Filankəs nə mədəni adamdır". Əibəttə, mədəni olmaq təkcə təhsilli olmaqla ölçülmür. Elə adamlar var ki, son dərəcə bilikli olsalar da, kobud və mədəniyyətsizdirlər. Elələri də vardır ki, heç bir ali məktəb bitirməmişlər, ömürlərində iri şəhərlərdə olmamışlar, lakin davranışlarında ədəbli və nəzakətlidirlər, insanlara, təbiətə qayğıkeş münasibət bəsləyirlər, mərhəmətlidirlər. Belələrinə "mədəni insan" demək olar.

Göründüyü kimi, mədəniyyət çox mürəkkəb ictimai hadisədir. Odur ki, "mədəniyyət" deyərkən insan fəaliyyətinin üsulları,

nəticələri və yaratdığı sərvətlərin ümumi toplusu nəzərdə tutulur. Antropoloq Edvard Teylorun mədəniyyətə hələ 1871-ci ildə verdiyi tərif bu gün də öz əhəmiyyətini itirməmişdir. Mədəniyyət – cəmiyyətin üzvü olan fərdin əldə etdiyi təcrübə, məslək, mənəviyyat, ədalət hissi, adət-ənənə, digər bacarıq və təcrübələrin də daxil olduğu mürəkkəb bir tamdır.

Sivilizasiya – adətən mədəniyyət sözünün sinonimi kimi işlədilir. "Sivilizasiya" anlayışı XVIII əsrdə Fransada meydana gəlib, ilk əvvəl "mədəniyyət" terminini ifadə edirdi. XIX əsrdə isə "sivilizasiya" deyərkən kapitalizmi başa düşürdülər. Belə ki, ictimai-iqtisadi formasiyalar sivilizasiya anlayışı ilə bir tutulurdu.

Bir çox tədqiqatçılar mədəniyyətlə sivilizasiyanı eyniləşdirməyə, bəziləri isə əksinə, onları qarşı-qarşıya qoymağa çalışırlar. İkincilər mədəniyyət deyərkən mənəvi mədəniyyəti, sivilizasiya deyərkən maddi mədəniyyəti nəzərdə tuturlar. Əslində isə "mədəniyyət" və "sivilizasiya" biri digərinə nə qədər yaxın anlayışlar olsa da, əvvəldə dediyimiz kimi, onları fərqləndirən cəhətlər vardır.

Əvvəla, onu demək lazımdır ki, "mədəniyyət" daha geniş anlayış olub "sivilizasiya"nı da özündə birləşdirir;

ikincisi, "sivilizasiya" termini çox zaman cəmiyyətin müəyyən bir tarixi inkişaf pillələrinə aid edilir;

üçüncüsü, "milli sivilizasiya" anlayışı millilikdən daha çox regional sahələri, bir neçə dövlətin sərhədləri daxilində olan ərazilərdəki mədəniyyətin səviyyəsini göstərdiyi halda, maddi mədəniyyət hər bir millətə xas olan səciyyəvi xüsusiyyətləri əks etdirir;

dördüncüsü, müəyyən bir sivilizasiya daha tez parlayıb sönə bildiyi halda, mədəniyyət nisbətən sabit və uzunömürlü olur, çox yaşayır və sonrakı nəsillər tərəfindən daha tez qavranılır;

beşincisi, mədəniyyətin bir neçə qolu, növü, şaxəsi olduğu halda, sivilizasiyada bunu müşahidə etmək mümkün deyildir. Məsələn, siyasi mədəniyyət, məişət mədəniyyəti, nitq mədəniyyəti, davranış mədəniyyəti və s. Halbuki, "siyasi sivilizasiya", "məişət sivilizasiyası", "nitq sivilizasiyası", "davranış sivilizasiyası" və s. ifadələri işlətmək qeyri-mümkündür.

Qeyd etdik ki, mədəniyyət və sivilizasiya fərqli xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də bir-biri ilə əlaqə, vəhdət təşkil edir. Gəlin fikirləşək, mədəniyyətsiz sivilizasiya ola bilərmi və ya əksinə? Mədəniyyətsiz zəkanın olması mümkündürmü? Əlbəttə, yox! *Mədəniyyət sivilizasiya üçün əsas, mənəvi dəyərlərdən ibarət özül rolunu oynayır.*

Cəmiyyətlə mədəniyyətin qarşılıqlı əlaqəsi. Hər bir cəmiyyət öz mədəniyyət ənənələri və tarixi inkişaf xüsusiyyətləri ilə səciyyəvidir. Insanlar müxtəlif mədəniyyətlər yaratmış, sərvətə və texniki nailiyyətlərə müxtəlif münasibət bəsləmişlər. Siz artıq tarix kursundan bilirsiniz ki, Yeni Dünyanın sakinləri olan asteklər qızıla və var-dövlətə həris deyildilər. Məhz ona görə də avropalı işğalçıların – Kortes və Pisarronun zülm və riyakarlığına məruz qaldılar. Əgər bir az da qədimlərə getsək, xatırlayırsınız ki, romalılıar Karfageni və Korinfi işğal edərkən daşı-daş üstə qoymamış, misilsiz dəyərə malik olan incəsənət əsərlərini məhv etmişdilər. Sonradan Roma barbar tayfalarının hücumuna məruz qalarkən bəşəriyyət amansız ***vandalizmin*** [1] **,** yəni mədəniyyət abidələrinin vəhşicəsinə məhvinin şahidi oldu.

XX əsrdə isə bəşəriyyət vandalizmin daha qəddar və amansız nümunələri ilə üz-üzə qaldı. Erməni vandalları Azərbaycan xalqına məxsus misilsiz mədəniyyət abidələrini – məscidləri, sarayları, qalaları yandırıb məhv etdilər, heykəlləri avtomat atəşinə tutdular.

Mədəniyyətin dörd əsas elementi vardır. Birinci element ümumi anlayışlardır ki, insanlar onun köməyi ilə dünyanın və özlərinin dərin təcrübəsini ümumiləşdirirlər. İkinci element qarşılıqlı fəaliyyətdir. Hər bir mədəniyyət, onu yaradanların kimliyindən, hansı xalqa mənsubluğundan asılı olmayaraq başqaları ilə əlaqədə inkişaf edir. Mədəniyyətin üçüncü elementini dəyərlər təşkil edir. Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlər həmişə vəhdət təşkil edir. Nəhayət, dördüncü element qayda və normalardan ibarətdir ki, insanlar onların köməyi ilə mədəniyyətə olan münasibətlərini

[1] *Vandalizm – mədəni dəyərlərin amansızcasına məhv edilməsi.*

dəyərləndirirlər. Mədəniyyətin elementlərini 13.3. saylı sxemində belə ümumiləşdirmişik:

Sxem 13.3.



Bəşər tarixinin tədqiqatçıları mədəniyyətin bir neçə növünü fərqləndirirlər. Sosial cəhətdən bərabər olmayan cəmiyyətlər üçün elitar və xalq mədəniyyətləri bölgüsü səciyyəvidir. ***Elitar mədəniyyət*** – yüksək mədəniyyət, zərif incəsənət, klassik mədəniyyət və ədəbiyyat deməkdir. ***Xalq mədəniyyəti*** dedikdə, buraya nağıllar, dastanlar, folklor, xalq mahnıları və əsatirlər daxil edilir. Kütləvi informasiya vasitələrində (radio, mətbuat, televizor, maqnitofon) yüksək və xalq mədəniyyətləri arasındakı fərqlərin silinməsi nəticəsində ***kütləvi mədəniyyət*** meydana gəlmişdir. Bu mədəniyyət praktik olaraq nə dini, nə də sosial fərqlərlə bağlı idi. Kütləvi informasiya vasitələri və kütləvi mədəniyyət bir-biriləri ilə sıx bağlıdırlar. Belə ki, onların vasitəsilə mədəniyyət "kütləviləşir" və geniş dairədə yayılır.

XXI əsrə qədəm qoymuş bəşəriyyətin problemləri görünməmiş miqyasda kəskinləşmişdir. Lakin həyat bir yerdə dayanıb durmur. Gələcək nəsillərin yaşaması imkanını yaxşılaşdırmaq bugünkü nəslin üzərinə düşür. Ona görə də sivilizasiyanın sonrakı inkişafı üçün insanların həyat fəaliyyəti, onların təşkili qaydası tənzimlənməlidir. Təbiətə yeni münasibət onlarda şüurlu, düşüncəli istifadə mədəniyyəti formalaşdırır.

Qərb və Şərqin qovuşması sivilizasiyanın əsas təsiredici amillərindən oldu. Böyük elm əsri adlandırılan XVII əsrdə "şərqşünaslıq" elminin əsası qoyulur, Qərb Şərqi öyrənməyə başlayır. XVIII əsrdən Avropa "1001 gecə" nağıllarına heyran qalır. Hindistanın

möcüzəli aləmi Qərb qarşısında açılır, missionerlər həvəslə Çini tədqiq edir. Qərb alimləri qədim fars dilini öyrənir, "Leyli və Məcnun" Fransada "Tristan və İzolda"ya çevrilir, "Avəsta", "Dədə Qorqud" Avropaya səfərə çıxır. Azərbaycan xalçaları dünyanı gəzir, bir sözlə, sivilizasiyalar bir-birinə qovuşur.

Sivilizasiyalı cəmiyyət. Artıq biz müasir dünyada mərkəzəqaçma meyillərinin üstünlük təşkil etməsi, dünyanın bütövləşməsi, inkişafın vahid istiqamətlərinin seçilməsi barədə tez-tez fikirlər eşidirik. "Sivilizasiyalı cəmiyyət" adlanan və özündə bir çox ölkələri və xalqları birləşdirən yeni anlayış yaranır. Tarixçilər təsdiq edirlər ki, məhz XX əsr qitələrin və regionların arasındakı sədləri dağıtmışdır. İqtisadi, siyasi, mədəni və elmi-texniki əlaqələr bütün dünyanı əhatə etmişdir. Müxtəlif ölkələrdə yaşayan insanlar müasir nəqliyyat və rabitə vasitələrinin, telefonun, radionun, televiziyanın, kosmik rabitə peyklərinin və yeni yaranmış ***qlobal kompyuter informasiya şəbəkəsi-internetin*** sayəsində bir-birləri ilə daha asan ünsiyyət yarada bilirlər.

İnsanın özü də daha çevik, daha mobil olmuş, qısa müddətdə istənilən ölkəyə, qitəyə, planetin istənilən nöqtəsinə gedə bilmək imkanı əldə etmişdir. Bunların hamısı bəşəriyyətin yaratdığı ən qabaqcıl, ən yeni kəşflərin ümumbəşəri olmağına zəmin yaradır. Məhz belə bir qarşılıqlı təsirin nəticəsində "sivilizasiyalı cəmiyyət" anlayışı yaranmışdır. Beynəlxalq bank və ya Beynəlxalq Valyuta Fondu[1] kimi təşkilatlar haqqında kütləvi informasiya vasitələri tez-tez məlumatlar verirlər. Bu təşkilatlar bütün dünya miqyasında iqtisadi əlaqələri tənzimləyir. Siyasi münasibətləri, müxtəlif ölkələrdə yaranan münaqişələri isə Birləşmiş Millətlər Təşkilatı (BMT) və onun yaratdığı komissiyalar tənzimləyir. Məhz bu gün tam əsasla ümumi bəşəriyyət haqqında danışmaq olar. Biz sivilizasiyalı cəmiyyətin bir hissəsi olaraq öz dünyamıza qapılmırıq. Çünki planetimizin qlobal problemləri hər bir insanı düşündürməyə bilməz.

Mədəniyyət və demokratiya

[1] **Beynəlxalq Valyuta Fondu** – *BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. Beynəlxalq valyuta-maliyyə münasibətlərini tənzimləyən baş qurum.*

Tez-tez meydana bəzi suallar çıxır:

Nə üçün bizim ölkədə bu və ya digər islahatlar belə çətin həyata keçirilir?

Nə üçün əlverişli olduqları aşkar görünən islahatlar bəzən adekvat olmayan reaksiya doğurur?

Siyasi fəaliyyətsizlik, hüquqi nihilizm nə ilə bağlıdır?

Biz çalışacağıq ki, ilk növbədə kursun fikrimizcə mühüm bir aspektinə - mədəniyyət və demokratiya mövzusuna toxunaraq bu suallara cavab verək.

İnsanin siyasi mədəniyyəti

Biz çox vaxt demokratiyadan müxtəlif institutların məcmusu kimi danışırıq. Lakin bu institutların normal fəaliyyət göstərməsi üçün cəmiyyətdə özünüidarəetməyə şərait yaradan müəyyən davranış normaları olmalıdır. O yerdə ki, passivlik mövcuddur, orada özünüidarəetme mümkün deyil. Bunun üçün bir sıra əlamətlərin mövcud olması labuddür. Onlardan ən muhümləri aşağıdakılardır:

- öz hüquqlarından istifadə etməklə öz maraqlarının və imkanlarının həyata keçirilməsinə səy göstərmək;
- hər bir vətəndaşın həm öz həyatı, həm də öz həmvətənlərinin həyatı üçün məsuliyyət hissi.

Hər bir şəxs hökmən özü qərar verə bilməlidir ki, hansı fəaliyyət növünü seçsin, hansı siyasi baxışları qəbul etsin, bu və ya digər partiyaya və ya hərəkata qoşulsun, ya onları müdafiə etsin və s.

Başqa sözlə, demokratik islahatlar siyasi mədəniyyət məsələləri ilə bağlıdır.

Siyasi mədəniyyət tarixi təcrübə, siyasət sahəsində sosial birliklərin və ayrı-ayrı adamların yaddaşı, onların siyasi davranışlarına təsir gostərən orientasiyalar nəzərdə tutulur. Siyasi mədəniyyət anlayışı elmə 1956-cı ildə amerikan politoloqu Q. Almond tərəfindən təqdim edilmişdi.

Bizə elə gəlir ki, siyasi mədəniyyət, bir tərəfdən, həyatın yalnız müəyyən tərəflərinə aid olsa da, cəmiyyətin ümumi mədəniyyətinin bir hissəsidir. Digər tərəfdən, siyasi mədəniyyət həmişə həmin cəmiyyətdə mövcud olan konkret siyasi sistemlə bağlıdır. Fikrimizcə

siyasi mədəniyyət əsasən düşüncə tərzindən, yəni mentalitetdən asılıdır.

Mentalitet anlayışı nəyi nəzərdə tutur?

Mentalitet insan şüurunun elə qatıdır ki, orada ənənələr, adətlər, dünyanın intellektual tərzdə dərk olunmasının tarixən müəyyənləşdirilmiş yolları, yəni başqa sözlə, xalqın mənəvi adətlər komplekti kök salmışdır. Bununla əlaqədar, tamamilə aydındır ki, demokratik ənənələri olan xalqların düşüncə tərzinə xas olan əlamətlər diktat, mütləq monarxiya və totalitarizm şəraitində formalaşan "rus mentalitetinə" qətiyyən xas deyil. Lakin bundan belə nəticə çıxarmaq düz olmaz ki, Rusiyada demokratik cəmiyyət yaratmaq mümkün deyil. Sadəcə olaraq, demokratikləşmə prosesi, bir tərəfdən, mədəni ənənələrin kifayət etməməsi üzündən çətinləşəcək, digər tərəfdən, bu proses demokratik cəmiyyətin bir parçası olan insana lazım olan mədəniyyət və mentalitet əlamətlərinin yaranmasına kömək etməli olacaq. Yəni demokratik cəmiyyətin yaranması mentalitetin təzahürünün nəticəsi deyil, o, yeni mentalitetin yaranması üçün baza rolunu oynayacaq.

Ölkənin ənənələrini, mədəniyyətinin tarixi retrospektivdə öyrənilməsi rusların siyasi davranışlarının xüsusiyyətlərini aşkara çıxarmağa imkan verir. Sivil siyasi mədəniyyətin formalaşması çətin işdir və bəlkə də Rusiya üçün xüsusilə çətin işdir, çünki "rus xalqının hakimiyyətə münasibəti başqa Avropa xalqlarından həmişə fərqli olub. O heç vaxt hakimiyyətə qarşı mübarizə aparmayıb və başlıcası, heç vaxt bu mübarizədə iştirak da etməyib. Ruslar həmişə hakimiyyətə bir bəla kimi baxıblar, və hesab ediblər ki, bu bəladan uzaq gəzmək lazımdır..." (L.N.Tolstoy).

Görünür elə bu səbəbdən çoxları seçkilərdə iştirak etmək istəmir: öz dərdim özümə bəsdir.

Digər tərəfdən, keçid dövründə xalqın kütləyə çevrilmək təhlükəsi var. Dünya alimləri kütlə fenomenini tədqiq edirlər. Onlar kütlə üçün ümumi olan əsas xüsusiyyətləri müəyyənləşdirirlər. Bu xüsusiyyətlər aşağıdakılardır:

1. Kütlə, bir qayda olaraq, barışmaz və dağıdıcıdır.

2. Kütlə nə qədər çoxsaylıdırsa, onun səviyyəsi bir o qədər aşağıdır.

3. Kütlə güclü hakimiyyətə kölə kimi tabe olur.

4. Kütlə ağıla deyil, hisslərə qapılır.

5. Kütlə bu və ya digər hadisənin səbəbini və problemin həlli yollarını axtarmır, onu "bəlanın mənbəyi" maraqlandırır.

İnsan kütlənin içində öz fərdiyyətini itirir.

Bəlkə kütlə haqqında hələ çox şey demək olar, lakin elə bu adları çəkilən xüsusiyyətlər də kifayət edər ki, oxlokratiyanın – kütlə hakimiyyətinin təhlükəsini başa düşək.

Və, nəhayət, onu da qeyd etmək istərdik ki, kütlənin emosional təzyiqinin nəticəsində vəziyyətə obyektiv qiymət vermək qabiliyyətini itirmiş, çox vaxt başqasının mövqeyində durmaq imkanından məhrum olmuş adamın psixikası uzun müddətə deformasiya oluna bilər.

Demokratik siyasi mədəniyyətin formalaşmasına aşağıdakılar böyük təsir göstərir:

- ölkədəki vəziyyət;
- siyasi qüvvələrin yerləşdirilməsi;
- siyasi lideriərin mövqeyi.

Onu da nəzər almaq lazımdır ki, siyasi mədəniyyətin müxtəlif növləri ola bilər. Alimlərin bu barədə vahid fikri yoxdur. Müqayisə üçün bir neçə müxtəlif fikirləri nəzərdən keçirək.

Belə fikir var ki, qapalı, açıq, Avropa sayağı, qərbə və ya şərqə mənsub olan, insanlar arasında əlaqələrin və kontaktların xarakterinə görə bir-birinə qarşı duran (konfrontasiyalı) və bir-birinə güzəştə gedə bilən (konsensuslu) siyasi mədəniyyət növləri mövcuddur.

Məsələn, Amerika politoloqu Q.Almond dörd siyasi mədəniyyət növü müəyyənləşdirir: ingilis-amerikan, Avropa-qitə, avtoritar-patriarxal və totalitar-siyasi mədəniyyətlər.

Onun fikrinə görə ingilis-amerikan siyasi mədəniyyəti üçün praqmatizm, ümummilli konsensus, mərkəziyyət, yəni siyasətdə mülayimlik, ifrata uymamaq xarakterikdir.

Avropa-qitə siyasi mədəniyyəti də dünyəvi xarakter daşıyır, lakin onda idealizm elementləri də vardır, siyasi mədəniyyətin bu növü siyasət vaxtının dövri olmasını, elektoratın düzgün müəyyənləşdirilməsini tələb edir. Bunun parlaq nümunəsi Fransa siyasi mədəniyyəti ola bilər.

Avtoritar-patriarxal siyasi mədəniyyətdə cəmiyyət böyük bir ailə kimi qəbul edilir. Bu ailənin başında güclü lider durur. Və, nəhayət totalitar mədəniyyət o, elə bir cəmiyyət mexanizminin fəaliyyəti nəticəsində meydana çıxır ki, burada hər bir şəxs öz fərdiyyətini itirir və bu mexanizmin bir hissəsinə çevrilir.

Başa düşmək lazımdır ki, siyasi mədəniyyət siyasi həyatda meydana çıxan faktorların və hadisələrin daim dərk edilməsi prosesidir. Siyasi mədəniyyət səviyyəsi nə qədər yüksəkdirsə, siyasətçilərin təqlidçilərinin, populist adamların təsiri altına düsmək ehtimalı bir o qədər azdır.

Populizm terminina fikir verin. Populizm xalqın dəstəyini qazanmaq üçün xalqa müraciət edilməsidir. Müasir siyasətdə populizm əsassız vədlər vermək hesabına kütlələr arasında şöhrətə nail olmaqdır.

Ölkədə vətəndaşların, onların qruplarının, partiyaların siyasi mədəniyyətlərinin artırılması problemi nə qədər tez həll olunarsa, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu işi də bir o qədər müvəffəqiyyətlə gedər.

Dünyanın hər yerində təhsil sistemini modermləşdirməyə çalışırlar ki, o, günün tələblərinə mümkün qədər yaxşı cavab versin. Müxtəlif ölkələrdə bu sahədə islahatlar aparılır. Lakin bu halda hər bir ölkənin spesifik tələbatı, inkişaf səviyyəsi, təhsil sahəsində milli ən'ənələr nəzərə alınır. Lakin bütün ölkələr üçün ümumi olan cəhətlər də nəzərə çarpır. Onları belə müəyyənləşdirmək olar:

1. Demokratik təhsil.
2. Təhsilin fundamentallığının artırılması.
3. Təhsilin humanistləşdirilməsi və ictimailəşdirilməsi.

Məsələn, 90-cı illərin əvvəlində Amerika Birləşmiş Ştatlarında təhsil sistemində ümumxalq miqyasında xüsusi islahatlar proqramı hazırlanmışdı; bu proqram belə bir fikrə əsaslanırdı ki, təhsil həyat səviyyəsinin əsas göstəricisi, XXI əsrdə Amerikanın

bütün dünyada rəqabətə dözə bilmək imkanının açarıdır. O vaxt amerikanlar demişdilər "Biz təhsilə və maarifə yüksək qiymət verən bir xalq olmalıyıq". İstərdik ki, bizim ölkəmizdə də bu tezis geniş mənada əsas götürülsün - təhsilin nüfuzunun qaldırılmasından milli gəlirin təhsilə ayrılan hissəsinin əhəmiyyətli dərəcədə artırılmasına qədər. Əgər inkişaf etmiş ölkələrdə bu göstərici ümumi məhsulun 5-8%-ini təşkil edirsə, bizdə bu rəqəm hələ xeyli aşağıdır.

Qeyd etmək lazımdır ki, totalitar və demokratik təhsil sistemləri arasındakı fərq onların məqsədlərindədir. Demokratik təhsilin məqsədi demokratik qaydalar və demokratik təcrübəyə dair dərin biliklərə malik olan, hər şeyi bilmək istəyən müstəqil vətəndaşların formalaşması üçün şərait yaratmaqdır. Burada müxtəlif mövqeləri və fikirləri öyrənmək və onlardan istifadə etmək və vahid hakim ideologiyaya yol verməmək üçün geniş imkanların yaranması nəzərdə tutulur.

Demokratik prinsiplərin öyrənilməsindən danışarkən, azad axtarış ruhu birinci dərəcəli əhəmiyyət kəsb edir. Elə bunun özü demokratik dəyər deməkdir.

6. Müasir Azərbaycanın mədəni həyatı

Azərbaycan Respublikası mədəniyyətinin səciyyəvi xüsusiyyətləri. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsaslı islahatlar keçirildi. Azərbaycan mədəniyyətinin milli-mənəvi dəyərlərə söykənən özünəməxsusluğu saxlanmaqla ümumbəşəri dəyərlərlə inteqrasiyası prosesi gücləndi. Totalitarizm dövründə mədəniyyətin də sovet ideologiyasına uyğunlaşdırılmış metodundan qətiyyətlə imtina edildi.

Azərbaycan dövləti iqtisadi cəhətdən gücləndikcə mədəniyyətin inkişafı sahəsində də uğurlu addımlar atılmağa başladı. Teatr binalarının, muzeylərin bərpası, muzey işinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər buna misaldır.

Azərbaycan Respublikasında mədəniyyətin səciyyəvi xüsusiyyətlərindən birini mədəni-milli irsin bir daha təhlildən keçirilərək, onun ideoloji buxovlardan və qadağalardan azad edilməsi təşkil edir. İkinci mühüm xüsusiyyət isə Azərbaycan mədəniyyətinin

dünya mədəniyyət xəzinəsinə verdiyi töhfələrin bütün dünyada nümayiş etdirilməsidir.

Dahi Azərbaycan şairi M.Füzulinin 500, böyük oğuz-Azərbaycan eposu "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin təkcə Azərbaycanda deyil, mədəni dünyanın, demək olar ki, hər yerində qeyd edilməsi bütün dünyanın müstəqil Azərbaycanın böyük mədəniyyəti, zəngin mənəviyyatı ilə daha geniş miqyasda tanış olmasına imkan yaratdı.

Müasir Azərbaycan mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən birini də onun dövlət qayğısı ilə hərtərəfli əhatə olunması təşkil edir. Tez-tez kütləvi informasiya vasitələri ilə Azərbaycan Respublikası Prezidentinin mədəniyyətimizin aktual problemlərinin həlli ilə bağlı fərman və sərəncamlar verməsinin, onların yerinə yetirilməsi sahəsində dövlət səviyyəli tədbirlərin həyata keçirilməsinin şahidi oluruq.

1996-cı ildə "Üzeyir Hacıbəyov ensiklopediyası"nın, türk dünyası filoloqları ilə birlikdə dünya türkologiyası tarixində ilk dəfə ikicildlik "Kitabi-Dədə Qorqud ensiklopediyası"nın nəşri o vaxtlar çətin iqtisadi vəziyyətdə olan Azərbaycan dövlətinin mədəniyyətimizə göstərdiyi böyük diqqət və qayğının real nümunəsidir.

XXI əsr Azərbaycan üçün yeni səhifə açdı. Yeni əsrdə ölkəmizdə böyük ictimai-siyasi dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycan xalqının həyatında çox əlamətdar hadisə olan bir tədbir – Dünya azərbaycanlılarının I qurultayı da XXI əsrin ilk ilinə təsadüf edir (9-10 noyabr 2001-ci il, Bakı). Bu qurultay göstərdi ki, 60 milyonluq Azərbaycan xalqını birləşdirən azərbaycançiliq ideyası azadlıq, müstəqillik dövründə böyük inkişaf yolu keçmişdir. Bundan dörd il sonra, yəni 2006-cı il martın 16-da keçirilən II qurultay isə üçrəngli, ayulduzlu bayrağımız altında birləşən milyonlarla soydaşımızın həmrəyliyinin və birliyinin doğma Azərbaycanımız qarşısında açа biləcəyi geniş üfüqlərin hüdudsuz olduğunu sübut etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin

həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamları Azərbaycan Respublikasının mədəni, mənəvi həyatında son dərəcə əlamətdar hadisə oldu. Bu, hər şeydən əvvəl azərbaycanlıların milli-mənəvi ruhunun inkişafına, xalqımızın keçdiyi tarixi inkişaf yolunda əldə etdiyi bütün nailiyyətlərə, Azərbaycan adının ucalığına, bu ucalığın təsdiqinə yönəlmiş son dərəcə mühüm bir addım və ciddi dövlət iradəsinin inikası demək idi.

Yeni əsrin ilk illərində mədəniyyətin inkişaf etdirilməsi, maddi mədəniyyət abidələrinin qorunması və bərpası ilə əlaqədar bir sıra qanunlar qəbul edilmiş, sərəncamlar verilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" (18 dekabr 2006-cı il), "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" (16 dekabr 2006-cı il) və "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" (7 mart 2007-ci il) sərəncamları buna sübutdur.

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə xatın və Qarabağlar türbəsində, Şəki xan sarayında bərpa və yenidənqurma işləri aparılmışdır.

Türk xalqlarının mədəni birliyi (TÜRKSOY). Türk xalqlarının ortaq mədəniyyətlərinin paritet əsaslarda birləşdirilməsi ideyasına əsaslanan bir qurumun yaradılması yola saldığımız əsrin sonlarına yaxın olduqca zəruri idi. Belə bir təşkilat Türk Mədəniyyətinin və İncəsənətinin Birgə İnkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) oldu.

TÜRKSOY-un əsası 1992-ci ilin yazında türkdilli dövlətlərin mədəniyyət nazirliklərinin İstanbul (Türkiyə) görüşündə qoyulmuşdur. 1993-cü il yanvarın 12-də təşkilatın 6 təsisçi və tamhüquqlu üzvü olan türk dövlətləri – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə və Özbəkistan tərəfindən ***"TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında"*** müqavilə imzalandı.

TÜRKSOY-un əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

- türkdilli ölkələr, xalqlar və icmalar arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafı;
- türk xalqlarının mədəni dəyərlərinin tədqiqi, araşdırılması, qorunması və inkişaf etdirilməsi;
- onların dünya miqyasında təbliği;
- vahid mədəniyyət məkanının yaradılması, tarixi, siyasi və coğrafi şəraitlə bağlı problemlərin həlli;
- türk dünyasının ortaq mədəni dəyərlərinin, tarix, mədəniyyət və memarlıq abidələrinin təyin olunması, sistemləşdirilməsi, onların qorunması sahəsində tədbirlərin keçirilməsi;
- türk xalqlarının milli mədəniyyətinin inkişafı prosesinin sürətləndirilməsi, onların bədii unikallığının və özünəməxsusluğunun dirçəldilməsi və yeniləşdirilməsi;
- türk dil qruplarının dillərinin və əlifbalarının yaxınlaşması, latın qrafikasına və ümumi dil mühitinə keçilməsi;
- türkdilli ölkələrin mədəniyyət və incəsənəti üzrə Beynəlxalq İnformasiya Mərkəzi və arxivinin yaradılması.

TÜRKSOY türkdilli ölkələrin mədəni əlaqələrinin inkişafında regional rəhbərliyi həyata keçirir, Birliyin bütün üzvlərinə dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq mədəniyyət əməkdaşlığı üçün bərabər şərait yaradır. Fəaliyyət növünə, məqsəd və vəzifələrinə görə TÜRKSOY YUNESKO strukturuna yaxındır. Bu birlik artıq türkdilli ölkələrin ictimai-siyasi və mədəni həyatında özünü doğrultmuş bir qurumdur. TÜRKSOY çərçivəsində türkdilli ölkələrin mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi iri beynəlxalq tədbirlər keçirilir. Bunlara musiqi və teatr festivallarını, tətbiqi incəsənət sərgilərini, müsabiqələri, yubiley mərasimlərini, kitab və təqvim nəşrlərini misal göstərmək olar.

Yarandığı vaxtdan etibarən TÜRKSOY çərçivəsində türkdilli dövlətlərin rəhbərləri səviyyəsində 7 görüş, mədəniyyət nazirlərinin Daimi Şurasının 32 iclası keçirilmiş və orada türkdilli ölkələr arasında siyasi, ticarət-iqtisadi və mədəni-humanitar əlaqələrin möhkəmləndirilməsi məsələləri nəzərdən keçirilmişdir.

XIV FƏSIL
BƏŞƏRİYYƏTİN QLOBAL PROBLEMLƏRİ

1. Nüvə silahlarının yayılması. Müharibə və qlobal problemləri

Qlobal problemlər. İnsanın özünəməxsus tələbləri vardır: iş, mənzil, əməkhaqqı, istirahət, sağlamlıq, təhsil və s. insanlar çox müxtəlif olduqları kimi, onların tələbləri də müxtəlif və rəngarəngdir. Hər kəs belə söhbətlərə hər gün televiziya proqramlarını izləyərkən rast gəlir. Məsələn, amerikalılar tez-tez şou-biznes ulduzlarının şəxsi həyatlarını müzakirə edirlər, fransızlar dünya çempionatında öz futbol komandalarının uğurları ilə sevinirlər. Azərbaycanlıları narahat edən məsələlər də vardır. Bunlar çox müxtəlifdir. Lakin bizim hamımızı ən çox işğal olunmuş torpaqlarımızın geri qaytarılması, ərazi bütövlüyümüzün bərpası, qaçqın düşmüş, məcburi köçkünə çevrilmiş soydaşlarımızın öz doğma yurdlarına qayıtmaları, erməni vandalizminə məruz qalmış mədəniyyət abidələrimizin taleyi narahat edir.

Hər bir ölkənin, hər bir xalqın, hər bir ailənin, ayrılıqda hər bir insanın da problemləri vardır.

Bunlarla yanaşı, dilindən, dinindən, dərisinin rəngindən, harada yaşamasından asılı olmayaraq, Yer üzünün bütün insanlarını düşündürən, təşvişə salan qlobal problemlər də vardır. Onlar müasir dünyanın problemləridir. Insan yaşadığı dünyanın müharibə və sülh, terrorizm, aclıq, dəhşətli xəstəliklərin geniş yayılması faktlarına laqeyd ola bilməz. Bunlar üçün insanlar "Bəşəriyyətin sabahı necə olacaq?", "İnsan nəslinin məhv olacağı və özü ilə yaşıl planeti də məhv edəcəyi gözlənilmir ki?" kimi suallar qarşısındadır. Məhz bunlar ***qlobal problemlər*** adlanır.

Dünyanın taleyi bütün insanları narahat edir. İndiki insan artıq dərk etmişdir ki, Yer kürəsi o qədər də böyük deyil, onu qorumaq gərəkdir. Dünya da, insan həyatı kimi çox kövrəkdir.

Onun hər an çatlamaq, sınmaq təhlükəsi var. Insan özünün varlığını qoruyub saxlamaq üçün bir çox məsələləri elə bu gün həll etməlidir. Ozon qatının deşilməsi, Günəş aktivliyinin artması, kəskin iqlim dəyişmələri, təbii ehtiyatların tükənməsi, nüvə müharibəsi təhlükəsi, "kiçik", lokal müharibə ocaqları – bunlar Yer üzərində həyatı hər an təhlükə altında qoyan məsələlərdir.

Davamlı gələcəyi təmin etməkdən ötrü bütövlükdə dünyanı qorumaq, bütün insanlar tərəfindən gələcək qarşısında öz məsuliyyətini dərk etmək, Yerin hər bir sakinini tarixdə öz iştirakmı təmin etmək işinə istiqamətləndirmək zəruridir.

Nüvə silahlarının yayılması təhlükəsi. Bu gün bəşəriyyəti narahat edən qlobal problemlərdən biri nüvə silahlarının yayılması problemidir. Çünki müasir silahlar, xüsusilə də nüvə silahları nəhəng dağıdıcılıq gücünə malikdir. Ən yeni istilik-nüvə başlıqlarında indiyə qədər bütün müharibələrdə istifadə olunmuş partlayıcı maddələrin gücündən artıq güc toplamaq mümkündür. Silahların dağıdıcılıq gücünün artması ilə yanaşı, onların qısa vaxtda böyük ərazilərdə, məsafələrdə istifadə olunması imkanları da genişlənir. Ballistik raketlər ölüm silahlarını Yer kürəsinin istənilən nöqtəsinə çatdırmağı və işə salmağı çox sadə bir işə çevirmişdir. Bununla əlaqədar olaraq müasir müharibələrdə döyüş metodları haqqında, məkan və zamanın rolu haqqında əvvəllər mövcud olan təsəvvürlər kökündən dəyişmişdir. Müasir müharibələr üçün nə məkan hüdudları, nə də zaman anlayışı hər hansı əhəmiyyətli rol oynamaq imkanına malik deyil.

Hazırda təxmini hesablamalara görə, dünyada təkcə nüvə başlıqlarının sayı 50 mini ötüb. Həmin nüvə silahlarının gücü adambaşına 10 ton trotil ekvivalentinə bərabərdir. Onların kiçik bir hissəsinin partladılması dünyanı məhv etmək üçün bəs edər.

Nüvə müharibəsinin mümkün nəticələrini proqnozlaşdırmaq üzrə Beynəlxalq Elmi Komissiyanın rəyinə görə, ən məhdud miqyaslarda belə, tətbiq edilən nüvə silahı bütün Yer kürəsində təbii müvazinətin pozulması, sivilizasiyanın məhvi kimi təhlükə törətməyə qadirdir. Komissiya məhdud nüvə müharibəsinin aşağıdakı mümkün nəticələrini də proqnozlaşdırır:

1) Nüvə müharibəsinin nəticələri insanın bioloji varlıq kimi mövcudluğunun maddi şəraitini pozar. Bu öz ifadəsini ozon təbəqəsinin dağılmasında, yer üzünün ultraqırmızı şüalanması nəticəsində kütləvi xəstəliklərin yayılmasında göstərər;

2) Nüvə müharibəsi ciddi təbii-sosial nəticələrə səbəb olar, cəmiyyətin təbii mühitinə, coğrafi mühitə güclü təsir göstərər;

3) Nüvə müharibəsi güclü sosial nəticələr törədər.

Əldə olunan nüvə silahının yarısının 90%-nin Avropa, Asiya və Şimali Amerika, 10%-nin Afrika, Latın Amerikası və Okeaniya üzərində partladılması 1,15 mlrd. insanın tələf olması, 1,1 mlrd. insanın isə sağalması mümkün olmayan xəsarət alması kimi dəhşətli nəticələrə gətirə bilər. Sağ qalanların da yaşamaq şansları praktik olaraq heçə bərabərdir.

Bu gün bəşəriyyət nüvə müharibəsi təhlükəsindən çox da uzaq deyil. XX əsrin 90-cı illərinin əvvəlində SSRİ-nin dağılması, dünya sosializm sisteminin iflası ilə "soyuq müharibə"yə son qoyuldu. Lakin bu hadisə nəticəsində ABŞ dünyanın yeganə super gücə malik dövlətinə çevrildi. SSRİ ilə ABŞ arasında gedən silah yarışı birinin çökməsinə, ikincisinin isə dünyada öz hökmünü diktə edən gücə çevrilməsinə səbəb oldu. Nəticədə əldə edilmiş strateji tarazlıq pozulmağa başlamışdır. Bu gün bəşəriyyətin ciddi narahatlığına daha biri də əlavə olunmuşdur. Rəsmi məlumata görə, İranın uranın zənginləş-dirilməsi sahəsində əldə etdiyi nailiyyətlər tezliklə bu dövlətin "nüvə dovlətləri ailəsi" sırasına daxil olmasına imkan yaradır.

ABŞ başda olmaqla Qərb dövlətləri, Rusiya və Çin bu hadisədən ciddi narahatlıq hissi keçirir. MAQATE-nin* İranın nüvə dosyesini BMT Təhlükəsizlik Şurasına təqdim etməsi ilə əlaqədar bu məsələ dəfələrlə göstərilən qurumda müzakirə olunmuşdur. İrana qarşı beynəlxalq birliyin sərt qətnamələri isə heç bir nəticə vermir. İran uranın zənginləşdirilməsi sahəsində tədqiqatları davam etdirməkdə israrlıdır. Bu isə ABŞ-ın İrana hərbi müdaxiləsi ehtimalını gücləndirir. Beləliklə, bəşəriyyətin böyük səylə qoruyub

* *MAQATE – Atom Energetikası üzrə Beynəlxalq Agentlik.*

saxladığı kövrək, nüvə silahı olmadan hərbi-siyasi sabitliyin hər an pozulmaq təhlükəsi yaranmışdır.

Nüvə silahının yayılmasına qarşı mübarizə. Bu gün strateji tarazlığın sülhü təmin etməyin ideal şərti kimi çıxış edə bilməməsi müharibə təhlükəsini aradan qaldırmağın daha təsirli vasitələrini zəruri edir. Belə vasitələrdən biri silahlanmanın qarşısının alınması, nüvə arsenalının və adi silahların ixtisarıdır. Bunun üstün cəhəti ondadır ki, bir tərəfdən silahların tətbiq olunması üzərində qadağa qoyur, digər tərəfdən isə silahlanmanın miqyaslarının genişlənməsinə imkan vermir.

Tərk-silah prosesi çətin və çoxşaxəli bir prosesdir. Onun ünsürləri nüvə silahının istifadə edilməsinin qarşısını almaq, onun geniş yayılmasına imkan verməmək məqsədi güdən aşağıdakı tədbirlərdə özünün əksini tapır:

1) nüvə silahı sınaqları üzərinə möhkəm qadağa qoyulması;
2) nüvə silahından istifadə edilməsinə qadağa qoyulması;
3) nüvə silahlarının ixtisar edilməsi;
4) nüvə silahlarının yayılmasına imkan verilməməsi.

Əlbəttə, bu tədbirlərin əhəmiyyəti böyükdür. Lakin nüvə silahının yayılmasına imkan verməmək ideyası mahiyyət etibarı ilə nüvə silahına sahib olan dövlətlərlə ona sahib olmağa çalışan dövlətlər arasında ciddi fikir ayrılığı yaradır. İkincilər bu birtərəfli hegemonluqla razılaşmırlar. Yuxarıda İranın mövqeyi ilə bağlı deyilən fikirlər buna sübutdur. Bəşəriyyətin başı üstünü almış nüvə təhlükəsindən birdəfəlik xilas olmağın yeganə təsirli və ədalətli yolu bu sahədə hegemonluğa can atmaqda deyil, əksinə birdəfəlik bu silahdan imtina etməkdə, onu hamılıqla məhv etməkdədir.

Sülhün və təhlükəsizliyin qorunması üçün təkcə dövlətlər və hökumətlər məsuliyyət daşımırlar. Çoxları bu işdə elmin böyük rolunu qeyd edirlər. 1945-ci il avqustun 6 və 9-da ABŞ Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə iki atom bombası atdı. 260 min adam dərhal həlak oldu, 163 min adam yaralandı və yüksək dərəcədə şüalanmaya məruz qaldı. Bu hadisə elmin nailiyyətinin nəticəsi idi. Atom silahının yaradıcıları olan alimlər bu hadisədən dəhşətə gəldilər. Görkəmli alim **Eynşteynin** təşəbbüsü ilə

digər alim-humanistlərin *(F.Jolio-Küri, M.Borna, B.Rassela)* daxil olduqları *Paqouş hərəkatı* meydana gəldi. Bu hərəkat öz adını təsis yığıncağının keçirildiyi Kanadanın Paqouş şəhərinin adından götürmüşdür. Hərəkatın qarşısında duran başlıca vəzifə alimlərin elmi kəşflərinin nəticələri barədə daşıdıqları məsuliyyət problemlərini müzakirə etınək, elmi və texniki kəşflərdən bəşəriyyətin əleyhinə istifadə olunmasına yol verməməkdir. Paqouş hərəkatının iştirakçıları öz konfranslarında dünyanın böyük dövlətlərinə müraciət edərək onları nüvə ehtiyatları cəbbəxanasını ixtisar etməyə, beynəlxalq münasibətləri qarşılıqlı etimad prinsipi əsasında qurmağa çağırırdılar. Bəşəriyyət tərəfindən bu təşəbbüs rəğbətlə qarşılandı.

Müharibə və qlobal problemlər

Müharibələrdə itkilərimiz. XX əsrdə baş vermiş iki dünya müharibəsi bəşəriyyəti sivilizasiyanın qorunub saxlanması problemi ilə üz-üzə qoymuşdur.

Birinci Dünya müharibəsi özünə qədərki müharibələri xüsusi amansızlığı ilə çox-çox geridə qoymuşdur. Bu müharibəyə 1,5 mln. insan cəlb olunmuş, hərbi əməliyyatlarda isə 65 mln. insan iştirak etınişdir. Döyüşlərdə 10 mln. insan həlak olmuş, 21 mln. insan yaralanmışdır. Maddi zərər 280 milyard dollar məbləğində olmuşdur. Altı il davam etınişİkinci Dünya müharibəsində 62 mln.-dan artıq adam həlak olmuşdur. Bu müharibəyə isə 72 dövlət, Yer kürəsi əhalisinin təxminən 80%-i cəlb olunmuşdur. 110 mln. insan birbaşa hərbi əməliyyatlarda iştirak etınişdir. Müharibə xərcləri irimiqyaslı maddi vəsaitə - 4 trilyon dollara başa gəlmişdir. Bu müharibədə 100 minlərlə soydaşımızın həyatına son qoyulmuşdur.

İkinci Dünya müharibəsinin ağır nəticələrinə görə beynəlxalq birlik – BMT Nizamnaməsində dövlətlərin mübahisəli məsələlərin həllində zor tətbiq etmələrini qınadığını elan etmişdir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində deyilir: "Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri beynəlxalq münasibətlərdə zorun tətbiqi hədəsindən çəkinirlər". Lakin dövlət hərbi təcavüzə məruz qaldığı halda güc tətbiq etməkdə haqlıdır. Fərdi və ya

kollektiv özünümüdafiə hüququ BMT Nizamnaməsinin 51-ci maddəsində ifadə olunmuşdur. Eyni zamanda bu maddədə BMT Təhlükəsizlik Şurasının beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsi və ya müdafiə məqsədilə qəbul etdiyi qərara uyğun olaraq hərbi qüvvədən istifadə edilməsi haqlı addım hesab edilir. Dövlətlər aralarında yaranan narazılıqları sülh yolu ilə həll etməlidirlər. Beynəlxalq birliyin müharibə etmək imkanlarının məhdudlaşdırılması sahəsində ciddi səylərinə baxmayaraq, son əlli ildə dünyada hərbi münaqişələrin sayı və miqyası xeyli artmışdır. Bu müharibələr 30 mln.-dan çox insanın həyatına son qoymuşdur.

XX əsrin sonlarında da çoxlu irili-xırdalı silahlı münaqişələr baş vermişdir. Ölkəmizin zorla cəlb olunduğu Azərbaycan – Ermənistan münaqişəsi də bu qəbildəndir. 1988-1994-cü illərin Birinci Qarabağ müharibəsi ölkəmizin maddi və insan ehtiyatlarına son dərəcə ağır zərbə vurmuşdur. Ərazimizin 20%-i düşmən dövlətin silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Şəhərlərimiz, kəndlərimiz, mədəniyyət və təhsil ocaqlarımız, dini ibadətgahlarımız dağıdılmış, sərvətlərimiz qarət edilmişdir. Bu müharibədə ən ağır itkimiz isə insan itkisi, mənəvi itkidir. 20 mindən çox insanın həlak olması xalqımızın genefonduna vurulmuş ən ağır zərbədir. Minlərlə insan əsirlikdə qeyri-insani münasibətlə üzləşmiş, təhqir və işgəncələrə məruz qalmışdır. Erməni işğalçıları Beynəlxalq humanitar hüququn heç bir prinsipinə əməl etməmiş, döyüş meydanlarında həlak olanların meyitlərini belə təhqir etinəkdən çəkinməmişlər.

Müharibə aparmağın metod və vasitələrinin məhdudlaşdırılması. Siz artıq Beynəlxalq humanitar hüququn silahlı münaqişədə olan tərəfin hərbi əməliyyatların qurbanları (yaralılar, hərbi əsirlər, mülki şəxslər və s.) ilə necə rəftar etməli olduğuna dair müddəaları ilə tanış olmusunuz. Bəs Beynəlxalq humanitar hüquq hərbi əməliyyatların aparılması metod və vasitələrinə hansı məhdudiyyətlər qoyur? Bu məhdudiyyətlərin qoyulmasında hansı məqsədlər güdülür? Bu qaydalar kimlərə ünvanlanmışdır? Bu suallara cavab verməyə çalışaq.

Beynəlxalq humanitar hüququn müharibə aparmağın metod və vasitələrinə məhdudiyyətlər qoymaqda məqsədi müharibənin amansız gerçəkliyinin imkan verdiyi qədər ölüm və dağıntıların qarşısını almaq, yaxud heç olmazsa, onların sayını və miqyasını azaltmaqdır. Bu qaydalar silahlı münaqişədə hərbi əməliyyatların planlaşdırılması və həyata keçirilməsinə birbaşa təsir göstərdiyi üçün bilavasitə silahlı qüvvələrin ali komandanlığına, hərbi birləşmələrin komandirlərinə və baş qərargahların heyətinə ünvanlanmışdır.

Müharibə aparmağın metod və vasitələrinin məhdudlaşdırılmasına aid məsələ ilk dəfə Haaqa konvensiyalarında öz əksini tapdığı üçün onu ***"Haaqa hüququ"*** adlandırırlar. Bu hüququ bəzən "***müharibə hüququ",*** yaxud daha dəqiq desək "***müharibə aparılması hüququ"*** da adlandırırlar.

BMT Nizamnaməsi ilə dövlətin silahlı müqavimət göstərməsinə yol verilsə də (məsələn, özünümüdafiə üçün), müharibə aparılması daim Beynəlxalq humanitar hüququn öz əksini adət hüququnda tapmış ümumi prinsiplərinə və *beynəlxalq müqavilə hüququna* tabe olmalıdır. BMT Baş Məclisinin yekdilliklə qəbul etdiyi "Silahlı münaqişələrdə insan hüquqlarına hörmət edilməsi" adlı qətnaməsi beynəlxalq hüququn silahlı münaqişədə iştirak edən bütün dövlətlərin və digər qrupların əməl etməli olduğu üç mühüm prinsipini təsdiq etdi:

1. Münaqişədə olan tərəflərin düşmənə zərərvurma vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir.

2. Mülki əhaliyə hücum etmək qadağandır.

3. Bütün hallarda hərbi əməliyyatlarda iştirak edən şəxslərlə mülki şəxslər arasında fərq qoyulmalıdır ki, sonuncular mümkün qədər az təhlükəyə məruz qalsınlar. Bu normalar 1949-cu il Cenevrə Konvensiyalarında və onlara əlavə iki Protokolda öz əksini tapıb.

Beynəlxalq səciyyəli silahlı münaqişələrə dair Birinci Protokol və qeyri-beynəlxalq səciyyəli silahlı münaqişələrə dair İkinci Protokol isə mahiyyətcə bu prinsipləri qadağalara çevirdi.

Birinci Protokolun 35-ci maddəsində təsbit edilmiş üç qadağa müharibə aparılması metodlarına və vasitələrinə qoyulan məhdudiyyətləri müəyyənləşdirir.

"İstənilən silahlı münaqişə halında münaqişədə olan tərəflərin hərbi əməliyyatları aparma metodları və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir".

"Həddən artıq əzab verən və ya lüzumsuz zərər yetirə bilən silah, mərmi və maddələrdən, habelə hərbi əməliyyatları aparma metodlarından istifadə edilməsi qadağandır".

"Təbii mühitə geniş miqyaslı, uzun müddətli və ciddi ziyan vurmaq məqsədi daşıyan və ya belə ziyan vura biləcək müharibə aparma metodları və vasitələrindən istifadə etmək qadağandır".

Müharibə aparılmasının qadağan edilmiş metodlarına ilk növbədə *xəyanətkarlıq* daxildir. Buna ağ bayraqla pərdələnməklə edilən hücumları, yaxud özünü döyüşdə sıradan çıxmış kimi göstərməklə ona yardım etməyə cəhd edən düşmənin asanlıqla məhv edilməsini misal göstərməklə olar.

Beynəlxalq humanitar hüquq hərbi əməliyyatlar zamanı hamı tərəfindən tanınan fərqlənmə nişanlarından, xüsusilə də qırmızı xaç və qırmızı ayparadan sui-istifadə olunmasını qadağan edir. Bu qadağanın pozulması müharibə cinayəti kimi qiymətləndirilir. Çünki nişanlardan bu formada istifadə edilməsi onları etibardan salar, hətta qanuni şəkildə istifadə olunduğu zamanda belə onlara hörmət edilməz.

Müharibə aparmağın məhdudlaşdırılmış metodlarından biri də sıradan çıxmış, yəni yaralanmış, silahı yerə qoyaraq müqavimət göstərməyən əsgəri öldürməyin qadağan edilməsidir. Beynəlxalq humanitar hüquq qəzaya uğramış təyyarəni paraşütlə tərk edən heyət üzvlərinə hücumları qadağan edir, çünki həmin şəraitdə onlar özlərini müdafiə etmək gücündə olmurlar.

Müharibə hüququ həmçinin bir sıra silah növləri və sursat tiplərinin tətbiqini qadağan edir və ya onlardan istifadə edilməsini məhdudlaşdırır. Silahlı münaqişə zamanı silahların müəyyən növlərinin istifadəsinə qoyulan məhdudiyyətlər min illər boyu mövcuddur. Qədim hərbi məcəllələr müharibənin aparılmasının vəhşi, xain və qeyri-insani sayılan üsul və vasitələrini qadağan edirdilər. Qədim Yunanıstan və Romada zəhərin və zəhərli silahların istifadəsi qadağan olunmuşdu. Qədim Hindistanda "Mani

qanunları"na əsasən zəhərli və yanan oxlardan istifadə olunması qadağan idi. Oxşar normaları digər sivilizasiyalar da yaratınışdı. Bunlar silah seçimini tənzim edən Beynəlxalq humanitar hüququn yaranması üçün başlanğıc olmuşlar.

XX əsrin ortalarından etibarən müharibənin aparılmasının metod və vasitələrini tənzimləyən normalar hüquqi öhdəlikləri yaradan beynəlxalq sənədlərdə öz əksini tapmışdı. Hələ XIX əsrin 60-cı illərində partlayıcı və asanlıqla dönə bilən güllələrin istifadəsi qadağan olunmuşdu. 1925-ci il Cenevrə protokolu ilə kimyəvi və bioloji silahların istifadəsi qadağan edildi. Bu qadağa sonradan "Bioloji silah haqqında Konvensiya»nın (1972) və "Kimyəvi silah haqqında Konvensiya"nın (1993) qəbul edilməsi ilə gücləndirilmişdir. Həmin konvensiyalar bu cür silahların hazırlanmasını, istehsalını, ehtiyatının toplanmasını və ötürülməsini qadağan etmişlər. XX əsrin 90-cı illərində piyadalar əleyhinə minaların qadağan edilməsi haqqında Konvensiyanın qəbul edilməsi və bir çox dövlətlərin ona qoşulması müasir silahlı münaqişələrdə istifadə olunan silahların faciəli nəticələrindən beynəlxalq ictimaiyyətin dərin narahatlığını əks etdirir.

"Adi silahların müəyyən növləri haqqında Konvensiya" bu sahədə daha mühüm bir müqavilədir. 1949-cu il Cenevrə Konvensiyaları və 1977-ci il Əlavə Protokolları ilə bərabər bu Konvensiya beynəlxalq humanitar hüququn mühüm sənədlərindən biridir. Konvensiya aşağıda adı çəkilən silah növlərini qadağan edir və yaxud onların istifadəsini məhdudlaşdırır: a) bədəndə tapıla bilməyən qəlpələr; b) minalar, minatələlər və digər qurğular; c) yandırıcı silah; ç) koredici lazer silahı; d) müharibənin partlayıcı qalıqları. Bu konvensiyanın iştirakçısı olmaqla dövlətlər müharibənin aparılması metod və vasitələrinin seçiminin qeyri-məhdud olmaması haqqında uzun müddət mövcud olan prinsipi təsdiq və təsbit edirlər.

Nüvə silahının tətbiqinin qadağan edilməsi Beynəlxalq humanitar hüququn, bütövlükdə dünya siyasətinin mühüm problemlərindən biridir. Məlum olduğu kimi, nüvə silahı ancaq bir dəfə tətbiq olunmuşdur. Nüvə silahının tətbiqinin Beynəlxalq humanitar

hüquq prinsiplərinə uyğun olmaması heç bir şübhə doğurmur. Bununla belə, bu cür tətbiqi qadağan edən norma mövcud deyildir.

2. Sülh quruculuğu problemi. Münaqişənin həllindən barışığa doğru

Sülh mədəniyyəti nədir? Müharibədə qaliblər olmur. Daha doğrusu, müharibə edən tərəflərdən hər hansı biri qalib olmur. Qələbə ancaq başqalarını müharibəyə təhrik edən qüvvələrin siyasi qələbəsi şəklində olur. Əgər biz ordunu möhkəmləndiririksə, bunu da ilk növbədə ədalətli sülhə nail olmaq üçün, sülh danışıqlarında daha inamlı olmaq üçün edirik.

Təsadüfi deyildir ki, BMT XX əsrin son ilini "Sülh mədəniyyəti" ili elan etmişdi. Nədir "sülh mədəniyyəti"? Sülhü passiv mövqe kimi, milli maraqlar uğrunda mübarizədən əl çəkilməsi, təslimçilik əhvali-ruhiyyəsi kimi başa düşənlər səhv edirlər. Daha doğrusu, beləliəri "sülh mədəniyyəti"ndən uzaq olanlardır. "Sülh mədəniyyəti" dedikdə sülhün mürəkkəb daxili quruluşunu, dinamikasını, dramatizmini dərk etmək, incə yollarla dinc mübarizə üsullarına yiyələnmək başa düşülür. Coğrafi-iqtisadi siyasət də, coğrafi trans-siyasət də, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də "sülh mədəniyyəti"nin tərkib hissələridir.

XX əsrin sonunda bəşəriyyət kütləvi qırğın, qlobal faciə qarşısında dayandığını dərk etdi və sanki qəflət yuxusundan ayıldı. Mübarizənin yeni, daha çətin, lakin bütövlükdə bəşəriyyətin taleyi üçün təhlükəsiz olan yollarını aramağa başladı.

Həm müharibə, həm də sülh səfərbərlik tələb edir. Lakin sülh daha geniş miqyasda, daha böyük qüvvələrin səfərbər olunmasını tələb edir.

Davamlı sülhə nail olmağa nə mane olur? Müharibə və sülh probleminin cizgiləri XX əsrin ortalarına qədər əsasən ağ və qara rəngdə görünürdü. Müharibə bir dövlətin hərbi güc tətbiqi ilə öz iradəsini başqa dövlətə qəbul etdirməsi və bir qayda olaraq ərazi işğalı ilə bağlıdır. Sülh isə münasibətlərin müharibə vəziyyətinədək gərginləşdirilmədən qurulması deməkdir. Yəni, iki dövlət arasındakı sülh heç bir ziddiyyətin olmaması halından başlayaraq

ziddiyyətlərin tarım çəkilmiş vəziyyətinə qədər bütöv bir gərginlik spektrini əhatə edir. İkinci Dünya müharibəsindən sonra beynəlxalq hüquq normalarının siyasi münasibətlərə təsir etməsi, böyük dövlətlər birliyinin (məsələn, Birləşmiş Millətlər Təşkilatı, ATƏT və s.) ölkələr arasındakı münasibətləri nəzarətə götürməsi sülhün strukturunda da xeyli dəyişiklik yaratdı.

Müasir dövrdə sülh heç də tam qarşılıqlı anlaşma və maraqların uyğunluğu demək deyil. Ölkələr arasında hər hansı bir ziddiyyət nəticəsində hərbi təcavüzün qarşısı beynəlxalq qüvvələr tərəfindən alındığına görə, əvvəllər müharibəyə gətirən münasibətlər indi daxili gərginliyi artmış dinamik müvazinət halı ilə əvəz olunur. Bu halı yüksək daxili gərginlikli sülh kimi qəbul etmək olar. Əslində isə bu, sülhdən daha çox münaqişə vəziyyətidir, lakin hərbi müdaxilə və müharibə səviyyəsinə çatmamış bir münaqişədir.

Əslində müasir dovrdə maraq dairələri az-çox dərəcədə kəsişən dövlətlərin çoxu ya gərgin sülh, ya yumşaq münaqişə vəziyyətindədir. Belə ki, ölkələr arasındakı münasibətlər heç də sadəcə olaraq maraqların qarşılıqlı surətdə təmin olunması, ikitərəfli qazanc şəklində qurulmur. İstər-istəməz maraqların kəsişməsi halları olur ki, bu da münaqişə vəziyyətinin miqyaslarını genişləndirir.

Tarixi salnamələrlə tanış olarkən çox vaxt belə təsəvvür yaranır ki, bəşər tarixi elə müharibələr tarixi olub. Bəzi filosoflar müharibəni hətta cəmiyyət inkişafının hərəkətverici qüvvəsi kimi izah edirlər. Tarixdə ən çox nəzərdən qaçırılan müharibəsiz dövrlərdir. Halbuki məhz bu dövrlərdə ölkələrin maddi sərvətləri və insan potensialı, insanların enerjisi və şüuru insan-təbiət münasibətlərinin, sosial-iqtisadi problemlərin həllinə yönəldilib, elm və təhsil, bü-tövlükdə cəmiyyət inkişaf edibdir.

Beləliklə, ölkələr arasındakı münasibətdə sülh vəziyyəti mütləq yox, nisbi anlayışdır. Müharibədən fərqli olan bütün vəziyyətləri "sülh vəziyyəti" kimi qiymətləndirsək, bir-birindən fərqli müxtəlif "sülh"lərdən danışmaq olar.

Əvvəla, beynəlxalq miqyasda maraqların tamamilə üst-üstə düşməsi mümkün deyil. Əgər belə olardısa, iki müxtəlif dövlətin mövcudluğuna ehtiyac qalmazdı – onlar birləşərdi. Dövlətlər

arasında hansısa müstəvidə: ya etnik-milli, ya iqtisadi, ya tarixi-siyasi (bir dövlətin başqa ölkələrlə tarixən artıq qərarlaşmış və müqavilələrlə təsbit olunmuş münasibətləri), ya da ideoloji istiqamətlərdə və buna uyğun milli maraqlarda fərqlərin olması labüddür.

Söhbət maraqların əsasən üst-üstə düşməsindən, qismən üst-üstə düşməsindən və köklü surətdə fərqlənməsindən gedə bilər. Belə olduqda ölkələr arasındakı münasibətdə sülhün dayanıqlığı və daxili gərginlik dərəcəsi də bu maraqların eynilik və fərq dərəcələrinə uyğun olaraq formalaşır.

Tarixi-siyasi müstəvidə əsas gərginlik mənbəyi bir qayda olaraq keçmişdə iki ölkə arasında baş vermiş müharibələr, ənənəvi ərazi iddialarıdır. Buraya çox vaxt etnik-milli və dini müstəvidəki problemlər də əlavə olunur. "Ənənəvi dostluq" və "ənənəvi düşmənçilik" münasibətləri çox vaxt üçüncü ölkə ilə münasibətlərə də təsir edir. Belə ki, üçüncü ölkələrin ənənəvi dost ölkə ilə münaqişəyə girməsi və ya ənənəvi düşmənlə dostluq münasibətləri qurması münasibətlərdə gərginlik yaradır və sülhün dayanıqlıq dərəcəsi azalır. Belə ənənəvi münasibətlər müasir şəraitdə çox vaxt real maraqlarla üst-üstə düşmür. Məsələn, Rusiyanın iqtisadi maraqları Türkiyə və digər türkdilli dövlətlərlə münasibətlərin yaxşılaşdırılmasını tələb etsə də, Türkiyə ilə ənənəvi düşmənçilik hələ də ön plana çəkilir. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasəti onun iqtisadi maraqlarına heç cür uyğun gəlmir. Azərbaycana və Türkiyəyə qarşı ənənəvi düşmənçilik mövqeyi, müntəzəm olaraq uydurma "erməni soyqırımı" mövzusunun müxtəlif ölkələrin parlamentlərinin müzakirəsinə çıxarılması Ermənistanın qonşu dövlətlərlə münasibətlərini daha da gərginləşdirir və regionda sülhün sarsılmasına səbəb olur.

Ümumiyyətlə, müasir dövrdə sülhün dayanıqlığının artması iqtisadi maraqların ön plana çəkilməsindən, etnik-milli və tarixi-siyasi müstəvilərdəki ənənəvi düşmənçilik mövqelərinin iqtisadi maraqların xeyrinə tədricən aradan götürülməsi prosesindən asılıdır. Lakin təəssüf ki, iqtisadi maraqlar qarşılıqlı surətdə nəzərə alınmadıqda, milli eqoizm özünü göstərdikdə - bu müstəvidə də

sülhə əks-təsir çoxala bilər, sülhün daxili gərginliyi artar. Belə gərginlik, adətən, iki ölkə arasında deyil, üç və daha artıq ölkə arasında yaranır. Yəni bir ölkənin başqa bir ölkədə iqtisadi maraqlarının ödənilməsi üçüncü ölkənin həmin ölkədəki planlarına uyğun gəlmədikdə iqtisadi qarşıdurma siyasi müstəviyə keçə bilər. Hazırda Xəzər regionunda böyük neft yataqlarının olması və bunun istismarı uğrunda mübarizədə bir sıra böyük dövlətlərin maraqları toqquşur. Rusiya Xəzər neftinin çıxarılması, emalı və daşınması üçün investisiya imkanları olmadığından siyasi təzyiqlərə əl atır, o cümlədən, regiondakı münaqişələr, ilk növbədə Dağlıq Qarabağ münaqişəsindən və Ermənistan ərazisində hərbi bazaların olmasından bir amil kimi istifadə edir. Dünya birliyi hərbi təcavüz edən ölkəyə nəinki silah satılması, hətta hər hansı bir sahədə kömək göstərilməsi əleyhinə çıxır, belə ölkələrə qarşı iqtisadi sanksiyalar tətbiq olunur. Lakin Rusiya Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş olan Ermənistana külli miqdarda hərbi yardım göstərir və bu, regionda qeyri-sabitliyin əsas səbəblərindən biridir. Maraqlıdır ki, regionda həm iqtisadi, həm də siyasi maraqları olan ABŞ da bu məsələdə anlaşılmaz mövqe tutur. ABŞ Konqresi işğalçı dövlət olan Ermənistana qarşı deyil, işğala məruz qalmış Azərbaycana qarşı yardımın məhdudlaşdırılması barədə qərar qəbul etmişdir və "Azadlığı Müdafiə Aktına 907-ci düzəliş" hələ də qüvvədə qalmaqdadır.

Beləliklə, iqtisadi müstəvidəki problemlər siyasi müstəviyə keçir və regionda hərbi güc potensialı da bura əlavə olunur. Kiçik dövlətlər arasında sülhün kövrək olması, münaqişə ocaqlarının, yarısülh, yarımüharibə şəraitinin saxlanması böyük dövlətlərə regionda öz geosiyasi planlarını həyata keçirmək sahəsində manevrlər etmək üçün imkan yaradır.

Hazırda planetimizin etnik münaqişələr baxımından ən qızğın regionlarından biri keçmiş SSRİ məkanıdır. SSRİ vahid güclü dövlət olduğu vaxtlarda heç bir xalq üçün müstəqillik imkanı olmadığından və daxili sərhədlər rəmzi səciyyə daşıdığından burada etnik zəmində hər hansı münaqişəyə zəmin yox idi. Lakin elə ki

SSRİ dağıdıldı və bir çox milli dövlətlər yarandı, separatizm meyilləri gücləndi.

Regionda sülhün xeyli dərəcədə iqtisadi amillərdən və beynəlxalq ticarət əlaqələrindən asılı olması dünyanın geopolitik xəritəsində iqtisadi amilin nəzərə alınmasını tələb edir. Bu baxımdan regiondakı dövlətlərin Qədim İpək Yolunun bərpası haqqında qəbul etdikləri qərarın təkcə iqtisadi yox, həm də böyük siyasi əhəmiyyəti vardır.

Sülhə nail olmağın yolları. Hazırda dünyanın böyük əksəriyyəti sülh və qarşılıqlı dialoq şəraitində yaşayıb çiçəklənir. Ölkədaxili münaqişələr artıq daha çox beynəlxalq müdaxilə nəticəsində həll olunmaqdadır. Demokratiya, beynəlxalq iqtisadi əlaqələr, qlobal xəbərlər mediası, internet, peyk rabitəsi, beynəlxalq turizmin inkişafı, olimpiya hərəkatı və s. insanı bəşəriyyətin gələcəyinin daha çox dinc inkişafda olduğuna inandırır və ümidlər verir. Bir zamanlar "quldarlıq" termini institut kimi geniş qəbul edilmişdi və buna normal baxılırdı. İndi isə bu, qətiyyən qəbuledilməzdir, çünki insanlar öz düşüncələrini və institutlarını dəyişiblər. Əgər quldarlıq üçün belə olubsa, bəs niyə terrorizm və müharibə üçün də olmasın? Dünyanı narahat edən bu qlobal narahatlıq o zaman minimuma enər ki, ölkələr arasında silah satışına məhdudiyyət qoyulsun. Axı, silahlı münaqişələrin səbəbinin biri də cinayətkar dəstələrin silahlanmasıdır.

Bu gün dünyada insan hüquqlarına hörməti ön plana çəkmək, zorakılığa alternativlərin yaranması üçün kütləvi təhsil proqramları yaradılmalıdır. Dövlətlərin hazırkı bioloji silah ehtiyatları məhv edilməli, hər silah növü üçün beynəlxalq yoxlama sistemi gücləndirilməli, öldürücü olmayan silahların tətbiqinə diqqət artmalıdır.

Terrorçu qrupların bir ölkə ərazisindən digər ölkə ərazisinə keçərək yayılmasına qəti yol verməmək lazımdır. Hökumətlər isə onlara qarşı amansız olmalıdırlar.

Dünyada dayanıqlı sülh yaradılmasında köməkçi vasitələrdən biri də mədəniyyətin, incəsənətin inkişafı və bunların ölkələrarası

qarşılıqlı əlaqəsidir. Bu sahədə ədəbiyyatın, bədii sözün, şair və yazıçıların rolu az deyildir.

3. Əhali artımı və sağlam ətraf mühit problemləri

***Əhali artımı. Demoqrafiya* - əhalinin artması, yəni onun sıxlığı, hərəkəti, dünyanın müxtəlif regionlarında yerləşməsi, cinsi vəziyyəti, yaşı və məşğuliyyəti haqqında elmdir.**

Bütün demoqrafik problemlərin mərkəzində əhalinin sayının sürətlə artması və əhalinin artmaqda olan tələbatlarının ödənilməsi durur. Bəşər tarixinin keçdiyi inkişaf müddətində Yer kürəsinin demoqrafik vəziyyəti əsaslı surətdə dəyişmişdir. Təxminən 10 min il bundan əvvəl, yəni insanların istehsal təsərrüfatına keçməsi dövründə bizim planetin əhalisinin sayı cəmi 5 milyon olmuşdur. Kapitalizməqədərki dövrdə Yer kürəsinin əhalisi çox yavaş artırdı. Bu, əsasən insanın təbiətdən asılılığının güclü olması, müxtəlif yoluxucu xəstəliklərə tutulması ilə əlaqədar idi. Qədim və Orta əsrlər dövrlərində dünya əhalisinin sayının ikiqat artması min və daha çox illər ərzində baş verirdi. Əgər biz müəyyən dövrlərdən bu günə qədər əhali artımını izləsək, bu boyük artımın şahidi olarıq.

Əhalinin sayının artması prosesi davam edir. Əgər XX əsrin 60-cı illərində bu artımın sürəti saatda 8 min nəfər, 80-ci illərdə 10 min nəfər idisə, bu rəqəm 90-cı illərdə 12 min nəfərə çatmışdır. Lakin əhali artımı dünyanın müxtəlif regionlarında və ölkələrində eyni olmur. Nəticədə bu demoqrafik vəziyyət partlayış xarakteri alır və insanların ərzaq, tibb ləvazimatı, həyat üçün zəruri olan digər vasitələrlə təchizatını təhlükə altında qoyur. Digər tərəfdən isə, bir sıra ölkələrdə əhalinin sayının azalması təhlükəsi baş verir. Alim-demoqrafların hesablamalarına görə, Afrika qitəsinin əhalisi bu gün Yer üzünün əhalisinin 12%-ni təşkil edirsə, 2050-ci ildə bu rəqəm 20%-ə yüksələcəkdir. Avropa ölkələrinin əhalisi indi 13% təşkil edirsə, bəhs edilən müddətdə bu rəqəm 7%-ə enəcəkdir.

XX əsrin 50-ci illərində təkcə Avropa ölkələrində illik əhali artımı 0,84% idisə, 1985-ci ildə bu rəqəm 0,17%-ə düşmüşdür. Belə vəziyyət Şimali Amerikada, Avstraliyada, bir çox Asiya

dövlətlərində də olmuşdur. 70-ci illərdə Çində hər min nəfərə əhali artımı 36 nəfər təşkil edirdisə, 80-ci illərdə bu rəqəm 14-ə enmişdir.

Hazırda dünya əhalisinin sayı 6,53 milyarddır. Bu rəqəmin 2050-ci ildə 9 milyarda çatacağı, 2100-cü ildə isə əksinə, təxminən 5,5 milyarda qədər azalacağı proqnozlaşdırılmışdır. Hazırda Rusiya və Yaponiyanın əhalisi doğum sayının aşağı düşməsi səbəbindən azalır. Digər ölkələrin əhalisi də bu səbəbdən azalacaq.

Əhalinin tərkibində nisbi dəyişilmə meyilləri. Göründüyü kimi, aparıcı inkişaf etmiş ölkələr hazırda əhalinin sayının kəskin azalması problemi ilə üzləşiblər. Bir çox ailələrdə yalnız bir uşağın olması ilə kifayətlənirlər. Çoxları isə ümumiyyətlə uşaq istəmir. Onlar bunu müasir mürəkkəb zəmanədə uşaqların tərbiyəsi məsuliyyətini öz üzərinə götürməyə cəsarət etməmələri, sərbəst gəzmək, əylənmək istəkləri ilə izah edirlər.

Doğrudur, həmişə uşaqların çoxluğu ilə səciyyəvi olan Azərbaycan ailələrində hələlik belə nümunələr çox azdır. Təbiətən ailəsinə bağlı olan Azərbaycan qadını və kişisi ailə səadətini uşaqsız təsəvvür etmir. Lakin son zamanlar həyat səviyyəsi ilə bağlı çətinliklər də öz təsirini göstərməmiş deyil. Əvvəllər 8-10 uşaqlı ailələrin yerini indi 1-3 uşaqlı ailələr tutur. Uşaqların sayı 4-6 olan ailələrə indi az təsadüf olunur.

XX əsrin 30-50-ci illərində hər bir azərbaycanlı ailəsində azı 3, 5, 7 uşağın olması adi hal idi. XX əsrin sonuncu 20 ilində, xüsusilə özünü ziyalı hesab edən ailələr 1-2 uşaqdan ibarət olmuşdur. Bu isə əhalinin artımına və əmək ehtiyatlarına kəskin təsir göstərir. Azərbaycan ərazisi 20-25 mln. əhalini saxlamağa və ərzaqla təmin etməyə qadirdir. Halbuki, hazırda ölkəmizdə əhali 8 mln.-dan çoxdur.

Bizim ölkəmizdə demoqrafik vəziyyəti nə kəskin, nə də yaxşı adlandırmaq olar. Buna orta hədd deyirlər. XX əsr Azərbaycan xalqı üçün daim itkilərlə müşayiət olunmuşdur. 1905-1907, 1918-1920-ci illərin soyqırımları, 1930-40-cı illərin kütləvi repressiyaları, İkinci Dünya müharibəsi, 1948-1953-cü illərin deportasiyası, 1988-1994-cü illərin Qarabağ müharibəsi, xalqımıza qarşı ermənilərin

törətdikləri saysız-hesabsız terror aktları milyonlarla insanın həyatına son qoymuşdur.

Birinci Qarabağ müharibəsində çoxlu gənclərimiz həlak oldu. Əlbəttə, bu, 8-10 ildən sonra daha aydın hiss olunmağa başladı. Ümumtəhsil məktəblərinin birinci siniflərinə gedən uşaqların sayı kəskin şəkildə aşağı düşmüşdür. Öz yurd-yuvasından didərgin düşmüş, erməni vandalizminin qurbanı olmuş ailələrdə artım sürəti azalmışdır. İqtisadi çətinlik demoqrafik dəyişikliklərdə özünü daha qabarıq göstərir.

İnkişaf etməkdə olan ölkələrdə isə mənzərə tamamilə başqa cürdür. XX əsrin ortalarında həmin ölkələrdə tibbi xidmətin keyfiyyəti çox yüksəlmişdir. Nəticədə burada doğum artmış, onların qorunub saxlanma səviyyəsi isə yüksəlmişdir.

"Demoqrafik partlayış" təhlükəsi bəşəriyyət üçün böyük problem kimi qalır. Doğrudur, əhalinin təbii artımı iqtisadi inkişafı zəif olan ölkələrdə daha yüksəkdir və dövlət adamların normal yaşamasını təmin edə bilmir. Həmin ölkələr üçün kəskin ərzaq çatışmazlığı, 100 minlərlə insanın aclıq çəkməsi səciyyəvidir.

Bu cəhətdən, Afrika qitəsində daha ağır vəziyyət hökm sürür. XX əsrin 60-cı illərində müstəqillik əldə etmiş bu ölkələr indi xaosla yüklənmişlər. Alimlərin proqnozlarına görə, bir sıra Afrika ölkələrində (Namibiya, Mozambik, Botsvana) yaxın bir neçə onillikdə QİÇS-dən ölənlərin sayı əhalinin artım sürətindən üç dəfə çox olmuşdur. Kasıblıq, savadsızlıq, ənənəvi ümumi həyat tərzi Afrikanı QİÇS təhlükəsi ilə üz-üzə qoymuşdur. 1998-ci ildə QİÇS Cənubi Afrika Respublikasında hər 10 nəfər fəhlədən birini məhv etmişdir. Təxmini hesablamalara görə, hazırda Afrikada QİÇS-ə yoluxanların sayı 23 mln.-dan 100 mln.-a çatmışdır. Onların müalicəsi üçün isə həmin xəstəliklə bağlı geniş miqyaslı proqramların həyata keçirilməsi qeyri-mümkündür.

Demoqrafik vəziyyət bir sıra Asiya ölkələrində də gərgin hal yaratmışdır. Məsələn, Hindistanda dövlət xeyli müddətdir ki, əhali artımını nəzarətə götürməyə cəhd edir. Hindli qadınlar arasında izahat işləri aparılır ki, ailəni planlaşdırma zəruridir. Lakin həmin fəaliyyətin müsbət nəticələrindən danışmaq hələ tezdir. Bir çox

hindli ailələri çoxuşaqlılıq ənənələrindən əl çəkmək istəmirlər. Çünki onlar belə hesab edirlər ki, çox uşaq daha çox işçi deməkdir.

Əksinə, əhalinin artım sürətini məhdudlaşdırma siyasəti Çində daha müvəffəqiyyətlə həyata keçirilir və səmərə də verir. Məlumdur ki, hazırda bu ölkənin əhalisinin sayı 1 milyard 200 mini keçmişdir. Hər bir ailə üçün bir uşaq doğulması qaydası müəyyənləşdirilmişdir. Əgər valideynlər ikinci uşaq istəyirlərsə, onda dövlət xəzinəsinə külli miqdarda vəsait ödəməlidirlər. Bu sistemli və ardıcıl demoqrafik siyasət nəticəsində Çində əhalinin artım sürəti daim nəzarətdə saxlanılır. Artıq yaxın illərdə Çin dünya əhalisinə görə ən böyük dövlət yerini Hindistana «güzəştə getməli» olacaqdır.

Miqrasiya. Əhalinin artımını istiqamətləndirən amillərdən biri də *miqrasiyadır.* Miqrasiyanın iki növü vardır: ölkədən gedənlər və ya əksinə, ölkəyə gələnlər. Həmçinin miqrasiya daimi və müvəqqəti ola bilər. Adətən, uzunmüddətli miqrasiya dövlətlər arasında, müvəqqəti miqrasiya isə kiçik ərazilər daxilində ola bilər. Məsələn, Ermənistanın torpaqlarımızın 20%-ni işğal etməsi nəticəsində Respublikamızda yaranan məcburi köçkünlük müvəqqəti miqrasiyaya aiddir.

Miqrasiyanın bir çox səbəbləri vardır. Bu, ilk növbədə, ölkənin sosial-iqtisadi vəziyyəti ilə bağlıdır. Adətən, iqtisadiyyatı zəif olan ölkələrdən iqtisadiyyatı güclü inkişaf etmiş ölkələrə əhali daha çox axın edir. Bu zaman həmin ölkələrdə əhali artımı baş verir. Lakin bu, təbii deyil, mexaniki artımdır.

Planet ərzaq qıtlığı ilə üzləşə bilərmi? Insanın normal yaşaması və fəaliyyət göstərməsi üçün lazım olan ərzağın miqdarı onun yaşından, cinsindən, çəkisindən, boyundan, əmək və məişət şəraitindən, habelə yaşadığı ərazinin iqlim xüsusiyyətindən çox asılıdır. Alimlər hesablamışlar ki, bir gündə tələb olunan qidanın tərkibi tibbi nöqteyi-nəzərdən 2300-2600 *kkalori* olmalıdır. Lakin BMT-nin məlumatlarına görə, dünya ölkələrinin 2/3-də insanlar ərzaq çatışmazlığı ilə üzləşirlər. Buna görə də ərzaq qıtlığı problemi qlobal problem hesab olunur. Dünya əhalisinin sayının sürətlə artması, təbii ehtiyatların tükənməsi və yenilərinin yaradılmaması,

ətraf mühitin korlanması nəticəsində bitki, heyvan və balıq ehtiyatlarının məhv olması gələcəkdə planeti ərzaq qıtlığı ilə üzləşdirə bilər.

Sağlam ətraf mühit problemləri

Sağlam ətraf mühit uğrunda mübarizə. Ümumbəşəri problemlər siyahısında mühüm yerlərdən birini də ekoloji problemlər tutur. Yer üzərində yaşayan xalqların təbiətlə qarşılıqlı əlaqəsi müxtəlif yollarla getmişdir. Onların bir qismi təbiətin qanunlarını tədqiq etməyə səy göstərməklə ona maksimum uyğunlaşmış və ekoloji sivilizasiya yaratmağa nail olmuşlar. Digərləri isə təbiətə daha çox müdaxilə edərək onun sərvətlərindən bütün gücü ilə istifadə etməklə özlərinin məişətini təmin etməyə, komfort həyat şəraiti yaratmağa nail olmuşlar. Texnoloji sivilizasiyanın belə nümayəndələri hesab edirlər ki, onlar təbiətin sahibidirlər və ondan öz istədikləri kimi istifadə edə bilərlər.

Beləliklə, insanların təbiətə qayğısız münasibəti, tələb olunan qaydaları gözləməməsi ətraf mühitin çirklənməsinə səbəb olur. Bu gün ətraf mühitin çirklənməsi daha çox narahatlıq doğurur. Bu isə planetdə kəskin iqlim dəyişikliklərinə səbəb olur.

Dünyamızın ən mühüm qayğılarından biri də təbii ehtiyatların tükənməsi təhlükəsidir. Enerji ehtiyatlarına olan tələbat isə ildən-ilə artmaqdadır. Yerin təkindən daha çox faydalı qazıntılar – daş kömür, dəmir filizi, müxtəlif minerallar, mərmər və s. çıxarılır. İnsan sanki torpağın şirəsini tamamilə çəkir, əvəzində isə ona heç nə qaytarmır. Mütəxəssislər hesablamışlar ki, bir çox ehtiyatlar yalnız 100-150 il müddətinə bəs edər. Bəs, sonra necə olacaqdır?

Hazırda faydalı qazıntı yataqlarını axtarışı və istismarı iki istiqamətdə – dərinə və eninə aparılır. Dərinə axtarış, ehtiyatları tükənən Avropa ölkələri və ABŞ üçün səciyyəvidir.

Aydındır ki, təbii ehtiyatlardan səmərəsiz istifadə etmək, ətraf mühiti pozmaq və çirkləndirmək gələcəksiz inkişafın əsas səbəbləridir. Bu zaman gələcək nəsillərin imkanları məhdudlaşır və onların hüquqları pozulmuş olur. Davamlı inkişafda isə diqqət insan

inkişafına yönəldilir. Bu yolla yeni biliklər və texnologiyalar əsasında inkişafın davamlı olması təmin edilir.

Alimlər həyəcan təbili çalırlar, atmosfer təbəqəsinin nazikləşməsi nəticəsində Yer kürəsinin bir sıra regionlarında «ozon dəliyi» adlanan hadisə baş verir. Nəticədə yaşadığımız planet kosmik şüalanma təhlükəsinə məruz qalır. Ən böyük «dəlik»lərdən biri məhz Cənubi Amerikadadır. Çili həkimləri vətəndaşları xəbərdar etmişlər ki, günəş şüalarının kəskin axını nəticəsində bir neçə dəqiqə ərzində insan dərisində güclü yanıqlar yarana bilər. BMT-nin məlumatına əsasən, ozon təbəqəsinin 1% azalması dünyada 100 min göz büllurunun bulanması xəstəliyinə və 10 min dəri xərçənginin əmələ gəlməsinə səbəb ola bilər, bütün insanlarda ümmun sistemini zəiflədər.

Müasir ekologiya. ***Ekoloji sistemlərin***[1] qorunub saxlanması bəşəriyyətin qarşısında kəskinliyi ilə durur. Təbiətdə ekoloji sistemlər nə qədər qədim sayılırsa, bir o qədər çox qiymətlidir. Bağ və ya üzüm plantasiyası quruyarsa, yenisini əkib-becərmək olar. Lakin meşə massivi quruyursa, onu təbiət yenidən yaratınayacaq, yaratsa da bu, təbii meşə olmayacaqdır.

Misal üçün, Kür çayı sahillərində olan Tuqay meşə ekoloji sisteminə nəzər salaq. Bu ekosistem min illər ərzində təbii çeşmənin təbii sınağından çıxıb yaranmış və yaşayaraq qalmışdır. Hər il Kür çayının daşması nəticəsində onun sahillərini su basmış və Tuqay meşəsini təmin etmişdir. Mingəçevir dəryaçasıını yaratmaq üçün 1953-cü ildə Kürün qarşısına bənd çəkildikdən sonra su daşqını bir daha olmadı. Tuqay meşələri susuz və qidasız qaldı, tədricən quruyub tələf oldu. İndi həmin meşədən dəryada kiçik adacıqlar kimi hissələr qalıb, onların da növ tərkibi o qədər kasıblaşıb ki, artıq duruş gətirə bilmir. Təbiidir ki, meşə olmayanda meşə heyvanları da məhv olur. Keçmişdə Kürün Tuqay meşələrində yaşamış şir, pələng, ayı, maral, cüyür, qırqovul və s. heyvanlar tələf olaraq ekosistemdən çıxmışdır. İndi həmin ekosistem bərpa oluna bilmir, olsa-olsa qalıqları saxlana bilər.

[1] *Ekosistem — canlıların növ və fərdlərinin öz aralarında və ətraf mühitlə qarşılıqlı əlaqə şəraitində yaşayıb, maddə və enerji mübadiləsi yarada bildiyi sistem.*

Mingəçevir dəryaçası yaradılana qədər Kür çayı indiki kimi deyildi. O vaxt Kürün ekosistemi çox zəngin idi və bu çay bütün zənginliyi ilə Xəzər dənizi ekosisteminin müxtəlifliyinə xidmət edirdi. Mingəçevir bəndindən sonra Kür çayının rejiminin dəyişməsi Xəzərin qızıl balığı, nərəkimiləri və başqa keçici balıqların kürütökmə şəraitini pisləşdirmişdir. Uzun illər neft çıxarılması zamanı Xəzərin sularına tonlarla neftin qarışması öz fəlakətli təsirini göstərmişdir. Artıq Neft Daşları, Bakı buxtası və Sumqayıt sahilləri «ölü» zonalara çevrilmişdir. Xəzər dənizi bir vaxtlar balığın məhsuldarlığına görə dünyada ikinci yeri tuturdu. İndi burada balıq ehtiyatları nəinki azalıb, hətta bəzi balıqların nəsli kəsilib. Bu gün Xəzər dənizinin «ekoloji böhran» həddində olan regionların siyahısına düşməsinin səbəbləri çoxdur. Nə qədər ki bu səbəblər aradan qaldırılmayıb, nə qədər ki doğma dənizimizin bioloji problemləri həll olunmayıb, dənizin çirklənməsi və «ölü» zonaların yaranması prosesi davam edəcək.

Konkret ərazinin və ya ölkənin iqlimini qoruyub saxlamaq çox da sadə iş deyildir. İqlim meşə deyil ki, qırılmasının qarşısı alınsın. İqlim ceyran deyil ki, ovlanması dayandırılsın. İqlim torpaq deyil ki, gübrə verib, münbitləşdirilsin. **İqlim – təbiətin kompleks faktorları ilə yaradılan hadisədir.** Bütün orqanizmlər, o cümlədən insan keçirdiyi təkamül prosesində konkret iqlimə uyğunlaşır. Ağ ayı səhrada, dəvə isə buzlu okean sahilində yaşaya bilməz. Dağ adamı arana endikdə, aran adamı isə dağa çıxdıqda xeyli müddət əziyyət çəkir.

İnsan iqlim yaradan amillərə uzun müddət özü də bilmədən dolayı yollarla neqativ təsir etməklə iqlimi pozur. Beləcə də o, özünə və iqtisadiyyatına ciddi zərər vermiş olur. Deməli, təbii iqlimi saxlamaq üçün iqlim yaradan səbəbləri qorumaq lazımdır.

Bu məsələlər insanları həmişə düşündürmüşdür. Ətraf mühitin çirklənməsini öyrənmək üçün müxtəlif vasitələrdən istifadə olunmuşdur. Məsələn, şaxtaçılar yer altına düşərkən özləri ilə qəfəslərdə xüsusi quşlar aparırdılar. Bu quşlar təhlükəli qazların toplanmasına qarşı çox həssasdırlar. Onların narahatlığı təhlükədən xəbər verirdi və bu təhlükə barəsində insanları məlumatlandırırdı.

Quşların hərəkətlərini əsas götürən şaxtaçılar vaxtında təhlükə barəsində müvafiq tədbir görürdülər. Yaxud başqa bir misal: ibtidai bitki olan şibyələr havanın çirklənməsinə çox həssasdırlar. Onlardan havanın çirkli olması indikatoru kimi istifadə edirlər.

İnsan vətəndaşı olduğu ölkənin hansı iqlim qurşağında yerləşməsindən və onun iqlim tipindən həmişə istifadə etməyə çalışmış və indi də istifadə edir. İqlimin külək, su, radiasiya, istilik, rütubət və s. komponentləri insanın istifadə obyektləridir.

İnsan özünün təsərrüfatını, iqtisadiyyatını, kurort və gəzinti istirahətini həmişə iqlim ilə uzlaşdırmağa çalışır. Təəssüf ki, bu sahədə insanın etdiyi səhvlər onun uğurlarından çoxdur. İnsanın iqlimə ən böyük neqativ təsiri atmosferdə karbon qazını çoxaltmasıdır. Əhalinin və ev heyvanlarının sayı durmadan çoxalır və onların tənəffüsü nəticəsində havada karbon qazının nisbəti pozulur. İnsanın səhlənkarlığı nəticəsində baş verən yanğın hadisələri də havada karbon qazını çoxaldır. Sənayedə, nəqliyyatda və iqtisadiyyatın başqa sahələrində, hətta məişətdə neft, qaz və başqa enerji daşıyıcılarının yandırılması havada karbon qazını çoxaldan əsas antropogen mənbələrdir. Atmosfer havasında karbon qazının çoxalmasından gözlənilən ən böyük ekoloji dəhşət buzlaqların əriməsi, qitələrin su altında qalması təhlükəsidir. Havada karbon qazı çoxaldıqca, atmosferin qoruyucu keyfiyyətini aşağı salır, əvvəlcə iqlimin, sonra da biosferin enerji balansını pozur.

Coğrafi təbəqənin insan həyatı üçün zəruri olan ən mühüm komponentlərindən biri də sudur. Çox təəssüf ki, su qıtlığı da getdikcə artır. Həm su istehlakının artması, həm də hidrosferin getdikcə çirklənməsi nəinki quraq, həm də su ehtiyatlarına malik olan ölkə və regionlarda "su yanğısı" problemi yaradır. Yer kürəsinin əsas içməli su ehtiyatlarının dünya əhalisinin sıx məskunlaşdığı digər yerlərdən əlçatmaz yerləşməsi, içməli suyun nəqli və saxlanmasının çoxlu vəsait tələb etməsi problemi daha da qloballaşdırır. Təkcə tələb olunan içməli suyun çatışmazlığı deyil. İllərlə süzülüb təmizlənməyən çirkli sudan istifadə nəticəsində hər

gün əksər inkişaf etməkdə olan ölkələrdə 6 min adam, əsasən də uşaqlar ölür.

Bəs hər kəs üçün kifayət qədər münaqişəsiz təmiz su problemini necə həll etməli? Bu problemin həlli üçün aşağıda göstərilən yollar vardır:

1. Sudan qənaətlə istifadə edilməsi;
2. Dəniz suyunun duzdan təmizlənməsi;
3. Çay sularının bir təbii bölgədən digərinə yönəldilməsi;
4. Su anbarlarının tikilməsi;
5. Əhali arasında geniş maarifləndirmə işinin aparılması.

Ekoloji böhrandan çıxmağın bir neçə yolu mövcuddur. Birincisi, fəaliyyətdə olan bütün sənaye müəssisələri təmizləyici qurğularla təchiz olunmalıdır. İkincisi, yeni yaradılan müəssisələr daha az tullantılı və yaxud, tullantısız olmalıdır. Üçüncüsü, "çirkli istehsal" hesab edilən kimya, neft-kimya, metallurglya, kağız-sellüloz sənaye sahələri kompakt şəkildə xüsusi olaraq ayrılmış ərazilərdə inşa olunmalıdır.

Ekoloji tərbiyənin zəruriliyi. Təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sisteminə yiyələnmə prosesi ***ekoloji tərbiyə*** adlanır. Artıq insanlar təbiət qarşısında öhdəliklərini dərk etinəyə başlamışlar. Dünyada təbiəti mühafizə edən təşkilatlar yaranmışdır ki, onlardan da ən nüfuzlusu «Qrinps» təşkilatıdır (tərcümədə *yaşıllar* deməkdir). Bir çox ölkələrdə xüsusi olaraq ətraf aləmin çirkləndirilməsinə qarşı «yaşıllar partiyası» fəaliyyət göstərir. Sonda isə bu mühüm iş üçün hökumətlər və ətraf aləmi müxtəlif tullantılarla çirkləndirən iri sənaye müəssisələrinin sahibləri məsuliyyət daşıyırlar. Eyni zamanda, bizim hər birimiz təbiətin mühafizəsinə öz töhfəmizi verə bilərik: zibil tökməmək, meşədə ocaq qalamamaq, nadir çiçəkləri dərməmək, ağacları kəsməmək, quş və qarışqa yuvalarını dağıtmamaqla.

Heç kim dünyasını dəyişərkən özü ilə təbiətdən heç nə aparmır, əksinə təbiətin torpaq adlanan hissəsini özünə əbədiyyət evi seçir. Buna görə də təbiət hamının mülkiyyətidir. Onu qorumaq, ehtiyatlarından qənaətlə istifadə etmək, bu ehtiyatları daha da artırmaq hamının borcu, vəzifəsidir.

Təbii və sosial mühitin idarə edilməsi və keyfiyyətinin qiymətləndirilməsi. Ətraf mühitin çirklənməsi və pozulması insan sağlamlığına və müvafiq olaraq davamlı insan inkişafına mənfi təsir göstərir. Bu, həm çirklənmiş mühitin bilavasitə sağlamlığa təsiri nəticəsində, həm də torpaqların pozulması, iqlim dəyişmələrinin fəsadları kimi kənd təsərrüfatının məhdudlaşdırılması nəticəsində baş verir. Belə mənfi təsirlər və qloballaşma tendensiyaları xalq seleksiyası nəticəsində yaradılmış və çox qiymətli xassələrə malik olan ənənəvi bitki çeşidlərinin və heyvan cinslərinin itirilməsi təhlükəsini də yaradır.

Bu proseslərin qarşısını almaq və ətraf mühiti müasir səviyyədə idarə etmək üçün davamlı insan inkişafına təsir göstərən ətraf mühit amillərinin təsirinin, ümumiyyətlə ətraf mühitin keyfiyyətinin qiymətləndirilməsi çox vacibdir. Ətraf mühitə təsirin qiymətləndirilməsi təşəbbüsü və müvafiq qanun ilk dəfə ABŞ-da 1960-cı illərin sonlarında qəbul edilmişdir. Bu qanuna görə, hər hansı bir orta və ya irimiqyaslı iqtisadi layihəni həyata keçirmək və bunun üçün müvafiq razılaşdırılmaların təmin edilməsi üçün «Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi» (ƏMTQ) adlı sənəd hazırlanmalıdır. Bu sənəd layihənin maliyyələşdirilməsi üçün də vacibdir və onun olmadığı, yaxud həmin layihənin ətraf mühitə təsiri qəbulolunmaz səviyyədə olduğu hallarda banklar, yaxud digər maliyyə təşkilatları bu layihənin təsdiqindən və maliyyələşdirilməsindən imtina edirlər. Həmin qanuna görə, layihəyə dair qəbul olunmasma ictimai rəy də təsir göstərir. Əgər ictimai müzakirələrin və ictimaiyyətin qənaətinə görə, ətraf mühitə mənfi təsirin nəticələrini aradan qaldırmaq imkanları yoxdur və ya azdırsa, layihə təsdiq edilmir.

Artıq ətraf mühitə təsirlərin qiymətləndirilməsinə tələblər də dəyişmişdir. Bununla əlaqədar olaraq ƏMTQ sənədi digəri ilə əvəz edilmişdir. Bu sənəd daha da təkmilləşdirilmiş Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsidir (ƏMSSTQ).

Göründüyü kimi, artıq, layihənin həyata keçirilməsi üçün onun ətraf mühitə mənfi təsirinin olmaması kifayət deyil. Eyni zamanda, təklif olunan iqtisadi layihə, məsələn, hər hansı bir

müəssisənin yaradılması, ətraf mühitə mənfi təsir göstərməməklə yanaşı, sosial mühiti də yaxşılaşdırmalıdır. Qeyd etmək lazımdır ki, müstəqillik qazanandan sonra Azərbaycanda həyata keçirilən bütün layihələr üçün belə sənədlər milli və beynəlxalq təşkilatlar tərəfindən hazırlanmışdır və indi də hazırlanır.

4. Energetika ekologiya problemləri. Azərbaycanın neft strategiyası

Nüvə energetikası və ondan istifadənin yaratdığı təhlükələr. Məhsuldar qüvvələrin və texniki tərəqqinin yüksək səviyyədə inkişafı, nüvə enerjisindən istifadə hələ dünyanın təhlükəsizliyi üçün tam təminat vermir. Ona görə də bu enerji növünün tətbiqi və ondan istifadə olunması beynəlxalq ictimaiyyət tərəfindən heç də birmənalı şəkildə qarşılanmır. İctimai rəy, demək olar ki, həmin enerji mənbəyinin əleyhinədir. Bunun bir səbəbi də, ötən əsrin böyük texnoloji faciələrinin törətdiyi fəlakətlərdir. ABŞ-da Tri-Mayl-Aylendə atom reaktorunda baş vermiş qəza, daha böyük maddi və insan tələfatı ilə nəticələnmiş Ukraynada Çernobıl Atom Elektrik Stansiyasındakı partlayış *(1986, 26 aprel)* bütün dünyada dərhal kəskin əks-səda doğurmuş və yeni atom elektrik stansiyalarının tikilməsi planlarına qarşı kütləvi hərəkatlarla nəticələnmişdir. Problemi çətinləşdirən daha bir amil isə nüvə enerjisindən istifadə nəticəsində yaranmış ətraf mühit və insanların sağlamlığı üçün təhlükəli olan minlərlə ton nüvə tullantılarıdır. Bu gün Ermənistanda öz fəaliyyətini davam etdirməkdə olan Mesamor AES də bəşəriyyət üçün ciddi təhlükə mənbəyidir. Lakin Ermənistan dövləti hər sahədə olduğu kimi, atom enerjisi sahəsində də beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymur.

Yeni enerji mənbələrinin axtarılması. Zəngin neft və qaz yataqlarına malik olan və bu enerji daşıyıcılarını ixrac edən Norveçdə ənənəvi və bərpa olunan enerjidən geniş istifadə olunmasına xüsusi diqqət yetirilir. Ətraf mühitə minimal dərəcədə mənfi təsir göstərən və təbii sərvətlərin qənaətlə istifadəsini təmin edən bu siyasət Norveçdə 20 ildən çoxdur ki, ardıcıllıqla həyata keçirilir. Həmin dövrdə bu ölkədə ənənəvi, o cümlədən bərpa

olunan enerjidən istifadə bir neçə dəfə artmışdır. Nəzərəçarpan artım eyni zamanda bir sıra ölkələrdə, o cümlədən ABŞ, İsveç, Yaponiya və digərlərində müşahidə olunmaqdadır.

Son illərdə neft və neft məhsullarına qiymətlərin kəskin artması bərpa olunan enerji mənbələrinin axtarılmasına diqqəti xeyli gücləndirmişdir. Bəzi ölkələrdə müxtəlif nəqliyyat vasitələri üçün yanacaq kimi istifadə olunan neft məhsulları tam, ya qismən spirt və bitki yağı ilə əvəz edilir. Eyni zamanda, enerjini qənaət edən müasir texnologiya və qurğuların yaradılmasına və istifadəsinə diqqət artmaqdadır. Buna misal olaraq, ən son texnoloji nailiyyət kimi hibrid (hər iki növ) yanacaqdan, yəni adi benzin və dizel ilə yanaşı, spirt və bitki yağlarından istifadə edən avtomobillərin artıq yollara çıxmasını göstərmək olar. Bu avtomobillərin mühərrikləri çox effektlidir və onlar bərpa olunmayan enerji daşıyıcılarından qənaətlə istifadə olunmasını təmin edir.

Alternativ enerji mənbələri axtarışları getdikcə daha çox aktuallaşır. Günəş və külək enerjisi belə mənbələrdəndir. Çünki Günəş enerjisi və külək heç vaxt tükənmir və bərpa olunur. Bundan başqa, müəyyən ərazilərdə qeyri-standart enerji mənbələrindən də istifadə olunur. Onlar çox faydalı olsalar da, hələlik məhdud xarakter daşıyırlar. Onlardan istifadə kimyəvi, radioaktiv və termik çirklənməni xeyli azalda bilər. Bu mənbələr təmiz və tükənməzdir. Bərpa olunan enerji mənbələrinin bir çoxu ətrafı çirkləndirmir və hətta təmizlənməyə meyillidir. Tükənməyən enerji mənbələrinə Günəş, külək, biokütlə və s. daxildir. Biokütlə — odun, peyin və şəhərlərin tullantılarıdır. Onları yandırdıqda enerji əldə olunur. Geotermal enerji maqmadan, isti bulaqlardan, təbii qeyzerlərdən əldə olunur. Dalğa və qabarma-çəkilmədən alınan enerji okean enerjisidir.

Bunu 14.1. saylı sxemində belə ifadə etmək olar:

Sxem 14.1.



Ənənəvi yanacaq növlərinin tükənməsi təhlükəsi. Bəşəriyyətin davamlı enerji təminatı problemi ilə rastlaşdığı ilk dəfə deyil. Ayrı-ayrı ölkələr müxtəlif dövrlərdə çətin və ağır enerji böhranı ilə üzləşmişlər. Əvvəllər əsas yanacaq növü odun olmuşdur. Sonralar insanlar bununla kifayətlənməmiş, daha səmərəli və davamlı enerji mənbələri axtarmaqla məşğul olmuşlar. Nəticədə daş kömürdən yanacaq kimi istifadə olunmağa başlanmışdı. Müxtəlif ölkələrdə elmin və texnikanın inkişafı, bir çox texniki ixtiralar da öz növbəsində qarşıya yeni enerji mənbələrinin axtarılması vəzifəsini qoymuşdur. Həm də bir çox ölkələrdə daş kömür ehtiyatının tükənməsi onları "enerji aclığı" ilə üzləşdirdi. Nəticədə daha davamlı enerji mənbələri olan neft və təbii qazdan istifadə olunmağa başlandı. Bu gün də belədir. İndi karbohidrogen yanacağı olmadan müasir həyatı təsəvvür etınək olmaz. 1970-ci ildə dünya enerji balansında neftin payı 60%-dək yüksəlmiş, daş kömürün payı isə 25%-dək aşağı düşmüşdür. Dünyada enerjiyə olan tələbatın 15%-ni isə təbii qazın və atom enerjisinin köməyi ilə ödəmək mümkün olmuşdur.

Ən böyük enerji böhranı 1972-ci ildə dünya bazarında neftin qiymətinin 10 dəfə qalxması nəticəsində baş vermişdir. Neftin qiymətinin belə gözlənilməz sürətlə qalxması digər enerji mənbələrinə, müxtəlif mineral xammal ehtiyatlarına, eyni zamanda sənaye və

nəqliyyatın bütün sahələrinə ciddi təsir göstərmiş, istehsalın ümumi inkişaf sürətini aşağı salmış, işsizliyin səviyyəsini yüksəltmişdir.

XX əsrin son onillikləri enerji ehtiyatlarının istismarının daha da güclənməsi ilə səciyyəvidir. Əlbəttə ki, mineral ehtiyatlar və yanacaqlar təbiətin digər ehtiyatlarından fərqli olaraq tükənməz deyil və bərpa olunmur. Faydalı qazıntı ehtiyatları tükənə bilər. Alimlər hesablayıblar ki, dünyada kömür ehtiyatları 100 il, təbii qaz 70 il, neft isə təqribən 40 il müddətinə bəs edər. Buna görə də alternativ enerji mənbələrindən – nüvə, külək, günəş, geotermal enerji növlərindən istifadə zərurəti meydana çıxır.

Problemin mahiyyəti ilk olaraq mineral yanacaq istehsalının təbii-coğrafi şəraitinin pisləşməsi ilə bağlıdır. Nəticədə geoloji kəşfiyyat işlərinə çəkilmiş xərclər artır. Neft və qaz hasilatı rayonları tədricən istehlak mərkəzlərindən uzaqlaşır.

Eyni zamanda hazırda enerji ehtiyatlarının iri istehlakçıları qismində nəinki dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələri, hətta inkişafda olan bir sıra ölkələr, o cümlədən əhalisi çox olan Hindistan və Çin kimi ölkələr də çıxış edir. Neft və qaz hasilatının əsas mərkəzləri Yaxın və Orta Şərqdə, Rusiyada yerləşir. ABŞ, Kanada, Norveç və Böyük Britaniyaya gəlincə isə neft və qaz yataqları daha çox əhalisi olan və ya heç olmayan arktik dəniz sahili ərazilərdən keçir. Araşdırmalara görə, məhz arktik və subarktik ərazilər – mineral ehtiyatların ən çox toplandığı yerlər hesab olunur.

Günəş və külək enerjisindən istifadə. Azərbaycan Respublikası günəş, külək və digər bərpa olunan enerji mənbələri ilə zəngindir və onların istifadəsi üçün intellektual potensiala malikdir. Bu enerji mənbələrindən geniş istifadəni təmin etmək davamlı insan inkişafı baxımmdan olduqca vacibdir. Son illərdə bu istiqamətdə bir sıra layihələr həyata keçirilir. Bunlara misal olaraq, beynəlxalq və milli proqramlar əsasında enerji istehsalı üçün günəş, külək və sudan istifadəni, kənd təsərrüfatı və məhsul tullantılarından bioloji qazın alınmasını göstərmək olar.

Azərbaycanda günəşli günlərin miqdarı 2200 saat/ildir. Xüsusilə Aran, Naxçıvan və Abşeron bölgələrində buludlu günlərin sayı az, günəşli günlərin sayı isə çoxdur. Abşeronda ilin 225 günü

küləklidir. Bundan əlavə, ölkəmizdə termal sularla zəngin olan bölgələr də vardır.

Azərbaycanın neft strategiyası

"Əsrin müqaviləsi". Azərbaycan xalqının milli sərvəti olan neft, müstəqilliyimizə qədər əvvəl Rusiya, sonra isə SSRİ imperiyalarının mənafeyinə xidmət etmişdir. Bu sahədə milli strategiya yalnız müstəqillik illərində işlənib hazırlanmışdır. Müəllifi ümummilli lider Heydər Əliyev olan bu strategiyanın əsası 1994-cü il sentyabrın 20-də qoyulmuşdur.

Artıq XXI əsrdir. Qloballaşma dövründə milli sərvət üzrə milli strategiya və konsepsiyanı həyata keçirmək kimi nəhəng bir işin öhdəsindən Azərbaycan dövləti uğurla gəlir. Çünki Heydər Əliyev onu milli və tarixi ənənələrə, başlıcası isə milli mənafeyə söykənərək yaratmışdır. Bu barədə vaxtilə onun özü belə demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

Tarixdə elə günlər var ki, həmin günlər bir millətin, bir dövlətin yox, dünyanın tarixi yaddaşına yazılır. Belə günlərdən biri də 1994-cü ilin 20 sentyabr günüdür. Bu gündə baş vermiş hadisə uzun müddət dünyanın aparıcı informasiya vasitələrinin başlıca müzakirə və araşdırma mövzusu oldu və olaraq da qalır. Həmin gün ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada «Əsrin müqaviləsi» adını almış neft kontraktları imzalandı. 6 ölkəni təmsil edən, bütün dünyada tanınmış 10 nəhəng xarici şirkətlə imzalanmış bu müqavilə gələcək uğurların ilk müjdəçisi, ilk addımları idi.

Bununla da Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsası qoyuldu, xarici sərmayədarların Azərbaycana axını gücləndi. Bu saziş Azərbaycana dünya dövlətlərinin marağını artırmaqla yanaşı, yeni neft-qaz kontraktlarının imzalanmasına da güclü təkan vermiş oldu.

"Əsrin müqaviləsi"nə ilkin qoşulan **"Amoko", "Yunokal", "Penzoyl", "Markdermot"** (ABŞ), **"Britiş Petroleum", "Remko"** (Böyük Britaniya), **"Statoyl"** (Norveç), **"LUKoyl"** (Rusiya), **"Türk Petrolları"** (Türkiyə), **"Delta"** (Səudiyyə Ərəbistanı) şirkətləri dünyanın neft-qaz sənayesinin ən aparıcı şirkətləri idi. Belə nəhəng şirkətlərin bu kontraktı inamla imzalaması Heydər Əliyevin iqtisadi siyasətinə böyük inam yaratdı, nəticədə müqaviləyə daha sonra Yaponiyanın **"İtaçi", ABŞ-ın "Ekson"** və **"Amerida Hess"** şirkətləri də qoşuldu.

Müqavilə Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan dərhal sonra neft-qaz əməliyyatlarını həyata keçirmək məqsədilə **Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)** yaradıldı. "Əsrin müqaviləsi"nə uyğun olaraq, çıxarılan neftin Avropa bazarlarına çatdırılması üçün Bakı-Supsa neft kəməri çəkildi. Azərbaycanın müstəqillik tarixində, iqtisadi və siyasi həyatında mühüm əhəmiyyət daşıyan kontraktların imzalandığı 20 sentyabr günü tariximizə qırmızı rənglə yazıldı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanına əsasən həmin gün **"Neftçilər günü"** elan edildi. Bu gün təkcə neftçilərə deyil, bütün Azərbaycan xalqına uğurlu gələcək, güclü iqtisadiyyat və milli strategiya bəxş etmiş ulu öndərə minnətdarlıq duyğuları ifadə olunur.

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri. Heydər Əliyev Azərbaycan neftinin və qazının dünya bazarına nəql edilməsi layihəsinin də müəllifidir. Bu layihə **Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri** adını aldı.

1998-ci ildə Ankarada Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin inşa edilməsi haqqında ilk sazişi imzalamaqla Heydər Əliyev strategiyasının düzgünlüyünü və gələcək siyasətin konturlarını təsdiqləmiş oldular.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Sammitində ABŞ prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən imzalanmış İstanbul bəyannaməsi, bu layihənin dəstəklənməsinə və qısa müddətdə

həyata keçirilməsinə yönəlmiş bir sənəd oldu. Nəhayət, həmin gün gəlib çatdı. 2002-ci il sentyabrın 18-də Səngəçal sahil terminalında Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təməli qoyuldu.

Əfsanədən həqiqətə çevrilən bu böyük layihə artıq başa çatmışdır. 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, sentyabrın 13-də isə Gürcüstan hissələrinə neftin doldurulması mərasimi keçirilmişdir. 2006-cı il iyulun 13-də kəmərin Türkiyə hissəsinin istifadəyə verilməsi ilə bağlı keçirilən mərasim neft strategiyasının təntənəsinin zirvəsinə çevrildi. Azərbaycanın «qara qızılı»nın dünya bazarına ən qısa və strateji yolla çıxarılması təmin olundu. Hər üç təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir.

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir. Ümumi uzunluğu 1762 *km* olan kəmərin 443 *km-i* Azərbaycan, 249 *km-i* Gürcüstan, 1070 *km-i* isə Türkiyə ərazisindən keçir.

5. Terrorizm və QİÇS-lə mübarizə problemi

Terrorizm bütün bəşəriyyət üçün təhlükədir. **"Terror"** latın sözü olub, ***təzyiqetmə siyasəti, siyasi rəqiblərin güc işlətməklə məhv edilməsi deməkdir.*** Bu anlayışın nə vaxt yarandığı məlum deyil. Lakin məlum olan budur ki, bu siyasətin əsas metodu olan sui-qəsddən hakimiyyət uğrunda mübarizədə bir vasitə kimi çoxdan istifadə olunur. Tarixdə öz siyasi rəqiblərini aradan qaldırmaq üçün bir çoxlarının sui-qəsddən istifadə etdiyinə dair çoxlu faktlar var. Məsələn, Yuli Sezar, Nadir şah, Ağa Məhəmməd şah Qacar, Kennedi, Martin Lüter Kinq belə siyasətin qurbanlarıdırlar. Xalqların və millətlərin meydana gəlməsi ilə siyasi hakimiyyət də yaranmış, beləliklə, siyasətin forması kimi terror da bir taktika kimi meydana çıxmışdır. Şübhəsiz ki, tarixin gedişi zamanı bu anlayış da bir çox başqa anlayışlar kimi öz mənasını dəyişərək, bir qədər geniş anlamda işlədilməyə başlamışdır.

Terror hər şeydən əvvəl şəxsiyyət əleyhinə yönəlmiş bir cinayətdir. Dünyanın əksər ölkəsi bu siyasəti insanlığa zidd,

ümumbəşəri cinayət adlandırır və onu lənətləyir. Terror antidemokratik, antihumanist bir vasitədir.

Terror həm də qarşıdurmanın təzahür formasıdır. Bu zaman tərəflərin qüvvələr nisbəti müxtəlif səviyyədə ola bilər. Ancaq bir şey aydındır ki, terror tətbiq edən tərəf qarşı tərəfə nisbətən özünün zəif olduğunu anlayır və qarşıdurmanın digər üsullarını (müharibə, demokratik mübarizə) tətbiq edə bilmir.

Terror həm də siyasətdir. Bu siyasət qarşı tərəfi zəiflətmək, tabe etdirmək, ictimai rəy formalaşdırmaq və digər məqsədlər üçün tətbiq edilir. Terrordan faşistlər və kommunistlər, kürdlər, ermənilər, ruslar, ərəblər, əfqanlar, ispanlar, irlandiyalılar, italyanlar və b. bütün dövrlərdə istifadə etmişlər.

Terror müasir dünyamızın reallığıdır, çünki onu dünyanın başqa reallıqlarından ayrı təhlil etmək mümkün deyil. Beynəlxalq miqyasda silah alveri, narkomafiyanın fəaliyyəti, avtoritar və totalitar rejimlərin yeritdiyi siyasət, separatçılıq, irqi ayrı-seçkilik, böyük dövlətlərin hegemonluq siyasəti terrorun bəhrələndiyi mənbələrdir.

Terror mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilən aktdır. Bu səbəbdən ondan öz məqsədləri üçün istifadə edənlər müəyyən bir təşkilat strukturunda birləşir, yaxud əlaqəyə girirlər. Bu təşkilatları belə təsnif etmək olar:

1) terroru yeganə bir metod kimi qəbul edib sırf bu işlə məşğul olan təşkilatlar;

2) siyasi təşkilat kimi tanınan, lakin terrordan başqa siyasi mübarizə metodları ilə yanaşı istifadə edən qurumlar;

3) müxtəlif vaxtlarda terror təşkilatlarını dəstəkləyən, onlardan öz məqsədləri üçün istifadə edən və ictimaiyyətdən gizli terror aktları həyata keçirən qurumlar.

Hazırda dünyada bir çox terrorçu təşkilatlar fəaliyyət göstərir. Onlara İrlandiya Respublika Ordusunu, Kürd Fəhlə Partiyasını (PKK), "Moro Azadlıq hərəkatı"nı, ETA təşkilatını, "Qırmızı briqadalar"ı, "CCC" təşkilatını, Daşnaksutyun partiyasını, ASALA-nı, Əl-Qaidəni və başqalarını misal göstərmək olar.

Müasir terrorizmin məqsədlərinə aşağıdakılar daxildir:

- müəyyən bir dövlətdən ərazi qoparmaq, yaxud bu ərazini başqa bir dövlətə birləşdirmək;
- mövcud ictimai-siyasi quruluşu dəyişdirmək;
- ölkənin daxili və xarici siyasətində konkret dəyişiklik etmək;
- müəyyən bir hadisəyə, haqsızlığa dünya dövlətlərinin diqqətini cəlb etmək, ictimai rəy yaratmaq;
- hakimiyyəti əldə saxlamaq;
- siyasi rejimi möhkəmlətmək;
- ölkə daxilində sabitliyi pozmaq.

Terrorun üsulları. Sadalanan məqsədlərə nail olmaq üçün terror terrorçu partizan dəstələri, döyüşçü qrupları, terrorçu şəxslər (kamikadzelər), dövlət cəza orqanları, xüsusi təyinatlı dəstələr, xüsusi xidmət idarələri tərəfindən həyata keçirilir. Bu qüvvələr planlaşdırıcı, təşkilatçı, icraçı, təchizatçı, köməkçi və başqa hissələrin mütəşəkkil birliyindən ibarət olub, öz fəaliyyətlərində bir çox üsullardan istifadə etməklə terror aktları həyata keçirirlər.

Sui-qəsddən terrorun ən geniş yayılmış və ən qədim üsulu kimi hələ də istifadə olunur. Bu üsulla az qüvvə sərf etməklə siyasi, hərbi, dini liderləri fiziki cəhətdən məhv etməklə qarşı tərəfə təsirli zərbələr endirilir.

Partlayış üsulundan qarışıqlıq salmaq, qorxu yaratınaq, qisas almaq, qərar qəbul etdirmək üçün istifadə olunur. Partlayış obyektləri kimi təyyarə, gəmi, qatar, avtobus, metro, kino-teatr, məktəb və s. obyektlər seçilir. Bu üsul daha çox heç bir günahı olmayan insanların kütləvi məhvinə səbəb olur.

Hazırda İraq belə vəziyyətdədir. Hər gün baş verən partlayışlar yüzlərlə insanın həyatma son qoymaqla yanaşı, qorxu, vahimə, sabaha olan inamın itirilməsi hissi yaradır.

Digər bir üsul ***partizan hərəkatıdır.*** Dağlar, meşələr və çöllərlə hərəkət edən partizan dəstələri öz fəaliyyətlərini pusquda qurub basqınlar etməklə həyata keçirirlər. Hücum obyekti kimi hərbi hissələr, sərhəd məntəqələri, nəqliyyat vasitələri, kəndlər və qəsəbələr seçilir.

Girov götürmə üsulundan əsasən ictimai rəyi müəyyən hadisəyə yönəltmək məqsədi ilə istifadə olunur. Girov götürmə

daha çox təyyarə, gəmi və avtobusların ələ keçirilməsi ilə müşahidə olunur. Son zamanlar bu siyahıya təyyarə limanları, məktəb və xəstəxanalar da əlavə olunmuşdur.

Bu üsullardan başqa, dövlət terrorizmi də vardır. Dövlət terrorizmi də öz növbəsində aşağıdakı üsullarla həyata keçirilir:

- kütləvi həbslər və repressiyalar;
- sürgün və deportasiyalar;
- iğtişaşlar törətmək və onların qarşısını almaq adı altında kütləvi qırğınlar törətmək.

Terrorizmə beynəlxalq miqyasda ümumi qiymət vermək məqsədi ilə səylər göstərilsə də, bu heç də həmişə uğurlu alınmamışdır. Çünki bir tərəfin terrorçu elan etdiyini digər tərəf qəbul etmir və bunu azadlıq uğrunda mübarizə kimi qələmə verir. Böyük dövlətlərin, nüfuzlu beynəlxalq təşkilatların bəzilərinin terrorçu təşkilatlara ikili standartlardan yanaşması da beynəlxalq aləmdə terrorizmə qarşı səmərəli mübarizə aparılmasına mane olur.

Erməni terrorçularının vəhşilikləri. Yalnız 2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York şəhərində törədilən dəhşətli terror aktları dünyanı silkələdi. ABŞ başda olmaqla digər böyük dövlətlər terrorun necə də böyük və dəhşətli bir problem olduğunu dərk etdilər, onunla mübarizəyə başladılar. Təəssüf ki, bu mübarizə də birtərəfli qaydada aparılır. Bu gün dünyanı hədələyən erməni terrorizminin varlığından sanki onların xəbəri yoxdur. Ermənilərin isə çoxlu sayda terrorçu təşkilatları var və onlar türk dünyasına, xüsusilə Türkiyəyə və Azərbaycana qarşı dəhşətli cinayətlər törətmişlər və törətməkdə israrlıdırlar. Təkcə 1989-1994-cü illərdə erməni terrorçu təşkilatları tərəfindən Azərbaycana qarşı 12 terror aktı törədilmişdir. Onlardan bir neçəsini nəzərdən keçirək:

- 1989-cu il 16 sentyabr – "Tbilisi-Bakı" sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır;
- 1990-cı il 10 avqust – "Tbilisi-Ağdam" sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır;
- 1992-ci il 8 yanvar – Türkmənistanın Krasnovodsk (indiki Türkmənbaşı) – Bakı marşrutu ilə sərnişin daşıyan dəniz bərəsində

törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır;

- 1994-cü il 19 mart – Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır;

- 1994-cü il 3 iyul – Bakı metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarında partlayış törədilmiş, 14 nəfər həlak olmuş, 54 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Erməni terrorçu təşkilatları. Bu gün bəşəriyyət onu hədələyən daha təhlükəli terrordan – erməni terrorizmdən xəbərsiz deyil. Çünki müasir erməni terror qrupları ilə onların XIX əsrdəki, XX əsrin əvvəlindəki məsləkdaşlarının məqsədləri, hədəfləri, istifadə etdikləri taktika və təbliğat metodları, demək olar ki, eynidir. Bu yolla özlərinin çirkin məqsədlərinə nail olmaq – "Böyük Ermənistan" dövləti yaratmaq üçün onlar çoxsaylı terror təşkilatlarına malikdirlər. Bu təşkilatlar aşağıdakılardır:

- ***"Armenakan" partiyası.*** 1885-ci ildə yaradılmış bu terrorçu təşkilat Osmanlı imperiyasının Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbul şəhərində terror aktları həyata keçirmişdir.

- ***"Hınçaq" partiyası.*** 1887-ci ildə yaradılmış təşkilatın əsas məqsədi Osmanlı imperiyasının Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanı adlandırdıqları əraziləri işğal etməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır.

- ***Erməni federativ inqilab partiyası***. *"Daşnaksutyun"* 1890-cı ildə Tiflisdə yaradılmışdır. Əsas məqsədi Azərbaycanın qərb torpaqları və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. Terroru bu məqsədə çatmaqda əsas üsul hesab edən Daşnaksutyun tərəfindən yaradılmış məxfi terror qrupu DRO və onun bölmələri (DRO-8, DRO-88, DRO-888, DRO-8888).

"Erməni soyqırımının ədalətli qisasçıları" indi də geniş fəaliyyət göstərməkdədir. Bu təşkilat 1980-1982-ci illərdə Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirmişdir.

1975-ci ildə yaradılmış "Erməni gizli azadlıq ordusu" fəaliyyətinin ilk 6 ili ərzində dünyanın müxtəlif ölkələrində 19 nəfər türk diplomatının ölümünə səbəb olan terror aktları törətmişdir.

Hazırda dünyanın ən təhlükəli torrorçu təşkilatlarından hesab olunan "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA) 1975-ci ildən fəaliyyətdədir. Türkiyənin Avstriyadakı səfirini öldürməklə fəaliyyətə başlayan ASALA-nın cinayətlər siyahısı çox "zəngindir". Bu təşkilat Avropada bir sıra Yaxın Şərq terror təşkilatları ilə birgə əməliyyatlar keçirmişdir. Bu fakt onu göstərir ki, erməni terroru beynəlxalq terrorizmin ayrılmaz tərkib hissəsidir. ASALA-nın "Hizbullah", PKK və "Həmas" terror təşkilatları ilə sıx işbirliyi vardır. ASALA-ya dövlət səviyyəsində Yunanıstan himayə göstərir.

QİÇS problemləri. Reproduktiv sağlamlıq məsələləri

QİÇS insan həyatına və ləyaqətinə ciddi təhlükədir. Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) – ciddi bir xəstəlikdir. Insanın İmmun Çatışmazlığı virusu (İİV) orqanizmin müdafiə sistemini dağıdaraq onu zəiflədir və müxtəlif infeksiyalara məruz qoyur. Nəticədə insan ölüm qorxusu olmayan hər hansı adi xəstəlikdən sağalmayıb dünyasını dəyişir. Lakin ilk vaxtlar insan özünün necə amansız bəlaya düçar olduğundan xəbərsiz qala bilər, yəni İİV-ə yoluxmuş insan 3-5 il və daha çox müddət özünü yaxşı hiss edib tamamilə sağlam görünə bilər. Sonralar, zaman keçdikcə virus immun sistemi hüceyrələrini məhv edir və orqanizmi müqavimətsiz hala salır.

İİV müxtəlif yollarla — cinsi əlaqə və yoluxmuş şpris vasitəsi ilə xəstə adamdan sağlam adama, habelə hamiləlik vaxtı xəstə anadan dölə, eləcə də ana südü vasitəsi ilə körpəyə ötürülür. İİV-ə yoluxmuş qanın köçürülməsi, orqan və toxumaların, hüceyrəarası mayelərin transplantasiyası zamanı, qanla bağlı müxtəlif tibbi və məişət manipulyasiyalarının dezinfeksiya olunmamış tibbi və iti kəski alətlərlə aparılması zamanı da virus ötürülə bilər.

İİV—QİÇS epidemiyası hər il milyonlarla insanın həyatına son qoyaraq, bir çox ölkələrin iqtisadi və demoqrafik əsaslarına dağıdıcı təsir göstərir. Fövqəladə vəziyyət ondan ibarətdir ki, epidemiyanın mərkəzində məhz, 15-24 yaşında gənclər, o cümlədən qadınlar durur.

QİÇS keçən əsrin 80-ci illərində aşkar edilmişdir. Hesablamalara görə həmin vaxtdan indiyə qədər QİÇS-dən 25 mln. insan ölmüşdür ki, 3,16 mln.-u 2005-ci ilin payına düşür. Daha 65 mln. əhali bu virusun daşıyıcısıdır. Hazırda QİÇS Şərqi Avropa, Mərkəzi və Cənubi Asiyada daha sürətlə yayılır. Bu misallar QİÇS-in qlobal problemə çevrildiyini sübut edir.

Bir çox yoluxucu xəstəliklərin qarşısını almaq və yaxud onları müalicə etmək mümkündür. QİÇS-in isə hələlik müalicəsi yoxdur. Ancaq ona yoluxmanın qarşısını almaq olar. Bu xəstəliyə yoluxmamaq üçün çox ehtiyatlı olmaq lazımdır. Riskli davranışlardan çəkinməli, insanlarla ünsiyyətdə ehtiyatı əldən verməməli, narkotiklərdən uzaq olmalı – bunlara əməl etdikdə QİÇS-ə yoluxma hallarından qaçmaq olar. Üz qırxdırarkən, inyeksiya, manikür və pedikür etdirərkən ülgücün, şprisin, digər alətlərin gigeyenik cəhətdən təmiz və etibarlı olmasına diqqət yetirmək lazımdır. İnyeksiya zamanı birdəfəlik şprislərdən istifadə etmək zəruridir.

QİÇS-ə insanlar iki səbəbdən yoluxurlar: 1) bu xəstəlik haqqında lazımi biliklərə və məlumatlara malik olmamaqdan; 2) iradəsizlik, zəiflik və acizlik göstərməkdən. Çoxları isə sadəcə risk edir, öz vərdiş və davranışlarını dəyişmək istəmir, bununla da həm özlərini, həm də yaxın adamlarını təhlükə qarşısında qoyurlar.

Qanında İİV gəzdirən analar hamilə olmazdan əvvəl həkim müayinəsindən keçməli və məsləhətlər almalıdırlar. Məcburi qankö-çürmədən əvvəl istifadə ediləcək qan İİV test ilə yoxlanılmalıdır. Həkimlər xəstə dişləri müalicə edərkən, cərrahlar cərrahiyyə əməliyyatları apararkən istifadə edəcəkləri alətlərin təhlükəsizliyini təmin etməlidirlər. Həmçinin, hər kəs şəxsi gigiyena ləvazimatlarını (ülgüc, diş fırçası və s.) heç kəslə ortaq işlətməməlidir. Bir sözlə,

hər bir şəxs öz həyatını QİÇS təhlükəsindən qorumaq üçün gözlənilənləri nəzərə almalı, son dərəcə ehtiyatlı olmalıdır.

Quş qripi və ondan qorunma vasitələri. Son zamanlar həyat üçün təhlükə törədən yoluxucu xəstəliklər qrupuna quş qripi də daxil edilmişdir. Tibbi-tarixi araşdırmalara görə, bu xəstəliyə 100 il əvvəl İtaliyada təsadüf olunmuşdur. Quşlarda bu qripin 15 növü mövcuddur. Ən təhlükəli olan H5 və H7 növləridir. Bu virusa ev quşları (qaz, ördək, toyuq, hindtoyuğu), köçəri və ov quşları yoluxurlar. Quş qripi virusu aşağı temperatura davamlıdır və asanlıqla yayılır.

Bu xəstəlik 1997-ci ildən tam kəskinliyi ilə meydana çıxdı və 104 mln. quşu məhv etdi. 2003-cü ildə isə Asiya ölkələrində peyda oldu və insanları yoluxdurdu.

Ümumiyyətlə, H5 və H7 virusu quşlar arasında tənəffüs yolu və peyinlə yayılır. 1 qram toyuq peyinində 1 mln. quşu yoluxdura biləcək qədər virus mövcuddur. Peyinlə atmosferə atılan virus insanları yoluxdurur. Xəstə quşların nəcisinin qarışdığı su içildikdə və ya təmas edildikdə virusa yoluxma baş verir. Xəstəliyin əlamətləri yüksək hərarət, əsəbilik, boğaz ağrısı, öskürək, ağciyərdə ağrının olmasıdır. Hüceyrələr lazımi qədər oksigenlə təchiz olunmadığına görə bədənin göyərməsinə səbəb olur. Xəstə 48 saatdan gec olmayaraq, müayinəyə cəlb olunmalıdır.

Hazırda quş qripinin peyvəndi yoxdur və immuniteti zəif insanların xəstəlikdən ölmə ehtimalı daha yüksəkdir. Ölənlərin əksəriyyəti uşaqlar, 50 yaşdan yuxarı, normal qidalanmayan və siqaret çəkən insanlardır.

Quş qripinə yoluxmamaq üçün lazım olan tədbirlər aşağıdakılardır:

1) quş qripi virusu (H5N1) 70°C-də məhv olur. Yaxşı bişirilməmiş və qanlı quş ətində virusun olma ehtimalı daha çoxdur;

2) qrip təhlükəsi daşıyan quşların lələkləri və peyini ilə təmasda olmaqdan qaçmaq lazımdır;

3) qrip virusu heyvanların olduğu yerlərdə, hər şeydə ola bilər. Əlləri tez-tez yumaq sizi təhlükədən qoruyar;

4) orqanizmin immun sistemini qaldırmaq üçün düzgün qidalanmalı, normal yuxu rejiminə əməl etməli, vitamin kompleksi, xüsusən C vitamini qəbul edilməlidir;

5) virus toyuq yumurtasında da olur. Yumurtanı yüksək temperaturda yaxşıca qaynatmaq lazımdır. Yumurtanı soyuducuya qoymazdan əvvəl su və sabunla yuyun;

6) bişirilməmiş toyuq əti üçün istifadə etdiyiniz qabları açıq yerlərə qoymayın. Əti doğrayarkən əlinizə əlcək geyinin;

7) xəstə quşlar məhv edilməli, vaxtında dezinfeksiya tədbirləri görülməlidir.

Göstərilən qaydalara düzgün əməl olunsa, quş qripi təhlükəsini də asanlıqla aradan qaldırmaq olar.

Quş qripi 50-dən artıq ölkədə quşlar arasında yayılmışdır. 2006-cı ilin iyul ayına olan məlumata əsasən Ümumdünya Səhiyyə Təşkilatı 9 ölkədə quş qripinin insana keçməsinin 130 ölümlə nəticələnən 228 halını təsdiq etmişdir. Əgər quş qripinin virusunda insandan insana yoluxmaya imkan verən genetik dəyişiklər əmələ gəlsə, hava yolları, turizm və iqtisadiyyatın digər sektorlarına son dərəcə mənfi təsiri ilə bərabər, 25 mln. insan ölə bilər.

Mədəni insanın düsturu

1. Bilik

- Mühüm mənbələri - təhsil və elm

2. Bacarıq - həyat fəaliyyəti vərdişləri və texnologiyaları

- Mühüm mənbəyi - təcrübə

3. **Mütəşəkkillik**
- qayda və intizama bağlılıq
- sosial məsuliyyət
- iradə

4. **Pozitiv mənəviyyat**
- humanizm
- məhəbbət
- vicdanlıq
- həqiqətə bağlılıq
- ədalət
- xeyirxahlıq
- inam
- vətənpərvərlik
- mühüm mənəvi - tərbiyə

Mədəni inkişafın beş amili
1. Təbii-coğrafi şərait
2. Bioloji kod
3. Sosial mühit*
4. Tarixi şərait
5. Mədəni mübadilə

Sosial mühit ibarətdir:

- Ailədən
- Kollektivdən
- Cəmiyyətdən

Sosial mühit özüdə dövlətin siyasi sistemindən asılıdır.

- **Siyasi mədəniyyətin komponentləri:**

- Siyasi hisslər
- Məqsədlər
- Biliklər
- Qiymətlər
- Orientasiyalar
- Əqidələr
- Normalar
- Mövqelər

- **Siyasi mədəniyyətin ən mühüm komponenti:**

- Siyasi məqsədlər

- **İdarəetmə fəaliyyəti mədəniyyətini təşkil edən əsas amillər:**

- Rəhbərin bilik və vərdişlərinin vəhdəti
- Rəhbərin sözü və işinin vəhdəti
- Rəhbərin peşə və şəxsi keyfiyyətlərinin vəhdəti

- Əmək mədəniyyətinin əsas funksiyaları
- İqtisadi funksiya

Əməkçinin peşə mədəniyyətində öz təcəssümünü tapmış əmək mədəniyyəti son nəticədə əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olur. Təbii ki, əmək məhsuldarlığının yüksəlməsinə nəinki əmək mədəniyyəti, eyni zamanda bütövlükdə istehsalat mədəniyyəti təsir göstərir.

- ***Sosial funksiya***

Müxtəlif peşə fənnlərinin əmək mədəniyyətinin yüksəldilməsi onların əməklərinin xarakteri və məzmununa görə mühəndis-texniki işçilərinin əməyinə yaxınlaşmasına səbəb olur. Məsələn, bu çox zaman nəinki orta ixtisas, eləcə də ali təhsil tələb edən və yüksək intellektuallaşdırılmış əmək sahəsi kimi qiymətləndirilən texnoloji xəttlərin operatorlarının, texnoloji sistemləri nizamlayanların, bir sıra digər peşə fənnlərinin əməklərinə xasdır. Fənnlərin əmək mədəniyyətinin yüksəldilməsi prosesi əqli və fiziki əmək fəhlələri arasında fərlərin aradan qaldırılmasına yönəldilmişdir.

- ***Sosial-psixoloji funksiya***

Bu insan fəaliyyətinin motivasiya sahəsi ilə əlaqədardır. Motivasiya hərəkətedici qüvvə kimi çıxış edərək, obyektiv (tələbatlar) və subyektiv (bilik, emosiya, hisslər, iradə, bacarıq və vərdişlər) amillər əsasında müəyyən məqsədlərə nail olmaqda insanın fəaliyyətini aktivləşdirir. Əmək motivasiyasının strukturları şərhi - sosialogiya və əmək psixologiyasının mühüm vəzifələridir, onların hasil etdiyi nəticələr əmək mədəniyyətinin idarə olunmasında mühüm əhəmiyyət kəsb edir. Əməkçi konkret iş yerində özünün peşə biliyini, bacarıq və vərdişlərini realizə etməklə yerinə yetirilmiş, işdən müəyyən mənəvi və emosional həzz almış olur. Əmək fəaliyyətindən emosional və mənəvi həzz almaq işçilərdə öz əmək vəzifələri, əmək mədəniyyətinin yüksəldilməsinə cəhd oyadır.

- ***Tərbiyəvi funksiya***

Bilik, bacarıq və vərdiş fərdin mənəvi aləmində əks olunmaqla əməkçinin şəxsiyyətinin özünütəşkilində və özününizamlanmasında ifadəsini tapır.

"İnsan və cəmiyyət" fənni üzrə proqram materialının təxmini bolgüsü:

№	Mövzunun adı	saatların miqdarı			
		əyani şöbə		qiyabi şöbə	
		mühazirə	seminar	mühazirə	seminar
1	İnsan və cəmiyyət fənninin predmeti, məqsədi və vəzifələri	2 s	2 s	2 s	
2	İnsan təbiətin övladı cəmiyyətin üzvüdür	2 s	2 s	2 s	
3	İnsan insanlar arasında	4 s	2 s	2 s	2 s
4	Əxlaq	2 s	2 s	2 s	
5	Siyasət, onun icraçıları və yaradıcıları	4 s	2 s	2 s	
6	İnsan və vətəndaş	2 s	2 s		
7	İnsan və iqtisadi həyat	2 s			
8	İnsan inkişafi	4 s	2 s	2 s	2 s
9	İnsan və vətəndaşın hüquq və azadlıqları	2 s	2 s	2 s	
10	Hüquq və dövlət	2 s	2 s		
11	Qanun və dövlət	2 s	2 s		
12	Demokratiya və cəmiyyət	2 s	2 s		
13	Demokratik cəmiyyətdə seçkilər	2 s	2 s		
14	Cəmiyyətin mənəvi həyatı	4 s	2 s	2 s	2 s
15	Bəşəriyyətin qlobal problemləri	4 s	2 s	2 s	2 s

TERMINLƏR LÜĞƏTI

ABSOLYÜTİZM

(lat. absolutus - şərtsiz) - siyasi hakimiyyətin bir adamın – monarxın əlində cəmləşdiyi dövlət hakimiyyət forması. Dövlət hakimiyyəti yüksək dərəcədə mərkəzləşir. (Absolyutizm dövründə feodal dövləti ən yüksək mərkəzləşmə dərəcəsinə çatır, şaxələnmiş bürokratik aparat, daimi ordu və polis yaranır, silki orqanların fəaliyyəti dayandırılır. Qərbi Avropa ölkələrində absolyutizmin çiçəklənməsi XVII-XVIII əsrlərə təsadüf edir.)

AVTONOMİYA (muxtariyyət)

(yun. dilində autonomia - özünüidarə, müstəqillik) - siyasi-milli vahid dövlət çərçivəsində özünüidarə.

AYRI-SEÇKİLİK (diskriminasiya)

(lat. dilində discrimination - ayırmaq, fərqləndirmək) - irqi və milli mənsubiyyətlərinə, cinsinə və s. əlamətlərə görə müəyyən qrup vətəndaşların hüquqlarının məhdudlaşdırılması və ya ləğv edilməsi.

AGİTASİYA (təbliğat)

(lat. dilində agitatio - hərəkətə gətirmə) - ayrı-ayrı qrupları və geniş xalq kütlələrini siyasi fəallığa şövq etmək məqsədilə aparılan təbliğat fəaliyyəti.

ALYANS (ittifaq)

(fr. dilində alliance - ittifaq) - ümumi məqsədlərə nail olmaq naminə yaranan birlik.

ANARXİZM

(yun. dilində anarchia - hakimiyyətsizlik) - əsas ideyası hər cür dövlət hakimiyyətini inkar etmək, şəxsiyyətin qeyri-məhdud azadlığını təbliğ etməkdir. XIX əsrin 40-cı illərində meydana gəlib. Məqsədi dövləti ləğv etmək, onu vətəndaşların könüllü assosiasiyası ilə əvəz etməkdir. Başlıca ideoloqları M.Ştirner, P. Prudon, M. Bakunin, P. Kropotkin və s.-dir.

APARTEİD

(afrikaans ararteid - ayrı yaşama) - cənubi Afrika Respublikasında qeyri-avropalı (rəngli) əhaliyə qarşı həyata keçirilən qəddar irqi ayrı-seçkilik siyasəti.

ARBİTRAJ

(fr. arbitrage) - münsiflər məhkəməsi. İdarələr, müəssisələr arasındakı mübahisəni həll edən orqan.

ARİSTOKRATİYA

(yun. dilində aristos - ən yaxşı, kratos - hakimiyyət) - feodal cəmiyyətdə nəslən keçən hakimiyyət. Zadəganların dövlət hakimiyyəti forması.

AÇIQ İQTİSADİ SİSTEM

ixrac, idxal və maliyyə əməliyyatları mexanizmləri ilə xarici ölkələrlə bağlı olan iqtisadi sistem.

AŞKARLIQ

söz azadlığına yaxın olan anlayış. (Ümumdünya insan haqqında Bəyannaməsi. Maddə 19. Hzx bkx ksöas zqkez ayaepldlsa vz bş zqkezsk ayae cznkpez kyhax jçrzn hgqşqşsa rapknekx; uy zqkezök göçgsez rasjzöky eşxraq ayaepldl, rz'pşraç vz kejmapaxl euvpzç özxhzepzxksezs aölpl tpramaxaq, aıçaxraq, zpez jçrzn vz mamraq ayaepldl bş hgqşqa eaıkpekx).

BAZAR İQTİSADİYYATI

hər bir iqtisadi müvəkkilin müstəqil olaraq təsərrüfatda qərar qəbul edə bildiyi xalq təsərrüfat təşkili sistemi. Azad sahibkarlığa, rəqabətə və xüsusi mülkiyyətə əsaslanır.

BEYNƏLXALQ VALYUTA FONDU

(İnternational Monetary Fund) - BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. Beynəlxalq valyuta - maliyyə münasibətlərini tənzimləyən baş orqan. Məqsədi beynəlxalq ticarətin və valyuta əməkdaşlığının inkişafına kömək etməkdir.

BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI (BƏT)

BMT-nin ixtisaslaşdırılmış idarəsi. Fəaliyyəti əməyin sosial-iqtisadi problemlərinin həllinə, zəhmətkeşlərin həyat və iş şəraitinin yaxşılaşdırılmasına yönəldilib.

BİBLİYA

(yun. biblia - kitablar) - iudaizmə və xristianlığa aid "müqəddəs" kitablar külliyyatı. E.ə.XII - eramızın II əsrində yaranmışdır. İki kitabdan ibarətdir. Birinci kitab – "Əhdi-ətiq" (Tövrat) qədim vəsiyyətlər, ikinci kitab – "Əhdi-cədid" (İncil) yeni vəsiyyətlər adlanır. "Əhdi-ətiq"ə

yəhudilər və xristianlar, "Əhdi-cədid"ə isə yalnız xristianlar etiqad edirlər. Bibliyaya dini qanunlar, hüquqi kodekslər, tarixi-xronoloji qeydlər, əfsanələr, ibrətli hekayələr, xalq mahnıları, erotik lirika, qəhrəmanlıq eposlarından parçalar, rəvayətlər daxil edilmişdir.

BİLL

(ing. bill, lat. dilində bulla - möhürlənmiş sənəd) - ABŞ, Boyük Britaniya və anqlosaks hüquq sistemini qəbul etmiş digər ölkələrdə parlament üzvünün təklif etdiyi qanun layihəsi. Parlament qəbul etdikdən və dövlət başçısı bəyəndikdən sonra qüvvəyə minir.

BLOK (siyasi)

(ing. block) - ümumi məqsədə nail olmaq uğrunda birgə hərəkət etmək üçün dövlətlər, siyasi partiyalar, ictimai təşkilatlar arasında, o cümlədən parlamentlərdə yaradılan birləşmə.

VERGİ

Dövlət qanunvericiliyi əsasında hüquqi və fiziki şəxslərdən icbari toplanan pul. Müstəqim və qeyri-müstəqim, ümumi və spesifik vergilər, federal və respublika vergiləri, yerli vergilər mövcuddur.

VƏTƏNDAŞ HÜQUQLARI

Vətəndaşın ölkənin siyasi, sosial və mədəni həyatında iştirak etmək imkanını müəyyənləşdirən hüquqi statusu.

VƏTƏNDAŞ CƏMİYYƏTİ

elə bir cəmiyyətdir ki, burada mahiyyətcə müxtəlif olan vətəndaş birlikləri (partiyalar, həmkarlar ittifaqları, kooperativlər, qruplar) vətəndaşlarla dövlət arasında vasitəçilik edir və dövlətin şəxsiyyət üzərində hökmranlığına mane olur.

DEMOKRATİYA

(yun. demos - xalq, kratos - hakimiyyət) - xalqın hakimiyyət mənbəyi kimi tanınmasına, onun dövlət işlərində iştirak etmək hüququ olmasına və vətəndaşlara geniş hüquq və azadlıqlar verilməsinə əsaslanan ictimai hakimiyyət, ictimai dövlət forması.

DEMOQRAFİYA

əhalinin artması, onun sıxlığı, hərəkəti, dünyanın müxtəlif regionlarında yerləşməsi, cinsi vəziyyəti, yaş və məşğuliyyəti haqqında elmdir.

DESPOTİZM

istibdad; qeyri-məhdud monarxiya; mütləq və qanunsuz hakimiyyət.

DÖVLƏT

cəmiyyətin siyasi sisteminin əsas təsisatı. Dövlət cəmiyyəti idarə edir, onu qoruyur, onun iqtisadi və sosial strukturlarına təminat verir.

İQTİSADİ İSLAHAT

mövcud iqtisadi münasibətlərin dəyişdirilməsinə yönəldilmiş islahatlar.

İMİC

(ing. image - obraz, təsvir) - adətən kütləvi informasiya vasitələrinin məqsədyönlü surətdə əşyalar və insanlar haqqında yaratdığı təsəvvür.

İMPİÇMENT

vəzifədən uzaqlaşdırmaq və hər hansı fəxri, rəsmi və ya gəlir gətirən vəzifə tutmaq hüququndan məhrum etmək.

İSLAM

(ərəb dilində - özünü Allaha təslim etmə, itaətetmə), və ya müsəlmanlıq - dünyada geniş yayılmış dinlərdən biri. Şəriət Quranda ifadə edilib. Əsas ehkamı təkallahlıqdır (Allah). İslamın qəbul edilməsi ərəb qəbilələrinin vahid dövlət hakimiyyəti altında birləşməsinə səbəb olmuşdu.

INSAN HAQQLARI

anadan olan gündən insana məxsus olan hüquq və azadlıqlar.

İNTEQRASİYA

yaxınlaşma, qarşılıqlı tə'sir, sıx əməkdaşlıq.

YERLİÇİLİK

daha ümumi maraqların zərərinə yerli maraqların təmin edilməsinə yönəlmiş fəaliyyət.

KATOLİSİZM

(yun. katholikos, lat. catholicismus - dünyəvi, ümumi) - xristianlığın üç əsas cərəyanlarından biri (pravoslavlıq və protestantizmlə yanaşı). Xristianlığın qəti olaraq katoliklərə və pravoslavlara (qərbi və şərqi xristianlığa) bölünməsi 1054-cü ildə baş verib. Əsas doqmaları ata-allahdan və oğul-allahdan "müqəddəs

ruhun" zühur etməsi, Roma papasının bütün dünya xristianlarının başında durmasıdır.

KOALİSİYA

(ing. coalition, lat. soalescere - ittifaq, birləşmə) - birgə fəaliyyət göstərmək üçün partiyalar və ya ictimai təşkilatlar tərəfindən əldə edilən razılıq, saziş.

KONSENSUS

(lat. consensus - razılıq, həmrəylik, yekdillik) - bu və ya digər məsələ üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq yaratmağa imkan verən oxşar hərəkət istiqamətlərinin mövcud olması.

KONSERVATİZM

(lat. conservare - qoruyub saxlamaq) - ictimai həyatın əsasını təşkil edən ənənələrin qorunmasına, dəyərlərin sarsılmazlığına, sabitliyə istiqamətlənmə.

KONSTİTUSİYA

(lat. constitutio - quruluş, təsisat) - dövlətin ali hüquqi qüvvəyə malik olan əsas qanunlar məcəlləsi.

KONFEDERASİYA

(lat. confoederatio - ittifaq, birlik) - müstəqil (suveren) dövlətlərin ümumi məqsədlərə (başlıca olaraq siyasi və ya hərbi) nail olmaq üçün yaratdıqları ittifaq.

KONFLİKT (münaqişə)

(lat. conflistus - toqquşma) - bir-birinə zidd olan qüvvələrin (mənafe, görüş və meyllərin) qarşıdurma şəraitində öz maraqlarını həyata keçirmək məqsədilə toqquşması.

KORRUPSİYA

(siyasət sahəsində) - vəzifəli şəxsin ona verilən huquq və imkanlardan şəxsən varlanmaq məqsədilə istifadə etməsindən ibarət cinayət əməli. Vəzifəli şəxslərin satqınlığı, pulla (rüşvətlə) ələ alınması da korrupsiya adlanır.

LEQİTİMLƏŞDİRİLMƏ

(lat. legitimus - qanuni) - hər hansı bir hərəkətin, şəxsin, hadisənin və faktın ictimaiyyət tərəfindən tanınması proseduru.

LİBERALİZM

Şəxsiyyətin qanun çərçivəsində hüquqlarının tanınmasına əsaslanaraq cəmiyyət qurulmasının intellektual və əxlaqi mexanizminin müəyyənləşdirilməsi.

MƏŞĞULLUQ SƏVİYYƏSİ

hal-hazırda işi ölan işçi qüvvəsinin say faizi.

MİLLİ GƏLİR

ölkə əhalisinin əmək haqqı, renta, faiz və mənfəət formasında əldə etdiyi gəlirin ümumi məbləği, yenidən yaranmış dəyəri.

MİLLİ ŞÜUR (özünü dərketmə)

milli-etnik birliyin üzvlərinin öz tarixi, müasir vəziyyəti və gələcək inkişafı haqqında təsəvvürləri.

MİLLƏT

(lat. natio - tayfa, xalq) - müəyyən psixologiya və şüura malik olan insanların tarixən yaranmış, sosial-iqtisadi və mənəvi birliyi. Dövləti təşkil edən vətəndaşların sosial cəmiyyəti.

MİLLƏTÇİLİK

bir millətin digər millətləri özünə tabe etmək siyasəti, ideologiyası, sosial təcrübəsi və dünyagörüşü.

MONARXİYA

(yun. monarchia - təkhakimiyyətiilik) - ali hakimiyyətin bir adamın - padşahın əlində cəmləşdiyi hakimiyyət forması. Hakimiyyət nəslən keçir.

MÜLKİYYƏT

mülkiyyətə sahib olmağın, ondan istifadə etmək və onu sərf etməyin təşkilati və sosial formalarını xarakterizə edən iqtisadi və hüquqi münasibətlər sistemini ifadə etmək üçün istifadə olunan kateqoriya.

MÜNASİBƏTLƏR

a) iqtisadi münasibətlər - istehsal, maddi və mənəvi nemətlərin bölgüsü və mübadiləsi prosesində yaranan münasibətlər. Bu halda istehsal vasitələri üzərində mülkiyyətə dair münasibətlər əsasdır;

b) sosial münasibətlər insanlar və insan birlikləri arasında onların cəmiyyətdə əsl mövqelərinə, əsasən, onların başqaları ilə bərabərliyinə (və ya qeyri-bərabərliyinə) əsaslanan münasibətlər;

c) siyasi münasibətlər - insanlar, millətlər və sosial qruplar arasında hakimiyyətlə əlaqədar, yəni dövlət hakimiyyətini ələ keçirmək, əldə saxlamaq və ondan istifadə etməyə dair münasibətlər.

MÜXALİFƏT (oppozisiya)

(lat. orrositio - qarşı qoyma) - qanunverici orqanlarda, partiya strukturlarında və s.-də əksəriyyətin, və ya hakim əksəriyyətin fikrinə, və ya hakim mövqeyə qarşı çıxış etmək.

NOMENKLATURA

hakim sinif, istehsal vasitələri üzərində kollektiv sahiblik, cəmiyyətdə öz diktaturasını tətbiq edən istismarçılar sinfi.

OLİQARXİYA

(yun. oligos - bəziləri, arche - hakimiyyət) - bir ovuc adamın hakimiyyəti. Siyasi hakimiyyətin sayca məhdud bir qrup adama (cəmiyyətin nüfuzlu adamlarına, hərbçilərə və s.) məxsus olduğu rejim.

OXLOKRATİYA

(yun. ochlos - kütlə, kratos - hakimiyyət) - kütlə hakimiyyəti.

1) Kütlənin hökmranlıq etdiyi üsyan, qarışıqlıq və talanlar;

2) populist əhval-ruhiyyəyə əsaslanan ictimai-siyasi qrupun hakimiyyəti.

ÖZƏLLƏŞDİRMƏ

(lat. rrivatus - şəxsi) dövlət əmlakının müəyyən hissəsinin şəxsi mülkiyyətə verilməsi və ya satılması.

PARLAMENT

(rarler - danışmaq) əhalinin əsas siyasi qruplarının nümayəndəliyini həyata keçirən seçkili Ali qanunvericilik orqanı.

PARLAMENT PARTİYASI

öz fəaliyyətlərini parlament işinə istiqamətləndirən partiyalar (parlament vasitəsilə).

PARLAMENT RESPUBLİKASI

Konstitusiyaya əsasən ölkənin Ali hakimiyyətinin parlamentə məxsus olduğu respublika dövləti.

PARTOKRATİYA

Siyasi hakimiyyətin bilavasitə partiya aparatı tərəfindən həyata keçirilməsi.

PASİFİZM

(lat. racificus - sakitləşdirici, barışdırıcı) - XX əsrin ikinci yarısında yaranmış müharibə əleyhinə beynəlxalq hərəkat. Bu hərəkatın üzvləri hər cür müharibəyə qarşı çıxış edir.

PLEBİSTİT

(lat. rlebs - sadə xalq və scitum - qərar) - ümumxalq səsverməsi.

PLÜRALİZM

əsas siyasi partiyalar və təşkilatların qarşılıqlı əlaqələrinə əsaslanan hakimiyyət sistemi.

POPULİZM

(lat. rorulus - xalq, xalqın hüquqları və maraqları uğrunda mübarizə) - əsassız vədlər vermək yolu ilə kütlələr arasında hörmət qazanmağa istiqamətlənmiş fəaliyyət.

PRAVOSLAVLIQ

Xristianlıqda əsas istiqamətlərdən biri. 395-ci ildə Roma imperiyasının parçalanması ilə (Qərbi və Şərqi) meydana çıxmışdır. Pravoslavlığın əsasları Bizansda 9-11-ci əsrlərdə müəyyənləşmişdir. Müstəqil kilsə kimi 1054-cü ildə təşəkkül tapmışdır. Pravoslavlığa görə xristianlar müqəddəs üç uqnumun (üç sifət) vəhdətində təzahür edən vahid Allaha etiqad etməlidirlər.

PREZİDENT RESPUBLİKASI

Konstitusiyaya əsasən ali hakimiyyətin prezidentə məxsus olduğu respublika idarəetmə forması. Prezident ümumxalq səsverməsi yolu ilə, eləcə də parlament tərəfindən seçilə bilər; seçiləndən sonra böyük siyasi müstəqillik qazanır.

PREZİDENT HAKİMİYYƏTİ

Özünüidarə təsisatlarının fəaliyyətinin Konstitusiyada nəzərdə tutulduğu qaydada dayandırılması; Prezidentin təyin etdiyi müvəkkillərin vasitəsilə idarəetmə.

PROTEKSİONİZM

himayəçilik; milli iqtisadiyyatı müdafiə etmək məqsədilə xarici ölkələrdən gətirilən malların məhdudlaşdırılması və onlara yüksək gömrük haqqı qoyulmasını nəzərdə tutan dövlət siyasəti.

PROTESTANTİZM

(lat. rrotestatio - bəyan etmə, təntənəli surətdə elan etmə) - xristianlıqda üç əsas məsləkdən biri. XVI əsrdə geniş antikatolik hərəkatı (Reformasiya) nəticəsində meydana çıxmışdır.

RADİKALİZM

(lat. radix - kök) - siyasətdə qəfi tədbirlərin tətbiq edilməsi və sərt addımların atılması.

RASİZM (irqçilik)

Xalqları "ali" və "aşağı" siniflərə bölən, bir irqi başqa irqdən üstün tutan nəzəriyyələr sistemi.

REYTİNQ

(ing. rating - 1) qiymət; 2) rütbə) - təşkilatın və ya şəxsiyyətin sosioloji sorğular, anketlərin doldurulması yoiu ilə fəafiyyət səviyyəsinin müəyyən olunmuş göstəricisi.

RESPUBLİKA

(lat. resrublica - dövlət işləri, siyasət) - bütün əhalinin və ya onun böyük əksəriyyətinin ölkənin idarəedilməsində iştirak etmək hüququna malik olduğu hakimiyyət forması.

REFERENDUM

(lat referendum - bəyan olunmalı şey) - mühühı dövlət məsələsinə və ya ictimai bir problemə dair ümumxalq iradəsinin bildirilməsi (ya seçkilər, ya da sorğu yolu ilə).

REFORMASİYA

(lat. reformatio - şəklini dəyişmə, islahat) - Qərbi və Mərkəzi Avropada XVI əsrdə katolik kilsəsinə qarşı mübarizə formasında meydana çıxan geniş ictimai hərəkat. Almaniyada M. Lüterin çıxışları ilə başlamışdır. Reformasiyanın ideoloqlarının irəli sürdükləri tezislər faktiki olaraq katolisizmi rədd edir.

SAHİBKAR

gəlir götürmək məqsədilə yeni texnologiyaların və cəmiyyətin tələbatını ödəyə bilmək üçün vasitələrin axtarışı ilə baglı olan iqtisadi prosesin iştirakçısı.

SEQREQASİYA

(ayrılma) - insanları irqi ve milli mənsubiyyətlərinə görə zorla ayırmaq və onların hüquqlarını məhdudlaşdırmaq siyasəti.

SEPARATİZM

(lat. seraratus - ayrı) - azlıqda qalan millətlərin, yaxud bir əyalətin müstəqil dövlət qurmaq və ya muxtariyyət əldə etmək məqsədilə ayrılmağa çalışması.

SEÇKİ SİSTEMİ

dövlətin nümayəndəli, məhkəmə və icra orqanlarının formalaşdırılmasında cəmiyyətin iştirakını təmin edən qanunların məcmusu.

SİVİLİZASİYA

(lat. civilis - vətəndaş, dövlət) - 1) ictimai inkişafın mərhələsi, səviyyəsi; 2) cəmiyyətin barbarlıqdan sonrakı inkişaf mərhələsi (L.Morqan, F. Engels).

SİYASİ ELİTA

cəmiyyətin bilavasitə siyasi rəhbərliyi həyata keçirən, dövlət idarəetməsinin sükanı arxasında duran hissəsi.

SİYASİ REJİM

dövlət hakimiyyətinin həyata keçirdiyi həmin dövlət tipinə xas olan siyasi münasibətlərin, vasitə və metodların məcmusu. Demokratik, avtoritar, totalitar və s. rejimlər mövcuddur.

SİYASİ SİSTEM

dövlət orqanları, siyasi və ictimai orqanlar, təşkilatlar və idarələrin məcmusu. Onun köməyi ilə siyasətin subyekti cəmiyyətdə öz siyasətini həyata keçirir.

SOSİAL STRATİFİKASİYA

sosial təbəqələşməni göstərən öüsusiyyətlərin sistemi.

SOSİAL STRUKTUR (quruluş)

bir-biri ilə qarşılıqlı əlaqədar olan və bir-birinə qarşılıqlı təsir göstərən birliklərin məcmusu və bu birliklər arasındakı münasibətlər.

SUVERENLİK

hər cür qüvvədən, şəraitdən və ya şəxsdən asılı olmayan müstəqillik hüququ.

TOTALİTARİZM

(lat. totalitas – tamlıq, çütövlük) – həyatın bütün sahələri üzərində tam nəzarət tətbiq edən dövlət quruluşu.

FAŞİZM

(lat. fasio – dəstə, birlik) – antidemokratik meyilli ən mürtəce siyasi cərəyan.

FEDERASİYA

(lat. foederatio – ittifaq, birlik) – ayrı-ayrı müstəqil dövlətlərin ittifaqından yaranmış yeni bir dövlət. Federasiyaya daxil olan dövlətlər federasiyanın subyekti olmaqla, öz hüquqlarının bir hissəsini özlərində saxlayırlar.

FÖVQƏLADƏ VƏZİYYƏT

Xüsusi hüquqi dövlət rejimi. Demokratik dövlətlərin Konstitusiyasına görə hərbi müdaxilə, dövlət çevrilişi cəhdi, siyasi böhranlar, təbii fəlakətlər və epidemiyalar dövründə bütün ölkədə və ya ayrı-ayrı bölgələrdə elan edilir.

FRAKSİYA

(lat. fractio - xırdalama, parçalama) - 1) Pariamentdə və digər dövlət orqanlarında və ictimai təşkilatlarda öz partiyalarının siyasi göstərişlərini həyata keçirən bir qrup partiya üzvü; 2) Hər hansı bir partiya daxilində öz ideyaları və təşkilat platforması olan mütəşəkkil dəstə.

FUTUROLOĞİYA

(lat. futurum – gələcək və yun. – nəzəriyyə) - siyasi və sosial proseslərin perspektivinin proqnozlaşdırılması.

HAKİMİYYƏT

insanların və sosial qrupların fəaliyyət və davranışlarının xarakteri və istiqamətlərinə tə'sir göstərə bilməklə xarakterizə olunan sosial münasibətlər forması. Öz iradəsini həyata keçirə bilmək qabiliyyəti.

HAKİMİYYƏT SƏLAHİYYƏTLƏRİNİN TAPŞIRILMASI

(lat. dilində delegare - göndərmək, tapşırmaq) - xalqın öz hakimiyyət səlahiyyətlərini öz nümayəndələrinə verməsi.

HƏYAT SƏVİYYƏSİ

cəmiyyətdə maddi istehlak səviyyəsini xarakterizə edən göstəricilərin məcmusu.

HİNDUİZM

etiqad edənlərin sayına görə dünyanın ən böyük dinlərindən biri (hinduizm tərəfdarlarının 95%-ə qədəri Hindistandadır) Ölümdən sonra ruhların köçərək canlı varlıqlarda təcəssüm tapması (sansara), insanların xeyirxah və şər əməllərinə görə əvəz (və ya cəza) almaları (karma), əsas Allahlara sitiyaş edilməsi (Vişnu və Şiva) Hinduizmin başlıca xüsusiyyətləridir. Heyvanlar, çaylar, bitkilər də sitayiş obyektləridir.

HÖKUMƏT

dövlətdə və ya onun muxtar vahidlərində bütün hakimiyyəti həyata keçirən icra hakimiyyəti orqanı. Sivil ölkələrdə səlahiyyətlər mövcud qanunvericiliklə müəyyənləşdirilir.

HÜQUQ

cəmiyyətdə münasibətləri, insanların hərəkətlərini və davranışlarını, müxtəlif birliklərin və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ sistem.

HÜQUQİ DÖVLƏT

elə bir dövlət tipidir ki, orada konstitusion idarəetmə rejimi fəaliyyət göstərir, ölkədə inkişaf etmiş hüquq sistemi və effektiv məhkəmə hakimiyyəti mövcuddur.

XARİZMA

(yun. charisma - firəvanlıq, allahın verdiyi nemət)-

1) hakimiyyətin xüsusi keyfiyyətlərinə xüsusi xarakterli inam;
2) fövqəladə istedad, cazibədarlıq.

XUNTA

(isp. yunta - toplanış, birlik) - Hərbi çevriliş dövründə müvəqqəti hökumət funksiyasını yerinə yetirən yüksək vəzifəli hərbçilərin (komandanların) birliyk

EQAÜTARİZM

(fr. egalite - bərabərlik) - cəmiyyətdə bərabəriiyin vacib olması ideyasını təbliğ edən ictimai nəzəriyyə.

EKSTREMİZM

(lat. extremus - ifrat, son dərəcə) - siyasətdə və ideyalarda ifrat tədbirlərə və baxışlara meyl.

ETATİZASİYA

(fr. etat - dövlət) - cəmiyyətm həyatının bütün sahələrində, xüsusilə iqtisadiyyatda dövlətin, onun idarələrinin rolunun gücləndirilməsi.

İSTİFADƏ EDİİLMİŞ ƏDƏBİYYAT

1. Aristotel. Politika. Bakı, BDU-nun nəşriyyatı, 1997.
2. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan dilində. Bakı. Qanun, 1999.
3. Azərbaycan Respublikası Konstitusiyası. Bakı. Qanun, 2009.
4. Abdullayeva Ş., Ultmelidze J., Əliyeva A., Cahangirov V., Vəkirov Y., Veysova Z., Əmirov M. Insan hüquqlarının tədrisi. Metodik vəsait. Bakı, Çaşoğlu, 2003.
5. Dovletşina N.V, Kimlika B.B., Klark R.C., Rey D.U. Demokratiya: dövlət və cəmiyyət. Bakı. Səda, 1999.
6. Əmirov M.M. Pedaqoji Universitet və institutlarda bakalavr hazırlığı üçün "İnsan və cəmiyyət" fənni üzrə proqram. Bakı, ADPU-nun nəşri, 2006.
7. Əmirov M.M. Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi. Bakı, Mütərcim, 2004.
8. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı. Elm, 1989.
9. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab (iyun 1993 - may, 1994), Bakı, "Azərnəşr", 1997, 612 səh. Kitabın buraxılışına məsul - R.Mehdiyev, H.Orucov.
10. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. II kitab (may 1994), Bakı, "Azərnəşr", 1997, 604 səh.
11. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. III kitab (dekabr 1994, iyun 1995), Bakı, "Azərnəşr", 1997, 488 səh.
12. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. IV kitab (iyun 1995, noyabr 1995), Bakı, "Azərnəşr", 1997, 528 səh.
13. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. V kitab (noyabr 1995, mart 1996), Bakı, "Azərnəşr", 1998, 500 səh.
14. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. VI kitab (mart 1996, iyun 1996), Bakı, "Azərnəşr", 1998, 512 səh.
15. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. VII kitab (iyun 1996, noyabr 1996), Bakı, "Azərnəşr", 1998, 520 səh.

16. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. VIII kitab (noyabr 1996, mart 1997), Bakı, "Azərnəşr", 1998, 488 səh.
17. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. IX kitab (mart 1997, may 1997), Bakı, "Azərnəşr", 2000, 464 səh.
18. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. X kitab (may 1997, iyul 1997), Bakı, "Azərnəşr", 2002, 472 səh.
19. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, I kitab, Bakı, "Azərbaycan", 1997, 237 səh.
20. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, II kitab, Bakı, "Azərbaycan", 1997, 262 səh.
21. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, IV kitab, Bakı, "Azərbaycan", 1997, 478 səh.
22. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, V kitab, Bakı, "Azərbaycan", 1997, 327 səh.
23. Əkbərov B. Heydər Əliyev milli konstitusiyamızın yaradıcısı və banisidir. Bakı, "Azərbaycan Ensiklopediyası", 1998,96 səh.
24. Əliyev H.Ə. Azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 2002, 232 səh.
25. Heydər Əliyevin yeni neft strategiyası. Heydar Aliyevs new oil strateqy, 2001, 191 səh.
26. Heydər Əliyev və bələdiyyələr. Bakı, ABU nəşriyyatı, 2002, 55 səh. Kitabın tərtibçiləri - E.Abdullayev və V.Tofiqli, məsləhətçilər Z.Qaralov.
27. Heydər Əliyev iqtisadi idarəetmə məktəbi. Bakı, "Əbilov və Zeynalov qardaşları", 2001, 185 səh.
Buraxılışa məsul - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Baş Referenti - Q.M.Əliyev, elmi redaktorlar - akademik A.A.Nadirov, i.e.n., dos. M.M.Sadıqov. Ön sözün müəllifi Milli Məclisin üzvü, akademik, (A.A.Nadirov)Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, Heydər Əliyev İqtisadi idarəetmə Məktəbinin Elmi Məsləhət şurasının üzvü - Əli Abbasov.
28. Həsənov Ə. Azərbaycan və ATƏT Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi Ümumavropa təhlükəsizliyi fonunda. Bakı, "İşıq", 1997, 78 səh.

29. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərbaycan", 1998, 315 səh.
Ön sözün müəllifi - Y.Mahmudov, kitaba rəy verən və redaktor - Ə.Mehdiyev.
30. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), Bakı, "Elm", 2000, 368 səh.
Elmi redakto - Ə.Mehdiyev, rəyçilər S.Qəndilov, Y.Mahmudlu.
31. Harun Yəhya. Qlobal Masonluq. Bakı, 2005.
32. Hüseynov Q., Əliyev M., İmanov A. Politologiya, ali məktəblər üçün dərslik. Bakı, BDU-nun nəşriyyatı, 1998.
33. Hüquq ensiklopedik lüğəti. Bakı, Azərbaycan Ensiklopediyasının Baş redaksiyası, 1991.
34. Xroponyuk B.N. Dövlət və hüquq nəzəriyyəsi. Bakı, Sabah, 2006
35. İncil. Bibliya Tərcümə İnstitutu, Stokholm, 1991.
36. İnsan və cəmiyyət. Orta məktəbin VIII-IX-X-XI sinifləri üçün dərsliklər. Bakı, Təhsil, 2005.
37. İsmayılov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. Bakı, Qanun, 1999.
38. İsmayılov İ.İ. Azərbaycan Respublikası Konstitusiyası və hüququnun əsasları. Bakı, Qanun, 2002.
39. İsmayılov İ.İ., Əmirov M.M. Azərbaycan Respublikası Konstitusiyasının Əsasları.IX siniflər üçün dərslik, Bakı, Təhsil, 2005.
40. Qurani – Kərim. Bakı, Çıraq, 2005.
41. Qabusnamə. Bakı, Azərnəşr, 1989.
42. Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı, Elm, 1980.
43. Platon. Dövlət. Bakı, Təbib nəşriyyatı, 1999.
44. Sosiologoya. Dərs vəsaiti. Bakı, Sabah, 1999.
45. Uşaq hüquqları və onların tədrisi. Təlim vəsaiti. Bakı, Qızıl Şərq mətbəəsi, 2002.
46. Marçenko M. Politilogiya. Moskva, 1999.

MÜNDƏRİCAT

ÖN SÖZ 4

I FƏSİL. İNSAN TƏBIƏTIN ÖVLADI, CƏMIYYƏTIN ÜZVÜDÜR
1. İnsan və cəmiyyət fənninin predmeti, məqsədi və vəzifələri 8
2. İnsanın mənşəyi haqqında fikir müxtəlifliyi..... 9
3. İnsanın mahiyyəti 21
4. İnsanda biolojilik və sosiallığın vəhdəti. Təhtəlşüur və şüurluluq..... 24
5. İnsan, fərd, fərdiyyət və şəxsiyyət..... 31
6. Materialist dünyagörüşü və onun mahiyyəti. Mütləq maddə inancı..... 40
7. Materialistlər ruhu və axirəti inkar edirlər..... 42
8. Ruhu inkarın elmi ziddiyyəti..... 43
9. Maddənin ilahiləşdirilməsi..... 44
10. İnsan həyatının yaş mərhələləri..... 46
11. İnsan tələbatları və istəkləri 50
12. Zaman və səmərəli həyat 53
13. Həyatda uğur qazanmağın yolları. Ünsiyyət 57
14. İnsan və təbiət 64

II FƏSİL. İNSAN INSANLAR ARASINDA
1. Cəmiyyətin mahiyyəti və cəmiyyət həyatı, cəmiyyət həyatının dəyişməsi..... 73
2. Elm, onun cəmiyyətdə rolu və funksiyaları. Elmin inkişaf qanunauyğunluqları..... 79
3. Münaqişələr və onların həlli..... 85
4. Dövlətlər və sivilizasiyalararası münaqişələr..... 89
5. Qaçqınlar və məcburi köçkünlər 95
6. Sülh. Sülh mədəniyyəti 99
7. Dini dözümlülük..... 103

III FƏSİL. ƏXLAQ
1. Əxlaq..... 108
2. Ətraf aləm və xoşbəxtlik 112
3. Əxlaqın insan həyatında rolu..... 115
4. İnsanın təbiəti: doğruluq, dürüstlük, sadəlik, təvazökarlıq, alıcənablıq və mərhəmətlilik 118

IV FƏSİL. SIYASƏT, ONUN ICRAÇILARI VƏ YARADICILARI

1. Siyasi hakimiyyət anlayışı, hakimiyyət bölgüsü, hakimiyyət formaları, siyasi rejimlər, hakimiyyətin legitimliyi 129
2. Siyasi lider və liderlik, siyasi partiyalar 134
3. Lobbiçilik 139
4. Dövlətin meydana gəlməsi, dövlətin əlamətləri, dövlətin mahiyyəti və sosial təyinatı. Dövlət anlayışının tərifi 140
6. Hüquqi dövlətin səciyyəvi xüsusiyyətləri. Dövlətin tipləri, idarəçilik formaları, dövlət quruluşu forması, dövlət rejimi formaları 154

V FƏSİL. İNSAN VƏ VƏTƏNDAŞ

1. Vətəndaş və vətəndaşlıq 190
2. Azərbaycan Respublikasının vətəndaşlığı 193
3. Vətəndaş və cəmiyyət 197
4. Vətəndaşın cəmiyyət həyatında iştirakının müxtəlifliyi 201
5. Vətəndaş cəmiyyəti 204

VI FƏSİL. İNSAN VƏ İQTİSADİ HƏYAT

1. İnsan tələbatı iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi. Təsərrüfat və mülkiyyət 211
2. Bank kredit sistemi 224
3. Biznes və sahibkarlıq. Dövlət və iqtisadiyyat. 230
4. Sığorta 245

VII FƏSİL. İNSAN INKIŞAFI

1. İnsan inkişafı haqqında ümumi anlayış 249
2. İstehlak mədəniyyəti insan inkişafı amili kimi 250
3. İnsan inkişafının qiymətləndirilməsi. İnsan inkişafında gender problemi. İnsan inkişafına mane olan amillər 253
4. İnsan inkişafında sağlamlıq göstəriciləri 254
5. İnsan inkişafında təhsil göstəriciləri. Savadsızlıqla funksional savadsızlığın fərqi 256
6. İnsan inkişafında iqtisadi göstəricilər 257
7. İnsan inkişafının qiymətləndirilməsi 258
8. İnsan inkişafinda gender amili. Gender nə deməkdir 259
9. Gender inkişafı göstəricisi. Gender sahəsində imkanların genişləndirilməsi 260
10. Gender bərabərliyi istiqamətində beynəlxalq təşəbbüslər. Azərbaycanda gender bərabərliyi sahəsində fəaliyyət 262
11. İnsan inkişafına mane olan amillər: yoxsulluq. Yoxsulluq insan inkişafı baxımından. Yoxsulluğu yaradan amillər. Yoxsulluğun qeyri - iqtisadi amilləri 263

12.Yoxsulluğun qiymətləndirilməsi. Yoxsulluğun qiymətləndirilməsində iqtisadi, səhiyyə və təhsil göstəriciləri. Yoxsulluğun inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qiymətləndirilməsi 265
13. Azərbaycanda yoxsulluqla mübarizə proqramı 269

VIII FƏSİL. İNSAN VƏ VƏTƏNDAŞIN HÜQUQ VƏ AZADLIQLARI

1. İnsan ləyaqətinin müdafiəsi üzrə müxtəlif sistemlər. İnsan və vətəndaş hüquqları anlayışı. İnsan hüquqlarının inkişafi tarixi 270
2. Hüquq bərabərliyi və ayrıseçkilik. Azərbaycanda insan və vətəndaşın hüquqları və azadlıqları. Analıq və qadın problemləri 284
3. Uşaq Hüquqları Konvensiyası..... 295
4. Sosial və iqtisadi hüquqlar. Təhsil hüququ. Seçki hüququ..... 331
5. Söz, fikir və vicdan azadlığı. Vətəndaşların vəzifə və məsuliyyətləri. İnsanın hüquq mədəniyyəti..... 342

IX FƏSİL. HÜQUQ VƏ DÖVLƏT

1. Konstitusiya quruluşu. İnsan hüquqlarının qorunmasında dövlətin rolu. Ombudsman 353
2. İnsan hüquqlarının müdafiəsi üzrə əsas Beynəlxalq İnstitutlar. İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlər 368
3. Silahlı münaqişə qurbanlarının həyat və ləyaqətinin müdafiəsi. Əsas hüquqi sənədlər. 375
Demokratik cəmiyyətdə insan hüquqlarının qorunması 382

X FƏSİL. QANUN VƏ DÖVLƏT

1. Qanun hüququn ifadə formasıdır. Konstitusiya ali qanundur. Milli Məclis qanunverici orqandır. Qanunvericilik prosesi..... 388
2. İcraedici hakimiyyət 405
3. Məhkəmə hakimiyyəti..... 412
4.Yerli özünüidarəetmə orqanları 417

XI FƏSİL. DEMOKRATIYA VƏ CƏMIYYƏT

1. Demokratik cəmiyyətdə plüralizm, ideologiya və tolerantlıq 422
2. Demokratik cəmiyyətdə steriotiplərə qarşı mübarizə 433

XII FƏSİL. DEMOKRATIK CƏMIYYƏTDƏ SEÇKILƏR.

1. Azərbaycan Respublikasında seçki hüququnun təminatı 439
2. Referendum ümumxalq səsverməsidir 445
3. Bələdiyyə seçkiləri 449

XIII FƏSİL. CƏMIYYƏTIN MƏNƏVI HƏYATI
1. Mənəvi həyat, cəmiyyət, davamlı insan inkişafı və sosial məsuliyyətli siyasət 452
2. İncəsənət. Bədii ədəbiyyat və din 459
3. Atropatena mədəniyyəti. İslam mədəniyyəti 470
4. Etik tərbiyə. Əxlaq – azadlığın şürlu surətdə məhdudlaşdırılmasıdır. Həzrəti-Əli(ə)-ın ağıl və bilik haqqında kəlamları 487
5. Əxlaq normaları və mənəvi dəyərlər. Mədəniyyət və cəmiyyət. Insanın siyasi mədəniyyəti 496
6. Müasir Azərbaycanın mədəni həyatı 512

XIV FƏSİL. BƏŞƏRIYYƏTIN QLOBAL PROBLEMLƏRI
1. Nüvə silahlarının yayılması. Müharibə və qlobal problemlər 516
2. Sülh quruculuğu və münaqişələrin həlli problemləri 525
3. Əhali artımı və sağlam ətraf mühit problrmləri 530
4. Energetika ekologiya problemləri. Azərbaycanın neft strategiyası 540
5. Terrorizm və QİÇS-lə mübarizə problemləri 546
Mədəni insanın düsturu 555
"İnsan və cəmiyyət" fənni üzrə proqram materialının təxmini bölgüsü 558
TERMİNLƏR LÜĞƏTİ 559
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT 572

MÜBARİZ ƏMİROV

İNSAN VƏ CƏMİYYƏT
(Ali məktəblər üçün dərs vəsaiti)

Kompüter dizaynı: ***Bakıxanova İlahə Abdulağa qızı***



Ploton

Aristotel

Tusi

Əmirov Mübariz Mirəziz oğlu 1947-ci ildə Dəvəçi rayonunda ziyalı ailəsində anadan olub. 1973-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. 1975-1978-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun əyani aspiranturasında oxuyub. 1979-cu ildən 1985-ci ilədək həmin institutda kiçik elmi işçi işləyib. 1985-ci ildə Tbilisi şəhərində namizədlik dissertasiyası müdafiə edib. 1987-1999-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda tarix və coğrafiyanın tədrisi metodikası şöbəsinin müdiri, eyni zamanda 1987-ci ildən hal-hazıra qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin türk, Şərqi Avropa və tarixin tədrisi metodikası kafedrasında dosent vəzifəsini tutub. M.Əmirovun rəhbərliyi ilə 5 nəfər pedaqoji elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. Onun həmmüəllifliyi ilə çoxsaylı proqram və dərsliklər hazırlanıb. O, "İnsan hüquqları", "Azərbaycan Respublikasının Konstitusiyası", "İnsan və cəmiyyət" fənnləri üzrə dərsliklərin müəlliflərindən biridir. M.Əmirov 3 monoqrafiyanın, bir metodik vəsaitin, 100-dən çox məqalənin, 20 proqramın müəllifidir. 2008-ci ildə Bakı şəhərində "Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Bəhmənyar



Demokrit

İbn Sina